ÖYRƏN - ÖYRƏT

YARADICININ DƏLİLLƏRİ

KİMYA, FİZİKA və METAFİZİKA

"Sizi ilk dəfə yaratdığımız kimi Bizə tək olaraq gəldiniz. Sizə xəyal kimi göstərdiyimiz şeyləri ardınızda buraxdınız. Sizin yanınızda ortaq olduqlarını iddia etdiyiniz vasitəçilərinizi görmürük. Aranızdakı bağlar kəsilmişdir. İddia etdiklərinizi sizi tərk etmişdir." (Ənam, 94)

Kitab silsiləsi - 6

https://archive.org/details/@oyrenoyret2021

GİRİŞ

NECƏ BİR DÜNYADA YAŞAYIRSINIZ?

Sərt bir yerin üzərində uzanan, içində insanların, ağacların, dənizlərin və ya binaların olduğu, üzərində buludların gəzişdiyi, daha yuxarıda nəhəng bir kosmos boşluğunun uzandığı bir dünyadırmı bura?

Siz də bu dünyanın içindəki milyardlarla insandan birisinizmi?

Əgər bu suallara "bəli" deyə cavabı versəniz yanılmış olarsınız.

Əgər bu suallara "bəli" cavabı verirsinizsə, sizin üçün çox əhəmiyyətli olan bir həqiqəti bəlkə həyatınız boyunca görməzlikdən gəlmisiniz deməkdir.

Çünki siz yuxarıda təsvir edildiyi kimi bir dünyada yaşamırsınız. Əslində dünyanız çox daha kiçikdir. Bu dünyanın içində, nəinki milyardlarla kilometrlik məsafələr, ya da işıq ili uzaqlığındakı qalaktikalar, həmçinin bir neçə metrlik məsafə belə yoxdur. Siz əslində çox kiçik və qapalı bir məkanda yaşayırsınız: nəhəng bir qüllənin təpəsindəki kiçik, qapısı möhürlənmiş bir otaqda. Bu otaqdan həyatınız boyunca heç çıxmadınız. Bu otağı tərk edib heç bir yerə gedə bilmədiniz. Sadəcə, otağın divarlarına əks etdirilən müxtəlif formalı, insanlar, məkanlar gördünüz. Otağının içindəki gizli spikerlərdən çıxan səsləri eşitdiniz. Əslində qüllənin təpəsindəki bu kiçik otaqda sizdən başqa heç kim yoxdur. Tək-tənhasınız!

Bəhs etdiyimiz qüllə sizin bədəniniz, bu qüllənin təpəsindəki kiçik otaq (yəni sizin dünyanız) isə beyninizdir.

Beyniniz, sizin üçün heç bir zaman çıxa bilmədiyiniz bağlı bir otaqdır; çünki sizin əslini gördüyünüzü zənn etdiyiniz hər şey, əslində beyninizin görmə, eşitmə və ya toxunma mərkəzlərində hiss etdiyiniz qavrayışlardan

ibarətdir. Heç bir zaman qavrayışlarınızı aşıb "həqiqi maddə"yə, çöldə var olan maddənin əsli ilə təmasda ola bilməzsiniz. Beyninizin görmə mərkəzinə gələn elektrik siqnallarını seyr edər, heç bir zaman bu siqnalların həqiqi qaynağını görə bilməzsiniz. Sanki, bağlı otağınızın divarındakı kino pərdəsini seyr edərsiniz, amma heç bir zaman pərdə üzərindəki şəkillərin əsli ilə təmasda ola bilməzsiniz.

Otağınızın pəncərəsindən çöldəki mənzərəyə tamaşa etdikdə həyatınız boyu aldığınız təlqinə əsasən, bu mənzərəni gözlərinizlə gördüyünüzü düşünürsünüz. Əslində isə, həqiqət belə deyil. Çünki siz gözlərinizlə çöldəki mənzərəni görmürsünüz. Siz beyninizin içində əmələ gələn mənzərəyə aid görüntünü görürsünüz. Bu, hər hansı bir təxmin və ya fəlsəfə deyil, elmi həqiqətdir.

Görmə hadisəsinin necə baş verdiyini xatırladıqda bu mövzu daha aydın başa düşüləcəkdir. Gözün vəzifəsi sadəcə ona gələn işığı tor qişasındakı hüceyrələr vasitəsilə elektrik siqnalına çevirməkdir. Bu elektrik siqnalı isə beyninizdəki görmə mərkəzinə ötürülür. Daha sonra bu elektrik siqnalları pəncərənizdən gördüyünüz mənzərənin görüntüsünü əmələ gətirirlər. Nəticə etibarilə, görüntünün əmələ gəldiyi yer beyninizdir və siz evinizdən çöldəki mənzərəni deyil, beyninizin içindəki mənzərəni görürsünüz.



Aşağıdakı rəsmdə pəncərədən baxan insanın gözünə çöldən işıq düşür. Bu işıq gözdəki hüceyrələr tərəfindən elektrik siqnalına çevrilərək bu insanın beyninin arxa tərəfində yerləşən kiçik görmə mərkəzinə gəlir və bu elektrik siqnalları beyində mənzərə görüntüsünü əmələ gətirir. Əslində, beynimizin içini aça bilsək, burada mənzərəyə aid görüntü tapa bilmərik. Ancaq beynimizin içindəki şüur beyinə gələn elektrik siqnallarını mənzərə kimi qavrayır. Elə isə beyinin içində gözü, göz hüceyrələri, tor qişası olmadan elektrik siqnallarını qavrayan şüur nədir, kimə aiddir?

Eyni vəziyyət hal-hazırda oxuduğunuz kitaba da aiddir. Gözlərinizə gələn işığın elektrik siqnallarına çevrilərək beyninizə çatması nəticəsində beyninizdə bu kitabın görüntüsü əmələ gəlir. Yəni kitab hal-hazırda sizdən xaricdə deyil, içinizdə, beyninizin arxa tərəfindəki görmə mərkəzindədir. Bəlkə kitabın bərkliyini əlinizlə hiss etdiyiniz üçün kitabı

özünüzdən xaricdə zənn edirsiniz. Ancaq bu bərklik hissi də eynilə görmə hissində olduğu kimi, beyninizdə meydana gəlir. Barmaq uclarınızdakı sinirlər oyandırıldıqda bu xəbərdarlıq elektrik siqnalına çevrilərək bu dəfə beyninizdəki toxunma mərkəzinə çatdırılır və siz beyninizdə kitaba toxunduğunuza və onun bərkliyini, səhifələrinin sürüşkənliyini, cildindəki qabarıqlığı, kağız kənarlarının sivriliyini qavradığınıza dair hisslərə malik olursunuz.

Əslində isə, heç bir zaman bu kitabın əslinə çata bilməzsiniz. Toxunduğunuzu hesab etdikdə, əslində, beyninizin içindəki toxunma hissini qavrayırsınız. Bu kitab maddə kimi sizin beyninizdən kənarda var, ancaq siz sadəcə beyninizdə əmələ gələn kitab görüntüsü ilə təmasda ola bilirsiniz. Bu kitabın yazıçı tərəfindən yazıldığı, kompyuterdə səhifə quruluşunun düzüldüyü və ya bir mətbəədə çap edildiyi sizi yanıltmasın. Çünki bir azdan izah ediləcək məlumatlar bu kitabın ərsəyə gəlməsinin hər mərhələsində əməyi olan insanların, mətbəənin, kompyuterlərin də heç vaxt əslini bilməyəcəyinizi sizə göstərəcək.

Beləliklə, biz gördüyümüz, toxunduğumuz, hiss etdiyimiz hər şeyi beynimizin içində yaşayırıq. Bu texniki həqiqətdir və elmi dəlillər nəticəsində etiraza və ya mübahisəyə səbəb olacaq mövzu deyil. Əsas cəhət bu texniki həqiqətin bizi apardığı və yuxarıda verilən sualdır:

Beynimizin içində gözü olmayan pəncərədən görünən mənzərəyə baxan, bu mənzərədən həzz alan, həyəcanlanan kimdir? Bu vacib sualın cavabı da sonrakı səhifələrdə veriləcəkdir.

Bu kitabda sizə bu həqiqəti izah edəcəyik. Burada izah edilənlər, indiyə qədər alışmış olduğunuz bir çox düşüncə və anlayışla böyük ehtimalla tərs gələcək. Ancaq burada izah edilənlər, fəlsəfi bir fikir, ya da fərqli şərh forması deyil, elmin ortaya qoyduğu dəlillərə əsaslanan konkret bir həqiqətdir. Bu səbəblə, vərdişlərə əsaslanmadan, ağıl və məntiqlə düşünüldüyündə bu həqiqətin rədd edilməsi mümkün deyil.

Və unutmayın ki, həqiqəti görməzlikdən gəlmək, düşünməmək insanlara heç bir şey qazandırmaz. Əgər insan, "xeyr mən bağlı bir otaqda deyil, nəhəng bir kainatın içindəki planetin üzərində yaşayıram" deyirsə, bunu isbat etməsi lazımdır. İsbat edə bilmədiyi halda belə bir düşüncəyə kor-koranə inanmaq, insanı ancaq səhv düşüncələrə sürüyər.

MADDƏNİN ƏSLİ

Kitabın əsas hissəsini təşkil edən "maddənin əsl xüsusiyyəti" anlayışı əsli bilindiyi təqdirdə insanın həyata baxışını və həyatını dəyişdirə biləcək bir həqiqətdir. Həyatınızın mənasını, gələcəkdən gözlədiklərinizi, ideallarınızı, tələblərinizi, planlarınızı, dəyər verdiyiniz anlayışları, sahib olduğunuz maddi şeyləri əhatə edən bir mövzudur.

Bu hissədə bəhs ediləcək "maddənin əsli" mövzusu, əlbəttə, bu gün ilk dəfə təhlil olunan mövzu deyil. Tarixən bir çox filosof və elm adamı arasında mübahisə və müzakirə edilən bir anlayış olmuşdur. İnsanlar bu mövzuda əvvəldən iki qrupa ayrılmışdılar: materialistlərin daxil olduğu birinci qrup

maddənin mütləq varlıq olduğunu sanaraq fəlsəfələrini və həyatlarını bunun üzərinə qurmuş və özlərini aldadaraq yaşamışlar. İkinci qrup isə səmimi davranmış, düşünməkdən qorxmayaraq daha da irəli getmiş və əlaqədə olduqları "şey"lərin əslini və ardındakı dərin mənasını qavrayaraq həyatlarını davam etdirmişlər. Ancaq yaşadığımız əsrdə inkişaf edən elm və texnologiya artıq bu mövzuya son nöqtəni qoymuş və onsuz da məlum olan bir həqiqəti, yəni maddənin əsli ilə əlaqədə olmağımızın mümkün olmadığını mübahisəsiz bir şəkildə isbat etmişdir.

Mövzunun əhəmiyyəti insanın bütün həyatına təsir etməsindədir. Çünki hər insanın məhdud bir həyat müddəti vardır və bu müddət ərzində Allah onu sınayır. Bu müddətdən sonra isə adam dünyada seçdiyi yolun, göstərdiyi əxlaqın və rəftarın əvəzini alacaq, qazandıqları ilə sonsuz həyatı müəyyən olunacaq. Bu isə aşağıdakı mənanı verir: Dünyada hansı həyatı seçmişsə, sonsuz həyatında da onun əvəzini görəcək, səhvlərini bir daha düzəltmək imkanı tapa bilməyəcək.

Bu şüurla düşünüldüyündə, insanların dünyadakı həyat müddətlərinin nə dərəcə qiymətli olduğu aydın olur. Kitab boyunca işləyəcəyimiz mövzunun əhəmiyyəti də bundan qaynaqlanır. Madam ki, hər insanın qısa bir imtahan müddəti vardır və göstərdiyi əxlaqın əvəzini sonsuz həyatında alacaq, o halda heç şübhəsiz bu müddəti ən ağıllı şəkildə dəyərləndirməlidir. Əgər bunu etməzsə, sonrakı peşmanlıq əsla fayda verməyəcək.

Bu kitabın məqsədi insana ayədə bildirildiyi kimi **"tək olaraq"** (Ənam surəsi, 94) Allahın hüzuruna gedəcəyi "o gün" geri dönülməz bir peşmanlığa qapılmadan əvvəl köməkçi olmaqdır.

Bu məqsədlə, kitabda əvvəlcə maddənin əsl mahiyyəti mövzusu elmi cəhətdən təhlil edilmişdir. Əvvəldə də qeyd etdiyimiz kimi, burada izah edilənlər qətiyyən bir şərh və ya fəlsəfi düşüncə deyil, elmin bir çox sahəsində sübut edilmiş həqiqətdir. Üstəlik bu mövzu sanıldığı kimi kompleks, aydın olmayan və çətin bir mövzu da deyil. Düşünməkdən çəkinməyən və həqiqətlər qarşısında səmimi yanaşma göstərən hər adam bu reallıq sayəsində həyatı ilə əlaqədar çox əhəmiyyətli bir məqama asanlıqla çata biləcək.

Bu an oxumağa başlayacağınız həqiqət bəlkə bu günə qədər düşünüb həll edə bilmədiyiniz, ya da tam mənada qavraya bilmədiyiniz bir çox mövzunun da açarı olacaq. Beləliklə, həyati mövzuları dərin qavraya biləcək, həyatın mənasını bilərək yaşaya biləcəksiniz.

ƏSRLƏR BOYU MÜZAKİRƏ EDİLƏN SUAL: MADDƏNİN ƏSL MAHİYYƏTİ NƏDİR?

Ağıl və vicdanla düşünən insan kainatdakı canlı-cansız hər şeyin yaradıldığını anlayır. Yaxşı, bəs bütün bunlar kim tərəfindən yaradılmışdır?

Aydındır ki, kainatın hər yerində mövcud olan "yaradılmışlar" kainatın özünün məhsulu ola bilməz. Məsələn, bir böcək özünü yarada bilməz. Günəş sistemi, bitkilər, insanlar, bakteriyalar, qırmızı qan hüceyrələri, kəpənəklər özlərini yaratmamışlar. Bütün bunların "təsadüfən" meydana gəlməsi də

mümkün deyil.

Bu səbəbdən də belə nəticəyə gələ bilərik: Gözümüzlə gördüyümüz hər şey yaradılmışdır… Ancaq gözümüzlə gördüyümüz şeylərin heç biri "Yaradıcı" deyil. Elə isə Yaradıcı gözümüzlə gördüyümüz hər şeydən başqa, üstün bir varlıqdır. Özü görünməyən, lakin yaratdığı hər şeydə Özünün varlığını və xüsusiyyətlərini göstərən üstün bir qüvvədir.

Allahın varlığını tanımayanların sapdığı nöqtə də buradadır. Bu insanlar Allahı gözləri ilə görməyənə qədər özlərini Onun varlığına iman etməməyə yönəltmişlər. Bu səbəbdən kainatın hər yerində açıq-aşkar görünən "yaradılış" həqiqətini gizlətmək və canlıların yaradılmamış olduğunu iddia etmək məcburiyyətində qalırlar. Bunu etmək üçün də yalanlara əl atırlar. Təkamül nəzəriyyəsi və materialist fəlsəfə də bu yalanların və nəticəsiz çırpınmaların ən diqqətə çarpan iki nümunəsidir.

İnkar edənlərin yanıldıqları əsas məqam, əslində Allahın varlığını inkar etməyən, ancaq azğın bir Allah inancına sahib olan bir çox adam tərəfindən də paylaşılır. Bəzi ölkələrdə cəmiyyətin əksəriyyətini meydana gətirən bu insanlar yaradılışı açıqca inkar etmirlər, ancaq Allahın "harada" olduğuna dair maraqlı batil inancları vardır: onların bir çoxu Allahın "göydə" olduğunu sanır. Batil düşüncəyə görə, Allah çox uzaqda yerləşən bir planetin arxasındadır və çox nadir halda "dünyanın işlərinə" müdaxilə edir. Ya da heç etmir: kainatı yaratmış və başlı-başına buraxmışdır, insanlar qədərlərini (talelərini) özləri təyin edərlər… (Allahı tənzih edirik)

Bəziləri də Allahın Quranda bildirdiyi kimi, Onun "hər yerdə" olduğunu bilir, lakin bunun mənasını tam şəkildə qavraya bilmirlər. Şüurlarındakı batil düşüncə ilə Allahın radio dalğaları, ya da görünməz, hiss edilməz bir qaz kimi maddələri əhatə etdiyini düşünürlər (Allahı tənzih edirik).

Halbuki bu düşüncə və saydığımız başqa misallar Allahın "harada" olduğunu heç cür həll edə bilməyən (bəlkə də buna görə Allahın açıq-aşkar olan varlığını ağılsızca inkar edən) düşüncələr ortaq bir səhvə əsaslanırlar: heç bir əsası olmayan bir fikri mənimsəməklə Allahla əlaqədar zənnə qapılırlar.

Bu hansı fikirdir?

Bu fikir maddənin varlığı və xüsusiyyəti ilə əlaqədardır. Bəzi insanlar maddənin əsl mahiyyəti ilə əlaqədar yanılmalara elə bağlanmışlar ki, bu mövzuda bəlkə də ətraflı şəkildə düşünməmişlər. Halbuki müasir elm maddənin mahiyyəti ilə əlaqədar bu fikri yıxaraq, çox əhəmiyyətli və təsiredici bir həqiqəti ortaya qoymuşdur. Sonrakı səhifələrdə Quranda da işarə edilən bu böyük həqiqəti izah etməyə çalışacağıq.

ELEKTRİK SİQNALLARINDAN İBARƏT OLAN KAİNAT

Yaşadığımız dünya ilə əlaqədar bütün məlumatlar bizə beş duyğu orqanımız vasitəsilə verilir. Yəni biz gözümüzün gördüyü, əlimizin toxunduğu, burnumuzun iylədiyi, dilimizin daddığı, qulağımızın eşitdiyi bir dünyanı tanıyarıq. Doğulduğumuz andan etibarən bu duyğulara bağlı olduğumuz üçün "xarici dünya"nın duyğularımızın bizə tanıtdığından fərqli

ola biləcəyini heç düşünməmişik.

Halbuki, bu gün bir çox elm sahəsində aparılan tədqiqatlar son dərəcə fərqli bir anlayışı özü ilə gətirmiş və bu, hisslərimiz və qəbul etdiyimiz dünya ilə əlaqədar ciddi şübhələrin meydana gəlməsinə səbəb olmuşdur.

Bu yeni anlayışın çıxış nöqtəsi isə budur: bizim "xarici dünya" hesab etdiklərimiz yalnız elektrik siqnallarının beyində yaratdığı təsirlərdir. Almanın qırmızılığı, taxtanın bərk olması, ananız, atanız, ailəniz, sahib olduğunuz bütün mallar, eviniz, işiniz və bu kitabın sətirləri haqqında sahib olduğunuz məlumat elektrik siqnallarından ibarətdir. Yəni, biz heç vaxt almanın əsl rəngini, taxtanın əsl quruluşunu, anamızın, atamızın, sevdiklərimizin əsl hallarını bilmirik. Bunların hamısı kənarda Allahın yaratması olaraq vardır, amma biz həyatımız boyunca yalnız beynimizdəki kopiyaları ilə əlaqədə oluruq.

Mövzunu tam olaraq açıqlamaq üçün əvvəlcə xarici dünya haqqında bizə məlumat verən duyğularımızdan danışaq.

NECƏ GÖRÜRÜK, NECƏ EŞİDİRİK, NECƏ DADIRIQ?



Görmə əməliyyatı çoxmərhələli bir şəkildə reallaşır. Görmə əsnasında hər hansı bir cisimdən gələn işıq dəstələri (fotonlar) gözün önündəki lensin içindən qırılaraq keçir və gözün arxa tərəfindəki retinaya tərs şəkildə düşürlər. Buradakı hüceyrələr tərəfindən elektrik siqnalına çevrilən fotonlar sinirlər vasitəsilə beyinin arxa qismindəki görmə mərkəzi adlanan kiçik bir bölgəyə çatırlar. Bu elektrik siqnalı bir neçə əməliyyatdan sonra beyindəki bu mərkəzdə görüntü olaraq yaranır. Yəni görmə hadisəsi əslində beyinin arxasındakı kiçik, işığın heç zaman girə bilmədiyi, qapqaranlıq bir bölgədə reallaşır.

İndi, ümumiyyətlə hamının bildiyi bu məlumat üzərində bir daha diqqətli şəkildə düşünək: Biz "görürəm" deyərkən, əslində gözümüzə gələn fotonların elektrik siqnalına çevrilərək beynimizdə meydana gətirdiyi "təsir"i görürük. Yəni "görürəm" deyərkən, əslində beynimizdəki elektrik siqnallarını seyr edirik.

Həyatımız boyunca gördüyümüz hər görüntü bir neçə sm-lik görmə mərkəzində meydana gəlir. Oxuduğunuz bu sətirlər də, üfüqə baxdığınızda

gördüyünüz ucsuz-bucaqsız mənzərə də bu kiçik yerdə meydana gəlir. Bu zaman bir nüansı gözdən qaçırmamaq lazımdır. Yuxarıda qeyd etdiyimiz kimi, kəllə skeleti işığı içəri keçirmir, yəni beyinin içi qapqaranlıqdır. Bu səbəbdən beyinin kənarda olan işıqla əlaqədə olması əsla mümkün deyil.

Buradakı maraqlı vəziyyəti bir nümunə ilə açıqlayaq. Qarşımızda bir şam olduğunu düşünək. Bu şamın qarşısına keçib onu uzun müddət izləyə bilərik. Amma bu müddət ərzində beynimiz şamın işığının əsli ilə heç zaman əlaqədə olmaz. Şamın işığını gördüyümüz anda belə başımızın və beynimizin içi qapqaranlıqdır. Qapqaranlıq beynimizin içində işıqlı, aydın və rəngarəng bir dünyanı seyr edirik.

R. L. Gregory görmə hadisəsindəki möcüzəvi vəziyyəti belə ifadə edir:

Görmə hadisəsinə o qədər alışmışıq ki, cavablanması lazım olan sualların olduğunun fərqinə varmaq böyük bir təxəyyül tələb edir. Lakin bunu nəzərə alın. Gözlərimizə kiçik kəlləmayallaq olmuş görüntülər verilir və biz ətrafımızda bunları möhkəm obyektlər olaraq görürük. Retinaların üzərindəki siqnalların nəticəsində obyektlər dünyasını qəbul edirik və bu bir möcüzədən fərqlənmir əslində.

(R.L.Gregory, Eye and Brain: The Psychology of Seeing, Oxford University Press Inc. New York, 1990, s.9)

Eyni vəziyyət digər hisslərə də aiddir. Səs, toxunma, dad və qoxu bir elektrik siqnalı olaraq beyinə çatır və buradakı əlaqədar mərkəzlərdə qəbul edilirlər.

Eşitmə də buna bənzər şəkildə reallaşır: Xarici qulaq ətrafdakı səs dalğalarını qulaq seyvanı vasitəsilə yığıb orta qulağa çatdırır; orta qulaq aldığı səs titrəşmələrini gücləndirərək daxili qulağa ötürür, daxili qulaq da bu titrəşmələri elektrik siqnallarına çevirərək beyinə göndərir. Eynilə görmə prosesində olduğu kimi eşitmə əməliyyatı da beyindəki eşitmə mərkəzində reallaşır. Kəllə sümüyü işığı keçirmədiyi kimi səsi də keçirmir. Bu səbəbdən bir insanın eşitdiyi səslər nə qədər güclü və gurultulu olsa da, beyinin içi tamamilə səssizdir.

Buna baxmayaraq, ən dəqiq səslər beyində qəbul edilir. Elə bir dəqiqlikdir ki bu: sağlam bir insan qulağı heç bir xışıltı olmadan hər şeyi eşidir. Səs keçirməyən beyninizdə bir orkestrin simfoniyalarını dinləyirsiniz, izdihamlı bir mühitin bütün səs-küyünü eşidirsiniz, bir yarpağın xışırtısından tutmuş reaktiv təyyarələrinin səs-küyünə qədər geniş bir tezlik aralığındakı bütün səsləri qəbul edə bilirsiniz. Amma o anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada dərin səssizliyin hakim olduğu məlum olacaq.

Qoxu qəbulumuzun meydana gəlməsi də buna bənzərdir: vanil qoxusu, gül qoxusu kimi uçan molekullar burundakı kiprikli epitelidə yerləşən titrək

qəbuledicilərə gəlirlər və bu qəbuledicilərlə qarşılıqlı əlaqəyə girirlər. Bu qarşılıqlı təsir beynimizə elektrik siqnalı olaraq çatdırılır və qoxu hesab edilir. Nəticədə, bizim gözəl, ya da pis adlandırdığımız qoxuların hamısı uçan molekulların qarşılıqlı təsirlərinin elektrik siqnalına çevrildikdən sonra beyindəki qəbuletmə formasından başqa bir şey deyil. Bir ətiri, bir çiçəyi, sevdiyiniz bir yeməyi, dəniz qoxusunu, xoşunuza gələn və ya gəlməyən hər cür qoxunu beyninizdə hiss edirsiniz. Lakin qoxu molekulları beyinə heç zaman çata bilməzlər. Səs və görüntüdə olduğu kimi, beyninizə çatan yalnız elektrik siqnallarıdır. Nəticə olaraq, doğulduğunuz andan etibarən kənardakı obyektlərə aid olduğunu hesab etdiyiniz qoxular duyğu orqanlarınız vasitəsilə hiss etdiyiniz elektrik siqnallarıdır. Bir qoxunun əsli ilə heç bir zaman əlaqədə olmazsınız.

Buna bənzər şəkildə insan dilinin ön tərəfində də dörd müxtəlif kimyəvi alıcı vardır. Bunlar duzlu, şirin, turş və acı dadlarına uyğun gəlir. Dad alıcılarımız bir sıra kimyəvi əməliyyatdan sonra bu hissləri elektrik siqnallarına çevirir və beyinə çatdırırlar. Bu siqnallar da beyin tərəfindən dad hesab edilir. Bir şokoladı, ya da sevdiyiniz bir meyvəni yediyinizdə aldığınız dad elektrik siqnallarının beyin tərəfindən şərh olunmasıdır. Həmin obyektin əslinə isə əsla çata bilməzsiniz; şokoladın özünü görə bilməz, iyləyə bilməz və dada bilməzsiniz. Məsələn, beyninizə gedən dadalma sinirləri kəsilsə, o an yediyiniz hər hansı bir şeyin dadının beyninizə çatması mümkün olmaz; dadalma duyğunuzu tamamilə itirərsiniz.

Bu zaman qarşımıza daha bir həqiqət çıxır: bir yeməyi daddığımızda bir başqasının o yeməkdən aldığı dadın və ya bir səsi eşitdiyimizdə başqa birinin eşitdiyi səsin bizim qəbul etdiklərimizlə eyni olduğundan əmin olmağımız mümkün deyil. Bu həqiqətlə əlaqədar Lincoln Barnett belə deyir:

Bir insanın qırmızını görməsi ya da Do notunu eşitməsinin başqa bir insanınkı ilə eyni olub-olmadığını bilməsi mümkün deyil.

(Lincoln Barnett, Evren ve Einstein, Varlık Yayınları,Çev: Nail Bezel, s.20)

Hiss etmə duyğumuza gəlincə də, dəyişən bir şey olmadığını görərik. Bir cismə toxunduğumuzda xarici dünyanı və obyektləri tanımağımıza köməkçi olan məlumatlar dəridəki duyğu sinirləri vasitəsilə beyinə çatdırılır. Toxunma hissi beynimizdə meydana gəlir. Zənn edildiyi kimi toxunma hissini qəbul etdiyimiz yer barmağımızın ucları, ya da dərimizlə deyil, beynimizdəki hiss etmə mərkəzidir. Biz obyektlərdən gələn elektrik siqnallarının beynimizdə qiymətləndirilməsi nəticəsində bərk və ya yumşaq, isti və ya soyuq kimi obyektləri təyin edən müxtəlif hissləri duyarıq. Hətta bir cismi tanımaya yarayan hər cür məlumatı bu siqnallar nəticəsində əldə edirik. Bu əhəmiyyətli həqiqətlə əlaqədar olaraq B. Russel və L.

Wittgeinstein kimi məşhur filosofların düşüncələri belədir:

... Bir limonun həqiqətən var olub olmadığı və hansı müddət ərzində var olduğunu hesaba çəkmək və araşdırmaq mümkün deyil. Limon yalnız dillə aydın olan dad, burunla alınan qoxu, gözlə görülən rəng və formadan ibarətdir və yalnız bu xüsusiyyətlər elmi araşdırmanın və mühakimənin mövzusu ola bilər. Elmin obyektiv dünyanı bilməsi əsla mümkün deyil.

(Bertrand Russell, Rölativitenin Alfabesi, Onur Yayınları, 1974, s.161-162)

Yəni maddi dünyanın əslinə çatmağımız qeyri-mümkündür. Əlaqədə olduğumuz bütün obyektlər əslində görmə, eşitmə, hiss etmə kimi hisslərin cəmindən ibarətdir. Qəbul mərkəzlərindəki məlumatları qiymətləndirən beynimiz həyatımız boyunca maddənin bizim xaricimizdəki "əsli" ilə deyil, beynimizdəki kopiyaları ilə əlaqədə olur. Biz isə bu kopiyalayarın əslinin necə olduğunu heç bir zaman bilmərik.

BEYNİMİZİN İÇİNDƏ YARANAN "XARİCİ DÜNYA"

Bura qədər izah etdiyimiz fiziki həqiqətlər bizi mübahisəedilməz bir nəticəyə gətirir: Bizim gördüyümüz, toxunduğumuz, eşitdiyimiz və "maddə", "dünya", ya da "kainat" dediyimiz anlayışların əsli ilə heç bir zaman əlaqədə olmarıq, biz bunların yalnız beynimizdəki kopiyalarını bilərik.

Məsələn, meyvə yeyən biri əslində meyvənin beynindəki qəbulu ilə əlaqədədir, əsli ilə deyil. Adamın "meyvə" deyə xarakterizə etdiyi şey, meyvənin forması, dadı, qoxusu və sərtliyinə aid elektrik siqnalının beyində qəbul edilməsindən ibarətdir. Əgər beyinə gedən görmə sinirini kəssəniz, meyvə görünüşü də bir anda yox olar. Və ya burundakı qəbuledicilərdən beyinə uzanan sinirdəki bir qopuqluq olsa, qoxu qəbulunuzu tamamilə ortadan qaldırar. Çünki meyvə bəzi elektrik siqnallarını beyinin şərh etməsindən başqa bir şey deyil.

Üzərində düşünülməsi lazım olan başqa bir xüsusiyyət uzaqlıq hissi ilə bağlıdır. Məsələn, bu kitabla aranızdakı məsafə, yalnız beyninizdə meydana gələn bir boşluq hissidir. Bir insanın özündən çox uzaqda sandığı maddələr də əslində beyninin içindədir. İnsan göyə baxıb ulduzları seyr edər və bunların milyonlarla işıq ili uzaqda olduqlarını sanar. Halbuki ulduzlar onun içində, beynindəki görmə mərkəzindədirlər. Bu yazıları oxuyarkən içində oturduğunuzu sandığınız otağının da əslində içində deyilsiniz: əksinə otaq

sizin içinizdədir. Bədəninizi görməyiniz sizi otağının içində olduğunuza inandırır. Ancaq bunu unutmayın: bədəninizin də əslini heç bir zaman görmədiniz, həmişə beyninizdə yaranan kopiyasını müşahidə etdiniz.

Bu vəziyyət başqa hisslərinizə də aiddir. Məsələn, siz otaqdakı televizorun səsini eşitdiyinizi sanırsınız, əslində isə beyninizin içindəki səsi eşidirsiniz. Metrlərlə uzaqdan gəldiyini sandığınız səs də, yanınızdakı adamın danışması da əslində beyninizdəki bir neçə sm-lik eşitmə mərkəzində qəbul edilir. Bu qəbul mərkəzinin xaricində sağ, sol, ön, arxa kimi bir anlayış yoxdur. Yəni səs sağdan, soldan və ya havadan sizə çatmaz: səsin gəldiyi bir istiqamət yoxdur.

Qəbul etdiyiniz qoxular da belədir: heç biri uzaq bir məsafədən sizə çatmaz. Qoxu hissetmə mərkəzinizdə yaranan təsirləri maddələrin əsl qoxusu zənn edərsiniz. Halbuki bir gülün görünüşü necə görmə mərkəzinizin içindədirsə, o gülün qoxusu da eyni şəkildə qoxu hissetmə mərkəzinizin içindədir: gülün əslini və qoxusunu heç bir zaman bilməzsiniz.

Çünki hisslərimizin bizə tanıtdığı "xarici dünya" eyni anda beynimizə çatan "elektrik siqnalları"dır.. Beynimiz həyatımız boyunca bu siqnalları dəyərləndirir. Biz də bunları maddənin "əsli" sanaraq yanıldığımızın fərqində olmadan bir ömür sürürük. Yanılırıq, çünki hisslərimizlə maddənin özünə əsla çata bilmirik.

Əsli ilə əlaqədə olduğumuzu sandığımız "xarici dünya ilə" əlaqədar siqnalları şərh edib mənalı hala gətirən də, bizim beynimizdir. Məsələn, eşitmə qəbulunu izah edək. Qulağımıza gələn səs dalğalarının şərhini edərək onu bir simfoniyaya çevirən əslində beynimizdir. Yəni biz musiqinin beynimizin şərh etdiyi halını bilirik, kənardakı əslini deyil. Rəngləri görərkən də əslində gözümüzə çatan yalnız işığın müxtəlif dalğalarıdır. Bu müxtəlif dalğaları rənglərə çevirən yenə də beynimizdir. "Xarici dünyadakı rənglərin necə olduğu bizim üçün məchuldur. Biz almanın əsl qırmızısı ilə, səmanın əsl mavisi ilə, ağacların əsl yaşılı ilə heç bir zaman əlaqədə olmarıq. Xarici dünya tamamilə qəbul edənə bağlıdır.

Gözdəki retinada yaranan kiçik bir dəyişiklik rəng korluğuna səbəb olur. Bəzi insanlar mavini yaşıl, bəzisi qırmızını mavi, bəzisi də rəngləri bozun müxtəlif tonları şəklində görür.

XARİCİ DÜNYA OLMADAN DA HİSSLƏR DÜNYASI MEYDANA GƏLƏBİLƏR

Gördüyümüz və yaşadığımız hər şeyin beynimizdə var olduğunu, kənarda var olan maddənin əslini heç bilmədiyimizi ortaya qoyan həqiqətlərdən biri də, beynimizdə hisslərin meydana gəlməsi üçün xarici dünyaya ehtiyacımızın olmamasıdır. Bu gün simulyator kimi bir çox texnoloji inkişaf və yuxularımız bu həqiqətin ən əhəmiyyətli dəlilləridir.

Elmi yazıçı Rita Carter "Mapping The Mind" adlı kitabında "görmək üçün gözlərə ehtiyac yoxdur" deyərək, elm adamları tərəfindən reallaşdırılan əhəmiyyətli bir təcrübəyə yer vermişdir. Təcrübədə görmə qüsurlu insanlara video şəkillərini titrəşmələrə çevirən bir cihaz taxıldı. Bu insanların gözlərinin yanına taxılan bir kamera isə siqnalları beyinə göndərirdi. Beləcə, onlar daim vizual dünyadan siqnallar ala bilirdi. Xəstələr bir müddət sonra həqiqətən görürmüş kimi davranmağa başladılar. Məsələn, cihazlardan birində görüntünü yaxınlaşdırmaq üçün bir lens vardı. Bu lens xəstə xəbərdar edilmədən işlədildiyində, xəstə görüntünün böyüyərək üzərinə gəldiyini gördüyü üçün iki qolu ilə özünü qorumalı olurdu.

Bu təcrübədən göründüyü kimi, hisslərimizin meydana gəlməsi üçün xarici dünyada maddi obyektlərin olması şərt deyil. Bütün siqnallar süni olaraq da yaradıla bilir.

YUXULARDA YAŞADIĞIMIZ "HİSSLƏR DÜNYASI"

İnsan xarici dünya olmadan da hissləri bütün canlılığı ilə yaşaya bilər və buna verilə biləcək ən bariz nümunə, daha əvvəl də bəhs etdiyimiz kimi, yuxulardır. Bir insan yuxu əsnasında gözləri bağlı yatağında yatır. Ancaq buna baxmayaraq, həyatında qarşılaşdığı hadisələrin, yaşadığı hisslərin, xəbərdarlıqların hamısını yuxularında, həqiqətlərdən ayırd edilə bilməyəcək qədər həqiqi hesab edir. Bu həqiqətə bu kitabı oxuyan insanların hamısı şəxsən öz yuxularında tez-tez şahid olurlar. Məsələn, gecə yatağında səssiz və sakit bir mühitdə tək yatan bir insan yuxusunda özünü izdihamlı bir məkanda, bir təhlükədə görə bilər. Bu təhlükədən qaçdığını, bir divarın arxasında gizləndiyini həyatdakı kimi yaşaya bilər. Hətta yuxusunda gördükləri o qədər həqiqidir ki, qorxu və çaxnaşma duyğusunu həqiqətən hiss edər. Hər səs-küydə ürəyi ağzına gələr, qorxudan titrəyər, ürəyi sürətlə vurar, tərləyər, insan bədəni təhlükə anlarında nələri hiss edirsə, fiziki olaraq nə reaksiyalar verirsə hamısını eynilə yaşayar.

Yuxusunda yüksək bir yerdən yıxılan insan da bunu bütün bədəni ilə hiss edər. Halbuki o anda yatağında heç tərpənmədən yatır. Ya da, yuxusunda ayağı büdrəyib su çuxurunun içinə düşdüyünü görən bir insan bütün paltarlarının islandığını, sonra da külək əsdiyinə görə üşüdüyünü hiss edə bilər. Ancaq yatdığı yerdə nə bir su çuxuru, nə də külək var. Hətta çox isti bir otaqda yatmasına baxmayaraq, yaş olmasını və üşüməsini eynilə oyanıqkən olduğu kimi hiss edər.

Və ya yuxusunda maddənin əsli ilə əlaqədə olduğunu iddia edən bir adam özündən son dərəcə əmin ola bilər. Özünə "xarici dünyanın əsli ilə əlaqədə olmağın mümkün olmadığını" izah edən yoldaşının çiyninə əlini qoyaraq "İndi sən əlimi çiynində hiss etmirsənmi? O zaman necə maddənin həqiqiliyini görmədiyini söyləyə bilərsən? Haradan çıxarırsan bu iddiaları? Gəl sənlə bir az gəzək, həm bu mövzunu danışarıq, bir də belə bir mövzuya niyə inanırsan mənə izah edərsən" deyə bilər. Dərinləşən yuxusunda gördüyü bu yuxu o qədər dəqiqdir ki, keflə avtomobilin qapısını açıb mühərrikə yavaş -yavaş qaz verər və sonra birdən pedala basıb avtomobili yerindən sıçradar. Yolda sürətlə gedərkən ağaclar və yol xəttləri sürətdən sanki blok bir görüntü meydana gətirər. Bir tərəfdən də təmiz hava alar. Yoldaşına etiraz etməyə başladığı anda, maddənin əslini gördüyünü izah etməyə hazırlaşarkən saatının zənginə oyanar. Ancaq maraqlıdır ki, yuxusunda maddənin əsli ilə əlaqədə olmadığımıza etiraz edən bu insan oyanıqkən də gördüklərinin zehnində yaranan kopiya görüntülər olduğunu izah edən bir yoldaşı yanında

olsa, ona da eyni şəkildə etiraz edəcək.

İnsanlar yuxudan oyandıqlarında o ana qədər gördüklərinin xəyal olduğunu anlayarlar, amma "oyanma" görüntüsü başlayan zaman "əsl həyat" dedikləri həyatın quruluşundan nədənsə heç şübhələnməzlər. Halbuki, "əsl həyat" dediyimiz görüntüləri hiss etməyimiz, yuxularımızı hiss etməyimizlə tamamilə eynidir. Hər ikisini də zehnimizdə görürük. Yuxudan oyandırılmadığımız müddətdə onların bir xəyal olduğunu əsla anlamırıq. Ancaq oyandığımız zaman "deməli gördüklərim bir yuxu imiş" deyirik. Elə isə bu anda gördüklərimizin bir yuxu olmadığını necə isbat edə bilərik? Yalnız hələ oyandırılmadığımız üçün içində olduğumuz anı həqiqi zənn edirik. Hər gecə gördüyümüz yuxulardan daha uzun sürən bu yuxudan bir gün oyandırıldığımızda bu həqiqətlə qarşılaşacağıq. Bunun əksini söyləyərək isbat edə biləcəyimiz heç bir dəlilimiz yoxdur.

Dünya həyatının bir yuxu kimi olduğu, bu yuxudan "böyük bir oyanış" ilə oyananda insanların yuxu kimi bir aləmdə yaşadıqlarını anlayacaqları İslam alimləri tərəfindən də dilə gətirilən bir həqiqətdir. Üstün elmi sayəsində Şeyx Əkbər (Ən Böyük Şeyx) olaraq tanınan böyük İslam alimi Muhyiddin Ərəbi Peyğəmbərimizin bir hədisini dünya həyatını yuxularımıza belə bənzətmişdir:

Həzrəti Muhəmməd əleyhissalam *"İnsanlar yuxudadır, öldükləri vaxt oyanarlar"* buyurmuşdur. (Fusus-ül Hikem, çev. Nuri Gencosman, İstanbul 1990, s. 220) Deməli, dünya həyatında gördüyü şeylər yatan insanın yuxusunda gördüyü şeylər kimidir.

Bir ayədə isə Allah insanların qiyamət günündə yenidən dirildiləcəkləri zaman belə deyəcəklərini bildirmişdir:

Onlar deyəcəklər: "Vay halımıza! Bizi yatdığımız yerdən kim qaldırdı? Bu, Mərhəmətli *(Allahı)***n vəd etdiyi** *(qiyamətdir)***. Elçilər doğru deyirlərmiş".** (Ya Sin surəsi, 52)

Ayədən də göründüyü kimi, insanlar qiyamət günü yuxudan oyanan kimi oyanacaqlar. Bir insan yuxuya getdiyi və yuxu gördüyü zaman birdən oyandırıldığında onu kimin oyandırdığını soruşduğu kimi, bu insanlar da eyni şəkildə onları kimin oyandırdığını soruşacaqlar. Allahın bu ayədə bildirdiyi kimi, dünya həyatı gördüyümüz bir yuxu kimidir və hər insan bu yuxudan oyandırılacaq və əsl həyatı olan axirət həyatına dair görüntüləri görməyə başlayacaq.

DÜNYA HƏYATININ BEYNİMİZDƏKİ ƏKSİ İLƏ TƏMASDA OLDUĞUMUZ TEXNİKİ HƏQİQƏTLƏR

Yaşadığımız dünyaya aid hər cür məlumatı və bildiyimiz hər şeyi duyğu orqanlarımız vasitəsilə öyrənirik. Duyğu orqanlarımız vasitəsilə bizə çatan məlumatlar ardıcıl proseslər nəticəsində elektrik siqnallarına çevrilir və bu siqnallar beynimizin lazımi nöqtələrində şərh edilir. Beynimizin bu şərhi nəticəsində biz, məsələn, bir kitab görürük, çiyələyin dadını alır, cökə ağaclarını qoxulayır, ipək parçaya toxunur və ya küləklə yellənən yarpaqların xışıltısını eşidirik.



Aldığımız təlqinlə hər zaman bədənimizin xaricindəki parçaya toxunduğumuzu, bizdən 30 sm-lik məsafədəki kitabı oxuduğumuzu, metrlərlə uzaqlıqdakı cökə ağaclarının qoxusunu aldığımızı, çox yüksəkliklərdəki yarpaqların xışıltısını eşitdiyimizi zənn edirik. Əslində isə, bu sadaladıqlarımızın hamısı bizim içimizdə baş verən hadisələrdir. Kitabın görüntüsündən yarpaqların xışıltısına qədər hər şey içimizdə, beynimizdə əmələ gəlir.

Burada daha təəccüblü həqiqətlə də qarşılaşırıq: beynimizdə, əslində, nə rəng, nə səs, nə də görüntü var. Beynimizdə ancaq elektrik siqnalları var. Bu, fəlsəfi düşüncə deyil, duyğularımızın funksiyası ilə bağlı elmi izahdır. *Mapping The Mind (Zehnin xəritəsini çıxarmaq)* adlı kitabında yazıçı Rita Karter dünyanı necə qavradığımızı belə açıqlayır:

Hər bir duyğu orqanı özünə uyğun olan xəbərdarlığa cavab verəcək şəkildə yaradılmışdır. Bu xəbərdarlıqlar isə molekullar, dalğalar və ya titrəmələr şəklindədir. Bütün bu müxtəlifliyə baxmayaraq, duyğu orqanları, əslində, eyni vəzifəni yerinə yetirirlər: özlərinə aid olan xəbərdarlığı elektrik siqnallarına çevirirlər. ***Xəbərdarlıq isə sadəcə xəbərdarlıqdır. Qırmızı rəng deyil və ya Bethovenin beşinci simfoniyasının ilk notu deyil, sadəcə elektrik enerjisidir.*** *Əslində, hər hansı bir hissi digərlərindən fərqləndirmək əvəzinə duyğu orqanları hamısını eyni şeyə, yəni elektrik siqnalına çevirirlər.*

Elə isə ***bütün hisslərə aid olan xəbərdarlıqlar eyni qaydada beyinə elektrik axınları şəklində daxil olur*** *və buradakı sinir hüceyrələrinə xəbərdarlıq edirlər. Bütün proses budur.* ***Bu elektrik siqnallarını yenidən işıq dalğalarına və ya molekullara çevirən geri qayıtma sistemi yoxdur.***

Hər hansı bir elektrik siqnalının görüntüyə, digərinin qoxuya çevrilməsi isə bu elektrik siqnalının hansı sinir hüceyrələrinə təsir etməsinə bağlıdır.

(Rita Carter, Mapping The Mind, University of California Press, London, 1999, s. 107)



1. Hərəkət
2. Düşünmək
3. Toxunmaq
4. Danışmaq
5. Görmək
6. Dadmaq
7. Eşitmək
8. Qoxu almaq

Yuxarıdakı açıqlamalar çox vacib mövzuya diqqət çəkir. Bizim dünya haqqında qavradığımız bütün hisslər, görüntü, dad və qoxular, əslində, eyni məmulatdan, yəni elektrik siqnallarından meydana gəlir. Elektrik siqnallarını bizim üçün mənalandıran, bu siqnalları qoxu, dad, görüntü, səs və ya toxunma şəklində şərh edən isə beyindir. Beyin kimi nəm ətdən əmələ gələn bir maddənin hansı elektrik siqnalını qoxu, hansını görüntü kimi şərh edəcəyini bilməsi və eyni məmulatdan bir-birindən çox fərqli duyğu və hisslər meydana gətirməsi isə böyük möcüzədir.

İndi bu böyük möcüzənin necə baş verdiyini, yəni "dünyanı necə qavrayırıq?" sualının cavabını bütün hisslərimiz üçün bir-bir nəzərdən keçirək.

GÖRƏN GÖZLƏRİMİZ DEYİL, GÖRÜNTÜ BEYNİMİZDƏ ƏMƏLƏ GƏLİR

Həyatımız boyu aldığımız təlqinlə bütün dünyanı gözlərimizlə gördüyümüzü zənn edirik. Hətta: "Gözlərimiz dünyaya açılan pəncərədir", - deyə bilərik. Əslində isə, görmənin elmi açıqlamasına əsasən, həqiqət belə deyil, çünki **biz gözlərimizlə görmürük.** Gözlərimiz və gözlərimizə bağlı olan milyonlarla sinir hüceyrəmiz sadəcə görmə hadisəsinin həyata keçməsi üçün beyinə mesaj yollayan kabel vəzifəsini daşıyır. Görmə hadisəsinin necə həyata keçdiyini orta məktəb biliklərimizdən xatırlasaq, bu həqiqəti daha asan başa düşərik.





GÖRDÜYÜMÜZ VƏ MALİK OLDUĞUMUZ HƏR ŞEY BEYNİMİZDƏ ƏMƏLƏ GƏLƏN GÖRÜNTÜDÜR

Topla oynayan uşağa tamaşa edən insan bu uşağı həqiqətdə gözləri ilə görmür. Gözlərin funksiyası sadəcə işığı gözün arxa tərəfinə ötürməkdir. İşıq tor qişaya çatdıqda tor qişada uşağın tərsinə və iki ölçülü görüntüsü əmələ gəlir. Daha sonra bu görüntü elektrik siqnalına çevrilərək beyinin arxasındakı görmə mərkəzinə çatır və uşağın düz, üç ölçülü və qüsursuz görüntüsü burada görülür. Bəs beyinin arxasında uşağın üç ölçülü, qüsursuz dərəcədə aydın görüntüsünü görən kimdir? Elə burda qarşımıza beyinin fövqündə olan varlıq – Ruh çıxır.

Bir cisimdən gələn işıq göz büllurundan keçir və gözün arxa tərəfindəki torlu qişanın üzərinə başı aşağı və iki ölçülü görüntü salır. Torlu qişadakı çöpcüklər və kolbacıqlar bəzi kimyəvi proseslərdən sonra bu görüntünü elektrik siqnalına çevirirlər. Bu elektrik axınları göz sinirləri vasitəsilə beyinin arxa tərəfindəki görmə mərkəzinə ötürülür. Beyin isə gələn bu siqnalı aydın və üç ölçülü görüntülərə çevirir.

Gözlərimizə kiçik, başı aşağı görüntülər verilir və biz ətrafımızda bunları sağlam cisimlər kimi görürük. Tor qişanın üzərindəki siqnallar nəticəsində cisimlər dünyasını qavrayırıq və əslində, bunun bir möcüzədən fərqi yoxdur.

(R. L. Gregory, Eye and Brain: The Psychology of Seeing, Oxford University Press Inc. New York, 1990, s. 9)

Bütün bunlar bizi daima eyni həqiqətə aparır: biz həyatımız boyu dünyanı bizim xaricimizdə zənn edirik. Əslində isə, **dünya hər şeyi ilə birlikdə bizim içimizdədir.** Biz xaricimizdə hesab etdiyimiz dünyanı içimizdə, beynimizdəki kiçik nöqtədə görürük. Məsələn, bir şirkət rəhbəri şirkətin binasının, şəhərin kənarındakı fabrikinin, avtoparkdakı avtomobilinin, dəniz sahilindəki evinin, limandakı yaxtasının, tabeçiliyində işləyən yüzlərlə insanın, vəkillərinin, ailəsinin, dostlarının daima öz bədənindən xaricdə olan varlıqları ilə təmasda olduğunu düşünür.

Lakin bunların hamısının sadəcə onun kəllə sümüyünün içində, beyninin arxa tərəfindəki kiçik bölgədə əmələ gələn görüntüləri ilə təmasdadır. Xarici aləmdəki əsillərinin necə olduğunu isə heç vaxt bilə bilməz.

Sözügedən şəxs bu həqiqəti bilmir, bilsə də, düşünmək istəməz. Ancaq

GÖRDÜYÜMÜZ VƏ MALİK OLDUĞUMUZ HƏR ŞEY BEYNİMİZDƏ ƏMƏLƏ GƏLƏN GÖRÜNTÜDÜR

Gözünü qaşıyan insan avtomobilinin aşağı-yuxarı sürüşdüyünü görər. Bu da gördüyü bu avtomobilin xarici aləmdəki sabit əsli ilə deyil, beynində əmələ gələn görüntüsü ilə təmasda olduğunun dəlilidir.

son model avtomobili ilə gəldiyi şirkətinin qarşısında qürurla dayanarkən əsən mehlə gözünə toz düşsə, bu həqiqəti o dəqiqə anlayar. Toz düşdüyü üçün qaşınan sağ gözünü gözü açıq ikən yüngülcə qaşıdıqda şirkət binasının yuxarı-aşağı və ya sağa-sola doğru gedib-gəldiyini görəcəkdir. Elə bu zaman düşünən insan gördüyü görüntünün xarici aləmdəki sabit varlıq olmadığını anlayar. Çünki gözünü qaşıması ilə görüntü gedib-gəlir.

Beləliklə, bu, bir həqiqətdir ki, hər insan həyatı boyu gördüyü hər şeyi beynində görür və heç bir zaman gördüklərinin əsilləri ilə təmasda ola bilmir. Gördükləri xarici aləmdə mövcud olan görüntülərin beynində əmələ gələn surətidir. Bu surətin əslinin necə olduğu isə bizə məlum deyil.

Materialist olmasına baxmayaraq, alman psixiatr və nevrologiya professoru Hoymar Von Ditfurt bu elmi həqiqət haqqında bunları söyləyir:

Arqumentlərimizin hərəkətverici qolunu hara yerləşdirsək də, nəticə dəyişmir: əti-sümüyü ilə qarşımızda duran, ***gözümüzün gördüyü şey dünya deyil, sadəcə onun xəyalıdır, bir bənzəridir, orijinalı ilə nə qədər üst-üstə düşdüyü mübahisəlidir.***

(Hoimar von Ditfurth, Dinozorların Sessiz Gecesi 4, Kitap, Çev: Veysel Atayman, Alan Yayıncılık, s. 256)

Məsələn, hal-hazırda başınızı qaldırıb içində olduğunuz otağa baxdıqda gördüyünüz sizin xaricinizdəki otaq deyil. Siz otağın beyninizin içində əmələ gələn xəyali görüntüsünü görürsünüz və heç bir zaman bu otağın əslini duyğu orqanlarınız vasitəsilə görməyiniz mümkün deyil.

QAPQARANLIQ BEYNİNİZİN İÇİNDƏ AYDIN VƏ RƏNGARƏNG GÖRÜNTÜ NECƏ MEYDANA GƏLİR?



Nəzərdən qaçırılmamalı vacib cəhət də var: beyinin içində işıq yoxdur. Yəni beyinin yerləşdiyi yer qapqaranlıqdır, ona görə də beyinin işığın özü ilə təmasda olması əsla mümkün deyil. Ancaq **siz möcüzəvi şəkildə bu zülmət qaranlıqda işıqlı, parlaq dünyaya tamaşa edirsiniz.** Rəngarəng təbiət, parlaq mənzərə, yaşılın hər çaları, meyvələrin rəngləri, çiçəklərin naxışları, günəşin parıltısı, küçədəki bütün insanlar, yolda sürətlə şütüyən maşınlar, ticarət mərkəzindəki yüzlərlə növ geyim də daxil olmaqla, hər şey bu zülmət qaranlıq yerdə əmələ gəlir.

Buradakı maraqlı vəziyyəti bir nümunə ilə açıqlayaq. Qarşımızda yanan manqal alovunu düşünək. Bu manqalın qarşısına keçib onu uzun müddət izləyə bilərsiniz. Amma bu müddət boyu beynimizə manqaldan gələn işığın, parıltının və istiliyin əsli ilə heç vaxt təmasda ola bilmərik. Manqaldakı alovun işığını və istiliyini hiss etdiyimiz anda belə kəllə sümüyümüzün və beynimizin içi qapqaranlıqdır və temperaturu heç dəyişmir. Qapqaranlıq beyinin içində elektrik siqnallarının rəngarəng, parıltılı, aydın görüntüyə çevrilməsi bir möcüzədir. Bu hadisə üzərində düşünən insan qarşılaşdığı əsrarəngizlik qarşısında böyük heyranlıq hissi keçirəcəkdir.

İŞIQ DA BEYNİMİZDƏ ƏMƏLƏ GƏLİR

Görmə hadisəsinin necə baş verdiyini izah edərkən daima xaricdən gələn işığın gözümüzdəki hüceyrələri hərəkətə gətirdiyini və bu hərəkətlənmənin görüntünün əmələ gəlməsinə səbəb olduğunu bildirdik. **Ancaq burada vurğulanmalı çox vacib bir cəhət də var. Əslində, beynimizin xaricində bizə məlum olan işıq yoxdur. Bizim bildiyimiz, tanıdığımız işıq yenə bizim beynimizdə əmələ gəlir.** Xarici dünyada, yəni beynimizin xaricində işıq kimi bildiyimiz şey elektromaqnit dalğalar və fotonlardır (fotonlar zərrəcik halında olan enerjidir). Bu elektromaqnit dalğalar və ya fotonlar tor qişanı oyandırdıqda bizə məlum olan işıq əmələ gəlir. Fizika

kitablarında işığın bu xüsusiyyəti belə ifadə edilir:

İşıq sözü fiziki və ya obyektiv mənada elektromaqnit dalğalarla və ya fotonlarla bağlı istifadə edilmişdir. Eyni söz psixoloji mənada elektromaqnit dalğalar və fotonlar gözün tor qişasına təsir etdikdə insanda əmələ gələn hisslə bağlı olaraq da istifadə edilir. İşıq sözünün həm obyektiv, həm də subyektiv anlayışlarını birlikdə ifadə edək: işıq bir insan gözünə tor qişasının oyandırılması nəticəsində əmələ gələn görmə təsiri ilə varlığını göstərən enerji formasıdır. (M. Ali Yaz, Sait Aksoy, Fizik 3, Sürat Yayınları, İstanbul, 1997, s. 3)

BEYİNDƏ ƏMƏLƏ GƏLƏN SON DƏRƏCƏ HƏQİQİ "XƏYALİ GÖRÜNTÜLƏR"

Aşağıdakı rəsmdə minlərlə elektronika mühəndisinin üzərində yüz ilə yaxın müddətdə çalışaraq istehsal etdikləri və çox yüksək texnologiyaya malik televizorda ortaya çıxan görüntü ilə insan gözündə əldə edilən görüntü müqayisə edilir.

GÖZÜ ƏMƏLƏ GƏTİRƏN XAM MADDƏLƏR

Zülallar

Yağ

Su

NƏTİCƏ

Əsli ilə ayırd edilə bilməyəcək qədər eyni, aydın, canlı, dərin, dumanlanma və sürüşmə olmayan, parlaq üç ölçülü görüntü.

TELEVİZORUN TƏRKİB HİSSƏLƏRİNDƏN BƏZİLƏRİ

Katot şüa tüpü, idarəetmə düymələri, yerdəyişmə barabanı, səs gücləndirici cihaz, kondensator, transformator, müqaviməti mərkəzləşdirmə barabanı, elektron tapançası, anod və digərləri.

NƏTİCƏ

Əslinə tam bənzəməyən, bəzən dumanlı, toranlıq, bəzən görüntünün əyildiyi, dərinlik hissinin tam verilmədiyi görüntü.

Bütün həyatımızı beynimizin içində yaşayırıq. Gördüyümüz insanlar, qoxuladığımız çiçəklər, dinlədiyimiz musiqi, daddığımız meyvələr, əlimizdə hiss etdiyimiz nəmlik... Bunların hamısının beynimizdəki halını bilirik. Əslində isə, beynimizdə nə rənglər, nə səslər, nə də görüntülər var. Beyində təkcə elektrik siqnalları var. Qısaca desək, biz beynimizdəki elektrik siqnallarının əmələ gətirdiyi dünyada yaşayırıq. Bu, bir fikir və ya fərziyyə deyil, dünyanı necə qavradığımıza dair elmi açıqlamadır.

Beləliklə, işıq gözümüzə gələn bəzi elektromaqnit dalğaların və ya hissəciklərin bizdə əmələ gətirdiyi təsir ilə meydana gəlir. Yəni xaricdə beynimizdəki görüntünü əmələ gətirəcək işıq da yoxdur. Sadəcə enerji var və bu enerji gözümüzə çatdıqda biz rəngarəng, parlaq, aydın dünya görürük.

RƏNGLƏR DƏ BEYNİMİZDƏ ƏMƏLƏ GƏLİR

Biz doğulduğumuz andan etibarən ətrafımızda rəngli dünya görür, rəngarəng mühitlə təmasda oluruq. Əslində isə, kainatda heç bir rəng yoxdur. Rənglər beynimizin içində əmələ gəlir. Xaricdə sadəcə fərqli dalğa uzunluqlarına malik elektrik dalğaları var. Gözümüzə çatan bu fərqli dalğa uzunluqlarındakı enerjidir. Yuxarıda da bildirildiyi kimi, biz buna işıq deyirik, ancaq bu, bizim bildiyimiz mənada parlaq, aydın işıq deyil, sadəcə enerjidir. Beynimiz bu fərqli dalğa uzunluqlarına malik enerjini şərh etdikdə biz onları rəng kimi görürük. Əslində isə, nə dənizlər mavi, nə otlar yaşıl, nə torpaq qəhvəyi, nə də meyvələr rənglidir. Onlar sadəcə beynimizdə o cür qavradığımız üçün elədirlər. Şüur və beyin haqqında yazdığı kitablarında Daniel C. Dennet bu həqiqəti belə izah edir:

Ortaq qənaətə əsasən, elm rəngləri fiziki dünyadan ayırmış və əvəzinə sadəcə rəngsiz, fərqli dalğa uzunluqlarındakı elektromaqnit şüaları saxlamışdır.

(Daniel C Dennett, Brainchildren, Essays on Designing Minds, The MIT Press, Cambridge, 1998, s. 142)



BÜTÜN RƏNGLƏR BEYNİMİZDƏ ƏMƏLƏ GƏLİR, XARİCİ ALƏMDƏ RƏNG YOXDUR

Xarici aləmdə rənglər yoxdur. Rənglər sadəcə baxan şəxsin gözündə və beynində əmələ gəlir. Xarici aləmdə sadəcə fərqli dalğa uzunluqlarındakı enerji mövcuddur. Bu enerjini rəngə çevirən beynimizdir.

Dennet beyinlə bağlı bir kitabında rənglərin meydana gəlməsi haqqında bunları deyir:

Dünyada rəng yoxdur, rəng sadəcə baxanın gözündə və beynində əmələ gəlir. *Cisimlər işığın fərqli dalğa uzunluqlarını əks etdirirlər, ancaq bu işıq dalğalarının rəngi yoxdur.* (Daniel C Dennett, Brainchildren, Essays on Designing Minds, s. 142)

Bu elmi həqiqətin daha yaxşı başa düşülməsi üçün rəngləri necə gördüyümüzü qısaca nəzərdən keçirək.

Günəşdən gələn işıqlar bir cismə toxunduqda hər cisim işığı fərqli dalğa uzunluğunda əks etdirir. Bu fərqli dalğa uzunluqlarındakı işıq gözə çatır (burada işıq olaraq bəhs edilənin elektromaqnit dalğalar və fotonlar olduğu, bizə məlum olan işığın isə sadəcə beynimizdə əmələ gəldiyini unutmaq

olmaz). Rəngin qavranılması gözün tor qişasındakı kolbacıqlarda başlayır. Tor qişada işığın müəyyən dalğa uzunluğuna cavab verən üç əsas kolbacıq hüceyrə qrupu var. Bu hüceyrə qruplarının birincisi qırmızı, ikincisi mavi, üçüncüsü ilə yaşıl işığa həssasdır. Bu üç fərqli kolbacıq hüceyrənin müxtəlif nisbətlərdə oyandırılması nəticəsində milyonlarla müxtəlif rəng çaları ortaya çıxır. Ancaq işığın kolbacıq hüceyrələrə çatması rənglərin əmələ gəlməsi üçün kifayət deyil. Johns Hopkins Universitetinin Tibb fakültəsindən tədqiqatçı N. Ceremi gözdəki hüceyrələrin rəngləri əmələ gətirmədiyini belə bildirir:

Hər hansı bir kolbacıq hüceyrənin üzərinə düşən tək şey işığı tutub gərginliyi haqqında məlumat verməkdir. Rəng haqqında sizə heç bir şey demir. (www.hhmi.org/senses/a/a110.htm)

Beynimizdən kənarda işıq və rənglər yoxdur. Rənglər və işıq gözümüzdə və beynimizdə əmələ gəlir.

Gözün tor qişasında işığın müəyyən dalğa uzunluğuna reaksiya verən üç əsas kolbacıq hüceyrə qrupu var. Bu hüceyrə qruplarının birincisi qırmızı, ikincisi mavi, üçüncüsü isə yaşıl işığa həssasdır. Bu üç fərqli kolbacıq hüceyrəsinə fərqli nisbətlərdə siqnal göndərilməsi nəticəsində biz milyonlarla fərqli rəng tonuna malik bir dünya görürük.

Allahın qüsursuz yaratması ilə elektrik siqnallarını milyonlarla rəng tonundan ibarət, parlaq, rəngarəng bir dünya kimi görür və bu gördüklərimizdən zövq alırıq. Bu, üzərində düşünməli qeyri-adi bir möcüzədir.

1



2

Yuxarıdakı 1-ci şəkildə sol tərəfdəki yaşıl sahələr daha tünd, sağdakılar daha açıq yaşıl kimi görünür. Əslində, hər iki tərəfdəki yaşılın tonu – 2-ci şəkildə də görəcəyiniz kimi – bir-birinin eynidir. Ancaq yaşılların arasındakı qırmızı və narıncı rənglər gözümüzü aldadır və rənglərin tonlarını olduğundan fərqli görməyimizə səbəb olur. Bunun göstərdiyi vacib həqiqət budur: biz maddənin əslini deyil, sadəcə beynimizdəki şərhini görürük.

Kolbacıq hüceyrələr qəbul etdikləri bu rəng məlumatlarını malik olduqları piqmentlər vasitəsilə elektrik siqnallarına çevirirlər. Bu hüceyrələrlə əlaqədar olan sinir hüceyrələri də elektrik siqnallarını beyindəki xüsusi bölgəyə göndərirlər. Həyatımız boyu gördüyümüz rəngarəng dünyamızın əmələ gəldiyi yer elə beyindəki bu xüsusi bölgədir.

Beləliklə, beynimizdən xaricdə rənglər yoxdur, işıq da yoxdur. Sadəcə elektromaqnit dalğalar və ya hissəciklər şəklində hərəkət edən enerji var. Həm rənglər, həm də işıq sadəcə bizim beynimizdədir. Yəni biz gülü qırmızı olduğu üçün qırmızı rəngdə görmürük. Bizim gülü qırmızı görməyimizin səbəbi tor qişamıza təsir edən enerjinin beynimiz tərəfindən qırmızı kimi şərh edilməsidir.

Rəng korluğu rənglərin beynimizdə əmələ gəlməsinin vacib dəlillərindəndir. Məlumdur ki, gözdəki tor qişada əmələ gələn kiçik pozuntu rəng korluğuna səbəb olur. Belə olduqda insan yaşıl ilə qırmızını bir-birindən ayırd edə bilmir. Bu halda, xarici aləmdəki cismin rəngli olub-olmadığı vacib deyil. Çünki biz cisimləri onlar rəngli olduqlarına görə rəngli görmürük. Buradakı nəticə bundan ibarətdir: varlıqlara aid etdiyimiz bütün xüsusiyyətlər xarici dünyada deyil, beynimizdədir. Biz heç vaxt hisslərimizdən kənarlaşıb xarici aləmə çıxa bilməyəcəyimizə görə, maddələrin və ya rənglərin əsillərini də görə bilmərik. Məşhur mütəfəkkir Berkeley də bu həqiqətə aşağıdakı sözləri ilə diqqət çəkir:

Qısaca desək, eyni şeylər eyni zamanda bəziləri üçün qırmızı, bəziləri üçün isti, bəziləri üçün tam əksi ola bilirsə, bu, o deməkdir ki, biz illüziyaların təsirindəyik...

(George Politzer, Felsefenin Başlangıç İlkeleri, Sosyal Yayınları, Çev: Enver Aytekin, İstanbul: 1976, s.40)

BÜTÜN SƏSLƏRİ BEYNİMİZDƏ EŞİDİRİK

Eşitmə prosesi də eynilə görmə kimi baş verir. Başqa sözlə, xarici aləmə aid görüntüləri beynimizin içində necə görürüksə, səsləri də beynimizin içində eşidirik. Xarici qulaq ətrafdakı səs dalğalarını qulaq seyvanı ilə toplayaraq qulağa ötürür. Orta qulaq isə qəbul etdiyi səs titrəyişlərini gücləndirərək daxili qulağa ötürür. Daxili qulaq da bu titrəyişləri səsin gərginliyi və sıxlığına görə elektrik siqnallarına çevirərək beyinə göndərir. Beyində bir neçə mərhələdən sonra siqnallar son mərhələdə işlənir və şərh edilmək üçün eşitmə mərkəzinə göndərilir. Beləliklə, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Xarici qulaq ətrafdakı səs dalğalarını qulaq seyvanı ilə toplayaraq qulağa ötürür. Orta qulaq isə qəbul etdiyi səs titrəyişlərini gücləndirərək daxili qulağa ötürür. Daxili qulaq da bu titrəyişləri səsin gərginliyi və sıxlığına görə elektrik siqnallarına çevirərək beyinə göndərir.

Ona görə də beynimizdən kənarda səslər deyil, səs dalğaları kimi tanınan fiziki titrəyişlər var. Bu səs dalğalarının səsə çevrildiyi yer isə xarici aləm və ya qulağımız deyil, beynimizin içidir. Yəni görən gözlərimiz olmadığı kimi, eşidən də qulaqlarımız deyil. Məsələn, ən yaxın dostunuzla söhbət edərkən dostunuzun görüntüsünü beyninizdə izləyir, səsini də beyninizin içində dinləyirsiniz və necə ki, beyninizdəki görüntü üç ölçülü, dərinlik hissi ilə əmələ gəlirsə, dostunuzun səsi də sizə dərinlik hissini təsdiqləyəcək şəkildə gəlir. Məsələn, dostunuzu sizdən uzaqda görürsünüzsə və ya arxanızda bir yerdə otururs a, səsinin də yerinə görə uzaqdan, çox yaxından və ya arxanızdan gəldiyini zənn edirsiniz. Əslində isə, dostunuzun səsi nə arxanızda, nə də uzağınızdadır. Dostunuzun səsi sizin içinizdə, beyninizdədir.

Eşitdiyiniz səsin əsli barədə möcüzələr bununla bitmir. Beyin necə işığı keçirmirsə, səsi də keçirmir. Yəni beyinə heç bir zaman səs girə bilməz. Ona görə, eşitdiyiniz səslər nə qədər gurultulu olsa da, beyninizin içi tamamilə səssizdir. Lakin bu gurultunu, ən aydın səsləri beyninizdə dinləyirsiniz. O qədər aydındır ki, sağlam insan qulağı heç bir xışıltı olmadan hər şeyi eşidir.



Səs keçirməyən, dərin səssizliyin hökm sürdüyü beyninizdə orkestrin simfoniyalarını dinləyirsiniz, şəhərin səs-küyünü eşidirsiniz, yarpağın xışıltısından reaktiv təyyarələrin gurultusuna qədər böyük tezlik və desibel aralığındakı bütün səsləri qavraya bilirsiniz. Sevdiyiniz müğənninin konsertinə getdikdə bütün salonda əks olunan o güclü səs də, əslində, beyninizdəki səssizliyin içində əmələ gəlir. Öz-özününzə yüksək səslə mahnı oxuduğunuzda da bunu yenə beyninizdə dinləyirsiniz. Əslində isə, o anda həssas cihazla beyninizin içindəki səs səviyyəsi ölçülərsə, burada tamamilə səssizliyin hakim olduğu məlum olar. Bu, çox fövqəltəbii vəziyyətdir. Beyninizə gələn elektrik siqnalları səs kimi, məsələn, hər hansı bir stadiondakı insanların müşayiət etdiyi qrupun konserti şəklində beyninizdə dinlənilir.

İNSANLAR MADDƏNİN ƏSLİNİ GÖRDÜKLƏRİNİ ZƏNN ETSƏLƏR DƏ, BEYNİMİZDƏN KƏNARDA İŞIQ, SƏS, RƏNG YOXDUR, SADƏCƏ ENERJİ VAR

Yaşadığımız hər şeyin beynimizdə əmələ gələn xəyalların cəmi olması elmi cəhətdən sübut edilmiş bir həqiqət olduğuna baxmayaraq, bəzi insanlar beynimizdən kənarda bu görüntülərin əsllərini gördüklərini zənn və iddia edirlər. Bu, heç vaxt sübut edilə bilməyəcək iddiadır. Daha əvvəl də

bildirildiyi kimi, beynimizdən kənarda nə səs, nə işıq, nə də rənglər var. İşıq xarici aləmdə enerji dalğaları və ya enerji torbacıqları şəklində mövcuddur və ancaq tor qişaya təsir etdikdə bizə məlum olan işıq qavrayışı ilə qarşılaşırıq. Buna bənzər şəkildə xarici aləmdə səs də yoxdur. Sadəcə enerji dalğaları var. Bu dalğaların bəziləri də qulağımıza və oradan beynimizə gəldikdə səs əmələ gəlir. Xarici aləmdə rəng də yoxdur. "Rəng yoxdur", -deyərkən insanların ağlına qara, ağ, boz kimi görüntü gəlir. Əslində isə, bunlar da rəngdir. Beynimizdən kənardakı dünyada isə qara, ağ, boz belə yoxdur. Sadəcə fərqli gərginlik və tezliklərə malik enerji dalğaları var və bu enerji dalğaları sadəcə göz hüceyrələrimiz və beynimiz vasitəsilə rənglərə çevrilirlər.

"Maddənin əslini görürəm", -deyə israr edənlərin iddialarını əsassız edən elm sahələrindən biri də kvant fizikasıdır. Kvant fizikasının bizə göstərdiyi ən vacib həqiqətlərdən biri materialistlərin toxunduqda bərkliyini hiss etdikləri mütləq varlıq hesab etdikləri maddənin əslində 99.9999999%-nin boşluq olmasıdır. Fizika və psixologiya sahəsində apardığı fəaliyyətlərlə tanınan və xüsusilə insan şüuru haqqındakı açıqlamalarından ibarət bir çox kitabı olan Peter Russel *"From science to God"* (Elmdən Allaha) adlı kitabından bəhrələnərək hazırlanan bir məqaləsində bu həqiqəti belə açıqlayır:

Məsələn, maddə ilə bağlı düşüncələrimizi nəzərdən keçirin. 2000 ildir ki, atomların bərk maddəni əmələ gətirən kiçik toplar olduğuna inanılır. Daha sonra fiziklər atomların daha kiçik atom altı zərrəciklərdən (elektron, proton və neytronlar kimi) ibarət olduğunu tapdılar. Model mərkəzdə nüvə və ətrafında fırlanan elektronlara çevrildi.

Atom çox kiçikdir. Diametri 25.4 millimetrin milyardda biri qədərdir. Ancaq atom altı zərrəciklər atomdan yüz minlərlə dəfə kiçikdir. XX əsrin əvvəllərində ingilis fizik Sir Artur Eddinqton maddənin xəyal kimi boş məkan olduğunu deyərək bu vəziyyəti açıqlamışdır. Daha açıq demək lazımdırsa, maddənin 99.9999999%-i boşdur. Hətta maddəyə bənzər heç bir tərəfi yoxdur. Daha çox bulud topaları kimidirlər. Əksəriyyəti zərrəcik kimi deyil, dalğa formasında görünürlər.

(Peter Russell, "The mystery of consciousness and meaning of light" (Şüurun sirri və işığın mənası), 12 oktyabr, 2000-ci il, http://www.arlingtoninstitute.org/ futuredition/from_science_to_God.htm)

Göründüyü kimi, elmi kəşflər beynimizdən kənarda sadəcə enerji dalğalarının, enerji torbacıqlarının olduğunu bizə göstərir. Beynimizdən kənarda nə işıq, nə səs, nə də rənglər var. Habelə, maddəni əmələ gətirən atomlar və atomaltı zərrəciklər də, əslində, boşluqdan meydana gələn enerji topaları kimidirlər. Beləliklə, maddə boşluqdan ibarətdir. [Atomlar haqqında ətraflı məlumat səhifə 105-dən sonra veriləcək.]

Allah maddəni bir görüntü kimi bu xüsusiyyətlərlə yaradır.

BÜTÜN QOXULAR BEYİNİN İÇİNDƏ MEYDANA GƏLİR



Bir insandan qoxuları necə hiss etdiyini soruşsaq, çox güman ki: "Burnumla", - deyəcək. Əslində isə, bəzi insanların qəti həqiqət kimi gördüyü bu cavab doğru deyil. Yale Universitetindən nevrologiya professoru Qordon Şeferd: *"Burnumuzla qoxuladığımızı düşünürük, ancaq bu sanki "qulaq mərcəyi ilə eşidirik" demək kimi bir şeydir"*, - sözləri ilə bunun doğru olmadığını açıqlayır. (www.hhmi.org/senses/a/a110.htm)

Qoxu hissimizin funksiyası digər duyğu orqanlarımızın funksiyasına bənzəyir. Əslində, burnumuzun xaricdən görünən hissəsinin vəzifəsi sadəcə kanal kimi havadakı qoxu molekullarını içəri qəbul etməkdir. Vanil və ya gül qoxusu kim uçucu molekullar burunun epitel adlanan hissəsindəki titrək tüklərdəki reseptorlara çatır və burada qarşılıqlı əlaqəyə keçir. Qoxu molekullarının epitel bölgəsindəki əlaqəsi beynimizə elektrik siqnalı kimi çatır. Bu elektrik siqnalları isə beynimizdə qoxu kimi şərh edilir. Beləliklə, bizim xoş və ya pis adlandırdığımız qoxuların hamısı uçucu molekulların qarşılıqlı təsir nəticəsində elektrik siqnalına çevrildikdən sonra beyindəki şərh formasından başqa bir şey deyil. Ətri, çiçəyi, xoşladığınız yeməyin və ya dənizin qoxusunu, xoşunuza gələn və ya gəlməyən hər cür qoxunu beyninizdə hiss edirsiniz. Əslində, qoxu molekulları beyinə heç vaxt çatmır. **Səs və görüntüdə olduğu kimi, qoxu hissində də beyninizə çatan yalnız elektrik siqnallarıdır.**

Bütün Qoxular Beynimizdə Əmələ Gəlir

Bağında gülün ətrini alan insan heç vaxt güllərin əslini qoxulamır. Aldığı qoxu elektrik siqnallarının beyni tərəfindən şərhidir. Ancaq bu qoxu o qədər həqiqidir ki, insan heç vaxt gülün əslini qoxulamadığını anlamır. Hətta bu həqiqiliyə görə, dünyadakı insanların bəziləri həqiqi gülü qoxuladıqlarını zənn edir. Bu, Allahın yaratdığı çox böyük möcüzədir.

Bu halda, qoxunun istiqaməti də yoxdur, çünki bütün qoxular beyninizdəki qoxu alma mərkəzində dərk olunur. Məsələn, piroqun qoxusu sobadan, yeməyin qoxusu mətbəxdən, doqquzdon bitkisinin qoxusu bağdan, dənizin qoxusu metrlərlə uzaqlıqdakı dənizdən gəlmir. Hamısı tək nöqtədə, beyninizdəki lazımi yerdə dərk olunur. Bu duyğu mərkəzindən kənarda sağ, sol, ön, arxa kimi bir anlayış yoxdur. Bunların hər biri ilk baxışda müxtəlif təsirlərlə və müxtəlif tərəflərdən gəlirmiş kimi görünsə də, əslində, hamısı beyində əmələ gəlir. Qoxu alma mərkəzində əmələ gələn təsirləri xarici aləmdəki maddələrin qoxusu hesab edirsiniz. Əslində isə, gülün görüntüsü necə görmə mərkəzinin içindədirsə, o gülün qoxusu da eyni şəkildə qoxu alma mərkəzinin içindədir. Xarici aləmdə həqiqi qoxu varsa da, sizin bunun əsli ilə təmasda olmağınız əsla mümkün deyil.

Corc Berkeley bu vacib həqiqəti anlayan mütəfəkkir kimi: *"Əvvəl rənglərin, qoxuların və s. həqiqətdə mövcud olduğu hesab edilirdi; ancaq daha sonra bu cür baxışlar rədd edildi və aydın oldu ki, bunlar ancaq duyğularımız sayəsində var"*, - deyir.

Qoxunun hiss olduğunu anlamaq üçün yuxuları düşünmək də faydalı ola bilər. İnsanlar yuxularında bütün görüntüləri çox həqiqi şəkildə necə görə bilirsə, eyni şəkildə, yuxularında bütün qoxuları da həqiqətdə olduğu kimi duyurlar. Məsələn, yuxuda restorana gedən hər hansı bir şəxs yeməyini menyuda olan yeməklərin qoxuları arasında yeyir, dəniz kənarına gəzintiyə çıxan biri dənizin özünəməxsus qoxusunu duyur, çobanyastığı bağçasına girən biri o mükəmməl qoxulardan həzz alır və yaxud başqa biri ətriyyat mağazasına girərək özünə ətir seçir və hətta bu ətirlərin qoxusunu tək-tək ayırd edə bilir. Hər şey o qədər həqiqi olur ki, həmin şəxs yuxudan oyandıqda bu vəziyyətə təəccüb edir.

Bu mövzunu anlamaq üçün, əslində, yuxuları düşünməyə də lüzum yoxdur. Sadaladığımız təsvirləri hal-hazırda xəyal edib düşünməyiniz də kifayətdir. Məsələn, indi hər hansı bir çobanyastığı qoxusunu düşünün. Əlinizdə çobanyastığı olmadığına baxmayaraq, əgər fikirlərinizi cəmləsəniz, çobanyastığı qoxusunu hiss edə bilərsiniz. Qoxu o anda beyninizdə əmələ gələcəkdir. Necə hal-hazırda ananızı gözünüzün önünə gətirmək istədikdə ananızın yanınızda olmadığına baxmayaraq onu zehninizdə görə bilirsinizsə, buna bənzər şəkildə çobanyastığının qoxusunu da zehninizdə duya bilirsiniz.

Vaşinqton Universitetindən psixoloq Maykl Posner və nevroloq Markus Reyçl xarici aləmdən hər hansı bir siqnal gəlmədiyi halda görüntü və ya başqa bir hissin necə əmələ gəldiyi haqqında belə izahlar verirlər:

Gözlərinizi açın, bir mənzərə sizin qarşınızda canlanacaq. Gözlərinizi yumun və o mənzərəni düşünün. Bu şəkildə, o mənzərənin görüntüsünü xəyal edə bilərsiniz, qətiyyən sizin gözlərinizlə gördüyünüz mənzərədən canlılığı, aydınlığı və tamlığı ilə fərqlənmir. Lakin hələ mənzərənin əsas xüsusiyyətlərinə malik tərzdədir. Hər iki vəziyyətdə də mənzərənin görüntüsü zehində əmələ gəlir. Əyani şəkildə görərək əmələ gələn görüntü xəyal edilən görüntüdən fərqləndirilməsi baxımından "hiss" adlandırılır. Hiss tor qişaya

təsir edən və daha sonra beyində müəyyən prosesdən keçiriləcək siqnalları göndərən işığın məhsulu kimi ortaya çıxır. ***Lakin bu siqnalları göndərmək üçün heç bir işıq tor qişaya təsir etmədikdə bir görüntünü necə əmələ gətiririk?***

(Michael I. Posner, Marcus E .Raichle, Images of Mind, Scientific American Library, New York 1999, s. 88)

Göründüyü kimi, görüntünün zehnimizdə əmələ gəlməsi üçün xarici aləmdə hər hansı bir mənbənin olmasına ehtiyac yoxdur. Eyni vəziyyət qoxu hissinə də aiddir. Necə ki, yuxuda və ya xəyalınızda olmayan bir qoxunu duya bilirsinizsə, gerçək həyatda da qoxusunu duyduğunuz cisimlərin xarici aləmdə necə olduğunu bilmirsiniz. Əsla onların əsilləri ilə təmasda ola bilməzsiniz.

Burnun vəzifəsi sadəcə qoxuya aid siqnalları beyinə ötürməkdir. Şorbanın və ya gülün qoxusu beyində hiss edilir. Belə ki, insan ortada bir gül və ya bir boşqab şorba olmasa da, yuxuda hər ikisinin qoxusunu ala bilir. Allah beyinin içində dadı, qoxusu, görüntüsü, toxunma hissi və səsi ilə o qədər inandırıcı hisslər cəmi meydana gətirir ki, insanlara bu hisslərin beyində əmələ gəldiyini, gördükləri şeylərin heç birinin əsli ilə təmasda olmadıqlarını izah etmək üçün xeyli açıqlama vermək lazımdır. Elə bu, Allahın möhtəşəm elmidir.

Bir insan bir az fikrini cəmləyərək anasının görüntüsünü və ya çobanyastığının qoxusunu zehnində canlandıra bilər.

Bəs yanında olmadığı halda, bir gözə ehtiyacı hiss etmədən bu görüntünü görən, bir buruna ehtiyac hiss etmədən qoxu alan kimdir?

Bu varlıq insanın ruhudur.

BÜTÜN DADLAR BEYİNDƏ ƏMƏLƏ GƏLİR

Dadbilmə hissi də digər duyğu orqanlarına bənzər şəkildə açıqlana bilər. İnsan dilinin ön tərəfində dörd müxtəlif növdə kimyəvi reseptor var, bunlar duzlu, şirin, turş və acı dadlarını hiss edir. Dad reseptorları ardıcıl proseslərdən sonra bu hissləri elektrik siqnallarına çevirir və beyinə yollayır. Bu siqnallar da beyin tərəfindən dad kimi şərh edilir. Hər hansı bir tortu, qatığı, limonu və ya sevdiyiniz meyvəni yedikdə aldığınız dad, əslində, elektrik siqnallarının beyin tərəfindən şərh edilməsidir.

Beyninizdə əmələ gələn tort görüntüsünə beyninizdə əmələ gələn şirin dad əlavə edilir və tort haqqında hər şey sevdiyiniz hala gəlir. Siz iştaha ilə tortu yedikdə aldığınız dad elektrik siqnallarının beyninizdə əmələ gətirdiyi təsirdən başqa bir şey deyil. Beyniniz kənardan gələn siqnalları necə şərh edirsə, siz ancaq onu bilirsiniz. Xarici aləmdəki cisimlə əsla təmasda ola bilməzsiniz. Məsələn, şokoladın özünü görməz, qoxulaya və dada bilməzsiniz. Beyninizə gedən dadbilmə sinirləri kəsilərsə, o anda yediyiniz hər hansı bir şeyin dadının beyninizə çatması mümkün olmaz; dad duyğunuzu tamamilə itirərsiniz. Aldığınız dadların olduqca həqiqi olması, üstəlik, onlara aid görüntüləri görməyiniz sizi aldatmasın. Mövzunun elmi açıqlaması bu şəkildədir.

TOXUNMA HİSSİ DƏ BEYİNDƏ ƏMƏLƏ GƏLİR

İnsanların yuxarıda izah edilən həqiqətlərə, yəni görmə, eşitmə, dadbilmə kimi hisslərin hamısının beyində əmələ gəlməsi hissini dərk etməyə mane olan ən əsas amillərdən biri toxunma hissidir. Məsələn, bu kitabı beynində gördüyünü dediyiniz insan diqqətli düşünmədikdə: "Beynimdə görmürəm, bax, əlimlə toxunuram", -deyər. "Bu kitabın xarici aləmdə maddi cəhətdən necə olduğunu bilmirik, biz sadəcə kitabın beynimizin içindəki görüntüsünü görə bilirik", - dedikdə yenə eyni səthi düşüncəyə malik bir insan: "Xeyr, bax, əlimlə tuturam və bərkliyini hiss edirəm, deməli, necə olduğunu bilirəm", -deyə cavab verər.

Əslində isə, bu insanların anlaya bilmədikləri və ya anlamadıqları kimi davrandıqları həqiqət budur: **bütün digər duyğu orqanlarımız kimi, toxunma hissi də beyində əmələ gəlir. Yəni siz hər hansı bir cismə toxunduqda onun bərk, yumşaq, nəm, yapışqan və ya zərif olduğunu beyninizdə hiss edirsiniz.** Barmaq uclarınıza gələn təsirlər beyninizə elektrik siqnalı kimi ötürülür və beyninizdə bu siqnallar toxunma hissi kimi şərh edilir. Məsələn, siz hamar olmayan səthə toxunduqda onun nahamar

olub-olmadığını və ya hamar olmayan yerin necə hiss oyandırdığını əsla bilmirsiniz. Çünki siz hamar olmayan səthin əslinə heç vaxt toxuna bilməzsiniz. Sizin hamar olmayan yer haqqında hissləriniz beyninizin müəyyən siqnalları şərh etmə şəklidir.



Hal-hazırda oxuduğunuz kitabı əlinizdə hiss etməyiniz bu kitabı beyninizdə gördüyünüz həqiqətini dəyişdirmir. Çünki kitabın görüntüsü kimi, kitaba toxunma hissi də beyninizdə əmələ gəlir.

Çay içərək yaxın dostu ilə söhbət edən insan isti çay stəkanına toxunduqda əli yanarkən dərhal stəkanı əlindən qoyur. Ancaq burada da sözügedən şəxs stəkanın istiliyini əlində deyil, beynində hiss edir. Həmin şəxs çayın dadını və qoxusunu da beynində hiss edir, görüntüsünü isə beynində görür. Lakin insan ləzzətlə içdiyi çayın beynindəki surəti ilə təmasda olduğunun fərqinə varmayaraq, stəkanın əsli ilə təmasda olduğunu zənn edir və görüntüsü beynində əmələ gələn dostu ilə söhbət edir. Əslində, bu, çox qeyri-adi vəziyyətdir. İnsanın stəkanın bərkliyindən, istiliyindən, çayın qoxusundan, dadından təsirlənərək stəkanın əslinə toxunduğunu, çayın əslini içdiyini düşünməsi bu şəxsə beynində yaşadılan hisslərin heyrətamiz dərəcədə aydın və mükəmməl olduğunu göstərir. Üzərində diqqətlə düşünməli bu vacib həqiqəti XX əsrin məşhur mütəfəkkiri Bertrand Rassel belə ifadə etmişdir:

... Barmaqlarımızla stola əl vurduğumuz andakı toxunma hissinə gəlincə, bu, barmaq uclarındakı elektron və protonlar üzərindəki elektrik təsiridir. Müasir fizikaya görə, stoldakı elektron və protonların yaxınlığından meydana gəlmişdir. Əgər barmaq uclarımızdakı eyni təsir başqa yolla ortaya çıxsaydı, heç masa olmadığına baxmayaraq, eyni şeyi hiss edərdik.

(Bertrand Russell, Rölativitenin Alfabesi, Onur Yayınları, 1974, s.161-162)

Rasselin diqqət çəkdiyi cəhət son dərəcə əhəmiyyətlidir. Həqiqətən də, əgər barmaq uclarımıza başqa bir yolla təsir edilsə, çox fərqli hissləri duya bilərik. Belə ki, sonrakı səhifələrdə ətraflı şəkildə açıqladığımız kimi, dövrümüzdə simulyatorlar vasitəsilə bu edilir. Ələ taxılan xüsusi əlcəklə

insan həmin mühitdə olmadığı halda pişiyi oxşadığını, əl verib görüşdüyünü, suyun altında əlini yuduğunu və ya bərk cismə toxunduğunu hiss edir. Əslində isə, toxunduğunu hiss etdiyi bu varlıqların heç biri yoxdur. Bütün bunlar insanın həyatındakı bütün hissləri beynində qavradığının qəti dəlilidir.

BEYNİMİZDƏ ƏMƏLƏ GƏLƏN DÜNYANIN ƏSLİ İLƏ ƏSLA TƏMASDA OLA BİLMƏRİK

Bura qədər izah edilənlərdən açıq şəkildə göründüyü kimi, həyatımız boyu yaşadığımız, gördüyümüz, hiss etdiyimiz hər şey beynimizdə meydana gəlir. Məsələn, kresloda oturaraq pəncərədən çölə baxan hər hansı bir insan kreslonun bərkliyini, döşəmənin sürüşkənliyini beynində hiss edir. Mətbəxdən gələn qəhvə qoxusu mətbəxdə, yəni uzaqda deyil, beyninin içindədir. Pəncərədən gördüyü dəniz mənzərəsi, quşlar, ağaclar beynində əmələ gələn görüntülərdir. Onu qəhvəyə qonaq edən dostu və qəhvənin gözəl dadı da beynində əmələ gəlir. Qısası, evində oturduğunu və pəncərədən çölə baxdığını zənn edən insan, əslində, beyninin içindəki ekrandan salona, pəncərədən görünən mənzərəyə baxır. Belə ki, insan beynindəki ekranda baxdığı, mənalı şəkildə cəm edilən hisslərinin bütününə həyat deyə bilər və heç bir zaman beynindən kənara çıxa bilməz.



Mənzərəyə tamaşa edən insan, gözləri ilə gözünün önündəki mənzərəyə baxdığını zənn edir. Əslində isə, onun gördüyü mənzərə beyninin arxasındakı görmə mərkəzində əmələ gəlir. Bu mənzərəyə baxan və bu mənzərədən zövq alan, zülal və yağdan ibarət olan beyin olmadığına görə, bəs görüb zövq alan kimdir?

Baxdığımız bu ekrandan kənarda maddənin həqiqətinin necə olduğunu heç vaxt bilə bilmərik. Əslinin də bizim gördüyümüz kimi olub-olmadığını, məsələn, yarpağın rənginin xarici aləmdə də yaşıl olub-olmadığını bilmirik. Yediyimiz konfetin dadının bu cür olduğunu, yoxsa beynimizin onu bu cür şərh etdiyini öyrənmək imkanımız qətiyyən yoxdur. Məsələn, daha əvvəl gördüyünüz bir mənzərəni gözünüzdə canlandırın. Mənzərə qarşınızda deyil, amma onu beyninizdə görürsünüz. Bununla bağlı elmi yazıçı Rita Karter belə deyir:

Bir üz və ya mənzərə gördükdə tam əslini görmürük, gördüyümüz orijinalının şərhi və ya tamamilə yenidən işlənmiş formasıdır... Bunlar nə qədər çox yaxşı surətlər olsa da, orijinalından əksik və ya fərqlidir.

(Rita Carter, Mapping The Mind, s. 135)

Eyni vəziyyət o mənzərəyə baxdığınız an üçün də əsaslıdır. Mənzərəni uzaq yerdən gözünüzdə canlandırmağınızla qarşısında durub ona baxmağınız arasında heç bir fərq yoxdur. Dolayısilə, mənzərəyə baxarkən onun əslini deyil, beyninizdə işlənmiş formasını görürsünüz.

Bu barədə bir az düşünən insan bu həqiqəti bütün aydınlığı ilə görəcəkdir. Bu insanlardan biri olan Corc Berkeley *"İnsan bilgisinin prinsipləri üzərində tədqiqat"* adlı əsərində bu həqiqəti belə ifadə edir:

... Görmə yolu ilə işıq və rəng, onların müxtəlif dərəcələri və fərqləri düşüncəsinə malik oluram. Toxunma ilə yumşağı və bərki, isti və soyuğu qavrayıram... Qoxu alma mənə qoxuları, dadbilmə dadları, eşitmə isə səsləri öyrədir... Bu hisslərdən bəziləri birlikdə müşahidə olunduqları üçün onlara ortaq ad verilir və onlar bir şey hesab edilirlər. Beləliklə, məsələn, müəyyən nizamlama içərisində rəng, dad, qoxu, forma və bərklik birlikdə müşahidə edildikdə alma sözü ifadə edilən ayrı bir şey kimi qəbul edilir; digər hisslər cəmi ilə daş, ağac, kitab və digər hiss edilən şeyləri meydana gətirirlər...

("Treaties Concerning the Principle of Human Knowledge", 1710, Works of George Berkeley, vol. I, ed. A. Fraser, Oxford, 1871, s.35-36)

Berkeleyin bu sözlərində ifadə etdiyi həqiqət budur: beynimizdə yaşadığımız müxtəlif duyğuların cəmlənməsi ilə bir cismi tərif edirik. Bu misalda olduğu kimi, almanın dadı, qoxusu, bərkliyi, qırmızı rəngi, yuvarlaqlığı və digər xüsusiyyətləri ilə bağlı hisslər beynimizdə bütünlükdə qavranılır və biz bu bütünə "alma" deyirik. Amma biz heç vaxt almanın əsli ilə təmasda ola bilmərik. Bizim tək görə bildiyimiz, qoxulaya bildiyimiz, dada bildiyimiz, toxuna bildiyimiz və ya hiss edə bildiyimiz beynimizdəki surətlərdir.

Buraya qədər izah edilənləri yenidən düşündükdə bu həqiqət bütün açıqlığı ilə ortaya çıxacaqdır. Məsələn,

- İşığın olmadığı beyində rəngarəng işıqlarla bəzənmiş prospektə, bütün rəngləri, canlılığı və parlaqlığı ilə baxa biliriksə, onda bu prospektin, işıqlı lövhələrin, vitrinlərin, küçə işıqlarının, avtomobillərin işıqlarının beynimizdəki elektrik siqnallarından ibarət surətlərini görürük.

- Beynimizə heç bir səs girə bilmədiyi üçün biz heç bir zaman yaxınlarımızın səslərinin əslini eşidə bilmərik. Eşitdiklərimiz hər zaman surətidir.

- Biz heç vaxt dənizin sərinliyini, günəşin istiliyini hiss edə bilmərik. Biz daima beynimizdə onların surətlərini hiss edirik.

- Eyni şəkildə, bu günə qədər heç bir insan nanənin əslinin dadına baxmamışdır. Nanə kimi hiss etdiyi dad, əslində, beynində əmələ gələn hissdir. Çünki nanənin əslinə nə toxuna bilər, nə onun əslini görə bilər, nə də əslinin qoxusunu və dadını ala bilər.

Beləliklə, biz həyatımız boyu bizə göstərilən surətləri qavramaqla

yaşayırıq. Ancaq bu surətlər o qədər həqiqidir ki, heç vaxt bunun surət olduğunun fərqinə varmırıq. Məsələn, indi başınızı qaldırın və olduğunuz otaqda gözünüzü ətrafa gəzdirin. Özünüzü içində mebellər olan otağın içində görürsünüz. Oturduğunuz kreslonun qollarına toxunduqda sanki həqiqətən bu qolların əslinə toxunurmuş kimi bərkliyini hiss edirsiniz. Göstərilən görüntülərin həqiqiliyi, bu görüntülərin yaradılışındakı sənətin mükəmməlliyi sizi və sizin kimi milyardlarla insanı bunların xarici aləmdəki maddənin özü olduğuna inandırmaq üçün kifayətdir. Hətta insanlar o qədər inanırlar ki, dünyaya aid bütün hisslərin beyinlərində yarandığını orta sinif kitablarında oxuduqlarına və hətta bioloji kitablar bu həqiqətlərlə dolu olduğuna baxmayaraq, bunların beyinlərindəki surətləri ilə təmasda olduqlarına çətinliklə inana bilirlər. Bunun səbəbi görüntünün möhtəşəm sənətlə, son dərəcə həqiqi və qüsursuz şəkildə yaradılmasıdır.

BEYNİNİZİN İÇİNDƏKİ OTAQDAN ÖMÜR BOYU ÇIXA BİLMƏZSİNİZ

İçində böyük televizor ekranı olan qapqaranlıq otağa girdiyinizi düşünün. Çöldəki dünyaya yalnız bu otağın içindəki ekrandan baxsanız, təbii ki, bir müddət sonra sıxılıb çölə çıxmaq istəyərsiniz.

Bir anlıq düşünün, hal-hazırda da olduğunuz məkan fərqli deyil. Bir qutu kimi qapqaranlıq və kiçik kəllənizin içində xarici aləmə aid görüntülərə bir ömür boyu tamaşa edirsiniz. Amma beyninizdəki ekranda əmələ gələn görüntülərə bu dar yerdən heç çıxmadan və heç sıxılmadan baxırsınız. Həm də sizə hər şeyə bir ekrandan baxdığınızı söyləsələr, buna əsla inanmazsınız. Gördüyünüz görüntü o qədər inandırıcıdır ki, minlərlə ildir insan bu böyük həqiqətin fərqinə vara bilməmişdir.



1. Yazıçı 2. Səhifə nizamı 3. Mətbəə 4. Kitabxana 5. Cildləmə

Bu günə qədər heç bir insan beynindəki hisslərdən kənara çıxa bilməmişdir. Hər insan beynindəki hüceyrənin içində yaşayır və duyğularının ona göstərdiklərindən başqa heç bir şey hiss edə bilməz. Ona görə, duyğuları xaricindəki dünyada nələr olduğunu heç vaxt bilməz. Bu səbəbdən, "maddənin əslini bilirəm" demək səhv mühakimədir, çünki heç bir insanın buna dair dəlili yoxdur. İnsan sadəcə beynində əmələ gələn xəyal ilə təmasda

olur. Məsələn, rəngarəng çiçəklərlə bəzənmiş bağçanı gəzən insan bu bağçanın əslini deyil, beynindəki surətini görür. Ancaq bu bağça o qədər həqiqidir ki, hər insan xəyalında əmələ gələn bu bağçadan həqiqi imiş kimi zövq alır. Hətta bu günə qədər milyardlarla insan bu bağça kimi gördüyü hər şeyin əslini gördüyünü hesab etmişdir.

Bundan əlavə, bunu da bildirməliyik ki, texnologiyanın və ya elmin inkişafı da bunu dəyişdirmir. Çünki hər elmi tapıntı və ya texnoloji kəşf də insanların beynində əmələ gələcək, ona görə, bu yolla da xarici aləmə çıxmaq mümkün olmayacaq.

UZAQLIQ HİSSİ DƏ BEYİNDƏ ƏMƏLƏ GƏLİR

Avtomobillər, siqnal səsləri, mağazalar, binalar... Bir küçəyə baxdıqda qarşılaşdığınız bu mənzərə sizə çox aydın, çox həqiqi görünür. Ona görə, insanların böyük bir qismi gördükləri bu mənzərənin beyinlərində əmələ gəldiyini qavraya bilmirlər, hamısının əslini gördüklərini zənn edərək yanılırlar. Bu mənzərə o qədər mükəmməl şəkildə yaradılmışdır ki, insanın bunun xarici aləmin əsli olmadığını, sadəcə öz zehnində yaşadığı surət olduğunu anlaması mümkün deyil.

Görüntünü bu qədər inandırıcı və təsirli edən şeylər isə məsafə, dərinlik, rəng, kölgə, işıq kimi ünsürlərdir. Bu xam maddələrdən o qədər qüsursuz şəkildə istifadə edilmişdir ki, beynimizdə üç ölçülü, rəngli və canlı görüntü halına gəlirlər. Sonsuz sayda təfərrüat bu görüntüyə əlavə edildikdə ortaya heç fərqinə varmadan bütün ömür boyu həqiqi zənn edərək içində yaşadığımız və sadəcə zehnimizdə təmasda olduğumuz dünya çıxır.



Bu şəkildə arxadakı xətt qabaqdakı xətdən təxminən iki dəfə uzundur. Əslində, hər iki xətt eyni uzunluqdadır.

Bu nümunədən də göründüyü kimi, xətlərin işlənməsi, perspektiv, işıq, kölgə kimi ünsürlər insanların bəzi cisimləri olduğundan fərqli görmələrinə səbəb olur. Amma bütün cisimlər tək bir yerdə, beynimizin görmə mərkəzində qavranır.

Avtomobil idarə edən insan sükanın, qarşısındakı yolun və ağacların özündən uzaqda olduğunu zənn edir. Əslində isə, bütün bu gördükləri, eynilə bir fotoşəkildə olduğu kimi, beynində tək bir səthin üzərindədir.

İndi özünüzü avtomobil sürərkən təsəvvür edin. Avtomobilin rolunu özünüzdən bir qol məsafədə, küçə işıqlarını isə bir neçə yüz metr qarşıda görürsünüz. Qarşınızdakı avtomobil ilə aranızda təxminən 10 metr məsafə var. Üfüqdə görünən dağlar isə kilometrlərlə uzaqdadırlar. Ancaq bu təxminlərinizin hamısı səhvdir! Nə dağlar, nə də qarşınızdakı avtomobil o qədər uzaqda deyil. Bütün bu görüntülər bir film pərdəsi kimi beyninizdə tək bir səthdə, iki ölçülü şəkildə yerləşir. Bəs onda bu məsafə və dərinlik hissi necə əmələ gəlir?

Məsafə dediyimiz hiss bir növ üç ölçülü görmə formasıdır. Görüntülərdə məsafə və dərinlik hissini yaradan şeylər isə perspektiv, kölgə və hərəkət dediyimiz ünsürlərdir. Optika elmində məkan (space) hissi deyilən bu hiss forması çox qarışıq sistemlərlə təmin olunur. Bu sistemi ən asan yolla belə izah edə bilərik: əslində, gözümüzə gələn görüntü sadəcə iki ölçülüdür. Yəni hündürlük və en ölçülərinə malikdir. Göz bülluruna gələn görüntülərin ölçüləri və iki gözün eyni anda iki fərqli görüntü görməsi dərinlik və məsafə hissini əmələ gətirir. Bizim hər bir gözümüzə düşən görüntü digər gözə gələn görüntüdən bucaq, işıq kimi ünsürlər baxımından fərqlənir. Beyin bu iki fərqli görüntünü vahid rəsm halına salaraq dərinlik və məsafə hissini əmələ gətirir.

Özünüzdən uzaq olduğunu zənn etdiyiniz cisimlərin hamısı beyninizin içindədir

Bunu daha yaxşı anlamaq üçün bir təcrübə keçirə bilərik. Əvvəlcə, sağ qolunuzu bacardıqca irəli uzadın və şəhadət barmağınızı qaldırın. İndi gözlərinizi barmağınıza zilləyərək növbə ilə sağ və sol gözlərinizi yumub açın. İki gözə fərqli iki görüntü gəldiyi üçün barmağın bir az yerini dəyişdirdiyini və ya sürüşdüyünü görəcəksiniz. İndi iki gözünüzü də açaraq sağ şəhadət barmağına zilləyərkən sol əlinizin şəhadət barmağını mümkün olduğu qədər gözlərinizə yaxınlaşdırın. Yaxındakı barmağın cüt görüntü əmələ gətirdiyini görəcəksiniz, bu isə duyğu sistemində uzaqdakı barmaqdan fərqli dərinlik hissi əmələ gəlməsinə görədir. İndi bu vəziyyətdə ikən gözlərinizi növbə ilə yumub-açsanız, yaxındakı barmağın daha çox yer dəyişdirdiyini görəcəksiniz, çünki iki gözə düşən görüntülərin fərqi artmışdır.

Üç ölçülü film çəkilərkən də bu üsuldan istifadə edilir; iki müxtəlif bucaqdan çəkilən görüntü eyni ekran üzərində əks etdirilir. Tamaşaçılar rəng filtri və ya polyarlaşdırıcı filtrli eynəklər taxırlar. Eynəyin şüşəsindəki filtrlər

iki görüntüdən birini tutur, beyin bunları birləşdirib üç ölçülü görüntü halına salır.

İki ölçülü tor qişada dərinlik hissinin əmələ gəlməsi iki ölçülü rəsm kanvasında həqiqi dərinlik hissi yaratmağa çalışan rəssamların istifadə etdiyi üsula çox bənzəyir. Dərinlik hissini əmələ gətirən bəzi vacib ünsürlər var. Bunlar cisimlərin üst-üstə yerləşməsi, atmosfer perspektivi, tekstura dəyişikliyi, xətti perspektiv ölçü, yüksəklik və hərəkətdir. Tekstura dəyişikliyi dərinlik hissinin əmələ gətirilməsində son dərəcə vacibdir. Üzərində gəzdiyimiz səth, məsələn, yol və ya çiçəklərlə dolu çöl, əslində, bir teksturadır. Bizə yaxın olan teksturalar daha hərtərəfli, uzaqdakılar isə daha tutqun görünür. Ona görə, tekstura üzərində yerləşdirilən cisimlərin məsafəsi haqqında mühakimə yürütmək çox asandır. Bundan başqa, burada kölgə və işıq ünsürləri də birlikdə üç ölçülü görüntünü tamamlayır.

Belə ki, qabiliyyətli rəssamların çəkdiyi rəsmlərə heyranlıqla baxmağımızın səbəbi kölgə və perspektiv ünsürlərindən istifadə edərək rəsmə verdikləri dərinlik və canlılıq hissidir.

Perspektiv uzaqdakı şeylərin müşahidəçiyə görə yaxındakı şeylərə nisbətən daha kiçik görünməsindən irəli gəlir. Məsələn, bir mənzərə rəsminə baxdıqda uzaqdakı ağaclar kiçik, yaxındakı ağaclar böyük görünür və ya arxa plandakı dağ rəsmi ön plandakı insan rəsmindən daha kiçik çəkilir. Xətti perspektivdə isə rəssamlar paralel xətlərdən istifadə edirlər. Məsələn, qatar relsləri üfüq xəttində birləşərək məsafə və dərinlik hissini əmələ gətirirlər.



Dərinlik hissini əmələ gətirən ünsürlərdən biri tekstura dəyişikliyidir. Bizə yaxın olan teksturalar daha hərtərəfli, uzaqda qalanlar isə daha tutqun görünür. Məsələn, yan tərəfdəki şəkildən də göründüyü kimi, rəng, kölgə və işıqdan istifadə edilərək düz kağız üzərində üç ölçülü, dərinlik hissi olan, qabarıqlıq şəkli verilən tekstura əmələ gətirilmişdir.

Yuxarıdakı şəkildə bütün nöqtələrin ağ olmasına baxmayaraq, ağ-qara, yanıb-sönən kimi görünürlər.

Rəssamların rəsmlərində istifadə etdikləri üsul beynimizdə meydana gələn görüntüyə də aiddir. Beynimizdəki iki ölçülü məkanda dərinlik, işıq, kölgə eyni üsulla meydana gəlir. Bir görüntüdə təfərrüatlar, yəni işıq, kölgə və ölçülər nə qədər hərtərəflidirsə, o görüntü o qədər həqiqi olur və

hisslərimizi aldadır. Beləliklə, biz üçüncü ölçü olan dərinlik və məsafə varmış kimi hərəkət edirik. Halbuki, gördüyümüz bütün görüntülər film kadrı kimi tək bir səth üzərindədir. Beynimizdəki görmə mərkəzi son dərəcə kiçikdir! Bütün o uzaq məsafələr, uzaqdakı evlər, göydəki ulduzlar, Ay, Günəş, havada uçan təyyarələr, quşlar kimi görüntülər bu kiçik məkana sığışdırılır. Yəni sizin baxıb minlərlə kilometr yuxarıda dediyiniz təyyarə ilə əlinizi uzadaraq tuta bildiyiniz stəkan arasında texniki bir məsafə yoxdur, hamısı beyninizdəki qavrama mərkəzində tək bir səth üzərindədir.

Məsələn, üfüqdə gözdən itməkdə olan gəmi, əslində, sizdən kilometrlərlə uzaqda deyil. Gəmi sizin beyninizin içindədir. Baxdığınız pəncərənin çərçivəsi, pəncərənin qarşısındakı qovaq ağacı, evinizin qarşısından keçən yol, dəniz və dənizdə hərəkət edən gəmi də daxil olmaqla, beyninizdəki görmə mərkəzində, yəni iki ölçülü məkanda əmələ gəlir. Bir rəssam böyüklük və kiçiklik kimi nisbətləri, rəng, kölgə və işıq kimi xam maddələrdən və perspektivdən istifadə edərək uzaqlıq hissini iki ölçülü rəsmdə necə göstərə bilirsə, bizim beynimizdə də buna bənzər şəkildə uzaqlıq hissi olur. Nəticədə, gördüklərimizi özümüzdən uzaqda imiş kimi qavramağımız, gördüklərimizlə aramızda bir məsafə olması bizi yanıltmalı deyil. Çünki məsafə də digərləri kimi bir hissdir.

İKİ ÖLÇÜLÜ YERDƏ DƏRİNLİYİ OLAN GÖRÜNTÜ MEYDANA GƏTİRMƏK

Bu səhifələrdə görünən şəkillərin hamısında son dərəcə həqiqi dərinlik hiss edilir. İki ölçülü kanva (kətan) üzərində kölgə, perspektiv və işıqdan istifadə edilərək üç ölçülü, dərinliyi olan görüntü əmələ gətirilmişdir. Rəssamın bacarığına görə bu həqiqilik daha da artır. Buna bənzər vəziyyət bizim görmə hissimizə də aiddir. Çünki gözün tor qişasına düşən görüntü iki ölçülüdür. Ancaq hər iki gözə düşən görüntü daha sonra tək rəsm halına salınır və üç ölçülü, dərinliyi olan görüntü kimi beynimizdə qavranır.

BEYİNDƏKİ KİÇİK DÜNYA

İnsanlar, olduqca inandırıcı görünən görüntülərə aldana və bu görüntüləri "həqiqi maddə" zənn edə bilərlər.

Tarixdəki ilk "kino nümayişi", bunun maraqlı bir nümunəsidir. 1895-ci ildə Auguste və Louis Lumierez adlı iki fransız ixtiraçısının Parisdə etdikləri bu ilk nümayişdə, stansiyaya yaxınlaşan bir qatarın görüntüsü pərdəyə əks etdirilmiş, ancaq zaldakı tamaşaçıların çoxu, qatarın onları əzəcəyindən qorxaraq çaxnaşma halında çölə qaçmışlar.

Bu nümunədən də aydın olduğu kimi, bir görünüşü "həqiqət" zənn edə bilməyimiz, görünüşdəki texniki keyfiyyət ilə yaxından əlaqədardır. İlk dəfə kino pərdəsi görən insanlar, bu, o dövr üçün çox üstün bir texnologiya olduğu üçün, gördükləri qatarın "həqiqi" olduğunu sanmış və çaxnaşmaya qapılmışlar. Bu gün isə eyni təsir, holoqram (üçölçülü görüntü) meydana gətirən xüsusi eynəklər sayəsində əldə edilir. Bu eynəyi taxan insanlar, gözlərinin qarşısında yaradılan virtual dünyanın gerçək olduğu hissinə qapılır, bu hissə görə hərəkət edirlər. Halbuki bu əsnada, bunun tamamilə virtual bir görüntü olduğunu qəti olaraq bilirlər.

Yaxşı "həqiqi dünya" dediyimiz görünüşlərin vəziyyəti nədir? Bunlar da texniki keyfiyyətləri səbəbiylə bizi yanıldan bir holoqram ola bilərmi?

Bu sualın cavabını tapmaq üçün, ilk növbədə, "görmə"nin nə olduğu haqqındakı məlumatlarımızı yenidən düşünməyimiz lazımdır.

XARİCİ ALƏMDƏ İŞIQ YOXDUR

Zəmanəmizdə elm adamlarının son elmi ixtiralar işığında tapdıqları maraqlı bir həqiqət vardır: Dünyamız həqiqətdə zülmət qaranlıqdır. Çünki bu gün artıq məlumdur ki, işıq tamamilə subyektiv bir anlayışdır; yəni insanların beynində bir hiss olaraq meydana gələr. Həqiqətdə xarici aləmdə işıq yoxdur. Nə lampalarımız, nə avtomobil faraları, nə də ən böyük işıq qaynağı olaraq bildiyimiz Günəş əslində işıq saçmaz.

Günəş və digər "işıq qaynaqları", sadəcə çox müxtəlif dalğa uzunluqlarında fərqli növdə elektromaqnit hissəciklər saçar. Bu hissəciklər, strukturlarının nəzərdə tutduğu şəkildə kainata yayılır. Bunlardan bir qismi dünyamıza çatır və yenə strukturlarının tələbi ilə müxtəlif təsir meydana gətirir. Bu təsir, hissəciyin həcminə, ağırlığına, sürətinə, tezliyinə görə dəyişir.

Məsələn, bir çox radioaktiv hissəcik bədənimizin içindən keçib gedər. Onları ancaq qurğuşun lövhələri dayandıra bilər. Bu hissəciklərin bəziləri elə ağır və enerji yüklüdür ki, çox vaxt toqquşduqları molekulu parçalayaraq yollarına azmadan davam edərlər. Bu, radiasiyanın xərçəngə yol açmasının arxasında duran səbəbdir. Daha zəif bir radiasiya olan rentgen şüalarından faydalanılaraq rentgen cihazları ixtira edilmişdir. Bu cihazların gördüyü iş, radio dalğalarının meydana gətirdiyi təsiri "görülə bilən işığa" çevirmək, yəni gözlərimiz tərəfindən qəbul edilə bilən hala gətirməkdir.

Radio dalğalarda hissəciklər olmadığı üçün toqquşma zamanı insana zərər verməzlər. Bu dalğalar heç bir duyğu orqanımız tərəfindən hiss olunmaz, ancaq evlərimizdəki radiolar bunları qulaqlarımız tərəfindən eşidilən səs dalğalarına çevirər. Radioda bir yayım olmadıqda eşidilən xışıltı, əslində Günəş və bütün ulduzlar tərəfindən kainatın başlanğıcından bu yana yayılan kosmik fon radiasiyasının "səsidir". Burada "səs" sözü ilə nəzərdə tutulan, bu dalğaların radiolarımız tərəfindən işlənərək qulaqlarımız tərəfindən eşidilə bilən hala gətirilməsindən sonra beynimizdə meydana gətirdikləri qavrayışdır.

"İşıq" dediyimiz qavrayış mənbəyini təşkil edən fotonlar isə daha çox yüngül hissəciklərdir və əksəriyyətlə ilk toqquşduqları atomdan sıçrayarlar. Üstəlik bunu edərkən dəydikləri yerə çox zərər də verməzlər. Tezlikləri, yəni titrəşmə sürətləri səbəbiylə daha çox enerji yüklü olan ultrabənövşəyi şüaları, dərimizə nüfuz edə bilər və bəzən genetik şifrəmizdə pozulmalara səbəb ola bilər. Müəyyən saatlarda günəş işığına həddindən artıq çox məruz qalmanın xərçəngə səbəb ola bilməsi də buna görədir.

Tezlikləri gərəyi infraqırmızı olaraq adlandırılan fotonlar isə toqquşduqları səthdə enerjilərinin bir qismini buraxarlar və buradakı atomların titrəmə sürətini, yəni istiliyini artırırlar. Bu istiqamətləriylə infraqırmızı şüalar, istilik şüaları olaraq da adlandırılır. Közərmiş bir kömür sobası və ya bir elektrik sobası bol miqdarda infraqırmızı şüa yayar. Bu şüalar dərimiz tərəfindən istilik hissi olaraq "görülər", yəni qəbul edilər.



1. İnfraqırmızı şüalar, 2. Ultrabənövşəyi şüalar, 3. Rentgen (X) şüaları

Gözlərimiz sadəcə ultrabənövşəyi ilə infraqırmızı şüalarının arasında olan şüaları görə bilər.

Məhz fotonların bir qismi də vardır ki, tezlikləri ultrabənövşəyi və infraqırmızı şüaların arasında qalmışdır. Bunlar gözümüzün arxasındakı retina təbəqəsinə düşdüyündə buradakı hüceyrələr tərəfindən elektrik siqnalına çevrilirlər. Biz də əslində bir hissəcik olan fotonları "işıq" olaraq qəbul edərik. Əgər gözümüzdəki hüceyrələr fotonları "istilik hissəcikləri" olaraq qavrayarlarsa, o zaman bizim üçün işıq, rəng və qaranlıq olaraq adlandırdığımız anlayışlar heç bir zaman olmayacaq, cisimlərə baxdığımızda onların yalnız "isti" və ya "soyuq" olduqlarını hiss edəcəkdik.

GÖRƏN, GÖZ DEYİL

Bu ana qədər radiasiya növləri üzərində bu şəkildə texniki şərhlər etməyimizin səbəbi, bunların olduqları mühitdə "işıq" adlı bir təsir əmələ gətirmədiklərinin başa düşülməsi üçün idi. Bəhs etdiyimiz radioaktiv hissələr

hərəkət edərlər, toqquşarlar, sıçrayarlar, bəzən qırar və pozarlar, fiziki və kimyəvi təsirlər meydana gətirərlər. Lakin meydana gətirdikləri təsirlərin heç biri işıq olaraq adlandırıla bilməz.

Bizim bu hissələrin bəzilərini "işıq şüaları" olaraq adlandırmağımızın tək səbəbi, bunların gözümüz tərəfindən qəbul edilməsidir. Gözümüzün arxasındakı retina təbəqəsinə düşən fotonlar, buradakı qavrama hüceyrələri tərəfindən elektrik cərəyanına çevrilirlər. Bu elektrik axını sinirlər tərəfindən beyindəki görmə mərkəzinə daşınar. Beyindəki görmə mərkəzi bu elektrik cərəyanlarını şərh edərək bir görünüş meydana gətirər.

Bu sistemə baxdığımızda maraqlı bir nəticəyə gəlirik: Əslində gözümüzün "görmə" kimi bir xüsusiyyəti yoxdur. Göz, sadəcə fotonları elektrik siqnalına çevirən ara bölmədir. İdrak etmə qabiliyyəti yoxdur. Ətrafımızı əhatə etdiyini düşündüyümüz tərtəmiz dünyanı seyr edən göz deyil. İşıq və ya rəng hissi gözdə meydana gəlməz.

Bu mövzunu daha yaxşı qavraya bilmək üçün görmənin texniki tərifini bir az daha ətraflı araşdıraq.

Biz hər bir tezlikdəki (titrəmədəki) fotonlara bir rəng adı veririk. Fotonun titrəmə uzunluğuna görə qırmızı, mavi və ya sarı deyərik. Bütün tezliklərin birləşməsi isə ağı meydana gətirər. Kağız ağdır, çünki hər tezliyi əks etdirər və bunların birləşməsi ağı meydana gətirər. Yarpaq yaşıldır, çünki yalnız yaşıl rəng hissi verən tezliklərdəki fotonları əks etdirir, geri qalanları əmər. Şüşə şəffafdır, çünki fotonlar demək olar ki, heç bir maneə ilə qarşılaşmadan şüşənin içindən keçərək bizə çata bilərlər. Qara bir parça, bütün fotonları udduqları üçün geriyə heç bir şey əks olunmaz. Yəni buradan gözümüzə fotonlar çatmaz, biz də onu qaranlıq, yəni qara olaraq qəbul edirik. Güzgü görünüşün surətini göstərər, çünki əks etdirmə səthi hamardır və gələn şüalar toqquşub sıçradıqları anda bir-birlərinə olan paralellikləri demək olar ki, heç pozulmaz.



Bu məlumatlar, işıq, qaranlıq, ağ, yaşıl, şəffaf kimi anlayışlar beyində yaranan qavrayışdan ibarətdir, tamamilə nisbi anlayışlar olduğunu göstərir. Həqiqətdə xarici dünyada nə işıq, nə də rəng vardır. Sadəcə bizim bu şəkildə şərh edəcəyimiz radiasiya növləri vardır. Şərhlər tamamilə bizə aiddir. Gözdə meydana gələcək bir səhv və ya quruluşca bir fərqlilik, gələn fotonları fərqli elektrik siqnallarına çevirəcək və beyindəki görmə mərkəzi eyni xüsusiyyətdə belə olsa, göz tərəfindən işlənən siqnallar, eyni cismin çox fərqli şəkillərdə qəbul edilməsinə səbəb olacaq. Rəng korları ilə normal görənlərin müəyyən rəngləri çox fərqli qəbul etmələri və şərh etmələri bu səbəbdəndir.

Qısacası, bizim işıq və ya rəng olaraq şərh etdiyimiz foton hərəkətləri, zülmət qaranlıq bir mühitdə reallaşan fiziki hadisələrdən başqa bir şey deyil. Göz də daxil olmaq üzrə bütün bədənimiz və 3 ölçülü, rəngarəng bir məkan olaraq gördüyümüz, bəzi insanların qəti olaraq var olduğunu iddia etdikləri bütün maddi aləm, bu qaranlığın içində yerləşir.

XARİCİ ALƏM İLƏ SİZİN ARANIZDAKI ÜÇ MƏRHƏLƏLİ DİVAR

Diqqət edilsə, elmin ortaya qoyduğu bu nəticələr bizə çox əhəmiyyətli bir həqiqəti göstərir: Biz xarici aləmdə maddənin əsli ilə heç vaxt təmasda ola bilmərik.

Məsələn, qarşısına keçib seyr etdiyimiz televizorun özünü heç bir zaman görə bilmərik. Bizə yalnız bu televizordan çıxıb gələn və ya ona dəyib əks olunan fotonlar çatar. Bunlar işıq deyil, hissəciklərdir. Bir divara dəyən tennis topunun geri sıçraması və bizim də yalnız bu topu görməyimiz kimi bir vəziyyətdir bu. Yəni daha bu mərhələdə televizorun əslindən bir mərhələ qopmuş olarıq. Fotonlar gözümüzə gəlib retina hüceyrələrinə toqquşduqda isə, buradakı fermentlər tərəfindən elektrik enerjisinə çevrilirlər. Yəni televizorun əslindən ikinci bir mərhələ daha qoparıq. Bu elektrik enerjisi sinirlər tərəfindən beynimizdəki görünüş mərkəzinə çatdırıldığında, bir daha dəyişikliyə uğrayar və "görüntü" dediyimiz formaya bürünər. Bu, üçüncü mərhələdir. Tək bir mərhələ belə "həqiqi televizor" ilə bizim aramızdakı əlaqəni qoparmağa kifayət ikən, bu iş tam üç fərqli mərhələdə üç dəfə reallaşar.

Bir nümunə vermək lazım olsa, bu, bir-birinə qapılarla bağlanmış 3 ayrı otağın içindəki 3 adamla qulaqdan qulağa oynamaq kimidir. Sizin qulağınıza fısıldanan cümləni həqiqətən ilk adammı söyləmişdir; ikinci və ya üçüncü adam bunu dəyişdirərəkmi ötürmüşlər; üçüncü adam bunu tamamilə özümü ortaya atmışdır; bunların heç birindən əmin ola bilməzsiniz. İlk və ikinci kəslərin əslən nəyi söylədiklərindən belə əmin ola bilməzsiniz.

Mövzunu daha da yaxşı açıqlayacaq bir başqa nümunəni belə verə bilərik: Sizi bir təcrübə üçün 1 illiyinə xarici dünyaya tamamilə qapalı yeraltı otağa bağladıqlarını fərz edin. Xarici dünya ilə yeganə əlaqəmiz də qarşınızdakı qapalı dövrə televizor ekranı olsun. Otağa girərək ekranı ilk açdığınızda belə bir yazıyla qarşılaşırsınız: "Bu ekranda izləyəcəyiniz görüntülər, Afrika qitəsində canlı olaraq yayımlanan kameralardan çatdırılır.

Görüntü üç mərhələdən keçərək beynimizə çatar. Bu, eyni "ağızdan ağıza" oyununa bənzəyir. Biz heç bir zaman əmin ola bilmərik ki, sonuncunun qulağına pıçıldanan sözlər birincinin pıçıldadığı sözlərlə eynidir.

Bu kameraların təsbit etdiyi görünüşlər canlı olaraq peyklərə ötürülür, peyklərdən bu otağın yuxarısındakı ötürücülərə ötürülür, buradan da sizin ekranınıza daşınır."

Bu mesajın doğru olub-olmadığından heç bir zaman əmin ola bilməzsiniz, çünki görüntünün ötürüldüyü hər mərhələdə, görünüşün süni bir qaynaqdan gəlməsi mümkündür. Afrika qitəsində çəkiliş aparıldığı iddia edilən kameralar, əslində illər əvvəl çəkilmiş bir video kaseti göstərir və peyk üzərindən bu kaset sizə ötürülmüş ola bilər. Bundan əlavə, ortada heç bir kamera və peyk olmayıb, sizə yalnız yan otaqdakı bir video cihazından kaset izlətdirilə bilər. Afrika qitəsinə şəxsən getmədikcə bunu bilməzsiniz. Amma otaqdan çıxa bilmədiyinizə görə, Afrikaya gedib hadisələrin "əslini" görməniz də əsla mümkün olmaz.

Buna baxmayaraq yenə də bu otağa girməmişdən əvvəl xarici dünya haqqında əldə etdiyiniz məlumatlar və bu otaqdan bir zaman sonra təkrar çıxacaq olduğunuzu bilməniz, sizə ekranda gördüklərinizin "əsl" olduğuna dair bir qənaət təmin edə bilər. Ancaq əgər bu otaq, sizin doğulduğunuz gündən bu yana həyatınızı keçirdiyiniz yerdirsə? Həyatınız boyunca bu otaqdan heç çıxmadınızsa? Həyatınız boyunca "xarici dünya" olaraq yalnız qarşınızdakı ekranı görürsünüzsə? O zaman, bu ekranda gördüyünüz şeylərin "əsilləri ilə təmasda olduğunuza" dair heç bir dəlil qalmaz. Çünki təmasda olduğunuz tək şey, ekrandakı görüntülərdir.

Görmə duyğusu üçün izah etdiyimiz bu kimi faktlar, eşitmə, toxunma, dad və qoxu hissləri üçün də keçərlidir. Bunların hər birini beynimizdəki bağlı otaqların (eşitmə, toxunma, dad və qoxu mərkəzlərinin) içində qavrayırıq. Bunların xarici dünyadakı həqiqi qarşılıqlarına əsla çata bilmərik. Dinlədiyimiz radionun səsi, beynimizdəki eşitmə mərkəzinin içindədir. Xaricdə hər hansı bir səs yoxdur, yalnız "səs dalğası" dediyimiz fiziki hərəkətlər var. Bu fiziki hərəkətlər müxtəlif mərhələlərdən keçdikdən sonra bizə elektrik siqnalı olaraq gəlir. Bir elektrik siqnalı olaraq qəbul etdiyimiz səsin çöldə həqiqi bir qarşılığı olub - olmadığını

əsla bilmərik. Yuxarıdakı bağlı otaq nümunəsinin üzərində təkrar düşünsək, bizə "Afrika meşələrindəki aslanların kükrəməsi" olaraq dinlədilən səslər, həqiqətdə bağlı otağımızın yan tərəfindəki bir studiyada yaradılan süni səslər ola bilər.



Ekranda canlı olaraq izlədiyimizi zənn etdiyimiz görüntünün əslində yan tərəfdəki otaqda yayımlanan lent vasitəsi ilə bizə ötürüldüyünü bilə bilmərik.

ÖZ BƏDƏNİMİZ VƏ YUXULARIMIZ

Buraya qədər mövzunu daha asan qavramaq üçün həmişə digər cisimlərdən bəhs etdik. Bir televizorun əslini görə bilmərik, bir radionun əslini eşidə bilmərik. Bütün şəkillər, səslər, qoxular və dadlar beynimizdəki əlaqədar mərkəzlərin içində yaranan qavrayışlardır. Xaricimizdəki bir dünyanın içində deyil, içimizdəki bir dünyada yaşayırıq.

İnsanların bu açıq həqiqəti qavramaqda çətinlik çəkmələrinə səbəb olan bir amil, öz bədənləri mövzusunda səhv düşüncələridir. Aşağıya baxdıqlarında gördükləri bədən və bu bədənin hər tərəfindən özlərinə çatan toxunma hissləri, onların dünyanı səhv qavramalarına səbəb olur. Bu bədənin verdiyi təəssürat səbəbiylə, sanki bir "xarici aləm"in içində yaşadıqları hissinə qapılarlar.

Halbuki bəhs etdiyimiz bədənin də, digər cisimlər kimi beynimizdəki qavrayışı ilə təmasda oluruq. Bədənimizə dair bütün məlumatlarımız, yəni bədənimizin görünüşü və beynimizə çatan toxunma hissləri, beynimizin əlaqədar qavrama mərkəzlərindədir.

Yuxularımızı düşünsək bu mövzunu daha asan qavraya bilərik. Yuxunuzda özünüzü tamamilə xəyali dünyalar içində görürsünüz. Ətrafınızda gördüyünüz cisimlərin və insanların heç bir həqiqiliyi yoxdur. Üzərində gəzdiyiniz torpaq, yuxarıdakı səma, gördüyünüz evlər, ağaclar, avtomobillər və digər hər şey tamamilə xəyaldır; maddi bir qarşılığı yoxdur. Və hamısının yeri, sizin beyninizin içidir. Beyninizdə, daha doğrusu zehninizdə vardırlar və bundan başqa bir yerdə də deyildirlər.

Diqqət etsəniz, eyni vəziyyət yuxunuzda gördüyünüz öz bədəniniz üçün də keçərlidir. Yuxunuzda da, indi olduğu kimi, aşağıya doğru baxdığınızda əli-qolu olan, gəzən, nəfəs alan, toxunma hissləri olan bir bədən görərsiniz. Bu bədən yuxu xaricindəki həqiqi həyatda gördüyünüz bədəndən bir xeyli fərqli də ola bilər. Bəlkə özünüzü üç qollu, dörd ayaqlı qəribə bir canavar kimi də görə bilərsiniz. Bu üç ayrı qolun üçündə də toxunma duyğusu hiss edə bilərsiniz. Bir başqa yuxuda isə, özünüzü qanadları olub uça bilən bir canlı olaraq görə bilər, bu qanadları çox inandırıcı bir şəkildə hiss edə

bilərsiniz. Bir yuxuda görülə biləcək olan bu virtual bədənlərin hamısı, yalnız sizin zehninizdə mövcud olan, amma sanki zehninizin xaricindəymiş kimi hiss etdiyiniz qavrayışlardan ibarətdir.

Yuxuda özümüzü uçarkən görə bilərik, amma bu, bizim gerçəkdən uça bildiyimizi göstərməz. Biz yenə də yuxu əsnasında uça bildiyimizə inanarıq.

Yuxuda özümüzü qanadlı bir məxluq kimi gördüyümüz zaman buna inanarıq.

Yuxu nümunəsi bizə bunu göstərir: Bədənimizi çox həqiqi bir şəkildə hiss etməyimiz, həqiqətən fiziki mənada belə bir bədənə sahib olduğumuzu göstərməz. Ortada heç bir fiziki bədən yoxkən də, tamamilə zehnimizin içindəki bir bədən qavrayışını "vücudumuz" olaraq görüb hiss edə bilərik.

Yaxşı, yuxular ilə "həqiqi həyat" arasındakı fərq nədir? Yuxuların həqiqi həyat dediyimiz qavrayışlara görə daha davamsız, məntiqi cəhətdən əsassız və qeyri-müntəzəm olduğu doğrudur. Amma bunun xaricində, texniki olaraq, yuxu ilə "həqiqi həyat" arasında fərq yoxdur. Çünki hər ikisi də, beyinin içindəki qəbul mərkəzlərinin xəbərdar edilməsi yolu ilə baş verir.

Əvvəlki səhifələrdə "gerçək həyat" dediyimiz qavrayışların görmə mərkəzi, eşitmə mərkəzi kimi beyin hissələrində yaşandığını araşdırmışdıq. Bir ensiklopdiyada, yuxunun da eyni şəkildə yaşandığı belə izah edilir:

Yuxu görmək, digər bütün zehni əməliyyatlar kimi, beyinin və fəaliyyətlərinin məhsuludur. Bir insan istər oyaq, istərsə yuxuda olsun, beyin

daimi olaraq elektrik dalğalar verir. Elm adamları bu dalğaları "elektroensephalograf" adı verilən bir cihazla ölçürlər. Yuxunun böyük hissəsində, beyin dalğaları geniş və yavaşdır. Amma bəzi müəyyən zamanlarda, daha kiçik və sürətli hala gəlirlər, gözlər sanki, yuxu görən adam ardıcıl hadisəni seyr edirmiş kimi olduqca sürətli hərəkət etməyə başlayır. Yuxunun REM (Rapid Eye Movement-Sürətli Göz Hərəkəti) deyilən bu qismi, yuxuların çoxunun meydana gəldiyi hissədir. Əgər adam REM əsnasında oyandırılırsa, gördüyü yuxunun təfərrüatlarını böyük ehtimalla xatırlayacaq ... REM yuxusu əsnasında, beyindən əzələlərə siqnal göndərən sinir yolları bağlanacaq. Bu səbəbdən, yuxu əsnasında bədən hərəkət etməz. Həmçinin serebral korteks (beyinin yüksək zehni funksiyalarla əlaqədar qismi) REM əsnasında, röya görülməyən yuxu hissələrinə görə daha çox aktivdir. Korteks, beyinin "beyin sistemi" adı verilən hissəsindən gələn neyronların (sinir hüceyrələrinin) daşıdığı impulslar (xəbərdarlıqlar) tərəfindən hərəkətə keçirilir. (World Book Multimedia Encyclopedia, "Dream", World Book Inc., 1998)

Yəni yuxu beynimizin əlaqədar mərkəzlərinə gələn impulsların (xəbərdarlıqların) şərhindən ibarət qavrayışlar toplusudur.

Diqqət etsəniz, "həqiqi həyat" dediyimiz həyat da tamamilə eyni şəkildə meydana gələr: Beynimizin əlaqədar mərkəzlərinə gələn xəbərdarlıqlar, bu mərkəzlərdə şərh olunar və biz bu qavrayışlar toplusunu "xarici dünya" olaraq qəbul edərik.

Buradakı kritik sual, bu qavrayışların qaynağının nə olduğu sualıdır. Vərdişlərimiz, bizi həmişə əsli ilə təmasda olduğumuza inandırmışdır. Halbuki, xaricdə maddə vardır, ancaq biz o maddənin əslini heç bir zaman bilə bilmərik.

Mövzunu daha yaxşı başa düşmək üçün yuxu üzərində düşünməyə davam edək. Yuxu görən bir insandan bunu soruşaq: "Gördüyün qavrayışların qaynağı nədir?" Bu suala böyük ehtimalla "xarici aləmdəki cisimlər və bunları qəbul edən bədənim" deyəcək. Amma ortada nə xarici aləm, nə də bu dünyanı qavrayan bir bədən vardır. Gördüyü hər şey, beynindəki əlaqədar mərkəzlər tərəfindən qəbul edilən siqnallardan ibarətdir.

Bizim də gördüyümüz, eşitdiyimiz, toxunduğumuz, dadını və qoxusunu aldığımız hər şey, beynimizdəki əlaqədar mərkəzlər tərəfindən qəbul edilən siqnallardan ibarət olduğuna görə, o zaman xarici aləmin əsli ilə təmasda olduğumuzdan necə əmin ola bilərik?

Əmin olacağını iddia edən kəs, eyni zamanda özünün "qüllənin təpəsindəki kiçik adam" olduğunu da iddia etmiş olur.

Səbəbini bir sonrakı hissədə araşdıraq.

QÜLLƏNİN ZİRVƏSİNDƏKİ KİÇİK ADAM

Bir əvvəlki hissədə araşdırdıqlarımızı qısaca yekunlaşdıraq: Bizim gördüyümüz, eşitdiyimiz, toxunduğumuz və adına "maddə" dediyimiz şeylərin əslini heç bir zaman bilə bilmərik. Biz əslində beynimizdə izlədiyimiz qavrayışlarla təmasda oluruq. Heç bir zaman beynimizdən çölə çıxıb gördüklərimizin, eşitdiklərimizin, toxunduqlarımızın əsli ilə təmasda ola bilmərik, bunların əsllərinin necə olduğuna nəzarət edə bilmərik. Yuxu ilə həqiqi həyat arasında texniki bir fərq yoxdur, hər ikisini də beynimizdə görərik. Bizim çox böyük sandığımız dünya, əslində beynimizin içinə sıxışmış qavrayışlar toplusudur. Bizdən milyardlarla kilometr uzaqda sandığımız nəhəng qalaktikalar, beynimizdəki görüntü mərkəzində yerləşən, yəni bizdən "uzaqda" deyil, əksinə "içimizdə" var olan hisslərdir.

Bu, insanların çoxunun, bəlkə də hamısının xəbərsiz olduğu çox böyük bir həqiqətdir. Amma başqalarının bu həqiqətdən xəbərsiz olması, bizim üçün bir bəhanəyə səbəb olmaz. Çünki "başqalarını" da beynimizin içində görürük. Bir görünüşlə əlaqədəyik və gördüklərimizi anlamaqla məsul olan bizik.

Gördüyümüz insanların hamısı bizə "bu dünyanın əslini görürsünüz, surətini deyil" desə də, bu bir şeyi dəyişdirməz. Yuxunuzda da minlərlə insanın bir ağızdan "bu bir yuxu deyil, həqiqətdir" dediklərinə şahid ola bilərsiniz. Amma bir az sonra yuxu bitər və bu kəslər bir anda yox olarlar. Çünki bir hiss olmaqdan başqa, onsuz da heç var olmamışlar. Həqiqi həyat da bir gün – ölümlə birlikdə – belə bitəcək və gördüyümüz bütün varlıqlar (bizə "bu, dünyanın əsli" deyən insanlar daxil) yox olub gedəcəklər, onların yerinə yeni bir aləm qarşımıza çıxacaq. Bu, axirət aləmidir. Allah, dünyadakı kölgə varlıqları özlərinə həyat məqsədi halına gətirən və ya onlardan mədət uman və beləcə onları bütləşdirən insanların ölüm anındakı vəziyyətini Quranda izah edərkən bu həqiqəti belə açıqlayır:

… Nəhayət, elçilərimiz onların canını almaq üçün yanlarına gəldikdə: "Allahdan savayı çağırdıqlarınız haradadır?"– deyəcəklər. Onlar: "Bizi qoyub qaçıblar!"– deyəcək və kafir olduqlarına dair öz əleyhlərinə şahidlik edəcəklər. (Əraf surəsi, 37)

Burada izah etdiyimiz həqiqətlərə etiraz edənlər, materialistlərdir. Yəni maddənin mütləq varlıq olduğu və insan zehninin də maddənin törəməsi olduğu səhvinə inananlardır. Materialistlər ümumiyyətlə burada izah edilən həqiqəti, yəni maddənin əsli ilə heç bir zaman təmasda ola bilmədiyimiz həqiqətini düşünmək və müzakirə etmək istəməzlər. Hətta çox vaxt buna əsəbiləşərlər. Maddə dediyimiz anlayışın həqiqətdə zehnimizdəki qavrayış halını bildiyimiz, 18-ci əsrdə məşhur İngilis mütəfəkkir və din adamı Corc Berkeley tərəfindən sistemli bir şəkildə açıqlandığında, materialistlər qəzəbli reaksiyalar vermişlər. Eyni dövrdə yaşayan materialist mütəfəkkir Samuel Johnson, bir daşa təpik atmış və "budur, Berkeleyi çürütdüm" deyə bağırmışdır. Halbuki, Johnsonun -və daha sonra bənzər cavablar verən digər materialistlərin- primitiv reaksiyası yalnız mövzunu anlamaqdan nə qədər uzaq olduqlarını göstərir. Çünki nə daşlara təpik atmaları, nə divarları yumruqlamaları, maddənin əsli ilə təmasda olduqlarına dair bir dəlil meydana gətirməz. O anda etdikləri və hiss etdikləri hər şey, bir hiss olaraq beyinlərinin içindədir. Daşa təpik atan da beyinin içindəki daşa təpik atar, divarı yumruqlayan da beyinin içindəki divarın görüntüsünü yumruqlayar. Necə ki, yuxularında da daşları eyni reallıqla təpikləyə bilərlər; amma onlar da qəbul edəcəklər ki, daş sadəcə beyinlərindəki bir hissdir.



Materialistlərin bu mövzudakı müqavimətlərinin təməlində yenə çox zaman bu mövzunu qavraya bilməmələri durur. Maddənin mütləq varlığına özlərini doqmatik bir şəkildə inandırmışlar və bunu müzakirə etməkdən şiddətlə çəkinirlər. Biz onları bir az daha səmimi düşünməyə dəvət edirik. Və düşünmək istəmədikləri bir həqiqəti onlar üçün düşünüb açıqlayırıq:

Bu həqiqət, əgər maddənin əsli ilə təmasda olduqlarını qəbul edirlərsə, özlərini də "qüllənin təpəsindəki kiçik adam" olaraq qəbul etmələri lazım olduğudur.

QÜLLƏ VƏ ZİRVƏSİNDƏKİ BAĞLI OTAQ

Bəhs etdiyimiz qüllə anlayışı, mövzunu daha yaxşı açıqlamaq üçün istifadə etdiyimiz bir nümunədir.

Mənası budur: Əgər indi beyninizin içində olan dünya görüntüsünün və öz bədəninizə aid görüntünün xarici aləmdəki əsli ilə təmasda olduğunuzu iddia etsəniz, o zaman bütün bu görüntüləri kəllənin içində daşıyan nəhəng bir bədənin varlığını da qəbul etməniz lazımdır. Bu vəziyyətdə siz, hər şeyi beyninizdə qavradığınıza görə sanki nəhəng bir qüllənin təpəsindəki kiçik bir otağa həbs edilmiş kiçik bir adam olarsınız.

Bu nəticəyə necə gəlindiyini mərhələ-mərhələ düşünək:

1) Hal-hazırda gözlərinizi çevirib ətrafa baxdığınızda bir çox cisim görürsünüz. Divarlar, əşyalar, səma, evlər, insanlar, avtomobillər və bütün bunlarla yanaşı bir də öz bədəniniz. Bütün bu cisimlərin hamısı, bədəniniz də daxil olmaq üzrə eyni yerdədirlər.

Bir insan, sahib olduğunu düşündüyü Hər şeyin, beyninin içində meydana gələn hiss və görüntüləri ilə qarşı – qarşıya qalar. İnsan heç bir zaman bunların çöldə mövcud olan həqiqi hallarını bilə bilməz.

2) Bu yer görəsən haradır? Əvvəlki səhifələrdə şərhləri xatırlasanız bu yerin başqa hər hansı bir yer deyil, birbaşa sizin beyninizin içindəki görmə mərkəzi olduğunu fərq edə bilərsiniz. Yəni təmasda olduğunuz bütün dünya, öz bədəniniz də daxil olmaq üzrə, kəllənizin içində, beyninizin arxa tərəflərində yerləşən bir neçə cm^3 həcmindəki sahədədir. Hal-hazırda kəllənizin içindəki bu sahədəki kitaba baxırsınız. Kitabı əllərinizlə çevirərkən gördüyünüz və hiss etdiyiniz əllər beyninizin görmə və toxunma mərkəzlərində yerləşir. Bədəninizin bütün orqanları da eyni yerdə; kəllənizin

içindədir. Bu kitabı oxuyarkən oturduğunuz kreslo, kreslonun içində olduğu otaq da eyni yerdədir.

3) Yaxşı qavrayışı ilə təmasda olduğunuz və kəllənizin içində yerləşən bu bədəndən başqa, çöldəki bədəninizin əslini gördüyünüzə mi inanırsınız? Əgər belə bir bədəni gördüyünüzə inanırsınızsa, bilin ki, onu indiyə qədər heç görə bilmədiniz. Necə bir şey olduğuna dair heç bir qəti məlumata sahib deyilsiniz. Belə bir bədənin necə olduğuna dair yalnız fərziyyə irəli sürə bilərsiniz.

"Voltran" adlı məşhur cizgi filmində, nəhəng robotlar, baş hissələrinin mərkəzində oturan bir adam tərəfindən idarə olunurlar.

4) Əgər bədəninizin əslini gördüyünüzə inanırsınızsa, onun indi gördüyünüz bədəninizin xaricində yerləşən bir nəhəng olduğunu qəbul etməniz lazımdır. Siz və bütün gördükləriniz, yəni otağınız və ya kənardakı cisimlərin hamısı bu nəhəngin kəlləsindəki görmə mərkəzində yerləşdiyinə görə, onun maddi bədənini həddindən artıq çox böyük olması lazımdır. Hal-hazırda olduğunuz məkandan daha aşağıda çiyinləri, qolları, bədəni, baldırları və ayaqları uzanmalıdır. (Əgər o da sizin kimi iki qollu, iki ayaqlı bir insandırsa.)

5) Bu vəziyyətdə, siz bir nəhəngin kəlləsində yaşayan miniatür insan olarsınız. Bir başqa ifadəylə, nəhəng bir qüllənin təpəsindəki kilidli bir otaqda yaşayan, bu otaqdan heç bir zaman çıxa bilməyən, yalnız önünə qoyulan ekranı seyr edən, həbs edilmiş bir insan olarsınız. Qüllə, əslini gördüyünüzü iddia etdiyiniz bədəniniz, gördüyünüz bədən isə qüllənin təpəsində həbs olan kiçik adamdır.

Bu nəhəng qülləni (yəni əslini gördüyünüzü sandığınız bədəninizi) heç görə bilməzsiniz. Çünki qüllənin təpəsindəki kiçik qaranlıq otağa həbs edilmişsiniz. Həyatınız boyunca o otaqdan çıxa bilməzsiniz. O qaranlıq otağın divarlarına əks etdirilən görüntüləri izləyərsiniz. Bu görüntülərdəki bəzi cisimlər (məsələn ulduzlar) sizə bəlkə milyonlarla kilometr uzaqlıqda kimi gələ bilər. Halbuki həqiqətdə həmişə eyni kiçik otağının içindəsiniz.

Bu mövzunu daha yaxşı başa düşmək üçün, televizorlarda tez-tez rast gəldiyimiz fantastik cizgi filmlərdən də bir nümunə verə bilərik. Bu cizgi filmlərinin bəzilərində nəhəng bir bədən, kəlləsindəki nəzarət mərkəzində oturan bir adam tərəfindən nəzarət edilir. Məsələn, "Voltran" adlı məşhur cizgi filmdə, nəhəng robotlar, baş hissəsindəki mərkəzdə oturan bir adam tərəfindən idarə olunar. Nəhəng robot bu insanın əmrlərinə görə hərəkət edər.

Adam, nəhəng bir qüllə böyüklüyündəki robotun içində oturan kiçik bir vücuddur.

Məhz əgər indi gördüyünüz, hiss etdiyiniz bədənin əsli ilə təmasda olduğunuza inanırsınızsa, belə bir sistemi qəbul etməniz lazımdır. Bir başqa ifadəylə, sanki "bir qüllənin təpəsindəki otaqda oturan kiçik adam" və ya "nəhəng bir robotun təpəsində oturan kiçik adam" olduğunuzu qəbul etməniz lazımdır.



Əgər indi gördüyünüz, hiss etdiyiniz bədənin təxminən 1.80 metrə yaxın boyu olduğunu düşünürsünüzsə, ediləcək müqayisədə, çöldə əsli ilə təmasda olduğunuzu qəbul etdiyiniz bədənin, bir neçə cm^3 ölçüsündəki qavrama mərkəzlərinə görə bir nəhəng halına gəldiyini də qəbul etməlisiniz. Əgər vücudunuz bir qüllə, bunları qəbul edən "Mən" də o qüllənin təpəsindəki hücrədə yaşayan bir insan olaraq düşünülərsə, bu qüllənin boyu yüzlərlə metrə çatmalıdır. Əgər "mən" dediyiniz vücud görünüşünüz 1.80 metr isə, əsli ilə təmasda olduğunuzu qəbul etdiyiniz bədən də yüzlərlə metr boyunda olmalıdır.

Bu mövzunu belə bir misalla daha açıqlayaq: Beynində gördüyü avtomobilin çöldəki əsli ilə təmasda olduğunu sanan adam bunları düşünməlidir.

- Maşına aid görüntü insanın beynindəki görmə mərkəzində meydana gələr. Görmə mərkəzi isə ümumi bir neçə cm^3 ölçüsündəki bir sahədir. Əgər bu sahəyə bir neçə metr uzunluğunda bir avtomobilin görünüşü sığırsa, bu sahənin də ən az bu genişlikdə olması lazımdır.
- Əgər bu sahə bir neçə metr genişliyindədirsə, bu vəziyyətdə insan beyninin də bu sahə ilə mütənasib şəkildə çox böyük ölçülərdə olması lazımdır.
- Əgər insan beyni belə geniş bir yeri əhatə edirsə, insanın bədəninin də yenə beyniylə düz mütənasib olaraq kilometrlərlə uzunluqda olması lazımdır.

Burada sadəcə bir avtomobili görən adamdan bəhs edildi. Eyni vəziyyəti kilometrlərlə uzanan bir vadiyə baxan adam üçün düşünək. Əgər vadinin əslini gördüyünü iddia edirsə, bu adamın görmə mərkəzi də eyni şəkildə ən az kvadrat kilometrlərcə olan sahədən də böyük olmalıdır. Bu vəziyyətdə insanın beyni, daxili orqanları, qolları, ayaqları da

bununla mütənasib şəkildə nəhəng bir ölçüdə olmalıdır.

Belə bir şey mümkün olmadığına görə, çöldə bir neçə metrlik bir avtomobilin və ya kvadrat kilometrlərlə yer əhatə edən bir vadinin var olduğunu və insanın da bunların əslləri ilə təmasda olduğunu iddia etmək son dərəcə məntiqsiz deyilmi?

QÜLLƏYƏ İNANMAĞIN AXMAQLIĞI

Qüllədəki kiçik adam, bizim iddiamız deyil. Materialistlərin iddia etdikləri düşüncənin təbii bir nəticəsidir. Maddənin varlığının mütləq olduğu yanılmasında israr edən, bizim maddənin xaricdə var olan əsli ilə təmasda olduğumuzu müdafiə edən materialist, bu maraqlı nəticəsini də müdafiə etmək vəziyyətindədir. Çünki, gördüyü və hiss etdiyi bədəninin xaricində, bu bədəni və onun olduğu sahəni təpəsində daşıyan bir başqa bədən daha olduğunu iddia edir.

Bunu ətraflı olaraq düşündükcə, materialist iddianın nə cür axmaq bir cədvəl çəkdiyi açıq şəkildə görülər.



Əslində materialistlər, özlərinə belə ürküdücü gələcək bir canlını insan olaraq təsvir edir. Bu qorxuducu mənzərəni bir az təsvir edək: Materialist, bütün kainatı başının içində kiçik bir yerdə daşıyıb, ona yaxından baxan nəhəng birini təsvir edir. Günəş, Ay, ulduzlar və bütün işıq qaynaqları beyninin içində olduğu üçün də, bəhs etdiyimiz nəhəng, zəruri olaraq qaranlıqda gəzir. Bu nəhəngin ayaqları və qolları -bizim ölçülərimizlə müqayisədə- yüzlərlə metr uzunluqdadır. Yəni materialist, dərin qaranlıqda, beyninin içində daşıdığı kainatla birlikdə gəzən, hara getdiyini kimsənin bilmədiyi böyük bir nəhəngin insan olduğu nəticəsinə gələr.

Ancaq diqqət edilsə, haqqında bəhs etdiyimiz nəhəng adamın varlığına inanmaq, sadəcə materialist fəlsəfənin bir gərəyidir. Çünki gördüyümüz və toxunduğumuz bədənimizin əsli ilə təmasda olduğumuza inanmaq üçün başqa heç bir səbəb yoxdur. Belə bir məlumata nə üçün inanaq? Bunun həqiqi olduğuna dair heç bir dəlil yoxkən, heç kim belə bir bədən görməmiş, eşitməmiş, ona toxunmamış, etdiyi hər hansı bir şeyin izinə rastlamamış ikən, nə üçün bu qəribə nəhəng adamın varlığını qəbul edək?

Materialist fəlsəfəni kor-koranə qəbul etmək xaricində, belə xəyali bir maddi adamın varlığına inanmaq üçün bir səbəb yoxdur.

HİSS VƏ VƏHM MƏRTƏBƏSİNDƏ YARADILMIŞ OLAN MADDƏ

Bu vəziyyət bizi çox əhəmiyyətli bir həqiqətə aparır: Əlaqədə olduğumuz dünya hisslər dünyası olduğuna görə, bütün bu hissləri sonsuz bilik, ağıl və gücə sahib olan bir Yaradıcı yaradır və bizə göstərir. O Yaradıcı, Quranda keçən ifadəylə "aləmlərin Rəbbi" olan Uca Allahdır.

Bu böyük həqiqətin daha da açıq ifadəsi budur: Bütün varlıqları Allah

yoxdan yaratmışdır. Ancaq bütün varlıqlar, İslam alimlərinin ifadəsiylə "hiss və vəhm" mərtəbəsində, yəni bir hiss olaraq yaradılmışdır. Allah insana Öz ruhundan üflədiyi üçün, insan bu qavrayışların bir qismini qəbul edir və bunlara "dünya, kainat, maddə, cisim" kimi adlar verir. Bu adları da onsuz da insana Allah öyrətmişdir. Allahın yaratmış olduğu bu qavrayışların hamısı, Ona qeyd-şərtsiz boyun əymişdir və Onun istəyi ilə hərəkət edər. Yaradılmış varlıqların Allahdan müstəqil bir varlığı yoxdur. Ancaq Allah həqiqətdir, digər hər şey Onun vəhm mərtəbəsində yaratdığı xəyallardır.

İslam tarixinin ən böyük alimlərindən biri olaraq qəbul edilən İmam Rəbbani, "Məktubat"adlı əsərində bunu belə açıqlamışdır:

Var olan Allah idi, onunla bir şey yox idi

Vaxta ki, gizli kəmalatının zühura gəlməsini arzu etdi (ortaya çıxmasını istədi); adlarından hər birinə bir mazhar (görünmə yeri) tələb etdi. Ta ki, o mazhara, kəmalatını təcəlli etdirə. Onun vücud mazhariyətini və tevabiini isə, adəmdən (yoxluqdan) başqa bir şey qəbul etmədi. Çünki ... vücudun (varlığın) mukabili və mübayini (tərsi), yalnız adəmdir (yoxluqdur).

Məna yuxarıda izah edildiyi kimi olunca, Sübhan Haqq, kəmal-i qüdrəti ilə, adəm (yoxluq) aləmində adlardan hər bir ad üçün mazharlardan bir mazhar təyin etdi. Və onu, hiss və vəhm mərtəbəsində yaratdı. Həm də istədiyi vaxtda və istədiyi şəkildə ... Aləmin sübutu (sabitliyi), hiss və vəhm mərtəbəsində olub xaric mərtəbədə deyil ... Xaricdə (çöldə) belə, uca Vacib Zatın (Allahın) zat və sifətlərindən başqası da sabit və mövcud olmağa ... (Mektubat-ı Rabbani, 470-ci məktub, çev. Abdulkadir Akçiçek, Çile nəşriyyat, 1983, s. 517-18)

İmam Rəbbani, bir başqa məktubunda isə, bütün maddi aləmin yalnız vəhm mərtəbəsində yaradılmış olduğunu bir dəfə yenə belə vurğulayır:

Yuxarıda belə bir cümlə istifadə etdim: "Sübhan Haqqın xalqı (Allahın yaratması), hiss və vəhm mərtəbəsindədir." Bunun mənası bu mənaya gəlir: Allahu Təala, əşyanı elə bir mərtəbədə yaratmışdır ki, o mərtəbədə əşya üçün hiss və vəhmdən başqa bir yerdə sübut (sabitlik) və husul (varlıq) yoxdur. (Mektubat-ı Rabbani, 357-ci məktub, çev. Abdulkadir Akçiçek, Çile nəşriyyat, 1983, s. 163)

Diqqət edilsə, İmam Rəbbani, bizim gördüyümüz aləmin, yəni bütün varlıqların "vəhm mərtəbəsində", yəni hiss səviyyəsində yaradıldığını xüsusilə vurğulayır. Bu vəhm mərtəbəsindəki aləmin xaricində (xaricdə) isə yalnız Allahın Zatı var.

Görüldüyü kimi, müasir fizika və fiziologiya nəticəsində əldə etdiyimiz texniki həqiqətlər, bizlərə İslam alimləri tərəfindən əsrlər əvvəl xəbər verilmiş bir həqiqəti təsdiq edir: Maddə bir xəyaldır, əsl olan isə maddəni yoxdan var edən Uca Allahdır.

MATERİALİZM:
DÜNYA HƏYATININ HƏQİQİ ZƏNN EDİLƏN ZAHİRİ ŞƏRHİ

Burada izah etdiyimiz həqiqət, qavrandığında, insanların həyata olan baxışını kökündən dəyişdirəcək çox böyük bir sirdir.

İnsanların çox böyük bir hissəsi, bu sirdən xəbərsiz yaşayar. Gözləriylə gördükləri, əllərilə tutduqları və adına "maddə" dedikləri qavrayışları

mütləq bir həqiqət zənn edərlər. Bu səhvə düşən insanların iki baxış aspekti mövcuddur:

1) Materializm: Maddəni mütləq həqiqət sanan insanların bir hissəsi, maddə xaricində bir şey olmadığı yanılmasını irəli sürər. Bu batil inancın fəlsəfədəki adı materializmdir. Materialistlər Allahın açıq-aşkar olan varlığını cahil bir şəkildə inkar edərlər. Ruhun varlığını və ölümdən sonra həyatın varlığını da inkar edərlər.

2) Yarı materializm: Maddəni mütləq həqiqət sanan insanların bir hissəsi də, maddənin xaricində də bir varlıq aləmi olduğuna inanır, ancaq yenə də maddənin "mütləq varlıq" olduğu, digər varlıq aləminin buna görə daha nisbi olduğunu zənn edir. Geniş olaraq istifadə edilən "metafizik" (fövqəlfiziki) və ya "fövqəltəbii" kimi anlayışların arxasında bu yanılma durar. Bu inanca sahib insanlar, maddənin mütləq bir varlığa sahib olduğunu, Allahın isə (Allahı tənzih edirik) sanki radio dalğaları kimi olduğunu zənn edərlər. Allahın "göydə" və ya kainatın bir başqa yerində olduğu kimi batil inanclar da eyni yanılmanın nəticələridir.

Bu iki baxış aspekti də böyük bir səhvdir və dünyanın həqiqi mahiyyətini qavraya bilməməkdən qaynaqlanır. Allah bu həqiqəti Quranda belə xəbər verir:

Allahın köməyi ilə. O, istədiyinə kömək edir. O, Qüdrətlidir, Rəhmlidir. *(Budur)* **Allahın vədi. Allah Öz vədinə xilaf çıxmaz. Amma insanların əksəriyyəti** *(bunu)* **bilmir. Onlar dünya həyatının görünən tərəfini bilir, axirətdən isə büsbütün qafildirlər.** (Rum surəsi, 5-7)

Ayədə bəhs edilən "görünən tərəfi" sözünün ərəbcə əsli "zahir" sözüdür. "Zahir" anlayışı, "xarici görünüş" mənasını verər. Bunun qarşılığı olaraq da "batin" anlayışı vardır və hadisələrin zahirə görünməyən əsli, iç üzü mənasını verər. İnkarçılar dünyanın yalnız zahirini bilirlər. Bu səbəblə, Allahın varlığını, qüdrətini, bütün varlıqlar üzərindəki hakimiyyətini anlaya bilməzlər. Bəzisi Allahı inkar edər və materialist olar, bəzisi isə Allahın varlığına iman edər, ancaq Onun qüdrətini qavraya bilməz və yarı materialist olarlar. Quranda, Allahın varlığına inanan, ancaq Onun sonsuz qüdrətini, hər şey üzərindəki mütləq hakimiyyətini qavraya bilməyən və buna görə müxtəlif varlıqları Allaha şirk qoşan insanlardan ətraflı olaraq bəhs edilir.

Maddənin yalnız zehnimizdə qavradığımız halını bildiyimizi başa düşən insan isə, bu saydığımız yanılmalardan tamamilə xilas olar və dünya həyatının batinini bilmiş olar.

Bu batinin əhəmiyyətli bir istiqaməti, məkan anlayışının aradan qalxmasıdır.

MƏKAN MƏFHUMUNUN ORTADAN QALXMASI

Maddə dediyimiz hər şeyin (öz bədənimiz, ətrafımızdakı cisimlər, üzərinə basdığımız yer, günəş, planetlər, ulduzlar və s.) əslində beynimizdə qəbul etdiyimiz halını bilirik; eyni yuxulardakı kimi. Bu səbəbdən bunların əslində necə olduqlarını bilmərik.

Bu həqiqəti qavrayan insan, insanların çoxunun içinə düşdüyü yanılmalardan xilas olar. Bu yanılmaların birincisi, məkan anlayışına olan inancdan qaynaqlanan "Allah haradadır?" sualı gəlir. İnsanların çoxu Allahı (Allahı tənzih edirik) uzaqda, göydə və ya kainatın bir başqa küncündə zənn edərlər. Bu cahil inanc, Quranda Firon hekayəsində ifadə edilir. Firon, böyük bir cahiliklə, Misirin Rəbbinin özü olduğunu iddia edərkən (Allahı tənzih edirik) Allahın göydə olduğunu iddia etmişdir. Bunu xəbər verən ayələrdə belə buyrulur:

Firon dedi: "Ey Haman! Mənim üçün bir uca qala tik ki, bəlkə yollara çatım – göylərin yollarına çatım və Musanın məbudunu görüm…
(Mümin surəsi, 36-37)

Halbuki əslində, Allah hər yerdədir və hər şeyi əhatə etmişdir. Bu həqiqət bir Quran ayəsində belə açıqlanır:

Məşriq də, məğrib də Allahındır! Hansı səmtə yönəlsəniz, Allahın Üzü orada olar. Həqiqətən, Allah *(hər şeyi)* **Əhatəedəndir, Biləndir.**
(Bəqərə surəsi, 115)

Allah tək mütləq varlıq olaraq, bütün kainatı, bütün insanları, yerləri, göyləri, hər yeri əhatə etmişdir və Allah bütün kainatda təcəlli edir. Hədislərdə rəvayət edildiyinə görə, Peyğəmbərimiz, Allahın göydə olduğunu söyləyən bir şəxsə doğru söylədiyini bildirmişdir. Ancaq bu rəvayət, Allahın hər yerdə olduğu həqiqəti ilə heç bir şəkildə ziddiyyət təşkil etmir. Çünki, dünyanın sizin olduğunuz nöqtədəki bir insan əllərini göyə qaldıraraq Allaha dua etsə və Allahın göydə olduğunu düşünsə, Cənub Qütbündə bir başqa insan da eyni şəkildə Allaha yönəlsə, Şimal Qütbündə bir insan əllərini göyə qaldırsa, Yaponiyadakı bir insan, Amerikadakı bir insan, Ekvatordakı bir insan da eyni şəkildə əllərini göyə qaldıraraq Allaha yönəlsə, bu vəziyyətdə hər hansı bir sabit istiqamətdən bəhs etmək mümkün deyil. Eyni şəkildə kainatın və kosmosun fərqli nöqtələrindəki cinlər, mələklər, şeytanlar da göyə doğru dua etsə, hər hansı bir sabit göydən və ya istiqamətdən söz etmək mümkün olmayacaq, bütün kainatı əhatə edən bir vəziyyət olacaq. Siz hər hansı səmtə yönəlsəniz, Allahın təcəllisi oradadır.

Allah hər yerdə olduğu üçün, bizə başqa hər şeydən daha yaxındır. Bu, insanların çoxunun aldandığı "məsafə" qavrayışını ortadan qaldıran bir həqiqətdir. İnsanlar tez-tez öz bədənlərinin yanında gördükləri varlıqları "yaxın" olaraq adlandırırlar. "Sizə ən yaxın cisim nədir" deyə soruşulsa, buna, "paltarlarım, saatım, eynəyim" deyə və ya "öz bədənim" deyə cavab verəcəklər. Halbuki, Allah insana bütün bu sayılanlardan daha yaxındır. Bir Quran ayəsində bu sirr belə xəbər verilir:

İnsanı Biz yaratdıq və nəfsinin ona nəyi vəsvəsə etdiyini də bilirik. Biz ona şah damarından da yaxınıq. (Qaf surəsi, 16)

Bu həqiqəti qavrayan insan, Allahın onun tək dostu, tək vəlisi, tək köməkçisi olduğunu başa düşər. Beləcə, Quranın ilk surəsi olan Fatihə surəsindəki "Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik"

şəklindəki duanın sirrinə vaqif olar. Eyni şəkildə, dünyadakı bütün işlərin Allahın istəyi ilə reallaşdığını, Onun təyin etdiyi qədərə görə işlədiyini, heç bir insanın və varlığın Allahın iradəsi xaricinə çıxa bilməyəcəyini də başa düşmüş olar. Bu, aşağıdakı Quran ayəsində bildirilən sirrin qavranmasıdır:

Göylərdə və yerdə kim varsa, Ona məxsusdur.
Hamısı Ona təzim edir. (Rum surəsi, 26)

Məkanın bir qavrayış olduğunun başa düşülməsi, axirət həyatının necə yaşanacağı mövzusundakı səhv fikirləri və şübhələri da aradan qaldırar. Axirətə inanmayan, ya da axirətin varlığı mövzusunda şübhəsi olan insanların çoxu, son dərəcə sabit və qərarlı sandığı kainatın necə yox olub, bunun yerinə cənnət və cəhənnəmi ehtiva edən yeni bir aləm qurulacağını başa düşə bilməz. Halbuki sabit və qərarlı sandığı kainat, Allahın onun ruhuna göstərdiyi hisslər toplusundan ibarətdir. Bir qavrayışın yox olub, yerinə bir başqasının insana verilməsi isə Allah üçün çox asandır. İnsan gecə yatdığında gördüyü yuxudan necə bir anda oyana bilirsə və tam fərqli bir aləmə ("həqiqi dünya" sandığı bu dünyaya) keçə bilirsə, dünya həyatından axirət həyatına da o şəkildə keçəcək. Sabit və qərarlı sandığı, halbuki həqiqətdə Allahın hər an yaratması ilə davam edən kainat, böyük bir qiyamətlə yox olacaq və sonra cənnət və cəhənnəm yaradılacaq.

Maddənin bir xəyal olduğunu, məkanın zehnimizdəki qavrayış olduğu və Allahın hiss və vəhm mərtəbəsində yaratdığı bir dünyada yaşadığını anlayan insan, daha bir çox böyük sirrə vaqif olur. İnsanların çoxundan fərqli olaraq, "səbəblər" (yəni Allahın yaratdığı hadisələr və varlıqlar) arasında boğuşmaqdan xilas olar.

Səbəblərə ancaq feli dua olaraq müraciət edər. Həqiqətdə isə hər xeyirin və şərin Allahdan olduğunu bilir və hər işində Ona dua edib Ondan kömək istəyər. Mal və mülk ehtirasına qapılmaz. İnsanların gözlərində böyütdükləri malların və mülklərin; məsələn, görkəmli evlərin, lüks avtomobillərin, bahalı geyimlərin, əhəmiyyətli mövqelərin yalnız zehnindəki halıyla təmasda olduğunu bildiyi üçün bunlara bir dəyər verməz. Bilir ki, Allah bu dəbdəbəli bəzəkləri insanları sınamaq üçün yaratmışdır. Bunları dilədiyinə verir, dilədiyindən geri alır.

Maddənin və məkanın xəyal olduğunu anlayan insan, Allahdan başqa hər hansı bir varlıqdan qorxmaqdan da xilas olar. Gördüyü hər şey Allahın yaratdığı qavrayışlardır və Allahın izni olmadıqca heç kim ona bir şey edə bilməz. Özündən çəkinib-qorxulmağa layiq olan tək varlıq Allahdır. Bunu qavrayan insan, Allahın **"Onlar Allahın risalətini təbliğ edir, Ondan qorxur və Allahdan başqa heç kəsdən qorxmurdular."** (Əhzab surəsi, 39) ayəsiylə təsvir etdiyi peyğəmbərlərin üstün əxlaqına qovuşmuş olar.

ALLAHIN TƏYİN ETDİYİ SƏBƏB – NƏTİCƏ ƏLAQƏLƏRİ

Maddənin və məkanın bir xəyal olduğunu anlayan insan, digər insanların bilmədiyi çox əhəmiyyətli bir sirri daha qavrayar: Dünyada keçərli olan səbəb-nəticə əlaqələri, maddənin fiziki xüsusiyyətlərinin nəticəsində və ya insanlar arasındakı əlaqələrin nəticəsində yaranmır. Maddə bir qavrayış olduğuna görə fiziki təsir sahibi ola bilməz. Hər fiziki təsir, ayrı-ayrı xəyal olaraq yaradılır. Məsələn, atılan bir daş şüşəni qırmaz; daşın atılması və şüşənin qırılması görüntüləri ayrı-ayrı yaradılır. Gəmiləri suda üzdürən "suyun qaldırma qüvvəsi" və ya quşları havada saxlayan "havanın qaldırma qüvvəsi" də bir xəyal olaraq yaradılır. Bu səbəbdən, əslində bu kimi "qüvvələr"in hamısı, əslində Allaha aiddir. Bu həqiqətə Quran ayələrində belə diqqət çəkilir:

Məgər onlar *(başları)* **üzərində dəstə-dəstə pərvazlanıb** *(uçan)*, *(hərdən də qanadlarını)* **yığan quşları görmürlərmi? Onları** *(havada)* **ancaq Mərhəmətli** *(Allah)* **saxlayır. Şübhəsiz ki, O, hər şeyi görür.** (Mülk surəsi, 19)

Məgər Allahın quruda olanları və Öz əmri ilə dənizdə üzən gəmiləri sizə ram etdiyini görmürsənmi? Göyü də Öz izni olmadan yerə düşməsin deyə O tutub saxlayar. Həqiqətən, Allah insanlara Şəfqətlidir, Mərhəmətlidir. (Həcc surəsi, 65)

Bu sirri qavrayan möminin digər insanlarla olan əlaqələri də, insanların çoxunun qəbul etdiyi səbəb-nəticə əlaqələrindən fərqli şəkildə olar. Bütün insanları və onların müqəddəratını Allah yaratmışdır və bu səbəblə, insanlar arasındakı səbəb-nəticə əlaqələri də Allahın təyin etdiyi şəkildə olur. Məsələn, bir ayədə, Allah bu sirri xəbər verir:

Ey iman gətirənlər! Öz qeydinizə qalın! Siz doğru yolda olsanız, *(haqq yoldan)* **azmışlar sizə zərər yetirə bilməzlər. Hamınızın dönüşü Allaha olacaq və O, etdiyiniz əməllər barədə sizə xəbər verəcəkdir.** (Maidə surəsi, 105)

Əgər müsəlmanlar doğru yolu taparlarsa, azanlar onlara heç bir zərər verə bilməyəcəklər. Bu, Allahın bir qanunudur, ancaq sadəcə Onun qüdrətini qavrayan və Ona layiqincə iman edən möminlər üçün keçərlidir. Bir başqa ayədə, Allahın bir başqa qanunu belə xəbər verilir:

Mömin olaraq yaxşı iş görən kişi və qadınlara əlbəttə gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq. (Nəhl surəsi, 97)

Bunun kimi digər bir çox sirr, iman edənlər üçün dünyanı tam fərqli bir yerə çevirir. İnkar edənlər üçün dünya həyatı (sahib olduqları bütün mal, mülk, mövqe və ehtişama baxmayaraq) hər cür çətinlik, qorxu, narahatlıq və gərginliklə dolu əzab yeri ikən, möminlər üçün cənnətin nümunəsinə çevrilir.

SİZ OTAĞIN İÇİNDƏSİNİZ, YOXSA OTAQ SİZİN İÇİNİZDƏDİR?

İnsanların gördüklərinin beyinlərində bir hiss olduğunu dərk etmələrinə mane olan səbəblərdən biri də bədənlərini də bu görüntünün içində görmələridir. "Mən bu otağın içində olduğuma görə, deməli, bu otaq mənim beynimdə əmələ gəlmir" kimi səhv düşünürlər. Onları bu səhv nəticəyə aparan səbəb odur ki, öz bədənlərinin də görüntüsü ilə təmasda olurlar və bunu unudurlar. Ətrafımızda gördüyümüz hər şey necə sadəcə xəyali görüntülərdən ibarətdirsə, öz bədənimiz də eyni şəkildə beynimizin içində əmələ gələn bir xəyali görüntüdür. Məsələn, hal-hazırda oturduğunuz kresloda boynunuzdan aşağıda qalan hissəni görürsünüz. Bu görüntü də digərləri kimi eyni sistemlə meydana gəlir. Əlinizi ayağınızın üzərinə qoyduqda bu toxunma hissi də beyninizdə əmələ gəlir. Yəni siz hal-hazırda beyninizdə əmələ gələn bədəninizi görür və ona toxunduğunuzu beyninizdə hiss edirsiniz.

Bədəniniz də beyninizdə bir görüntü olduğuna görə, otaq sizin içinizdədir, yoxsa siz otağın içindəsiniz? Aydındır ki, bu sualın doğru cavabı belədir: otaq sizin içinizdədir. Siz beyninizdəki otaq görüntüsünün içindəki bədəninizin görüntüsünü görürsünüz.

Bunu bir başqa misalla bir az da açıqlayaq. Təsəvvür edin ki, liftin düyməsinə basdınız və lift gəldikdə yuxarı mərtəbədəki qonşunuz da liftin içindədir. Liftə mindiniz. Əslində, siz liftin içindəsiniz, yoxsa lift sizin içinizdədir? Həqiqət budur: lift içindəki qonşunuzun və bədəninizin görüntüsü ilə birlikdə sizin beyninizdə əmələ gəlir.

Beləliklə, biz heç bir şeyin içində ola bilmərik. Hər şey bizim içimizdə, yəni beynimizdə əmələ gəlir. Günəşin, Ayın, ulduzların və ya göydə uçan təyyarənin bizdən milyon kilometrlərlə uzaqlıqda olması da bu həqiqəti dəyişdirmir. Günəş və Ay da eynilə əlimizdə tutduğunuz bu kitab kimi sizin beyninizin içindəki kiçik görmə mərkəzində əmələ gələn xəyali görüntülərdir.

SÜNİ ŞƏKİLDƏ ƏMƏLƏ GƏTİRİLƏN DÜNYALARA DİGƏR NÜMUNƏLƏR

Xarici dünya olmadan hisslərin çox həqiqi şəkildə yaşana biləcəyinə dair dövrümüzün texnologiyasında da çox əhəmiyyətli nümunələr var. Xüsusilə son illərdə böyük irəliləyiş göstərən "xəyali gerçəklik" anlayışı çox diqqət çəkir.

Xəyali gerçəklik ən sadə formada kompyuterdə canlandırılan üç ölçülü görüntülərin bəzi cihazlar vasitəsilə insanlara gerçək dünya kimi göstərilməsidir. Bu gün bir çox sahədə fərqli məqsədlərlə istifadə edilən bu texnologiya bu səbəbdən "süni həqiqət", "xəyali dünyalar", "xəyali mühit" kimi də adlandırılır.

Xəyali gerçəkliyin ən əhəmiyyətli xüsusiyyəti odur ki, xüsusi alətlərdən istifadə edən şəxs gördüyü görüntünü həqiqi zənn edir, hətta bu görüntünün içinə dalır. Ona görə, son illərdə xəyali gerçəklik ifadəsinin ingiliscə qarşılığının əvvəlində "immersive" sözündən də istifadə edilir və bu sözün mənası "batırmaq, qərq etmək, içinə dalmaq"dır. (İmmersive Virtual Reality: Daldıran Xəyali Gerçəklik).

Xəyali dünya əmələ gətirmək üçün istifadə edilən alətlər görüntünü göstərən ekranı olan kaska, toxunma hissi verən elektron əlcəkdir. Kaskanın içindəki alət isə davamlı olaraq başın hərəkətlərinə və istiqamətinə nəzarət edərək görüntünün başın istiqaməti və duruşu ilə mütənasib şəkildə ekrana gəlməsini təmin edir. Bəzən otaq böyüklüyündəki kubşəkilli yerin bütün divarlarında və döşəməsində stereo görüntülər əks etdirilir və bu otağa girən insanlar taxdıqları stereo eynəklərlə otaqda dolaşaraq özlərini tamamilə başqa məkanlarda, məsələn, şəlalə kənarında, dağın zirvəsində, dənizin ortasındakı gəminin göyərtəsində günəş şüaları altında dincələrkən görə bilərlər. Başa taxılan kaskalar üç ölçülü, dərinlik və məkan hissi olan görüntülər əmələ gətirirlər. Görüntülər insan ölçüləri ilə nisbətdə verilir və əlcək kimi bəzi alətlərlə toxunma hissi təmin edilir. Beləliklə, bu alətlərdən istifadə edən edən şəxs gördüyü xəyali dünyadakı əşyalara toxuna bilir, onların yerlərini dəyişdirə bilirlər. Bu məkanlarda insanın gördüyü görüntüdəki səslər də son dərəcə inandırıcıdır. Səs hər tərəfdən fərqli dərinliklərdə verilir. Bəzi hallarda dünyanın müxtəlif yerlərindəki bir neçə insana eyni xəyali mühit göstərilə bilir. Beləliklə, məsələn, dünyanın müxtəlif ölkələrindən, hətta müxtəlif qitələrindən üç insan özlərini digərləri ilə birlikdə motorlu qayığa minərkən görə bilirlər.

Xəyali dünyanın əmələ gətirilməsi üçün lazım olan alətlərdə istifadə edilən sistem beş duyğu orqanımızın sistemi ilə eynilik təşkil edir. Məsələn, istifadəçinin əlinə taxdığı əlcəyin içindəki mexanizmin təsiri ilə barmaq uclarına bəzi siqnallar verilir və bu siqnallar beyinə ötürülür. Beyin bu siqnalları şərh etdikdə bu şəxs ətrafında olmadığı halda, ipək xalıya və ya üstü girintili-çıxıntılı olan vazaya toxunduğunu hiss edir.

Xəyali gerçəkliyin istifadə edilməyə başlandığı vacib sahələrdən biri tibbdir. Miçiqan Universitetində təkmilləşdirilən texnika ilə həkimliyə

namizədlər və xüsusilə təcili yardım xidməti işçiləri süni əməliyyatxana mühitində təlim keçirlər. Burada otağın yerində və divarlarında əməliyyatxana ilə bağlı görüntülər, əməliyyatxananın ortasına isə əməliyyat stolu və xəstə görüntüsü əks etdirilir. Həkimliyə namizədlər isə üç ölçülü eynəklərini taxaraq bu xəyali xəstə üzərində əməliyyata başlayırlar. Şəkillərdən də göründüyü kimi bu şəkli görən bir insan hansının gerçək, hansının xəyali olduğunu anlamayacaqdır.

Bu nümunələrdə də göründüyü kimi, süni siqnallarla gerçək olmayan dünya gerçək kimi göstərilə bilir. Son illərdə çəkilən bəzi məşhur filmlərin bu mövzuya toxunması da son dərəcə diqqət çəkir. [Bu filmlərdən bəzisinə səhifə 202-dən sonra xüsusi diqqət çəkəcəyik.] Məsələn, *"The matrix"* adlı Hollivud filmində filmin iki qəhrəmanı kresloda uzanmış vəziyyətdə ikən sinir sistemlərinə kompyuter qoşulduqda özlərini tamamilə başqa məkanlarda görürlər. Bir səhnədə uzaq şərq idman növü ilə məşğul olarkən, başqa birində isə özlərini başqa paltarlarda bir çox insanın olduğu küçədə gəzərkən görürlər. Filmin qəhrəmanı yaşadıqlarının həqiqiliyi qarşısında bunların kompyuter vasitəsilə əmələ gətirilən görüntülər olduğuna inana bilmədiyini söylədikdə isə kompyuter tərəfindən görüntü dondurulur və bu şəxs həqiqi sandığı dünyanın, əslində, bir görüntü olduğuna inandırılır.

Beləliklə, dövrümüzün texnologiyası ilə süni siqnallarla süni görüntülər, başqa sözlə, süni dünya əmələ gətirmək mümkündür. Bu süni görüntülərin həqiqilərindən heç bir fərqi olmadığı təcrübədən keçirənlər tərəfindən ifadə edilir. Elə isə biz də hər an gördüyümüz həyat görüntüsündə təmasda olduqlarımızın mütləq əsillərinin olduğunu iddia edə bilmərik. Çünki bu hisslərimizin səbəbi çox fərqli mənbə ola bilər.

HİPNOZUN GÖSTƏRDİYİ VACİB HƏQİQƏT

Süni siqnallarla bir dünya əmələ gətirilməsi həqiqətinə ən yaxşı nümunələrdən biri də hipnozdur. Məlumdur ki, hipnozda hipnoz edilən şəxsin təlqinlər vasitəsilə həqiqisindən ayırd edilməyəcək qədər inandırıcı bir sıra hadisələri yaşaması təmin edilir. Sözügedən şəxs olduğu otaqda olmayan görüntüləri, adamları və ya mənzərələri görür, səsləri eşidir, qoxuları və dadları bilir. Bu müddətdə yaşadığı hadisələrdən sevinir, kədərlənir, həyəcanlanır, sıxıntı və təşviş keçirir. Hətta hipnoz altındakı şəxsin yaşadığı hadisələrin təsiri kənardan fiziki cəhətdən də müşahidə olunur, verilən təlqinlə əlaqədar nəbzin vurması, təzyiqin yüksəlməsi, dərisində qızartı əmələ gəlməsi, temperaturunun qalxması, mövcud ağrını hiss etməsi kimi əlamətlər meydana gəlir. (Dr. Muhterem Ercan, Hipnoz ve Hipnoterapi, Seha Neşriyat, İstanbul 1993, s.32-34; William Kroger, Clinical and Experimental Hypnosis, http://www.lucidexperience.com/HypnoPapers/512.html)

Məsələn, hipnozun tətbiq edildiyi bir təcrübədə şəxsə xəstəxanada olduğu və bu xəstəxananın onuncu mərtəbəsində ölmək üzrə olan bir xəstə olduğu deyilmiş, ancaq onun əlindəki dərmanı tez çatdırdığı halda xəstənin həyatının qurtarılacağı təlqin edilmişdir. Bu şəxs hipnoz ərzində təlqinin təsiri ilə son dərəcə sürətlə 10 mərtəbəni yuxarı çıxmağa başladığını hesab etmişdir. Bu zaman tövşümüş, bərk yorulduğu üçün təngnəfəs olmuşdur. Sonra ona artıq

ən yuxarı mərtəbəyə çatdığı və dərmanı çatdırdığı deyilmiş və rahat bir çarpayıya uzanması təlqin edilmişdir. Beləliklə, hipnoz edilən şəxs rahat olmağa başlamışdır. (Dr. Tahir Özakkaş, Gerçeğin Dirilişine Kapı HiPNOZ, "Üst Ultrastabilite", Se-da Yayınları, 1. Cilt, 1. Baskı, s. 204-205) Hipnoz edilən şəxs ona təlqin edilən məkanı və mühiti bütün gerçəkliyi ilə yaşamasına baxmayaraq, ortada nə bəhs edildiyi kimi bir məkan, nə insanlar, nə də hadisələr vardır.

Digər təcrübədə isə normal otaqda olan şəxsə hamamda olduğu və hamamın çox isti olduğu təlqin edilmiş, bundan sonra həmin şəxs həddindən artıq tərləməyə başlamışdır. (Dr. Tahir Özakkaş, Gerçeğin Dirilişine Kapı HiPNOZ, "Üst Ultrastabilite", s. 267) Burada çox vacib cəhət də diqqəti cəlb edir. İnsan bədənində tərləmə baş verməsi üçün bəzi təsirlərin meydana gəlməsi şərtdir. Bu hipnoz hadisəsində qarşılaşdığımız həqiqət isə budur: hipnoz edilən şəxs xarici aləmdə tərləməyə səbəb olan heç bir amil olmadığı halda tərləmişdir. Bu nümunə açıq şəkildə göstərir ki, bir məkanda olmaq və ya bir mühiti hiss etmək üçün o mühitin və ya məkanın əsli ilə təmasda olmaq şərt deyil. Süni siqnallar və ya təlqin yolu ilə bənzər təsirlərin əmələ gətirilməsi mümkündür.

Milli Hipnoterapiya Dərnəyi, Milli Psixoterapiya Dərnəyi, Peşəkar Hipnoterapistlər Mərkəzi, Hipnoterapiya Araşdırma Dərnəyi kimi bir çox qurumun üzvü olan ingilis hipnoterapiya mütəxəssisi Terrens Vats bir məqaləsində hipnoz vaxtı keçmişdəki hadisəni xatırlayaraq danışan insanlarda danışdıqları hadisə ilə əlaqədar olaraq bəzi fiziki dəyişikliklər müşahidə edildiyini bildirir. Məsələn, insanın danışdığı hadisədə nəfəs alma çətinliyi kimi vəziyyət baş vermişsə, hadisəni hipnoz altında danışdığı vaxtda yenə nəfəsi daralır, hətta bir müddət tamamilə dayanır. Vats hipnoz zamanı kiçik yaşlarında döyüldüyü anı danışan insanın üzündə şillə izlərinin meydana gəldiyini də bildirir. Bundan əlavə, Vats bunun sirr olmadığını, bədənin ağrıya cavab verdiyini bildirir. (Terrence Watts, Abreaction, The psychological phenomena that hypno-therapists either love or hate, http://www.hypnosense.com/abreaction.htm)

Hipnoz hadisələrində görülən ən təəccüblü nümunələrdən biri də hipnoz edilən şəxsin dərisində təlqin nəticəsində yaraların belə əmələ gəlməsidir. Məsələn, Paul Torsen adlı tədqiqatçı hipnozdakı şəxsin qoluna sadəcə qələmin ucunu toxundurmuş və bunun közərmiş şiş olduğunu təlqin etmişdir. Bir az sonra qələmin dəydiyi yer qabarmışdır. Eyni tədqiqatçı birisinə hipnoz vaxtı qolunun A hərfi şəklində sıyrıldığını təlqin etmişdir. Başqa bir şey etmədiyi halda, o yerdə A hərfi şəklində qızartı əmələ gəlmişdir. (Dr. Recep Doksat, Hipnotizma, Kader Basımevi, İstanbul, 1962, s. 106-108) Buri və Burot adlı tədqiqatçılar isə hipnoz edilən şəxsə qolunun kəsildiyini təlqin edib yumşaq qələmlə azca cızmış və sonra qolundan qan sızdığını görmüşlər.

(Dr. Recep Doksat, Hipnotizma, s.106-108)

J.A.Hadfild isə hipnoz etdiyi dənizçiyə qoluna isti dəmir vurduğunu və o yerin yanacağını söyləmişdir. Halbuki, sadəcə barmağının ucunu toxundurmuşdur. Sonra da o yeri sarımışdır. 6 saatdan sonra sarğı açıldıqda orada, həqiqətən, yüngül qızartı və qabarıq görünmüşdür. Hadfild: *"Ertəsi gün qabarıq xeyli böyümüşdü və eynilə yanıq yeri kimi su yığılmışdı"*, - demişdir. (Dr. Recep Doksat, Hipnotizma, s. 106-108)

Hipnoz vaxtı insan bədənində meydana gələn bu dəyişikliklər görmə, eşitmə, toxunma, hiss etmə, ağrı bilmə kimi hisslərimizin əmələ gəlməsi üçün xarici aləmə ehtiyacımızın olmadığını göstərir. Məsələn, xarici aləmdə qızarmış dəmirin olmadığına baxmayaraq, bu təlqini alan şəxsin qolunda yanıq izi əmələ gələ bilir.

Bütün bu nümunələrdən də məlum olduğu kimi, həm görüntünün necə əmələ gəldiyini tədqiq etdikdə, həm texnoloji nailiyyətlərə baxdıqda, həm də hipnoz kimi təlqin üsullarını bu məlumatlara əlavə etdikdə ortaya qəti həqiqət çıxır: insan ömrü boyu bədəninin xaricindəki dünyada yaşadığını zənn edir. Halbuki, dünya dediyimiz hər şey qavrama mərkəzlərimizə çatan siqnalların beynimiz tərəfindən şərhidir. Yəni biz beynimizin içində əmələ gələn dünyadan başqa dünya ilə heç vaxt təmasda ola bilmərik. Xarici aləmdə nə olduğunu bilməyimiz əsla mümkün deyil. Beyinə ötürülən siqnalların mənbəyinin, orijinalının nə olduğunu da bilmirik. Bu gün bu mövzu ən əsas elmi kitablarda yer alan və məktəbdə yuxarı siniflərdən etibarən insanlara öyrədilən açıq həqiqətdir. Problem ondadır ki, insanlar bu həqiqət üzərində düşünmürlər.

BÜTÜN BU HİSSLƏRİ YAŞAYAN KİMDİR?

Bura qədər olan bölmələrdə həyatımıza aid bütün hisslərin beynimizdə əmələ gəldiyini nəzərdən keçirdik. Burada bir az diqqətlə düşünən hər insanın soruşacağı vacib sual ilə qarşılaşırıq.

Məlumdur ki, gözümüzdəki hüceyrələrdən gələn elektrik siqnalları beynimizdə görüntüyə çevrilir. Məsələn, beyin görmə mərkəzinə gələn bəzi elektrik siqnallarını günəbaxan tarlası kimi şərh edir. Elə isə görən göz deyil.

Əgər görən gözlərimiz deyilsə, beyinin arxa hissəsində, qaranlıq yerdə gözə, tor qişaya, göz bülluruna, göz sinirlərinə, göz bəbəyinə ehtiyacı olmadan elektrik siqnallarını rəngarəng günəbaxan tarlası kimi görən, gördüyü bu mənzərədən zövq alan kimdir?

Heç bir səsin girmədiyi beyində qulağa ehtiyacı olmadan elektrik siqnallarını ən yaxın dostunun səsi kimi eşidən, bu səsi eşitdikdə sevinən, eşitmədikdə onun üçün darıxan kimdir?

Beyinin içində əl və barmaqlara, əzələlərə ehtiyacı olmadan pişiyin tüklərini oxşadığını hiss edən kimdir?

İsti, soyuq, qatılıq, forma, dərinlik, uzaqlıq kimi toxunma duyğularını əslinin eynisi ilə beyində kim yaşayır?

Heç bir qoxunun girə bilmədiyi beyinin içində limon, gül, yemiş, qarpız, portağal, qoxusunu eynisi ilə qoxulayan və kababın qoxusunu duyduqda iştahası gələn kimdir?

Bura qədər duyğularımızın beynimizdə meydana gəldiyindən bəhs etmişik. Elə isə beyinin içində əmələ gələn bu görüntülərə televizor ekranındakı kimi baxan, tamaşa etdiklərindən sevinən, kədərlənən, həyəcanlanan və ya təşvişə düşən kimdir? Bütün gördüklərini və hiss etdiklərini şərh edən şüur kimə aiddir?

Həyatı boyu qaranlıq, səssiz kəlləsinin içində ona göstərilən görüntülərə

baxan, düşünən, nəticə çıxaran, qərar verən şüur sahibi varlıq kimdir?

Bütün bunları qavrayan, şüuru meydana gətirən varlığın şüursuz atomların əmələ gətirdiyi su, yağ, zülal kimi maddələrdən ibarət olan beyin olmadığı aydındır. Beyinin fövqündə daha fərqli bir varlıq olmalıdır. Daniel Dennet materialist olduğuna baxmayaraq, kitabında bu sualı belə açıqlayır:

Şüurlu düşüncələrim və xüsusilə də günəş işığından, Vivaldidən, asta tərpənən budaqlardan aldığım zövq - necə olur ki, bütün bunlar sadəcə beynimdə əmələ gələn fiziki şeylərdir? Necə olur ki, beynimdəki elektrokimyəvi birləşmələrin kombinasiyası bu yüzlərlə zərif budağın zaman ərzində musiqi ilə diz çökməsinə çevrilir? Beynimdəki məlumatı hazırlama prosesi necə olur ki, üzərimə düşən günəş işığının istiliyinə çevrilir? Hətta beynimdəki hadisə necə olur ki, beynimdəki başqa bir məlumatı hazırlama hadisəsinin çertyoj şəklində əyaniləşdirilmiş zehni görüntüsünə çevrilir? Bu, mümkünsüz görünür. Mənim şüurlu düşüncələrim və təcrübələrim olan hadisələr beyin prosesləri deyilmiş kimi görünür, ancaq başqa bir şey olmalıdır, şübhəsiz, beyin proseslərinin səbəb olduğu və ya onlar tərəfindən hazırlanan, ancaq buna əlavə olaraq fərqli maddədən əmələ gələn, fərqli məkana yerləşdirilmiş bir şey. Bəli, niyə də olmasın?

(Daniel C. Dennett, Consciousness Explained, Little, Brown and Company, NY 1991, s. 26-27)

R. L. Qreqori isə beyinin arxasında olan və bütün bu görüntüləri görən bu varlığı belə şərh edir:

Gözlərin beyində şəkillər əmələ gətirdiyindən söhbət gedir, ancaq bu fikirdən çəkinmək lazımdır. Beyində şəkil əmələ gəldiyi deyilirsə, bunu görmək üçün içəridə bir göz də olmalıdır, lakin bu gözün şəklini görmək üçün bir gözə də ehtiyac olacaq... və bu da sonsuz bir göz və şəkil olması deməkdir. Bu, mümkün deyil. (R. L. Gregory, Eye and Brain: The Psychology of Seeing, s. 9)

Maddədən başqa varlığı qəbul etməyən materialistlərin içindən çıxa bilmədikləri əsl müəmma elə budur. Görən, gördüyünü qavrayan və reaksiya verən "içəridəki göz" kimə aiddir? Karl Pribram da elm və fəlsəfə dünyasında qavrayışı kimin hiss etdiyi ilə bağlı bu vacib axtarışa belə diqqət çəkmişdir:

Yunanlardan bəri filosoflar "maşının içindəki xəyal", "kiçik insanın içindəki kiçik insan" və s. üzərində daima düşünmüşlər. Mən – yəni beyindən istifadə edən varlıq haradadır? Əslində, bilməyi həyata keçirən kimdir? Assisili Müqəddəs Fransisin də dediyi kimi: "Axtardığımız şey baxanın nə olduğudur". (Karl Pribram, David Bohm, Marilyn Ferguson, Fritjof Capra, Holografik Evren I, Çev: Ali Çakıroğlu, Kuraldışı Yayınları, İstanbul: 1996, s.37)

Bir çox insan bu mövzunu düşünərək həqiqətə lap yaxınlaşdığı halda, "görən kimdir" sualının cavabını verməkdə, düşüncədə bundan daha irəliyə getməkdə tərəddüd edir. Yuxarıdakı nümunələrdə də göründüyü kimi, mənliyimizi meydana gətirən varlığa bəziləri "kiçik insan", bəziləri "maşının içindəki xəyal", bəziləri "beyini idarə edən varlıq", bəziləri isə "içəridəki göz" ifadəsindən istifadə etmişlər. Bütün bu ifadələrdən beyinin fövqündə şüur sahibi olan varlığı tərif etmək və onu dərk etmək üçün istifadə edilmişdir. Ancaq bu insanlar materialist fikirlərinə görə, əslində, görən və

eşidənin kim olduğunu dilə gətirə bilməmişlər.

Bir zaman Rəbbin mələklərə dedi: "Mən başqa şəklə düşmüş qara palçıqdan, səs çıxaran quru gildən insan yaradacağam! Mən ona biçim verib Öz ruhumdan üfürdüyüm zaman siz ona səcdə edin!" (Hicr surəsi, 28-29)

Sonra onu düzəldib müəyyən şəklə salmış və ona Öz ruhundan üfürmüş, sizə qulaqlar, gözlər və ürək vermişdir. Siz necə də az şükür edirsiniz! (Səcdə surəsi, 9)

Yəni insanın bədənindən başqa varlığı da var. Beyninin içindəki görüntünü "görürəm", - deyən, beyninin içində eşitdiyi səsləri "eşidirəm", - deyən, öz varlığını dərk edən və "mən mənəm", - deyən bu varlıq Allahın insana verdiyi ruhdur.

Ağıl və vicdan sahibi olan hər insan həyatı boyu yaşadığı hər hadisəyə beyninin içindəki ekranda baxan varlığın ruhu olduğunu dərhal başa düşəcəkdir. **Hər insan gözə ehtiyacı olmadan görə bilən, qulağa ehtiyacı olmadan eşidə bilən, beyinə ehtiyacı olmadan düşünə bilən ruha malikdir.**

Tək mütləq varlığın maddə olduğunu iddia edən, insan şüurunun da yalnız beynindəki kimyəvi proseslərin nəticəsi olduğunu zənn edən materialist düşüncə isə bu mövzuda çıxılmaz vəziyyətə düşmüşdür. Bunu görmək üçün hər hansı bir materialistə bu sualları verə bilərsiniz:

- Görüntü beynimizdə əmələ gəlir, ancaq bu görüntüyə beynimizdə kim baxır?

- Hal-hazırda yanınızda olmayan aşağı mərtəbədəki qonşunuzu gözünüzün qarşısına gətirin. Onu aydın şəkildə görürsünüz. Paltarı, üzü, saçındakı ağları, səsinin tonu, danışıq tərzi, yerişi ilə xəyalınızda çox aydın şəkildə canlandırdığınız bu insana kim baxır?

Bu və buna bənzər sualları materialistlərə verdikdə heç bir cavab ala bilməzsiniz. Çünki bu sualların tək cavabı Allahın insana verdiyi ruhdur. Materialistlər isə maddədən başqa heç bir varlığı qəbul etmirlər. Elə buna görə, bu kitabda izah edilən qeyri-adi həqiqət Allahın varlığını inkar edən materialist düşüncəyə ən böyük zərbə vuran, materialistlərin düşünməkdən və haqqında danışmaqdan ən çox çəkindikləri mövzudur.

BU GÖRÜNTÜLƏRİ RUHUMUZA TAMAŞA ETDİRƏN KİMDİR?

Burada bir sual da verilməlidir: ruhumuz beynimizdə əmələ gələn görüntülərə tamaşa edir. Bəs bu görüntüləri əmələ gətirən kimdir? Qaranlıq beynimizin içində işıqlı, rəngarəng, aydın, kölgəli görüntüləri əmələ gətirən, elektrik siqnallarından kiçik bir yerdə böyük dünyanı meydana gətirən beyin ola bilərmi? Beyin nəm, yumşaq, qırışıq ət parçasıdır. Belə bir ət parçası ən qabaqcıl texnologiya ilə istehsal edilmiş televizorlardan daha aydın, heç bir pozulma və ya tutqunluq olmadan, rəngləri son dərəcə canlı olan aydın görüntü əmələ gətirə bilərmi? Beyin kimi təqribən 1.5 kq ağırlığındakı ət parçasının bu qədər qüsursuz hisslər əmələ gətirə bilməsi,

əlbəttə, mümkün deyil.

Burada bir həqiqətlə də qarşılaşırıq. Ətrafımızda gördüyümüz hər şeylə birlikdə sahib olduğumuz bədənimiz, əlimiz, qolumuz, üzümüz kölgə varlıq olduğuna görə, beynimiz də kölgə varlıqdır. Elə isə görüntü olan varlığın görüntü meydana gətirdiyini deyə bilmərik.

Bertrant Rassel *"Nisbiliyin əlifbası"* adlı əsərində: *"Şübhə yoxdur ki, maddə ümumi şəkildə formalaşma qrupu kimi şərh ediləcəksə, bunu gözə, optik sinirə və beyinə də aid etmək lazımdır.* (Bertrand Russell, Rölativitenin Alfabesi, Onur yay. 1974 s. 160-161)*"* - deyərək bu həqiqətə diqqət çəkir.

Bu həqiqəti dərk edən tanınmış filosof Berqson isə *"Maddə və hafizə"* adlı kitabında: *"Dünya görüntülərdən ibarətdir, bu görüntülər ancaq bizim şüurumuzda var;* ***beyinin özü də bu görüntülərdən biridir.*** (George Politzer, Felsefenin Başlangıç İlkeleri, İstanbul, Sosyal Yay., 1989, s. 196)*"* - deyir. Onda ruhumuza bu görüntüləri göstərən, ona həqiqisi ilə eyni dərəcədə aydın görüntü və hisslərlə həyat yaşadan, üstəlik, bu görüntüləri fasiləsiz davam etdirən kimdir?

Ruhumuza bütün görüntüləri göstərən, bütün səsləri eşitdirən, ruhumuzun zövq alması üçün bütün dadları və qoxuları yaradan, bütün aləmlərin Rəbbi, hər şeyin yaradıcısı olan Allahdır.

MATERİALİZMİN DÜŞDÜYÜ ƏN BÖYÜK ÇIXILMAZ VƏZİYYƏTLƏRDƏN BİRİ: İNSAN ŞÜURU

Materialist fəlsəfə insan şüurunu, yəni insanın ruhuna aid xüsusiyyətlərin mənbəyini əsla açıqlaya bilməz. Çünki materialist fəlsəfədə ancaq maddənin varlığına inanılır. İnsanın ruhuna aid şüur, düşünmə, qərar vermə, sevinmə, həyəcanlanma, darıxma, zövq alma, şənlənmə, mühakimə və rəy söyləmə kimi xüsusiyyətlər heç bir maddi anlayışla açıqlana bilməz. Materialistlər bu mövzuya: "İnsan şüuru beyinin fəaliyyətlərinin məhsuludur", - deyərək məsələdən yayınmağa çalışırlar. Bu materialist elm adamlarından biri olan Fransis Krik sözügedən materialist iddianı belə izah edir:

Sevincimiz, kədərimiz, xatirələrimiz və istəklərimiz, şəxsiyyətinizlə bağlı hisslərniz və iradəniz, əslində, çoxlu sayda sinir hüceyrəsinin və onlara bağlı molekulların birlikdə həyata keçirdiyi hərəkətlərdən başqa bir şey deyil. (John Horgan, The Undiscovered Mind: How the Human Brain Defies Replication, Medication, and Explanation , New York:Free Press, 1999, s. 258-259)

Əslində isə, bu, nə elmi, nə də məntiqi cəhətdən müdafiə ediləcək iddia deyil. Materialistləri insan ruhuna aid xüsusiyyətlərə belə bir açıqlama verməyə məcbur edən onların maddəçi rəyləridir. Maddənin fövqündə bir varlığın mövcud olması həqiqətini qəbul etməmək üçün insan zehnini maddəyə sadələşdirməyə çalışır və bu məqsədlə ağıl və məntiqə uyğun olmayan iddialara üz tuturlar. Elmi yazıçı Con Horqan sadələşdirmə adlandırılan materialist düşüncəyə bağlı olmasına baxmayaraq, Fransis Krikin bu iddiasının qəbul edilməz olduğunu və üzləşdiyi ziddiyyəti belə etiraf edir:

Bir tərəfdən Krik haqlıdır. Biz neyron torbasından başqa bir şey deyilik.

Eyni zamanda, necə də qəribədir ki, nevrologiyanın kifayət etmədiyi məlum oldu. Ağılı neyronlarla açıqlamaq onu kvark və elektronlarla açıqlamaqdan daha çox anlayış və fayda gətirmədi. Bir çox alternativ sadələşdirmə (reductionism) var. "Biz xüsusi gen paketindən başqa bir şey deyilik". "Biz təbii seçmə ilə formalaşan uyğunlaşmalardan başqa bir şey deyilik". "Biz fərqli sahələr üçün ayrılmış kompyuter makinalarından başqa bir şey deyilik". Krikin iddiasına bənzəyən ***bu fikirlərin hamısını müdafiə etmək olar, ancaq heç biri kifayət etmir.*** (John Horgan, The Undiscovered Mind: How the Human Brain Defies Replication, Medication, and Explanation , s.258-259)

Bu açıqlamaların, əlbəttə, hamısı qeyri-kafidir, hətta tamamilə məntiqsizdir. Ən qatı materialistlər belə bu həqiqəti, əslində, çox yaxşı anlayırlar. Belə ki, Darvinin ən yaxın dəstəkləyəni kimi tanınan materialist Tomas Haksli də: *"Şüur kimi bu qədər fövqəladə bir şey necə olub sinir toxumalarının bir-birilə qarşılıqlı təsirindən meydana gəlmişdir? Bu, Ələddinin lampasını əli ilə sürtdükdə içindən cinin çıxması qədər izah edilməzdir",* - deyərək şüurun neyronlararası əlaqə ilə açıqlanmasının mümkün olmadığını ifadə etmişdir.
(John Horgan, The Undiscovered Mind: How the Human Brain Defies Replication, Medication, and Explanation , s.229)

Hakslidən dövrümüzə qədər insan şüurunun neyronlarla açıqlanmasının mümkünsüzlüyü həqiqəti dəyişməmişdir. Ancaq bunun səbəbi elmin bu sahədəki yeni tapıntılarının kifayət olmadığından irəli gəlmir. Əksinə, nevrologiya sahəsində XX əsrin xüsusilə sonlarında çoxlu irəliləyişlər baş vermiş, bir çox qaranlıq cəhət aydınlığa çıxmışdır. Ancaq bunlar insan şüurunun əsla maddəyə sadələşmədiyini, maddənin fövqündə bir həqiqətin axtarılmalı olduğunu ortaya qoyan elmi fəaliyyətlərdir. Belə ki, Almaniyanın qabaqcıl darvinist-materialist yazıçılarından biri olan Hoymar Von Ditfurs qəbul etdikləri üsul ilə şüurun açıqlanmasının mümkün olmadığını belə etiraf edir:

İzlədiyimiz təbiət tarixi və genetik irəliləyiş yolunda şüurun, ruhun, zəkanın və duyğunun nə olduğuna dair cavab verə bilmədiyimiz gün kimi aydındır. *Çünki psixi-zehni ölçü ən azından bu dünyada, bu anda təkamülün gəlib çatdığı ən son həddir. Ona görə də təkamülün sonrakı mərhələ və pillələrinə yenə şüurumuzun köməyi ilə kənardan, onların üstünə çıxaraq baxa bildiyimiz halda şüurun (ruhun) özünə belə bir yaxınlaşma imkanından məhrumuq. Çünki əlimizdə şüurun özündən daha çox inkişaf etmiş yuxarı pillə yoxdur.* (Hoimar Von Ditfurth, Dinozorların Sessiz Gecesi 3, s.13)

Amerikalı fəlsəfə və riyaziyyat elmləri doktoru Uilyam A. Dembski *"Converting matter into mind"* ("Maddəni zehnə çevirmək") adlı məqaləsində insan beynindəki neyronların biokimyəvi prosesinin başa düşüldüyünü və bunun hansı zehni fəaliyyətlərlə bağlı olduğunun müəyyən edildiyini, ancaq qərar vermək, istəmək, fikir yürütmək kimi xüsusiyyətlərin maddəyə sadələşmədiyini və şüuru araşdıran mütəxəssislərin bu sadələşmənin xətasını gördüyünü belə yazır:

... Şüuru öyrənən alimlərin bu faktı (şüuru) nevroloji səviyyədə anlamaq ümidindən artıq əl çəkdikləri görünür... *Materializmə olan*

bağlılıq davam etsə də, insan ağlını neyron səviyyəsində açıqlamaq ümidi artıq ciddi düşüncə deyil... (William A. Dembski, Converting Matter into Mind, 1998, www.arn.org)

Şüurun materialist düşüncə tərzi ilə açıqlanması, elm inkişaf etsə də, mümkün deyil. Çünki beyin haqqında məlumat əldə edildikcə zehnin maddəyə sadələşmədiyi bir o qədər ortaya çıxır. Materialistlər insan şüurunu, həqiqətən, qavramaq istəyirlərsə, öz yanlış düşüncələrindən əl çəkərək düşünməli və araşdırmalıdırlar. Çünki şüurun həqiqi mənasını maddə ilə açıqlamaq mümkün deyil. Şüur Allahın insanlara verdiyi ruhun funksiyasıdır.

MATERİALİSTLƏRƏ SUALLAR

İnsanların düşüncələrinin, mühakimə və rəy bacarıqlarının, qərar vermə mexanizmlərinin, sevinc, həyəcan, rahatlıq kimi duyğularının beyinlərindəki neyronların bir-biri ilə qarşılıqlı təsiri olduğunu irəli sürmək son dərəcə məntiqsiz iddiadır. Mövzu üzərində daha ətraflı düşünən materialistlər də bunu başa düşürlər. Tanınmış materialist Karl Leşli insan şüurunu maddəyə sadələşdirməyin mümkünlüyünü uzun illər müdafiə etdiyinə baxmayaraq, karyerasının sonlarında bu fikri söyləmişdir:

Zehin-bədən əlaqəsi istər həqiqi metafizik mövzu, istərsə də sistemli xəta kimi nəzərdən keçirilsin, bu mövzu psixoloqlar və insan məsələləri ilə məşğul olan nevroloqlar üçün hələ də problemdir... ***Necə olur ki, beyin fiziki-kimyəvi sistem kimi bir şeyi qavrayır və ya bilir,*** *yaxud bunu etdiyinə dair özünü aldada bilir?* (William A. Dembski, Converting Matter into Mind, 1998, www.arn.org)

Leşli sözügedən ziddiyyəti bircə sual ilə ifadə etmişdir. Əslində isə, bu barədə materialistlərin özlərinə verməli və üzərində düşünməli daha bir çox şey var. Aşağıdakı açıqlamalar materialist yanaşmanın düşdüyü çıxılmaz vəziyyəti göstərən məsələlərdən bir neçəsidir:

- Düşüncələrin, həyəcan və duyğuların neyronların məhsulu olduğunu söyləmək, bütün bunların, əslində, neyronları meydana gətirən şüursuz atomların, hətta atomun hissəcikləri olan kvarkların, elektronların məhsulu olduğunu iddia etmək ilə eynidir.
- Şüursuz atomlar sevinməyi, ağrını, həyəcanı, musiqidən zövq almağı, ləzzəti, dostluğu, söhbət zövqünü bilmirlər.
- Şüursuz atomlar darvinist və materialist olaraq birləşib kitab yaza bilməzlər.
- Şüursuz atomlar elektron mikroskopun altında özlərini və ya özlərinin birləşərək əmələ gətirdiyi sinir hüceyrələrini tədqiq edərək bu tədqiqatlarından elmi nəticələr çıxara bilməzlər.
- Görəsən: "Şüur beynimizdəki neyronlardadır", - deyərkən nəyi nəzərdə tuturlar? Neyronlar da digər hüceyrələr kimi hüceyrə qılafı, mitoxondri, DNT, ribosom kim tərkib hissələrdən ibarətdir. Görəsən, şüur materialistlərin fikrincə bunların harasında yerləşir? Şüurun neyronlar arasındakı kimyəvi reaksiyalardan və elektrik siqnallarından əmələ gəldiyini zənn edirlərsə, yanılırlar. Çünki bizə onlara məlum olan şüurlu kimyəvi reaksiya nümunəsi verə bilməzlər. Müəyyən voltajda düşünməyə başlayan elektrik axını nümunəsi göstərə bilməzlər.

Materialistlər bu mövzuların üzərində səmimi şəkildə düşündükdə özlərinin də, digər bütün insanların da neyron yumağından və ya atom yığınından fərqli varlıqlar olduğunu dərk edəcəklər. Beyin mütəxəssisi Volf Sinqer materialist olmasına baxmayaraq, qarşılaşdığı bu həqiqəti belə ifadə etmişdir:

Kainatın bu qarışıq maddəsində özünü "mən" olaraq dərk edən bir şey var. (Cumhuriyet Bilim Teknik Dergisi, 7 Temmuz 2001, sayı 746, s. 18; DerSpiegel, 1/2001, Nilgün Özbaşaran Dede)

Bu elm adamının ifadə etdiyi şey Allahın insana verdiyi ruhdur. İnsan sahib olduğu bu ruh ilə düşünən, sevinən, həyəcanlanan, əks fikirlərə qarşı çıxan, şərəf, hörmət, sevgi, dostluq, vəfa, səmimiyyət kimi anlayışları bilən varlıqdır. Neyronlar və onları əmələ gətirən atomlar isə düşünüb qərar verə bilməzlər, fəlsəfi fikirlər irəli sürə bilməzlər, sevgi, şəfqət hisslərini bilməzlər. Bunu materialistlərin çoxu da tək başına qaldıqda bilir və qəbul edirlər. Ancaq materialist rəylərini elmiliyin və ağılın gərəyi hesab etdikləri üçün yanılırlar və bu açıq-aydın həqiqəti qəbul etmirlər. Əslində isə, materializmi müdafiə etmək üçün içinə düşdükləri vəziyyət və qəbul etdikləri ağıldan kənar məntiq onlara daha çox zərər verir. "Düşüncələrimiz atomlarımızın, sadəcə neyronlarımızın məhsuludur" -deyən bir insanın xəyallarını həqiqi zənn edən və ya ağlasığmaz nağıllar uydurub sonra bunlara özü inanan insandan heç bir fərqi yoxdur.

Həqiqət budur: **insan Allahın ona verdiyi ruhu daşıyan, bu ruh ilə düşünən, danışan, sevinən, qərarlar qəbul edən, sivilizasiyalar quran, ölkələri idarə edən varlıqdır.**

HƏQİQİ MÜTLƏQ VARLIQ

Bütün bu gerçəklər, bizi çox əhəmiyyətli bir sualla daha qarşı-qarşıya gətirir: Madam ki, maddi dünya olaraq tanıdığımız şey gerçəkdə ruhumuzun gördüyü hisslərdən ibarətdir, o halda bu hisslərin qaynağı nədir?...

Bu suala cavab verərkən diqqət yetirilməsi lazım olan gerçək budur; maddənin öz başına müstəqil bir varlığı yoxdur. Maddə bir duyğu (hiss) olduğuna görə, "süni" bir şeydir. Yəni bu duyğunun bir başqa güc tərəfindən düzəldilməsi, daha açıq bir ifadəylə yaradılması lazımdır. Həm də davamlı olaraq. Bu, bir televiziya ekranında görünüşün davam edə bilməsi üçün, yayımın da sürəkli davam etməsi kimidir.

Yaxşı bizim ruhumuza ulduzları, dünyanı, bitkiləri, insanları, bədənimizi və gördüyümüz digər hər şeyi davamlı olaraq seyr etdirən kimdir?

Çox açıqdır ki, içində yaşadığımız bütün maddi kainatı, yəni hisslər bütününü yaradan və davamlı yaratmağa davam edən üstün bir Yaradıcı vardır. Bu Yaradıcı sonsuz bir güc və elm sahibidir.

O Yaradıcı aləmlərin Rəbbi olan Allahdır.

Göylərin və yerin, yəni kainatın sabit və qərarlı olmadığı, yalnız Allahın yaratmağıyla varlıq tapdıqları və O, yaratmağı dayandırdığında yox olacaqları bir ayədə belə ifadə edilir:

Həqiqətən, Allah göyləri və yeri tərpənməsinlər deyə, tutub saxlayır. Əgər tərpənsələr, Ondan başqa onları heç kəs tutub saxlaya bilməz. Həqiqətən də, O, Həlimdir, Bağışlayandır. (Fatir surəsi, 41)

Daha əvvəl də ifadə etdiyimiz kimi, insanların çoxu, Allahın gücünü qavraya bilmədiklərindən, Onu göylərdə bir yerlərdə olan və dünya işlərinə müdaxilə etməyən bir varlıq olaraq düşünürlər. Bu məntiqin təməli, kainatın bir maddələr bütünü olduğu, Allahın isə bu maddələrin "xaricində" bir yerlərdə olduğu şəklindədir.

Halbuki, indiyə qədər araşdırdığımız kimi, maddə bir duyğudan ibarətdir. Gerçək mütləq varlıq isə Allahdır. Yəni var olan yalnız Allahdır, Ondan başqa hər şey Allahın yaratdığı görüntü varlıqlardır. Belə olduqda da, Allahın maddə birliyinin "xaricində" olması kimi bir şey söz mövzusu ola bilməz. Allah "hər yerdə"dir və hər yeri örtməkdədir. Bu gerçək Quranda belə açıqlanar:

Allah, Ondan başqa ilah yoxdur, *(əbədi)* **Yaşayandır,** *(bütün yaratdıqlarının)* **Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər? O,** *(məxluqatın)* **gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, Ucadır, Uludur.** (Bəqərə surəsi, 255)

Allahın məkandan münəzzəh olduğu və hər yeri ətraflı əhatə etdiyi gerçəyi bir başqa ayədə də belə ifadə edilməkdədir:

Məşriq də, məğrib də Allahındır! Hansı səmtə yönəlsəniz, Allahın Üzü orada olar. Həqiqətən, Allah *(hər şeyi)* **Əhatəedəndir, Biləndir.** (Bəqərə surəsi, 115)

Maddi varlıqlar bir duyğu olduqlarına görə Allahı görə bilməzlər, amma Allah, öz yaratdığı maddəni hər şəkliylə görər. Quranda **"Gözlər Onu dərk etmir. O isə gözləri dərk edir. O, Lətifdir,** *(hər şeydən)* **Xəbərdardır.."** (Ənam surəsi, 103) deyilərək bu gerçək xəbər verilməkdədir.

Yəni biz Allahın varlığını gözlərimizlə duya bilmərik. Amma Allah bizim daxilimizi, xaricimizi, baxışlarımızı, düşüncələrimizi tam olaraq əhatə etmişdir. Ondan xəbərsiz biz tək bir söz belə söyləyə bilmərik, hətta tək bir nəfəs belə ala bilmərik.

"Xarici dünya" sandığımız hissləri seyr edərkən, yəni həyatımıza davam edərkən də, bizə ən yaxın olan varlıq, hər hansı bir duyğu deyil, Allahın Özüdür. Quranda yer alan **"İnsanı Biz yaratdıq və nəfsinin ona nəyi vəsvəsə etdiyini də bilirik. Biz ona şah damarından da yaxınıq."** (Qaf surəsi, 16) ayəsinin sirri də bu gerçəkdə gizlidir. Bir insan öz bədəninin "maddə"dən meydana gəldiyini zənn etdiyində bu əhəmiyyətli gerçəyi qavraya bilməz. Çünki məsələn "özü" zənn etdiyi yer beynidirsə, çölü olaraq qəbul etdiyi yer özünə 20-30 sm kimi müəyyən bir uzaqlıqda olar. Amma maddə deyə bir şeyin var olmadığını, hər şeyin xəyal olduğunu qavradığında,

artıq çölü, içərisi, uzaq, yaxın kimi anlayışlar mənasızlaşar. Allah onu ətraflı əhatə etmişdir və ona "sonsuz yaxın"dır.

Allah insanlara "sonsuz yaxın" olduğunu, **"Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən** *(onlara)* **yaxınam..."** (Bəqərə surəsi, 186) ayəsi ilə də bildirir. Bir başqa ayədə keçən, **"... Rəbbin insanları əhatə etmişdir..."** (İsra surəsi, 60) ifadəsi də yenə eyni gerçəyi xəbər verər.

İnsan özünə ən yaxın olan varlığın yenə özü olduğunu sanaraq yanılar. Halbuki Allah bizə, özümüzdən belə daha yaxındır. **"***(Can)* **boğaza yetişdiyi zaman – həmin an siz** *(can verən adama)* **baxırsınız. Biz ona sizdən daha yaxın oluruq, siz isə** *(bunu)* **görmürsünüz."** (Vaqiə surəsi, 83-85) ayəsiylə də bu gerçəyə diqqət çəkmişdir. Ancaq ayədə də bildirildiyi kimi insanlar gözləriylə görmədikləri üçün bu fövqəladə həqiqətdən xəbərsiz yaşayırlar.

Başqa yandan, bir görüntüdən başqa bir şey olmayan insanın, Allahdan asılı olmayan bir güc və iradəyə sahib olması da mümkün deyil. Necə ki **"Axı sizi də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır."** (Saffat surəsi, 96) ayəsi yaşadığımız bütün hadisələrin Allahın idarəsi altında reallaşdığını göstərir. Quranda bu gerçək bildirilməkdə və **"... atdığın zaman sən atmadın, Allah atdı..."** (Ənfal surəsi, 17) ayəsiylə, hər bir hərəkətin Allahdan asılı olduğu vurğulanmaqdadır. İnsan kölgə varlıq olduğu üçün atma hərəkətini edən özü ola bilməz. Ancaq Allah bu kölgə varlığa özünün atdığı hissini verməkdədir. Gerçəkdə isə bütün hərəkətləri reallaşdıran Allahdır. Bu vəziyyətdə adamın etdiyi işləri özünə aid hərəkətlər olaraq qəbul etməsi, açıqca özünü aldatmasıdır.

Gerçək budur. Bir insan bunu qəbul etmək istəməyə bilər, özünü Allahdan müstəqil bir varlıq sanmağa davam edə bilər, amma bu heç bir şeyi dəyişdirməz.

SAHİB OLDUĞUNUZ HƏR ŞEY ƏSLİNDƏ XƏYALDIR
(Maddənin Əslini Bilmək Dünya Ehtirasını Ortadan Qaldırar)

Açıqca görüldüyü kimi, gördüyümüz görüntülərin maddi bir həqiqətə sahib olmadığı, Allahın davamlı ruhumuza göstərdiyi görütülər bütünü olduğu elmi və məntiqi bir gerçəkdir. Lakin, insanlar ümumiyyətlə "xarici dünya" anlayışının içinə hər şeyi daxil etməzlər, ya da etmək istəməzlər.

Bu mövzuda bir az səmimi və cəsur düşünəcək olsanız, evinizin, içindəki əşyalarınızın və ya antikvarlarınızın, bağ evinizin, yeni aldığınız avtomobilinizin, ofisinizin, ləl-cəvahiratlarınızın, bankdakı hesabınızın, qarderobunuzun, yoldaşınızın, uşaqlarınızın, iş yoldaşlarınızın və sahib olduğunuz digər şeylərin də sizə göstərilən bu "xəyali xarici dünya"ya daxil olduğu gerçəyinin fərqinə vararsınız. Ətrafınızda gördüyünüz, eşitdiyiniz, iylədiyiniz qısacası beş duyğunuzla qəbul etdiyiniz hər şey bu "xəyali dünya"ya aiddir; ən sevdiyiniz sənətçinin səsi, oturduğunuz stulun sərtliyi, qoxusu xoşunuza gələn bir ətir, sizi istilədən günəş, rənglərilə göz oxşayan bir çiçək, pəncərənizin xaricində uçan bir quş, dənizin üzərində sürətlə

irəliləyən sürət mühərriki, bol məhsul verən bağçanız, işinizdə istifadə etdiyiniz kompüter ya da dünyadakı ən keyfiyyətli texnologiyaya sahib musiqi setiniz...



Gerçək budur, çünki dünya yalnız insanı sınamaq üçün yaradılan bir görüntülər bütünüdür. İnsanlar qısa həyatları boyunca, əslinə heç bir zaman çata bilməyəcəkləri hisslərlə sınanarlar. Bu hisslər isə, xüsusilə bəzəkli və cazibədar göstərilər. Bu gerçək, Quranda belə xəbər verilməkdədir:

Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl göstərilmişdir. Bunlar, dünya həyatının keçici zövqüdür, gözəl qayıdış yeri isə Allah dərgahındadır. (Ali-İmran surəsi, 14)

İnsanların çoxu sahib olduqları ya da olmağa çalışdıqları malların, pulların, yığdıqları qızılların, gümüşlərin, dollarların, ləl-cəvahiratların, daşıdıqları hesab pulqabılarının, kredit kartlarının, istifadə etdikləri şkaflar dolusu paltarların, son model avtomobillərin, qısacası hər cür zənginliyin sehri ilə dinlərini bir kənara buraxar, axirəti unudar və yalnız dünyaya yönələrlər. "İşim var", "ideallarım var", "məsuliyyətlərim var", "vaxtım məhduddur", "yetişdirməm lazım olan işlər var", "irəlidə edəcəyəm" deyərək, dünyanın "bəzəkli və cazibədar" üzünə aldanaraq namaz qılmaz, mallarını kasıblara verməz, axirətdə qazanc təmin edəcəkləri ibadətlərə yönəlməzlər. Əksinə yalnız dünyada qazanc təmin etməyə çalışaraq ömürlərini istehlak edərlər. **"Onlar dünya həyatının görünən tərəfini bilir, axirətdən isə büsbütün qafildirlər."** (Rum surəsi, 7) ayəsində tam olaraq bu yanılma təsvir edilir.

Kitabın bu hissəsində izah etdiyimiz gerçək, yəni hər şeyin bir görünüş olduğu gerçəyi isə, bütün bu ehtirasları və bağlılıqları mənasızlaşdırması baxımından çox əhəmiyyətlidir. Çünki bu gerçəyin başa düşülməsi, insanların sahib olduqları və olmağa çalışdıqları hər şeyin, ehtirasla sahib olduqları mülklərinin, varlıqlarıyla öyündükləri uşaqlarının, özlərinə ən yaxın sandıqları yoldaşlarının, dostlarının, ən sevdikləri bədənlərinin, bir üstünlük olaraq gördükləri mövqelərinin, oxuduqları məktəblərin, keçirdikləri tətillərin bir xəyaldan ibarət olduğunu göstərməkdədir. Bu vəziyyətdə bunlar adına edilən ehtiraslar, keçirilən zamanlar, xərclənən səylər də boşunadır.

O halda bəzi insanlar sahib olduqları mal və mülkləriylə, "yaxtalarıyla,

vertolyotlarıyla, fabriklərivlə, holdinqlərivlə, köşklərivlə, ərazilərivlə" sanki bunlar həqiqətən varmışcasına öyündükləri zaman kiçik düşməkdədirlər. Yaxtalarında "qürurlanaraq" gəzən zənginlər, yoldaşlarına avtomobillərivlə göstəriş edənlər, zənginliklərini hər fürsətdə dilə gətirənlər, mövqelərinin özlərini hər kəsdən üstün etdiyini zənn edənlər, bunlarla göstəriş etdiklərini sananlar, əslində bir xəyal ilə göstəriş etdiklərini anladıqlarında nə vəziyyətə düşəcəklərini bilməlidirlər.

Bunların bənzərlərini yuxularında da tez-tez görərlər. Yuxularında da evləri, çox sürətli avtomobilləri, son dərəcə qiymətli ləl-cəvahiratları, topa-topa dollarları, yığın-yığın qızıl və gümüşləri vardır. Yuxularında da yüksək bir mövqedə olarlar, minlərlə adamın işlədiyi fabrikləri olar, bir çox insana hökm edə biləcək bir gücləri olar, hər kəsin heyran qaldığı paltarlar geyərlər... Ancaq necə yuxuda sahib olduqları ilə öyünmək onları gülməli vəziyyətə salırsa, eyni şəkildə bu dünyada əlaqədə olduqları görüntü ilə öyünmək də buna ekvivalentdir. Yuxularında gördükləri də, bu dünyada əlaqədə olduqları da nəticədə zehinlərindəki bir görüntüdən ibarətdir.

Bunun kimi dünyada yaşadıqları hadisələrə göstərdikləri reaksiyalar da, gerçəyi anladıqlarında insanları utandıracaq. Özünü itirmiş şəkildə döyüşənlər, qışqırıb çağıranlar, fırıldaqçılıq edənlər, rüşvət alanlar, saxtakarlıq edənlər, yalan danışanlar, xəsislik edənlər, insanları incidənlər, onları döyüb söyənlər, gözü dönmüş təcavüzkarlar, içləri vəzifə ehtirası ilə dolu olanlar, həsəd edənlər, göstəriş etməyə çalışanlar, özlərini ucaltmaq üçün çalışanlar və digərləri, bir xəyal içində bunları etdiklərini fərq etdiklərində rəzil olacaqlar.

Bilinməlidir ki, "dünya" dediyimiz görüntüləri yaradan Allah olduğuna görə, bu dünyadakı bütün malın gerçək sahibi də yalnız Allahdır. Necə ki bu gerçək Quranda xüsusilə vurğulanar:

Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. Allah hər şeyi əhatə edir.
(Nisa surəsi, 126)

Əsli xəyal olan ehtiraslar uğruna dini bir kənara buraxmaq və bunun nəticəsində sonsuz həyatı itirmək isə, çox böyük bir ağılsızlıqdır. Dahası insana sonsuz itki gətirər.

Bu mövzuda bu nöqtə çox yaxşı başa düşülməlidir: Qarşı-qarşıya olduğumuz gerçək, "bütün bu sahib olduğunuz və ehtirasında olduğumuz mallar, zənginliklər, uşaqlar, yoldaşlar, dostlar, vəzifələr irəlidə yox olacaq, ona görə bir mənası yoxdur" deməməkdədir. "Bu sahib olduqlarınızın heç biri bu anda onsuz da yoxdur, hamısı yalnız bir xəyaldan ibarət olan, Allahın sizi sınamaq üçün göstərdiyi bir görünüşdür, bunların çöldə əslləri varmı yoxmu bunu da bilə bilməzsiniz, varsa belə əsllərinə əsla çata bilməzsiniz" deməkdədir. Diqqət yetirsəniz ikisi arasında çox böyük bir fərq vardır.

İnsan bu gerçəyi bu an qəbul etmək istəməsə və bütün sahib olduqlarını var qəbul edərək özünü aldatsa belə, nəticədə ölümünün ardından yenidən dirildiyində, yəni axirətdə, hər şey çox dəqiq ortaya çıxacaq. O gün insanın görüş gücü itiləşəcək (**"...Amma Biz pərdəni sənin üzündən qaldırdıq.**

Sən bu gün çox yaxşı görürsən!" (Qaf surəsi, 22)) və hər şeyin çox daha açıq fərqinə varacaq. Amma əgər dünyadakı həyatını xəyali məqsədlər arxasında qaçaraq xərcləmişsə, orada heç yaşamamış olmağı diləyəcək, **"Kaş ilk ölümüm həmişəlik olaydı! Var-dövlətim məni** *(əzabdan)* **qurtarmadı. Hökmranlığım da məhv olub getdi."** (Haqqə surəsi, 27-29) deyərək həlak olacaq.

Ağıllı bir insana düşən isə, bütün kainatın bu ən böyük gerçəyini zaman varkən burada qavramağa çalışmaqdır. Əks halda bütün ömürünü xəyallar arxasında qaçmağa xərcləyib sonunda böyük bir hüsrana uğrayar. Allah, dünyada xəyallar (ya da "ilğımlar") arxasında qaçıb öz Yaradıcısını unudan bu insanların son vəziyyətlərini belə bildirməkdədir:

Kafirlərin əməlləri səhradakı ilğıma bənzəyir ki, susamış kimsə onu su hesab edər. Ona yaxınlaşdıqda isə onun heç nə olduğunu görər. O öz yanında Allahı tapar. O da onun cəzasını verər. Allah tez haqq-hesab çəkəndir. (Nur surəsi, 39)

MATERİALİSTLƏRİN MƏNTİQ POZĞUNLUQLARI

Bu hissənin başından etibarən maddənin, materialistlərin iddia etdikləri kimi mütləq bir varlıq olmadığı, əksinə Allahın yaratdığı bir hisslər bütünündən ibarət olduğu elmi olaraq ortaya qoyuldu. Materialistlər isə, bütün fəlsəfələrini yox edən bu açıq gerçəyə qarşı son dərəcə doqmatiq bir tutumla müqavimət göstərməkdədirlər və etibarsız qarşı məntiqlər gətirməkdədirlər.

Məsələn materialist fəlsəfənin 20-ci əsrdəki ən böyük müdafiəçilərindən biri olan qatı Marksist Corc Politzer, maddənin varlığının "böyük dəlili" olaraq "avtobus nümunəsi"ni vermişdir. Politzerə görə, maddənin bir hiss olduğunu müdafiə edən mütəfəkkirlər də şosedə avtobus gördükləri zaman əzilməmək üçün qaçmaqdadırlar və bu maddənin obyektiv varlığının isbatıdır. (Corc Politzer, Fəlsəfənin Başlanğıc Qanunları, İstanbul: İctimai Nəşrlər, 1989, s. 53.)

Bir başqa məşhur materialist Johnson isə özünə maddənin bir hisslər bütünü olduğu izah edildiyində, daşlara təpik ataraq onların fiziki varlıqlarını "sübut etməyə" çalışmışdır.

(Orxan Hançerlioğlu, Düşüncə Tarixi, İstanbul: Remzi Nəşriyyat, 6. b., Sentyabr 1995, s. 261.)

Bənzər bir nümunə, Politzerin ağıl müəllimi və dialektik materializmin Marksla birlikdə qurucusu olan Friedrich Engels tərəfindən verilmişdir, Engels, "əgər yediyimiz tortlar bir hiss olsaydı, aclığımızı keçirməzdilər" deyə yazmışdır. (Corc Politzer, Fəlsəfənin Başlanğıc Qanunları, İstanbul: İctimai Nəşrlər, 1989, s. 65.)

Marks, Engels, Lenin kimi məşhur materialistlərin kitablarında həmişə bu cür nümunələr və "maddənin varlığını yumruğa məruz qalanda anlarsınız" kimi hirs dolu cümlələr yerləşməkdədir.

Materialistlərin bütün bu nümunələri vermələrinə səbəb olan qavrayış pozuqluğu isə, "maddə bir hissdir" şərhini, "maddə bir işıq oyunudur" şəklində anlamalarıdır. Hiss anlayışının yalnız görməklə məhdud olduğunu, toxunma kimi hisslərin isə obyektiv qarşılığı olduğunu sanmaqdadırlar.

Avtobusun insana çarpması üzərinə də, "baxın çarpır, demək ki, bir hiss deyil" deməkdədirlər. Anlamaqda çətinlik çəkdikləri nöqtə, avtobus çarpması əsnasında yaşanan sərtlik, zərbə və ağrı kimi bütün hisslərin də yalnız zehində meydana gəldikləridir.

Bəzi insanlar, avtobusa toxunduqlarında, soyuq metal hissinin beyinlərində əmələ gəldiyini qəbul edərlər. Ancaq avtobus qəzası zamanı əmələ gələn ağrı hissinin beyində əmələ gəldiyini qəbul etməzlər. Halbuki insan yuxusunda da özünü avtobusun vurduğunu görsə, eyni ağrını hiss edəcək.

YUXU NÜMUNƏSİ

Bu gerçəyi ən yaxşı izah edən nümunə yuxulardır. İnsan, yuxusunda çox həqiqi hadisələr yaşaya bilməkdədir. Nərdivandan diyirlənib qıçını qıra bilməkdə, ciddi bir yol qəzası keçirə bilməkdə, bir avtobusun altında qala bilməkdə, acıyanda bir tort yeyib doya bilməkdədir. Gündəlik həyatda rast gəlinən hadisələrin bənzərləri yuxuda da eyni inandırıcılıqla, eyni hisslərlə yaşanmaqdadır.

Yuxusunda özünə avtobus çarpdığını görən adam yenə yuxusunda, qəza etdikdən sonra gözünü xəstəxanada aça bilər; şikəst qaldığını anlar amma əslində bu bir yuxudur. Yenə yuxusunda; bir yol qəzasının ardından öldüyünü, ölüm mələklərinin canını aldığını, axirət həyatının başladığını görə bilər. (Bu hadisə, yuxu kimi bir qəbul olan gerçək dünya həyatında da eyni şəkildə yaşanar.)

Yuxusunda yaşadığı bütün bu hadisələrin görünüşlərini, səslərini, sərtlik hissini, ağrını, işığı, rəngləri, hər cür hissi çox aydın bir şəkildə duymaqdadır. Yuxuda qarşılıqlı əlaqədə olduğu hisslərin bütünü gerçək həyatdakı qədər təbiidir. Yuxusunda yediyi bir tort hisslərdən ibarət olmasına baxmayaraq qarınını doyurar. Çünki doymaq da bir hissdir. Halbuki, gerçəkdə o anda adam yataqda uzanmış vəziyyətdədir. Ortada nə nərdivan, nə nəqliyyat, nə avtobus, nə tort var. Yuxudakı adam, xarici dünyada qarşılıqları olmayan qəbul və hissləri yaşamaqda və görməkdədir. Yuxuda, "xarici dünya"da heç bir maddi qarşılığı olmayan hadisələrin yaşana, görülə, hiss edilə bilən olması, "xarici dünya"nın tamamilə hisslərdən meydana gəldiyini çox dəqiq

şəkildə ortaya qoymaqdadır.

Materialist fəlsəfəni mənimsəyənlər, xüsusilə də Marksistlər, özlərinə bu gerçək, yəni maddənin əsli izah edildiyində hirslənməkdədirlər. Marksın, Engelsin, Leninin bu mövzudakı səthi və cahilcə məntiqlərindən nümunələr verməkdə, atəşli şərhlər etməkdədirlər.

Halbuki bu kəslər eyni şərhləri yuxularında da edə bildiklərini düşünməlidirlər: Yuxularında da Das Kapitalı oxumaqda, mitinqlərə qatılmaqda, polislə qarşıdurmaya girməkdədirlər, başlarına daş isabət etməkdə və hətta bu yaranın sızısını hiss etməkdədirlər. Yuxularında özlərinə soruşulduğunda, o an gördükləri şeyləri də "mütləq maddə" sanmaqdadırlar. Eynilə oyanıqkən gördükləri şeyləri də "mütləq maddə" sandıqları kimi. Amma, istər yuxuda olsun, istər gündəlik həyatda olsun, gördüklərinin, yaşadıqlarının, hiss etdiklərinin hamısı bir hissdir.

SİNİRLƏRİ PARALEL BAĞLAMA NÜMUNƏSİ

Politzerin yol qəzası nümunəsini ələ alaq: Bu qəzada, avtobusun altında əzilən adamın beş duyğu orqanından beyninə gedən sinirlər, bir başqa insanın, məsələn Corc Politzerin beyninə paralel bir əlaqəylə bağlansa, qəzadakı adama avtobus çarpdığı anda, o sırada evində oturmaqda olan Politzerə də avtobus çarpacaq. Daha doğrusu, qəzaya düşən adamın yaşadığı hisslərin hamısını, bir musiqi teybine bağlanan iki ayrı kolondan eyni mahnının dinlənməsinə bənzər şəkildə, Politzer də yaşamağa başlayacaq. Politzer də evində oturduğu halda avtobusun əyləc səsini, avtobusun bədəninə dəyməsini, sınıq qol və axan qan görünüşlərini, sınıq ağrılarını, əməliyyatxanaya aparılışının görünüşlərini, gipsin sərtliyini, qolunun gücsüzlüyünü hiss edəcək, görəcək və yaşayacaq.

Qəzadakı adamın sinirləri neçə adama bağlansa bunların hamısı, eyni Politzer kimi, qəzanı başından sonuna qədər yaşayacaq. Qəzaya düşən adam komaya girsə, hamısı komaya girəcək. Hətta, söz mövzusu yol qəzasına aid hisslərin bütünü bir alətə yazılsa və bu hisslər davamlı başa alınaraq bir başqa adama verilsə, bu adama da dəfələrlə avtobus çarpacaq.

Yaxşı o halda, hansına çarpan avtobus gerçəkdir? Materialist fəlsəfənin bu suala verə biləcəyi ziddiyyətsiz bir cavab yoxdur. Doğru cavab, yol qəzasını hamısının öz zehinlərində bütün detallarıyla yaşadığıdır.

Tort yemə və daşa təpik atma nümunələri üçün də vəziyyət eynidir. Tort yeyincə qarınında tortun şişliyini və toxluğunu hiss edən Engelsin duyğu orqanlarına aid sinirlər paralel olaraq ikinci bir adamın beyninə bağlansa, Engels tort yediyi və doyduğu anda o adam da tort yeyəcək və doyacaq. Daşa təpik atınca ayağı ağrıyan materialist Johnsonun sinirləri paralel olaraq bir başqa adama bağlansa, bu adam da daşa vuracaq və canı ağrıyacaq.

Yaxşı hansı tort və hansı daş gerçəkdir? Materialist fəlsəfə, buna da ziddiyyətsiz bir cavab verə bilməz. Doğru və ziddiyyətsiz cavab budur: Həm Engels həm digər adam tortu öz zehinlərində yeyib doymuşlar. Həm Johnson həm ikinci adam, daşa təpik atış anını öz zehinlərində bütün detallarıyla yaşamışlar.

Yuxarıda Politzerlə əlaqədar olaraq verdiyimiz nümunədə belə bir dəyişiklik edək; evində oturan Politzerin sinirlərini avtobusun çarpdığı adamın beyninə, avtobusun çarpdığı adamın sinirlərini də Politzerin beyninə bağlayaq. Bu vəziyyətdə isə, Politzer əslində evində oturduğu halda özünə avtobus çarpdığını zənn edəcək, avtobusun çarpdığı adam isə qəzanın bütün şiddətinə baxmayaraq, bunu əsla fərq edə bilməyəcək, çünki özünün evdə oturduğunu düşünəcək. Bu məntiq tort yemə və daşa təpik atma nümunələri üçün də düşünülə bilər.

Görüldüyü kimi insanın hisslərini aşması və çölə çıxması mümkün deyil. Bu vəziyyətdə bir insanın ruhuna, bədəni və heç bir maddi varlığı olmadığı halda, ortada maddi bir mühit də olmamasına qarşı hər şey seyr etdirilə biləcək. Belə ki adamın bunu anlaması mümkün deyil, hətta izlətdirilən üç ölçülü mükəmməl görünüşləri gerçək zənn edib, varlığından da son dərəcə əmin olacaq. Çünki hər insan duyğu orqanlarına hiss etdirilən hisslərdən asılıdır.

İngilis fəlsəfəçi David Hume bu gerçək üzərindəki düşüncələrini belə ifadə etmişdir:

Çox səmimi olaraq, özüm dediyim şeyə daxil olduğum zaman mən isti ya da soyuğa, işıq ya da kölgəyə, eşq ya da nifrətə, ağrı ya da ləzzətə dair xüsusi bir hissə ya da başqa bir şeyə daim rast gəlirəm. Mən bir qəbul olmadan hər hansı bir zamanda özümü əsla tuta bilmərəm və əsla hissdən başqa bir şeyi müşahidə edə bilmərəm.

(Paul Davies, Tanrı və Yeni Fizika, Çev: Murad Əsaslı, İm Nəşr Dizayn, Həyat Kitabları-1, İstanbul 1995, s. 180-181)

HİSSLƏRİN BEYİNDƏ MEYDANA GƏLDİYİ FƏLSƏFƏ DEYİL, ELMİ HƏQİQƏTDİR

Materialistlər, burada izah etdiklərimizin fəlsəfi bir görüş olduğunu iddia etməkdədirlər. Halbuki bizim "xarici dünya" dediyimiz şeyin bir hisslər bütünü olduğu, bir fəlsəfə deyil, elmi bir həqiqətdir. Görünüşün və hisslərin beyində necə meydana gəldiyi, bütün tibb fakültələrində detallı şəkildə oxudulmaqdadır. Başda müasir fizika olmaq üzrə 20-ci əsr elminin ortaya qoyduğu gerçəklər, maddənin konkret bir həqiqətə sahib olmadığını, hər kəsin bir mənada "beynindəki ekran"ı izlədiyini açıqca göstərməkdədir.

Bunu, istər ateist olsun, istər budist olsun, istər başqa bir görüşə ya da düşüncəyə sahib olsun, elmə inanan hər kəs qəbul etmək məcburiyyətindədir. Bir materialist özündə Allahın varlığını inkar edə bilər, amma bu elmi həqiqəti inkar edə bilməz.

Yaşadıqları dövrlərin elm anlayışı və elmi imkanları qeyri-kafi də olsa, Karl Marks, Friedrich Engels, Georges Politzer və digərlərinin bu qədər asan və açıq bir gerçəyi qavraya bilməmələri, yenə də təəccüblüdür. Amma indiki vaxtda elmin və texnologiyanın imkanları son dərəcə inkişaf etmişdir və bu imkanlar onsuz da çox açıq olan bu gerçəyin qavranmasını daha da asanlaşdırmaqdadır. Materialistlər isə, həm qismən də olsa bu mövzunu qavramanın, həm də bu mövzunun öz fəlsəfələrini nə qədər qəti bir şəkildə çökdürdüyünün fərqinə varmanın verdiyi böyük bir qorxu içindədirlər.

MATERİALİSTLƏRİN BÖYÜK QORXUSU

Türkiyədəki materialist qismlərin, bu mövzuya, yəni maddənin bir hiss olduğu gerçəyinə bir müddət üçün diqqətə çarpan bir reaksiya gəlmədi. Bu isə, bizdə, bu mövzunun kifayət qədər açıqlanmadığı və daha detallı bir izahata keçilməsi lazım olduğu istiqamətində bir təəssürat doğurmuşdu. Ancaq qısa bir müddət sonra materialistlərin gerçəkdə bu mövzunun gündəmə gətirilməsindən çox böyük bir narahatlıq duyduqları, hətta bundan böyük bir qorxuya qapıldıqları açıq bir şəkildə ortaya çıxdı.

Materialistlər yaşadıqları bu qorxu və çaxnaşmanı, bir müddətdir öz nəşr orqanlarında, konfranslarında, panellərində yüksək səslə ifadə edirlər. İstifadə etdikləri narahat və ümidsiz üsluba baxıldığında, ciddi bir fikri böhran içinə girdikləri aydın olur. Fəlsəfələrinin sözdə təməli olan təkamül nəzəriyyəsinin elmi istiqamətdən çökdürülməsiylə onsuz da ciddi bir şok yaşamağa başlamışdılar. Ancaq, indi Darvinizmdən çox daha əhəmiyyətli bir dayaqlarını, şəxsən maddənin özünü itirməyə başladıqlarını anladılar və çox daha böyük bir şok içindədirlər. Bu mövzunun, özləri baxımından "ən böyük təhlükə" olduğundan, öz "mədəni toxumalarını tamamilə yıxdığından" danışırlar.


Rennan Pekünlü

Türkiyədəki materialist qismlərin yaşadıqları bu narahatlıq və çaxnaşmanı ən açıq şəkildə ifadə edənlərdən biri, materializmi müdafiə etməyi özünə vəzifə etmiş olan Elm və Utopiya jurnalının yazıçısı və eyni zamanda bir müəllim olan Rennan Pekünlü oldu. Pekünlü, gərək söz mövzusu jurnalda yazdığı yazılarda, gərəksə söz aldığı bəzi panellərdə, Təkamül Yalanı kitabını bir nömrəli "təhlükə" olaraq göstərdi. Pekünlü ən çox rahatsızlandıran mövzu isə, kitabın Darvinizmi etibarsız edən hissələrinin də kənarında, əsl olaraq bu anda oxumaqda olduğunuz və Təkamül Yalanı adlı kitabda da olan qisim idi. Oxucularına və (olduqca az saydakı) dinləyənlərinə "əsla özünüzü idealizmin bu təlqinlərinə qapdırmayın, materializmə olan sədaqətinizi qoruyun" mesajları verən Pekünlü, özünə dayaq olaraq Rusiyadakı qanlı kommunist inqilabının lideri Vladimir I. Lenini tapmışdı. Leninin bir əsr əvvəl yazdığı Materializm və Ampiryokritisizm adlı kitabı oxumağı hər kəsə nəsihət edən Pekünlünün etdiyi tək şey isə, yenə Leninə aid olan "əsla bu mövzunu düşünməyin, yoxsa materializmi itirərsiniz və özünüzü dinə qapdırarsınız" şəklindəki xəbərdarlıqları təkrarlamaq oldu. Pekünlü, söz mövzusu materialist nəşr orqanında yazdığı bir məqalədə, Lenindən bu sətirləri köçürürdü:

Duyğularımızla qəbul etdiyimiz obyektiv həqiqəti bir dəfə yadırğadınmı, şübhəçiliyə (agnostisizm) və öznəlciliyə (subyektivizmə) sürüşəcəyindən, fideizmə (dini inanca) qarşı istifadə edəcəyin bütün silahları itirərsən; bu da

fideizmin istədiyi şeydir. Barmağını qapdırdınmı, əvvəl qolun sonra bütün mənliyin gedər. Duyğuları obyektiv dünyanın bir görünüşü olaraq deyil də, xüsusi bir element olaraq götürdüyündə, digər bir deyişlə materializmdən güzəştə getdiyində, mənliyini fideizme qapdırarsan. Sonra duyğular heç kimin duyğuları olar, ağıl heç kimin ağılı, ruh heç kimin ruhu, istək heç kimin istəyi olar. (Rennan Pekünlü, "Aldatmacanın Təkamülsüzlüyü", Elm və Utopiya, dekabr 1998)

Bu sətirlər, Leninin böyük bir qorxuyla fərq etdiyi və həm öz başından həm də "yoldaş"larının başlarından silmək istədiyi gerçəyinin, günümüzün materialistlərini də eyni şəkildə narahat etdiyini göstərməkdədir. Amma Pekünlü və digər materialistlər Lenindən daha da böyük bir narahatlıq içindədirlər; çünki bu gerçəyin bundan 100 il əvvəlkinə nisbətən çox daha açıq, qəti və güclü bir şəkildə ortaya qoyulduğunun fərqindədirlər. Bu mövzu, bütün dünya tarixində ilk dəfə bu qədər qarşı qoyula bilməz bir şəkildə izah edilməkdədir.

Amma yenə də bir çox materialist elm adamının "maddənin bir xəyaldan ibarət olduğu" gerçəyini son dərəcə səthi bir dünyagörüşüylə qiymətləndirdiyi aydın olmaqdadır. Çünki burada izah edilən mövzu bir insanın həyatında qarşılaşa biləcəyi ən əhəmiyyətli, ən həyəcan verici mövzulardan biridir. Bu dərəcə təəccüblü bir mövzu ilə daha əvvəl üz-üzə gəlmiş olmaları mümkün deyil. Buna baxmayaraq söz mövzusu elm adamlarının göstərdikləri reaksiyalar ya da danışma və yazılarındakı üslub, son dərəcə dayaz və səthi bir qavrayışa sahib olduqlarını açığa çıxarmaqdadır.

Belə ki bəzi materialistlərin burada izah edilənlərə göstərdikləri reaksiyalar, materializmə olan kor-koranə bağlılıqlarının onlarda bir növ məntiqi təxribat meydana gətirdiyini və bu səbəblə mövzunu anlamaqdan çox uzaq olduqlarını göstərmişdir. Məsələn yenə bir Elm və Utopiya yazıçısı və müəllim olan Alaettin Şenel, eyni Rennan Pekünlü kimi "Darvinizmin çökdürülməsi bir tərəfə, əsl təhlükə bu mövzudur" mesajları vermiş, öz fəlsəfəsinin bir dayağı olmadığını hiss etdiyi üçün də, "elə isə siz izah etdiklərinizi isbat edin" mənasını verən istəklər bildirmişdir. Ancaq əsl maraqlı nöqtə, söz mövzusu yazarın, təhlükə olaraq gördüyü gerçəyi heç cür qavraya bilmədiyini göstərən sətirlər yazmış olmasıdır.

Məsələn Şenel, tamamilə bu mövzunu ələ aldığı bir məqaləsində, xarici dünyanın beynin içində görünüş hesab edildiyini qəbul etmişdir. Amma görünüşlərin maddi qarşılığı olan və olmayan görüntülər olaraq ikiyə ayrıldığını söyləyərək, xarici dünya ilə əlaqədar görünüşlərin maddi qarşılığı olduğunu qarşıya qoymuşdur. Bu iddiasını dəstəkləmək üçün də bir "telefon nümunəsi" vermişdir. Qısaca, "beynimdəki görünüşlərin xarici dünyada qarşılığı olub olmadığını bilmirəm, amma eyni şey telefonla danışdığımda da etibarlıdır; telefonla danışarkən qarşımdakı adamı görə bilmirəm, lakin sonradan üz-üzə danışarkən bu danışmağı doğrulada bilərəm" deyə yazmışdır. (Alaattin Şenel, "Təkamül Aldatmacasımı?, Dövrün Aldatmacasımı?", Elm və Utopiya, dekabr 1998)

Söz mövzusu yazar, bu bənzətmə ilə bunu nəzərdə tutmaqdadır: "Əgər

hisslərimizdən şübhələnsək, maddənin əslinə baxıb gerçəyi idarə edə bilərik." Halbuki bu çox açıq bir yanılmadır, çünki bizim maddənin əslinə çatmamız qətiliklə mümkün deyil. Heç bir zaman zehinimizin xaricinə çıxıb "çöldə" nə olduğunu bilmərik. Telefondakı səsin qarşılığı olub olmadığı telefondakı adama təsdiqləndirilə bilər. Amma bu təsdiqlətmə də tamamilə zehində yaşanan bir xəyaldan ibarətdir.

Necə ki, bu kəslər eyni hadisələri yuxularında da yaşayırlar. Məsələn, Şenel yuxusunda da telefonla danışdığını, ardından bunu danışdığı adama təsdiqlətdiyini görə bilər. Və ya Pekünlü yuxusunda da "böyük bir təhlükə"ylə qarşı-qarşıya olduğunu hiss edib, qarşısındakı insanlara Leninin əsrlik əsərlərini tövsiyə edə bilər. Amma, söz mövzusu materialistlər nə edirlərsə etsinlər yaşadıqları hadisələrin, danışdıqları kəslərin bir qəbuldan ibarət olduğu gerçəyini inkar edə bilməzlər.

O halda beyindəki görünüşlərin qarşılığı olub olmadığı kimə təsdiqləndiriləcəkdir? Yenə beyində əmələ gələn kölgə varlıqlaramı? Şübhəsiz materialistlərin beynin xaricinə aid məlumat təmin edə biləcək, təsdiqləmə edə biləcək bir məlumat qaynağı tapması mümkün deyil.

Hər cür qəbulun beyində meydana gəldiyini qəbul etmək, amma istəndiyində bunun "xaricinə" çıxılıb hisslərin gerçək xarici dünyaya təsdiqləndirilə biləcəyini sanmaq isə, əslində bir insanın anlayış səviyyəsinin məhdud olduğunu, xarab bir məntiq hörgüsü içində düşündüyünü göstərər.

Halbuki burada izah edilən gerçək, normal anlayış səviyyəsinə və məntiq hörgüsünə sahib bir insan tərəfindən dərhal rahatlıqla aydın ola biləcək bir mövzudur. Ön fikirsiz hər insan, bu izah edilənlər istiqamətində, xarici dünyanın varlığını duyğu orqanları vasitəsilə test edə bilməyəcəyini anlayar. Ancaq görüldüyü qədəriylə materializmə olan kor-koranə bağlılıq, insanların ağıl işlətmə qabiliyyətlərini pozmaqdadır. Buna görə günümüzdəki materialistlər də, maddənin varlığını daşlara təpik ataraq ya da tort yeyərək "isbat etməyə" çalışan başbilənləri kimi, ciddi məntiq pozğunluqları göstərməkdədirlər.

Bunun əslində çaşdırıcı bir vəziyyət də olmadığını ifadə etmək lazımdır. Çünki ağıl edə bilməmək, yəni dünyanı və hadisələri düz bir məntiq hörgüsü içində şərh edə bilməmək, inkarçıların ortaq xüsusiyyətidir. Allah, Quranda inkarçıların **"... düşüncəsiz bir camaat..."** (Maidə surəsi, 58) olduqlarını xüsusilə ifadə etməkdədir.

MATERİALİSTLƏR TARİXİN ƏN BÖYÜK TƏLƏSİNƏ DÜŞMÜŞLƏR

Türkiyədəki materialist qismlərdə baş göstərən və burada yalnız bir neçə əlamətinə toxunduğumuz çaxnaşma atmosferi, əslində materialistlərin tarix boyunca qarşılaşmadıqları qədər böyük bir məğlubiyyətlə üz-üzə olduqlarını göstərməkdədir. Maddənin bir hissdən ibarət olduğu gerçəyi, müasir elm tərəfindən isbat edilmişdir və dahası çox açıq, qəti və güclü bir şəkildə ortaya qoyulmaqdadır. Materialistlər kor-koranə inandıqları, bel bağladıqları, güvəndikləri maddi dünyanın, içindəki hər şeylə birlikdə tamamilə yox

olduğunu görməkdə və buna qarşı heç bir şey edə bilməməkdədirlər.

İnsanlıq tarixi boyunca materialist düşüncə həmişə var olub və bu kəslər özlərindən və müdafiə etdikləri fəlsəfədən çox əmin bir şəkildə, özlərini yaratmış olan Allaha baş qaldırıblar. Ortaya atdıqları ssenariyə görə maddə əzəli və əbədi idi və bütün bunların bir Yaradıcısı ola bilməzdi. Yalnız qürurlarından ötrü, Allahı rədd edərlərkən var zənn etdikləri maddənin ardına sığındılar. Bu fəlsəfədən elə əmindilər ki, heç bir zaman bunun əksini isbat edəcək bir şərh gətirilə bilməyəcəyini düşünürdülər.

Bax buna görə, maddənin əsli ilə əlaqədar olaraq bu kitabda izah edilən gerçəklər bu kəsləri böyük bir qarışıqlığa salmışdır. Çünki burada izah edilənlər fəlsəfələrini təməldən yıxıb atmış, üzərində mübahisəyə belə imkan buraxmamışdır. Bütün düşüncələrini, həyatlarını, qürurlarını və inkarlarını üzərinə bina etdikləri maddə, əllərindən bir çırpıda uçub getmişdir.

Allahın bir sifəti, inkarçılara tələ qurmasıdır. Quranda **"... hiylə qururdular. Onlar hiylə işlətdilər, Allah da hiylə işlətdi. Allah hiylə işlədənlərin ən yaxşısıdır."** (Ənfal surəsi, 30) ayəsiylə bu gerçək bildirilər.

Bax Allah, maddəni var zənn etdirərək materialistləri tələyə salmış və tarixdə bənzəri görülməmiş şəkildə kiçiltmişdir. Mallarını, mülklərini, mövqelərini, ünvanlarını, içində olduqları cəmiyyəti, bütün dünyanı və əslində bir xəyaldan ibarət olan hər şeyi var sanmışlar, üstəlik bunlara güvənərək Allaha qarşı böyüklənmişlər. Lovğalanaraq Allaha üsyan etmiş və inkarda irəli getmişlər. Bunları edərkən də güc aldıqları tək şey maddə olmuşdur. Amma elə bir anlayış əskikliyi içinə düşmüşlər ki, Allahın onları hər tərəfli bürüyüb əhatə etdiyini heç düşünməmişlər. Allah inkarçıların anlayışsızlıqları nəticəsində düşəcəkləri vəziyyəti Quranda belə xəbər vermişdir:

Yoxsa bir hiylə qurmaq istəyirlər? Amma kafirlər özləri o hiylənin qurbanı olacaqlar. (Tur surəsi, 42)

Bu, bəlkə də tarixin gördüyü ən böyük məğlubiyyətdir. Materialistlər özlərincə böyüklənərkən, əslində böyük bir oyuna gəlmişlər, Allaha qarşı çirkin bir cəsarət göstərərək açdıqları döyüşdə qəti olaraq məğlub olmuşlar. **"Beləliklə hər bir ölkədə oranın günahkarlarını başçılar təyin etdik ki, onlar orada** *(mümkün qədər)* **yaramaz işlər görsünlər. Halbuki onlar o yaramaz işləri yalnız özlərinə qarşı edirlər və** *(bunu da)* **hiss etmirlər."** (Ənam surəsi, 123) ayəsi Yaradıcımıza baş qaldıran bu kimi inkarçıların necə bir şüursuzluq içində olduqlarını və necə bir sonla qarşılaşacaqlarını ən açıq şəkildə xəbər verir.

Bir başqa ayədə isə bu gerçək belə vurğulanır:

Onlar Allahı və iman gətirənləri aldatmağa çalışırlar. Halbuki yalnız özlərini aldadır və *(bunu)* **anlamırlar.** (Bəqərə surəsi, 9)

İnkarçılar özlərincə tələ qurmağa cəhd edərlərkən ayədəki **"anlamırlar"** ("şüuruna çatmazlar") ifadəsiylə açıqlandığı kimi, çox əhəmiyyətli bir gerçəyi fərq edə bilməmişlər: Yaşadıqları bütün hadisələrin onlara hiss etdirilən bir xəyal olduğu və işlədikləri hər hərəkət kimi,

qurduqları tələlərin də zehinlərində əmələ gələn bir görünüşdən ibarət olduğu gerçəyini... Bu qavrayışsızlıqları səbəbiylə də, Allah ilə tək olduqlarını unudaraq öz özlərini hiyləli bir tələyə salmışlar.

Hər dövrdə olduğu kimi bu dövrdə də Allah inkarçıların bütün hiyləli tələlərini təməlindən yıxacaq bir gerçəklə onları üz-üzə gətirmişdir. Allah **"... Şübhəsiz ki, şeytanın hiyləsi zəifdir."** (Nisa surəsi, 76) ayəsiylə, bu tələlərin daha ilk qurulduqları anda nəticələrinin hüsran olacağını da xəbər vermişdir. Və möminləri də **"... onların qurduğu hiylə sizi ziyana sala bilməz..."** (Ali-İmran surəsi, 120) ayəsiylə müjdələmişdir.

Allah bir başqa ayəsində inkar edənlərin aldanışlarını belə bildirər: **"Kafirlərin əmälləri səhradakı ilğıma bənzəyir ki, susamış kimsə onu su hesab edər. Ona yaxınlaşdıqda isə onun heç nə olduğunu görər. O öz yanında Allahı tapar. O da onun cəzasını verər..."** (Nur surəsi, 39) Materializm fəlsəfəsi də bu ayədə işarə edildiyi kimi, üsyan edənlər üçün bir "ilğım" meydana gətirər; ona güvənərək əllərini uzatdıqlarında, hər şeyin bir xəyaldan ibarət olduğunu anlayarlar. Allah onları belə bir ilğımla aldatmış, bütün bu hisslər bütününü var kimi göstərmişdir. "Böyük" insanlar, professorlar, astronomlar, bioloqlar, fizikaçılar, ünvanları, mövqeləri hər nə olursa olsun maddəni özlərinə ilah etmələri səbəbiylə bu oyuna gəlmişlər, bir uşaq kimi aldanmış və kiçik düşmüşlər. Bir hisslər bütününü mütləq sanaraq onun üzərinə fəlsəfələrini, ideologiyalarını qurmuşlar, haqqında ciddi müzakirələrə girmişlər, sözdə "intellektual" izahatlar istifadə etmişlər. Bütün bunlardan ötəri də özlərini çox ağıllı saymışlar, kainatın gerçəyi haqqında fikir irəli sürə biləcəklərini düşünmüşlər və ən əhəmiyyətlisi öz məhdud ağıllarıyla Allahı şərh edə biləcəklərini sanmışlar. Allah, onların içinə düşdükləri bu vəziyyəti bir ayəsində belə bildirər:

Onlar hiylə qurdular, Allah da hiylə qurdu.
Allah hiylə quranların ən yaxşısıdır. (Ali-İmran surəsi 54)

Dünyada bəzi tələlərdən xilas olmaq mümkün ola bilər; ancaq Allahın inkar edənlərə qurduğu bu tələ elə möhkəmdir ki, əsla bir qurtuluş imkanları qalmamışdır. Nə edərlərsə etsinlər, kimə müraciət edirlərsə etsinlər, özlərini qurtaracaq, Allahdan başqa bir köməkçi tapmaları da mümkün deyil. Allahın Quranda xəbər verdiyi kimi, **"... Onlar Allahdan başqa özlərinə nə bir himayədar, nə də bir yardımçı tapacaqlar."** (Nisa surəsi, 173)

Materialistlər belə bir tələyə düşəcəklərini heç gözləmirdilər. 20-ci əsrin bütün imkanları əllərindəykən rahatca inkarda dirəşə biləcəklərini və insanları da inkara sürüyə biləcəklərini sanırdılar. Allah inkarçıların tarix boyunca daşıdıqları bu zehniyyəti və uğradıqları sonu Quranda belə xəbər vermişdir:

Onlar hiylə qurdular, Biz də hiylə qurduq. Lakin onlar *(bunu)* **hiss etmədilər. Bax gör onların hiylələrinin aqibəti necə oldu. Biz onları bütün tayfalarıyla birlikdə yerlə-yeksan etdik.** (Nəml surəsi, 50-51)

Ayələrdə izah edilən gerçəyin bir mənası da budur: Materialistlərə sahib olduqları hər şeyin bir xəyaldan ibarət olduğu açıqlanmış, yəni əllərindəki

hər şey topluca yox edilmişdir. Və onlar, var zənn etdikləri mallarının, fabriklərinin, qızıllarının, dollarlarının, uşaqlarının, yoldaşlarının, dostlarının, vəzifələrinin, hətta öz bədənlərinin əllərinin arasından itib getdiyinə şahidlik edərkən, bir mənada "yox olmuşlar". Maddə olmaqdan çıxmış artıq bir ruh halına gəlmişlər.

Şübhəsiz bu gerçəyin fərqinə varmaq materialistlər üçün ola biləcək ən dəhşət verici hadisədir. Çünki sahib olduqları hər şeyin bir xəyaldan ibarət olması, öz təbirləri ilə onlar üçün hələ dünyadaykən, "ölmədən bir ölüm" hökmündədir.

Bu gerçəklə birlikdə, bir Allah, bir də özləri qalmışdır. Necə ki, Allah, **"Məni yaratdığım kimsə ilə tək burax!"** (Muddəssir surəsi, 11) ayəsiylə, hər insanın Allahın qatında əslində tək-tənha olduğu gerçəyinə diqqət çəkmişdir. Bu fövqəladə gerçək daha bir çox ayə ilə xəbər verilmişdir:

Sizi ilk dəfə yaratdığımız kimi Bizə tək olaraq gəldiniz. Sizə xəyal kimi göstərdiyimiz şeyləri ardınızda buraxdınız... (Ənam surəsi, 94)

Onların hər biri Qiyamət günü Onun hüzuruna tək-tənha gələcək. (Məryəm surəsi, 95)

Bu ayələrdə izah edilən gerçəyin bir mənası da budur: Maddəni özlərinə ilah edənlər, Allahdan gəlmiş və yenə Ona dönmüşlər. İstəsələr də, istəməsələr də Allaha təslim olmuşlar. İndi hesab gününü gözləməkdədirlər və o gün hamısı tək-tək sorğuya çəkiləcəklər. Hər nə qədər anlamaq istəməsələr də...

Bura qədər izah etdiyimiz mövzu, həyatınız boyunca sizə izah edilmiş ən böyük həqiqətlərdən biridir. Çünki bütün maddi dünyanın həqiqətdə bir "görüntülər bütünü" olduğunu isbat edən bu mövzu, Allahın varlığının və yaradışının qavranmasının, Onun yeganə mütləq varlıq olduğunun başa düşülməsinin açarıdır.

Bu mövzunu anlayan insan, dünyanın, insanların çoxunun sandığı kimi bir yer olmadığını fərqinə varar. Dünya, prospektlərdə məqsədsiz olaraq gəzənlərin, çayxanalarda dava salanların, lüks kafelərdə bir-birlərinə göstəriş edənlərin, mallarıyla öyünənlərin, həyatlarını boş məqsədlərə həsr edənlərin sandığı kimi gerçəkdə var olan, mütləq bir yer deyil. Yalnız hisslər bütünü, bir xəyaldır. Saydığımız insanların hamısı da, bu hissləri zehinlərinin içində seyr edən bir kölgə varlıqdır, amma bunun şüurunda deyildirlər.

Bu mövzu çox əhəmiyyətlidir və Allahı inkar edən materialist fəlsəfəni ən təməlindən çökdürür. Marks, Engels, Lenin kimi materialistlərin bu mövzunu eşitdiklərində çaxnaşmaya qapılmaları, hirslənmələri, yandaşlarını "əsla düşünməyin" deyə xəbərdar etmələri buna görədir. Əslində bu kəslər, hisslərin beyində meydana gəldiyi gerçəyini belə qavraya bilməyəcək qədər böyük bir ağıl çatışmazlığı içindədirlər. Beyinlərinin içində seyr etdikləri dünyanı "xarici dünya" sanmaqda, bunun əksini göstərən açıq-aşkar dəlilləri isə heç cür anlaya bilməməkdədirlər.

Bu qəflət, Allahın inkarçılara vermiş olduğu ağıl əskikliyinin bir nəticəsidir. Çünki Quranda bildirildiyinə görə, inkarçıların **"... qəlbləri var,**

onunla anlamazlar; gözləri var, onunla görməzlər; qulaqları var, onunla eşitməzlər. Onlar heyvan kimidirlər, hətta daha çox azğınlıqdadırlar. Qafil olanlar da məhz onlardır!" (Əraf surəsi, 179)

Bu nöqtədən daha sonrasını, öz səmimi düşüncənizi istifadə edərək də tapa bilərsiniz. Bunun üçün, diqqətinizi cəmləməniz, ətrafınızdakı cisimləri necə gördüyünüz və onlara necə toxunduğunuz haqqında düşünməniz lazımdır. Əgər diqqətlicə düşünsəniz, görən, eşidən, toxunan, düşünən və bu anda bu kitabı oxuyan ağıllı varlığın, yalnız bir ruh olduğunu və sanki bir növ pərdə üzərində "maddə" deyilən hissləri seyr etdiyini hiss edə bilərsiniz. Bunu qavrayan insan, insanlığın böyük hissəsini aldadan maddi dünya ölçüsündən uzaqlaşıb, gerçək varlıq ölçüsünə girmiş olar.

İçində yaşadığımız çağda isə, söz mövzusu gerçək, elmin ortaya qoyduğu dəlillərlə açıqlanar hala gəlmişdir. Kainatın bir kölgə varlıq olduğu gerçəyi, dünya tarixində ilk dəfə bu cür konkret, açıq və aydın bir şəkildə izah edilməkdədir.

Bu səbəblə 21-ci əsr, insanların geniş şəkildə İlahi gerçəkləri qavrayacaqları və tək mütləq varlıq olan Allaha hamılıqla yönələcəkləri bir tarixi dönüş nöqtəsi olacaq. 21-ci əsrdə, 19-cu əsrin materialist inancları tarixin zibilliyinə atılacaq, Allahın varlığı və yaradılışı qavranacaq, məkansızlıq, zamansızlıq kimi gerçəklər aydın olacaq, insanlıq əsrlərdir gözünün önünə çəkilən pərdələrdən, aldatmalardan və batil inanışlardan xilas olacaq. Bu qaçınılmaz gedişin heç bir kölgə varlıq tərəfindən dayandırılması da mümkün deyil...

MADDƏNİN HƏQİQƏTİ NƏ ÜÇÜN VACİB MÖVZUDUR?

İnsanların gördükləri, eşitdikləri, toxunduqları, qoxuladıqları və mütləq varlıq hesab etdikləri hər şeyin, əslində, hisslərdən ibarət olduğu və həyatımız boyu sadəcə xəyali görüntülərlə təmasda olduğumuz eynilə kainatın yoxdan var edildiyi, sonsuzluğun varlığı, öldükdən sonra sonsuz həyat üçün yenidən dirildiləcəyimiz kimi qeyri-adi bir vəziyyətdir. Allah qüsursuz və saymaqla bitməyəcək qədər çox xüsusiyyətə malik olan kainatı hər an qüsursuz şəkildə yaratmaqdadır. Hətta bu yaratma o qədər qüsursuzdur ki, yer üzündə bu günə qədər mövcud olmuş bir çox insan bu kainatın və gördükləri hər şeyin xəyal olduğunu anlaya bilməmiş, daima maddənin əsli ilə təmasda olduqlarını düşünmüşlər.

XXI əsrdə elmi tapıntılar qəti şəkildə sübut etmişdir ki, maddənin əsli ilə təmasda olmaq heç bir zaman mümkün deyil. Ancaq bəzi insanlar hələ də bu məsələ ilə bağlı özlərini bilməməzliyə vururlar. Əslində isə, bu mövzuda özünü bilməməzliyə qoymaq, nəzərə almamaq və ya rədd etmək doğru deyil. **Ona görə, bu mövzu ilə qarşılaşan insanların bu mövzunun əhəmiyyətini düşünmələri və qavramaları çox vacibdir.** Maddənin gerçək mahiyyətini oxuyan bəzi insanlar bu mövzuya nə üçün bu qədər əhəmiyyət verildiyini başa düşmədiklərini bildirirlər. Hətta bu mövzunun iman ilə əlaqəsi olmadığını hesab edir, nə üçün hər imani mövzunun ardından bu mövzunun izah edildiyini soruşurlar. Həqiqətdə bu mövzunun əhəmiyyəti

ortadadır. Materialistləri qorxudan, onların bütün fikirlərini məhv edən bu həqiqətin əhəmiyyətini bütün müsəlmanlar anlamalı və insanlara da çatdırmağa çalışmalıdırlar.

Maddənin həqiqi mahiyyətinin məlum olması insanların bəzi iman mövzularını anlamağı baxımından böyük əhəmiyyət daşıyır və digər iman mövzuları qədər vacibdir. Hər şeydən əvvəl maddənin həqiqi yönünün başa düşülməsi ilə insanlar həm dünyaya olan bağlılıqlarından əl çəkir və yalnız axirətə yönəlirlər, həm böyük xətadan qurtulur, həm də bu xətalarına görə qavraya bilmədikləri bəzi həqiqətləri də asanlıqla dərk edə bilirlər. Allahın harada olduğu, cənnət və cəhənnəmin varlığı, ruhun mahiyyəti, ölümdən sonrakı həyat, sonsuzluq kimi mövzular materialist dünyagörüşünə malik və ya bu fikrin təlqini ilə yetişmiş insanlar tərəfindən dərk edilə bilmir. Ancaq maddənin xəyal kimi qavranılması bu sualların doğru cavablandırılmasına kömək edir. Beləliklə, insanlar Allahın tək mütləq varlıq olduğunu açıq şəkildə görə bilirlər.

Maddənin nə olduğunun başa düşülməsi ilə insanlar dünya həyatında bağlandıqları hər şeyin, həvəslərinin, istəklərinin, onlara Allahı və axirəti unutduran hər şeyin boş və aldadıcı olduğunu dərk edirlər. Bu isə dünya həvəslərindən qurtularaq ixlasla Allaha yönəlmələrinə və şirkdən uzaq olmalarına səbəb olur.

İnsanların lovğalıq və əzəmətlə hər cür insanlıq və əxlaqdan kənar davranışa meyil etdiyi bu əsrdə insanları özlərinin və gözlərində böyütdükləri digərlərinin kölgə varlıq olduqlarını anladıqda təkəbbür və əzəmətlərinin yerini təvazökarlıq və mülayimlik alar.

Bütün bunlar isə rahatlıq və təhlükəsizliyin olduğu, xəsislik və xudbinliyin, rəhmsiz rəqabətin aradan qalxdığı cəmiyyətlərin meydana gəlməsinə səbəb olar.

Maddənin əsli ilə təmasda olmadığımızın qəbul edilməsi nəticəsində əldə ediləcək ən mühüm irəliləyişlərdən biri, şübhəsiz, materialist fəlsəfənin çökməsi olacaqdır.

İndi isə maddənin mütləq olmadığı həqiqətinin nə üçün ən vacib mövzulardan biri olduğunun incəlikləri ilə yaxından tanış olaq.

MADDƏNİN HƏQİQƏTİ TƏK MÜTLƏQ VARLIĞIN ALLAH OLDUĞUNU GÖSTƏRİR

Bu elmin göstərdiyi ən vacib məsələlərdən biri tək mütləq varlığın Allah olduğu həqiqətidir. Materialist fəlsəfələrin təsirinə düşərək maddənin mütləq varlıq zənn edən bəzi insanlar Allahın varlığını və harada olduğunu izah edərkən son dərəcə səhv və cahil üslubdan istifadə edirlər. Məsələn, "Allah haradadır?" sualına: "Mənə ağlını göstər, göstərə bilməzsən. Elə Allah da ağıl kimi bir həqiqətdir, ancaq görünmür", - deyərək cahil cavab verirlər. Bəziləri isə (Allahı tənzih edirik) öz ağıllarına görə, Allahı xəyal kimi göstərir, Allahın varlığını radio dalğalarına bənzədirlər (Allahı tənzih edirik). Onların batil fikirlərinə əsasən, özləri və sahib olduqları hər şey mütləq varlıqlardır və Allahın varlığı isə bu maddi varlıqları radio dalğaları kimi

əhatə edir. **Əslində isə, xəyal olan özləri və sahib olduqlarıdır. Tək mütləq varlıq isə Allahdır.** Allahın varlığı hər şeyi əhatə etmişdir. İnsan isə heç cür mütləq varlıq olmayacağı üçün görüntüdür.

Bu həqiqəti Rəbbimiz bir ayədə belə bildirir:

Allah, Ondan başqa ilah yoxdur, *(əbədi)* **Yaşayandır,** *(bütün yaratdıqlarının)* **Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər? O,** *(məxluqatın)* **gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, Ucadır, Uludur.** (Bəqərə surəsi, 255)

Bu həqiqətin başa düşülməsi ilə şirk qoşmadan, tək Allaha iman əmələ gəlir. Çünki Allahdan başqa bütün mövcudiyyatın kölgə varlıq olduğunu bilən insan qəti imanla (haqqəl-yəqin dərəcəsində): "Yalnız Allah var, Ondan başqa ilah yoxdur" - deyir.

Allahı gözləri ilə görmədiyi üçün Allahın varlığına inanmayanların materialist iddiaları da maddənin həqiqi mahiyyəti öyrənildikdə tamamilə məhv olur. Çünki bu həqiqəti öyrənən şəxs öz varlığının xəyal şəklində olduğunu anlayar. Xəyal olan varlığın isə mütləq olan varlığı görə bilməyəcəyini dərk edər. Belə ki, Quranda insanların Onu görə bilmədiyi, amma Özünün onları gördüyünü Rəbbimiz belə açıqlayır:

Gözlər Onu dərk etmir. O isə gözləri dərk edir… (Ənam surəsi, 103)

Əlbəttə, biz insanlar Allahın varlığını gözlərimizlə görə bilmərik. Amma bilirik ki, Allah bizim daxilimizi, zahirimizi, baxışlarımızı, düşüncələrimizi tamamilə əhatə etmişdir. Buna görə, Allah Quranda Özünün **"qulaqlara və gözlərə sahib olan"** (Yunus surəsi, 31) olduğunu bildirir. Allahın bilmədiyi bir söz belə deyə bilmərik, hətta nəfəs belə ala bilmərik. Allah bizim etdiyimiz hər şeyi bilir, bu Quranda da belə bildirilmişdir:

Şübhəsiz ki, nə yerdə, nə də göydə heç bir şey Allahdan gizli qalmaz. (Ali-İmran surəsi, 5)

Allahın hər an bizi gördüyü, eşitdiyi çox mühüm həqiqətdir. Bu həqiqəti anlayan insan Allahı gözləri ilə görməsə də, Onun hər an ondan xəbərdar olduğunu bilər. Buna görə, nə iş görürsə görsün, Allahın şahid olduğunu bilərək Allahın razı olmadığı davranışdan, danışıqdan, baxış və ya düşüncədən çəkinər. Allah hər işimizdə bizə yaxın olduğunu, bizi gördüyünü və heç bir şeyin Ondan uzaq olmadığını bildirir:

Sən hansı bir işdə olsan, Qurandan nə oxusan, siz nə iş görsəniz, başınız ona qarışarkən Biz sizə şahid olarıq. Nə yerdə, nə də göydə zərrə qədər bir şey Rəbbindən gizli qalmaz. Bundan daha kiçiyi və daha böyüyü yoxdur ki, açıq-aydın Yazıda olmasın. (Yunus surəsi, 61)

Tək mütləq varlıq olan Allah, əlbəttə, bir xəyal kimi yaratdığı insanı hər cəhətdən tanıyır. Bu, Allah üçün çox asandır. Ancaq bəzi insanlar cahil olduqları üçün bunu başa düşməkdə çətinlik çəkirlər. Əslində, xarici aləm

hesab etdiyimiz hisslərə tamaşa edərkən, yəni həyatımıza davam edərkən bizə ən yaxın olan varlığın hər hansı hiss deyil, Allahın Özü olduğu açıq-aşkar həqiqətdir. Quranda yer alan **"İnsanı Biz yaratdıq və nəfsinin ona nəyi vəsvəsə etdiyini də bilirik. Biz ona şah damarından da yaxınıq."** (Qaf surəsi, 16) ayəsinin sirri də bu həqiqətin içində gizlənir. Amma insan öz bədəninin "mütləq varlıq olan maddədən ibarət olduğunu zənn etdikdə bu mühüm həqiqəti qavraya bilməz. Çünki özünə ən yaxın olanın yenə öz bədəni olduğunu zənn edir. Məsələn, bu insan varlığını "beyni" kimi dərk edirsə, ona şah damarından daha yaxın varlıq olacağını düşünməz. Həqiqətdə isə maddənin mütləq olmadığını, hər şeyin zehnində yaşadığı xəyallar olduğunu dərk etdikdə artıq çöl, içəri, uzaq, yaxın kimi anlayışların mənası qalmır. Şah damarı da, beyni, əli, ayağı, özündən kənarda zənn etdiyi evi, avtomobili və hətta çox uzaqda hesab etdiyi Günəş, Ay, ulduzlar da tək bir səth üzərindədir. Allah onu hər tərəfdən əhatə etmişdir və ona sonsuz dərəcədə yaxın"dır.

Uşağını qucağında tutan, həyat yoldaşını qucaqlayan, anası ilə söhbət edən insan bu insanların özünə ən yaxın insanlar olduğunu zənn edir. Əslində isə, insana dostundan, həyat yoldaşından, uşaqlarından, hətta özündən də daha yaxın olan Allahdır. Bir Quran ayəsində bildirildiyi kimi, Allah insana "şah damarından daha yaxın"dır. (Qaf surəsi, 16)

Allah insanlara "sonsuz yaxın" olduğunu, **"Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən** *(onlara)* **yaxınam..."** (Bəqərə surəsi, 186) ayəsi ilə bildirir. Başqa bir ayədə işlədilən **"Rəbbin insanları əhatə etmişdir."** (İsra surəsi, 60) ifadəsi də eyni həqiqətdən xəbər verir. Buna baxmayaraq, bəzi insanlar özlərinə ən yaxın varlığın yenə özləri olduğunu hesab edərək yanılırlar. Lakin Allah bizə özümüzdən belə daha yaxındır. **"***(Can)* **boğaza yetişdiyi zaman – həmin an siz** *(can verən adama)* **baxırsınız. Biz ona sizdən daha yaxın oluruq, siz isə** *(bunu)* **görmürsünüz."** (Vaqiə surəsi, 83-85) ayələrində insana ən yaxın varlığın Allah olduğu həqiqətinə bir daha diqqət çəkilmişdir. Həqiqətən də, ölüm yatağındakı və ya xəstə yatan insan xəta ilə o an özünə ən yaxın varlığın başının üstündəki həkimi və ya onu qucaqlayan anası və ya əlini tutan, ona toxunan yaxını olduğunu düşünə

bilər. Ancaq ayədə də bildirildiyi kimi, Allah o anda ona hamısından daha yaxındır. Həm də təkcə o an deyil, insan ilk dəfə mövcud olduğu andan etibarən ona ən yaxın olan yeganə varlıq Allahdır. Lakin insanların bir qismi gözləri ilə görmədikləri üçün bu həqiqətdən xəbərsiz yaşayırlar.

Allahın məkandan asılı olmadığı və hər yeri tamamilə əhatə etdiyi həqiqəti başqa bir ayədə də belə bildirilir:

Məşriq də, məğrib də Allahındır! Hansı səmtə yönəlsəniz, Allahın Üzü orada olar. Həqiqətən, Allah *(hər şeyi)* **Əhatəedəndir, Biləndir.**
(Bəqərə surəsi, 115)

Allah başqa bir ayəsində isə bu həqiqəti belə açıqlayır:

Göyləri və yeri altı gündə yaradan, sonra da Ərşə ucalan Odur. O, yerə girəni də, oradan çıxanı da, göydən enəni də, oraya qalxanı da bilir. Siz harada olsanız belə, O sizinlədir. Allah sizin nə etdiklərinizi görür.
(Hədid surəsi, 4)

Bütün bu danışılanlardan çıxan nəticə budur: tək və həqiqi mütləq varlıq Allahdır. Allah elmi ilə kölgə varlıq olan insanı və digər hər şeyi əhatə etmişdir. Bir ayədə: **"Sizin tanrınız yalnız Özündən başqa heç bir tanrı olmayan Allahdır. O, elm ilə hər şeyi əhatə edir."** (Ta Ha surəsi, 98) - deyilərək bu həqiqətə işarə edilir. Allah Quranda başqa bir ayədə insanlara belə bir qəflət barədə xəbərdarlıq etmişdir:

Doğrudan da, onlar öz Rəbbi ilə qarşılaşacaqlarına şübhə edirlər. Həqiqətən, O, hər şeyi əhatə edir. (Fussilət surəsi, 54)

İNSANLARIN ETDİKLƏRİ DƏ ALLAHA AİDDİR

Allahın yaratdığı kölgə varlıq olan insan Allahdan asılı olmadan bir gücə malik ola bilməz. Allah bir ayəsində bu həqiqəti belə bildirir:

Amma Allah istəməyincə, siz istəyə bilməzsiniz... (İnsan surəsi, 30)

Bəzi insanlar bu vacib həqiqətdən xəbərsiz yaşayırlar. Onları yaradanın Allah olduğunu qəbul edir, ancaq etdikləri işlərin özlərinə aid olduğunu zənn edirlər. Əslində isə, insanın hər etdiyi hərəkət Allahın izni ilə yaradılır. Məsələn, kitab yazan insan Allahın izni ilə o kitabı yazır. O kitabdakı hər cümlə, hər fikir, hər abzas Allahın istəyi ilə meydana gəlir. Allah bu vacib həqiqəti bir çox ayəsində bildirir. Bu ayələrdən biri **"... sizi də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır!"** (Saffat surəsi, 96) ayəsidir. Allah, **"...Atdığın zaman sən atmadın, Allah atdı..."** (Ənfal surəsi, 17) ayəsində isə hər etdiyimizin Ona aid hərəkətlər olduğunu bildirir.

Allah başqa ayələrdə də Peyğəmbərə möminlərdən sədəqə almasını bildirir. Ancaq ayənin davamında sədəqələri alanın, əslində, Özü olduğunu açıqlayır:

Onların mallarından sədəqə götür ki, bununla onları pak edib təmizə çıxarasan. Onlar üçün dua et. Çünki sənin duan onlar üçün bir təskinlikdir. Allah Eşidəndir, Biləndir. Məgər onlar bilmirlər ki, Allah qullarından tövbəni qəbul edir, sədəqələri götürür və Allah tövbələri qəbul Edəndir, Rəhmlidir?! (Tövbə surəsi, 103-104)

İnsanların etdikləri bütün hərəkətlər Allaha aiddir. Məsələn, uşağın oxuya bilməsi, memarın hazırladığı layihə, elm adamının kəşfi, mətbəxdə bişən yemək, sənətkarın əsəri... Bütün bunları yaradan və etdirən Allahdır.

Böyük İslam alimi Muhyiddin Ərəbi etdiyimiz hərəkətlərin də Allaha aid olduğunu belə açıqlayır:

Ruhlara gəlincə, onların etdiyi hərəkətlərin mənbəyi də özləri deyil. **Ruh və cisimləri davamlı halda hərəkətə sövq edən qüvvə ancaq cənabi-Haqdır...** Ruh və maddələr mütəmayiz (ayrıca var olan) varlıqlardan və mütəayyin (bəlli, aşkar) həqiqətlərdən deyillər. İlahi hərəkətlərdən, uca Varlığın müxtəlif surətlərindəndirlər. Bunun kimi, sonlu və sonsuz deyilən şeylər də, əslində, başqa-başqa şeylər deyil, iki ayrı cəhətdən elə görünən tək bir şeydən ibarətdirlər. (İbni Arabi'de Varlık Düşüncesi, Ferid Kam/ M.Ali Ayni, s. 37)

Muhyiddin Ərəbinin sözündə də açıqlandığı kimi, bütün hərəkətləri yaradan, ruhlara bu hərəkətləri edənin özləri olduğu hissini verən Allahdır. Allah bütün ruhlarda bu hissi o qədər həqiqi yaradır ki, məsələn, daşı atan insan, həqiqətən, o daşı atanın özü olduğunu zənn edir. Əslində, kölgə varlıq olan insan o hərəkəti edə bilməz. Ancaq Allah insana bunu özü edirmiş kimi hiss etdirir. Allahın yaratmasındakı möcüzənin və qüsursuzluğun nəticəsi olaraq insan bu hissi çox hiss edir və həqiqətən, daşı tutduğunu, qolunu geriyə uzadaraq sürət və güc topladığını və daşı atdığını zənn edir..

İnsan hər anında Allahdan asılı halda yaşayır. Bilsə də, bilməsə də, qəbul edib-etməsə də Allaha boyun əymişdir. Allah bir ayəsində bunu belə bildirir:

Göylərdə və yerdə olan məxluqlar da, onların kölgələri də səhər-axşam istər-istəməz Allaha səcdə edir. (Rəd surəsi, 15)

Yer üzündə tanıyıb bildiyiniz, tarixdə yaşamış, dövrümüzdə yaşayan kim varsa, hansı mövqedə olursa olsun, nəyə sahib olursa olsun və ya nə qədər inadkar inkarçı olursa olsun bu həqiqət dəyişməz. Hər insan Allaha boyun əyən, Allahın yaratdığı, ruhundan üfürdüyü kölgə varlıqdır. Bunu bilən insan daha vəzifəsi, var-dövləti, elmi, şöhrəti və uğurları ilə öyünərək qürrələnmir.

Buna baxmayaraq, təkəbbür göstərənlər böyük acizlik içindədirlər. Çünki Allah insanların özləri atdıqlarını hesab etdikləri daşı belə, əslində, atmadıqlarını, bunu edənin Özü olduğunu bildirmişdirsə, hələ də insanın uğurlarına görə özünə pay çıxarması böyük cəhalətdir.

Hər insanın etdiyi bütün işlər, qazandığı bütün uğurlar, malik olduğu bacarıqların hamısı Allaha aiddir. Bu şəxs böyük dövlətin rəhbəri, dünyanın ən varlı insanı, hər kəsin sevdiyi sənətkar və ya mühüm kəşflər edən elm adamı olsa da, bu həqiqət dəyişmir. Hər insan Allaha boyun əymiş olaraq Onun istədiyi şeyləri edir.

Allah hər insanı bu yolla imtahana çəkir və eyni zamanda tərbiyə edir. Bu gün bu həqiqəti dərk etməyən, çox açıq olduğuna baxmayaraq həqiqəti qəbul etməyənlər ölümdən sonra yenidən dirilərkən hər şeyi bütün açıqlığı ilə görəcək və heç bir şeyə gücləri çatmadığını anlayacaqlar. Allah Onu inkar edənlərin acizliyini bir ayəsində belə bildirmişdir:

Rəbbini inkar edənlərin məsəli – onların əməlləri, qasırğalı bir gündə küləyin şiddətlə sovurduğu külə bənzəyir. Onlar gördükləri işlərə görə savab qazanmazlar. Dərin azğınlıq da elə budur. (İbrahim surəsi, 18)

Allah isə hər şeyə gücü çatan tək varlıqdır:

Göylərdə və yerdə olanların hamısı Allahın şəninə təriflər deyir. Hökm Onundur, həmd Ona məxsusdur. O, hər şeyə qadirdir.
(Təğabun surəsi, 1)

MADDƏNİN HƏQİQƏTİNİN DƏRK EDİLMƏSİ İNSANLARI İMAN GƏTİRMƏYƏ YÖNLƏNDİRƏCƏKDİR

Həyatı boyu ruhuna göstərilən görüntülərə baxdığının fərqinə varan insanlar həm ruhlarını, həm də fasiləsiz davam edən bu görüntüləri yaradanın qəti surətdə Allah olduğuna inanacaqlar.

Bəzi insanların maddənin sirrini qəbul etməməkdə israr etməsinin bir səbəbi də Allahın böyüklüyünü və əzəmətini qavrayıb öz heçliklərini qəbul etmək istəməməkləridir. Amma bu insanlar qəbul etmək istəməsələr də, ortada mübahisəsiz bir həqiqət var: göylərdə və yerdə olanların hamısı Allahındır və Onun təzahürləridir. Tək mütləq varlıq Allahdır və Allahın yaratdığı digər varlıqlar mütləq deyil, görüntüdür. Allahın yaratdığı görüntülərə baxan "mən"lər, yəni insanlar hər biri Allahdan olan ruhdur.

Bu elm və bu böyük sirr başa düşüldüyü təqdirdə insanların şüurları da qəti surətdə aydınlanar, üzərilərindəki mənəvi pərdə ortadan qalxar.

Dərk edən hər kəs Allaha könüldən təslim olar, Allahı çox sevər və Ondan çox qorxar. Bununla yanaşı, insanlardakı paxıllıq, lovğalıq hisslərinin yerini təvazökarlıq və utancaqlıq alar. Allahın insanlardan istədiyi də budur. Bu təəccüblə həqiqəti anlayanlar yeni dünyagörüşü qazanar, yeni həyata başlayarlar. Beləliklə, Allahın qüdrətini lazım olduğu kimi təqdir edər və **"Onlar Allahı layiqincə qiymətləndirmədilər. Halbuki Qiyamət günü yer bütünlüklə Onun Ovcunda olacaq, göylər isə Onun Əli ilə büküləcəkdir. O, pakdır, müqəddəsdir və onların** *(Ona)* **qoşduqları şəriklərdən ucadır."** (Zumər surəsi, 67) ayəsində bəhs edilən şəxslərdən olmaqdan uzaqlaşarlar.

MADDƏNİN HƏQİQƏTİNİ BİLMƏK DÜNYA HƏVƏSİNİ YOX EDİR

Bura qədər izah etdiyimiz mövzu həyatınız boyu sizə izah edilmiş ən böyük həqiqətlərdən biridir. Çünki bütün maddi dünyanın həqiqətdə kölgə varlıq olduğunu sübut edən bu mövzu Allahın varlığının və yaratmasının dərk edilməsinin, Onun yeganə mütləq varlıq olmasının başa düşülməsinin açarıdır. Eyni zamanda, həm insanın nə qədər aciz olduğunun elmi və inkaredilməz sübutu, həm də Allahın möhtəşəm sənətinin təzahürüdür. Buna görə də bu elm insanları qəti şəkildə imana gətirir, iman gətirməmək isə mümkün deyil. Bəzi insanların bu həqiqətdən qaçmasının əsas səbəbi də budur.

İnsan malik olduğunu hesab etdiyi hər şeyin - evinin, avtomobilinin, ailəsinin, işinin və bütün dostlarının beyninin içində meydana gələn hiss və görüntüləri ilə təmasda olur və insan heç vaxt bunların xarici aləmdə olan əsl hallarını bilməz. Bu həqiqəti qavrayan insan hər şeyin tək sahibinin bu görüntüləri beynində yaradan Allah olduğunu anlayar. Dünya həyatına həvəslə bağlı olan insanlar bu səbəbdən bu həqiqətdən çox qorxurlar.

Burada izah edilənlər eynilə fizika qanunu və ya kimya formulu qədər qəti həqiqətlərdir. İnsanlar lazım gəldikdə ən çətin riyaziyyat problemlərini həll edə bilir, başa düşülməsi çətin görünən bir çox məsələni qavraya bilirlər. Amma eyni şəxslərə insanların həyatları boyu zehinlərində əmələ gələn görüntülərlə təmasda olduqları, maddənin əsli ilə heç vaxt təmasda ola bilməyəcəkləri izah edildikdə bunu heç cür anlamaq istəmirlər. Bu, son dərəcə "şişirdilmiş" anlamazlıqdır. Çünki burada izah edilən mövzunun başa

düşülməsi eynilə bir insanın "iki vur iki neçə edir?", "neçə yaşın var?" kimi suallara verəcəyi cavablar qədər asandır. Dünyanı harada gördüyünü hansı elm adamından, hansı nevrologiya professorundan soruşsanız, sizə: "Əlbəttə, beynimdə" -deyə cavab verəcəkdir. Hətta bu həqiqəti orta məktəb biologiya kitablarında belə görə bilərsiniz. Ancaq bütün bunlara baxmayaraq, maddi dünyanı beynimizdə qavradığımıza dair bilik və bu biliyin insanı gətirdiyi nəticələr görməməzliyə vurulur. Elmin sübut etdiyi ən mühüm həqiqətlərdən birinin insanlardan bu qədər böyük cəhdlə gizlədilməsi, əslində, böyük hadisədir.

İnsanların bütün elmi həqiqətləri asanlıqla qəbul edib bu həqiqətdən bu qədər çox qorxub qaçmalarının əsas səbəbi isə budur ki, maddənin həqiqətinin öyrənilməsi bütün insanların həyata baxışlarının kökündən dəyişilməsinə səbəb olacaqdır. Maddəni və özlərini mütləq varlıq kimi qəbul edənlər və bütün həyatlarını buna bağlı quranlar bir anda özlərinin, həyat yoldaşlarının, uşaqlarının, malik olduqları bütün sərvətin sadəcə zehinlərindəki əksi ilə təmasda olduqlarını anlayacaqlar. Elə insanların bu həqiqətdən bu qədər qorxmalarının, anladıqları halda özlərini bilməməzliyə vurmalarının, ibtidai sinif şagirdinin belə asanlıqla qavraya biləcəyi həqiqəti son dərəcə anlaşılmaz etirazlarla yox etməyə çalışmalarının arxasında gizlənən səbəb bu dünya həvəslərini itirmək qorxusudur.

MAL HƏVƏSİNƏ DÜŞƏN İNSANLARIN ƏN BÖYÜK QORXUSU

Ətrafınızdakı mal həvəsinə düşmüş insanların ən çox nələrə dəyər verdiklərini düşünün: yaxşı ev, lüks əşyalar, parıltılı zinət əşyaları, son marka avtomobil, banklarda böyük miqdarda pul, yaxta... Elə bu səbəbdən də bu insanlar malik olduqları bütün bu maddələri beyinlərindəki bir ekranda gördükləri və əsləri ilə əsla təmasda ola bilmədikləri həqiqətindən çox qorxurlar.

Əslində isə, qəbul etmək istəməsələr də, beyinlərində əmələ gələn xəyali dünyada yaşayırlar. Xarici aləm ilə təmasda olmaları mümkün deyil. Çünki səsi, işığı və qoxunu heç cür keçirməyən kəllənin içinə girən sadəcə bu maddələrdən gələn elektrik məlumatlardır. Şəkildəki kimi pul verib arxada görünən möhtəşəm villanı satın alan insanın içində olduğu vəziyyət də belədir. Özünü villa satın alan və pul sayan zənn edir, əslində, beynində əmələ gələn görüntünü satın alır, qarşısındakı şəxsə də pulun özünü deyil, görüntüsünü verir. Pulu alan şəxs də, əslində, görüntü alır. Yəni ortada "görüntü alveri" var.

Mallara, övladlara, dünyanın keçici həvəslərinə çox bağlı olan biri üçün bu, həqiqətən də, böyük qorxu səbəbidir. Çünki bu həqiqəti anladıqda hələ ölmədən ölmüş, malını və canını təslim etmiş olacaq. Allah **"Əgər** *(Allah)* **sizdən bunu istəsə və sizdən təkidlə tələb etdiyi halda, siz xəsislik göstərsəniz, O, kin-küdurətinizi üzə çıxardar."** (Muhəmməd surəsi, 37) ayəsi ilə insanlardan bütün mallarını istədikdə onların necə inadkarlıq göstərəcəklərini və paxıllıq edəcəklərini bildirir. Bir insan maddənin gerçəyini öyrəndikdə isə onsuz da malının, canının Allaha aid olduğunu, verəcəyi və ya verməməkdə israr edəcəyi bir şey olmadığını anlayar, ölməzdən əvvəl hər şeyi ilə Allaha təslim olar. Səmimi iman edənlər üçün bu bir gözəllik, şərəf və Allaha yaxın olmaq üçün vasitədir. İmansız və ya zəif imanlı insanlar isə bu gözəlliyi anlamadıqları üçün bu həqiqəti israrla inkar edirlər.

BEYİNDƏ BİR GÖRÜNTÜ OLARAQ GÖRÜNƏN FABRİK, YAXTA VƏ TORPAQLARIN BOŞ YERƏ ÖZLƏRİNİ ÜZƏN SAHİBLƏRİ

Bu bölmədə həyatı boyu varlı olmaq istəmiş, gənc yaşından etibarən gecə -gündüz çalışmış, hər şeyi alnının təri ilə qazandığını deyən fabrik sahibinin qafil vəziyyətindən nümunələr verib vacib həqiqətdən bəhs edəcəyik.

Burada haqqında danışacağımız şəxs orta yaşlı, uşaqlarını yaxşı məktəblərdə oxutduran, bir neçə avtomobil, yaxta və bir çox ev və torpaq sahələrinin sahibidir. Bu insan dünya həyatında öz ağlına görə öyünə biləcəyi hər şeyə malikdir. Yenə öz fikrinə görə, dünya həyatında bir insanın arzuladığı hər şeyi əldə etmişdir. Maddi zənginliyi ilə birlikdə həm də böyük etibarı vardır. Xidmətçisinin, sürücüsünün və şirkətinin bütün işçilərinin yanında etibarı və mövqeyi vardır. Yüksək vəzifələrdə və mühüm yerlərdə yaxın dostları və çevrəsi vardır. Hər gün iclaslara gedir. Bir çox dərnəyin və qurumun üzvü və hətta rəhbəridir. Bir gün ərzində yüzlərlə şəxsə əmr verir. Şəxsi hesabında saysız-hesabsız pul, səhm və istiqrazları var. Bəzən bunları sayır və daha da qürurlanır. Xüsusilə hər şeyi tək başına, çalışaraq əldə etməsi, bütün həyatını həsr etdiyi qazancları ona böyük rahatlıq və güvənlik hissi verir.

Bir gün dostları ilə yaxta gəzintisində bir şəxs onun yanına gəlir və ona bunları deyir: "Hal-hazırda burada gördüyün bütün insanlar və bu yaxta, dəniz, fabrik və evlərin, sənə tabe olan insanlar... bunların hamısının sadəcə beynində əmələ gələn görüntüləri ilə təmasda olursan. Bunların əsillərini heç vaxt görə bilməzsən. Beyninə gedən sinirlər kəsilərsə, bu yaxta, burdakı insanlar, onların səsləri, söhbətləri, dənizin qoxusu, içdiyin meyvə şirəsinin dadı, qısaca desək, hər şey bir anda yox olar. Bunların hamısı və sənin dünya həyatın boyu sahib olduğun hər şey zehnində meydana gəlir və bunların yuxunda sahib olduğun mallardan heç bir fərqi yoxdur. Eynilə, gecə yuxunda xüsusi təyyarə ilə Avropaya getdiyini görməyin ancaq səhər oyandıqda nə təyyarənin, nə də Avropada olduğunu, özünü yatağında görməyin kimidir. Bəs bu həyat dediyin yuxudan da bir gün oyanaraq özünü tamamilə başqa bir

Böyük şirkətin sahibi-evləri, son marka avtomobilləri, qarşısında əyilən, ona hörmət edən işçiləri olan insan, əslində, sahib olduğu hər şeyi beyninin içində bir görüntü kimi görür. Sahib olduğu etibarı da beynində meydana gəlir. Çox ciddi və vacib olduğunu düşündüyü, zamanının böyük hissəsini ayırdığı işi, iş yoldaşları ilə keçirdiyi iclaslar, aldığı qərarlar da beynində meydana gələn görüntülərdir.

Eyni insan pulunu böyük həvəslə saydıqda, əslində, beynindəki pulları sayır. Qürurla və özünü göstərərək yaxta ilə gəzərkən özünü göstərdiyi insanların, yaxtasının və gördüyü mənzərənin beynində əmələ gələn görüntülər olduğunu anlaya bilməz. Ona bu həqiqət izah edildikdə isə sahib olduğu bütün var-dövlətini və etibarını itirməmək üçün bu həqiqətə möhkəm etiraz edər. Əslində isə, eyni şəxs yuxusunda da bunların həqiqi olduğundan əsla şübhələnməz. Yuxusunda da ona bunların həqiqi sahibi olmadığı deyilsə, buna etiraz edər. Ancaq oyandıqda hamısının xəyal olduğunu anlayar.

yerdə, bu həyatına dair görüntülərə tamaşa edərkən görməyəcəyindən nə üçün bu qədər əminsən?"

Bu varlı insan ona danışılanlara qətiyyətlə qarşı çıxacaqdır. Ona bu həqiqətin elmi dəlilləri aydın şəkildə izah edildikdə özü bunu anlasa da, həqiqəti qəbul etmək istəməyəcəkdir. Çünki öz fikrinə görə, sahib olduğu hər şeyin yuxu kimi xəyal olduğunu qəbul etməsi bütün həyatı boyu bir xəyalın arxasınca getdiyini qəbul etmək olacaqdır. Onda bu insanın öyündüyü, lovğalandığı, təkəbbürləndiyi hər şey xəyaldır. Bu, bir insanın yuxusunda varlı olub, bu xəyali zənginliyi ilə insanlara lovğalanması qədər insanı alçaq və ağılsız vəziyyətə salacaq haldır. Belə olduqda, bu insan artıq şirkətinə girərkən gördüyü hörmət və etibara görə təkəbbürlənməz. Çünki ona hörmət edənlərin, qarşısında baş əyənlərin hamısı zehnində meydana gələn xəyali varlıqlardır. Bu həqiqəti biləndən sonra artıq oturduğu yaxta ilə qonaqlara qarşı "lovğalanmayacaq"dır. Çünki yaxta və ordakı qonaqlar beynində əmələ

gələn xəyallardır.

Ona maddənin xəyal olduğu, maddi varlığın əsli ilə heç vaxt təmasda ola bilməyəcəyi izah edilərkən ağlına bir gün əvvəl aldığı malikanəsi gələr. Elə isə satıcıya bir-bir sayaraq verdiyi pul, satıcı, aldığı malikanə, o malikanədəki bütün malları, onu satın alaraq lovğalandığı çevrəsi-hamısı zehnindədir. Necə ki, bir gün qabaq yuxuda hərracda qazandığını və buna görə böyük qazanc əldə etdiyini görmüşdüsə və oyandıqda bunların heç biri qalmamışdısa, bu həqiqi zənn etdiyi də yuxu kimidir.

Elə isə o, hal-hazırda yaxtanın içində deyil. Yaxta onun içində - beynində əmələ gələn görüntüdür. Dəbdəbəli mebelləri olan evinə girdiyini düşünəndə də həqiqətdə beynindəki həyətin qapısını açır və beynindəki evinə girir. Ev də, mebellər də, həyət də, həyətin qapısı da zehnindədir.

Ona izah edilənlərin son dərəcə açıq həqiqətlər olduğunu anlayan bu insan əlindəki hər şeyin kölgə varlıq olduğunun fərqinə varır. Bütün bunlar onu yaradan Allahın ona göstərdiyi görüntülərdir. Allah sınamaq üçün ona bütün bunlara sahib olduğunu zənn etdiyi görüntü və həyat yaratmışdır. O da özünə bunları verənin və bu görüntülərlə nemətləndirib zəngin edənin Allah olduğunu unudub təkəbbür göstərmiş və lovğalıqla başqalarını aşağı, özünü isə üstün görmüşdür. Deməli, həyatı boyu bir xəyal üçün, yuxu kimi bir aləm üçün boş yerə həvəslənmişdir. Amma bir gün bu xəyalların içinə düşdüyü, onlarla vaxtını keçirdiyi gündə bunların heç birinin mütləq varlığı olmadığını, sadəcə Allahın var olduğunu anlamışdır.

Dünya həyatı boyu bu həqiqəti qəbul etməkdən qaçanlara, görməməzliyə vuranlara Allah bir ayəsində belə diqqət çəkir:

… O öz yanında Allahı tapar. O da onun cəzasını verər. Allah tez haqq-hesab çəkəndir. (Nur surəsi, 39)

Ayədən göründüyü kimi, Allah inkar edənlərin etdikləri işləri illüziya və xəyala bənzədir. O insanlar bu xəyallara bağlanaraq onlardan kömək gözlədikdə bunların gerçək olmadığını, tək gerçək və mütləq olanın Allah olduğunu anlayırlar. İnsanların bu həqiqətdən bu qədər qorxmalarının və qəbul etmək istəməməklərinin səbəblərindən biri budur ki, elə bu misalda bəhs edilən insan kimi sərvət və var-dövlətlərinin bir anda gedəcəyini anlayırlar. Burada bir cəhətə diqqətinizi çəkmək istəyirik: burada bəhs edilənlərdə insanın malik olduğu hər şeyin ölümü ilə birlikdə arxada qalacağı və ona heç bir mənfəət verməyəcəyi deyilmir. Burada "insanın malik olduğu hər şeyin xəyal olduğu" deyilir. Bütün həyatı boyu göstərdiyi həvəsin, özünü üzərək, çətinliklə, insanların xətrinə dəyərək və onları əzməyə çalışaraq əldə etdiklərinin xəyal olduğunu gördükdə boş yerə aldandığını anlayır. Qafil insanların bu cür aldanaraq yaşamaları Quranda bir çox ayədə insanlara bildirilir. Allah bir ayəsində insanların var-dövlət həvəsini və hər şeyə malik olmaq istəklərini belə bildirir:

XƏYALLARLA BAŞQALARINA LOVĞALANDIĞINI ANLAMAYAN İNSANIN VƏZİYYƏTİ

Bahalı avtomobili ilə ətrafındakı insanlara lovğalanan varlı insan, əslində, beynində əmələ gələn avtomobil görüntüsü ilə lovğalanır. O anda varlı adam çox lovğalandığı avtomobilinin əsli ilə təmasda olmadığını heç ağlına da gətirməz. Əslində isə, öz beynində əmələ gələn avtomobil görüntüsü o anda lovğalandığı ətrafındakı digər insanların beyinlərində də ayrı-ayrı əmələ gəlir.

Elə isə əgər orada beş nəfər varsa və hər birinin beynində də avtomobilin görüntüsü ayrı-ayrı əmələ gəlirsə:

- Əsl avtomobil haradadır?

- Varlı adamın avtomobili bu beş avtomobil görüntüsündən hansıdır?

- Varlı adam hansı avtomobil görüntüsünə sahib çıxacaq və hansı ilə ətrafındakılara lovğalanacaq?

- Lovğalandığı digər şəxslər də həqiqətdə varlı adamın beynində əmələ gələn xəyal deyil?

Malik olduqları mal və mülkləri ilə, evləri ilə, avtomobilləri ilə digər insanlara lovğalananlar. Həqiqətdə isə beyinlərində əmələ gələn xəyallarla beyinlərində əmələ gələn xəyallara lovğalanırlar. Bəzi insanlar bu mühüm həqiqəti heç anlamırlar. Əlbəttə, bu, son dərəcə alçaldıcı vəziyyətdir. Çünki sahib olduqları ilə öyünən şəxs nə lovğalanacaq avtomobilin, nə də insanların əslləri ilə heç vaxt təmasda ola bilməz.

Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl göstərilmişdir. Bunlar, dünya həyatının keçici zövqüdür, gözəl qayıdış yeri isə Allah dərgahındadır. (Ali-İmran surəsi, 14)

Başqa bir ayədə isə Allah dünya həyatının oyun-əyləncə və aldanma olduğunu belə xəbər verir:

Bilin ki, dünya həyatı oyun və əyləncə, bəzək-düzək, bir-birinizin yanında öyünmək, var-dövləti və oğul-uşağı çoxaltmaq istəyindən ibarətdir. Bu elə bir yağışa bənzəyir ki, ondan əmələ gələn bitki əkinçiləri heyran edir. Sonra o quruyur və sən onun sapsarı olduğunu görürsən. Sonra isə o çör-çöpə dönür. *(Kimisini)* **axirətdə şiddətli əzab,** *(kimisini də)* **Allahdan bağışlanma və razılıq gözləyir. Dünya həyatı isə aldadıcı ləzzətdən başqa bir şey deyildir.** (Hədid surəsi, 20)

İnsanlar dünya həyatında malik olduqlarını hesab etdikləri bu görüntülərin xəyal olduğunu anladıqda boş yerə kədərlənib həvəsləndiklərini, boş yerə vaxt keçirib əyləndiklərini anlayırlar. Malik olduqları üçün hirslənənlər, onlar üçün insanlara acıqlanıb qışqıranlar, əsəbiləşənlər, stola yumruq vuranlar maddənin əsli ilə heç cür təmasda ola bilmədiklərini anladıqda yuxuda insanlara hücum edən, əsəbiləşən, qışqıran insan vəziyyətinə düşəcəkləri üçün bundan çox utanır və həddindən artıq peşman olurlar. Onlara bu görüntüləri göstərən Allahın razı olduğu şəkildə davranmağın lazım gəldiyini dərhal anlayırlar. Bu həqiqəti qavrayanlar, yəni möminlər isə belə deyirlər:

De: "Şübhəsiz ki, mənim namazım *(səlatım)* **da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allaha məxsusdur!** (Ənam surəsi, 162)

Bu vacib cəhəti unutmaq olmaz: bu həqiqəti həyatının hər hansı bir anında qavrayan insan heç vaxt gecikmiş hesab edilməz. Çünki dərhal həyata baxışını və bütün həyatını bu həqiqətə görə nizama salaraq artıq xəyallar üçün deyil, tək mütləq varlıq olan Rəbbimiz üçün yaşamağa başlaya bilər. Allah hər zaman qullarını bağışlayandır.

Bu həqiqəti görməməzliyə vuraraq, öz fikirlərinə görə hiyləgərlik edib tək mütləq varlığın Allah olduğunu qəbul etməyənlər isə öz-özlərini böyük tələyə salmış olurlar. Allah onların bu vəziyyətini belə xəbər verir:

... Onların dünyada gördükləri işlər boşa çıxar və tutduqları əməllər puç olar. (Hud surəsi, 16)

İnsan bu həqiqəti bu an qəbul etmək istəməsə və bütün malik olduqlarını mütləq varlıqlar qəbul edərək özünü aldatsa da, nəticədə ölümündən sonra dirilərdə, yəni axirətdə hər şey çox aşkar surətdə üzə çıxacaqdır. O gün, ayədə də bildirildiyi kimi, **"çox yaxşı görürsən"** (Qaf surəsi, 22) və hər şeyi daha açıq şəkildə anlayacaqdır. Amma əgər dünyadakı həyatını xəyali məqsədlərin arxasınca qaçaraq sərf etmişsə, arzu edəcək ki, kaş ki, orada heç yaşamayaydı. **"Kaş ilk ölümüm həmişəlik olaydı! Var-dövlətim məni** *(əzabdan)* **qurtarmadı. Hökmranlığım da məhv olub getdi."** (Haqqa surəsi, 27-29) - deyərək həlak olacaqdır.

MADDƏNİN HƏQİQƏTİNİ DƏRK EDƏNLƏRİN İTƏN TƏKƏBBÜRÜ

Bu açıq həqiqəti anlayan bəzi insanların -öz ifadələri ilə desək- əhvalı pozulur. Fabriklərinin, evlərinin, avtomobillərinin, mallarının, övladlarının, həyat yoldaşlarının, yaxınlarının, vəzifələrinin sadəcə beyinlərindəki surətləri ilə təmasda olduqlarını anladıqda Allah qarşısındakı acizlikləri və gücsüzlükləri də açıq şəkildə sübut edilmiş olur. Həm özləri, həm malik olduqları şeylər, hətta bütün kainat xəyaldır, özləri də bir "heç" olduqlarını anlayırlar. Yerdə qalan isə sadəcə "mən" dedikləri ruhlarıdır. Bu ruhu da onlara verən Allah olduğu üçün bu şəxs əvvəlcədən imansız da olsa, qəti şəkildə Allaha iman edir və Ona təslim olur.

Sahib olduğu ad-sana və insanların ona göstərdiyi hörmətə görə lovğalanan insan, arxasınca qaçanların, onunla maraqlananların beynində əmələ gələn görüntülər olduğunu öyrəndikdə bütün kefi pozular. Təkəbbürünün heç bir mənasının olmadığını görər.

İnsan bu həqiqətləri qavradıqda qürur, lovğalıq, təkəbbür hisslərinin yerini təvazökarlıq və acizliyini çox yaxşı anlama hissi alır. Belə bir insana dünyanın bütün zənginliyi, ən mühüm vəzifəsi də verilsə, bu insan azğınlaşmaz və lovğalanıb zalım olmaz. Heç bir vaxt Allahın ona göstərdiyi görüntülərə baxdığını unutmaz və xəyalların içinə dalmaz. Bu fövqəladə həqiqət həvəs, lovğalıq və əzəmətlə yanaşı kin, nifrət, əsəb kimi mənfi hissləri də aradan qaldırar. Hər şeyin xəyal olduğunu bilən insanlar xəyallar üçün bir-birləri ilə rəqabətə girməz, başqalarına qarşı kin bəsləməz və düşmənlik etməzlər. Hər kəsin özünü sadəcə Allaha təslim etdiyi mühitdə təvazökarlıq, təslimiyyət, şəfqət, hörmət, sevgi və səmimiyyət əmələ gələr.

Buna görə də, insanların bu həqiqəti anlamaq istəməməyi, bu həqiqətdən qorxub qaçmağı çox məntiqsizdir. İmansız insanı bu həqiqətlər qorxuda bilər. Çünki bu həqiqətləri qəbul etdikdə Allahın varlığını da qəbul edəcəkdir. Ancaq imanlı insanlar maddənin zehində Allahın yaşatdığı xəyali görüntü olduğuna, tək mütləq varlığın isə Allah olduğu həqiqətinə böyük sevinc və əminliklə inanmalıdırlar. İmanlı insanın Allahın bu möhtəşəm sənətindən qorxaraq bunu anlamaq istəməməyi ağılsız davranış olar. Çünki həqiqət açıq-aşkar ortada ikən ağıla gətirməyərək, düşünməyərək, kölgə görüntünün aydınlığına və üç ölçülü formasına aldanmağa davam etmək mənasızdır. Mömin həqiqətlərdən qorxmaz, həqiqətin gözəlliyini və dərinliyini, Allahın qüsursuz sənətinin bu sistem içərisində necə daha da möcüzəvi hala gəldiyini düşünər.

BU HƏQİQƏT DÜNYAYA HƏVƏSLƏ BAĞLANANLARI QORXUDUR

Gördüyü işə görə mükafat alan insan beynindəki mükafatı alır. Mükafatını alarkən onu alqışlayaraq təbrik edən insanlar həqiqətdə beynində əmələ gələn insan görüntüləridir.

İnsan beynindəki kiçik ekranda əmələ gələn bu mükafatlandırma mərasiminə tamaşa edərkən salondakı insanların, mükafatın və salonun əsli ilə beynindən kənarda təmasda ola bilməz. Çünki beynindən kənara çıxa bilməz. Bu, həmin insanın ona verilən mükafata televiziyada baxmağına bənzəyir.

Elə insanların bu həqiqətdən böyük dəhşətlə qaçmalarının səbəbi budur. Dünya həyatına



Uğuruna görə mükafat alan insan beyninin içindəki mükafatı alır və beyninin içində əmələ gələn insan görüntüləri tərəfindən alqışlanır.

həvəslə bağlananlar mövqe və vəzifələrinin, qazandıqları mükafatların, bank hesablarının, yaxtalarının, onları tərifləyən, bəyənən insanların hər birinin beyinlərindəki bir görüntü olduğunu anladıqda dəhşətli qorxuya düşürlər. Bu şəkildə, əldə etdikləri etibar, şöhrət və malların həvəslə bağlanmağa dəyməyəcəyini anlayır, paxıllıq edərək bu həqiqətdən qaçırlar. Ancaq həqiqətdən nə qədər qaçsalar da, yenə də bütün həyatlarını başlarının içində keçirdikləri həqiqətini dəyişdirə bilməzlər.

Elə insanların bu həqiqətdən böyük dəhşətlə qaçmalarının səbəbi budur. Dünya həyatına həvəslə bağlananlar mövqe və vəzifələrinin, qazandıqları mükafatların, bank hesablarının, yaxtalarının, onları tərifləyən, bəyənən insanların hər birinin beyinlərindəki bir görüntü olduğunu anladıqda dəhşətli qorxuya düşürlər. Bu şəkildə, əldə etdikləri etibar, şöhrət və malların həvəslə bağlanmağa dəyməyəcəyini anlayır, paxıllıq edərək bu həqiqətdən qaçırlar. Ancaq həqiqətdən nə qədər qaçsalar da, yenə də bütün həyatlarını başlarının içində keçirdikləri həqiqətini dəyişdirə bilməzlər.

SIXINTI VƏ ÇƏTİNLİKLƏR DƏ YUXUDA GÖRÜLƏN XƏYALLAR KİMİDİR

Bir insan nə qədər çətinliklə qarşılaşsa da, hər hadisə beynində meydana gəlir. Bir insan keçmişini, məsələn, əksər insanlar kasıblığını necə düşünüb zehnində canlandırırsa, yaşadığı an da beyninin içində meydana gəlir.

İnsanların həyatları boyu yaşadıqları bütün çətinlik və sıxıntıya səbəb olan hadisələr də həqiqətdə beyinlərinin içində meydana gəlir. Bu həqiqəti bilən insan qarşılaşdığı hər hadisəyə səbir edər. Allahın hər şeyi xeyirlə yaratdığını bilər və təvəkküllü davranar.

Bəzi insanlar sadəcə müəyyən şeylərin beyinlərində meydana gələn görüntülər olduğunu düşünərək bəzi hadisələrdə bu həqiqəti unudurlar. Əslində isə, baş verən hadisənin nə olduğundan asılı olmayaraq, insan həyatının hər anında beynindəki xəyali görüntüləri yaşayır. Məsələn, iflasa uğrayan iş adamı beynindəki iş yeri görüntüsündə, beynində əmələ gələn

insan görüntüləri ilə təmasda olur. Ticarətini etdiyi əşyanın, bu əşyanın əvəzində aldığı pulun hamısı zehnində meydana gələn hisslərdir. Bu insan bütün pulunu itirdikdə, əslində, pulun görüntüsünü itirir. İş yeri və bütün əşyaları müsadirə edilən insan beynində əmələ gələn əşya və iş yeri görüntülərini itirir. Avtomobili oğurlanan insan da yenə zehnində tamaşa etdiyi avtomobil xəyalını itirmişdir. Həyatı boyu bir an belə təmasda olmadığı, amma buna baxmayaraq, sahib olduğu görüntünü artıq görə bilmir.

Sadəcə bunlar da deyil, həyatı boyu yaşadığı bütün çətinliklər insanın beynində əmələ gəlir. Məsələn, daxili çaxnaşmanın hakim olduğu ölkədə hər an ölüm təhlükəsi altında yaşayan, düşmən əsgərlərinin hücumları ilə hər an qarşı-qarşıya gələn insan beynində əmələ gələn düşmən əsgərlərinin görüntüsü ilə qarşı-qarşıyadır. Hücum zamanı yaralanan, qolunu itirən insan da beynindəki qol görüntüsünü itirir, bütün ağrı hissi beynində hiss kimi əmələ gəlir. Düşmənlərinin hədə-qorxuları, kinli və təcavüzkar sözləri də beynində əmələ gələn səslərdən ibarətdir.

Beləliklə, çətinliklər, sıxıntılar, qorxu meydana gətirən hadisələr də insanın beynində meydana gələn xəyallardır. Gördüyü görüntülərin həqiqi tərəfini bilən insan içinə düşdüyü çətinliyə görə sıxıntı keçirməz, bunlara görə şikayətlənməz. Ən təcavüzkar və təhlükəli düşmənin qarşısında belə beynindəki xəyallarla qarşı-qarşıya olduğunu bilərək qorxu və ümidsizliyə qapılmaz. Hər birinin Allahın yaratdığı görüntülər olduğunu və Allahın bunları hikmətlə yaratdığını bilər. Nə ilə qarşılaşsa da, Rəbbimizə olan təslimiyyət və etibarın verdiyi rahatlıq içində olar. Belə ki, Allah bir çox ayəsində inananlar üçün qorxu və kədərin olmayacağını bildirmişdir:

Həqiqətən də: "Rəbbimiz Allahdır!"– deyib sonra düz yol tutanlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər. (Əhqaf surəsi, 13)

Həyatı boyu gördüyü bütün hadisələrin, eşitdiyi bütün səslərin Allahın beynində yaratdığı görüntüləri ilə təmasda olduğunu bilən insan qorxmaq, boş yerə sıxılıb kədərlənmək və təşvişə düşmək əvəzinə bu görüntülərin və özünün yaradanı olan, sonsuz dərəcədə mərhəmətli və şəfqətli olan Allaha təvəkkül edər.

MADDƏNİN HƏQİQƏTİ AŞKARA ÇIXDIQDA ƏMƏLƏ GƏLƏN MÜHİT

Maddənin əsli ilə təmasda olmadıqlarını, yalnız Allahın onlara göstərdiyi görüntülərlə sıx təmasda olduqlarını bilən insanların bütün həyatları, həyata baxışları və mühakimə meyarları da dəyişər. Bu, həm şəxsi, həm də ictimai mənada faydalı dəyişiklik olar. Çünki bu həqiqəti görən insan Allahın Quranda bildirdiyi üstün mömin əxlaqını asanlıqla yaşayar.

Dünyaya əhəmiyyət verməyən, maddənin xəyal olduğunu anlayan insanlar mənəviyyata əhəmiyyət verərlər. Allahın hər an onu eşitdiyini və gördüyünü bilən, etdiyi hər hərəkətə görə axirətdə hesab verəcəyini dərk edən şəxs, təbii ki, gözəl əxlaqlı olar, Allahın əmr və qadağalarına əməl edər. Beləliklə, cəmiyyətdə hər kəs bir-birinə qarşı sevgi və hörmətlə yanaşar,

yaxşı və gözəl davranmaqda hər kəs bir-biri ilə yarışar. İnsanlar arasındakı mühakimə meyarları dəyişər, maddə dəyərini itirər və beləliklə, insanlar arasında üstünlük mövqe və vəzifəyə görə deyil, əxlaq və təqvaya görə olar. Heç kim xəyalın arxasınca qaçmaz, hər kəs həqiqətin arxasınca gedər. İnsanlar "kim nə fikirləşər?" təfəkkürü ilə deyil, "Allah nə etsəm, məndən razı qalar?" düşüncəsi ilə hərəkət edərlər. Mal, mülk, mövqe və vəzifədən qaynaqlanan qürur, lovğalıq, təkəbbür hisslərinin yerini təvazö və acizliyini çox yaxşı anlama hissi alar. Ona görə, insanlar Quranda bəhs edilən bütün gözəl əxlaq nümunələrini sevərək və istəyərək yaşayarlar. Sadalanan bu dəyişikliklər isə dövrümüzdəki cəmiyyətlərin bir çox problemini, təbii ki, aradan qaldırar.

Kiçik mənfəətlər üçün belə əsəbiləşən, hirslənən, təcavüzkar olan insanların yerini hər gördüyünün xəyalı ilə təmasda olduğunu bilən, buna görə əsəb, hirs, bağırmaq kimi münasibətlərin onu alçaldacağını bilən insanlar alar. Beləliklə, insanlar və cəmiyyətlərə rahatlıq və etibar hakim olar, hər kəs həyatından və sahib olduqlarından razı qalar. Odur ki, insanlardan gizlədilən bu həqiqətin insanlara və cəmiyyətlərə qazandıracağı nemətlərin bir qismi bunlardır. Bu həqiqətin bilinməsi, düşünülməsi və yaşanması ilə birlikdə insanlar daha bir çox gözəlliklərə qovuşarlar. Bu gözəlliklərə qovuşmaq istəyən şəxslər bu böyük həqiqəti yaxşı düşünməli və anlamağa çalışmalıdırlar. Allah bir ayəsində belə bildirir:

Rəbbinizdən sizə göz qabağında olan dəlillər gəlmişdir. Kim *(onları)* **görsə,** *(xeyri)* **onun özünə, kim kor olsa** *(zərəri)* **onun öz əleyhinə olar...**

(Ənam surəsi, 104)

MADDƏNİN HƏQİQƏTİNİN BİLİNMƏSİ MATERİALİZMİN SONUDUR

Həyatımız boyu maddənin əsli ilə təmasda olmadığımız həqiqətindən ən çox qorxu və təşvişə düşənlər, əlbəttə, materialist fəlsəfəyə bağlananlardır. Bunun səbəbini daha yaxşı görmək üçün materializmin ümumi tərifinə baxmaq kifayətdir. Materialistlərin öz mənbələrində materializmin azğın fəlsəfəsi belə tərif edilir:

Materializm dünyanın əzəli və əbədiliyini (əvvəli və sonu olmadığını), Tanrı tərəfindən yaradılmadığını və zaman və məkanda sonsuzluğunu qəbul edir. (Materyalist Felsefe Sözlüğü, istanbul, Sosyal Yayınlar, 4. Baskı, s. 326)

Meydan Larus Ensiklopediyasının 8-ci cildində isə materialist fəlsəfə belə tərif edilir:

Materializm maddədən başqa hər hansı bir cövhərin varlığını qəbul etməyən təlimdir. Bütün həqiqətlərin cövhərini və əsasını ruhun meydana gətirdiyini söyləyən ruhçuluğun əksidir...

Bu qısa təriflərdən də göründüyü kimi, materialist fəlsəfə maddəni tək mütləq varlıq kimi qəbul edir və maddədən başqa heç bir varlığı və ya məfhumu qəbul etmir. Məsələn, materialist fəlsəfə ruhun varlığını qəbul etmir, insan şüurunu beyinin fəaliyyətlərinin məhsulu kimi görür (materialistlərin bu iddialarının əsassızlığına "MATERİALİZMİN DÜŞDÜYÜ ƏN BÖYÜK

ÇIXILMAZ VƏZİYYƏTLƏRDƏN BİRİ: İNSAN ŞÜURU" başlıqlı bölmədə yer verilmişdir). Bu kitab boyu izah edilənlərin ən vacib və tarixi cəhəti isə materialist fəlsəfəni tamamilə əsassız etməsidir. Çünki bu gün artıq açıq şəkildə bilinir ki, maddə dediyimiz şeylərin sadəcə zehnimizdəki hallarını bilirik və zehnimizdən kənarda maddənin necə olduğunu göstərməyimiz mümkün deyil. Çünki zehnimizdən kənara çıxıb maddə dediyimiz şeyin əsli ilə təmasda olmağımız mümkün deyil. İki cümlə ilə tərif edilən bu həqiqəti qəbul etdikdən sonra artıq ortada nə maddə, nə materializm qalır. Xarici aləmdəki maddi varlıqlarla heç vaxt təmasda ola bilməyəcəyimizə görə, heç vaxt görməyəcəyimiz maddələr haqqında fəlsəfə yürütməyin, onlar haqqında fikir söyləməyin məntiqsizliyi və lüzumsuzluğu da açıq şəkildə ortadadır.

Lenin, Mao və Stalin kimi kommunist liderlərin arxasınca gedənlər, onları güclü liderlər kimi görənlər, nitqlərini böyük diqqət və coşğunluqla dinləyənlər bu insanları özlərinə aid gücləri olan varlıqlar zənn edirlər. Əslində isə, hər biri beyinlərində əmələ gələn varlıqlardır.

Elə materialist fəlsəfə tərəfdarlarının maddənin ardındakı bu vacib sirrin açıqlanmasından son dərəcə narahat olmalarının, bu sirrin çox açıq olduğuna baxmayaraq, onu anlamaq istəməməklərinin əsas səbəbi bu mövzunun fəlsəfələrinin sonunu gətirdiyini anlamalarıdır. Tarix boyu bütün materialistlər maddənin həqiqətinin açıqlanmasından, hətta materializm tərəfdarlarının bu həqiqəti izah edən kitabları oxumalarından çox narahat olmuşlar və bunu dilə gətirmişlər. Rusiyadakı qanlı kommunist inqilabının liderlərindən biri olan Vladimir İ. Lenin təxminən bir əsr əvvəl yazdığı *"Materializm və empiriokritisizm"* adlı kitabında tərəfdarlarını bu həqiqətə qarşı belə xəbərdar edir:

Elə materialist fəlsəfə tərəfdarlarının maddənin ardındakı bu vacib sirrin açıqlanmasından son dərəcə narahat olmalarının, bu sirrin çox açıq olduğuna baxmayaraq, onu anlamaq istəməməklərinin əsas səbəbi bu mövzunun fəlsəfələrinin sonunu gətirdiyini anlamalarıdır. Tarix boyu bütün materialistlər maddənin həqiqətinin açıqlanmasından, hətta materializm

tərəfdarlarının bu həqiqəti izah edən kitabları oxumalarından çox narahat olmuşlar və bunu dilə gətirmişlər. Rusiyadakı qanlı kommunist inqilabının liderlərindən biri olan Vladimir İ. Lenin təxminən bir əsr əvvəl yazdığı "Materializm və empiriokritisizm" adlı kitabında tərəfdarlarını bu həqiqətə qarşı belə xəbərdar edir: Duyğularımızla qavradığımız maddi həqiqəti bir dəfə inkar etdinsə, şübhəçiliyə (agnostisizm) və fərdiliyə (subyektivizmə) meyil edəcəyin üçün fideizmə (dini inanca) qarşı istifadə edəcəyin bütün silahları itirərsən; bu da fideizmin istədiyi şeydir. ***Barmağını verdinsə, əvvəlcə qolun, sonra bütün mənliyin gedər.*** *Duyğuları maddi dünyanın görüntüsü kimi deyil, xüsusi bir komponent kimi aldıqda, başqa sözlə, materializmə güzəştə getdikdə, mənliyini fideizmə verərsən. Sonra duyğular heç kimin duyğularına çevrilər, zəka heç kimin zəkası, ruh heç kimin ruhu, iradə heç kimin iradəsi olar.*

(Rennan Pekünlü "Aldatmacanın Evrimsizliği", Bilim ve Ütopya, Aralık 1998)

Bu sətirlər Leninin böyük qorxu ilə anladığı və həm öz başından, həm də tərəfdaşlarının başlarından silmək istədiyi həqiqətin materialistləri nə qədər narahat etdiyini göstərir. Ancaq dövrümüzün materialistləri Lenindən də narahatdırlar. Çünki bu həqiqət bundan 100 il əvvələ nisbətən daha açıq, qəti və güclü şəkildə ortaya qoyulmuşdur.

Keçmişdə hər hansı bir fəlsəfə və ya izah kimi düşünülən bu mövzu bütün dünya tarixində ilk dəfə bu qədər qarşısı alınmaz şəkildə və elmi tapıntılara əsaslanaraq izah edilir. Elmi yazıçı Linkoln Barnet bu mövzunun təkcə "sezilməsinin" belə materialist elm adamlarını qorxu və həyəcana saldığını belə bildirir:

Filosoflar bütün maddi həqiqətləri hisslərdən ibarət kölgə dünya formasına salarkən elm adamları insan hisslərinin hüdudlarını ***qorxu və həyəcanla sezdilər.*** (Lincoln Barnett, Evren ve Einstein, Varlık Yayınları, 1980, s. 17-18)

Ölkəmizdə və bütün dünyada bu mövzu ilə qarşılaşan hər materialistdə bu "qorxu və həyəcan" çox güclü şəkildə üzə çıxır. Məsələn, ölkəmizdə fəlsəfələrinin əsası olan təkamül nəzəriyyəsinin elmi cəhətdən çökdürülməsində onsuz da ciddi sarsıntı keçirən materialistlər indi də darvinizmdən daha vacib əsaslarını, məhz maddənin özünü itirdiklərini anlamağa başlamışlar. Buna görə, mövzunun əhəmiyyətinə diqqət çəkərək bu mövzunun öz fikirlərinə görə, ən böyük təhlükə olduğundan, öz sivil quruluşlarını tamamilə yıxdığından bəhs edirlər.

Əslində bu, Allahın Quranda inananlara bildirdiyi vədinin təzahürüdür. Haqqın ortaya çıxdığı yerdə batil olan fikirlər yox olmağa məhkumdur.

De: "Haqq gəldi, batil puç olub getdi. Həqiqətən də batil puçluğa məhkumdur!" (İsra surəsi, 81)

Xeyr, Biz haqqı batilin üstünə atarıq və o da onun işini bitirər. Bir anda *(batilin)* **yox olub getdiyini görərsiniz.** *(Allaha)* **aid etdiyiniz sifətlərə görə vay halınıza!** (Ənbiya surəsi, 18)

Materializm bəşəriyyət tarixi boyu mövcud olmuşdur. Bu fəlsəfəni müdafiə edənlər maddəni özlərinə dəlil qəbul edərək onları yoxdan var edən,

heç ikən onlara can verən, içində yaşaya biləcəkləri kainat yaradan Allaha qarşı çıxmışlar. "Maddə varsa, Allah bu maddənin harasında ola bilər?" kimi səthi və cahil məntiqlərlə Allahın varlığını inkar edən və insanların da inkar etmələri üçün səy göstərən bu şəxslər dövrümüzdə ən böyük əsaslarının məhv olduğuna şahid olurlar. Çünki burada bəhs edilən həqiqət fəlsəfələrini kökündən məhv edir, bu barədə mübahisəyə belə imkan vermir. Bütün düşüncələrini, həyatlarını, təkəbbürlərini və inkarlarını üzərində qurduqları maddə əllərindən bir anda uçub getmişdir.

Materialistlər tarix boyu bir-birlərinə inkarı və inkar metodlarını miras qoymuşlar. Leninin yuxarıdakı sözlərindən bu gün bir çox materialist istifadə edir və tərəfdarlarına bu həqiqəti dinləməmələrini, oxumamalarını tövsiyə edirlər. Ancaq elmin maddənin mahiyyəti ilə bağlı bu həqiqəti açıq şəkildə üzə çıxartması və internet kimi texnoloji imkanlarla bütün dünyaya məlumatın çatdırılmasının son dərəcə asan və sürətli olması onların bu səylərini boşa çıxarır. Çünki insanlar böyük sürətlə bu həqiqəti oxuyur, öyrənir və qavrayırlar. Yaxın keçmişə qədər materializmi ən əsaslı dünyagörüşü kimi qəbul edənlər bu gün böyük heyrət və təəccüblə dünya həyatının və maddənin gerçək yönünü öyrənirlər. Elə bu, Allahın inkar edənlərə qurduğu möhtəşəm tələdir. İnkarçılar tarix boyu Allahı inkar etmək üçün necə təhrifedici şəkildə maddəni tanrı qəbul edərək öz geri qalmış ağılları ilə dinə tələ qurduqlarını hesab etdilərsə, Allah da qarşılığında onların saxta tanrılarını əllərindən alacaq mühit yaratmış və onları öz tələlərinə salmışdır. Allah tarix boyu inkar edənlərin tələlərinə verdiyi bu qarşılığı belə bildirir:

... Sənə qarşı hiylə qururdular. Onlar hiylə işlətdilər, Allah da hiylə işlətdi. Allah hiylə işlədənlərin ən yaxşısıdır. (Ənfal surəsi, 30)

Allah insanlara maddənin əsli ilə təmasda olduqları hissini verərək materialistləri tələyə salmış və onları tarixdə tayı-bərabəri görünməmiş şəkildə alçaltmışdır. Mallarını, mülklərini, mövqelərini, içində olduqları cəmiyyəti, bütün dünyanı və əslində, xəyaldan ibarət olan hər şeyi mütləq varlıq hesab etmişlər. Üstəlik, bunlara güvənərək Allaha qarşı təkəbbür göstərmişlər. Öz ağıllarına görə lovğalanaraq Allaha üsyan etmiş və inkarda daha da irəli getmişlər. Bunları edərkən güc aldıqları tək şey maddə olmuşdur. Amma elə bir anlayış çatışmazlığı içinə düşmüşlər ki, Allahın onları hər tərəfdən əhatə etdiyini heç düşünməmişlər. Allah inkarçıların anlayışsızlıqları nəticəsində düşəcəkləri vəziyyəti Quranda belə xəbər vermişdir:

Yoxsa bir hiylə qurmaq istəyirlər? Amma kafirlər özləri o hiylənin qurbanı olacaqlar. (Tur surəsi, 42)

Materialistlər tarixin ən böyük məğlubiyyətinə addım-addım yaxınlaşarkən bunun fərqində belə olmamışlar. Məsələn, bütün görüntülərin beyində qavrandığını kəşf edərkən bunun öz inanclarını kökündən çökdürəcəyini nəzərə almamışlar. Materialist elm adamı apardığı tədqiqatlar nəticəsində bütün gördüyü şeylərin həqiqətdə hesab etdiyi kimi olmadığını,

əksinə, beynində meydana gələn görüntülərlə təmasda olduğunu sübut edərək materialist inancına öz əlləri ilə zərbə vurmuşdur. Allah inkar edənlərin öz qurduqları tələyə şüursuzluqla düşdüyünü bir ayədə belə bildirir:

Beləliklə hər bir ölkədə oranın günahkarlarını başçılar təyin etdik ki, onlar orada *(mümkün qədər)* **yaramaz işlər görsünlər. Halbuki onlar o yaramaz işləri yalnız özlərinə qarşı edirlər və** *(bunu da)* **hiss etmirlər.**
(Ənam surəsi, 123)

Şübhəsiz, bu həqiqəti anlamaq materialistlər üçün çox dəhşətli hadisədir. Çünki sahib olduqları hər şeyin sadəcə xəyali görüntüləri ilə təmasda olmaları onlar üçün hələ dünyada ikən "ölmədən ölüm" hökmüdür.

Hal-hazırda kitabı tutan, kitabın kağızının kənarını və qalınlığını hiss edən əliniz deyil. Kitabı tutma hissi sinir siqnalları vasitəsilə beyindəki toxunma mərkəzində əmələ gətirilən hissdir.



Bu toxunma hissini dərk edən şüur beyindəki yağ və sinirlər ola bilməz. Elə isə insanın beynində əli və barmaqları olmadan kitabı tutduğunu hiss edən varlıq kimdir?

Maddənin fövqündə olan bu varlıq insanın ruhudur. Allah çox böyük möcüzə olaraq insan ruhuna heç bir üzvü olmadığı halda, bütün hissləri dərk etdirir. Məsələn, ruh barmaqları olmadığı halda, kitaba, pambığa, daşa və ya heyvanın tüklərinə toxunduğunu hiss edə bilər. Elə materialistlərə böyük qorxu verən həqiqət də budur. Bütün həyatlarının maddəyə bağlı olaraq keçdiyini zənn edən materialistlər həyatları boyu maddənin əslinə bircə dəfə də toxuna bilmədiklərini, onu görə bilmədiklərini, beyinlərindən kənara əsla çıxa bilmədiklərini düşündükcə çıxılmaz vəziyyətə düşdüklərini anlayırlar. Buna görə, bu qeyri-adi mühüm möcüzəni insanların gözündən uzaq tutmaq üçün var gücləri ilə səy göstərirlər.

Ancaq Allah XIX əsrdə insanların hər an yaşadıqları bu mühüm həqiqəti qavramaları üçün lazımi mühiti yaratmış və elmi irəliləyişləri də bunun başa düşülməsi üçün dəstək etmişdir.

Bu həqiqətlərlə birlikdə bir Allah, bir də özləri qalmışdır. Belə ki, Allah **"Məni yaratdığım kimsə ilə tək burax!"** (Muddəssir surəsi, 11) ayəsi ilə hər insanın Onun qatında tamamilə tənha olması həqiqətinə diqqət çəkmişdir. Bu qeyri-adi həqiqət daha bir çox ayədə xəbər verilmişdir:

Sizi ilk dəfə yaratdığımız kimi Bizə tək olaraq gəldiniz. Sizə xəyal kimi göstərdiyimiz şeyləri ardınızda buraxdınız... (Ənam surəsi, 94)

Onların hər biri Qiyamət günü Onun hüzuruna tək-tənha gələcək. (Məryəm surəsi, 95)

Allah başqa bir ayəsində isə axirət günüdə inkar edənlərə belə müraciət

edəcəyini bildirir:

O gün onların hamısını *(bir yerə)* **toplayacaq, sonra isə şərik qoşanlara deyəcəyik: "İddia etdiyiniz şəriklərniz haradadır?"** (Ənam surəsi, 22)

Bunun ardından inkar edənlər dünyada var olduğunu zənn edərək Allaha şirk qoşduqları mallarının, övladlarının, ətraflarının özlərindən uzaqlaşdığına və tamamilə yox olduğuna şahid olacaqlar. Allah bu həqiqəti də **"Bax gör onlar özlərinə qarşı necə yalan söyləyirlər. Uydurduqları** *(bütlər)* **isə onlardan uzaqlaşıb yox olacaqlar."** (Ənam surəsi, 24) ayəsi ilə xəbər vermişdir.

XXI əsr bu həqiqətin bütün insanların arasında yayılacağı, materializmin isə yer üzündən silinəcəyi tarixi dönüş nöqtəsidir. Bu həqiqəti görə bilən insanların keçmişdə nəyə inandıqları, nəyi nə üçün müdafiə etdikləri vacib deyil. Vacib odur ki, həqiqəti gördükdən sonra buna qarşı çıxmamaq, ölümlə birlikdə onsuz da açıq-aydın başa düşüləcək bu həqiqəti gec olmadan anlamaqdır. Unutmaq olmaz ki, həqiqətlərdən qaçmaq mümkün deyil.

GÖRDÜYÜMÜZ, TOXUNDUĞUMUZ, HİSS ETDİYİMİZ HƏR ŞEY ATOMLARDAN MEYDANA GƏLMİŞDİR
(Atomun Meydana Gəlmə Macərası)

Möhtəşəm ölçülərilə insan ağlının qavrama hüdudlarını aşan kainat, yarandığı ilk andan etibarən həssas tarazlıqlar üzərində və böyük bir nizam içərisində heç yanılmadan işləyir. Bu böyük kainatın necə yarandığı, hara doğru getdiyi və içindəki nizam və tarazlığı təmin edən qanunların necə işlədiyi hər dövrdə insanların maraq mövzusu olmuşdur. Elm adamları bu mövzuyla bağlı saysız tədqiqatlar aparmış, bir çox tezislər və nəzəriyyələr irəli sürmüşdürlər. Bu nəzəriyyələr ən son, iki əsas kateqoriyada toplanmışdır.

İlk nəzəriyyə kainatın sərhədsiz olduğunu, sonsuzdan bəri var olduğunu, sonsuza qədər də varlığını və hazırkı vəziyyətini qoruyacağını müdafiə edir. XX əsrin yarısında gündəmdə olan və “Stasionar Kainat nəzəriyyəsi” (Steady State Theory) adı verilən bu modelə görə, kainat üçün hər hansı bir başlanğıc və ya sondan söhbət getmirdi. Kainat yoxdan yaradılmadığı kimi heç vaxt da yox olmayacaqdır. Materialist fəlsəfənin də təməlini meydana gətirən bu nəzəriyyəyə görə kainatın sabit (statik) bir quruluşu vardı.

Halbuki daha sonralar əldə edilən elmi tapıntılar bu nəzəriyyənin tamamilə səhv olduğunu göstərdi. Kainat sabit deyildi, tam əksinə daim hərəkət edir və daimi dəyişməyə məruz qalırdı.

Elmi baxımdan qəbul edilmiş ikinci nəzəriyyə isə kainatın bir başlanğıcı olduğunu müdafiə edirdi. Bu nəzəriyyə 1940-cı illərdə "Böyük Partlayış" (Biq Bənq) modeli kimi adlandırılmışdı. Buna görə də kainatdakı hər şey təxminən 15 milyard il əvvəl tək bir nöqtədə cəmlənmişdi. Bu nöqtə sonsuz sıxlığa malik idi, amma heç bir həcmi yox idi. Nəzəriyyəyə görə bu nöqtə partladı və böyük sürətlə yayılmağa başladı.

"Heç bir həcmi olmayan, yəni heç yer tutmayan və sonsuz sıxlığa malik olan bir nöqtə necə ola bilər?" deyə düşünə bilərsiniz. “Həcmi olmayan sonsuz sıxlıqdakı nöqtə” əslində nəzəri bir ifadə formasıdır. Elm, insan ağlının qavrama hüdudlarını aşan “yoxluq” anlayışını ancaq “nöqtə” sözü ilə təsvir edə bilir. Həqiqətdə isə “həcmi olmayan bir nöqtə” yox deməkdir. Dolayısilə, kainat da yoxluqdan yaranmışdır.

Bu elmi həqiqət Quranda da belə xəbər verilir:

O, göyləri və yeri icad edəndir. (Ənam surəsi, 101)

Aparılan tədqiqatlar və əldə edilən elmi məlumatlar zaman keçdikcə "Böyük Partlayış" nəzəriyyəsini dəstəkləyərək nəzəriyyənin daha da möhkəmlənməsini təmin etdi. Bu həqiqətlərin ortaya çıxmasıyla, kainatın sabit olduğunu, maddənin əzəli və əbədi olduğunu iddia edən nəzəriyyə də öz -özünə çökmüş oldu.

Ancaq əsas təəccüblü məqam, yaradılan bu nəzəriyyənin və onu dəstəkləyən dəlillərin, 1400 il bundan əvvəl Allah tərəfindən göndərilmiş olan ilahi bir kitabın, "Qurani Kərim"in açıqlamalarıyla paralellik göstərməsi idi. Quranda, Biq Bənq nəzəriyyəsinin irəli sürdüyü, başlanğıcda kainatdakı

bütün cisimlərin bir yerdə olduqları və sonradan ayrıldıqları mövzusu belə keçir:

Məgər kafirlər göylərlə yer bir olduğu zaman Bizim onları bir-birindən araladığımızı, hər bir canlını sudan yaratdığımızı görmürlərmi? Yenədəmi inanmırlar? (Ənbiya surəsi, 30)

BÖYÜK PARTLAYIŞDAN (BİQ BƏNQDƏN) BU GÜNƏ KAİNAT



Elm adamlarının kainatın yaranmasıyla əlaqədar apardıqları tədqiqatlar nəticəsində əldə etdikləri bu nəzəriyyənin də göstərdiyi kimi, Allah kainatı yoxdan yaratmışdır. Onun başlanğıc nöqtəsini meydana gətirən Böyük Partlayış, hər cəhətdən insanı düşündürən, təsadüflərlə izah edilə bilməyəcək incə hesablamalarla və təfərrüatlarla doludur. Elm adamları kainatın və onun təməl elementi olan atomların yoxdan meydana gəlməyə başladığı Böyük Partlayışın arxasından meydana gələn hadisələri belə sıralayırlar:

- "0" anı: Nə maddənin, nə də zamanın mövcud olduğu və partlayışın baş verdiyi bu "an", fizikada t=0 anı kimi qəbul edilir (burada t kəmiyyəti zamanı ifadə edir). Yəni t=0 anında heç bir şey yoxdur. Yaradılışın başladığı bu "an"dan əvvəli təsvir edə bilmək üçün fizika qanunları etibarlı deyil. Bu anın sonrası metafizikanın sərhədlərinə daxil olur.

Fizikanın hesablaya bildiyi ən kiçik zaman vahidi 10^{-43} saniyədir. Bu o qədər kiçik bir zaman intervalıdır ki, insan ağlı bunu əsla qavraya bilməz. Bəs görəsən, xəyal belə edə bilmədiyimiz, bu qədər kiçik bir zaman intervalında nələr baş vermişdir? Nəzəri cəhətdən bu intervaldakı fiziki inkişafları hesablayıb təxmin edə bilərik. İndi qısa şəkildə bunlara bir nəzər salaq.

Yuxarıda da ifadə etdiyimiz kimi, fizikada hər şey 10^{-43} saniyədən etibarən hesablana bilir və enerji və zaman ancaq bu andan sonra təsvir edilməyə başlanılır. Yaradılışın bu anında, istilik miqdarı 10^{32} (100.000.000.000.000.000.000.000.000.000.000) dərəcədir. Bir müqayisə aparsaq, günəşdəki istilik miqdarı milyonlarla, günəşdən çox böyük ulduzların istiliyi isə milyardlarla ifadə edilə bilir. Hal-hazırda müəyyən olunmuş ən yüksək temperatur milyard dərəcələrlə məhdudlaşdığı halda, 10^{-43} anındakı temperaturun nə qədər yüksək olduğu mövzusunda bir müqayisə apara bilmək mümkündür.

10^{-43} saniyəlik bu mərhələdən bir pillə irəli gedib, saniyənin 10^{-37} olduğu

zamana gəlirik. Bu iki müddət arasındakı fərq bir-iki saniyə kimi bir an deyil. Saniyənin kvadrilyon vurulsun kvadrilyonda biri qədər bir zaman intervalından bəhs edilir. Temperatur yenə inanılmaz dərəcədə yüksək olub 10^{29} (100.000.000.000.000.000.000.000.000.000˚C) qiymətindədir. Bu mərhələdə atomlar hələ də yaradılmamışdır.

Bir addım daha addayıb 10^{-2} saniyəlik mərhələyə giririk. Bu interval, bir saniyənin yüzdə bir hissəsini ifadə edir. Bu zaman periodu içində temperatur 100 milyard dərəcədir. Bu mərhələdə "ilk kainat" formalaşmağa başlamışdır. Hələ atomun nüvəsini əmələ gətirən proton və neytron kimi zərrəciklər ortalıqda yoxdur. Ortada yalnız elektron və onun əksi olan pozitron (anti-elektron) mövcuddur. Yəni partlayışdan heç 1 saniyə belə keçməmiş, yoxluğun ardından elektron və pozitronlar meydana gəlmişdir.

İndi burada dayanıb bir qədər düşünək.

Böyük Partlayış nəzəriyyəsi, yalnız kainatı meydana gətirən bütün maddələrin yoxluqdan əmələ gəldiyini göstərməsiylə belə, Allahın varlığına aid bir dəlil ortaya qoymuş oldu. Ancaq bununla bitmədi, Böyük Partlayışın ardından hələ 1 saniyə belə keçməmiş, atomun təməl zərrəciklərinin də yoxdan var olduğunu göstərdi. Bu təməl zərrəciklərin sahib olduqları inanılmaz tarazlıq və nizama diqqət yetirmək lazımdır. Sonrakı səhifələrdə daha ətraflı şəkildə izah edəcəyimiz bu tarazlıqlar sayəsində kainat bugünkü vəziyyətindədir və yenə bu tarazlıqlar sayəsində biz həyatımızı rahatlıqla davam etdirə bilirik. Bir sözlə, böyük bir qarışıqlıq və xaos yaratması gözlənilə bilən bir partlayışın arxasından mükəmməl bir nizam, bizim "fizika qanunları" deyə adlandırdığımız və heç vaxt dəyişməyən qanunlar meydana gəlmişdir. Bu isə bizə, Böyük Partlayış da daxil olmaqla, kainatın yaradılmasından etibarən hər anın diqqətlə "dizayn edildiyini" sübut edir. Bu işi görən iradə isə, şübhəsiz ki, bütün kainatın yaradıcısı olan Allahdır.

İndi qaldığımız yerdən baş verən hadisələri izləməyə davam edək. Partlayışdan 1 saniyə sonrasına gəlmişdik. Bu mərhələdəki kütlə sıxlığının dərəcəsinə baxdığımızda, yenə də inanılmaz dərəcədə böyük bir rəqəmlə qarşılaşırıq. Aparılan hesablamalara görə bu mərhələdə mövcud olan kütlənin sıxlığı, hər litrə 3,8 milyard kiloqramdır. Milyard kiloqram kimi ifadə edilən bu rəqəmi, hesabi baxımdan müəyyənləşdirə bilmək və bu rəqəmi kağız üzərində göstərmək asandır. Ancaq, bu göstəricini tam şəkildə qavramaq qeyri-mümkündür. Bu rəqəmin böyüklüyünü daha asan ifadə edə bilmək üçün çox sadə bir nümunə versək; "Himalay dağlarındakı Everest zirvəsi bu sıxlığa malik olsaydı, sahib olacağı cazibə qüvvəsi ilə dünyamızı bir anda uda bilərdi" deyə bilərik. (Taşkın Tuna, Uzayın Sırları, Boğaziçi Yayınları, sf.186.)

Bir mərhələ sonra, t=0 anından sonrakı 10^{-1} saniyə qədər bir zamanın keçdiyi bir ana gəlirik. Bu anda temperatur 30 milyard dərəcədir. t=0 anından bu mərhələyə gələnə qədər hələ 1 saniyə belə keçməmişdir. Ancaq atomun digər zərrəcikləri olan neytron və protonlar artıq meydana çıxmağa başlamışdır. Sonrakı hissələrdə xariqüladə strukturlarını təhlil edəcəyimiz neytronlar və protonlar, məhz bu şəkildə yoxluqdan və "an" dan belə qısa bir

müddət içərisində yaradılmışlar.

Bir sonrakı mərhələnin xarakterik xüsusiyyəti isə temperaturun olduqca aşağı bir göstəriciyə çatmış olmasıdır. Kainat hal-hazırda təxminən 14 saniyəlik bir ömürə malikdir və temperatur da 3 milyard dərəcədir. Kainat çox möhtəşəm bir sürətlə genişlənməyə davam edir.

Hidrogen və helium nüvələri kimi stabil atom nüvələrinin meydana gəlməyə başladığı mərhələ də, məhz bu mərhələdir. Yəni bir proton ilə bir neytron ilk dəfə yan-yana gələ biləcək mühit tapa bilmişlər. Kütlələri varla yox arası olan bu iki zərrəcik fövqəladə bir şəkildə cazibə yaradaraq o möhtəşəm yayılma sürətinə müqavimət göstərməyə başlamışlar. Ortada olduqca şüurlu, nəzarətli bir gediş olduğu bəllidir. İnanılmaz bir partlayışın arxasından, böyük bir tarazlıq, həssas bir nizam meydana gəlməyə başlamışdır. Protonlar və neytronlar bir yerə gəlməyə, maddənin təməl elementi olan atomu formalaşdırmağa başlayırlar. Halbuki, bu zərrəciklərin maddəni meydana gətirə bilmələri üçün lazımi həssas tarazlıqları təmin edəcək bir gücə və şüura sahib olmaları, əlbəttə ki, qeyri-mümkündür. Bu güc və şüur, ancaq onları yoxdan var edən, hər şey özünün istəyi, əmri və nəzarəti altında olan və hər şeyə gücü çatan Allaha aid ola bilər.

Hidrogen Atomu

Sonrakı mərhələdə, kainatın temperaturu 1 milyard dərəcəyə enmişdi. Bu temperatur Günəşin mərkəzindəki temperaturdan 60 dəfə çoxdur. İlk mərhələdən bu mərhələyə qədər keçən müddət cəmi 3 dəqiqə 2 saniyədir. Artıq foton, neytron və anti-neytron kimi atom altı zərrəciklər çoxluq təşkil edir. Bu mərhələdə mövcud olan bütün zərrəciklərin sayı və bir-birləri ilə olan qarşılıqlı təsirləri çox mühümdür. Belə ki, hər hansı bir zərrəciyin sayındakı ən kiçik bir fərq, bunların müəyyənləşdirdiyi enerji səviyyəsini pozacaq və enerjinin maddəyə çevrilməsinin qarşısını alacaq.

Helium Atomu



Məsələn, elektron və pozitronu ələ alaq: Elektron və pozitron bir yerə gələndə enerji meydana gələr. Bu səbəblə də, qarşı-qarşıya gələn elektron və pozitronların sayı çox əhəmiyyətlidir. Tutaq ki, 10 elektron və 8 pozitron qarşı-qarşıya gəlir. Bu vəziyyətdə, 10 elektrondan 8-i, yenə 8 pozitronla qarşılıqlı təsirə girər və enerji meydana gələr. Nəticədə, sərbəst halda 2 elektron qalar. Elektron, kainatın təməl elementi olan atomun tərkib hissələrindən biri olduğu üçün, kainatın mövcud ola bilməsi üçün bu dövrdə lazımi miqdarda elektron olması vacibdir. Bir qədər əvvəlki nümunədən yenidən yola çıxsaq, qarşı-qarşıya gələn elektron və pozitronlardan, əgər pozitronların sayı daha çox olsaydı, nəticədə meydana gələn enerjidən sonra elektronlar əvəzinə pozitronlar artıq qalacaq və maddi kainat əsla meydana gələ bilməyəcəkdi.

Məhz, Böyük Partlayışdan sonra əmələ gələn zərrəciklərin sayı bu qədər incə bir hesabla müəyyənləşdirilir və nəticədə maddi kainat formalaşıb. Prof. dr. Steven Weinberg bu zərrəciklər arasındakı qarşılıqlı təsirin nə qədər vacib olduğunu bu sözləriylə vurğulayır:

"Kainatda ilk bir neçə dəqiqədə həqiqətən də qəti surətdə bərabər sayda zərrəcik və əks zərrəcik meydana gəlmiş olsaydı, temperatur 1.000.000.000 dərəcədən aşağı düşdüyü təqdirdə, bunların hamısı yox olar və şüadan başqa heç nə qalmazdı. Bu ehtimala qarşı çox yaxşı bir dəlil vardır: Mövcud olmağımız. Zərrəcik və antizərrəciklər yox olduqdan sonra hazırkı kainatın maddəsini təmin etməkdən ötrü geriyə bir şeyin qala bilməsi üçün, pozitronlardan bir qədər daha çox elektron, antiprotonlardan bir qədər daha çox proton və antineytronlardan bir qədər daha çox neytron mövcud olmalıydı. (Steven Weinberg, The First Three Minutes, TÜBİTAK Popüler Bilim Kitapları Serisi 1995, sf.84.)

İlk mərhələdən indiyədək cəmi 34 dəqiqə 40 saniyə keçmişdir. Kainatın yaşı artıq yarım saatdır. Temperatur milyard dərəcələrdən enərək artıq 300 milyon dərəcəyə çatmışdır. Elektronlarla pozitronlar bir-birləriylə toqquşaraq enerji meydana gətirməyə davam edərlər. Elektronların sayı pozitronlara nisbətən bir qədər daha çoxdur. Bu çoxluq sonradan kainatdakı protonların sayına bərabər olacaq şəkildə nizamlanmışdır. Çünki daha sonradan yaranacaq atomlarda elektron və proton sayları bir-birinə bərabər olacaq.

Sürətlə bir-birlərindən uzaqlaşan və demək olar ki, kütləsi belə olmayan bu zərrəciklər bir-birlərinin orbitinə daxil olaraq ilk atom olan hidrogen atomunu meydana gətirmələri çox möhtəşəm bir hadisədir. Digər tərəfdən bu zərrəciklərin təsadüfən, təsadüflər nəticəsində bir yerə gəlmələri, üstəlik də hamısının eyni şeyi etmələri qeyri-mümkündür. Bu vəziyyəti açıqlamaq üçün heç vaxt təsadüfdən istifadə edilə bilməz. Ortada çox açıq bir dizayn və nəzarət var. Kainatı təşkil edən, dizayn edən və ona nəzarət edən bu iradə, əlbəttə ki, ancaq bütün kainatın yaradıcısı olan Allahdır.

Bu dizayn yalnız atomda deyil, kainatda ən böyük kütlələrə sahib cisimlərdə də müşahidə edilə bilər. Başlanğıcda bir-birindən işıq sürətiylə ayrılıb uzaqlaşan zərrəciklər yalnız hidrogen atomları ilə meydana gəlməklə kifayətlənməmiş, müasir kainatdakı bütün böyük sistemlər, digər atomlar,

molekullar, planetlər, günəşlər, günəş sistemləri, qalaktikalar, Kuasarlar və s. möhtəşəm bir plan, ölçü və tarazlıq içində sırayla meydana gəlmişlər. Yalnız bir atomun yaranması üçün lazımi zərrəciklərin təsadüfən bir yerə gəlmələri, həssas tarazlıqları meydana gətirmələri belə qeyri-mümkün olduğu halda, planetlərin, qalaktikaların, bir sözlə, kainatdakı bütün sistemlərin hamısının tək-tək təsadüfən meydana gəlib tarazlıqlara sahib olduğunu iddia etmək tamamilə ağılsızlıq və məntiqsizlikdir...

Yalnız yaranması belə bir möcüzə olan hidrogen atomu meydana gəldikdən sonra digər atomlar meydana gəlmişdir. Ancaq, dərhal ağla; "digər atomlar niyə yarandı, niyə bütün proton və neytronlar yalnız hidrogen atomunu meydana gətirmədilər, zərrəciklər hansı atomdan nə qədər meydana gətirəcəklərinə necə qərar verdilər?..." kimi suallar gəlir. Bu sualların cavabı bizi yenə eyni nəticəyə gətirir: Hidrogen atomu və ondan sonra meydana gələn bütün atomların yaranmasında böyük bir qüdrət, nəzarət və dizayn vardır. Bu nəzarət və dizayn insan ağlının hüdudlarını aşan, ortada açıq bir "yaradılış" olduğunu göstərən xüsusiyyətdədir. Böyük Partlayış ilə meydana gələn fizika qanunları, aradan keçən 15 milyard illik bir müddətdə heç bir dəyişikliyə məruz qalmamışdır. Həmçinin bu qanunlar elə dəqiq hesablamalar nəticəsində meydana gətirilmişdir ki, hazırkı qiymətlərindən cüzi sapmalar nəticəsində belə bütün kainatdakı quruluşu və nizamı ortadan qaldıra bilər. Tanınmış fizikaçı prof. Stephen Hawkingin bu mövzuyla əlaqədar sözləri maraqlıdır. Hawking, izah edilən hadisələrin əslində qavraya bilmədiyimizdən xeyli dəqiq hesablamalar üzərinə qurulduğunu belə açıqlayır:

"Əgər Biq Bənqdən bir saniyə sonra genişlənmə nisbəti, 100.000 milyon dəfə milyonda bir qiyməti qədər az olsaydı, kainat artıq genişləməyib öz içinə çökəcəkdi". (Stephen Hawking, Zamanın Kısa Tarihi, Milliyet Yayınları, sf. 9.)

Bu qədər dəqiq hesablamalar üzərinə qurulmuş Böyük Partlayış, zamanın, məkanın və maddənin öz-özünə meydana gəlmədiyini, hər şeyin Allah tərəfindən yaradıldığını açıq şəkildə göstərir. Çünki yuxarıda izah edilən hadisələrin, kor təsadüflər nəticəsində meydana gəlməsi və kainatın təməl elementi olan atomu meydana gətirməsi qeyri-mümkündür.

Necə ki, bu mövzu ilə maraqlanan bir çox elm adamı kainatı yaradan sonsuz bir qüvvət sahibinin varlığını və böyüklüyünü qəbul etmiş vəziyyətdədir. Tanınmış astrofizik Hugh Ross kainatın Yaradıcısının bütün ölçülərdən üstün olduğunu belə açıqlayır:

"Zaman, hadisələrin meydana gəldiyi ölçüdür. Əgər zaman, partlayışla birlikdə meydana gəlmişdirsə, onda kainatı meydana gətirən səbəb kainatdakı zaman və məkandan tamamilə münəzzəh olmalıdır. Bu bizə Yaradanın kainatdakı bütün ölçülərdən üstün olduğunu göstərir. Eyni zamanda Yaradanın, bəzilərinin müdafiə etdiyi kimi kainatın özü olmadığını və kainatı əhatə etdiyini, yalnız kainatın içindəki bir güc olmadığını sübut edir". (Hugh Ross, Beyond The Cosmos, Chapter 17.)

Biq Bənqin ən əhəmiyyətli xüsusiyyəti, nəzəriyyənin insanların Allahın

gücünü daha yaxşı qavramasına imkan verməsidir. Sahib olduğu bütün maddələrlə birlikdə yoxdan meydana gəlməsi Allahın gücünün ən böyük dəlillərindəndir. Partlayış anında meydana gələn enerjinin həssas tarazlığı isə, Allahın elminin sonsuzluğunu düşündürməyə istiqamətli çox böyük bir işarədir.

ATOMUN QURULUŞU

Hava, su, dağlar, heyvanlar, bitkilər, bədəniniz, oturduğunuz kreslo, bir sözlə, ən ağırından ən yüngülünə qədər gördüyünüz, toxunduğunuz, hiss etdiyiniz hər şey atomlardan meydana gəlmişdir. Əlinizdə tutduğunuz kitabın hər bir səhifəsi milyardlarla atomdan ibarətdir. Atomlar elə kiçik zərrəciklərdir ki, ən güclü mikroskoplarla belə bir dənəsini görmək qeyri-mümkündür. Bir atomun diametri ancaq millimetrin milyonda biri qədərdir.

Bir insanın bu kiçik ölçünü gözündə canlandırması qeyri-mümkündür. Buna görə də, bunu bir misalla izah etməyə çalışaq:

Əlinizdə bir açar olduğunu düşünün. Şübhəsiz ki, bu açarın içindəki atomları görməyiniz qeyri-mümkündür. Atomları mütləq görmək istəyirəm deyirsinizsə, əlinizdəki açarı dünyanın ölçülərinə gətirməyiniz lazım gələcək. Əlinizdəki açar dünya ölçüsündə böyüsə, onda açarın içindəki hər bir atom bir gilas böyüklüyünə çatar və siz də onları görə bilərsiniz.

(Jean Guitton, Tanrı ve Bilim, Simavi Yayınları 1993, sf.62.)

Yenə bu kiçik ölçünü qavramaq və hər yerin necə atomlarla dolu olduğunu görə bilmək üçün bir nümunə daha verək:

Bir duz dənəsinin bütün atomlarını saymaq istədiyimizi düşünək. Saniyədə bir milyard (1.000.000.000) atom sayacaq qədər sürətli olduğumuzu da fərz edək. Bu diqqətəlayiq bacarığa baxmayaraq, bu kiçicik duz dənəsinin içindəki atomların sayını tam olaraq müəyyənləşdirə bilmək üçün beş yüz ildən çox bir zamana ehtiyacımız olacaq. (İbid, sf.62.)

Yaxşı, bəs onda bu qədər kiçik bir quruluşun içində nə var?

Bu qədər kiçik olmasına baxmayaraq, atomun içində kainatda gördüyümüz sistemlə müqayisə ediləcək dərəcədə qüsursuz bir sistem var.

Hər atom bir nüvə və nüvədən çox uzaqda yerləşən orbitlərdə fırlanan elektronlardan ibarətdir. Nüvənin içində isə proton və neytron adı verilən başqa zərrəciklər vardır.

Bu hissədə, canlı-cansız hər şeyin təməlini meydana gətirən atomun fövqəladə quruluşunu və atomların necə birləşərək molekullarından ötrü maddəni meydana gətirdiyini araşdıracağıq.

NÜVƏ

Nüvə atomun tam mərkəzində yerləşir və atomun xüsusiyyətinə görə müəyyən sayda proton və neytronlardan ibarətdir. Nüvənin radiusu atomun radiusunun on mində biri qədərdir. Rəqəmlərlə versək; atomun radiusu 10-8 (0,00000001) sm, nüvənin radiusu isə 10^{-12} (0,000000000001) sm qədərdir. Buna görə də nüvənin həcmi atomun həcminin 10 milyardda birinə bərbabər olar.

Bu böyük ölçünü (daha doğrusu kiçik ölçünü) yenə gözümüzdə canlandıra bilməyəcəyimizə görə, gilas nümunəmizdən davam edə bilərik. Bir qədər əvvəl bəhs etdiyimiz kimi əlinizdəki açarı dünya ölçülərinə gətirdiyinizdə ortaya çıxan gilas böyüklüyündəki atomların içində nüvəni axtaraq. Amma bu axtarış boşunadır, çünki belə bir miqyasda da xeyli kiçik olan nüvəni qətiyyən müşahidə edə bilmərik. Həqiqətən bir şey görmək üçün yenidən ölçü dəyişdirmək lazım olacaq. Atomumuzu təmsil edən gilas yenidən böyüyüb iki yüz metr hündürlüyündə böyük bir top olacaq. Bu ağlasığmaz ölçüyə baxmayaraq, atomumuzun nüvəsi yenə də çox kiçik bir toz dənəsindən daha iri vəziyyətə gəlməyəcəkdir. (İbid, sf.62.)

Belə ki, nüvənin 10^{-13} sm olan diametri ilə atomun 10^{-8} sm olan diametrini müqayisə etsək belə bir nəticə ortaya çıxar: Atomu bir kürə şəklində qəbul edərək bu kürəyi tamamilə nüvəylə doldurmaq istədiyimiz halda bu iş üçün 10^{15} (1.000.000.000.000.000) atom nüvəsi lazım gələcək.

(Ümit Şimşek, Atom, Yeni Asya Yayınları, sf.7.)



a) Atom

b) Nüvə, proton və elektronlardan ibarət olan atomun hər hissəsini üçlü bir kvark qrupu meydana gətirir.

c) Üçlü kvark qrupu və onun mərkəzindəki filamentlər.

Ancaq bundan daha təəccüblü bir vəziyyət vardır: Ölçüləri atomun 10 milyardda biri olmasına baxmayaraq, nüvənin kütləsi atomun kütləsinin 99.95%-ni təşkil edir. Bəs bir şey necə olur da bir tərəfdən kütlənin təxminən hamısını meydana gətirərkən, digər tərəfdən də, demək olar ki, heç bir yeri tutmaz?

Bunun səbəbi budur: Atomun kütləsini təşkil edən sıxlıq atomun hər yerinə bərabər şəkildə paylanmammışdır, yəni atomun bütün kütləsi atomun nüvəsində cəmlənmişdir. Tutaq ki, sizin 10 milyard kvadrat metrlik bir eviniz var və bu evin bütün əşyalarını 1 kvadrat metrlik bir otaqda toplamağınız lazımdır. Bunu edə bilərsinizmi? Əlbəttə ki, edə bilməzsiniz. Ancaq atom nüvəsi dünyada tayı-bərabəri olmayan çox böyük bir güc sayəsində bunu edə bilir. "güclü nüvə qüvvəsi" deyə adlandırılan bu qüvvə, proton və neytronları nüvədə toplayır.

Güclü nüvə qüvvəsi, bir atomun nüvəsini bir yerdə saxlayan, onu

dağılmaqdan xilas edən, təbiətdəki qüvvələrin ən güclüsü kimi tanınır. Nüvədəki protonların hamısı müsbət yüklüdür və elektromaqnit qüvvəsindən ötrü bir-birlərini itələyirlər. Lakin güclü nüvə qüvvəsi onların itələmə qüvvəsindən 100 dəfə daha böyük olduğundan, elektromaqnit qüvvə təsirsiz hala gəlir. Beləliklə də, protonlar bir yerdə qala bilir.

Bir sözlə, gözlə görə bilməyəcəyimiz qədər kiçik bir atomun içində, bir-biriylə qarşılıqlı təsir halında olan iki böyük qüvvə vardır. Bu qüvvələrin nisbəti elə həssasdır ki, birinin bir qədər daha az və ya bir qədər daha çox olması atomdakı bütün tarazlıqları alt-üst edər. Buna görə də atomun quruluşu pozular, parçalanar və maddəni meydana gətirə bilməz...

Atomun ölçülərini və kainatdakı atomların sayını nəzərə alsaq, ortada böyük bir tarazlıq və dizayn olduğunu görməmək qeyri-mümkün olar. Belə ki, kainatdakı təməl qüvvələrin çox xüsusi bir şəkildə, böyük bir elmlə və qüdrətlə yaradıldığı qətidir. İnkarçıların bu yaradılışı görməzlikdən gələ bilmələri üçün üz tutduqları tək yol, bütün bunların "təsadüflər" nəticəsində bu hala gəldiyini iddia etməkdir. Halbuki, ehtimal hesabları kainatdakı tarazlıqların "təsadüfən" meydana gəlmə ehtimalının "sıfır" olduğunu elmi şəkildə sübut edir. Bütün bunlar, Allahın varlığının və yaratmasının açıq dəlilləridir.

ATOMDAKI BOŞLUQ

Daha əvvəl də vurğuladığımız kimi, atomun çox böyük bir hissəsi boşluqdan ibarətdir. Yaxşı, bəs onda belə bir boşluq necə o?

İndi belə düşünək: Atom, ən sadə izahatla, içindəki bir nüvə və nüvənin ətrafında fırlanan elektronlardan ibarətdir. Nüvə ilə elektronlar arasında başqa heç bir şey yoxdur. Bu, heç bir şey olmayan mikroskopik həcm atomun ölçülərinə görə çox genişdir. Bu genişliyə belə bir nümunə verək: Diametri 1 sm. olan kiçik bir muncuq nüvəyə ən yaxın yerləşən elektronu təmsil etsə, nüvə bu muncuqdan 1 km. kənarda yerləşəcək. (Taşkın Tuna, Uzayın Ötesi, Boğaziçi Yayınları 1995, sf.53.) Şübhəsiz ki, bu, çox böyük bir boşluqdur. Belə ki, beynimizdə tam olaraq canlandırmaq üçün astrofizik Jean Guittondan bir nümunə verə bilərik:

Təməl zərrəciklər arasında çox böyük bir boşluq var. Əgər bir oksigen nüvəsinin protonunu bu önümdəki masanın üstündə duran sancağın başı kimi düşünsəm- türkcə termin olub, başında kiçik yumruvari cisim olan iynəyə deyilir) başı kimi düşünsəm, onda ətrafında fırlanan elektron Hollandiya, Almaniya və İspaniyadan keçən bir dairə cızar. (Bu sətirlərin müəllifi Fransada yaşayır.) Ona görə də, əgər bədənimi təşkil edən bütün atomlar bir -birlərinə toxunacaq qədər yaxınlaşsaydılar, artıq məni görə bilməzdiniz. Onsuz da, artıq məni heç vaxt gözlə görə bilməzdiniz: Demək olar ki, millimetrin bir neçə mində biri ölçüsündə kiçicik bir toz qədər olardım.

(Jean Guitton, Tanrı ve Bilim, Simavi Yayınları 1993, sf.62.)

Məhz bu məqamda kainatdakı ən böyük məkanla, ən kiçik məkan arasında bir bənzərliyin ortaya çıxdığını görürük. Belə ki, əgər gözlərimizi ulduzlara doğru çevirsək, orada da atomdakı kimi boşluqların olduğunu

görəcəyik. Ulduzlar arasında da, qalaktikalar arasında da milyardlarla kilometrlik boşluqlar mövcuddur. Amma bu boşluqların hər ikisində də insan ağlını aşan, anlama qabiliyyətini aşan bir nizam hakimdir.

NÜVƏNİN İÇİ: PROTON VƏ NEYTRONLAR

1932-ci ilədək nüvənin proton və elektronlardan ibarət olduğunu düşünürdülər. Nüvənin içində protonla birlikdə elektronların deyil, neytronların olduğu ancaq o tarixdə kəşf oluna bildi. Həmin il Çedvik (Chadwick) adlı tanınmış elm adamı neytronun varlığını kəşf edərək Nobel mükafatını qazandı. Beləliklə də, bəşəriyyət yaxın bir tarixdə atomun daxili quruluşu ilə tanış oldu.

Atom nüvəsinin nə qədər kiçik olduğundan daha əvvəl danışmışıq. Atom nüvəsinin içinə yerləşə bilən bir protonun ölçüsü isə 10^{-15} metrdir.

Sizə elə gələ bilər ki, bu qədər kiçik bir zərrəciyin insan həyatında heç bir rolu yoxdur. Ancaq, insan ağlının xəyal belə edə bilmədiyi kiçik olan bu zərrəciklər əslində ətrafınızda gördüyünüz hər şeyin təməlidir.

KAİNATDAKI MÜXTƏLİFLİYİN QAYNAĞI

Bu günə qədər elmə 109 kimyəvi element məlumdur. Bütün kainat, dünyamız, canlı-cansız bütün varlıqlar, bütün bunların hamısı bu 109 elementin müxtəlif formalarda birləşməsindən yaranıb. Bura qədər bütün elementlərin bir-birinin bənzəri olan atomlardan yarandığını gördük; atomlar da öz növbəsində, eyni zərrəciklərdən ibarət idi. Yaxşı, bir halda ki, bütün elementləri əmələ gətirən atomlar eyni zərrəciklərdən ibarətdirlər, onda həmin elementləri fərqli edən, maddəni sonsuz çeşidlərə salan nədir?

Əslində elementləri bir-birindən fərqləndirən amil atomların nüvəsindəki protonların sayıdır. Ən yüngül element olan hidrogen atomunda 1 proton, ikinci yerdə gələn helium atomunda 2 proton, qızıl atomunda 79, oksigendə 8, dəmirdə 26 proton var. Qızılı dəmirdən, dəmiri oksigendən ayıran özəllik də elə budur - atomlardakı protonların sayı. Nəfəs aldığımız hava, vücudumuz, hansısa bitki və ya heyvan, kainatdakı planetlər, canlı-cansız, acı-şirin, duru-qatı... -bunların hamısı nəticədə proton-neytron - elektronlardan əmələ gəlirlər.



1) Karbon-14: 6 proton, 8 neytron
2) Neytron
3) Elektron
4) Proton
5) Neytrino
6) Foton
7) Azot-14: 7 proton, 7 neytron

FİZİKİ VARLIĞIN SƏRHƏDİ - KVARKLAR

Vur-tut 20 il bundan əvvələ qədər atomun ən kiçik tərkib hissələrinin proton və neytronlar olduğu sanılırdı. Ancaq çox yaxın bir tarixdə bəlli oldu ki, onların özləri də daha kiçik zərrəciklərdən ibarətdir.

Bu kəşfdən sonra atomun içindəki “alt zərrəciklər” və onların özünəməxsus hərəkətini öyrənmək üçün elementar zərrəciklər fizikası meydana gəldi. Elementar zərrəciklər fizikası tərəfindən aparılan araşdırmalar göstərdi ki, həqiqətən də, atomu əmələ gətirən proton və neytronlar özləri “kvark” adlanan daha kiçik zərrəciklərdən ibarətdir.

İnsan ağlının qavraya bilməyəcəyi qədər kiçik olan protonu əmələ gətirən kvarkların ölçüsü isə daha da heyrətvericidir:

10^{-18} (0,000000000000000001) metr.

Protonun içindəki kvarklar heç vaxt bir-birlərindən çox uzaqlaşa bilməzlər, çünki onlar arasında rezin bant kimi bir qüvvə var. Kvarkların arasındakı məsafə artdıqca bu qüvvə də şiddətlənir və nəticədə iki kvark bir-birindən ən çox kvadrilyonda bir metr qədər aralana bilir. Kvarklar arasındakı bu rezin bağlar, digər bir zərrəcik növü olan "qlüon"lardır. Kvarklarla qlüonlar bir-birləri ilə son dərəcə sıx əlaqədədir. Ancaq elm adamları hələ ki, bu əlaqənin nəyin sayəsində mümkün olduğunu aydınlaşdıra bilməyiblər.

“Elementar zərrəciklər fizikası” heç dayanmadan zərrəciklər aləmini işıqlandırmaq üçün araşdırmalar aparır. Yaranmasının üstündən minlərlə il keçmiş insan oğlu, sahib olduğu ağıl və şüura baxmayaraq, özüylə birlikdə hər şeyi təşkil edən təməl elementi hələ təzə-təzə kəşf edir. Üstəlik, bu təməl elementin aləminə girdikcə incəliklər daha da artır, insan isə “kvark” adı verdiyi zərrəciklərin 10^{-18} m-lik sərhəddində ilişib qalır. Yaxşı, bəs onda bu sərhəddin o üzündə nələr var?

Bu gün elm adamları qoyulan suala cavab vermək üçün müxtəlif tezislər irəli sürürlər, amma yuxarıda da dediyimiz kimi, həmin sərhəd fiziki kainatın son nöqtəsidir. Bundan o tərəfdəki varlıqlar daha maddə yox, ancaq enerji şəklində mövcud ola bilirlər. Önəmli məsələ isə insanın bütün texnoloji imkanlarına baxmayaraq, yenicə kəşf etdiyi bu məkanda fiziki qanunların dəqiq saat kimi işləməsidir. Üstəlik, bu məkan bütün kainatdakı maddələrin, həmçinin insanın da təməli olan atomun içidir. İnsan isə öz bədənindəki orqanlarda, sistemlərdə daimi işləyən bu qüsursuz mexanizmdən hələ yenicə xəbər tutmağa başlayıb. Bunları təşkil edən hüceyrələrin mexanizmləri isə, ancaq son bir neçə on il ərzində öyrənilmişdir. Hüceyrənin təməlindəki atomların, atomların daxilindəki proton və neytronların və bunların da içindəki kvarkların mexanizmləri isə, inanıb inanmamağından asılı olmayaraq, hamını heyrətə salacaq qədər mükəmməldir. Çox əhəmiyyətli bir məqam isə, bütün bu qüsursuz mexanizmlərin həyatımız boyu heç xəbərimiz belə olmadan, çox müntəzəm şəkildə çalışmasıdır. Bütün bunların üstün bir iradəyə sahib bir Yaradıcı tərəfindən yaradıldığı və Onun tərəfindən də nəzarət altında saxlanıldığı, vicdan sahibi, ağıllı hər adam üçün çox açıq bir həqiqətdir.

ATOMUN DİGƏR TƏRƏFİ: ELEKTRONLAR

Elektronlar nüvənin ətrafında müəyyən orbitlər üzrə dayanmadan fırlanan zərrəciklərdir və nüvəni elektrik yükündən meydana gələn bir zireh kimi əhatə edərlər. Elektronları daha yaxından araşdırma və onlara baxa bilmə imkanımız olsaydı, onların eynilə dünyamız kimi hərəkət etdiklərini görərdik. Bəli; elektronlar eynilə dünyanın günəş ətrafında fırlanarkən eyni zamanda öz ətrafında fırlanması kimi fırlanarlar.

Ancaq, şübhəsiz ki, elektronların böyüklüyü dünyanın böyüklüyündən çox fərqlidir. Əgər bir müqayisə aparmaq lazım gəlsə; bir atomu dünya qədər böyütsək, bir elektron yalnız bir alma ölçüsünə gələcəkdir - deyə bilərik.

(Taşkın Tuna, Uzayın Ötesi, Boğaziçi Yayınları 1995, sf.52.)

Ən güclü mikroskopların belə göstərə bilməyəcəyi qədər kiçik bir sahədə dönüb-dolaşan onlarla elektron atomun daxilində çox qarışıq bir nəqliyyat sıxlığı yaradır. Ancaq, elektronlar atomun içində ən kiçik bir qəzaya yol verməzlər. Üstəlik atomun içində baş verəcək ən kiçik bir qəza atom üçün fəlakət ola bilər, amma atom, öz aqibətini gətirəcək bu fəlakəti heç vaxt yaşamaz və öz varlığını davam etdirir.

Elektronlar atomun içərisində son dərəcə mürəkkəb bir orbitdə hərəkət edərlər. Bu kiçik ərazi şəhər nəqliyyatından qat-qat sıx olsa da, zərrə qədər də nizamsızlıq yaşanmaz.

Nüvənin ətrafında saniyədə 1000 km. kimi ağlasığmaz bir sürətlə heç dayanmadan fırlanan elektronlar, bir dəfə belə bir-birləri ilə toqquşmurlar. Bu vəziyyət, bunların böyük bir nizam içində olduqlarını, bizim "orbit" adını verdiyimiz yollarda hərəkət etdiklərini göstərir. Halbuki, bir-birlərinin eynisi olan elektronların fərqli orbitlərdə hərəkət etmələrinin "dizayn" xaricində bir izahı ola bilməz. Kütlələri və sürətləri bir-birlərindən fərqli planetlərin günəş ətrafında sıralandığı günəş sistemimizdə çox açıq bir dizayn görüldüyü bir halda, tamamilə bir-birinə bənzər elektronların niyə nüvənin ətrafında fərqli orbitlərə sahib olduqları, yollarını azmadan bu orbitlər üzrə hərəkət etdikləri, ağlasığmaz kiçik ölçülərdə ağlasığmaz böyük sürətləriylə necə

toqquşmadıqları sualları bizi bir nöqtəyə aparır. Bu nöqtədə tapacağımız yeganə güc, Allahın qüsursuz yaratmasıdır.

Elektronlar, neytron və protonların demək olar ki, iki mində bir hissəsi qədər kiçik zərrəciklərdir. Bir atomda, protonlarla eyni sayda elektronlar olar və hər elektron hər bir protonun daşıdığı müsbət (+) yükə bərabər ölçüdə mənfi (-) yük daşıyar. Nüvədəki ümumi müsbət (+) yük ilə elektronların ümumi mənfi (-) yükü bir-birini tarazlayır və atom neytral vəziyyətdə olur.

Elektronlar, daşıdıqları elektrik yükü etibarilə bəzi fizika qanunlarına riayət etməlidirlər. Bu fizika qanunları "eyni elektrik yüklərinin bir-birini itələməsi və əks yüklərin bir-birini cəzb etməsi"dir.

İlk növbədə; normal şərtlərdə hamısı mənfi yüklə yüklənmiş elektronlar bu qanuna tabe olub bir-birlərini itələməli və nüvənin ətrafından dağılışıb getməlidirlər. Ancaq vəziyyət belə olmaz. Əgər elektronlar nüvənin ətrafından dağılışsaydılar, bütün kainat boşluqda dolaşan, proton, neytron və elektronlardan ibarət olardı. Bu vəziyyət də təbii olaraq, kainatın sonunu gətirərdi.

İkinci olaraq; nüvə, müsbət yükə sahib olduğu üçün, mənfi yüklü elektronları özünə cəzb etməli və elektronlar da nüvəyə yapışmalıdırlar. Belə bir vəziyyətdə də nüvə bütün elektronları özünə çəkər və atom içinə çökər.

Ancaq bu mənfiliklərin heç biri yaşanmaz! Elektronların bir qədər əvvəl ifadə etdiyimiz (1.000 km/s) fövqəladə hərəkət sürəti, bunların bir-birlərinə tətbiq etdiyi itələyici qüvvə və nüvənin elektronlara tətbiq etdiyi cazibə qüvvəsi o qədər həssas qiymətlər üzərinə qurulmuşdur ki, bu üç zidd amil bir -birini mükəmməl şəkildə tarazlayır. Nəticədə atomdakı bu böyük sistem dağılıb parçalanmadan öz işinə davam edər. Atoma təsir edən bu qüvvələrdən birinin gücünün olması lazım olandan bir az artıq və ya az olması atom deyə bir anlayışın heç vaxt mövcud olmamasına səbəb olardı.

Bu faktorlarla yanaşı, nüvədəki protonları və neytronları bir-birinə bağlayan nüvə qüvvələri olmasaydı, bərabər yükə sahib protonlar nəinki bağlanmaq, hətta bir-birlərinə belə yaxınlaşa bilməyəcəkdilər. Neytronlar da nüvəyə heç bir şəkildə bağlanmayacaqdı. Bunun nəticəsində nüvə, dolayısilə də atom deyə bir şey olmayacaqdı.

Bütün bu dəqiq hesablamalar, tək bir atomun belə öz başına buraxılmayıb üstün bir iradənin idarəsi altında hərəkət etdiyinin bir göstəricisidir. Əks təqdirdə içində yaşadığımız kainatın sonunun gəlməsi qaçınılmaz olardı. Hətta hələ başlanğıcda meydana gəlməsi belə qeyri-mümkün idi. Ancaq hər şeyin Yaradıcısı, sonsuz güc və elm sahibi olan Allah, kainatdakı bütün tarazlıqlar kimi, atomun içində də çox həssas tarazlıqlar qurmuşdur və bu sayədə atom, ehtişamlı nizamı ilə varlığını davam etdirir.

Allahın yaratdığı bu tarazlığın sirri, elm adamları tərəfindən illər boyu araşdırılaraq açılmağa çalışılmış və sonunda müşahidə edilən hadisələrə müxtəlif adlar verilərək guya açıqlanmış sayılmışdır: "Elektromaqnit qüvvə", "güclü nüvə qüvvəsi", "zəif nüvə qüvvəsi", "qravitasiya qüvvəsi", və s. kimi. Ancaq, kitabın girişində də qeyd etdiyimiz kimi, heç kim "Niyə?" sualı

üzərində düşünməmişdir. Məsələn, niyə eyni protonların (bərabər yükə sahib olduqlarından ötrü) bəzən bir-birlərini itələdikləri, bəzən də (bərabər yükə sahib olduqları halda) bir-birlərini qüvvə ilə çəkdikləri elm dünyasında cüzi heyrət ifadələriylə sovuşdurulmuşdur.

Əslində bu vəziyyət fizika qanunları içində məntiqi bir ziddiyyət meydana gətirir. Çünki ümumi bir fizika qanununa görə "bərabər yüklər bir-birlərini itələyir!". Yaxşı, bəs onda niyə bu vəziyyət nüvədə tərsinə işləyir və bir-birlərindən kəskin şəkildə uzaqlaşmalı olduqları halda, niyə bərabər yüklü protonlar, böyük bir güclə bir-birlərini cəzb edib bağlanırlar. Nüvədəki proton da, sərbəst haldakı proton da eyni protondur. Strukturlarında ən kiçik bir fərq yoxdur. Onda itələmə və cəzb etmə qüvvələrinin protonun özündən qaynaqlandığı qəbul edilsə, proton hər dəfə bu iki qüvvədən birini tətbiq etməlidir. Bəzən elektromaqnit qüvvəylə birini itələməsinin, bəzən də nüvə qüvvəsiylə bir-birini cəzb etməsinin fiziki çərçivədə heç bir məntiqi yoxdur. Ətrafda protonun belə müxtəlif şəkillərdə davranmasını tələb edən başqa fiziki faktorlar da yoxdur. Deməli, bu qüvvələr protonun özündən qaynaqlanmır. Ortada tək bir qüvvə var, o da bütün güc və qüdrət özündə olan Allaha aid bir qüvvədir. Allah istədiyi anda istədiyi nöqtədə qüdrətini təzahür etdirir. Müxtəlif zamanlarda, müxtəlif vəziyyətlərdə Allahın qüvvəti müxtəlif formalarda əks olunur. Ən kiçik atomundan ucsuz-bucaqsız qalaktikalara qədər bütün kainat da ancaq Allahın diləməsi və hər an ayaqda saxlaması ilə öz varlığını davam etdirir.

Allah, Quranda özündən başqa qüvvət olmadığını vurğulayarkən (Kəhf surəsi, 39), bunu dərk etməyib də Allahın, qüdrətini özlərində əks etdirdiyi aciz varlıqları (istər canlı, istərsə də cansız olsun), Allah kimi güc və qüvvət sahibi sanaraq, o varlıqlara ilahi xüsusiyyətlər yükləyənlərin aqibətini belə bildirir:

... Kaş zülm edənlər əzabı gördükləri zaman bütün qüdrət və qüvvətin Allaha məxsus olduğunu və Allahın şiddətli əzab verdiyini görəydilər. (Bəqərə surəsi, 165)

Bu günə qədər heç bir elm adamı atomdakı, dolayısilə kainatdakı qüvvələrin səbəbini, qaynağını və nə üçün müəyyən hallarda müəyyən qüvvələrin meydana gəldiyini izah edə bilməmişdir. Elmin etdiyi şey, yalnız həqiqətləri müşahidə etmək və bunları ölçüb bir "ad" qoymaqdır.

Bu cür “ad qoymalar” elm dünyasında böyük kəşflər kimi qiymətləndirilir. Halbuki, elm adamları kainatda yeni bir tarazlıq meydana gətirməyə, yeni bir sistem qurmağa deyil, yalnız kainatda var olan mövcud tarazlığı qavrayıb sirrini açmağa çalışırlar. Edilən şey də əsasən Allahın kainatdakı saysız yaradılış möcüzələrindən birini bir ucundan müşahidə edib buna bir ad verməkdən ibarətdir. Allahın yaratdığı üstün bir sistemi və ya quruluşu kəşf edən, müəyyənləşdirən bir elm adamı müxtəlif elmi mükafatlara layiq görülər, ucaldılar, insanlar arasında özünə heyranlıq bəslənər. Bu vəziyyətdə o quruluşu yoxdan var edən, onu ağlasığmaz dərəcədə həssas tarazlıqlar və mürəkkəb hesablama nümunələriylə təchiz

edən və bunun kimi daha bir çox, fövqəladə xariqələr yaradan bir Yaradıcının nə qədər sonsuz bir tərif və ucaltmağa layiq olduğunu anlamaq heç də çətin deyil.

ELEKTRONLARIN ORBİTİ

Ən güclü mikroskopların belə göstərə bilməyəcəyi qədər kiçik bir sahədə fırlanıb-duran onlarla elektron, daha əvvəl də ifadə edildiyi kimi atomun içində olduqca sıx nəqliyyat hərəkəti yaradır. Ancaq bu, ən nizamlı şəhər nəqliyyat hərəkətindən belə daha nizamlıdır və elektronlar heç bir şəkildə bir -birləriylə toqquşmaz. Çünki elektronların hər birinin ayrı-ayrı orbitləri vardır və bu orbitlər heç vaxt üst-üstə düşmür.

Əsla dəyişməyən bu yeddi orbitdəki elektron sayı da bir riyazi düsturla müəyyənləşdirilmişdir: 2n2. Atomların bütün orbitlərində ola biləcək maksimum elektron sayı məhz bu düsturla sabitlənmişdir (düsturdakı "n", orbitin nömrəsini bildirir).

Kainatı meydana gətirən sonsuz sayda atomun elektron orbitlərinin əsla səhvliyə yol vermədən müəyyən sayda qalmaları bir nizamın göstəricisidir. Hər orbitdəki elektron sayının 2n2 düsturuna uyğun gəlməsi bir nizamın göstəricisidir. Elektronların inanılmaz sürətlə hərəkət edib qarışıqlıq çıxarmamaları da bir nizamın göstəricisidir. Bu elə bir nizamdır ki, heç vaxt təsadüflərlə meydana gəldiyi iddia edilə bilməz. Təsadüf amili heç vaxt belə bir nizamın yaranma səbəbi kimi göstərilə bilməz. Bu nizamın tək etibarlı izahı Quranda bildirildiyi kimi Allahın hər şeyi qüdrətinin bir təcəllisi olaraq nizam və intizam içində yaratmış olmasıdır. Bu nizamdan bəhs edən bəzi ayələri belə sıralaya bilərik:

... Allah hər şey üçün bir ölçü qoymuşdur. (Talaq surəsi, 3)

... O, bütün şeyləri xəlq etmiş və onlara münasib bir biçim vermişdir. (Furqan surəsi, 2)

Onun dərgahında hər şeyin müəyyən ölçüsü vardır. *(Allah)* **qeybi və aşkarı Biləndir, Böyükdür, Ucadır.** (Rad surəsi, 8-9)

Biz yeri döşədik, orada möhkəm dağlar yerləşdirdik və orada hər şeydən lazım olduğu qədər yetişdirdik. (Hicr surəsi, 19)

(Allah) **göyü ucaltdı və tərəzini qoydu.** (Rəhman surəsi, 7)

Günəş və ay müəyyən bir ölçü ilə *(hərəkət edir)***.** (Rəhman surəsi, 5)

... Həqiqətən, Allah hər şeyin haqq-hesabını çəkəndir. (Nisa surəsi, 86)

Ayələrdən aydın olduğu kimi aləmlərin Rəbbi olan Allahın, hər şeyi mükəmməl bir ölçü, hesab və nizam içində yaratma xüsusiyyəti vardır. Bu ölçü və hesab atomun ən kiçik zərrəciyindən kosmosdakı nəhəng göy cisimlərinə, günəş sistemlərinə və qalaktikalara qədər, bunların arasındakılar da daxil olmaqla, bütün varlıqlar aləmini öz içinə alır. Bu da Allahın sonsuz gücünün, elminin, sənətinin və hikmətinin bir nəticəsidir. Allah, yaratdığı varlıqlar və sistemlərdəki mükəmməl ölçü, nizam, tarazlıq və hesablarla bu sifətlərini insanlara tanıdar. Sonsuz qüdrətini gözlər önünə sərər. Məhz bütün

elmi araşdırmalar, hesablamalar insanı bu əsl həqiqətə çatdırmalıdır. Əldə etdiyi məlumatlardan bu ən əhəmiyyətli həqiqətə çata bilməyən elm adamlarının vəzifəsi də, bu həqiqətə çatan insanlar, yəni inananlar üçün, ömürləri boyunca vəsait toplayıb, Rəbbinin ayələrini, varlıq dəlillərini, onları təqdir edə biləcək möminlərin gözləri önünə sərməkdir. Allah özünə inanmadığı halda elmlə məşğul olanları da bu şəkildə möminlərin xidmətinə vermişdir. Eynilə, bir vaxtlar şeytanları və cinləri Hz. Süleymanın xidmətinə verməsi kimi... Məsələn, uzun bir yoldan bir krala, kisələr dolusu qiymətli əşya daşıyan bir dəvənin, atın və ya eşşəyin nə qədər qiymətli bir yük daşıdığını bilməsinin olduqca əhəmiyyətsiz bir şey olduğu kimi. O yalnız özünə yüklənən vəzifəni yerinə yetirmiş, kralına xidmət etmişdir. Həyatlarını elmə həsr etdikləri halda Yaradıcının varlıq dəlillərindən xəbərsiz ateist elm adamlarının vəziyyəti də bu nümunədəkindən elə də fərqli deyil.

DALĞAMI, ZƏRRƏCİKMİ?

Kəşf edildikləri ilk zamanlarda, elektronların zərrəcik olduqları düşünülürdü. Ancaq daha sonra aparılan təcrübələrdə eynilə işıq (fotonlar) kimi dalğa xüsusiyyətlərinə də sahib olduqları ortaya çıxdı.

İşığın, eynilə hovuza atılan bir daşın su səthində əmələ gətirdiyi dalğalar kimi yayıldığı məlumdur. Ancaq işıq, bəzən, sanki maddi zərrəcik xüsusiyyəti daşıyır və pəncərə şüşəsinə vuran yağış damlaları kimi kəsik-kəsik, fasiləli olaraq yayılır. Məhz eyni proses bu dəfə elektronda da yaşandı. Təbiidir ki, bu vəziyyət elm dünyasında böyük bir qarışıqlıq yaratdı. Bu qarışıqlıq tanınmış Nəzəri fizika professoru Richard P. Feynmanın sözləriylə belə aradan qalxdı:

"Elektronların və işığın necə davrandıqlarını artıq bilirik. Necə mi davranırlar? Zərrəciklər kimi davrandıqlarını desəm səhv təəssürat yaratmış olaram. Dalğa kimi davranırlar desəm, yenə eyni şeyi etmiş olaram. Onlar özlərinə məxsus, bənzərsiz bir şəkildə hərəkət edirlər. Buna texniki cəhətdən; "kvant mexaniki davranış forması" deyə bilərik. Bu, daha əvvəl gördüyünüz heç bir şeyə bənzəməyən bir davranış formasıdır..... Bir atom, bir yayın ucuna asılmış, sallanan bir ağırlıq kimi davranmaz. Kiçik planetlərin öz orbitləri üzərində hərəkət etdiyi miniatür bir günəş sistemi modeli kimi də davranmaz. Nüvəni əhatə edən bir bulud və ya duman təbəqəsinə də elə də bənzəməz. Daha əvvəl gördüyünüz heç bir şeyə bənzəməyən bir şəkildə davranır. Ən azından bir sadələşdirmə apara bilərik: elektronlar bir mənada eynilə fotonlar kimi davranırlar; ikisi də "qəribədir", amma eyni şəkildədirlər. Necə davrandıqlarını qəbul etmək bir xeyli xəyal gücü tələb edir; çünki açıqlayacağımız şey bildiyimiz hər şeydən fərqlidir".

(Richard Feynman, Fizik Yasaları Üzerine, Tübitak Yayınları, sf.150.)

Elm adamları, elektronların bu şəkildə davranmalarını heç bir şəkildə izah edə bilmədikləri üçün, çıxış yolu olaraq bu hərəkətə yeni bir ad qoymuşlar: "kvant mexaniki hərəkəti". Bu məqamda görülən fövqəladəliyi və elmin yaşadığı heyrəti yenə professor Feynmanın qələmindən nəql edirik:

"Sizə təbiətin necə davrandığını izah edəcəyəm. Bu şəkildə davrana

biləcəyini qəbul etdiyiniz təqdirdə, o sizə çox sevimli və cazibədar gələ bilər. Əgər edə bilsəniz, özünüzə davamlı "Amma bu necə ola bilər?" deyə sual verməyin; çünki boşuna səy göstərmiş olarsınız; indiyə qədər heç kimin çıxa bilmədiyi çıxmaz küçəyə girərsiniz. Bunun niyə belə olduğunu heç kim bilmir." (İbid, sf.151.)

Ancaq, burada Feynmanın qeyd etdiyi; "çıxılmaz dalan" əslində çıxılmaz deyil. Burada bəzilərinin bir cür işin içindən çıxa bilməməsinin səbəbi, ortadakı açıq dəlillərə baxmayaraq, bu inanılmaz sistemlərin və tarazlıqların dərrakəli və şüurlu bir Yaradıcı tərəfindən yaradıldığını qəbul edə bilməmələridir. Halbuki, vəziyyət olduqca açıqdır: Allah kainatı yoxdan meydana gətirmiş, fövqəladə tarazlıqlara əsaslanan və nümunəsiz şəkildə yaratmışdır. İçindən heç cür çıxıla bilməyən, başa düşülə bilməyən və elm adamlarının hər fürsətdə; "amma bu necə ola bilər?" deyə öz özlərinə verdikləri sualın cavabı, hər şeyin yaradıcısının Allah olmasında yatır.

ELEKTRONLARIN DİGƏR BİR FUNKSİYASI: RƏNGLƏR

Zülmət bir dünyada yaşamaq necə olardı deyə heç düşündünüzmü? Bədəniniz, ətrafınızdakı insanlar, dənizlər, göy, ağaclar, çiçəklər, bir sözlə, hər şeyin qapqara olduğunu gözünüzdə bir canlandırın. Belə bir yer üzündə yaşamağı heç istəməzdiniz, elə deyilmi?.

Yaxşı, bəs onda yer üzünü rəngli edən nədir?. Dünyamızı fövqəladə gözəl edən rənglər necə əmələ gəlir?.

Maddənin quruluşunda iştirak edən, bir qədər sonra görəcəyimiz xüsusiyyətlər bizim maddəni rəngli şəkildə qəbul etməyimizə gətirib çıxarar. Bəli; rənglər, elektronların atom içindəki bəzi hərəkətlərinin bir funksiyası kimi meydana gələr. "Elektronların hərəkətiylə rənglərin nə əlaqəsi ola bilər?" deyə düşünə bilərsiniz. Bu əlaqəni dərhal qısa şəkildə açıqlayaq.

Elektronlar yalnız müəyyən orbitlərdə fırlanarlar. Bu orbitlərin sayının 7 olduğundan bir qədər əvvəl danışmışıq. Hər bir orbit müəyyən bir enerji səviyyəsinə malikdir. Haqqında danışılan bu enerji səviyyəsi orbitin nüvədən olan uzaqlığından asılı olaraq dəyişir. Bir orbit nüvəyə nə qədər yaxındırsa elektronun enerjisi o qədər az, nüvədən nə qədər uzaqdırsa enerjisi o qədər yüksək olar.

Elektronların orbitlərinin hər birinin altında da "alt orbitlər" vardır. Elektronlar, yerləşdikləri orbitin "alt orbitləri" arasında səyahətlər edərlər. Necə mi?

Elektronlar yerləşdikləri alt orbitdən digər bir yüksək enerjili alt orbitə tullanarlar. Bir qədər yüksək enerjili alt orbitdə boş bir yer olanda elektron birdən-birə ortadan yox olar və təəccüblü bir şəkildə həmin yerdə təkrar ortaya çıxar. Ancaq elektron bunu edərkən xaricdən çox əhəmiyyətli bir dəstək alar: Enerji. Elektron yerləşdiyi orbitdən daha yüksək enerjili alt orbitə sıçrayarkən bu iki enerji səviyyəsinin arasındakı fərq qədər kənardan enerji qəbul etmək məcburiyyətindədir. Həmin orbitin tələb etdiyi enerji səviyyəsinə sahib olmadan elektron bu orbitə sıçraya bilməz. Elektronun kənardan qəbul etdiyi enerji "foton"dur.

Rənglər olmasaydı necə bir dünyada yaşayardıq?
Yuxarıdakı iki fərqli bağça şəkli bunu gözümüzdə canlandırmamızı təmin edir.

Foton, ən sadə izahatla; "bir işıq zərrəciyidir"dir. Kainatdakı ulduzların hamısı bir foton mənbəyidir, Dünyamız üçünsə ən əhəmiyyətli mənbə, əlbəttə ki, Günəşdir. Fotonlar Günəşdən saniyədə 300.000 km. sürətlə bütün kosmosa yayılır. Yaxşı, artıq işıq ilə bir qədər əvvəl bəhs etdiyimiz elektronların hərəkətləri arasında necə bir əlaqənin olduğunu dərhal izah edək.

Bir cismin rəngi, həqiqətdə o cisimdən əks olunaraq, gözümüzə gəlib çatan işıqların bir qarışığıdır. Ümumiyyətlə özü işıq yaymayan və günəşdən aldığı işığı əks etdirən bir cismin rəngi, həm aldığı işıqdan, həm də bu işıq üzərində apardığı dəyişiklikdən asılıdır. Ağ işıqla işıqlandırılan cisim "qırmızı" görünürsə, deməli onda, o günəş işığındakı qarışığın böyük hissəsini udur və yalnız qırmızını əks etdirir. Burada "udma"dan nəzərdə tutulan budur:

Yuxarıda da ifadə etdiyimiz kimi atomdakı hər bir orbitin altında bir də alt orbitlər vardır və elektronlar bu alt orbitlər arasında səyahət edərlər. Hər alt orbitin bir enerji səviyyəsi vardır və elektron yerləşdiyi alt orbitin enerji səviyyəsi qədər enerji daşıyar. Orbitlər nüvədən uzaqlaşdıqca enerjiləri də artar. Elektron, yerləşdiyi alt orbitdən yuxarıdakı başqa bir alt orbitdə, 1 elektronluq boş yer olduğunda bir anda yoxa çıxar və yüksək enerjili alt

orbitdə ortaya çıxar. Yalnız elektronun bu hərəkəti edə bilməsi üçün enerjisini keçdiyi alt orbitin tələb etdiyi enerji səviyyəsinə çatdırmalıdır. Elektron öz enerjisini artırmalıdır ki, bunu da foton udaraq edər. Bəli, elektron eynilə bu iki alt orbit arasındakı enerji fərqi qədər enerjiyə sahib işıq zərrəciyi olan fotonu udar. Daha sonra da təkrar əvvəlki orbitinə geri qayıdar. Bu hərəkət daim davam edər...

Günəşdən çox müxtəlif enerji səviyyələrinə sahib fotonlar gəlir. Ancaq, bu fotonlar arasındakı görünən işıq, çox kiçik bir intervalı əhatə edir. Günəşdən gələn işıq zərrəcikləri maddəyə toxunduqda, məhz işığın bir qismi yuxarıda izah etdiyimiz kimi maddə tərəfindən udular, udulmayan digər qisim isə maddəyə dəyib çölə, geriyə əks olunar. Nəhayət, cisimdən əks olunan işıq gözümüzün torlu qişasına düşər. Torlu qişaya düşən bu işıq elektrik cərəyanına çevrilər və beynimizə qədər gəlib çatıb görüntünü meydana gətirər.



Vəziyyəti bir neçə nümunə ilə daha aydın hala gətirə bilərik: Sarı rəngli bir morfo (ingiliscə morpho) kəpənəyini götürək. Kəpənəkdəki pterin adı verilən piqmentlər, sarı rəng istisna olmaqla günəş işığındakı bütün rəngləri udur. Kəpənəyə dəyib kəpənəkdəki piqment molekulunun elektronları tərəfindən udulmadan çölə əks etdirən işıq zərrəcikləri, sahib olduqları enerji sarı rəngi meydana gətirdiyi üçün beynimiz tərəfindən sarı rəng kimi qəbul edilir.

Cismin rəngi, işıq mənbəyindən gələn işığın xüsusiyyətindən və həmin cismin bu işığın nə qədərini geriyə əks etdirdiyindən asılıdır. Məsələn, bir paltarın rəngi, günəş işığında və ya bir mağazada baxıldığında eyni olmur. Əgər bir cisim beynimiz tərəfindən qara rəngli kimi qəbul edilirsə, deməli artıq o, günəşdən gələn işığı udur və geriyə heç işıq əks etdirmir. Eynilə əgər cisim günəşdən gələn işığın hamısını birdən geriyə əks etdirir və heç işıq udulmursa beynimiz tərəfindən o ağ rəngli qəbul edilir. Bu vəziyyətdə üzərində diqqətlə düşünülməsi lazım gələn şeylər bunlardır:

1-Cismin rəngi, işıq mənbəyindən gələn işığın xüsusiyyətlərindən asılıdır.

2-Cismin rəngi, öz quruluşundakı molekulların elektronlarının hərəkətindən, bu elektronların hansı işığı udub hansını udmayacağından asılıdır.

3-Cismin rəngi, torlu qişaya düşən fotonu beynimizin necə qəbul edəcəyindən asılıdır.

Bu şərtlər altında, gördüyümüzün cismin həqiqi halı olduğunu əsla deyə bilmərik. Cismin rəngi mütləq nisbidir və gördüyümüz rəngin hansı mərhələdəki halının həqiqi olduğundan əmin ola bilmərik.

Bu nöqtədə bir dəfə daha dayanıb bir düşünək.

Gözlə görülməyəcək qədər kiçik bir maddə olan atomun nüvəsinin ətrafında inanılmaz bir sürətlə fırlanan elektronlar, yerləşdikləri orbitlərindən bir anda qeybə çəkilib alt-orbit adı verilən digər bir məkana keçirlər. Bu keçid üçün alt-orbitdə boş bir yerin olması da vacibdir. Bu əsnada ehtiyac duyduqları enerjini foton udmaqla təmin edirlər. Sonra əsl orbitlərinə geri qayıdırlar. Bu hərəkət əsnasında insan gözünün qəbul edə biləcəyi rənglər meydana gəlir. Üstəlik sayları trilyonlarla ifadə edilə biləcək qədər çox atom, üstəlik hər saniyə heç dayanmadan bunu edir. Biz də heç kəsilməz bir "görüntü" əldə edirik.

Bu möhtəşəm mexanizm, insanın hazırladığı heç bir mexanizmin işləyişinə bənzədilə bilməz. Məsələn, bir saat özü-özlüyündə çox mürəkkəb bir mexanizmdir və vaxtın düzgün şəkildə işləyə bilməsi üçün bütün hissələrin (çarxlar, dişli çarxlar, vintlər, boltlar, və s.) doğru yerlərdə, doğru şəkildə olması vacibdir. Bu mexanizmdəki ən kiçik bir ləngimə, saatın işləyişinə zərər verər. Lakin atomun quruluşunu və elektronların yuxarıda izah etdiyimiz mexanizmini, işləyişini düşündükdə, bir saatın quruluşu bunun yanında çox əhəmiyyətsiz bir şey kimi qalır. Dediyimiz kimi bu mexanizm insanın meydana gətirdiyi heç bir sistemlə müqayisə edilməyəcək qədər mürəkkəb, mükəmməl və nizamlıdır. Yaxşı, bəs onda olduqca sistemli şəkildə işləyən, heç ləngimədən öz işinə davam edən belə bir sistem öz-özünə, təsadüflər nəticəsində meydana gələ bilərmi?, yaxud belə bir sual verək: Tənha bir səhrada hərəkət edərkən yerdə işləyən bir saat görsəniz, onun toz, torpaq, qum və daşlardan təsadüf nəticəsində meydana gəldiyini düşünərsinizmi?. Bunu heç kim düşünməz, çünki saatdakı dizayn və ağıl hər cəhətdən göz qabağındadır. Halbuki, bir atomdakı dizayn və ağıl, yuxarıda da söylədiyimiz kimi insanın meydana gətirdiyi hər hansı bir mexanizmlə müqayisə edilməyəcək qədər üstündür. Bu ağlın sahibi də böyük elm sahibi, Bilən, Görən və Yaradan Allahdır.

Bu hissədə bizə verilən ən böyük nemətlərdən biri olan rənglərin necə meydana gəldiyini öyrəndik. "Rəng" anlayışının yaranmasından da aydın olduğu kimi, Allah gördüyümüz və görə bilmədiyimiz hər yeri sonsuz bir sənət nümunəsiylə yaratmış və bizim xəbərimiz belə olmadığı halda saysız səbəbi bizim buyruğumuza vermişdir. Daha əvvəldən heç bilmədiyimiz, bəlkə

də, öyrənməyi heç ağlımıza gətirmədiyimiz rənglər mövzusu, elm inkişaf etdikcə bu qədər təfərrüatlı şəkildə bizə çatdırılır. Elmin, ağıl və vicdan sahibi hər insanın Allahın varlığına inanmasına vəsilə olacağı bir həqiqətdir. Bütün bunlara baxmayaraq, kainatın hər nöqtəsində görülən üstün sənət nümunələrini və ağlı görməzlikdən gələn insanlar ola bilər. Tanınmış elm adamı Louis Pasteur bu mövzuyla əlaqədar maraqlı bir şey müyyənləşdirmişdir: "Elmin azı Allahdan uzaqlaşdırır, amma çoxu Ona aparır". (Jean Guitton, Tanrı ve Bilim, Simavi Yayınları 1993, sf.5.)

Budur, bizim də ətrafımızda baş verən saysız hadisəylə əlaqədar məlumatımız artdıqca hər keçən gün Allahın elminə olan heyranlığımız da artır. Bu heyranlıq isə Allahın sonsuz qüdrətini, gücünü mümkün olduğu qədər dərk etmə və dolayısilə Ondan lazım olduğu kimi qorxub-çəkinmə yolunda olan çox əhəmiyyətli bir addımdır. İnsanın texniki məlumatı artdıqca, Allahın özünü hər cəhətdən əhatə etdiyini, göydən yerə hər işi onun nizama qoyduğunu, idarəsi altında saxladığını, canının bir gün mütləq alınacağını və dünyada etdiklərindən ötrü haqq-hesaba çəkiləcəyini qavraya bilər. Quran bu vəziyyəti bir ayədə belə açıqlayır:

Məgər Allahın göydən yağmur endirdiyini və onunla müxtəlif rəngli meyvələr yetişdirdiyimizi görmürsənmi? Dağlarda da müxtəlif rəngli – ağ, qırmızı və tünd qara cığırlar əmələ gətirdik. İnsanlar, heyvanlar və mal-qara arasında da bu cür müxtəlif rəngli olanları vardır. Allahdan Öz qulları arasında ancaq alimlər qorxarlar. Həqiqətən, Allah Qüdrətlidir, Bağışlayandır. (Fatir surəsi, 27-28)

ZƏRRƏCİKLƏRİN PROQRAMLAŞDIRILMIŞ HƏRƏKƏTİ

Buraya qədər, atomu meydana gətirən bütün zərrəcikləri öyrəndik. Bunların bir çox xüsusiyyətlərini gördük. İndi bu zərrəciklərin, daha əvvəl bəhs etmədiyimiz ortaq bir xüsusiyyətini ələ alacağıq: Spin fırlanması.

Atomu meydana gətirən zərrəciklərin öz oxları ətrafında fövqəladə bir sürətlə fırlanmalarına "spin" adı verilir. Zərrəciklərin spin hərəkəti ilk dəfə 1925-ci ildə kəşf edildi və bu fırlanma hərəkəti "Pauli prinsipi" olaraq xatırlanmağa başlandı. Bu prinsipə görə, iki oxşar zərrəcik eyni vəziyyətə sahib ola bilməz, yəni qeyri-müəyyənlik prinsipinin təyin etdiyi sərhədlər çərçivəsində həm eyni mövqedə, həm də eyni sürətdə ola bilməzlər. Bu prinsipi bu şəkildə izah edə bilərik: Atom olduqca kiçik bir quruluşdur və o kiçik quruluşun içində də çox qarışıq nəqliyyat hərəkəti vardır. Bu quruluşu meydana gətirən bir-birinə bənzər zərrəciklərin eyni sürətdə və eyni istiqamətdə hərəkət edəcəkləri təqdirdə, nə baş verəcəyini bir düşünək:

Əvvəlcə protonu əmələ gətirən 3 kvarkı ələ alaq: 3 kvark eyni anda, eyni sürətdə və eyni istiqamətdə hərəkət etdiyi təqdirdə, artıq 3 kvark deyə bir şey qalmaz, hamısı tək bir kvark halını alar. Belə bir vəziyyətdə də protonlar meydana gəlməz və nüvə, yəni dolayısilə atom meydana gələ bilməz. Çünki kvark bir enerjidən ibarətdir. Maddə kimi eyni istiqamətdə və eyni sürətdə hərəkət edən 3 ayrı enerjinin ola bilməsi qeyri-mümkündür. Bunlar bir şəkildə bir - birlərindən ayrılmalıdırlar. Bu da, ancaq hərəkət fərqləriylə

mümkün olar. Ancaq bu şərtlə, kvarklar (enerji paketləri), neytronları və protonları meydana gətirə bilər. Əgər kvarkların hamısı eyni istiqamətdə və eyni sürətdə hərəkət etsəydi, nə protonlar, nə neytronlar, nə də nüvə meydana gələ bilərdi. Nəticə etibarilə də, atomlar, molekullar dolayısilə də maddə mövcud ola bilməzdi...

Göründüyü kimi, "spin" hərəkəti, bu ana qədər gördüyümüz digər xüsusiyyətlər kimi kainatın yaranmasında olduqca mühüm bir əhəmiyyətə malikdir. Prof. Stephen Hawkingin ifadəsiylə desək;

"Əgər dünya, Pauli prinsipi olmadan yaradılsaydı kvarklar, bir-birindən ayrı və dəqiq müəyyənləşmiş proton və neytronları meydana gətirməzdi. Proton və neytronlar da elektronlarla birlikdə atomları meydana gətirməzdi. Hamısı olduqca mükəmməl, qatı bir "şorba" yaratmaq məqsədiylə birlikdə çökərdi". (Stephen Hawking, Zamanın Kısa Tarihi, Milliyet Yayınları, sf.95.)

Elm bu gün atomaltı zərrəciklərin bu hərəkətlərini kəşf etmişdir, amma zərrəciklərin niyə belə hərəkət etdiklərini heç cür açıqlaya bilmir. Bu zərrəciklərin bu şəkildə hərəkət edə bilmələri üçün, onlar bu hərəkətlərinin nəticəsində atom meydana gətirəcəklərini dərk edə bilməlidirlər. Bundan sonra da necə hərəkət edəcəklərinə qərar verməli, yəni bir strategiya müəyyənləşdirməlidirlər. Hansı zərrəciyin, hansı istiqamətdə və hansı sürətdə hərəkət edəcəyi kimi olduqca təfərrüatlı bir strategiyaya ehtiyac vardır və bu strategiyaya müəyyənləşdirilər. Daha sonra sıra, bu strategiyanı kainatı meydana gətirən sonsuz saydakı zərrəciyə çatdırmağa və hamısının bu strategiyaya tabe olmalarına gəlir. Strategiya haqqında məlumat bütün zərrəciklərə çatdırılır və bütün zərrəciklər necə hərəkət etməli olduqlarını öyrənirlər.

İndi, cavablanması lazım olan çox əhəmiyyətli bir sual vardır ki, bu sual da bizi ən başa aparır: Niyə bütün zərrəciklər bu strategiyaya tabe olur, yəni ona itaət edirlər? Niyə bir zərrəcik belə bu strategiyaya tabe olmaqdan qaçınmır? Bütün bu zərrəciklərin, burada saydıqlarımızı tətbiq edə biləcək şüur, ağıl, iradə və zəkalarımı var?

Kütləsi belə olmayan, yalnız enerjidən ibarət olan bu zərrəciklərin, heç şübhəsiz ki, nə özlərinə aid bir ağılları, nə də müstəqil bir iradələri ola bilər. Əsl mövcud olan şey Allahın sonsuz ağlı, sonsuz gücü və sonsuz elmidir. Allah, bütün bu zərrəcikləri özünə tabe etdirmiş və beləliklə də, kainatı yaratmışdır. Bir ayə bu həqiqəti bizə belə bildirir:

... Həqiqətən, göylərdə və yerdə nə varsa, Ona məxsusdur.
Hər şey Ona baş əyir. (Bəqərə surəsi, 116)

MADDƏYƏ GEDƏN İKİNCİ PİLLƏ: MOLEKULLAR

Maddəyə gedən ilk pillə olan atomlardan sonra ikinci pillə də molekullardır. Molekullar, bir maddənin kimyəvi xüsusiyyətlərini bildirən ən kiçik vahidləridir. Molekullar iki və ya daha çox atomdan ibarətdir; bəziləri də minlərlə atom qruplarından ibarətdir. Bütün bu müxtəlifliyi ilə maddə, atomlardan ibarət molekulların müxtəlif formalarda bir yerə gəlmələri ilə meydana gəlmişdir.

Atomların molekulları meydana gətirməsi və ya molekulların bir-birindən ayrılaraq atomlarına ayrılması, ümumiyyətlə "kimyəvi reaksiya" olaraq adlandırılır. Kimyəvi reaksiyalar, laboratoriyalarda aparıldığı kimi, təbiətdə, bədənimizdə, yemək bişirilən bir sobada, paltaryuyan maşınında, atmosferdə və başqa hər yerdə və hər an baş verir. Görəsən atomlar necə və hansı səbəbdən ötrü kimyəvi reaksiyaya daxil olurlar?

Atomları molekulların içində, elektromaqnit təbiətli cazibə qüvvəsinə əsaslanan kimyəvi əlaqələr bir yerdə saxlayar. Hər atomun başqa bir atomla xüsusi bir birləşmə qabiliyyəti vardır. Bu birləşmələr, atomların xarici orbitlərindəki elektronlar vasitəsilə həyata keçirilir. Hər orbitin qəbul edə biləcəyi maksimum elektron sayı sabitdir. Hər atom ən xaricdəki orbitini, qəbul edə biləcəyi maksimum elektron sayına tamamlamağa səy göstərir. Bunun üçün ya ən xarici orbitindəki elektronları maksimum saya tamamlamaq üçün başqa atomlardan elektron qəbul edir, ya da ən xarici orbitində az sayda elektron varsa, bunları digər bir atoma verərək əvvəlcədən tamamlanmış olan bir alt orbiti ən xarici orbiti halına gətirir. Atomların bu ümumi meyli, bir-birləri arasında həyata keçirdikləri kimyəvi reaksiyaların əsas hərəkətverici qüvvəsini təşkil edir. Bir-birlərinin bu istəklərini qarşılıqlı təmin edə biləcək atomlar yan-yana gəldiklərində, eləcə də, lazım olan enerji miqdarı da təmin edildikdə, onlar bəhs etdiyimiz bu mübadiləni həyata keçirirlər. Bu mübadilə nəticəsində aralarında kimyəvi əlaqə qurulur. Atomların öz aralarında belə bir kimyəvi əlaqəylə meydana gətirdikləri quruluşa molekul adı veririk.

Atomun içindəki tarazlıqların, zərrəciklərin bir-biriylə qarşılıqlı təsirləri və atoma təsir edən qüvvələrin öz aralarındakı əlaqələrin biri belə təsadüflə izah oluna bilməz. Təsəvvür edin ki, kainatda mövcud olan hər şey atomlardan meydana gəlmişdir. Bu atomlar elə kiçikdir ki, təkcə bir sancağın ucundakı atomların sayı belə trilyonları keçir. Onda bütün kainatdakı atomların sayı tələffüz belə edilə bilməyəcək bir miqdardadır. Bu qədər çox sayda atomun hər birinin içində, insan ağlının hüdudlarından çox kənara çıxan bir fəaliyyət baş verir. Əlbəttə ki, təsadüflər nəticəsində atomda bu nizamlı fəaliyyət meydana gələ bilməz.

KİMYƏVİ ƏLAQƏLƏR

Bir qədər əvvəl qeyd edildiyi kimi, atomların məqsədi ən uzaqda yerləşən orbitlərindəki elektron sayını maksimuma çatdırmaqdır. Bu məqsədlərini də, digər atomlarla 3 cür əlaqə quraraq həyata keçirərlər. Bunlar ion, kovalent və metal əlaqələridir. Bu əlaqələrin nə kimi xüsusiyyətlərə sahib olduqlarına və

necə qurulduqlarına qısa şəkildə nəzər salaq.

Atom, xarici orbitində 4-dən az elektron olduqda bunları verməyə, 4-dən çox elektron olduqda isə kənardan qəbul etməyə meyl edir. Atomların bu şəkildə bir-birləriylə elektron alış-verişi edərək birləşmələri "ion əlaqəsi" adlandırılar.



1) Na - Natrium Atomu
2) Cl - Xlor Atomu
3) Na+ - Natrium ionu
4) Cl - Xlor İonu
5) NaCl - Natrium Xlorid Molekulu

Natrium atomu son orbitindəki elektronu xlor atomuna verərək, müsbət yüklənər. Elektronu qəbul edən xlor isə mənfi yük sahibi olar. Bu iki yükün bir-birini çəkməsinin nəticəsində də aralarında ion rabitəsi əmələ gələr.

Əgər 2 atom, orbitlərindəki elektronlardan ortaq şəkildə istifadə edərsə buna "kovalent əlaqə" deyilər. Kovalent əlaqənin daha yaxşı başa düşülməsi üçün asan bir nümunə verək: Hidrogen atomunda tək bir elektron vardır. Daha əvvəl elektron orbitlərindən bəhs edərkən də ifadə etdiyimiz kimi, atomların ilk orbitlərində ən çoxu 2 elektron mövcud ola bilər. Hidrogen atomu tək bir elektrona malikdir və elektron sayını 2-yə çatdırıb sabit bir atom olma meylindədir. Buna görə də hidrogen atomu 2-ci bir hidrogen atomuyla kovalent əlaqə yaradır. Yəni, 2 hidrogen atomu bir-birlərinin elektronlarından 2-ci elektron kimi istifadə edər. Beləliklə də, H_2 molekulu meydana gələr.



1) Flüor Atomu
2) Flüor Molekulu (F_2)
3) Hidrogen Atomu
4) Oksigen Atomu
5) Su Molekulu H_2O

Bəzi atomlar son orbitlərindəki elektronları paylaşaraq kovalent bağlarla yeni molekullar əmələ gətirərlər.

Əgər çox sayda atom bir-birlərinin elektronlarından ortaq şəkildə istifadə edərək birləşirlərsə, bu dəfə "metal əlaqə" yaranır.

Görəsən bütün bu əlaqələrlə, neçə fərqli birləşmə əmələ gələ bilər?

Laboratoriyalarda, hər gün yeni-yeni birləşmələr yaradılır. Ancaq hal-hazırda təxminən 2 milyon birləşmədən bəhs etmək mümkündür. (Vlasov Trifonov, 107 Kimya Öyküsü, Tübitak Yayınları, sf.117.) Ən sadə kimyəvi birləşmə, hidrogen molekulu qədər kiçik olduğu kimi, milyonlarla atomdan ibarət olan birləşmələr də vardır.

Bir element ən çox neçə müxtəlif birləşmə əmələ gətirə bilər? Bu sualın

cavabı olduqca maraqlıdır. Çünki bir tərəfdə heç bir elementlə birləşməyən elementlər (təsirsiz qazlar) mövcuddur. Digər tərəfdə isə 1 700 000 birləşmə meydana gətirə bilən karbon atomu mövcuddur. Ümumi birləşmə sayının 2 milyon qədər olduğunu xatırlatsaq, 109 elementin 108-i 300 000 birləşmə əmələ gətirir. Ancaq karbon inanılmaz bir şəkildə tək başına 1 700 000 birləşmə meydana gətirə bilir.



1) atmosfer **2)** hidrosfer **3)** litosfer **4)** H 0,9% **5)** Mg 1,9% **6)** Ca 3,4% **7)** Ti 0,5%
8) Na 2,6% **9)** K 2,4% **10)** Fe 4,7% **11)** O 49,5% **12)** Si 25,8% **13)** Al 7,6%

Kainatın Xammalları və Dövri Cədvəl:

Təbiətdə tapılan 92 ədəd və laboratoriyalarda yaradılmış 17 ədəd fərqli element "Dövri Cədvəl" deyə adlandırılan bir tabloda, proton saylarına görə yerləşdirilmişdir. İlk baxışda; Dövri cədvəl bir və ya iki hərfli, alt və üst künclərində rəqəmlər yazılan qutulardan ibarət kimi görünə bilər. Amma, bu tabloya (cədvələ), hal-hazırda nəfəs aldığımız hava və bədənimiz daxil bütün kainat sığmaqdadır.

CANLI HƏYATININ TƏMƏL ELEMENTİ: KARBON ATOMU

Karbon, canlı həyatı üçün ən mühüm elementdir. Çünki bütün canlı maddələr karbon birləşmələrindən yaranıbdır. Varlığımız üçün bu qədər əhəmiyyətli olan karbon atomunun xüsusiyyətləri haqqında səhifələrlə yazı yazsaq yenə də bitirə bilmərik, necə ki, kimya elmi hələ də bu xüsusiyyətlərin hamısını kəşf edə bilməmişdir. Biz burada karbonun çox əhəmiyyətli bir neçə xüsusiyyətindən bəhs edəcəyik.

Karbonun rekord sayda (1.7 milyon) birləşmə meydana gətirə bilməsinin səbəbi nədir?

Karbonun ən əhəmiyyətli xüsusiyyətlərindən biri, bir-birinin ardınca düzülərək çox asan zəncir meydana gətirə bilməsidir. Ən qısa karbon zənciri 2 karbon atomundan ibarətdir. Ən uzun zəncirin neçə karbon atomundan

ibarət olduğu mövzusunda qəti bir rəqəm verilə bilməz, ancaq təxminən 70 halqalı bir zəncirdən bəhs edilə bilər. (İbid, sf.118.) Karbon atomlarından sonra ən uzun zəncir yarada bilən atomun, cəmisi 6 halqadan ibarət olan silisium atomu olduğunu düşünsək, karbon atomundakı fövqəladə vəziyyət daha yaxşı görülə bilər.

Karbonun bu qədər çox halqalı zəncir yarada bilməsinin səbəbi halqaların ancaq düz xətt şəklində olmamasıdır. Zəncirlər budaqlar halında da ola bilər, çoxbucaqlılar da meydana gətirə bilər.

Bu məqamda zəncirin formasının əhəmiyyəti çox böyükdür. İki karbon birləşməsində, əgər karbon atomunun sayı eyni olub da, birləşmələrin zəncir formaları fərqlidirsə, ortaya 2 fərqli maddə çıxar. Karbon atomunun yuxarıda saydığımız xüsusiyyətləri sayəsində, canlı həyatı üçün çox böyük əhəmiyyəti olan molekullar əmələ gəlir.

ÜÇ OXŞAR MOLEKUL NƏTİCƏSİ: ÜÇ ÇOX FƏRQLİ MADDƏ

Molekullar arasındabir neçə atom fərqi belə çox fərqli nəticələr yaradır. Məsələn, indi verəcəyimiz iki molekula diqqətlə baxın. Hər ikisi çox oxşar görünür, lakin karbon və hidrogenlərin sayında çox kiçik fərqlər var. Ancaq nəticə iki ziddiyyətli maddə yaratmaq üçün kifayətdir:

$C_{18}H_{24}O_2$ **və** $C_{19}H_{28}O_2$

Bu molekulların nə olduğunu təxmin edə bilərsinizmi? Dərhal deyək: Birincisi Estrogen, ikincisi Testosterondur. Başqa sözlə, biri qadın hormonu, digəri isə kişi hormonudur. Bir neçə atom fərqi belə heyrətamiz cins fərqlərinə səbəb olur. İndi verəcəyimiz düstura nəzər salaq:

$C_6H_{12}O_2$

Yuxarıdakı molekul Estrogen və Testosteron hormonlarının molekullarına çox bənzəyir, elə deyilmi? Yaxşı, bu molekul nədir? Başqa bir hormondur?

Dərhal cavab verək: Bu molekul şəkər molekuludur.

Eyni tip elementlərdən ibarət olan bu üç molekul nümunəsində atom saylarının fərqliliyi nə dərəcədə fərqli maddələr əmələ gətirə bildiyi açıq şəkildə görünür. Bir tərəfdə cinsiyyət yaradan hormonlar, digər tərəfdən isə əsas qida maddəsi şəkər var.

YAN-YANA GƏLƏN HƏR ATOM DƏRHAL REAKSİYAYA GİRSƏYDİ NƏ OLARDI?

Bir qədər əvvəl kainatın 109 elementin atomlarının bir-biriylə reaksiyaya girmələri nəticəsində yarandığını demişdik. Burada çox əhəmiyyətli məqam vardır; o da reaksiyanın baş tutması üçün çox əhəmiyyətli bir şəraitin tələb olunmasıdır.

Məsələn, oksigenlə hidrogen hər dəfə bir yerə gələndə su yaranmaz və ya dəmir havayla təmas edən kimi dərhal paslanmaz. Əgər belə olsaydı, sərt və parlaq bir metal olan dəmir, bir neçə dəqiqə ərzində yumşaq bir toz olan dəmir oksidinə çevrilərdi. Vəziyyət belə olmasaydı, yer üzündə metal deyə bir maddə qalmazdı. Çox qəribə bir dünyada yaşayardıq. Yan-yana gələn 2 maddənin atomu dərhal reaksiyaya daxil olardı. Belə olduqda isə, kresloya

belə otura bilməzdiniz. Çünki kreslonu təşkil edən atomlarla bədəninizi meydana gətirən atomlar dərhal reaksiyaya girər və kreslo-insan arası bir varlıq (!) olardınız. Şübhəsiz ki, belə bir dünyada canlı həyatın varlığı haqqında danışmaq belə mümkün olmazdı. Görəsən, belə bir nəticənin baş verməsinə nə mane olur?

Bir nümunə ilə izah etmək lazımdırsa, hidrogen və oksigen molekulları otaq temperaturunda çox ləng reaksiyaya girirlər, yəni "su" otaq temperaturunda çox zəif sürətlə meydana gələr. Ancaq temperatur artdıqca həm molekulların enerjisi, həm də reaksiya sürəti artar, yəni su daha tez əmələ gələr.

Elm adamları bu vəziyyəti izah edə bilmək üçün, "aktivləşmə enerjisi" deyə adlandırdıqları bir anlayış ortaya atmışlar. Bu anlayış, molekulların reaksiyaya girə bilmələri üçün lazımi enerji həddini ifadə edir. Su nümunəsində görüldüyü kimi, hidrogen və oksigen molekullarının reaksiyaya girib suyu meydana gətirə bilmələri üçün, enerjiləri aktivləşmə enerjisindən yüksək olmalıdır.

Təsəvvür edin ki, yer üzündəki temperatur bir qədər daha yüksək olsaydı, atomlar çox tez reaksiyaya girər və təbiətdəki tarazlıq da pozulardı. Ancaq bunun əksi baş versəydi, yəni yer üzündəki temperatur daha aşağı olsaydı, bu vəziyyətdə də atomlar gec reaksiyaya girər və təbiətdəki tarazlıq yenə pozulardı. Buradan da, Dünyanın günəş sistemində tam olaraq canlı həyatına uyğun bir möqvedə yerləşdiyi aydın olur. Əlbəttə ki, canlı həyatı üçün lazım olan həssas tarazlıqlar bununla məhdudlaşmır. Canlılar ancaq, yer oxunun əyriliyi, yerin kütləsi, səthinin sahəsi, atmosferindəki qazların nisbəti, təbii peyki aya olan məsafəsi və daha saya biləcəyimiz bir çox şey, yalnız və yalnız hazırkı qiymətlərinə sahib olduğu təqdirdə yer üzündə yaşaya bilərlər. Buradan da, bütün bu amillərin bir-biri ardınca baş verən təsadüflərlə meydana gəlməyəcəyi, hamısının canlıların bütün xüsusiyyətlərini bilən üstün bir qüdrət tərəfindən şüurlu bir şəkildə yaradıldığı aydın olur.

Şübhəsiz ki, elmin bu məqamda verdiyi cavab, üz-üzə olduğu fizika qanunlarına bir ad taxmaqdan ibarətdir. Ən başda da ifadə etdiyimiz kimi bu cür hadisələrdə nə? necə? və nə cür? kimi sualların verilməsinin elə də bir əhəmiyyəti yoxdur. Bu suallarla, ancaq mövcud bir qanunun təfərrüatlarını öyrənə bilərik. Bu qanunun nə üçün və kim tərəfindən yaradıldığı elm baxımından yenə bir müəmma olaraq qalır.

Məhz elmin cavab verə bilmədiyi bu məqamda, ağlı və vicdanıyla baxan bir göz üçün vəziyyət olduqca aydındır: Təsadüflərlə izah olunması heç bir şəkildə mümkün olmayan kainatdakı qüsursuz tarazlıq, üstün bir ağlın və iradənin diləməsi nəticəsində meydana gəlmişdir.

MÖCÜZƏVİ BİR MOLEKUL: SU

Dünyamızın üçdə iki hissəsi su ilə örtülmüşdür və yer üzündə yaşayan bütün canlıların 50-95%-i sudan ibarətdir. Qaynama nöqtəsinə yaxın istiliyə malik bulaqlarda yaşayan bakteriyalardan tutmuş, əriməkdə olan buzların üzərindəki bəzi yosunlara qədər, suyun olduğu hər yerdə və hər temperaturda

həyat var. Yağışdan sonra yarpaqların üzərində qalan bir su damlasında belə minlərlə mikroskopik canlı yaşayır, çoxalır və ölür.

Yer üzündə heç su olmasaydı, o necə görünərdi? Şübhəsiz ki, hər yer səhralardan ibarət olardı, dənizlərin yerində dibsiz və ürküdücü çuxurlar mövcud olardı. Səma da buludsuz və çox qəribə şəkildə görünərdi.

Yer üzündəki həyatın təməli olan suyun yaranması isə əslində olduqca çətindir. Əvvəlcə zehnimizdə, suyun komponentləri olan hidrogen və oksigen molekullarının bir şüşə qabın içində olduğunu canlandıraq. Onları o qabın içində çox uzun bir müddət saxlayaq. Bu qazlar qabın içində yüzlərlə il belə heç su meydana gətirməyə bilər və ya çox yavaş şəkildə, məsələn, minlərlə il sonra qabın dibində çox az miqdarda su olduğu görülə bilər.



Belə bir vəziyyətdə suyun bu qədər yavaş meydana gəlməsinin səbəbi temperaturdur. Otaq temperaturunda oksigenlə hidrogen çox ləng reaksiyaya girir.

Oksigen və hidrogen sərbəst halda H_2 və O_2 molekulları halında olurlar. Bu molekullar su əmələ gətirmək məqsədiylə birləşmək üçün bir-birləriylə toqquşmalıdırlar. Bu toqquşma nəticəsində, hidrogen ilə oksigen molekulunu meydana gətirən əlaqələr zəifləyir və oksigen ilə hidrogen atomlarının birləşməsi üçün bir mane qalmır. Temperatur, bu molekulların enerjisini, dolayısilə sürətlərini artırdığı üçün, toqquşmalarının sayını da böyük ölçüdə artırar. Beləliklə də, reaksiyanın sürətlə baş verməsini təmin edər. Ancaq, hal-hazırda yer üzündə suyun meydana gəlməsini təmin edəcək qədər yüksək

temperatur yoxdur. Suyun meydana gəlməsi üçün lazım olan temperatur, dünya yaranarkən təmin edilmiş və dünyanın dörddə üç hissəsini meydana gətirən su o vaxt meydana gəlmişdir. Artıq bu su buxarlanaraq atmosferə qalxır, oradan da yağıntı halında yenidən yer üzünə qayıdır. Yəni mövcud miqdarda dəyişiklik olmaz, yalnız bir çevrilmə prosesi baş verər.

Su, kimyəvi cəhətdən çox inanılmaz xüsusiyyətə malikdir. Hər su molekulu hidrogen və oksigen atomlarının birləşməsindən əmələ gəlmişdir. Bir yandırıcı və bir yanan qazın birləşərək bir mayeni, özü də suyu meydana gətirməsi olduqca maraqlıdır.

Kimyəvi cəhətdən suyun necə meydana gəldiyinə gəldikdə isə; suyun elektrik yükü sıfırdır, yəni o neytraldır. Ancaq oksigen və hidrogen atomlarının böyüklüklərindən ötrü su molekullarının oksigen tərəfi bir az mənfi, hidrogen tərəfi isə bir az müsbət yüklüdür. Birdən çox su molekulu birləşdikdə müsbət və mənfi yüklər bir-birini cəzb edərək "hidrogen əlaqəsi" deyilən çox xüsusi bir əlaqəni meydana gətirərlər. Hidrogen əlaqəsi çox zəif bir əlaqədir və davam etmə müddəti, qavraya bilməyəcəyimiz qədər qısadır. Bir hidrogen əlaqəsinin davam etmə müddəti, təxminən bir saniyənin yüz milyardda bir hissəsi qədərdir. Amma əlaqələrdən biri qopduqda dərhal digər bir əlaqə meydana gələr. Beləliklə də, su molekulları bir-birlərinə yapışar və digər tərəfdən zəif bir əlaqə bir-birlərinə bağlandıqlarından axıcı olarlar.

Hidrogen əlaqəsinin suya qazandırdığı digər bir xüsusiyyət də, suyun temperatur dəyişikliklərinə müqavimət göstərməsidir. Havanın temperaturu qəfildən artsa belə suyun temperaturu yavaş-yavaş artır, eynilə havanın temperaturu qəfildən düşsə belə suyun temperaturu yavaş-yavaş düşər. Suyun temperaturunun əhəmiyyətli dərəcədə dəyişə bilməsi üçün çox böyük miqdarda istilik enerjisinə ehtiyac vardır. Suyun istilik enerjisinin bu qədər yüksək olmasının canlı həyatına təmin etdiyi çox böyük faydalar var. Çox sadə bir nümunə verməli olsaq, bədənimizdə çox böyük nisbətdə su olduğunu deyə bilərik. Su əgər havanın temperaturunun ani eniş və yüksəlişlərinə eyni dərəcədə tabe olsaydı bədən temperaturumuz qəfildən yüksələr və ya qəfildən donardıq.

Eynilə, suyun buxarlanması üçün də çox böyük bir istilik enerjisinə ehtiyac vardır. Su buxarlanarkən çox yüksək miqdarda istilik enerjisi istifadə etdiyi üçün, onun temperaturunda azalma baş verir. Yenə insan bədənindən bir nümunə verməli olsaq; bədənimizin normal temperaturunun 36 dərəcə və dözə biləcəyimiz ən yüksək bədən temperaturunun isə 42 dərəcə olduğunu deyə bilərik. Aradakı bu 6 dərəcəlik interval çox kiçik bir intervaldır və bir neçə saat günəş şüaları altında işləmək bədən temperaturunu bu qədər artıra bilər. Ancaq bədənimiz tərləyərək, yəni daxilindəki suyu buxarlandıraraq böyük miqdarda istilik enerjisi sərf edər və bədən temperaturu azalar. Bədənimiz avtomatik şəkildə çalışan belə bir mexanizmə sahib olmasaydı, bir neçə saat günəş şüaları altında işləmək belə bizim üçün öldürücü təsirə malik olardı.

Hidrogen əlaqəsinin suya qazandırdığı digər bir inanılmaz xüsusiyyət,

suyun maye halında olarkən, bərk halına nisbətən daha yüksək sıxlığa malik olmasıdır. Halbuki, yer üzündəki maddələrin əksəriyyəti bərk halda olarkən, maye halına nisbətən daha yüksək sıxlıqdadır. Ancaq, su digər maddələrin əksinə donarkən genişlənir. Bunun səbəbi hidrogen əlaqələrinin su molekullarının bir-birlərinə möhkəm şəkildə bağlanmasına mane olması və arada bir çox boşluğun qalmasıdır. Su maye halında olanda hidrogen əlaqələri qopduğundan oksigen atomları bir-birinə yaxınlaşır və daha sıx bir quruluş əldə edilir.

Bu vəziyyət həmçinin buzun sudan daha yüngül olmasına da gətirib çıxarar. Normalda hər hansı bir metalı əridib, içinə eyni metalın parçalarını atsanız, bu parçalar dərhal dibə çökər. Ancaq suda vəziyyət fərqlidir. On minlərlə ton ağırlığındakı aysberqlər suyun üzərində göbələk kimi üzürlər. Yaxşı, bəs onda suyun bu xüsusiyyətinin nə kimi bir faydası ola bilər?

Bu sualı bir çay nümunəsi ilə cavablandıraq: Havalar çox soyuduqda çaydakı suyun hamısı deyil, yalnız səthindəki su donar. Su, +4 dərəcədə maksimal ağırlığa malik olar və beləliklə də, o dərhal dibə çökər. Suyun üzərində "təbəqə halında buz" meydana gələr. Su bu təbəqənin altında axmağa davam edər və +4 dərəcə canlıların yaşaya biləcəyi temperatur olduğu üçün aşağı qatdakı canlılar həyatlarını davam etdirərlər.

Buraya qədər bəhs etdiyimiz, Allahın suya verdiyi bu möhtəşəm xüsusiyyətlər; yer üzündə canlı həyatının mövcud ola bilməsinə imkan verən xüsusiyyətlərdir. Aşağıdakı ayədən də göründüyü kimi, üstün bir yaradılış nümunəsi olan su, Allah tərəfindən insanın ehtiyaclarının qarşılanması məqsədiylə göydən nazil edilmişdir. Quranda Allahın insanlara bəxş etdiyi bu böyük nemətin əhəmiyyəti belə bildirilmişdir:

Göydən suyu endirən Odur. Bu, həm sizin içməyiniz, həm də içində *(mal-qaranızı)* **otardığınız** *(otların bitməsi)* **üçündür.** *(Allah)* **onunla sizin üçün dənli bitkilər, zeytun, xurma, üzüm və** *(başqa)* **meyvələrin hamısından yetişdirir. Həqiqətən, bunda anlayan adamlar üçün dəlillər vardır.** (Nəhl surəsi, 10-11)

SUYUN KİMYA QANUNLARINI ALT-ÜST EDƏN XÜSUSİYYƏTİ

Hamımızın bildiyi kimi, su 100 dərəcə temperaturda qaynayar və 0 dərəcə temperaturda donar. Ancaq, normal şərtlərdə su, 100 dərəcə temperaturda deyil, -80 dərəcə temperaturda qaynamalı idi. Nə üçün?

Dövri cədvəldə eyni qrupdakı elementlərin xüsusiyyətləri, yüngül elementdən ağır elementə doğru nizamlı surətdə dəyişir. Bu nizam, xüsusilə də hidrogen birləşmələrində hakimdir. Dövri cədvəldə oksigenin yerləşdiyi qrupda olan elementlərin birləşmələri hidrit deyə adlandırılır. Su, əslində oksigen hidritdir. Bu qrupdakı digər elementlərin hidritləri də su molekulu ilə eyni molekul quruluşuna sahibdirlər.

Bu birləşmələrin qaynama temperaturları kükürddən başlayaraq, daha ağır elementlərə doğru mütəmadi surətdə dəyişər; ancaq gözlənilməz bir şəkildə suyun qaynama temperaturu bu qanundan kənara çıxar. Su (oksigen hidriti) olması lazım olandan 180 dərəcə daha yüksək temperaturda

qaynayar. Digər bir təəccüblü vəziyyət də suyun donma temperaturu ilə əlaqədardır: Yenə də dövri sistemdəki nizama görə, su -100 dərəcə temperaturda bərk hala gəlməlidir. Ancaq su bu qaydanı pozur və olması lazım olandan 100 dərəcə yüksək temperaturda, yəni 0 dərəcə də buz halına gəlir.

Əgər su, dövri sistemdəki nizama uyğun hərəkət etsəydi, yer üzündə yalnız buxar halında mövcud olardı. Bu məqamda; nə üçün hidritlərin başqa biri deyil də, yalnız suyun (oksigen hidritlərin) dövri sistem qanunlarına tabe olmadığını sualı ağla gəlir.

İstər fizika, istərsə də kimya qanunları yaxud da qanun kimi xarakterizə etdiyimiz nə varsa, bunların hamısı, insanların, kainatdakı fövqəladə tarazlığın və yaradılışın səbəbini izah etmə səylərindən başqa bir şey deyildir. Bu qanunlar, hər nə qədər təmtəraqlı adlarla danışılsa da, bu adlar bu qanunların həqiqətən işlədiyini sübut etməz. Necə ki, bir qədər əvvəl ələ aldığımız kimi, "su" kainatda canlı həyatın mövcud ola bilməsinə ən uyğun və kimya qanunlarını alt-üst edəcək şəkildə yaradılmışdır. Aşağıdakı ayədə də bildirildiyi kimi, Allah, göydə və yerdə olanların hamısını bizə ram etmişdir. "Su" da buna çox gözəl bir nümunədir.

Göylərdə və yerdə olanların hamısını O, sizin xidmətinizə vermişdir. Həqiqətən, bunda düşünən adamlar üçün dəlillər vardır. (Casiyə surəsi, 13)

QORUYUCU TAVAN: OZON

Tənəffüs etdiyimiz hava, yəni troposfer təbəqəsi böyük miqdarda oksigen qazından ibarətdir. Burada oksigen deyərkən nəzərdə tutduğumuz şey O_2 qazıdır. Yəni oksigen molekulları 2 atomdan meydana gəlmişdir. Ancaq, oksigen molekulu bəzən 3 atomdan da əmələ gələ bilər. Bu vəziyyətdə bu molekul artıq oksigen deyil "ozon" deyə adlandırılar, çünki bu iki qaz bir-birlərindən çox fərqlidir.

Dərhal burada qeyd olunması lazım olan bir məqam vardır: Niyə iki oksigen atomu birləşdikdə "oksigen qazı", üç oksigen atomu birləşdikdə isə "Ozon" deyə fərqli bir qaz meydana gəlir? Nəticədə iki də olsa, üç də olsa birləşən oksigen atomları deyildirmi? Onda, niyə iki fərqli qaz meydana gəlir? Bu sualı cavablandırmadan əvvəl, bu iki qazın nə cəhətdən fərqli olduqlarını ələ alıb, sonra bu sualı cavablandırmaq daha məqsədə uyğun olar:

Oksigen qazı (O_2) troposferdə mövcud olur və tənəffüs yolu ilə yer üzündəki bütün canlılara həyat verir. Ozon (O_3) isə, zəhərli və çox pis qoxulu bir qazdır. Atmosferin ən yuxarı təbəqələrində olur. Əgər, oksigen qazı əvəzinə ozon qazı udma məcburiyyətində qalsaydıq heç birimiz yaşaya bilməzdik.

Ozon qazı, ozonosferdə yerləşir; çünki orada canlı həyatı üçün çox mühüm bir funksiya yerinə yetirir. Atmosferin təxminən 20 km. hündürlüyündə bütün dünyanı bir zolaq kimi bürüyüb-əhatə edən bir təbəqə meydana gətirir. (Taşkın Tuna, Uzayın Ötesi, Boğaziçi Yayınları 1995, sf. 88.) Beləliklə də, Günəşdən gələn infraqırmızı şüaları udaraq, onların yer səthinə tam bir güclə çatmalarının qarşısını alar. İnfraqırmızı şüalar çox yüksək enerjiyə sahib

olduqları üçün yer səthinə bu şəkildə çatarlarsa, yer üzündəki hər şey yanar və dünyada həyat mövcud ola bilməz. Məhz buna görə də ozon təbəqəsi atmosferdə qoruyucu bir zireh funksiyasını yerinə yetirir.

Yer üzündə canlı həyatın mövcud olması üçün, tənəffüs edə bilməli və zərərli günəş şüalarından qorunmalıdır. Həmçinin bu sistemi meydana gətirən yalnız və yalnız, hər atoma, hər molekula hakim olan Allahdır. Allahın izni olmadan heç bir güc bu atomları oksigen və ozon qazı molekulları olaraq bir yerə gətirə bilməzdi. Yenə Allahın izni olmadan heç bir güc oksigen qazını troposferdə, ozon qazını isə ozonosferdə saxlaya bilməzdi.

DADDIĞIMIZ VƏ QOXULADIĞIMIZ MOLEKULLAR

Dad və qoxu hissləri, insanın dünyasını gözəlləşdirən hisslərdir. Bu hisslərdən alınan zövq çox qədim dövrlərdən bəri maraq mövzusu olmuş və bunların əslində molekullar arası qarşılıqlı təsir olduqları son vaxtlarda kəşf edilmişdir.

Dad və qoxu dediyimiz hisslər, əslində müxtəlif molekullardan başqa bir şey deyil. Məsələn, vanil qoxusu, müxtəlif meyvə və çiçək qoxularının hamısı uçucu molekullardan ibarətdir. Atomlar bir tərəfdən canlı və cansız maddəni meydana gətirərkən, digər tərəfdən də maddəyə ləzzət verirlər. Yaxşı, bəs onda bu necə baş verir?



Sağdakı şəkil pis qoxu molekuluna, soldakı şəkil isə yaxşı bir qoxu molekuluna aiddir. Gördüyünüz kimi, yaxşı qoxunu pis qoxudan fərqləndirən, gözlə görülməyən aləmdəki bu kiçik fərqlərdir.

Vanil qoxusu, gül qoxusu kimi uçucu molekullar, burnun epitel toxuması adlanan nahiyəsindəki titrək tükcüklərdə yerləşən reseptorlara gəlib çatırlar və bu reseptorlarda qarşılıqlı təsirə girərlər. Bu qarşılıqlı təsir beynimizdə qoxu kimi qavranılır. 2-3 cm^2-lik bir qoxu (olfaktor) epiteli ilə örtülmüş burun boşluğumuzda indiyə qədər yeddi növ fərqli reseptor aşkarlanıb. Bu reseptorlardan hər biri müəyyən bir qoxunu qəbul edər. Eynilə insan dilinin ön tərəfində də dörd fərqli növdə kimyəvi reseptor vardır. Bunlar duzlu, şəkərli, turş və acı dadları qəbul edər. Məhz bütün duyğu orqanlarımızın reseptorlarına gəlib çatan molekullar beyin tərəfindən kimyəvi siqnallar halında qəbul edilir.

Hal-hazırda dad və qoxunun necə qəbul edildiyi mövzusu kifayət qədər başa düşülüb, amma elm adamları niyə bəzi maddələrin çox, bəzi maddələrin az iy verdiyi, bəzilərinin dadlarının gözəl və bəzilərinin də pis olduğu mövzusunda ortaq bir fikrə gələ bilmirlər.

Bir düşünək. Qəhvəyi rəngli, özünə məxsus pis bir qoxusu olan torpaqda yüzlərlə növdə, gözəl qoxulu və ləzzətli meyvələr bitir və ya minlərlə rəng, forma və qoxuya sahib çiçəklər əmələ gəlir. Heç bir qoxunun, heç bir ləzzətin olmadığı bir dünyada da yaşaya da bilərdik. Ləzzət və qoxu anlayışını bilmədiyimizdən ötrü də, bu hisslərə sahib olmağı istəmək, heç

ağlımıza belə gəlməzdi. Atomlar bir tərəfdən maddəni yaratmaq üçün fövqəladə bir şəkildə birləşdikləri halda, niyə dad və qoxunu yaratmaq üçün də ayrıca olaraq birləşmirlər? Dad və qoxunun mövcud olması insanlar üçün təməl bir ehtiyac deyil. Amma möhtəşəm bir sənətin məhsulu kimi, dünyamıza tam fərqli bir ləzzət verər.

Digər canlılarla müqayisə etsək, bəzi canlıların yalnız ot, bəzilərinin də daha fərqli maddələr yediklərini görərik. Şübhəsiz ki, bunların nə gözəl bir qoxuları, nə də gözəl bir ləzzətləri vardır. Əlbəttə ki, biz də onlar kimi təkcə bir növ qidayla bəslənə bilərdik. Ömrünüzün sonuna qədər yalnız tək bir növ yemək yeməyiniz və yalnız su içməyiniz həyatınız necə olardı?

Bu baxımdan rəng və qoxu, digər bütün nemətlər kimi, sonsuz lütf və kərəm sahibi Yaradanın insana qarşılıqsız bəxş etdiyi nemətlərindəndir. Yalnız bu iki hissin olmaması belə insan həyatını böyük ölçüdə maraqsız hala gətirərdi. Özünə verilən bütün bu nemətlər müqabilində insana düşən vəzifə isə, özünü hər cəhətdən əhatə edən belə sonsuz bir lütf qarşısında Rəbbinə lazım olduğu kimi təşəkkür edərək, Onun istədiyi kimi bir qul olmağa çalışmaqdır. Belə bir münasibət qarşısında Rəbbi ona, bu dünyada yalnız nümunələrini verdiyi nemətlərin daha yaxşısını və tükənməz olanını özündə saxlayan əbədi bir həyatı vəd edir. Əksinə, yəni nankor, laqeyd, Allahdan xəbərsiz şəkildə keçirilən bir həyatın qarşılığı isə, şübhəsiz ki, yenə bu münasibətə layiq ədalətli bir qarşılıq olacaq:

O zaman Rəbbiniz bildirmişdi: "Əgər şükür etsəniz, sizə *(olan nemətimi)* **artıraram, yox əgər nankorluq etsəniz,** *(bilin ki,)* **Mənim əzabım şiddətlidir".** (İbrahim surəsi, 7)

MADDƏNİ NECƏ QAVRAYIRIQ?

Buraya qədər oxuduqlarımız maddi varlığın heç də zənn etdiyimiz kimi olmadığını göstərdi. Bəli, maddə hesab etdiyimiz şey, əslində bir enerji topasından, nəhəng bir boşluqdan başqa bir şey deyil. Öz bədənimiz, otağımız, evimiz, hətta dünya və bütün kainat əslində bir enerji buludundan ibarətdir. Onda, ətrafımızdakı bu qədər şeyi gözlə görünən və əllə tutulan vəziyyətə gətirən nədir?

Ətrafımızdakıları maddə kimi qavramağımızın səbəbləri, atomların orbitlərindəki elektronların fotonlarla toqquşmaları, atomların bir-birlərini itələmələri və ya cəzb etmələridir.

Hal-hazırda əlinizdə tutduğunuzu zənn etdiyiniz kitabı əslində tutmursunuz. Əslində əlinizin atomları kitabın atomlarını itələyir və bu itələmənin dərəcəsinə görə də toxunma hissi yaranır. Çünki atomların quruluşundan bəhs edərkən qeyd etdiyimiz kimi, atomlar bir-birinə maksimum bir atomun diametri qədər yaxınlaşa bilərlər. Həmçinin bir-birlərinə bu qədər yaxınlaşa bilən atomlar, ancaq birlikdə reaksiyaya girən atomlardır. Bu halda, eyni maddənin atomları belə bir-birinə qətiyyən toxuna bilməyəcəkləri halda, biz əlimizlə tutduğumuz, sıxdığımız və ya tutub göyə qaldırdığımız maddəyə heç toxuna bilmərik. Üstəlik, əlimizdəki maddəyə maksimum dərəcədə yaxınlaşmağımız mümkün olsaydı belə, bu

maddəylə kimyəvi reaksiyaya girərdik. Belə bir vəziyyətdə insan və ya başqa bir canlı bir saniyə belə yaşaya bilməzdi. Canlı ayaq basdığı, oturduğu və ya dayandığı maddə ilə dərhal kimyəvi reaksiyaya girər və qəribə bir varlığa çevrilərdi.

Bu vəziyyətdə ortaya çıxan mənzərə olduqca düşündürücüdür: Əslində, 99,95%-i boş olan və demək olar ki, enerjidən ibarət olan atomlardan ibarət olan bir dünyada yaşayırıq. (İbid, sf.166.) "Toxunuruq və tuturuq" dediyimiz şeylərə də heç vaxt toxunmuruq. Bəs gördüyümüz, eşitdiyimiz və ya qoxuladığımız maddəni nə dərəcədə qavrayırıq? Bu maddələr, əslində gördüyümüz eşitdiyimiz kimi ola bilərlərmi?

Qətiyyən xeyr... Elektronlardan və molekullardan bəhs edərkən bu mövzunu ələ almışdıq. Burada təkrar xatırlatmalı olsaq; mövcuddur dediyimiz, gördüyümüz maddəni bilavasitə görməyimiz qeyri-mümkündür. Çünki günəşdən və ya başqa bir işıq mənbəyindən gələn işıq zərrəciklərinin (fotonların) maddəyə dəyməsi və bu maddənin gələn işığın bir qismini udması və qalan hissəsini isə geriyə əks etdirməsi nəticəsində bizim gözümüzə düşən, (yəni bir mənada maddədən əks olunan) fotonlar beynimizdə görüntü meydana gətirərlər. Yəni, gördüyümüz maddə ancaq bizim gözümüzə əks olunub düşən fotonların daşıdığı məlumatdan ibarətdir. Bu məlumatlar maddəylə əlaqədar məlumatın hamısını nə dərəcədə əks etdirir? Az və ya çox bu məlumatların bizə qəti surətdə xarici aləmdəki maddənin həqiqi halını göstərdiyinə dair əlimizdə heç bir dəlil yoxdur.

Bu baxımdan baxıldığında mövzu daha dəqiqlik qazanacaq: 21-ci əsrə daxil olduğumuz bu günlərdə elm elə bir səviyyəyə çatmışdır ki, artıq maddənin 99,95-%-nin boşluqdan ibarət olduğu qəti surətdə aşkarlanmışdır. Ancaq, bu həqiqətin açıq-aydın şəkildə gözümüzün qarşısında durmağına baxmayaraq, biz maddəni 100% dolu (konkret bir həqiqət) kimi qavrayırıq. Bu vəziyyət bizə çox konkret şəkildə hisslərimizin beynimizə verdiyi mesajların xarici aləmi olduğu kimi əks etdirmədiyini göstərir.

Atomlardan ibarət olan bir bədənlə havadakı atomları udur, qidalardakı atomları yeyir, suyun atomlarını isə içirsiniz. Gördüklərniz isə gözünüzdəki atomlara aid elektronların fotonlarla toqquşmasından başqa bir şey deyil. Bəs onda toxunaraq hiss etdiklərniz nədir? Onlar da dərinizdəki atomların əşyalardakı atomları itələməsindən ibarətdir.

Əlbəttə ki, bu gün bir çox insan, bədəninin, kainatın, dünyanın, bir sözlə, hər şeyin atomlardan ibarət olduğunu bilir. Amma, bəlkə də, bu günə qədər "atom" adı verdiyimiz "şey"in necə bir sistemə sahib olduğunu düşünməmişdir və ya düşünmüş olsa belə, necə meydana gəldiyini öyrənməyə ehtiyac duymamışdır; çünki bunun yalnız fiziklərin işi olduğunu düşünmüşdür.

Halbuki, ətrafımızı bir nəzərdən keçirdiyimizdə qüsursuz bir sistemlə qarşılaşırıq. Həmçinin bu elə bir sistemdir ki, təkcə oturduğumuz kreslonu təşkil edən trilyonlarla atomun hər birinin içində bir kitabın mövzusu ola biləcək nizam mövcuddur. Tək bir atomun yaranmasını, sistemini, gücünü

izah etməklə səhifələr dolusu yazı yazmaq olar. Hətta texnologiya inkişaf etdikcə və kainat haqqındakı biliklərimiz artdıqca bu səhifələr daha da çoxalar.

Yaxşı, bəs onda bütün bu nizam təsadüfən meydana gəlmiş ola bilərmi? Böyük partlayışın ardından ətrafa yayılan zərrəciklər ani bir qərarla atomu meydana gətirmiş, sonra da təsadüfən əlverişli bir mühit yaranmış və bu atomlar maddəyə çevrilmiş ola bilərmi?

Şübhəsiz ki, belə bir sistemin "təsadüf"lə izah olunması qeyri-mümkündür. Çünki ətrafınızda gördüyünüz hər şey, hətta görə bilmədiyiniz hava belə atomlardan ibarətdir və bu atomlar arasında olduqca qarışıq bir nəqliyyat sıxlığı vardır.

Onda, görəsən bu atomlar arasındakı yol hərəkətinə kim nəzarət edir, sizmi? Mövcudluğunuzun atomlar sayəsində mümkün olduğunu qəbul etsəniz, onda atomlarınızdan hansı nəyi idarə edir? Digər atomlardan fərqsiz olan beyninizin atomlarımı digərlərini idarə edir? Beyninizin atomlarının idarəçi olduğunu fərz etsək, bu suallara cavab verməliyik:

- Beyni təşkil edən bütün atomlar idarəçi isə, öz aralarında necə və nəyə əsasən qərar verirlər?
- Beyni təşkil edən trilyonlarla atom, öz aralarında necə əməkdaşlıq edirlər?
- Niyə trilyonlarla atomdan biri belə alınan qərara etiraz etmir?
- Atomlar öz aralarında necə ünsiyyət qururlar?

Bu suallar qarşısında beyni əmələ gətirən trilyonlarla atomun hamısının eyni anda idarəçi olduğunu söyləmənin nə qədər məntiqsiz olacağı açıq şəkildə görünür.

Yaxşı, bəs onda bu trilyonlarla atomdan yalnız birinin idarəçi olduğunu, digərlərinin isə ona itaət etdiyini düşünmək doğrudurmu? Təkcə bir atomu idarəçi qəbul etsək, onda ağla dərhal əvvəlcə hansı atomun idarəçi olduğu və bu atomu kimin seçdiyi sualları gələcək:

- Bu atom beynin hansı nahiyəsindədir?
- Bu atomun digərlərindən fərqi nədir?
- Nə üçün digər atomlar qeydsiz-şərtsiz bu atoma itaət edirlər?

Bu sualları cavablandırmadan əvvəl dərhal bunu ifadə etmək lazımdır: Bəhs edilən idarəçi atom da başqa zərrəciklərdən meydana gəlmişdir. Bu zərrəciklər nə üçün və nəyə əsasən bu idarəçi atomu yaratmaq məqsədiylə bir yerə gəlirlər? Bu zərrəcikləri kim idarə edir? Bu zərrəcikləri idarə edən digər bir iradə mövcud olduğuna görə bu atomun idarəçi olduğunu müdafiə etmək nə dərəcədə doğrudur?

Məhz bu mərhələdə beynimizi təşkil edən atomlardan birinin idarəçi atom ola biləcəyi tezisi öz özünə məhv oldu.

İnsanlar, heyvanlar, bitkilər, daş-torpaq, hava, su, əşya, planetlər, qara dəliklər, kosmos boşluğu və hər şey atomdan ibarət olduğu halda, kainatdakı

bu sonsuz sayda atom bir-biriylə necə tam bir ahəngdarlıq içində mövcudluğunu davam etdirir? Bu sonsuz saydakı atomlardan hansı, həmçinin özü də bir çox zərrəcikdən meydana gəldiyi halda necə idarəçi ola bilər?

Belə bir şey iddia etmək və ya təsadüflə əlaqələndirmək və aləmləri yaradan üstün bir İradənin varlığını rədd etmək, **"Buna qəti inandıqları halda, haqsızcasına və təşəxxüslə onları inkar etdilər"**dən (Nəml surəsi, 14) başqa bir şey ola bilməz.

Təsəvvür edin ki, atomların müxtəlif formalarda bir yerə cəmlənməsiylə meydana gələn bir insan, dünyaya gəlir, atomlarla qidalanır, böyüyür. Sonra atomlardan ibarət olan bir binada atomlardan ibarət olan kitabları oxuyur. Sonra əlinə atomlardan ibarət olan və üzərində atom mühəndisi yazan bir diplom verirlər. Amma sonra o da; "bu atomlar şüursuzdur və içlərindəki fövqəladə sistem də təsadüfən meydana gəlmişdir" kimi cümlələr işlədə bilir. Əgər belədirsə, özü bu şeyləri danışacaq şüuru, iradəni və zəkanı haradan alır?

Məhz əlinizdəki bu əsərin demək olar ki, hər səhifəsində canlı-cansız kainatdakı hər şeyi təşkil edən atomun öz-özünə və ya təsadüfən meydana gəlməsinin qeyri-mümkünlüyünü təkrar təkrar gördük. Bütün bu izah edilənlərə baxmayaraq, bu formalaşma prosesinin hələ də "təsadüfən" baş verdiyini və ya "sınaq-yanılma yolu ilə" bugünkü halını aldığını düşünənlərə söyləyəcəyimiz Hz. İbrahimin inkarçılara söylədiyindən fərqli olmayacaq:

Allahın verdiyi hakimiyyətə görə İbrahim ilə Rəbbi barəsində höcətləşən kəsin *(əhvalatını)* **bilmirsənmi? İbrahim: "Mənim Rəbbim həm dirildir, həm də öldürür!"– dedikdə** *(padşah)*: **"Mən də həm dirildir, həm də öldürürəm!"– demişdi. İbrahim: "Allah günəşi məşriqdən gətirir. Sən də onu məğribdən gətir!"– dedikdə, o kafir çaşıb qalmışdı. Allah zalım qövmü doğru yola yönəltməz.** (Bəqərə surəsi, 258)

CANLANAN ATOMLAR

Bura qədər maddənin yoxdan yaranmasından və onu əmələgətirən atomlardan danışdıq və dedik ki, canlı-cansız nə varsa hamısı atomlardan ibarətdir. Atomlar özləri cansız varlıq olduqları üçün canlıları meydana gətirmələri olduqca heyrətamizdir. Təkamül təlimini qəbul edən alimlər bunu izah edə bilmirlər. Bir araya gələn daş parçalarının canlı varlıq əmələ gətirmələri necə absurddursa, cansız atomların birləşərək öz-özünə canlı varlıqlar yaratmaları da mümkün deyil. Bir daş parçasını və kəpənəyi gözünüz önündə canlandırın. Biri cansızdır, digəri canlı. Amma quruluşuna, təməlinə baxanda hər ikisi atom adlanan eyni zərrəciklərdən yaranıb.

Cansız maddənin öz-özünə canlıya çevrilməyəcəyi ilə bağlı belə bir nümunə göstərmək olar. Alüminium uça bilərmi? Əlbəttə ki, xeyr. Bəs alüminiumu plastik maddə və benzinlə qarışdırsaq uçarmı? Yenə də yox. Ancaq əgər bu maddələrdən bir təyyarə düzəltsək, o zaman uça bilər. Bəs həmin təyyarənin uçması nəyin sayəsində mümkün oldu? Qanadlarınmı? Mühərrikinmi? Pilotunmu? Xeyr, çünki onların heç biri özbaşına uça

bilməzlər. Təyyarə uçmaq qabiliyyəti olmayan ayrı-ayrı hissələrin müəyyən plan və layihə ilə xüsusi formada birləşdirilməsinin nəticəsində uçur! Uçmaq qabiliyyəti nə alüminiumdan, nə plastikdən, nə də benzindən gəlir. Düzdür, bu maddələrin xüsusiyyətləri vacibdir, ancaq məhz uçmaq qabiliyyəti onların xüsusi layihə nəticəsində bir araya gətirilməsi sayəsində qazanılır.

Yuxarıda gördüyünüz plastik, alüminium, polad kimi maddələr uça bilərmi? Xeyr. Onları bir araya yığsanız, yenə də uça bilməzlər. Təyyarə isə bu maddələrin xüsusi şəkildə, layihə və plan əsasında birləşdirilməsindən hazırlanıb. Uçmaq qabiliyyəti nə plastikdən, nə alüminiumdan, nə də poladdan gəlir. Onların xüsusiyyətlərinin hər biri özlüyündə çox əhəmiyyətlidirlər, amma məhz uçmaq üçün onlar şüurlu layihə və plan əsasında birləşdirilməlidirlər. Canlı sistemlər də eynən belədir - canlı hüceyrə cansız atomların şüurlu şəkildə və xüsusi şəkildə birləşdirilməsi nəticəsində yaranıb.

Canlı sistemlər də eynilə bu cürdür. Canlı hüceyrəsi də cansız atomların xüsusi şəkildə bir araya gətirilməsi nəticəsində yaranır. Canlı hüceyrələrin böyümə, çoxalma və buna bənzər digər xüusiyyətləri molekulların xüsusiyyətindən deyil, onların mükəmməl şəkildə birləşdirilməsindən irəli gəlir. Bu isə Allahın ölüdən dirini yaratmasından başqa bir şey deyil:

Şübhəsiz ki, toxumu da, çərdəyi də Allah çatladır. O, ölüdən diri çıxarır, diridən isə ölü çıxarır. Budur Allah! Siz necə də *(haqdan)* döndərilirsiniz!

(Ənam surəsi, 95)

Cansız maddəni canlı varlığa ancaq üstün güc və ağıl sahibi olan Allah çevirə bilər, yəni canlı ancaq yaradıla bilər. Canlı sistemlər elə kompleks quruluşa sahibdir ki, bu günün texnoloji imkanlarına baxmayaraq, hələ də

necə işlədikləri tam anlaşılmayıb. Lakin XX əsrdə sürətlə inkişaf edən elm və texnologiya bir həqiqəti aşkara çıxarıb: canlılar çox kompleks quruluşa malikdir. XIX əsrin ortalarında təkamül təlimi ortaya atılanda ibtidai mikroskoplarla aparılan araşdırmalar hüceyrənin sadəcə bəsit bir ləkədən ibarət olduğunu göstərirdi. XX əsrin mükəmməl texnoloji vasitələri - elektron mikroskoplar isə sübut etdi ki, canlı varlıqları əmələ gətirən hüceyrələr xeyli mürəkkəb, kompleks orqanizmdirlər və ancaq mükəmməl layihə əsasında yaradıla bilər. Ən əsası bu araşdırmalar cansız maddələrin qətiyyən öz-özünə canlı varlıq yarada bilməyəcəyini ortaya qoydu. Canlı ancaq canlıdan yarana bilər. Bu, təcrübə yolu ilə də sübut edilib. (Henry M. Morris, Impact No. 111, Eylül 1982) Təkamül təlimini qəbul edənlərin bu sualların qarşısında təslim olmaqdan başqa yolları yoxdur. Buna görə həmin dəstədən olan məşhur alimlər elmi fikir bildirmək əvəzinə boş-boş nağıllarla gözdən pərdə asmağa çalışırlar. Məsələn, maddənin özünün şüuru, qabiliyyəti və iradəsi olması haqda qeyri-elmi və qeyri-ciddi iddialar irəli sürürlər. Əslində isə bu yalanlara heç özləri də inanmır və cavab veriləsi elmi sualların qarşısında aciz qaldıqlarını etiraf edirlər:

"Həyat yaranmamışdan əvvəl Yer kürəsi boş və kimsəsiz idi. İndi isə Yerdə həyat qaynayır. Bu, necə oldu? Karbon əsasında yaranan üzvi molekullar necə canlandılar? İlk canlı orqanizmlər necə yarandılar? Həyat necə təkamül keçdi ki, müasir insanlar kimi mürəkkəb və mükəmməl canlılar meydana çıxdı?" (Prof.Dr. Carl Sagan, Cosmos, s.37)

"Təkamül nəzəriyyəsinin çözə bilmədiyi çox ciddi məsələlər var: maddə necə yarandı? Kainat və dünya indiki formasını necə qazandı? Cansız maddə öz-özünə kompleks canlı molekullara necə çevrildi?"

(Darlington C.D.,Evolution for Naturalists, (NY, John Wiley, 1980) s.15)

Sitatları gətirilən təkamülçü alimlərin də etiraf etdikləri kimi, təkamül nəzəriyyəsinin əsas və yeganə məqsədi canlıların Allah tərəfindən yaradıldığını inkar etməkdir. Ancaq kainatın hər nöqtəsində yaradılış həqiqəti açıq şəkildə göründüyünə və onun hər detalı qətiyyən təsadüf nəticəsində yarana bilməyəcək qədər mükəmməl olduğuna baxmayaraq, təkamülçülər boş-boş iddialardan başqa ortaya heç nə qoya bilmirlər.

Bu şəklin nə qədər mənasız olduğu göz önündədir. Günümüzdə hər kəs təbiətdəki daş parçalarının qurbağa və ya balığa dönməsinin mümkünsüzlüyünü bilir. Əlbəttə ki, cansız maddədən canlının yaranması mümkün deyil. Canlı ancaq canlıdan törəyir. Bu isə canlı varlıqların guya cansız maddələrdən yarandığını iddia edən təkamül təlimini darmadağın edir.

Dövrümüzün ən çılğın təkamülçü alimlərindən biri olan Riçard Dokinz isə bu sözləri ilə məqsədsiz təsadüflərin nəyisə yarada biləcəyinin mümkünsüzlüyünü və bu mümkünsüzlüyə qarşı yeganə alternativin təbiətdən üstün bir qüvvə olduğunu etiraf edib:

"Bir şeyin yaradılışının mürəkkəbliyi və kompleksliyi ortaya çıxdıqca, onun təsadüf nəticəsində yaranmasına inam da azalır və əgər təsadüf yoxdursa, onun yeganə alternativi ağıllı bir Yaradanın varlığıdır".

(The Necessity of Darwinism, New Scientist, Vol 94, April 15, 1982, s. 130)



ATOMLAR ATOMLARI ARAŞDIRIR

Təkamülçülərin iddialarına görə, təsadüfən yaranan atomlar təsadüfən universitet professorunu yaradıblar və indi də elektron mikroskopu altında özlərini araşdıraraq, təsadüfən yarandıqlarını bəyan ediblər. Şübhəsiz ki, belə nağıllarla heç uşaqların da başını qatmaq olmaz.

Təkamülçü alimlər bu həqiqəti qəbul etməkdənsə, cansız maddənin öz-özünü əmələ gətirdiyini deməklə gülünc vəziyyətə düşürlər. Atomların özbaşına birləşib canlı varlıq yaratmaları haqda bütün fikirlərin təbii ki, heç bir elmi əsası yoxdur və ola da bilməz. Bu nağılların nə qədər mənasız olduğunu əyani şəkildə göstərmək üçün bir nümunə göstərək. Təkamülçülər canlı aləmin yarandığını belə izah edirlər: böyük partlayışdan sonra necə oldusa atomlar yarandılar. Özü də çox dəqiq hesabla, çox həssas tarazlıqla...

Sonra onların bir qismi fəzadakı ulduzları, qalaktikaları, bir qismi də Yeri əmələ gətirdi. Yeri əmələ gətirən atomların bir qismi daşı, torpağı

formalaşdırarkən, birdən-birə canlı varlıq yaratmağa qərar verdilər. Əvvəl onlar çox kompleks quruluşu olan hüceyrələri əmələ gətirdilər, sonra da onları ikiyə bölərək çoxaltdılar. Lap axırda isə eşitməyə, danışmağa başladılar. Vaxt gəldi, bu atomlar universitet professoruna çevrilərək öz-özlərini mikroskop altında araşdırıb təsadüf nəticəsində yarandıqlarını iddia etdilər. Atomların bəziləri körpülər, göydələnlər inşa edən mühəndisləri, bəziləri təyyarələri, süni peykləri əmələ gətirən konstruktorları formalaşdırdı, bir hissəsi də kimya və fizika üzrə ixtisaslaşdı. Karbon, maqnezium, fosfor, dəmir və s. kimi atomlar isə bir araya gələrək fövqəladə və hələ də tam kəşf edilməmiş bir orqanı - beyini formalaşdırdı. Bu beyinlər hətta müasir texnika üçün əlçatmaz olan xüsusiyyətlərə, üçölçülü görmə qabiliyyətinə sahib oldu.

Atomların bir hissəsi aktyorları, bir hissəsi bəstəkarları və digər hissəsi də sənətçiləri yaratdılar. Bu nümunələri bir az da uzatmaq olar, amma belə bir şeyin heç vaxt baş tutmayacağını daha aydın göstərmək üçün xüsusi təcrübə keçirək: canlı orqanizmi yaratmaq üçün lazım olan bütün maddələrin atomlarını bir fincanın içinə yığaq. Təkamülçülər bu atomların birləşərək canlı maddələr yaratması üçün nəyi vacib sayırlarsa, onları da əlavə edək. Lap 100 il, 1000 il, 1000 000 il də keçsə, günlərin birində bu fincandan professor çıxa bilərmi? Əlbəttə, yox! Oradan nəinki professor, ümumiyyətlə, heç bir canlı varlıq çıxmaz. Nəinki quş, balıq, kəpənək, alma, fil, gül, ağac, qarışqa, çiyələk, portağal, heç bir milçək də belə çıxmaz. Çünki cansız maddələrin milyonu da bir araya gəlsə, canlı yarada bilməz.

Şüursuz atomlar həyatın özülü olan DNT molekulunu və zülalları necə yarada bilər? DNT (Dezoksiribonuklein turşusu) hüceyrənin nüvəsində yerləşərək insan orqanizminə aid bütün informasiyanı özündə saxlayır. Bu informasiya o qədər mürəkkəb şəkildə şifrələnib ki, ancaq 1940-cı illərdən sonra elm adamları onu müəyyən qədər öyrənə biliblər. DNT aid olduğu canlıya dair bütün informasiyaları daşımaqla yanaşı, özü-özünü çoxalda bilir. Əgər atomlar sadəcə bir araya gələrək molekulları yaradıblarsa, onda DNT molekulu bu məlumatları haradan öyrənib, necə daşıyır və necə çoxaldır? Bu suala cavab verən yoxdur.

Zülallar isə canlıların yarandığı əsas "material" olmaqla yanaşı, orqanizmin həyati funksiyalarının çoxunda aparıcı rol oynayırlar. Məsələn, qanın tərkibindəki hemoqlobin zülalı orqanizmin hər yerinə oksigen daşıyır, immun sistemimizdəki zülallar orqanizmə girən mikrobları zərərsizləşdirir, bir başqa növ zülallar isə yediklərimizin həzm olunmasını təmin edir...

Canlı hüceyrələrə aid bütün bilgiləri qüsursuz bir şifrə sistemi ilə özündə daşıyan DNT molekulu son dərəcə kompleks quruluşa sahibdir. Bu molekulun mükəmməl yaradılışı onun təsadüfən meydana gəlməsi haqqında iddiaları puça çıxarır.

DNT-də təxminən 50 min fərqli zülalın əmələ gəlməsini təmin edən proqramlar vardır. Zülallar canlıların yaşaması üçün böyük əhəmiyyətə malikdirlər və onlardan tək birinin olmaması orqanizmin yaşamasını qeyri-mümkün edir. İri molekullar olan DNT-nin öz-özünə, təsadüf nəticəsində yaranması isə elmin də sübut etdiyi kimi, mümkün deyil. DNT xüsusi şəkildə birləşən nukleotidlər, zülallar isə yenə də xüsusi şəkildə birləşən amin turşuları silsiləsidir. Hər şey bir kənara qalsın, canlıların həyatının təməl daşı olan DNT və zülalların təsadüf nəticəsində belə nizamlanmaları riyazi olaraq mümkün deyil. Hesablamalar göstərir ki, hətta ən sadə zülal molekulunun da təsadüf nəticəsində yaranması ehtimalı sıfıra bərabərdir. Bu riyazi qeyri-mümkünlüklə yanaşı, həmin molekulların təsadüfən yaranması kimyəvi cəhətdən də baş tuta bilməz: əgər DNT və zülalların yaranması prosesi zaman və təbii şərait baxımından tənzimlənməsə idi, onlar sadəcə olaraq bir-birləri ilə reaksiyaya girər (çünki bu iki maddə öz aralarında reaksiyaya girməyə çox meyillidirlər) və heç biri indiki şəklində mövcud olmazdı. Nəticədə DNT və zülallar canlı varlıqları əmələ gətirmək yerinə müxtəlif maddələr ortaya çıxarardılar. Əgər zamana və təsadüfə qalsa idi, canlı aləmi yaratmaq bir yana qalsın, DNT ilə zülallar onu yox edəcək bir reaksiyaya girə bilərdilər.

(Dr. Gary Parker, Impact No: 62, Ağustos 1978)

Göründüyü kimi, nə DNT və zülalların yaranması, nə də onların canlı aləmi yaratmaq üçün iştirak etdikləri proseslərin sonrakı inkişafı təsadüf

nəticəsində heç vaxt uğurlu ola bilməzdi. Dövrümüzün məşhur alimlərindən olan Jan Qutton "Tanrı və elm" adlı kitabında bu məsələnin qeyri-mümkünlüyünü belə vurğulayır:

"Hansı təsadüf nəticəsində bəzi atomlar bir-birləri ilə rastlaşaraq amin turşularının molekullarını yarada bilərdilər? Hansı təsadüf həmin molekulları bir araya gətirib DNT kimi mürəkkəb sistemi ortaya çıxara bilərdi? Biologiya alimi Fransua Yakobun verdiyi sualı mən də təkrarlayıram: ilk canlı hüceyrənin yaranmasını təmin edəcək ilk informasiyanı verən ilk DNT molekulunun planını kim hazırlayıb? Əgər təsadüflərə əsaslansaq, nə bu, nə də başqa sualları cavablandırmaq mümkün olacaq. Buna görə də son illər bioloqlar fikirlərini dəyişməyə başlayıblar. Çoxları Darvinin dediklərinin mənasız olduğunu anlamağa başlayıb və başa düşüblər ki, məsələyə maddədən üstün, onu nizamlayan bir qüvvə qarışmasa idi, iş olmazdı". (Jean Guitton, Tanrı ve Bilim, s.38)

Jan Quttonun da dediyi kimi, XX əsrdə aparılan araşdırmalar və elmi kəşflər Darvinin təkamül nəzəriyyəsinin heç bir elmi əsasının olmadığını sübut etmişdir. Amerikalı bioloq Maykl Bexe "Darvinin qara qutusu" adlı kitabında bununla bağlı yazır:

"Elm həyatın kimyasının necə formalaşdığını anlamaq üçün çox cəhdlər edib. Lakib bioloji sistemlərin molekulyar səviyyədəki həssas nizam və mürəkkəbliyini açıqlamaq məqamı çatanda elm iflic olur. Buna görə də biomolekulyar sistemlərin hansısa birinin başlanğıcını araşdırmaqla bağlı heç bir cəhd göstərilməyib. Bəzi alimlər özlərinə güvənərək bunun səbəbini çoxdan bildiklərini deyirlər. Lakin bu sözlər professional elmi ədəbiyyatda heç vaxt ciddi qarşılanmır. Bu sistemlərin quruluşunu araşdıranda məlum olur ki, onların həyat mexanizmləri darvinist yanaşmanın heç yanından da keçmir".

(Michael Behe, Darwin's Black Box, s.8)

Bütün kainat və canlı varlıqlar yoxdan yaradılıb. Heç bir şey olmayanda təsadüflər də yox idi və buna görə ölü maddələr "təsadüfən" birləşib canlı varlıq əmələ gətirə bilməzdi. Buna ancaq və ancaq sonsuz qüdrət, sonsuz ağıl və sonsuz elm sahibi olan Allah qadirdir:

Doğrudan da, Rəbbiniz göyləri və yeri altı gündə yaradan, sonra da Ərşə ucalan Allahdır. O, gündüzü sürətlə təqib edən gecə ilə örtüb bürüyür. Günəşi, ayı və ulduzları Öz əmrinə tabe edən də Odur. Əslində, yaratmaq da, əmr etmək də Ona məxsusdur. Aləmlərin Rəbbi Allah nə qədər xeyirxahdır. (Əraf surəsi, 54)

ZAMAN DA HİSSDİR

Kitabın buraya qədər olan bölməsində mütləq varlıq zənn edilən maddənin əsli ilə heç vaxt təmasda ola bilməyəcəyimiz və hər insanın sadəcə beynindəki xəyali görüntülərlə təmasda olduğu açıqlandı. Bu qeyri-adi həqiqətin bütün dünyada Allah sevgisi və qorxusunun artması, mənəviyyatın və gözəl əxlaqın yayılması, materializmin çökməsi üçün nə qədər böyük əhəmiyyətə malik olduğu bildirildi.

Materialistlərin maddə kimi əzəli və mütləq varlıq zənn etdikləri başqa məfhum isə zamandır. Ancaq maddə kimi zaman da hissdir və əzəli deyil, yaradıldığı bir an var. Dövrümüzdə elmi dəlilləri ilə üzə çıxarılan bu həqiqət Quranda bir çox ayə ilə də bildirilmişdir.

ZAMAN BİR ANI DİGƏR AN İLƏ MÜQAYİSƏ ETDİKDƏ ORTAYA ÇIXAN MƏFHUMDUR

Zaman bizim yaşadığımız hadisələr arasında apardığımız müqayisəyə əsaslanan anlayışdır. Məsələn, bir nəfər otağa daxil olur. Sonra yerdəki qələmi görür və əyilib onu götürür. Bundan sonra, stola yaxınlaşır və qələmi onun üstünə qoyur. Həmin insan bu hərəkətlər arasında müqayisə aparır. Hər biri arasında müəyyən müddət keçdiyini düşünür və beləliklə, zaman hissini əldə edir.

Telefon zəng çaldığı an ilə telefonda dostun səsinin eşidildiyi an arasında bir müddət olduğunu düşünür və buna zaman deyirik. Zaman o an yaşananlar ilə keçmiş arasında aparılan müqayisə ilə ortaya çıxan hissdir.

Zaman tamamilə bizim hisslərimizə və hisslərimiz arasında apardığımız müqayisəyə əsaslanan anlayışdır. Məsələn, siz hal-hazırda bu kitabı oxuyursunuz. Fərz edək ki, kitabı oxumazdan əvvəl mətbəxdə yemək yeyirdiniz. Elə mətbəxdə yemək yediyiniz "an" ilə "hal-hazırkı an" arasında bir sürə olduğunu düşünür və buna zaman deyirsiniz. Əslində isə, mətbəxdə yemək yediyiniz "an" sizin hafizənizdəki məlumatdır və siz içində olduğunuz "hal-hazırkı an" ilə hafizənizdəki məlumat arasında müqayisə aparır və bunu

"zaman" adlandırırsınız. Bu müqayisəni aparmadığınız təqdirdə, zaman anlayışı da qalmaz, insan üçün sadəcə içində olduğu an mövcud olacaqdır.

Məsələn, şagirdin son zəng mərasimi hafizəsindəki məlumatdır. İnsan o mərasimdən etibarən hafizəsindəki digər məlumatları da içində yaşamaqda olduğu an ilə müqayisə etdikdə zaman anlayışını əldə edir və hafizəsindəki məlumatlara görə bu zamanın uzunluğunu və ya qısalığını müəyyən edir. Əslində isə, bu "uzunluq" və "qısalıq" tamamilə beyində əmələ gələn və bu müqayisədən qaynaqlanan hissdir.

İnsanın keçmişi hafizəsinə verilən məlumatlardan ibarətdir. Hafizə silindikdə insanın keçmişi də silinir. Gələcəyi isə düşüncələrindən ibarətdir. Bu düşüncələr olmadıqda isə insanın sadəcə yaşadığı "an" qalır.

Eyni şəkildə, yerə düşən qələmi əyilib götürən və stolun üstünə qoyan birini gördükdə müqayisə edir. Gördüyü insan qələmi stolun üstünə qoyduğu anda o şəxsin qələmi əyilib götürməsi və stola doğru yeriməsinə tamaşa edən şəxsin beynində yerləşən məlumatlardır. Zaman hissi qələmi stolun üstünə qoyan insan ilə bu məlumatlar arasında müqayisə aparılaraq ortaya çıxır.

Məşhur fizik Culian Barbur zamanın tərifini belə verir:

Zaman əşyaların mövqelərini dəyişdirmə ölçüsündən başqa bir şey deyil. Saat kəfkiri yellənir, saatın əqrəbləri hərəkət edir.

(Tim Folger, "Buradan Sonsuzluğa", Discover, Aralık 2000, s.54)

Qısaca desək, zaman beyində xatirə kimi saxlanılan bir sıra məlumatlar, daha doğrusu, görüntülər arasında müqayisə aparılması ilə mövcud olur. Əgər insanın hafizəsi olmasaydı, o insan sadəcə içində olduğu anı yaşayar, beyni bu cür şərhlər etməz və ona görə də zaman hissi də əmələ gəlməzdi.

ZAMANIN HİSS OLMASI BARƏSİNDƏ ELM ADAMLARININ DÜŞÜNCƏLƏRİ

Zamanın hərəkət edən cisimlər və meydana gələn dəyişikliklər arasında apardığımız müəyyən ardıcıllıqdan əmələ gələn anlayış olması həqiqəti bu gün elmi cəhətdən də qəbul edilmişdir. Bu barədə fikir bildirən mütəfəkkir və elm adamlarından nümunələr verərək mövzunu daha yaxşı açıqlamağa çalışaq.

The end of time (zamanın sonu) adlı kitabında zamansızlıq və sonsuzluq haqqında açıqlamaları ilə elm dünyasında böyük əks-səda doğuran fizik Culian Barbur zamanın hiss olmasının bir çox insan üçün qəbul edilməsi çətin olan həqiqət olduğunu bildirir. *"Discover"* jurnalında Barbur ilə aparılan müsahibədə zaman hissi haqqında onun şərhləri verilir:

"Mən hələ qəbul etməkdə çətinlik çəkirəm", - deyir (Barbur). Ancaq qabaqcadan kainatı anlamaq üçün heç bir zaman etibarlı yol göstərici olmamışdır. Kopernik Günəşin Yerin ətrafında dönmədiyini ilk dəfə söylədiyindən bəri fiziklər hisslərimizi çaşdırdılar. Buna baxmayaraq, Yer 67000 mil/saat sürətlə boşluqda fırlanarkən ən kiçik hərəkəti belə hiss etmirik. ***Barbur zamanın keçdiyinə dair hissimizin"*** *Düz Dünya Cəmiyyəti"nin (Flat Earth Society) batil inancı qədər səhv olduğunu iddia edir".* (Tim Folger, "Buradan Sonsuzluğa", Discover, Aralık 2000, s.54)

Yuxarıda da göründüyü kimi, məşhur fizik Barbur zamanın mütləq varlıq olduğuna dair sahib olduğumuz inancın batil olduğunu bildirir və dövrümüzdə fizika sahəsindəki tədqiqatlar bu həqiqəti açıq şəkildə göstərir. **Zaman mütləq deyil, meydana gələn hadisələrə görə fərqli qavranan nisbi məfhumdur.**

ZAMANIN TƏRSİNƏ İŞLƏDİYİ DÜNYADA KEÇMİŞ GƏLƏCƏK OLARDI

Bütün hadisələr bizə müəyyən ardıcıllıqla göstərildiyi üçün zamanın daima irəliyə doğru axdığını düşünürük. Məsələn, xizəkçi daima dağdan aşağıya doğru sürüşür, yuxarı doğru sürüşmür və ya bir su damlası su hövzəsindən yuxarı doğru çıxmaz, daima aşağıya doğru düşər. Belə olduqda, xizəkçinin təpədəki halı keçmiş ikən aşağıya çatdığı halı gələcəkdir. Elə isə hafizəmizdəki məlumatlar filmin əvvələ sarılması kimi tərsinə doğru göstərilməyə başlasa, bizim üçün gələcək, yəni aşağı enmiş halı keçmiş olar, keçmiş isə, yəni təpədəki halı isə gələcək olar.

Nobel mükafatı almış məşhur genetika professoru F. Yakov isə *"Mümkünlərin oyunu"* adlı kitabında zamanın geriyə axını ilə bağlı bunları danışır:

Kadrı geriyə doğru fırladaraq göstərilən filmlər zamanın geriyə axdığı bir dünyanın nəyə bənzəyəcəyini təsəvvür etməyimizə imkan verir. Südün

fincandakı qəhvədən ayrıldığı və süd qabına geri tökülmək üçün havaya qalxdığı bir dünya; saysız damlaların heyrətamiz şəkildə iş birliyi ilə sudan kənara atılan daşın insanın ovcuna qayıtmaq üçün maili xətt boyu tullandığı dünya. Amma zamanın geriyə axdığı belə bir dünyada beynimizin prosesləri və hafizəmizin əmələ gəlməsi də eyni şəkildə tərsinə çevrilmiş olacaqdır. Keçmiş və gələcək üçün də eyni şey olar və dünya tamamilə bizə göründüyü kimi görünər. (François Jacob, Mümkünlerin Oyunu, Kesit Yayınları, 1996, s. 111)

Beynimiz müəyyən ardıcıllıq üsuluna əsasən işlədiyi üçün hal-hazırda dünya yuxarıda izah edildiyi kimi işləmir və zamanın daim irəliyə doğru axdığını düşünürük. Əslində isə, bu, beynimizin içində verilən qərardır və ona görə, bizim üçün tamamilə izafidir. Əgər hafizəmizdəki məlumatlar geriyə doğru fırlanan filmlərdəki kadrlar kimi düzülərsə, zamanın axını da bizim üçün geriyə doğru fırladılan filmlərdəki kimi olacaqdır. Belə vəziyyətdə keçmişi gələcək, gələcəyi də keçmiş kimi qavramağa başlayar, həyatı indiki nizamının tamamilə tərsinə olan nizamda yaşayardıq.

Əslində isə, zamanın necə axdığını, ya da axıb-axmadığını əsla bilə bilmərik. **Bu da zamanın mütləq həqiqət olmadığını, sadəcə qavrayış forması olduğunu göstərir.**

Zamanın hiss olması XX əsrin ən böyük fiziki hesab edilən Eynşteynin ortaya qoyduğu ümumi nisbilik nəzəriyyəsi də təsdiq etmişdir. Linkoln Barnet *"Kainat və Eynşteyn"* adlı kitabında bu barədə aşağıdakıları yazır:

Hüdudsuz kosmosla birlikdə Eynşteyn sonsuz keçmişdən sonsuz gələcəyə axan səhv etməyən və dəyişməyən ümumdünya zaman anlayışını da bir kənara qoydu. Nisbilik nəzəriyyəsini əhatə edən anlaşılmazlığın böyük hissəsi insanların zaman duyğusunun da rəng duyğusu kimi qavrama forması olduğunu qəbul etmək istəməməyindən doğur... Necə ki, kosmos maddi varlıqların mümkün olan ardıcıllığıdırsa, ***zaman da hadisələrin mümkün olan ardıcıllığıdır.*** *Zamanın subyektivliyini Eynşteynin sözləri daha yaxşı açıqlayır: "Fərdin yaşadıqları bizə hadisələrin ardıcıllığında sıralanmış kimi görünür. Bu ardıcıllıqdan* ***xatırladığımız hadisələr "daha əvvəl" və "daha sonra" ölçüsünə görə sıralanmışdır.*** *Bu səbəbdən, fərd üçün mən-zamanı, ya da* ***subyektiv zaman var.*** *Bu zaman öz-özlüyündə ölçülə bilməz. Hadisələrlə saylar arasında elə bir əlaqə qura bilərəm ki, böyük say əvvəlki hadisə ilə deyil, sonrakı hadisə ilə əlaqədar olar".*

(Lincoln Barnett, Evren ve Einstein, Varlık Yayınları, 1980, s. 52-53)

Eynşteynin bu sözlərindən zamanın irəliyə doğru axması fikrinin tamamilə şərt olduğu başa düşülür.

Eynşteyn Barnetin ifadələri ilə *"kosmos və zamanın da duyğu formaları olduğunu, rəng, forma və böyüklük anlayışları kimi, bunların da şüurdan ayrılmaz olduğunu göstərmiş*dir". (Lincoln Barnett, Evren ve Einstein, s. 17)

Ümumi nisbilik nəzəriyyəsinə görə, "zaman mütləq deyil, onu ölçdüyümüz hadisələr ardıcıllığından ayrı, müstəqil bir varlığı yoxdur".

Yuxularımız zamanın nisbiliyinin başa düşülməsi baxımından olduqca əhəmiyyətlidir. Biz yuxuda günlərlə davam etdiyini düşündüyümüz hadisələri yaşayarkən, əslində, sadəcə bir neçə dəqiqə, hətta bir neçə saniyə

davam edən yuxu görürük.

Mövzunu bir az da açıqlamaq üçün belə bir nümunə üzərində düşünək. Xüsusi dizayn edilmiş tək pəncərəli otaqda oturub burada müəyyən vaxt keçirdiyimizi düşünək. Otaqda keçən zamanı görməyimiz üçün bir dənə də saat olsun. Eyni zamanda, otağın pəncərəsindən günəşin müəyyən fasilələrlə doğub-batdığını görək. Aradan bir neçə gün keçdikdən sonra o otaqda nə qədər qaldığımızı soruşsalar, verəcəyimiz cavab həm müəyyən vaxtlarda saata baxaraq əldə etdiyimiz məlumat, həm də günəşin neçə dəfə doğub-batdığına əsasən apardığımız hesablama olacaqdır. Məsələn, otaqda üç gün qaldığımızı hesablamışıq. Amma əgər bizi bu otağa qoyan şəxs gəlib bizə: "Əslində, sən bu otaqda iki gün qalmısan", -desə və pəncərədə gördüyümüz günəşin süni şəkildə əmələ gətirildiyini, otaqdakı saatın da xüsusi sürətlə hərəkət etdiyini söyləsə, bu vəziyyətdə apardığımız hesablamanın heç bir mənası qalmır.

Bu misal da göstərir ki, zamanın axma sürəti ilə məlumatımız sadəcə qavrayana görə dəyişən fikirlərə əsaslanır.

Fərqli şərtlər altında insanların eyni zaman kəsiyini daha uzun və ya daha qısa qavramaları da bunun nümunəsidir. Məsələn, əməliyyatdakı qardaşının çıxmasını gözləyən insana bir saatlıq müddət aradan saatlar keçmiş kimi uzun gəlir. Ancaq eyni şəxs çox xoşladığı işi görərkən bir saatın necə keçdiyini anlamaz. Eynşteynin ümumi nisbilik nəzəriyyəsinin elmi cəhətdən ortaya qoyduğu həqiqət budur: zamanın sürəti cismin sürətinə və cazibə mərkəzinə olan uzaqlığına görə dəyişir. Sürət artdıqca zaman qısalır, daralır; daha ağır, daha yavaş işləyərək sanki dayanma nöqtəsinə yaxınlaşır.

1. 30 il əvvəl
2. Bu gün

İşıq sürətinə yaxın sürətlə kosmik səyahətə çıxan əkiz qardaşlardan biri 30 il sonra geri qayıtdıqda Yerdə qalan qardaş digərinə nisbətən daha yaşlı olar.

Bunu Eynşteynin misalı ilə açıqlayaq. Bu misala görə, əkiz qardaşlardan biri Yerdə yaşayır, digəri isə işıq sürətinə yaxın sürətlə kosmik səyahətə çıxır. Kosmosa çıxan şəxs geri qayıtdıqda əkiz qardaşını ondan daha yaşlı

görəcəkdir. Bunun səbəbi kosmosda səyahət edən qardaş üçün zamanın daha yavaş axmasıdır. Eyni misal işıq sürətinin 99%-nə yaxın sürətlə hərəkət edən raketlə kosmosda səyahət edən ataya və Yerdə qalan oğluna da aid edilə bilər. Eynşteynə görə *"əgər atanın yaşı 27, oğlunun yaşı üç olarsa, 30 Yer ili sonra ata dünyaya qayıtdıqda oğul 33 yaşında, ata isə 30 yaşında olar".*

(Paul Strathern, Einstein ve Görelilik Kuramı, Gendaş Yayınları, 1997, s. 57)

Beləliklə, insan zamanın yavaşladığını heç anlamadan gündəlik həyatına davam edir.

ZAMANIN NİSBİ ANLAYIŞ OLDUĞU QURANDA BİLDİRİLMİŞDİR

Əvvəlki səhifələrdə də bildirildiyi kimi, zamanın mütləq həqiqət deyil, nisbi hiss olması müasir elmin kəşfləri ilə qətiləşmişdir. Elmin XX əsrdə kəşf etdiyi bu həqiqətin Quranda 1400 il əvvəl bildirilməsi isə böyük möcüzədir.

Allah bir çox ayəsində dünya həyatının çox qısa olduğunu vurğulayır. Bir insanın təxminən 60 illik ömrünün ayələrdə "günün bir saatı" qədər qısa olduğunu Rəbbimiz belə bildirir:

O gün Allah sizi çağıracaq. Siz də Ona həmd edərək çağırışına cavab verəcək və *(dünyada)* **çox az qaldığınızı güman edəcəksiniz.** (İsra surəsi, 52)

(Allah) **onları** *(bir yerə)* **toplayacağı gün, sanki** *(dünyada)(və)(yaxud)(qəbirdə)* **gündüzün ancaq bir saatını qalmışlar kimi, bir-birlərini tanıyacaqlar. Allahla qarşılaşacaqlarını yalan sayanlar mütləq ziyana uğrayacaqlar. Onlar doğru yola yönələn deyillər.** (Yunus surəsi, 45)

Bəzi ayələrdə isə zamanın insanların hesab etdiklərindən daha qısa olduğunu Allah belə bildirir:

Allah kafirlərdən: "Yer üzündə neçə il qaldınız?"– deyə soruşacaq. Onlar: "Bir gün yaxud bir gündən də az qaldıq. Sən *(günləri)* **sayanlardan soruş"– deyəcəklər.** *(Allah)* **deyəcək: "Siz** *(orada)* **çox az qaldınız. Kaş** *(bunu)* **biləydiniz!** (Muminun surəsi, 112-114)

Quranda başqa ayələrdə isə fərqli ölçülərdə zamanın daha fərqli sürətlə axdığı xəbər verilir. Məsələn, Allah qatındakı bir günün insanların min ilinə bərabər olduğu bildirilir (Həcc surəsi, 47). Bu mövzu ilə bağlı digər ayələr belədir:

Mələklər və Ruh *(Cəbrail)* **Ona doğru sayı əlli min ilə bərabər bir gün ərzində qalxırlar.** (Məaric surəsi, 4)

O, göydən yerə qədər olan bütün işləri idarə edir. Sonra da *(bu işlər)* **sizin saydığınız** *(illərdən)* **min ilə bərabər olan bir gündə Ona doğru yüksəlir.** (Səcdə surəsi, 5)

Quranın daha bir çox ayəsində istifadə edilən üslub zamanın hiss olduğunu açıq şəkildə ortaya qoyur. Allah Quranda bəhs edilən mömin Kəhf əhlini 300 ildən çox müddət ərzində dərin yuxuya vermişdir. Daha sonra oyandırdıqda isə bu şəxslər zaman cəhətdən çox az müddətdə yuxuda olduqlarını düşünmüş, nə qədər çox yatdıqlarını təxmin edə bilməmişlər.

Biz mağarada onların qulaqlarını illərlə qapalı saxladıq *(onları yuxuya verdik)*. **Sonra iki dəstədən hansının onların** *(mağarada)* **qaldıqları müddəti daha düzgün hesabladıqlarını bilmək üçün onları oyatdıq.** (Kəhf surəsi, 11-12)

Beləcə onları oyatdıq ki, *(nə baş verdiyini)* **bir-birindən soruşub öyrənsinlər. Onlardan biri: "***(Burada)* **nə qədər qaldınız?"– dedi.** *(Bəziləri:)* **"Bir gün yaxud günün bir hissəsi qədər qaldıq"– dedilər.** *(Digərləri də)* **dedilər: "Qaldığınız müddəti Rəbbiniz daha yaxşı bilir..."** (Kəhf surəsi, 19)

Aşağıdakı ayədə bəhs edilən vəziyyət də zamanın, əslində, psixoloji hiss olmasının vacib dəlilidir.

Və ya *(damları)* **uçulub xarabalığa çevrilmiş bir kəndin yanından keçən kimsənin** *(hekayətini)* **bilmirsənmi? O demişdi: "Allah bu kəndi ölümündən sonra necə dirildəcək?" Allah onu öldürüb yüz il saxladı, sonra da dirildib dedi: "Nə qədər qaldın?" O dedi: "Bir gün yaxud bir gündən də az qaldım!"** *(Allah)* **dedi: "Əksinə, sən yüz il qaldın. Öz yeməyinə və içdiyin suya bax, hələ də xarab olmayıb. Uzunqulağına da bax! Biz səni insanlar üçün bir dəlil etdik. Sümüklərə bax, gör Biz onları necə bir-birinə birləşdirir, sonra da onların üstünü ətlə örtürük." Ona** *(həqiqət)* **bəlli olduqda: "Mən artıq bilirəm ki, Allah hər şeyə qadirdir!" – dedi.** (Bəqərə surəsi, 259)

Göründüyü kimi, bu ayələrdə zamanın nisbi olduğu, mütləq olmadığı açıq şəkildə bildirilir. Yəni zaman qavramaya və qavrayana görə dəyişir; qavrayandan kənar öz-özlüyündə bir varlığı olan sabit varlıq deyil.

ZAMANIN NİSBİLİYİ QƏDƏR (TALE) HƏQİQƏTİNİ DƏ AÇIQLAYIR

Zamanın nisbiliyi ilə bağlı açıqlamalardan və ayələrdən göründüyü kimi, zaman hiss ilə bağlı dəyişən, qeyri-sabit anlayışdır. Məsələn, bizim üçün milyonlarla il davam edən zaman kəsiyi Allah qatında bir andır. Bizim üçün 50 min illik müddət mələklər və Cəbrayıl üçün bir gündür.

Bu həqiqətin bilinməsi qədər mövzusunun qavranması üçün çox vacibdir. Çünki qədər Allahın keçmiş və gələcək bütün hadisələri "tək bir an" içərisində yaratmasıdır. Bu da Allah qatında kainatın yaradıldığı andan qiyamətə qədər olan hər hadisənin yaşanmış və bitmiş olması deməkdir. İnsanların bir çoxu Allahın hələ yaşanmamış hadisələri əvvəlcədən necə bildiyini, Allah qatından keçmiş və gələcək bütün hadisələrin necə yaşanıb bitdiyini və qədərin gerçəkliyini heç cür qavraya bilmirlər. Əslində isə, "yaşanmamış hadisələr" bizim nöqteyi-nəzərimizdən yaşanmamış hadisələrdir. Çünki biz Allahın yaratdığı zamana bağlı şəkildə yaşayırıq və hafizəmizə verilən məlumatlar olmadan heç nə bilə bilmərik. Allah dünyadakı imtahan mühitinə görə, "gələcək" adlandırdığımız hadisələri hafizəmizə vermədiyi üçün gələcəkdə nə olacağını da bilmərik. Allah isə zaman və məkandan asılı deyil, onsuz da bunların hamısını yoxdan yaradan Özüdür. Buna görə, Allah üçün keçmiş, gələcək və hal-hazırkı an hamısı

birdir və hamısı olub bitmişdir. Allah bir hadisənin sonunu görmək üçün gözləmir. Onsuz da bir hadisənin əvvəli də, sonu da Onun qatında tək bir anda yaşanır. Məsələn, fironun sonunun necə olduğunu Allah hələ Hz. Musanı firona göndərmədən, Hz. Musa hələ doğulmadan, hətta Misir dövləti hələ qurulmadan əvvəl bilir və bütün bu hadisələr fironun sonu ilə birlikdə Allah qatında tək bir an kimi yaşanmışdır. Bundan əlavə, Allah üçün keçmişi xatırlama deyə bir şey də yoxdur. Keçmiş və gələcək hazır olaraq Allahın daima qarşısındadır, hamısı eyni anda mövcuddur.

İnsan bütün həyatını film kimi düşünərsə, biz bu filmə CD-də baxırmış kimi baxırıq və filmi qabağa çəkmək imkanımız yoxdur. Allah isə bu filmi bütünlüklə eyni anda görür və bilir. Onsuz da bu filmi bütün incəlikləri ilə müəyyən edən və yaradan Odur. Biz bir xətkeşin başını, ortasını və sonunu necə bir anda görə biliriksə, Allah da bizim bağlı olduğumuz zamanı başından sonuna qədər tək bir an olaraq əhatə etmişdir. İnsanlar isə sadəcə zamanı gəldikdə bu hadisələri yaşayaraq Allahın onlar üçün yaratdığı qədərə şahid olurlar. Bu, dünyadakı bütün insanların qədəri üçün də əsaslıdır. Bu günə qədər yaradılmış və bu gündən sonra da yaradılacaq bütün insanların dünya və axirətdəki həyatları hər anları ilə Allahın qatında hazır və yaşanmış şəkildə mövcuddur. Allahın sonsuz "hifzi"ndə milyardlarla insanla birlikdə bütün canlıların, planetlərin, bitkilərin, əşyaların qədərində yazılmış hadisələr də heç əskilmədən və ya itmədən durur. Qədər həqiqəti Allahın Hafiz (mühafizə edən, qoruyan) sifətinin, sonsuz gücünün, qüdrətinin və böyüklüyünün təcəllilərindən biridir.

KEÇMİŞ ANLAYIŞI HAFİZƏMİZDƏKİ MƏLUMATLARA GÖRƏ ƏMƏLƏ GƏLİR

Biz bizə verilən təlqinə görə, keçmiş, hal-hazırkı an və gələcək kimi hissələrə ayrılmış zaman kəsiklərini yaşadığımızı zənn edirik. Əslində isə, "keçmiş" anlayışına malik olmağımızın tək səbəbi daha əvvəl də bildirdiyimiz kimi, hafizəmizə bəzi hadisələrin verilməsidir. Məsələn, orta məktəbin birinci sinfinə getdiyimiz an hafizəmizdə olan məlumatdır və biz bu səbəbdən bunu keçmiş hadisə kimi qavrayırıq. Gələcəklə bağlı hadisələr isə hafizəmizdə yoxdur. Buna görə, biz hələ xəbərdar olmadığımız bu hadisələri "yaşanacaq", "gələcəkdə baş verəcək" hadisələr kimi qəbul edirik. Həqiqətdə keçmiş necə bizim üçün yaşanmış, təcrübədən keçirilmiş, görünmüş hadisələrdirsə, gələcək də eyni şəkildə yaşanmışdır. Ancaq bu hadisələr bizim hafizəmizə verilmədiyi üçün biz bunları bilə bilmərik.

Əgər Allah gələcəklə bağlı hadisələri də hafizəmizə versəydi, onda gələcək də bizim üçün keçmiş olardı. Məsələn, 30 yaşında bir insanın hafizəsində 30 illik xatirələr, hadisələr var və buna görə, bu insan 30 illik keçmişinin olduğunu düşünür. Əgər bu insanın hafizəsinə 30 ilə 70 yaş arasındakı gələcəyinə dair hadisələr verilərsə, onda 30 yaşındakı bu insan üçün həm 30 ili, həm də 30 ilə 70 yaşı arasındakı gələcəyi keçmişə çevrilər. Çünki bu halda, keçmişi də, gələcəyi də hafizəsində mövcud olar, hər ikisi də onun üçün yaşanmış, görünmüş, təcrübədən keçirilmiş hadisələr olacaqdır.

Bütün varlıqların beyindəki görüntüləri ilə təmasda olduğunu demək bu varlıqların olmadığını demək deyil. Allahın yaratdığı hər şey - insanlar, binalar, göllər, göy üzü və digər bütün varlıqların hamısı var. Ancaq biz bunların hamısının sadəcə zehnimizdə qavradığımız halını bilirik və biz onları sadəcə beynimizdə görə bilirik.

1. Geçmiş 2. İndi 3. Gələcək

Ancaq Allah bizə hadisələri müəyyən ardıcıllıqla, kiçikdən böyüyə doğru, sanki keçmişdən gələcəyə axan zaman var imiş kimi hiss etdirdiyi üçün bizə gələcəyimizlə bağlı hadisələri bildirmir, bunlar haqqında məlumatı hafizəmizə vermir. Gələcək bizim hafizəmizdə yoxdur, ancaq Allahın sonsuz hifzində bütün insanların keçmişləri və gələcəkləri var. Bu, daha əvvəl də bildirildiyi kimi, bir insanın öz həyatına artıq mövcud olan film kimi tamaşa etməsinə bənzəyir. Film artıq çəkilmiş və bitmişdir. Ancaq bu filmi irəliyə çəkmək imkanı olmayan insan kadrlara bir-bir baxdıqca həyatını görür. Hələ baxmadığı kadrların isə gələcəyi olduğunu zənn edərək yanılır.



KEÇMİŞ VƏ GƏLƏCƏK QEYB XƏBƏRİDİR

Allah Quranın bir çox ayəsində qeybi, yəni görünməyəni, bilinməyəni, şahid olunmayanı bilənin yalnız Özü olduğunu bildirir:

De: "Ey göyləri və yeri Yaradan, qeybi və aşkarı Bilən Allahım! Qullarının arasında baş verən ziddiyyətlərlə bağlı hökmü yalnız Sən verəcəksən!" (Zumər surəsi, 46)

De: "Qaçdığınız ölüm sizi mütləq haqlayacaqdır. Sonra siz qeybi və aşkarı Bilənin hüzuruna qaytarılacaqsınız. O da sizə nə etdiklərinizi xəbər verəcəkdir." (Cumuə surəsi, 8)

(Allah) **dedi: "Ey Adəm, bunların adlarını onlara bildir!" O, bunların adlarını onlara bildirdikdə** *(Allah)* **dedi: "Mən sizə demədim ki, göylərdə və yerdə olan qeybi, aşkara çıxartdığınızı və gizli saxladığınızı bilirəm?"** (Bəqərə surəsi, 33)

Ümumiyyətlə, qeybin sadəcə gələcəyə aid məlum olmayan məlumatlar olması düşünülür, əslində, həm keçmiş, həm də gələcək qeybdir. Keçmişdə yaşananlar da, gələcəkdə yaşanacaqlar da Allah qatında qorunan məlumatlardır. Ancaq Allah Öz qatında olan qeyb məlumatlarından bəzilərini insanların hafizəsinə verərək bunları məlum olan, yəni müşahidə edilən hala salmışdır. Məsələn, Allah Quranda keçmişə dair məlumatlar verərək Peyğəmbərimizə bunların qeyb xəbərləri olduğunu xəbər verir:

Bunlar, sənə vəhy yolu ilə bildirdiyimiz qeyb xəbərlərindəndir. Bundan əvvəl onları nə sən, nə də sənin ümmətin bilirdi. Səbr et! Şübhəsiz ki, *(gözəl)* **aqibət müttəqilərindir.** (Hud surəsi, 49)

Bunlar sənə vəhy yolu ilə bildirdiyimiz qeyb xəbərlərindəndir. Onlar hiylə quraraq işlərinə qərar verdikləri zaman sən onların yanında deyildin. (Yusuf surəsi, 102)

Allah Peyğəmbərimizə hələ yaşanmamış bəzi hadisələrdən də xəbərlər vermişdir ki, bunlar gələcəyə dair qeyb xəbərləridir. Məsələn, Məkkənin fəthi (Fəth surəsi, 27) və Romanın bütpərəstlər üzərində qalibiyyəti (Rum surəsi, 3-4), bu hadisələr hələ yaşanmadan əvvəl Peyğəmbərimizə bildirilmişdir. Quranda peyğəmbərlərə və digər bəzi saleh möminlərə də qeybdən xəbərlər verildiyi açıqlanır. Məsələn, Hz. Yusufa qardaşlarının tələlərinin boşa çıxacağı xəbər verilmiş (Yusuf surəsi, 15), Hz. Musanın anasına körpə oğlunun Fironun zülmündən qurtulacağı və peyğəmbər olacağı vəhylə açıqlanmışdır (Qəsəs surəsi, 7).

Beləliklə, bizim keçmiş və gələcək adlandırdığımız hadisə və məlumatların hamısı Allah qatında gizli saxlanılan qeyb xəbərləridir. Allah istədiyi vaxt istədiyi şəxsin hafizəsinə bu xəbərlərdən bəzilərini verərək qeybin bir qismini açıqlayır. Müşahidə edilə bilən, yəni görünə bilən, şahid olunmuş bu hadisələr insanlar tərəfindən keçmiş kimi dəyərləndirilir.

QƏDƏRƏ TƏSLİMİYYƏTİN ƏHƏMİYYƏTİ

Keçmiş və gələcəyin Allah qatında yaradılmış və yaşanmış şəkildə gizli və hazır hadisələr olması bizə çox vacib həqiqəti göstərir: hər insan

qeyd-şərtsiz qədərinə təslim olmuşdur. İnsan keçmişini dəyişdirə bilmədiyi kimi, gələcəyini də dəyişdirə bilməz. Çünki keçmişi kimi, gələcəyi də yaşanmışdır; gələcəyindəki bütün hadisələr, nə zaman, harada, nə yemək yeyəcəyi, necə, harada öləcəyi-hamısı məlumdur və bunları dəyişdirə bilməz. Çünki bunlar onsuz da Allah qatında, Allahın hafizəsində yaşanmış şəkildə mövcuddur. Sadəcə bunların məlumatı hələ onun hafizəsində deyil.

İnsan keçmişini necə dəyişdirə bilməzsə, gələcəyini də dəyişdirə bilməz. Buna görə, hadisələr qarşısında gərginlik keçirənlər, əsəbiləşənlər, qədərə təslim olmamağın sıxıntı və çətinliyini yaşayırlar.

Ona görə, başlarına gələn hadisələrə kədərlənən, əsəbiləşən, qışqıran, gələcəyi üçün narahat olan və hirslənənlər özlərini boş yerə üzürlər. Çünki necə olacağından qayğı və qorxu duyduqları gələcəkləri onsuz da yaşanmışdır və nə etsələr də, bunları dəyişdirmə imkanları yoxdur.

Burada bir cəhətə diqqət edilməlidir: yanlış qədər anlayışından qaçmaq lazımdır. Bəzi insanlar: "Onsuzda qədərimdə nə varsa, o da olacaq, elə isə mənim nəsə etməyimə ehtiyac yoxdur", -deyərək səhv qədər anlayışı əmələ gətirirlər. Hər yaşadığımızın qədərimizdə müəyyən edildiyi həqiqətdir. Biz hələ o hadisəni yaşamazdan əvvəl, o hadisə Allah qatında yaşanmışdır və məlumatı da bütün detalları ilə Allah qatındakı Lövhi-məhfuz adlı kitabda yazılmışdır. Ancaq Allah hər insana sanki hadisələri dəyişdirməyə, öz qərar və seçiminə görə hərəkət etməyə imkanı var imiş kimi hiss verir. Məsələn, insan su içmək istədikdə bunun üçün: "Qədərimdə varsa, içəcəyəm", -deyərək oturub gözləməz. Bundan ötrü qalxar, stəkanı alar və suyunu içər. Həqiqətən də, qədərində müəyyən edilmiş stəkanda, müəyyən edilmiş miqdarda suyu içər. Ancaq bunları edərkən öz iradəsi və istəyi ilə etdiyini hiss edər və həyatı boyu bu hissi hər etdiyi işdə yaşayar. Allaha və Allahın yaratdığı qədərinə təslim olmuş insan ilə bu həqiqəti qavraya bilməyən insan arasındakı fərq budur: təslimiyyəti olan insan özü etdiyi hissini yaşamasına baxmayaraq, bunların hamısını Allahın istəyi ilə etdiyini bilir. Digəri isə hər etdiyini öz ağlı və gücü ilə etdiyini zənn edərək yanılır.

ALLAH BİZİM KEÇMİŞİMİZİ VƏ GƏLƏCƏYİMİZİ TƏK BİR AN KİMİ BİLİR VƏ GÖRÜR

Bu şəkildəki insanlar avtomobili görmədikləri kimi, avtomobildəkilər də yoldakı bu insanları görmürlər. Hər ikisi də bir-birlərindən "hal-hazırda" xəbərsizdirlər. Ancaq bu şəklə uzaqdan, fərqli yerdən baxan insan hər iki tərəfi də asanlıqla və bütün təfərrüatı ilə eyni anda görə bilir. İnsanın həyatına da eyni vəziyyət aiddir.

Bizim üçün keçmiş və gələcək var və biz zamandan asılı olduğumuz üçün gələcəyimizi ancaq zaman keçdikdən sonra görə bilərik. Ancaq Allah zamandan və məkandan uzaq olduğu üçün bizim keçmişimizi, gələcəyimizi və içində olduğumuz anı tək bir anda, bütün canlılığı və aydınlığı ilə görür. Məsələn, bir an sonra yoldakı insanları görən sürücünün ani bir tormozla dayanması da Allah qatında əvvəlcədən məlumdur və görülür.

Məsələn, xəstəliyi olduğunu öyrənən Allaha müti bir insan bunun qədərində olduğunu bildiyi üçün çox təvəkküllü davranar. "Allah bunu qədərimdə yaratdığına görə, mütləq böyük xeyir var", -deyə düşünər. Amma: "Onsuz da, qədərimdə sağalmaq varsa, sağalacağam", -deyərək tədbir almayıb gözləməz. Əksinə, mümkün olan bütün tədbirləri görər. Həkimə gedər, qidalanmasına diqqət edər, dərmanlarını qəbul edər. Ancaq getdiyi həkimin, həkimin yazdığı müalicənin, qəbul etdiyi dərmanların, bunların ona nə qədər təsir edəcəyinin, sağalıb-sağalmayacağının, qısaca desək, hər incəliyin qədərində olduğunu unutmaz. Bunların hamısının Allahın hafizəsində hələ o dünyaya gəlməzdən əvvəl hazır şəkildə olduğunu bilir. Allah Quranda insanların yaşadıqları hər şeyin əvvəlcədən bir kitabda yazılı olduğunu belə bildirir:

Yer üzündə baş verən və sizin başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, Yazıda *(müəyyənedilmiş)* **olmasın. Şübhəsiz ki, bu, Allah üçün çox asandır.** *(Allah bunu)* **əlinizdən çıxana kədərlənməyəsiniz və Onun sizə verdiyinə** *(həddindən artıq)* **sevinməyəsiniz deyə** *(belə izah edir)*. **Allah heç bir özündən razını, özünü öyəni sevmir.** (Hədid surəsi, 22-23)

Elə buna görə, qədərə iman gətirən insan başına gələn heç bir hadisəyə görə kədərlənməz, ümidsizliyə qapılmaz. Əksinə, son dərəcə təvəkküllü, müti və daima rahat olar. Çünki Allah insanların başlarına gələn hər şeyin əvvəlcədən müəyyən olduğunu, buna görə başlarına gələn çətinliklər üçün

kədərlənməməklərini və onlara verilən nemətlərə görə azmamaqlarını əmr etmişdir. İnsanın qarşılaşdığı çətinliklər də, əldə etdiyi uğur və zənginliklər də Allahın təqdiri ilədir. Bunların hamısı Rəbbimizin insanları sınamaq üçün qədərlərində əvvəlcədən müəyyən etdiyi hadisələrdir. Bir ayədə bildirildiyi kimi, **"... Allahın əmri əzəldən müəyyən edilmiş bir hökmdür!"** (Əhzab surəsi, 38).

Hər varlıq bir qədər ilə yaradılır. Hər hansı bir vaza hələ istehsal edilməzdən əvvəl kim tərəfindən, hansı modeldə istehsal ediləcəyi, kim tərəfindən, haradan satın alınıb hansı evin hansı küncünə yerləşdiriləcəyi və hansı gün hansı anda düşüb sınacağı Allah qatında məlumdur.

Allah başqa bir ayəsində isə: **"Şübhəsiz ki, Biz hər şeyi qədər ilə yaratdıq"** (Qəmər surəsi, 49), -deyə bildirir. Sadəcə insanların deyil, bütün canlıların, əşyanın, Günəşin, Ayın, dağların, ağacların, hər varlığın Allah qatında müəyyən edilmiş qədəri var. Məsələn, sınan antik vaza qədərində müəyyən edilən anda sınmışdır. Bir neçə əsrlik bu vaza hələ istehsal edilərkən kimlərin istifadə edəcəyi, hansı evin hansı küncündə, hansı əşyalarla birlikdə duracağı müəyyən edilmiş şəkildə istehsal edilir. Vazanın hər naxışı, üzərindəki hər rəng qədərdə əvvəlcədən müəyyən edilmişdir. Vazanın hansı gün, hansı saatda, hansı dəqiqədə, kim tərəfindən necə sınacağı da Allahın hifzində yaşanmış şəkildə durur. Hətta vazanın ilk dəfə istehsal edildiyi an, ilk dəfə satılmaq üçün vitrində qoyulduğu an, evin küncündə durduğu an və sınaraq qırıq-qırıq olduğu an, qısaca desək, antik vazanın əsrlərlə mövcud olduğu hər an Allah qatında tək bir an kimi mövcuddur. Vazanı sındıran şəxs bir neçə saniyə əvvəl bundan xəbərsiz ikən, Allah qatında o an yaşanmışdır və məlumdur. Buna görə, Allah insanlara itirdiklərinə görə kədərlənməməklərini bildirir. Çünki əllərindən çıxan hadisələrdən dərs almalı, bunlarla tərbiyə olunmalı, bu hadisələrdəki hikmət

və xeyirləri görərək daima qədəri yaradan sonsuz mərhəmətli, şəfqətli, ədalətli, qullarını əsirgəyən və qoruyan Rəbbimizə yönəlməlidirlər. Ən mühüm həqiqətdən qafil yaşayan insanlar həyatları boyu daim təşviş və qorxu içində olurlar. Məsələn, uşaqlarının gələcəyi üçün təşviş keçirirlər. Hansı məktəbdə oxuyacağı, necə peşənin sahibi olacağı, sağlamlığı, necə yaşayacağı kimi məsələlərdə təvəkkülsüz davranırlar. Əslində isə, hər insanın hələ tək hüceyrə halından ilk oxuma-yazma öyrəndiyi ana, universitetə qəbul imtahanında verdiyi cavablardan həyatı boyu hansı şirkətdə nə iş görəcəyinə, hansı kağızları neçə dəfə imzalayacağına, harada və necə öləcəyinə qədər hər anı Allah qatında bəllidir. Bu hadisələrin hamısı Allahın hifzində gizli şəkildə durur. Məsələn, hal-hazırda, hər insanın rüşeym halı, ibtidai sinifdəki və universitetdəki vəziyyəti, 35 yaşını qeyd etdiyi an, işə başladığı ilk gün, öldükdə mələkləri gördüyü an, yaxınları tərəfindən dəfn edildiyi və axirətdə Allaha hesab verdiyi anlar tək bir an kimi Allahın qatında mövcuddur.

Belə olduqda, hər anı Allahın qatında yaşanmış, görülmüş və hələ Allahın hafizəsində hazır şəkildə mövcud olan həyat üçün narahat olmaq, qorxu hiss etmək, kədərlənmək böyük qəflətdir. Nə qədər çalışsa da, nə qədər narahat olsa da, bir insanın özü də, uşağı da, həyat yoldaşı və yaxınları da özləri üçün Allah qatında hazır şəkildə mövcud olan həyatlarını yaşayacaqlar.

Elə isə ağıl və vicdan sahibi insan bu həqiqəti qavrayaraq Allaha və Allahın yaratdığı qədərə könüldən təslim olmalıdır. Əslində, hər insan onsuz da Allaha təslim olmuş və boyun əymiş şəkildə yaradılmışdır. Çünki istəsə də, istəməsə də Allahın onun üçün yaratdığı qədərə boyun əyərək yaşayır. Qədəri inkar edən insan da qədərində "qədəri inkar etmək" olduğu üçün inkarçıdır.

Allaha könüldən təslim olaraq boyun əyənlər isə həm Allahın razılığını, rəhmətini və cənnətini qazanmağı ümid edərlər, həm də dünya və axirətdə əminlik və xoşbəxtlik içində rahat həyat yaşayarlar. Çünki Allaha təslim olan, Allahın yaratdığı qədərin onun üçün ən xeyirli olduğunu bilən insanı kədərləndirəcək, qorxudacaq, narahat edəcək heç bir şey olmaz. Bu insan əlindən gəldiyi qədər cəhd edər, ancaq bu cəhdin də qədərində olduğunu, qədərində yazılı olanları dəyişdirməyə gücü çatmayacağını bilir.

Mömin Allahın yaratdığı qədərə təslim olar. Bununla belə, qarşılaşdığı hadisələr qarşısında əlindən gəldiyi qədər səbəblərə sarılıb tədbir görər. Hadisələri xeyirə yönləndirmək üçün çalışar, amma bütün bunların qədəri çərçivəsində həyata keçdiyini və Allahın ən xeyirli olanı əvvəldən təqdir etdiyini dərk edib rahat olar. Quranda bu davranışa misal olaraq Hz. Yəqubun övladlarının təhlükəsizliyi üçün aldığı tədbirdən bəhs olunur. Hz. Yəqub pis niyyətli insanların diqqətini çəkməmək üçün oğullarına şəhərə ayrı-ayrı qapılardan girməyi nəsihət etmiş, amma bunun Allahın müəyyən etdiyi qədərə əsla təsir

etmədiyini də onlara xatırlatmışdır:

O dedi: "Ey oğullarım! *(Şəhərə)* **bir qapıdan girməyin, ayrı-ayrı qapılardan girin. Allahın iradəsinə qarşı isə heç bir şeylə sizə fayda verə bilmərəm. Hökm yalnız Allahındır. Mən ancaq Ona təvəkkül edirəm. Qoy təvəkkül edənlər də ancaq Ona təvəkkül etsinlər".** (Yusuf surəsi, 67)

Allah insanların nə etsələr də, qədərlərini dəyişdirə bilməyəcəklərini bir ayədə belə bildirir:

Sonra O, bu qəm-qüssənin ardınca sizə bir təskinlik – bir qisminizi bürüyən mürgü nazil etdi. O biri qisminiz isə öz canlarının hayına qaldı. Onlar: "Bu işdə bizim üçün bir xeyir varmı?"– deyə Allah barəsində haqsız olaraq, cahiliyyə *(dövründəkinə bənzər)* **düşüncələrə qapıldılar. De: "Bütün işlər Allaha aiddir!" Onlar sənə bildirmədiklərini öz içərilərində gizlədir: "Əgər bu işdə bizim üçün bir xeyir olsaydı, elə buradaca öldürülməzdik"– deyirlər. De: "Əgər siz evlərinizdə olsaydınız belə, öldürülməsi qabaqcadan müəyyən edilmiş kimsələr yenə çıxıb öləcəkləri yerlərə gedərdilər. Allah sizin kökslərinizdə olanları sınamaq, qəlblərinizdə olanları təmizləmək üçün** *(belə etdi)*. **Allah kökslərdə olanları bilir."** (Ali-İmran surəsi, 154)

Ayədən də göründüyü kimi, insan ölməmək üçün xeyir və ibadət olan işdən qaçsa belə, əgər ona ölüm yazılmışsa, onsuz da öləcəkdir. Hətta ölümdən qaçmaq üçün əl atdığı yollar və üsullar da qədərində bəllidir və hər insan qədərindəki hadisəni yaşayacaqdır. Allah bu ayədə də insanlara qədərlərində yaratdığı hadisələrin məqsədinin onları sınamaq və onların qəlblərini təmizləmək olduğunu bildirir. "Fatir" surəsində isə hər insanın ömrünün Allah qatında bəlli olduğu, ana bətninə düşən körpələrin də Allahın izni ilə olduğu bildirilir:

Bir avtomobil hələ istehsal edilməzdən əvvəl hansı rəngdə olacağı, kim tərəfindən satın alınacağı, hətta hansı metal tullantıları xarabalığında necə vəziyyətdə olacağı qədərində bəllidir.

Allah sizi torpaqdan, sonra nütfədən yaratmış, sonra da sizi cütləşdirmişdir. Onun xəbəri olmadan heç bir dişi nə hamilə olar, nə də daşıdığını yerə qoya bilər. Uzunömürlünün uzun ömür sürməsi də, onun ömrünün qısaldılması da ancaq Yazıda *(Lövhi-məhfuzda)* **yazılmışdır. Həqiqətən, bu, Allah üçün çox asandır.** (Fatir surəsi, 11)

"Qəmər" surəsinin aşağıdakı ayələrində isə insanın hər etdiyinin sətir-sətir yazılı olduğu bildirilərkən, cənnət əhlinin yaşadıqları da yaşanmış şəkildə danışılır. Daha əvvəl də bildirildiyi kimi, cənnətdəki gerçək həyat

bizim üçün gələcəkdir. Ancaq cənnətdə olanların həyatları, söhbət və ziyafətləri hal-hazırda Allahın hifzində mövcuddur. Biz doğulmadan əvvəl də bütün bəşəriyyətin dünyadakı və axirətdəki gələcəyi Allah qatında bir an içərisində yaşanmışdır və Allahın hifzində mühafizə edilir:

Onların etdiyi hər şey *(əməllərinin yazıldığı)* **kitablarındadır.**
Hər bir kiçik və böyük *(əməl)* **yazılmışdır.**
Şübhəsiz ki, müttəqilər Cənnət bağlarında və çaylar kənarında,
qadir Hökmdarın hüzurundakı haqq məclisindədirlər!
(Qəmər surəsi, 52-55)

Allah qatında zamanın tək bir an olduğunu, Allah üçün keçmiş və gələcək olmadığını Quranda istifadə edilən bu üslubdan anlayırıq. Göründüyü kimi, bizim üçün gələcək zamanda olacaq bəzi hadisələr Quranda çoxdan olub-bitmiş hadisə kimi danışılır. Çünki Allah keçmişi də, gələcəyi də bir an kimi artıq yaratmışdır. Buna görə, gələcəkdə olacağı danışılan hadisə artıq olub-bitmişdir. Amma biz görmədiyimiz üçün onu gələcək zənn edirik. Məsələn, axirətdə insanların Allaha verəcəkləri hesabın bildirildiyi ayələr çoxdan olub-bitmiş hadisə kimi bəhs edilir:

Sur üfürüldü və Allahın istədiyi kimsələrdən başqa göylərdə və yerdə kim varsa, hamısı öldü. Sonra bir daha ona üfürüldü onlar qalxıb baxırlar. Yer öz Rəbbinin nuru ilə işıqlandı, kitab qoyuldu, peyğəmbərlər və şahidlər gətirildi. Onların arasında ədalətlə hökm verildi və onlar haqsızlığa məruz qalmazlar. Hər kəsə öz əməlinin əvəzi tam olaraq verildi. Allah onların nə etdiklərini yaxşı bilir. Kafirlər dəstə-dəstə Cəhənnəmə sürükləndilər. Nəhayət, ora çatdıqda onun qapıları açıldı və onun gözətçiləri onlara dedi ki: "Məgər öz içərinizdən Rəbbinizin ayələrini sizə oxuyan və sizi bu gününüzə qovuşacağınızla xə-bərdar edən elçilər gəlməmişdi?" Onlar: "Əlbəttə, *(gəlmişdi!)*"**– dedilər. Lakin əzab Sözü kafirlər barəsində gerçəkləşdi. Dedilər ki: "İçində əbədi qalacağınız Cəhənnəmin qapılarından** *(içəri)* **girin! Təkəbbürlülərin yeri necə də pisdir!" Rəbbindən qorxanlar da dəstə-dəstə Cənnətə gətirdilər. Nəhayət, ora çatdıqda onun qapıları açıldı və onun gözətçiləri onlara dedi ki: "Sizə salam olsun! Xoş sizin halınıza! Əbədi qalmaq üçün buraya daxil olun!"** (Zumər surəsi, 68-73)

Bu barədə digər misallar isə belədir:

Hər kəs onu qova-qova *(məhşərə)* **gətirənlə və bir də** *(əməllərinə)* **şahidlik edənlə** *(birlikdə)* **gəlmişdir.** (Qaf surəsi, 21)

Göy yarılmışdır və həmin gün o, süst olmuşdur. (Haqqə surəsi, 16)

və onlara səbr etdiklərinə görə Cənnəti bəxş etmişdir və *(orada gəyəcəkləri)* **ipəklə mükafatlandırmışdır.** *(Onlar)* **orada taxtlar üzərində dirsəklənmişlər. Orada nə** *(yandırıcı)* **bir günəş, nə də şaxta görərlər.**
(İnsan surəsi, 12-13)

Görəbilənlər üçün Cəhənnəm də sərgilənmişdir. (Naziat surəsi, 36)

Bu gün məhz iman gətirənlər kafirlərə gülməkdədirlər. (Mütəffifin surəsi, 34)

Günahkarlar atəşi görmüşdürlər, artıq içinə özlərinin düşəcəklərini də anlamışdırlar; ancaq ondan bir qaçış yolu tapa bilməmişdirlər.
(Kəhf surəsi, 53)

Yuxarıdakı ayələrdə ölümümüzdən sonra yaşanacaq hadisələrdən yaşanmış və bitmiş hadisələr kimi bəhs edilir. Çünki Allah bizim bağlı olduğumuz nisbi zaman ölçüsündən və məkandan uzaqdır. Allah bütün hadisələri zamansızlıqda diləmiş, insanlar bunu etmiş, bütün bu hadisələr yaşanmış və nəticələnmişdir. Böyük-kiçik hər hadisədən Allahın xəbəri olduğunu və bir kitabda qeyd olunduğu həqiqəti isə aşağıdakı ayədə belə xəbər verilir:

Sən hansı bir işdə olsan, Qurandan nə oxusan, siz nə iş görsəniz, başınız ona qarışarkən Biz sizə şahid olarıq. Nə yerdə, nə də göydə zərrə qədər bir şey Rəbbindən gizli qalmaz. Bundan daha kiçiyi və daha böyüyü yoxdur ki, açıq-aydın Yazıda *(Lövhi-Məhfuzda)* **olmasın.** (Yunus surəsi, 61)

MATERİALİSTLƏRİN NARAHATLIĞI

Maddənin gerçəyi ilə zamansızlıq və məkansızlıq mövzularını ələ aldığımız bu hissədə izah edilənlər, əslində son dərəcə açıq həqiqətlərdir. Daha əvvəl də ifadə edildiyi kimi bunlar qətiliklə bir fəlsəfə ya da bir düşüncə forması deyil, rədd edilməsi mümkün olmayan elmi nəticələrdir. Texniki bir gerçək olmağından başqa, ağla söykənən məntiqi dəlillər də bu mövzuda başqa alternativə imkan tanımamaqdadır: Kainat, onu meydana gətirən maddələr və içindəki insanlarla və zamanla birlikdə bir görüntü varlıqdır. Yəni bir hisslər bütünüdür.

Materialistlər bu gerçəyi anlamaqda çətinlik çəkərlər. Məsələn təkrar materialist Politzerin avtobus nümunəsinə dönəcək olsaq; Politzer hisslərinin xaricinə çıxa bilməyəcəyi gerçəyini texniki olaraq bildiyi halda, bunu yalnız müəyyən hadisələr üçün qəbul edə bilmişdir. Yəni Politzer üçün avtobus vurana qədər hadisələr beyninin içində meydana gəlməkdədir, amma avtobus vurduğu anda hadisələr birdən beyninin xaricinə çıxaraq maddi bir həqiqət qazanmaqdadır. Buradakı məntiq pozuqluğu açıqca ortadadır; Politzer də "daşa vururam, ayağım ağrıyır, demək ki, var" deyən materialist Johnsonun səhvinə düşmüş, avtobus vurmasında hiss edilən şiddətin də əslində bir hissdən ibarət olduğunu qavraya bilməmişdir.

Materialistlərin bu mövzunu anlaya bilməmələrinin şüuraltındakı əsl səbəbi isə, anladıqlarında qarşı-qarşıya qalacaqları həqiqətdən böyük bir qorxu duymalarıdır. Lincoln Barnett, bu mövzunun təkcə "sezilməsinin" belə materialist elm adamlarını qorxu və narahatlığa sürüdüyünü belə ifadə edir:

Filosoflar bütün obyektiv gerçəkləri hisslərin bir kölgə dünyası halına gətirərkən, elm adamları insan duyğularının sərhədlərini qorxu və narahatlıq ilə sezdilər. (Lincoln Barnett, Kainat və Eynşteyn, Varlıq Nəşrləri, 1980, s. 17-18)

Maddənin və zamanın bir hiss olduğu gerçəyi izah edildiyində bir materialist böyük bir qorxuya qapılar. Çünki maddə və zaman mütləq varlıq olaraq bağlandığı yeganə iki anlayışdır. Bunlar sanki sitayiş etdiyi bir bütdür;

çünki özünün maddə və zaman tərəfindən (təkamül yoluyla) yaradıldığına inanmaqdadır.

İçində yaşadığını düşündüyü kainatın, dünyanın, öz bədəninin, digər insanların, fikirlərindən təsirləndiyi materialist filosofların, qısacası hər şeyin bir hiss olduğunu anladığında isə bütün mənliyini bir dəhşət duyğusu bürüyər. Güvəndiyi, inandığı, mədət umduğu, ümid etdiyi hər şey bir anda özündən uzaqlaşıb itər. **"O gün** *(müşriklər)* **Allaha təslim olduqlarını bildirəcək və uydurduqları** *(bütlər)* **onlardan uzaqlaşıb qeyb olacaqlar."** (Nəhl surəsi, 87) ayəsində təsvir edilən çarəsizliyi hiss edər.

Bu andan etibarən materialist özünü maddənin həqiqətinə inandırmağa çalışar, bunun üçün özüncə "dəlil"lər meydana gətirər; yumruğunu divara vurar, daşları təpiklər, qışqırar, çağırar, amma əsla həqiqətən xilas ola bilməz.

Materialistlər, bu gerçəyi öz başlarından atmaq istədikləri kimi, digər insanların da zehinindən uzaqlaşdırmaq istəyərlər. Çünki maddənin gerçək mahiyyəti insanlar tərəfindən bilindiyi təqdirdə, fəlsəfələrinin primitivliyinin və cahil dünyagörüşlərinin ortaya çıxacağının, fikirlərini izah edəcək bir zəmin qalmayacağının fərqindədirlər. Bax burada izah edilən həqiqətdən bu cür narahat olmalarının səbəbi, yaşadıqları bu qorxulardır.

Allah inkarçıların bu qorxularının axirətdə daha da şiddətlənəcəyini bildirmişdir. Hesab günü Allah onlara belə səslənəcək:

O gün onların hamısını *(bir yerə)* **toplayacaq, sonra isə şərik qoşanlara deyəcəyik:**
"İddia etdiyiniz şəriklər iniz haradadır?" (Ənam surəsi, 22)

Bunun ardından inkarçılar, dünyada var zənn edərək Allaha şirk qoşduqları mallarının, övladlarının, ətraflarının özlərindən uzaqlaşdığına və tamamilə yox olduqlarına şahid olacaqlar. Allah bu gerçəyi də, **"Bax gör onlar özlərinə qarşı necə yalan söyləyirlər. Uydurduqları** *(bütlər)* **isə onlardan uzaqlaşıb yox olacaqlar."** (Ənam Surəsi, 24) ayəsiylə xəbər vermişdir.

İNANANLARIN QAZANCI

Maddənin və zamanın bir hiss olduğu gerçəyi, materialistləri qorxudarkən, inananlar üçün tam əksi baş verər. Allaha iman edən insanlar maddənin ardındakı sirri qavradıqları zaman böyük bir sevinc duymaqdadırlar. Çünki bu həqiqət hər cür mövzunun açarıdır. Bu kilid açıldığı anda bütün sirlər ortaya çıxar. İnsan normalda bəlkə anlamaqda çətinlik çəkdiyi bir çox mövzunu bu sayədə rahatlıqla anlaya biləcək hala gələr.

Daha əvvəl də ifadə edildiyi kimi ölüm, cənnət, cəhənnəm, axirət, ölçü dəyişdirmə kimi mövzular aydın olmuş və "Allah haradadır?", "Allahdan əvvəl nə vardı?", "Allahı kim yaratdı?", "qəbir həyatı nə qədər sürəcək?", "cənnət və cəhənnəm haradadır?", "cənnət və cəhənnəm bu an varmı?" və bunlar kimi əhəmiyyətli suallar beləcə asanca cavablanılmış olar. Və Allahın

bütün bir kainatı necə bir sistemlə yoxdan var etdiyi qavranılmış olar. Hətta belə ki, bu sirr sayəsində "nə vaxt" və "harada" kimi suallar da mənasız hala gələr. Çünki ortada nə zaman, nə də məkan qalmaz. Məkansızlıq qavrandığı təqdirdə cənnət, cəhənnəm, dünya hamısının əslində eyni yerdə olduğu da aydın olar. Zamansızlıq qavrandığı təqdirdə isə hər şeyin tək bir anda olduğu fərq edilər; heç bir şey üçün gözlənilməz, zaman keçməz, hər şey onsuz da olub, bitmişdir.

Bu sirrin qavranmasıyla birlikdə, dünya inanan insan üçün cənnətə bənzəməyə başlayar. İnsanı sıxan hər növ maddi narahatlıq, sıxıntı və qorxu itər. İnsan, bütün kainatın tək bir Hakiminin olduğunu, Onun bütün maddi dünyanı dilədiyi kimi dəyişdirdiyini və etməsi lazım olan tək şeyin Ona yönəlmək olduğunu qavrayar. Artıq o, Allaha təslim olmuşdur.

Bu sirri qavramaq, dünyanın ən böyük qazancıdır.

Bu sirrlə birlikdə yenə Quranda bəhs edilən çox əhəmiyyətli bir gerçək daha aydın olar: Daha əvvəl də bəhs etdiyimiz, Allahın insana **"şah damarından daha yaxın"** (Qaf surəsi, 16) olduğu gerçəyi… Bilindiyi kimi şah damarı insanın içindədir. İnsana öz içindən daha yaxın bir məsafə ola bilməz. Bu vəziyyət məkansızlıq gerçəyi ilə asanca açıqlana bilər. Görüldüyü kimi bu ayə də, bu sirrlə birlikdə çox daha yaxşı aydın olmaqdadır.

Əsl gerçək budur. Bilinməlidir ki, heç bir insan üçün Allahdan başqa dost və köməkçi yoxdur. Allahdan başqa heç bir şey yoxdur; özünə sığınılacaq, kömək istənəcək, qarşılıq gözləniləcək tək mütləq varlıq Odur...

Və hər hara dönsək, Allahın üzü oradır…

MATERİALİZM TƏNƏZZÜLƏ UĞRAYIB YOX OLMUŞDUR

Bir Dövrün Xurafatı: Materializm

Qədim Yunanistan mütəfəkkirləri, bütün cisimlərin atom adlanan kiçik zərrəciklərdən əmələ gəldiyini düşünürdülər. Kainatı və bütün canlıları, heç bir istiqamətləndirmə və heç bir şüurlu müdaxilə olmadan, bu atomların formalaşdırdığını iddia edirdilər. Bu inanca görə, maddə əzəli və əbədi idi və maddədən başqa heç bir varlıq mövcud deyildi. Varlıqların quruluş və davranışlarında fövqəltəbii hadisələrin müdaxiləsi qəbul edilməzdi. Hər şey, maddənin mütləq varlığı inancı əsasında tənzimlənirdi. Maddə əzəli olduğuna görə, kainat da əzəli idi və bu anlayış ateizmin təməlini təşkil edirdi. Bütün kainat əzəli olaraq mövcuddursa, azğın materialist inanca görə maddənin və kainatın yaradılmış olması qeyri-mümkün idi.

Materializmə görə, kainat əbədi idi və dolayısilə kainatda bir məqsəd və xüsusi yaradılış da yox idi. Materialistlərə görə kainatdakı bütün tarazlıq, ahəngdarlıq, uyğunluq və nizam, yalnız təsadüflərin əsəri idi. Materializm hər şeyin, şüursuz atomların təsadüfən bir yerə toplanması nəticəsində meydana gəldiyini və xarici aləmdə nə qədər mükəmməl bir kompleksik, tarazlıq və möhtəşəm bir nizam olsa belə, bütün bunların məqsədsiz təsadüflərin bir nəticəsi olduğunu iddia edirdi. Materialistlər bu ağılsız ideologiyaya, qədim yunanların vaxtından sahibdilər.

Materializm, "məqsəd" və "yaradılış" fikirlərini rədd etdiyi üçün, bir Yaradıcının varlığını da rədd edirdi. Daha doğru desək, materializm, Allahın varlığını rədd etmək üçün ortaya atılmış bir fəlsəfə idi. Yer üzündə Allah inancını inkar edən bir çox cərəyan, ideologiya və düşüncə sistemi, materializmi özünə təməl götürmüşdü. Yəni dinsizliyin ən fəal dini materializm olmuşdu.

Stanley Sobottka

Virciniya Universitetindən fizika professoru Stanley Sobottka, materializm azğınlığını belə xarakterizə edir:

Əgər biz buna (materialist ideologiyaya) inansaq, buna görə yaşasaq, özümüz də daxil olmaqla bütün həyatımızın tamamıyla fizika qanunları əsasında idarə olunduğunu qəbul etmək məcburiyyətində qalarıq. Belə olan halda, istəklərimizə, arzularımıza, ümidlərimizə, əxlaqi düşüncələrimizə, hədəflərimizə, məqsədlərimizə və taleyimizə hökm edən tək qanun, fizika qanunları olar. Maddə və enerji bizim birinci əsil hədəfimiz, bütün hərisliklərimizin və istəklərimizin məqsədi olmalıdır. Bunun mənası xüsusən də, həyatımızın bədənimizi də ehtiva edən maddiyyatı qazanmaq məqsədinə əsaslanmalı, diqqətini buna cəmləşdirməlidir və ya maksimum maddi məmnuniyyəti, qənaəti, zövqü əldə edə bilmək üçün heç olmasa bu maddi şeyləri təmin edilməli və ya dəyişdirilməlidir. Başqa heç bir məqsəd güdmədən bütün enerjimizi təkcə bu istiqamətdə sərf etməliyik. Bütün bunlardan başqa heç bir variantımız yoxdur, çünki tamamiylə fizika qanunlarına görə idarə olunuruq. Özümüzü bu inancların və ya istəklərin tələsinə düşmüş kimi hiss edə bilərik, lakin bunları qətiyyən dəf edə bilmərik. Bizə tamamilə bu materialist sistem hakim olar.

Xülasə şəklində desək, bu materialist fəlsəfənin xülasəsi; "mən bir bədənəm" kimi olar.

(Stanley Sobottka, A Course in Consciousness, http://faculty.virginia.edu/consciousness/)

Qədim Yunanistanda materializm ucbatından dindar insanlar elmə qarşı çıxırdılar. Məhz buna görə də, materialistlər tarix boyu Allah inancı və elm arasında ziddiyyət oluğu düşüncəsini üzə çıxartmağa çalışdılar. Halbuki elm

Allahın varlığına dair dəlillər göstərirdi, Allah inancıyla mübarizə aparansa materialist zehniyyətdi (həmçinin darvinizm də Allah inancıyla mübarizə aparırdı. Darvinizmlə aparılan mübarizə, əsasən onun materializmdən qaynaqlanmasından ötrüdür). Materialistlər, tarix boyu varlıqların bir atom yığınından yarandığını, insan beyninin də bir hüceyrə şəbəkəsindən başqa bir şey olmadığını iddia etdilər. İnsan zeninə izah gətirə bilmədilər, bunu, neyronların qıcıqlanması kimi izah etməyə çalışdılar.

Materialistlər, özlərini də bir heyvan və ya maşın kimi qələmə verməkdən çəkinmədilər. Şüurlu varlıq olduqlarını inkar etdilər. Özlərini təsadüflərin yaratdığını iddia etdilər. Halbuki bu böyük bir aldanış və Allahı inkar etmək üçün uydurulmuş böyük bir yalan idi.

Maddənin mütləq varlığına inanan bu insanlar əslində, Delaver Universiteti Bartol Araşdırma İnstitutundan zərrəciklər fiziki Stephen M. Barrın sözüylə desək, qədim dövr bütpərəstlərindən demək olar ki, fərqlənmirdilər. Materialistlər insanı, eynilə qədim bütpərəstlər kimi insandan aşağı varlıqlar kimi qiymətləndirirdilər. Bütpərəstlər bunu, guya maddəni ilahlaşdıraraq etmişdilər, materialistlər isə eyni şeyi, ruhu inkar edib hər şeyi maddə səviyyəsinə sadələşdirərək gerçəkləşdirdi. Bütpərəstlər, hərəkətlərin orbitlər və ulduzlar tərəfindən idarə edildiyini söyləmişdilər, materialistlər isə, özlərinin, beyinlərindəki elektronların orbitləri tərəfindən idarə olunduqlarını iddia etdilər. Bütpərəstlər, ibadət etmək üçün heyvanların qarşısında əyilmişdilər, materialistlər isə özlərinin heyvandan başqa bir şey olmadığını iddia etdilər. (Stephen M. Barr, Retelling the Story of Science, Mart 2003 http://www.firstthings.com/ftissues/ft0303/articles/barr.html)


Amit Goswami

Oreqon Universiteti Nəzəri Elmlər İnstitutundan fizika professoru Amit Goswami, materializmin insanlara aşılamaq istədiyi təməl məntiqi belə izah etmişdir:

Biz bir maşın olduğumuza inanmağa şərtləndirildik. Buna görə də, bütün hərəkətlərimizə, sinir xəbərdarlıqları və keçmişdəki şərtlənmələr tərəfindən nəzarət edilir. Eynilə sürgünlər kimi, heç bir məsuliyyətimiz və ya heç bir seçim hüqugumuz yoxdur. (Amit Goswami, The Self-Aware Universe "How Consciousness Creates the Material World", Tarcher / Penguin Books, 1995, s. 12)

Halbuki insanı Allah yaratmışdır. İnsan, məqsədsiz və məsuliyyətsiz bir varlıq deyil, materialistlərin iddiasının əksinə şüursuz bir maşın deyil. İnsan, Allaha qarşı məsul bir varlıqdır və axirətdə bütün etdiklərindən ötrü sorğu-suala çəkiləcək.

İnsanları bu həqiqətdən uzaqlaşdırmağa çalışan materialist məntiq, qədim yunanlılardan etibarən tarixin hər dövründə eyni anlayışla tarix səhnəsində yerini almışdır. Lakin bu inancın geniş şəkildə yayılıb, kök salmış



ideologiyaya çevrildiyi dövr, 19-cu əsr oldu. 19-cu əsrdə, klassik fiziklərin böyük hissəsi, maddənin təməl elementlərinin eynilə bilyard topları kimi, cansız, bölünə bilməyən atomlardan meydana gəldiyini və kainatdakı mükəmməl nizam və kompleksliyin mənbəyinin atomların təsadüfi hərəkətlərinin bir nəticəsi olduğunu güman edirdi. Onlara görə, yer üzündəki canlılar da daxil olmaqla hər şey, şüursuz proseslər nəticəsində təsadüf nəticəsində meydana gəlmişdi. Atomlar, şüursuz şəkildə birləşmiş və hazırda qarşımızda gördüyümüz mükəmməl xüsusiyyətləriylə dünyanı, üstəlik də, ağıl və şüur sahibi olan bizi meydana gətirmişdilər. Materialistlər, bu iddiaları sadalayaraq insanın bir Yaradıcı tərəfindən yaradılmadığını və maddi varlıqdan başqa bir şey olmadığını insanların zehinlərinə həkk etmək istəyirdilər. Halbuki insanın mükəmməl sistem və mexanizmlərlə, görünməmiş ağıl və zehin gücüylə yaradıldığı açıq-aydın bir həqiqətdir. Yer üzündə, materialistlərin iddia etdikləri kimi şüursuz hadisələr, bunun nəticəsində yaranan şüursuz struktur və sistemlər yoxdur. Hər şey, bəzən insanın anlama potensialını aşan kompleksliklər və üstünlüklər nümayiş etdirər və bu incəliklər, heç bir təsadüfi müdaxiləyə yer verməyəcək dərəcədə mükəmməl olarlar. Yer üzü, fövqəladə yaradılışın dəlillərini göstərən xüsusiyyətdədir.

Bu həqiqətlərə baxmayaraq, materialistlər şüursuz atomların hər şeyin təməli olduğuna dair iddialarından əl çəkmirdilər. Bəs materialistlərə görə hər şeyin səbəbi olan atom necə bir şeydi?

Atom müəyyən mənada boşluqdur və bu həqiqətən də doğrudur. Bunu belə izah edə bilərik: Neytronlar və protonların birlikdə meydana gətirdikləri

atom nüvəsini, yalnız 1 mm diametrində, bir sancaq başı böyüklüyündə qəbul etsək, nüvənin ətrafında fırlanan elektron bu nüvədən tam 100 metr uzaqlıqda yerləşən bir nöqtədə yerləşər.

(Taşkın Tuna, Ol Dedi Oldu "Big Bang'in Nefes Kesen Öyküsü", Ekim 2005, Şule Yayınları, s. 59)

Nüvə ilə elektronlar arasındakı bu böyük məsafəni isə, yalnız boşluq təşkil edir. Heç nəyin, heç bir maddənin olmadığı bu 100 metrlik boşluq, həqiqi bir "boşluq"dur. Məhz bundan ötrü də, mütəxəssislərin atomu boşluq kimi qəbul etmələri müəyyən baxımdan doğrudur. İngilis fiziki Sir Arthur Eddingtonun ifadə etdiyi kimi, "maddə əsasən xəyal kimi boş sahədən ibarətdir."

(Peter Russell, The Primacy of Consciousness, http://www.peterussell.com/SP/PrimConsc.html)

Daha açıq danışmaq lazımdırsa, atomun 99,9999999%-unda heç nə yoxdur.

Kaliforniya Universitetindən zərrəciklər fiziki Fred Alan Wolf, atomla əlaqədar olaraq bu həqiqəti belə açıqlamışdır:

... Bizim yaşadığımız planetdəki həyatın, kainatın nə qədər boş olduğunu düşündüyümüz vaxt, bir sürpriz olduğunu anlaya bilərik. Əslində, kainatın 99%-dən artığı heçlikdir! Kainatın xoşagəlməz sürətlə genişləndiyini nəzərə alsaq, daha əvvəl heç olmadığı qədər çox heçlik üzə çıxacaq! Buna bu cür baxmaq bizdə heyranlıq oyadan hörmət meydana gətirdiyi halda, atomaltı zərrəciklərin mikrodünyasına nəzər yetirdikdə, vəziyyət daha da pisləşər. Belə demək olarsa, heç nə yoxdur. (Fred Alan Wolf, The Spiritual Universe "One Physicist's Vision of Spirit, Soul, Matter and Self", Moment Point Press, 1999, s. 99)

20-ci əsrin əvvəllərində hər şeyin ən kiçik parçası kimi qəbul edilən atomun içində nəhəng bir boşluq olduğu, bu boşluğun içində də bir nüvə və onun ətrafında fırlanan elektronlar olduğu müəyyənləşdirildi. Maddənin, atomun və onun içindəki təməl zərrəciklərin, yalnız sadə funksiyaları ortaya çıxarılmışdı. Bəs atom nüvəsində, 10^{-18} metrlik bir sahədə, yəni santimetrin milyonda birinin milyonda bir hissəsi qədər bir sahədə nə vardı? Məhz elm adamları bunu bilmirdilər.

1960-cı ildə elmi sahədə çox əhəmiyyətli bir şey kəşf olundu. Protonun dərinliklərində kvark zərrəciklərinin olduğu müəyyənləşdirildi. Bu görünməmiş dərəcədəki kiçik zərrəciklərin yaranma səbəbi, protonun müsbət yükü və neytronun yüksüz olması idi. Zamanla aparılan tədqiqatlar nəticəsində atomun 0,0000001-ni əmələ gətirən həcmin içində möhtəşəm bir dünya olduğu məlum oldu.

Materialistlər, atomun dərinliklərinə doğru getdikcə və maddənin ən kiçik strukturunun fövqəladə incəliklərini gördükcə, çıxış yolunu bu mövzudakı nəzəriyyələrini müxtəlif bir istiqamətdə yaratmaqda gördülər. Bütün kainatın şüursuz və təsadüfi şəkildə yarandığını söyləmək üçün, təkcə atomların deyil, atomun içindəki dünyanın, yəni atomaltı zərrəciklərin hərəkətlərinin də necə meydana gəldiyini izah etməliydilər. Yeganə varlığın maddə olduğu iddiası, materialist zehinlərdəki yerini qoruyurdu. Ta ki, kvant fizikası kəşf olunana qədər...

Materializmi Elmi Cəhətdən Yox Edən Kəşf: Kvant Fizikası

Fiziki kainatın yaradılma forması, ruhun varlığına işarə etməyə kifayətdir. Mənim ruhu tapdığım nöqtələrin kvant mexanizminin işləyişi və ya kvant fizikasının olduğunu deyə bilərik, bunlar, fiziki dünyanın arxasında ruhla əlaqəli bir təməl ola biləcəyini göstərir. (Can Science Seek to Soul, http://www.closertotruth.com/topics/mindbrain/113/113transcript.html) (Kaliforniya Universitetindən tanınmış zərrəciklər fiziki Fred Alan Wolf)


İsaak Nyuton

İsaak Nyutona görə işıq, "korpuskul (hissəcik)" adlı maddə axını idi. Tamamilə hissəciklərdən meydana gəlirdi. Digər bir sözlə, kvant fizikası kəşf edilənədək qəbul edilən ənənəvi Nyuton fizikasının təməli, işığın hissəcik yığına olmasına əsaslanırdı. 19-cu əsr fiziklərindən Ceyms Klerk Maksvel isə işığın dalğa xüsusiyyəti göstərdiyini irəli sürmüşdü. Kvant nəzəriyyəsi, fizikanın bu ən böyük mübahisəsinə son qoydu.

1905-ci ildə Albert Eynşteyn işığın kvantlara sahib olduğu iddiasını irəli sürdü. Bunlara foton deyilirdi. Zərrəcik kimi adlandırılsalar da, 1860-ci illərdə Ceyms Klerk Maksvelin irəli sürdüyü kimi, onları eynilə dalğa hərəkətləri kimi müşahidə etmək mümkün olurdu. Dolayısilə işıq, dalğa və zərrəcik arasında, sanki keçid kimi idi. (George Gilder http://www.taemag.com/issues/articleid.17078/article_detail.asp) Lakin bu vəziyyət, Nyuton fizikası baxımından olduqca böyük ziddiyyət nümayiş etdirirdi.


Maks Plank

Eynşteyndən dərhal sonra Alman əslli fiziki Maks Plank, işıq üzərində tədqiqatlar apararaq, işığın həm dalğa, həm də zərrəcik vəziyyətində ola biləcəyini önə sürən nəzəriyyəsi ortaya atdı və bütün elm aləmini təəccübləndirdi. Kvant nəzəriyyəsi adı altında ortaya atdığı bu nəzəriyyəyə görə enerji, düz və daimi deyil, kəsik, qopuq və nöqtəli kvantlar halında yayılırdı (kvant sözü, latıncada "kəmiyyət", fizikada isə "zərrəcik" mənasını verir). Bu düşüncə riyaziyyata Plank sabiti kimi daxil oldu. Kvant hadisəsində işıq, həm maddə, həm də dalğa xüsusiyyəti daşıyır. Foton adlı maddəyə, kosmosda bir də dalğa yoldaşlıq ediridi. Yəni işıq,

kosmosda hərəkət edən vaxt dalğa kimi, yəni önünə maneə çıxanda aktiv hissəcik kimi hərəkət edirdi. Başqa sözlə desək, işıq, önünə bir maneə çıxanadək enerji şəklini alır, bir maneə ilə qarşılaşdıqda isə sanki maddi mövcudluğu varmış kimi qum dənələrini xatırladan zərrəciklər şəklini alırdı. Bu nəzəriyyə Plankdan sonra Albert Eynşteyn, Nils Bor, Luis De Broglie, Ervin Şrödinger, Verner Heyzenberq, Pol Dirak və Volfqanq Pauli kimi elm adamları tərəfindən inkişaf etdirildi. Hər birinə bu böyük kəşfdən ötrü nobel mükafatı verildi.

Amit Goswami, işığın bu yeni kəşf edilmiş xüsusiyyəti ilə əlaqədar bunları söyləyirdi:

İşıq, dalğa kimi görülə bildiyi vaxtlarda eyni anda iki və ya daha artıq yerdə olma qabiliyyətinə malikdir. Bir çətirin dəliklərindən keçər və səpələnmə xüsusiyyəti göstərər. Lakin işığı bir fotolentə tutduğumuz vaxt, zərrəcik dənələri kimi müəyyən aralıqlara malik və nöqtə-nöqtə bir xüsusiyyət göstərər. O zaman işıq həm zərrəcik, həm də dalğa olmalıdır. Ziddiyyətli, deyil mi? Bəhs olunan köhnə fizikanın sipərlərindən biri: birdən artıq şərhə yer verməyən qəti izahdır. Haqqında danışılan digər şey isə obyektivlik anlayışıdır: İşığın təbiəti, yəni işığın nə olduğu, onu necə müşahidə etdiyimizdənmi asılıdır? (Amit Goswami, The Self-Aware Universe "How Consciousness Creates the Material World", Tarcher / Penguin Books, 1995, s. 31)

Elm adamları, artıq maddənin cansız, kor və anlaşılmaz hissəciklər olduğuna inanmırdılar. Digər bir sözlə, kvant fizikası materialist məna daşımırdı. Çünki maddədə, maddi olmayan bir şey vardı. Eynşteyn, Phillip Lenard və Compton işığın zərrəcik quruluşunu tədqiq edərkən, Luis De Broglie də dalğaların quruluşunu tədqiq etməyə başladı. Broglienin kəşfi isə fövqəladə idi. Apardığı tədqiqatlar nəticəsində atomaltı zərrəciklərin də dalğa xüsusiyyətləri göstərdiklərini müşahidə etdi. Elektron, proton kimi zərrəciklərə də dalğa boyunca yoldaşlıq edir. Yəni materializmin mütləq

maddə kimi səciyyələndirdiyi atomun içində, materialistlərin inancının əksinə maddə deyil, əslində mövcud olmayan enerji dalğaları vardı. Atomun içindəki bu kiçik zərrəciklər, eynilə işıq kimi, istədikləri vaxt dalğa kimi hərəkət edir, istədikləri vaxt da zərrəcik xüsusiyyəti göstərirdilər. Yəni materialist açıqlamaya görə atomun içində "mütləq şəkildə mövcud olan maddə", materialistlərin ehtimallarının əksinə bəzən görüləcək hal alır, bəzən də yox olurdu. Bu əhəmiyyətli kəşf, real dünya zənn etdiyimiz görünüşlərin kölgə varlıq olduğunu, maddənin, fizikadan tamamilə uzaqlaşdığını və metafizikaya yönəldiyini göstərirdi.

(David Pratt http://www.theosophy-nw.org/theosnw/science/prat-mat.htm)

Fizik Riçard Feynman atomaltı zərrəcikləri və işıqla əlaqədar bu maraqlı həqiqəti bu sözlərlə açıqlayırdı:

"Elektronların və işığın necə davrandıqlarını artıq bilirik. Bəs necə davranırlar? Zərrəcik kimi davrandıqlarını söyləsəm yanlış təəssürat yaradaram. Dalğa kimi davranırlar desəm, yenə eyni şey olar. Onlar özlərinə məxsus, bənzərsiz şəkildə hərəkət edirlər. Buna texniki cəhətdən, "kvant mexanizminin bir davranış forması" deyə bilərik. Bu, daha əvvəl gördüyünüz heç nəyə bənzəməyən bir davranış formasıdır... Bir atom, bir yayın ucuna asılmış yellənən bir ağırlıq kimi davranmaz. Nüvəni əhatə edən bulud və ya duman təbəqəsinə də çox bənzəməz. Daha əvvəl gördüyünüz heç nəyə bənzəməyən bir tərzdə davranar. Ən azı bir sadələşdirmə apara bilərik: Elektronlar müəyyən mənada eynilə fotonlar kimi davranarlar, ikisi də eyni şəkildə "qəribədir". Necə davrandıqlarını qavramaq təxəyyül gücü tələb edir, çünki qavrayacağımız şey bildiyiniz hər şeydən fərqlidir... Bunun niyə belə olduğunu isə, heç kəs bilmir". (Richard Feynman, The Character of Physical Law, Türkçe bask: Fizik Yasalar Üzerine, TÜBİTAK Yaynlar, s. 149-151 - http://www.zamandayolculuk.com/cetinbal/kopenhag.htm)

Bütün bunları xülasə etsək: Kvant mexaniklərinin söylədikləri, obyektiv dünyanın bir illüziya olması idi. (Thomas J. McFarlane, "The Illusion of Materialism" http://www.integralscience.org/materialism/materialism.html) Maks Plank adına Fizika İnstitutunun rektoru prof. Hans-Peter Dürr bu həqiqəti belə yekunlaşdırırdı:

Maddə hər nədirsə, maddədən meydana gətirilməmişdir.

(Peter Russell, The Primacy of Consciousness, http://www.peterussell.com/SP/PrimConsc.html)

1920-ci ildə ən tanınmış fiziklər olan, Pol Dirakdan Nils Bora, Albert Eynşteyndən Verner Heyzenberqə qədər hər kəs, kvant təcrübələrinin nəticələrini açıqlamağa çalışdı. Nəticədə 1927-ci ildə Brükseldəki beşinci Solvay Fizika konqresində bir qrup fizik (Bor, Maks Born, Pol Dirak, Verner Heyzenberq və Volfqanq Pauli) kvant mexanikasının Kopenhagen təfsiri adlandırılan razılığa gəldilər. Bu ad, qrupun lideri olan Borun işlədiyi yerin adı idi. Bor, kvant nəzəriyyəsinin nəzərdə tutduğu fiziki həqiqətin, bir sistemə dair bizim sahib olduğumuz məlumat olduğunu və bu məlumata arxalanaraq ortaya atdığımız təxminlər olduğunu irəli sürdü. Buna görə də, bizim beynimizdəki bu "təxminlərin" "xarici aləmdəki" reallıqla əlaqəsi yox idi. Yəni "içimizdəki dünya", Aristoteldən indiyədək fizikləri maraqlandıran başlıca mövzu olan "xarici aləmdəki həqiqi" dünya ilə əlaqədar deyildi. Fiziklər bu fikirlə əlaqədar keçmiş düşüncələrini bir kənara qoymuş və kvant

anlayışının fiziki sistem üzərində yalnız "bizim məlumatımızı" təmsil etdiyi barədə həmfikir olmuşdular. (Jeffrey M. Schwartz, Sharon Begley, The Mind and The Brain "Neuroplasticity and the Power of Mental Force", Regan Books, 2003, s. 272-273) Digər bir sözlə, bizim qəbul etdiyimiz maddi dünya, yalnız bizim beynimizdəki məlumatlar sayəsində mövcud olurdu. Yəni xarici aləmdəki maddənin əsli ilə heç vaxt təmasda ola bilmirdik.

Jeffrey M. Schwartz, Kopenhagen təfsirinə görə ortaya çıxan nəticəni belə ifadə edirdi:

Fizik John Archibald Wheelerin söylədiyinə görə: "Heç bir hadisə, müşahidə edilmədən baş vermir". (Jeffrey M. Schwartz, Sharon Begley, The Mind and The Brain "Neuroplasticity and the Power of Mental Force", Regan Books, 2003, s. 274)

Xülasə, kvant mexanikasının verdiyi açıqlama daim bir "qəbul edənin" olduğuna əsaslanırdı. (Roger Penrose, The Road to Reality, Alfred A. Knopf, 2006 s. 1031)

Amit Goswami bu həqiqəti belə ifadə etmişdi:

Bu sualı verdiyimizi fərz edək: Yuxarıya baxmadığımız vaxtlarda da Ay hələ də öz yerində olarmı? Ay, nəticədə bir kvant obyekti olduğu üçün (tamamilə kvant obyektlərindən meydana gəldiyi üçün), fizik David Mermin də ifadə etdiyi kimi buna xeyr deməliyik.

Bəlkə də, ən əhəmiyyətli və uşaqlığımızda mənimsədiyimiz ən gizli zənn, xarici aləmdə mövcud olan obyektlərin maddi aləminin, müşahidə edənlərin meydana gətirdiyi obyektlərdən müstəqil olmasıdır. Bu zənnin lehində bilvasitə dəlillər var. Məsələn, biz Aya baxdığımız vaxt, onun klassik olaraq hesablanmış orbitində olmasını gözlədiyimiz yerdə taparıq. Əlbəttə ki, biz ona baxmasaq da, zaman-məkan anlayışı çərçivəsində Ayın mütləq orada olduğunu zehnimizdə canlandırarıq. Kvant fizikası isə buna xeyr cavabını verir. Biz Aya baxmadığımız vaxt, hər nə qədər cüzi miqdarda da olsa, onun dalğaları yayılar. Biz ona baxdığımız vaxtsa, dalğa dərhal yox olar və dalğa artıq zaman-məkan anlayışı çərçivəsində olmaz. İdealist bir metafizik fərziyyəni ifadə etmək məsələni daha da aydınlaşdıracaq: Əgər ona baxan şüurlu bir insan yoxdursa, zaman-məkan anlayışı içində heç bir obyekt yoxdur. (Amit Goswami, The Self-Aware Universe "How Consciousness Creates the Material World", Tarcher / Penguin Books, 1995, s. 59-60)

Əlbəttə ki, bu bizim qavraya biləcəyimiz çərçivədədir. Əlbəttə ki, xarici aləmdə bir Ay olduğu aydındır. Lakin biz baxdığımız vaxt, ancaq Ayın öz dünyamızdakı mövcudluğuyla qarşılaşarıq.

Kaliforniya Universitetindən nevrologiya və psixiatriya professoru Jeffrey M. Schwartz isə, kvant fizikasının göstərdiyi bu həqiqətlə əlaqədar "The mind and the brain" (zehin və beyin) kitabında bu sətirlərə yer vermişdir:

Kvant fizikasındakı müşahidəni qüvvətli şəkildə ifadə etmək olmur. Klassik fizikada (Nyuton fizikası) müşahidə edilən sistemlər, onu müşahidə edən və araşdıran bir şüur sahibindən müstəqil şəkildə mövcudluğa malikdir. Lakin kvant fizikasında, yalnız müşahidə nəticəsində fiziki bir kəmiyyətin həqiqi bir qiyməti olur. (Jeffrey M. Schwartz, Sharon Begley, The Mind and The Brain "Neuroplasticity and the Power of Mental Force", Regan Books, 2003, s. 264)

Jeffrey M. Schwartz, müxtəlif fiziklərin mövzuyla əlaqədar söylədiklərini belə yekunlaşdırmışdır:

Jacob Bronowskinin "the ascent of man" kitabında ifadə etdiyi kimi: "Fizika elmlərinin məqsədlərindən biri, maddi dünyanın tam görünüşünü vermək idi. 20-ci əsrdə fizikadakı ən böyük müvəffəqiyyətlərdən biri isə, bu məqsədin imkansız olduğunu sübut etmək oldu."

Heyzenberqə görə isə, obyektiv həqiqət "buxar olub uçmuşdur". 1958-ci ildə bunları etiraf etmişdir: "Kvant nəzəriyyəsində riyazi olaraq düstur ifadə etdiyimiz təbiət qanunları, artıq doğrudan da zərrəciklərlə deyil, zərrəciklər haqqındakı məlumatımızla əlaqədardır".

Bor isə: "Fizikanın vəzifəsinin, təbiətin necə olduğunu araşdırmaq olduğunu düşünmək yanlışdır. Fizika, təbiət haqqında bizim nə söyləyəcəyimizlə əlaqədardır" demişdir. (Jeffrey M. Schwartz, Sharon Begley, The Mind and The Brain "Neuroplasticity and the Power of Mental Force", Regan Books, 2003, s. 274)

Ölkəmizdə də (Türkiyədə) yayımlanan "what the bleep do we know" (nə bilirik ki?) sənədli filmindəki qonaq fiziklərdən Fred Alan Wolf isə bu həqiqəti belə dilə gətirmişdir:

Obyektləri meydana gətirənlər, daha çox obyektlər deyildir. Obyektləri meydana gətirənlər fikirlər, anlayışlar və bilikdir.

(What the Bleep Do We Know?, Belgesel film, yönetmen: William Arntz, Betsy Chasse)

80 il mövcudluğunu davam etdirən insan zəkasının edə biləcəyi ən maraqlı və həssas təcrübələrdən sonra, qəti və elmi cəhətdən sübut edilən kvant fizikasına qarşı heç bir əks fikir yoxdur. Aparılan təcrübələr nəticəsində də əks bir fikrlə qarşılaşılmamışdır. Kvant nəzəriyyəsinin müddəaları, yüzlərlə müxtəlif istiqamətdən aparılması mümkün olan sınaqlardan keçirilmiş və elm adamlarının apardığı hər cür testdən keçmişdir. (Nick Herbert, Temel Bilinç, Ayna Yayınevi, 1999, s. 146) Bir çox elm adamına nobel mükafatı qazandırmışdır və hələ də qazandırır. Qeyd-şərtsiz tək həqiqət kimi qəbul edilmiş Nyuton fizikasının gətirdiyi ən təməl anlayışı, mütləq maddə anlayışını yox etmişdir. Keçmiş fiziki qanunların tərəfdarları, maddənin tək və həqiqi varlıq olduğuna inanan materialistlər, kvant fizikasının gətirdiyi "maddəsizlik" həqiqəti qarşısında sözün əsil mənasında tərəddüd ediblər. Artıq bütün fizika qanunlarını metafizik çərçivədə axtarmaq məcburiyyətindədirlər. Bu böyük şok, 20-ci əsrin əvvəllərində materialistlərdə, hal-hazırda bu sətirlərdə tərif edilə bilməyəcək qədər böyük təəccüb oyatmışdır. Kvant fiziki Bryce Dewitt və Neil Graham bu vəziyyəti belə təsvir edirlər:

Müasir elmdəki heç bir kəşf, insan düşüncəsində kvant nəzəriyyəsinin kəşfindən daha dərin iz qoya bilməmişdi. Əsrlər boyu meydana gələn düşüncə qəliblərindən əziyyət çəkən bir nəsil əvvəlki fiziklər, indi yeni bir metafizik düşüncəni qəbul etmək məcburiyyətində qaldılar. Bu yeni istiqamətlənmənin gətirdiyi çətinlik dövrümüzədək davam etdi. Fiziklər əsasən ciddi bir itkiylə üzləşdilər: Həqiqətə olan inamları. (Nick Herbert, Temel Bilinç, Ayna Yayınevi, 1999, s. 143)

Elektronların Dalğa Xüsusiyyəti və Bunun Elmi Sübutu

Atomaltı zərrəciklərin bəhs olunan maraqlı xüsusiyyətini göstərən ən əhəmiyyətli təcrübə, yunq təcrübəsidir. Bu təcrübə, işığın və elektronun dalğa kimi davrandığını, ikisinin də eyni ölçüdə qəribə xüsusiyyət göstərdiyini görmək üçün aparılmışdır. Burada mövzunu daha yaxşı başa düşə bilmək üçün təcrübənin, elektron əvəzinə qum dənəcikləri ilə aparıldığı fərz edilmişdir.

Böyük bir zərrəcik mənbəyini, məsələn bir qumüfüreni bir divarın qarşısına gətirək. Divarda iki yarıq olsun. Divarın digər tərəfində isə, bu iki yarıqdan keçən zərrəcikləri izləyən bir ekran olsun. Zərrəciklər, mənbədən buraxılar, yarıq boyu hərəkət edər və ekrana dəyərlər. Bir çox zərrəciyin yarıqlardan keçməsini və ekrana dəyməsini seyr etdikdən sonra, ekran üzərində iki yığın halında nöqtəciklər meydana gəldiyini görərik. Birinci yığın, ilk yarıqdan gələn zərrəciklər, digər yığın isə, o biri yarıqdan gələnlərdir. Hadisə gözlədiyimiz kimi gerçəkləşmişdir.

İndi təcrübəni fərqli şəkildə apardığımızı düşünək. Bəhs etdiyimiz təcrübə mühitini müəyyən maddə ilə dolduraq, məsələn, suyla. Qum dənəcikləri əvəzinə bir titrəşmə cihazından istifadə edək. Bu cihaz mühiti hərəkətə gətirsin və daimi şəkildə bütün istiqamətlərə doğru su dalğaları meydana gətirsin. Dalğalar, zərrəciklər kimi müəyyən sahə içində məhdudlaşmamışdır. Mühitin hər yerinə yayıla bilər. Nəticə etibarilə, eyni anda hər iki yarıqdan da keçən dalğalar tək bir mühit içində yayılar, bir-birləriylə qarşılaşar və bir-birlərinin hərəkətinə maneə törədərlər. Bir dalğanın təpə nöqtəsi digəri ilə qarşılaşdıqda, bir-birlərinin təsirini yox edərlər. Dalğanın yaratdığı təsir yox olar və geridə su səthində meydana gələn düz səth qalar. Bu, dalğaların ən əsas xüsusiyyətidir.

Təcrübə elektronlar üzərində aparıldıqda, qum dənəciklərində olduğu kimi böyük miqdarda atom yığınının ekrana dəyməsi əvəzinə, elektronların bir-birlərini mane olduqları müşahidə edilmişdir. Digər bir sözlə, zərrəcik kimi qəbul edilən elektronlar üçün gözlənilən şey baş verməmişdir. Dolayısilə, elektronlar mane olma xüsusiyyəti göstərdiklərindən dalğa xüsusiyyəti daşımalı, zərrəcik olmamalıdırlar. Lakin elektronlar dalğa da ola bilməzlər, çünki eynilə zərrəciklər kimi, ekrana fasilələrlə yığınlar halında dəyirlər. Belə olan halda, müşahidələrimiz, elektronların qaynaqdan çıxdıqları və ekrana çatdıqları vaxt zərrəcik olduqları, lakin bunun arasındakı hər yerdə dalğa olmalarıdır. Bu həqiqətən də çox qəribədir.

(http://www.integralscience.org/materialism/materialism.html)

Bu təcrübi sübut, materializmi yox etmişdir. Materializmə görə hər zərrəcik, mütləq kosmosda müəyyən yerdə obyektiv mövcudluğa malikdir. Yenə materializmə görə, bir elektron bir aralıq boyunca tək bir yolla hərəkət etməlidir və istiqaməti bilinməyən dalğa kimi iki aralıq arasında hərəkət etməməlidir. Lakin materialistlərin gözlədikləri baş tutmamışdır.

Burada bəhs etdiyimiz dalğa, suda meydana gələn dalğa kimi fiziki məna daşımır. Buradakı dalğa, elektron dalğalarıdır. Bu dalğalar, bizim fiziki dünyamızdakı üç ölçülü mühitdə yoxdurlar.

Bəhs etdiyimiz kimi dalğa anlayışını tanınmış fizik Fred Alan Wolf belə ifadə edir:

Kvant fizikləri bir hadisənin baş vermə ehtimalını müəyyənləşdirdikləri vaxt, bir ədəd müəyyənləşdirirlər. Bu ədəd, kvant dalğa funksiyaları adlandırılan iki riyazi funksiyasının hasilindən ortaya çıxar... Bu dalğa funksiyaları zaman və məkan içində hərəkət edən həqiqi bir dalğa kimi fərz edilərlər. Lakin əslində bunlar həqiqi dalğa deyildirlər, tamamilə xəyalidirlər. Bunlar, maqnetik sahə və ya cazibə sahəsi kimi bir sahə deyildirlər. Bunları ölçmək olmaz. Kütlələri və ya enerjiləri yoxdur. Bunlar yalnız bizim zehnimizdə və təxəyyülümüzdə mövcud olarlar. Yəni, müşahidə etdiyimiz həqiqi maddi varlıqlar kimi varlıqları yoxdur...

Zaman halqalarını idarə edən dinamika qanunları, bizə aid bir hekayəni əmələ gətirərlər. Digər bir sözlə, bir zaman halqası yarandıqda, şüurlu və ya şüursuz şəkildə "xarici aləmdə"ymiş kimi irəli sürdüyümüz, həm öz zehnimizdə, həm də obyektiv surətdə bölüşdüyümüzə inandığımız reallıqda meydana gəlir.

(Fred Alan Wolf, Mind into matter "A New Alchemy of Science and Spirit", 2001, Moment Point Press, s. 105)


Fred Alan Wolf

Fred Alan Wolfa görə, elektronlarla əlaqədar konkret və elmi həqiqət, onların bildiyimiz fiziki və ya riyazi anlayışlar çərçivəsində dərk edilməsinin mümkünsüz olmasıdır. Lakin biz onsuz da xaricdəki reallıqla heç vaxt təmasda ola bilmərik. Öz hisslərimizdən kənara çıxaraq xarici aləmin əslinə çatmağımız qeyri-mümkündür.

Yunq təcrübəsi, bütün atomaltı zərrəciklər vasitəsilə sınaqdan keçirilə bilər. Lakin nəticə həmişə eyni olacaq. Çünki kvant mexanizmi, bütün kainata hakimdir. Milyonlarla atom birləşib böyük bir obyekti və ya bir insanı meydana gətirdikdə, bəhs olunan maneə törədici təsirin müşahidə edilmə ehtimalı da azalır. Lakin bu, kvant mexanikasının artıq etibarsız olması demək deyil. Sadəcə artıq bu əməliyyatı müşahidə etmək mümkün deyil. Dolayısilə, bu həqiqət bütün maddələr üçün etibarlıdır. Vaşinqton Universitetindən riyaziyyatçı Tomas McFarlaneyə görə kvant mexanikasında, gündəlik həyatımızda qarşımıza çıxan böyük obyektlər də əslində obyektiv şəkildə mövcud olan maddələr deyildirlər. Farlaneyə görə, obyektiv şəkildə mövcud olan dünyanın görünüşü, yalnız bir illüziyadır. (http://www.integralscience.org/materialism/materialism.html)

Kvant mexaniklərinin elmi cəhətdən sübut etdikləri şey, obyektiv dünyanın sıxlaşdırılmış bir dalğa formasında mövcud olmasıdır. Kvant mexanizmi ilə maraqlananların fikrinə əsasən, insanı aldadan ən böyük problem isə bizim hisslərimizlə mövcud olan dünyada, gerçəkliyi olduqca inandırıcı olan incəlik, dəqiqlik və konrektliyin olmasıdır. Halbuki xarici



aləm bizə heç vaxt çatmır. Biz xarici aləmdəki gerçəkliyi, xarici aləmdə mövcud olan maddi aləmin əslini heç vaxt görə bilmərik. Bizim zehnimizdə yaranan bir dünya var və bizim hisslərimizlə mövcud olmasına baxmayaraq, bu dünya mükəmməl konkretliklə meydana gəlir. Gündəlik həyatımız, xarici aləmdə mövcud olan gerçəkliklə olduqca ziddiyyətli görünüş təqdim edir. Bu vəziyyətdə qarşımıza: "Fiziki reallıqlar, yoxsa bizə doğru və konkret görünənlərmi doğru qəbul edilməlidir?" sualı çıxır. Tomas J. McFarlane, bu suala belə bir müqayisə ilə cavab tapılacağını bildirir.

McFarlaneyə görə dövrümüzün elm adamlarının, bu cavabı tapmaq üçün bundan 300 il əvvələ qayıdıb, yer kürəsinin düz olduğuna inanan insanlarla qarşılaşdıqlarını düşünə bilərik. Alimlər, onların səhvini düzəltmək üçün onlara nəzakətlə səhv düşündüklərini, Yerin əslində kürə formalı olduğunu söyləyərlər. Onlar isə ehtimal ki, elm adamlarından niyə belə ağılsız bir düşüncəyə qapıldıqlarını soruşarlar. Elm adamları isə onlara, o dövrdəki şərait və elm çərçivəsində öz tezislərini sübut edəcək tək bir dəlil belə gətirə bilməzlər. Lakin onlar dövrümüzün insanlarına, bütün təcrübələrinə əsaslanaraq və bununla əlaqədar dəlillər gətirərək Yerin düz olduğunu imkanları çərçivəsində açıqlayarlar. Üstəlik, yer səthində ölçmə işləri aparmaq və yol xəritələri hazırlamaq üçün müstəvi həndəsəsi anlayışından istifadə edər və gündəlik həyatlarında bununla ziddiyyət təşkil edən heç nə tapmazlar. Eynilə, geniş bir əraziyə və ya dənizə baxdıqları vaxt da heç bir əyrilik görmədiklərini söyləyər və Yerin kürə formalı olduğunu sübut edən heç bir dəlil tapılmadığını iddia edərlər. Bu vəziyyətdə: "Dünya kürə formalıdır" iddiası yalan kimi qalar. Elm adamları, heç nə sübut edə bilməmiş şəkildə, zaman maşınlarına minib və dövrümüzə qayıdarlar.

(http://www.integralscience.org/materialism/materialism.html)

McFarlaneyə görə, dostlarımızı Yerin kürə formalı olduğuna inandıra bilməməyimizin səbəbi, əlbəttə ki, özümüzü Yer kürəsiylə müqayisə etdikdə çox kiçik olmağımızdır. Təcrübəmiz kiçik bir ərazidə baş tutduğu üçün Yer kürəsi, əslində belə olmadığı halda, düz kimi görünür. Digər bir sözlə, Yerin

görünən hamarlığı əslində həqiqi hamarlıq deyil, çünki Yer düz deyil. Lakin Yer kürəsi böyük olduğu üçün bu aldadan düzlükdür. Yerin kürə formalı olduğunu sübut etmək üçün, gündəlik təcrübələrimizdən kənara çıxmalıyıq. Məsələn, bir təyyarə ilə Yerin ətrafında uça bilər və ya kosmik gəmi ilə kosmosa çıxa bilərik. Lakin gündəlik təcrübələrimizlə kifayətləndiyimizdə, düzlüyün bir illüziya olduğuna dair heç bir sübutumuz olmaz. Eynilə, Yerin düz olduğuna inanmamaq üçün bir səbəbimiz də yoxdur. McFarlane, verdiyi bu nümunədən sonra sözlərinə belə davam edir:

Əgər insanlar keçmişdə həqiqət barəsində bu qədər aldanıblarsa, biz hal -hazırda aldanmadığımızı haradan bilərik? Gördüyünüz kimi, bizim indiki həqiqi fikrimizin gündəlik təcrübələrimizin nəticələriylə üst-üstə düşməsi, bunların həqiqət olduğu mənasını verməz. Bizim təcrübələrimizin bir sərhəddi olduğu üçün, bəlkə də, dünyanın obyektiv olduğu fikirimiz həqiqətən də bir illüziyadır. Eynilə düz dünya fikrinin bir illüziya olması kimi.

(http://www.integralscience.org/materialism/materialism.html)

Maddənin Mütləq Olduğu İddiası, Materializmlə Birlikdə Yox Oldu

Kvant mexanikası bizə bu nəticəni göstərdi: Maddə, materialistlərin iddia etdikləri kimi mütləq və sonsuz deyil. Maddə əzəli və ya əbədi olmadığı kimi, ətrafımızda gördüyümüz varlıqlar da yalnız bir atom yığını deyildirlər. Kvant fizikasına görə maddə, materialistlərin heç düşünmədikləri ölçülər çərçivəsində xüsusiyyət dəyişdirmiş və maddənin təməlinin yalnız bir enerji forması olduğu elmi cəhətdən sübut edilmişdir. Materializm, kvant fizikasının göstərdiyi həqiqətlərlə elmi mənada qəti şəkildə tənəzzül etmişdir.

Paul Davies və John Gribbin, yeni fizikanın materializmi tamamilə yox etdiyi həqiqətini belə yekunlaşdırır:

Materializmin həyat mənbəyi fizika elminin, eyni zamanda materializmin ölümü üçün siqnal olduğunu söyləmək doğrudur. 20-ci əsr boyu yeni fizika, bir sıra təəccüb oyandıran kəfşlərlə materialist doktrinanın təməllərini yox etdi. Əvvəlcə, Nyutonun məkan və zaman mövzusundakı təxminlərini yox edən nisbilik nəzəriyyəsi ortaya çıxdı... və daha sonra kvant nəzəriyyəsi ortaya çıxdı və bizim maddə görünüşümüzü tamamilə dəyişdirdi.

(Paul Davies and John Gribbin, The Matter Myth "Dramatic Discoveries That Challenge Our Understanding of Physical Reality", Touchstone books, 1992, s. 14)

Fizik Fred Alan Wolf isə, materializmi artıq elm adamlarının da tərk etdiyini belə xəbər verir:

Əksər elm adamı da daxil olmaqla böyük əksəriyyətimiz, yeni obyektiv materializmi qəbul etmirik. Qəlbimizin dərinliklərində bizdən əvvəlki kimyaçıların etdikləri kimi, bütün kainatdan məsul olan şeyin, materializmdən olduqca zəngin olduğuna inanırıq.

(Fred Alan Wolf, Mind into matter "A New Alchemy of Science and Spirit", 2001, Moment Point Press, s. 6-7)

Materializmin süqutunun gətirdiyi nəticə nədir? İnsanların böyük hissəsini aldadan, onları Allahın varlığına inanmalarına imkan verməyən ən böyük səbəblərdən biri maddənin yeganə mütləq varlıq olduğuna dair qəti qənaətləridir. Xarici aləmi, qəbul etdikləri hisslər toplusu kimi qəbul etmək əvəzinə, gördükləri hər şeyin əsli ilə təmasdaymış kimi davranarlar.

Materializmin irəli sürdüyü maddənin yaranmasındakı məqsədsizliyi, özlərinə də tətbiq edər, eləcə də, dünyaya gəlmə və dünyada mövcud olma məqsədlərinin olmadığını zənn edərlər. Allahın varlığının dəlillərini görə bilməz və inana bilmək üçün Allahın da (Allahı tənzih edirik) maddi varlıq kimi özlərinə görünməsini gözləyərlər. Varlıqların yaradılmadıqlarına inanar və dolayısilə bir Yaradıcının varlığını əsla qəbul etmək istəməzlər.

Məhz materializm bəhanəsinə sığınılaraq, əslində Allahın mütləq varlığı və bütün şeyləri yaratdığı həqiqətləri inkar edilməyə çalışılır. Materializmin süqutu, bu bəhanəni qəti şəkildə ortadan qaldırmış, Allahın mütləq varlığı həqiqətini bütün dəlillərivlə göstərmişdir.

Delaver Universiteti Bartol Araşdırma İnstitutundan zərrəciklər fiziki Stephen M. Barr, bu həqiqəti bu sözlərlə ifadə edir:

Stephen M. Barr

Elm bizi belə bir macəraya sürüklədi. Silahlarla deyil, teleskoplarla və zərrəcik sürətləndiricilərivlə təchiz olunmuş və mürəkkəb riyaziyyatın işarələri və simvollarıyla danışan elm, bizə, çox fərqli sahilləri və bizə olduqca yad olan fantastik yerləri gətirdi. Kainatı araşdırmağa davam etdikcə, səfərin sonuna çatdıqda, artıq bir-bir bizə tanış gələn sərhəd daşlarını və ən qədim evimizin planını qavramağa başladıq. Həqiqəti tapmağa çalışdığımız bu səfər ən sonunda bizi Allaha yönəldir.

(Stephen M. Barr, Retelling the Story of Science, http://www.firstthings.com/ftissues/ft0303/articles/barr.html)

Maddənin əsli ilə təmasda olunduğunu düşünmək yalnız bir zənndir. Hisslərimizlə qavraya bildiyimiz bu dünyada, buna dair heç bir dəlil yoxdur. Biz, yalnız öz hisslərimizdə mövcud olan dünyanı görə bilər və eşidə bilərik. Xarici aləmdəki maddi dünyanın əslinə çatmağımızsa qeyri-mümkündür. Kainat əzəli və əbədi deyil, başlanğıcı və sonu var. Kainatın heç bir nöqtəsində, materialistlərin iddia etdiyi kimi "məqsədsizlik" yoxdur. Bütün kainat və bunun içindəki hər varlıq, bir məqsəd üçün yaradılmışdır. Bunların hamısının göstərdiyi tək bir nəticə var: Kainatın hər nöqtəsində yaradılış hakimdir. Yaradılan əsərlərsə, olduqca üstün bir gücün, bir Yaradıcının varlığını göstərər. Bu Yaradıcı, bütün aləmləri əhatə edən Uca Allahdır.

Materialistlərin bu həqiqətə qarşı apardıqları mübarizə artıq heç bir məna kəsb etmir. Çünki müasir fizika elmi, onların söylədiklərinin tam əksi olan nəticələr vermişdir.

Allah ayələrində belə bildirir:

Biz göyü, yeri və onların arasında olanları əyləncə üçün yaratmamışıq. Əgər Biz *(Özümüzə)* **əyləncə düzəltmək fikrində olsaydıq, onu mütləq Öz dərgahımızda olanlardan hazırlayardıq. Lakin Biz** *(bunu)* **etmədik. Xeyr, Biz haqqı batilin üstünə atarıq və o da onun işini bitirər. Bir anda** *(batilin)* **yox olub getdiyini görərsiniz.** *(Allaha)* **aid etdiyiniz sifətlərə görə vay halınıza! Göylərdə və yerdə kimlər varsa,** *(hamısı)* **Onundur. Onun yanında olanlar Ona ibadət etməyə təşəxxüs göstərmir və** *(bundan)* **yorulmurlar.** (Ənbiya surəsi, 16-19)

ALLAHIN SONSUZ YADDAŞI VƏ İNSANIN MƏHDUD YADDAŞI

Biz 5 duyğu orqanımız vasitəsilə hiss edir və yaşayırıq. Beş duyğunun icazə verdiyi şeyləri qəbul edir, bunun xaricinə heç bir zaman çıxa bilmirik. Yaşadığımız zamanı və məkanı da belə hiss edirik. Beynimiz 5 duyğu ilə bir varlığı təsbit edə bilmirsə, o varlıq üçün "yox oldu" deyirik. Buna bağlı olaraq yaddaşımız hansı hadisəni, ya da görüntünü mühafizə etsə, o bizim üçün vardır, yəni diridir, nəyi unutsa, artıq o bizim üçün yoxdur. Başqa sözlə desək, yaddaşımızda olmayan varlıqlar və hadisələr bizim üçün ölmüşdür, keçmişdir, yox olmuşdur.

Lakin bu, yalnız insanlara aiddir, çünki yalnız insanların yaddaşı məhduddur. Allahın yaddaşı isə sərhədsiz və sonsuzdur. Ancaq bunu da qeyd etmək lazımdır ki, "Allahın yaddaşı" anlayışının istifadə edilməsi yalnız mövzunu açıqlayamaq məqsədi daşıyır, yoxsa iki yaddaş arasında hər hansı bir müqayisə, ya da bənzətmə edilməsi əsla mümkün deyil. Allah hər şeyi yoxdan var edən və hər şeyi incəliyinə qədər biləndir.

Allah Quranda Özünü bəzi sifətləri ilə tanıtmışdır. Bunlardan biri də Hafiz, yəni "görülən bütün işləri incəliyinə qədər saxlayan, qoruyan, mühafizə edən" sifətidir və bu sözün ardında çox əhəmiyyətli sirlər gizlidir.

"LÖVHİ-MƏHFUZ"

Allah Qatında hər şey bir anda olub-bitmişdir. Dünya var olduğundan bəri reallaşan hadisələr də bu bir ana sığır və bu ana dair bütün məlumatlar Allah Qatında bir "Kitab"da saxlanılır. Quranda Lövhi-Məhfuz olaraq adlandırılan "Ana Kitab"da hər şeyin məlumatının olduğu ifadə edilir:

Şübhəsiz ki, o, yanımızdakı Ana Kitabdandır. O, ucadır, hikmətlə doludur. (Zuxruf surəsi, 4)

... Kitabın anası da Onun yanındadır. (Rəd surəsi, 39)

... Bizdə *(hər şeyi)* **qoruyan bir Kitab** *(Lövhi-məhfuz)* **vardır.** (Qaf surəsi, 4)

Göydə və yerdə elə bir gizli şey yoxdur ki, açıq-aydın Yazıda *(Lövhi-məhfuzda)* **olmasın.** (Nəml surəsi, 75)

(Hər kəsin) **kitabı** *(qarşısına)* **qoyulacaq və sən günahkarların orada** *(yazılmış)* **olanlardan qorxduqlarını görəcəksən. Onlar deyəcəklər: "Vay halımıza! Bu necə bir kitab imiş! O nə bir kiçik, nə də bir böyük günahı buraxmadan hamısını sayıb yazmışdır!" Onlar etdikləri əməlləri öz qarşılarında görəcəklər. Rəbbin heç kəsə haqsızlıq etməz!** (Kəhf surəsi, 49)

Allah başqa ayələrində də dünyada insanların yaşadıqları bütün hadisələrin, bütün düşüncələrinin, başlarına gələn hər şeyin bu kitabda olduğunu belə xəbər verir:

Yer üzündə baş verən və sizin başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, Yazıda *(müəyyənedilmiş)* **olmasın. Şübhəsiz ki, bu, Allah üçün çox asandır.** (Hədid surəsi, 22)

Kainat yaradıldığından bəri var olan canlı-cansız hər şeyi, reallaşan hər hadisəni Allah yaradır və dolayısı ilə Onun məlumatı daxilindədir, yəni bütün bunlar "Allahın yaddaşı"ndadır. Lövhi-Məhfuz da Allahın Hafiz sifətinin təcəllisidir.

Bu tikililərin dağıdılmasının hər anı Allah Qatında qeyd edilmişdir.

Bu vəziyyətdə qarşımıza çox əhəmiyyətli bir həqiqət çıxır: Allahın yaddaşı sonsuzdur, o halda onda var olan heç bir şey yox olmaz. Allahın yaratdığı heç bir canlı ölüb-itməz, heç bir çiçək solub yox olmaz, heç bir müddət keçməz, heç bir yemək-içmək tükənməz... Allah hər an yaradır və hər şey əzəldə yaradılmış və "sonsuzluğa məhkum edilmişdir".

"Sonsuzluğa məhkum edilmək" nə deməkdir?

Bunu belə açıqlaya bilərik: Hər varlığın və hadisənin yaradıldığı anda əslində onun üçün sonsuzluq da başlamışdır. Məsələn, bir çiçək yaradıldığında əslində bir daha yox olmamaq üçün yaradılmışdır. Bu varlığın, ya da obyektin insanın görüntüsündən çıxması, insanın yaddaşından silinməsi onun yox olması, ölməsi mənasını verməz. Əhəmiyyətli olan Allahın yaddaşındakı, Allahın Qatındakı halıdır. Allahın yaddaşında bu canlının yaranması da, həyatı boyunca keçirdiyi anlar da, ölümü də mövcuddur.

Allah varlıq verdiyi hər şeyi sonsuz olaraq yaratmışdır. Var olan şeylər üçün artıq sonsuz həyat başlamışdır. Lakin bunu yaxşı anlaya bilmək üçün bir-bir varlıqlar və hadisələr üzərində düşünməkdə fayda vardır. Ancaq bu nümunələrə keçməmişdən əvvəl bir mövzuya bir daha toxunmaq lazımdır: Burada izah edilənlər, şübhəsiz bir insanın həyatında qarşılaşa biləcəyi ən böyük elmlərdən biridir. Sonsuzluq anlayışı ilə əlaqədar bu həqiqətləri bir çox insan ilk dəfə eşidə, ilk dəfə düşünə bilər. Əhəmiyyətli olan budur: Allah Quranda yalnız "qəlbən Allaha yönələn"lərin öyüd ala biləcəyinə diqqət çəkir. Yəni səmimi qəlblə Allahdan kömək diləyən, Onun sonsuz qüdrətini təqdir etməyə çalışan, Rəbbimizin böyüklüyünü qavramaq üçün səy göstərən insanlar burada izah edilənlərdən öyüd alacaq və bu həqiqətləri qavramağa başlayacaqlar.

SONSUZLUQ İÇİNDƏ İNSANLAR

Allahın Xaliq adı "Hər şeyin varlığını və varlığı boyunca keçirəcəyi halları, hadisələri təyin və təsbit edən və ona görə yaradan, yoxluqdan var edən" mənasındadır. Allah Xaliq sifəti ilə insanları ana bətnində yaratdığı andan etibarən onlar üçün sonsuzluq da başlamışdır. İnsan ana bətnində keçirdiyi inkişaf mərhələlərini, əlbəttə ki, xatırlamaz, ancaq bunun hər anı Allah Qatında mövcuddur və qətiyyən itməz. İnsanın körpəlik və böyümə mərhələləri də öz yaddaşından silinər. İnsan Allah göstərmədiyi müddətdə bu kadrları görə bilməz, bəzilərini də yalnız xatirə olaraq bilər. Yaşadığı an gördüyü şeylər isə yalnız özünə hiss etdirilən hisslərdir. Lakin Allahın sonsuz yaddaşında hər şey olduğu kimi saxlanılır. İnsanların yaşadıqları hadisələr, başlarına gələn hadisələri və həyatlarındakı hər şeyi Allah yaratmışdır və heç biri yox olmaz. **“... Bu ona görədir ki, siz göylərdə və yerdə olanların Allaha bəlli olmasını və Allahın hər şeyi Bilən olduğunu anlayasınız.”** (Maidə surəsi, 97) ayəsində bildirildiyi kimi, hər şey Allah Qatında mühafizə edilir.

Məsələn, Hz. Adəm peyğəmbərin dünyaya göndərilmədən əvvəl cənnətdə yaradılmasına, orada sınanmasına aid bütün hadisələr Allah

Qatındakı Ana Kitabda qorunur. Allahın Hz. Adəmi hələ palçıqdan yaratdığı halı da, mələklərin Hz. Adəmə səcdə etmələri də, onun cənnətdən çıxarılması da, dünyaya göndərildiyi an da, dünyada başına gələn hadisələr də bütün detalları ilə bu an canlı olaraq saxlanılır. Heç biri yox olmamış, ən kiçik detalına qədər hər şey bu an Allah Qatında canlı olaraq mövcuddur.

Bir başqa nümunə olaraq, çox sevdiyi pişiyi öldüyü üçün kədərlənən bir insanı düşünün. Əslində o insanın pişiyinin ölüm anındakı halı Allah Qatında sonsuza qədər var olduğu kimi, o pişiyin bala halındakı ən sevimli görünüşü də, doğumundan o ana qədər keçən bütün halları da Allah Qatında canlı olaraq mövcuddur. Ayrıca pişiyin sahibinin işdə ikən və ya yanında deyilkən görə bilmədiyi halları da Allah Qatında canlı olaraq saxlanılır. Bu səbəbdən heç bir varlıq ölərək yox olmaz. Hamısı Allah Qatında hər halı ilə canlı olaraq sonsuza qədər dayanarlar.

Eyni şəkildə, Quranda bildirildiyi kimi, Hz. Süleymanın atının ayağını sığallaması anı sonsuza qədər Allah Qatında dayanmaqdadır. Daha sonra atların qeyb olması, Hz. Süleymanın Səba mələikəsinə məktub göndərməsi, məktubun Mələikə və yanındakı əsgərlər tərəfindən oxunduğu an, Mələikənin Hz. Süleymanın sarayına gəlməsi və sarayın döşəməsini "dərin bir su" sanması və o əsnada Quranda bildirildiyi kimi **"Süleymana tabe olub aləmlərin Rəbbi olan Allaha təslim oldum!"** (Nəml surəsi, 44) dediyi an hələ də vardır və sonsuza qədər də var olacaq.

Bu nümunələr üzərində bir az da dərindən düşünək və daha da ətraflı araşdıraq. Hz. Nuh dövründə bir adamın köynəyinin söküldüyünü və daha sonra bunu bir dərzinin tikdiyini fərz edək. O adamın köynəyi, bu köynəyin ilk emal edildiyi dəzgah, daha sonra köynəyin sökülmədən əvvəlki halı və yenidən tikildikdən sonrakı halı və hətta o köynəyi tikən dərzinin köynəyi tikmək üçün iynədən istifadə etdiyi hər saniyə, daha sonra bu köynəyin tamamilə köhnəlməsi, qısacası köynəyin varlıq aləminə gəldiyi andan etibarən keçirdiyi hər mərhələ, hər saniyə, hər an Allah Qatında mühafizə edilir. O köynək bu an hələ dəzgahda toxunur, o köynək bu an hələ tikilir və o köynək bu an hələ Hz. Nuh dövründəki sahibi tərəfindən geyinilir.

Bir də evinizdəki antikvar saat üzərində düşünməyə başlayaq. O saatın bundan 200 il əvvəl quruluş mərhələləri, saatın içində istifadə edilən hər bir telin quruluş mərhələləri, saatın əqrəb və dəqiqə əqrəbinin içinə yerləşdirilməsi, daha sonra bu saatın bir dükana satılması, ardından bir müştərinin onu alması, sonra bu saatın pozulub bir köhnəçiyə verilməsi, sizin babanızın babasının bu saatı satın alması, sonra saatın babanıza və ondan sonra atanıza və sonra da sizə miras qalması, sizin o saatı evinizin gözəl bir yerində yerləşdirməyiniz, daha sonra qarşısına keçib "nə gözəl görünür" deyə düşünməniz, qısacası o saatla əlaqədar olaraq ilk var olduğu andan etibarən (yüzlərlə il) an-an meydana gələn hər hadisə Allah Qatında dayanmaqdadır. O saat bu an çalışmaqdadır və yenə saat əslində bu an işləmir, saat bu an sizin tərəfinizdən yerləşdirilir və saat əslində bu an babanızın babası tərəfindən satın alınır. Bunların hamısı əksiksiz olaraq Allahın yaddaşında

mövcuddur. Üstəlik bu antikvar saatın yalnız keçmişi deyil, bundan sonra keçirəcəyi, lakin sizə görə gələcəkdə reallaşacağı üçün bilmədiyiniz hər cür hadisə də Allah Qatında məlumdur və mühafizə edilir. O saatın bundan 40 il sonra sizin uşağınızın evinin uyğun bir yerinə yerləşdiriləcəyi də, o saatın bundan 300 il sonra tamamilə çürüyüb pozulması və insanların fikrindən uzaqlaşması da Ana Kitabda yazılıdır.

Bir ayədə deyildiyi kimi: **"Allah onların gələcəyini də, keçmişini də bilir. Onların elmi isə Onu ehtiva edə bilməz!"** (Ta Ha surəsi, 110) Allahın bu elminə də diqqət çəkilmişdir. (Doğrusunu Allah bilir.) Çünki Allah hər varlığın an-an, əvvəlini-sonrasını, yəni ayədəki ifadə ilə "gələcəyini də, keçmişini də" hər mərhələsi ilə bilir. Ayədə **"Şübhəsiz ki, nə yerdə, nə də göydə heç bir şey Allahdan gizli qalmaz"** deyilərək bu həqiqət bir daha xatırladılmışdır. (Ali-İmran surəsi, 5)

BÜTÜN HADİSƏLƏR "BU AN"DA REALLAŞIR!

Allah Qatında hər hadisənin bir anda meydana gəlməyini belə bir misalla da açıqlaya bilərik: Qarşınızda böyük bir şəhərin xəritəsinin olduğunu düşünün. Xəritədə şəhərin prospektləri, küçələri, bu küçələrdə irəliləyən nəqliyyat vasitələri, sağa-sola düzülmüş binalar və insanlar çəkilmiş olsun. Bu xəritədə şəhərin bir yerindən başqa yerinə çatmağa çalışan bir adamın görüntüsünün də çəkildiyini fərz edin. İndi bu adam üçün şəhərin bir yerindən digərinə qədər olan məsafə müəyyən bir uzaqlıqdadır və bu uzaqlığı dəf etməsi üçün də müəyyən bir zaman lazımdır. Adam ancaq bilmədiyi zaman sonunda istədiyi yerə çatmış olacaq. Eyni anda iki yerdə birdən olması mümkün deyil. Amma bu vəziyyət xəritəyə kənardan baxan bir adama aid deyil. Siz xəritəyə baxdığınızda şəhərin bir yerindən digərinə qədər olan hər şeyi bir anda görə bilərsiniz, üstəlik bunun üçün bir zamana da ehtiyacınız yoxdur.

Məhz bu nümunədə izah edilən vəziyyət müəyyən bir ölçüdə yaşayan insanlara aiddir. Bizim üçün bir yerdən başqa bir yerə çatmaq ancaq bir zamanın keçməsi və enerjinin istifadə edilməsi ilə mümkün ola bilər. Amma bütün bu ölçüləri yaradan və bütün əksikliklərdən münəzzəh olan Allah üçün yaratdığı kainat və onun dünyadakı bütün hadisələr bir anda reallaşır.

İkinci əhəmiyyətli həqiqət isə bütün bu hadisələrin bir-biri ilə eyni anda reallaşmasıdır. Çünki daha əvvəl də ifadə edildigi kimi, Allah Qatında zaman yoxdur, hər şey bir anda olub bitmişdir.

Hz. Adəm peyğəmbər əslində bu an palçıqdan yaradılır, bu an mələklər Hz. Adəmə səcdə edir, bu an Hz. Adəm cənnətdən çıxarılır və dünyaya göndərilir. Üstəlik haqqında danışılan "an", bu saniyə, yəni sizin bu sətirləri oxuduğunuz andır.

İndi bu mövzunu daha da gücləndirmək üçün bir başqa nümunə verək: Hz. Musanı düşünək. Anasının hələ körpə ikən Hz. Musanı sandığın içinə qoyub suya buraxdığı an hələ də mövcuddur, o halı itməmişdir və sonsuza qədər də dayanacaq. Allah Qatında Hz. Musanın Firona getdiyi və təbliğ etdiyi an mövcuddur və əslində bu an Hz. Musa Fironun qarşısındadır, amma eyni zamanda bu an Hz. Musa Müqəddəs Tuva vadisində Allahdan vəhy almaqdadır və yenə bu an Hz. Musa yanındakı İsrailoğulları ilə birlikdə Fironun adamlarından uzaqlaşmaqdadır, bu an Hz. Musa peyğəmbər əsası ilə dənizə vurmaqda və dənizi yarmaqdadır və sonsuza qədər də dənizin yarılması Allahın yaddaşında mövcud olaraq qalacaq.

Hz. Məryəmin Hz. İsaya hamilə qalması, xurma ağacının altında doğması, qövmünə dönməsi və Hz. İsanın hələ beşikdə ikən qövmün insanları ilə danışması, sonra Hz. İsanın həvarilərinə "Allah Qatında mənim köməkçilərim kimlərdir?" deyə soruşması və Hz. İsanın Allah Qatına yüksəldilməsi də bu an reallaşmaqdadır. Üstəlik yalnız keçmişə dair bizə bildirilən hadisələr deyil, keçmişlə əlaqədar bizə bildirilməyən və gələcəkdə olacağı üçün hələ bilmədiyimiz hadisələr də əslində bu andadır. Hz. İsanın həyatı boyunca keçirdiyi hər saniyə, həvarilərinə Allahın dinini təbliğ etməsi, Allahın təsbit etdiyi bir müddətdə yer üzünə yenidən göndərilməsi, insanlara Quranı təbliğ etməsi və hətta bu təbliği əsnasında dediyi hər söz, daha sonra ölümü və hesab günü dirildilməsi, cənnətin girişində mələklər tərəfindən "Salam" sözləri ilə qarşılanması da əslində bu anda meydana gəlir.

Eyni şeylər bundan 3000 il əvvəl yaşayan bir insan üçün də etibarlıdır. E.ə. 3000-ci illərdə günorta vaxtı bir ağacın altında oturub mənzərəni seyr edən adamın əlinə kiçik bir böcəyin qonması, adamın o böcəyə baxaraq Allahı təsbih etməsi, daha sonra böcəyin uçaraq yuvasına doğru getməsi, böcəyin yumurtadan çıxmasından ölümünə qədər olan bütün halları Allah Qatında hifz edilmişdir və dolayısı ilə hamısı bir anda, yəni sizin bu sətirləri oxuduğunuz bu anda reallaşır.

Bütün bu nümunələrin qarşımıza çıxardığı həqiqət budur: Heç bir an, heç bir kadr, heç bir hadisə, heç bir varlıq yox olmamışdır və olmayacaq. Televiziyada izlədiyimiz bir film necə film lentinə yazılırsa, müxtəlif

kadrlardan meydana gəlirsə və bu kadrları bizim görməməyimiz onların olmadığı mənasını vermirsə, bizim "keçmişdə yaşanmış" və ya "gələcəkdə yaşanacaq" dediyimiz hadisələr üçün də eyni şey etibarlıdır.

Lakin bunun səhv başa düşülməməsi çox əhəmiyyətlidir. Bu səhnələrin heç biri bir xatirə və ya xəyal kimi deyil. Bunların hamısı eynilə bu an yaşadığınız an kimi canlıdır. Hər şey diri olaraq qorunur. Biz yalnız Allah bizə bu hissləri vermədiyi üçün onları keçmiş, bitmiş hadisələr olaraq görərik. Allah dilədiyi an bizə bu görüntüləri göstərə bilər, bu hadisələrə aid hissləri verərək bizə də bu hadisələri yaşada bilər.

KEÇMİŞ, İNDİ VƏ GƏLƏCƏK ƏSLİNDƏ EYNİ ZAMANDIR

Bura qədər izah edilənlərdən aydın olduğu kimi, bu ana qədər yer üzündə yaşanmış bütün hadisələr Allah Qatında bir anda yaşanmaqdadır. Hz. Musanın, Hz. İbrahimin, Hz. Əyyubun, Hz. Nuhun, Hz. Süleymanın, Hz. Muhəmmədin və digər peyğəmbərlərin həyatlarından verilən nümunələr də onların yaşadıqları hadisələrin zamanı ilə bizim yaşadığımız zaman da eynidir və bizim nəvələrimizin, hətta onların nəvələrinin və qiyamətə qədər yaşayacaq bütün insanların həyatları da eyni zamanda davam edir. Üstəlik bu insanlar Allaha iman edənlər bu anda cənnətdədirlər, inkarçılar isə bu an cəhənnəmdə əzab çəkirlər.

Peyğəmbərimizin yaşadığı hadisələrin heç biri itməmişdir, sonsuza qədər Allah Qatında dayanacaq. Bu hadisələr bizə 1400 il əvvəl olmuş kimi qəbul etdirilir, amma əslində bu an Peyğəmbərimiz Miracdadır, bu an yanındakı yoldaşı ilə birlikdə mağaraya sığınmışdır. Peyğəmbərimiz bu an Bədəvilərə təbliğ edir. Bu hadisələr yaşanmış və bitmiş hadisələr deyil. Əksinə sonsuza məhkum edilmiş, yox olması mümkün olmayan hadisələrdir. Ancaq bunların heç biri bizim yaddaşımızda olmadığı, ya da canlandırılmadığı üçün biz görmürük, şahid olmuruq, ya da yaşamırıq.

Eyni vəziyyət tarixən yaşanmış bütün hadisələr və yaşamış bütün insanlar üçün də etibarlıdır. Köhnə Yunanıstanda filosoflar, Şumerler zamanında mismar yazısını tapanlar, Misir kraliçası Kleopatra, intibah dövrünün sənətkarları XIX əsrin elm adamları və ya XX əsrin diktatorları və digər dövrlərdə yaşamış bütün insanlar, hətta babanız, onun babası və siz əslində eyni anda yaşayırsınız.

Bu hadisələrin heç biri yox olmamışdır. Səlib yürüşləri, xalqların böyük köçü, əsr müharibələri, I və II Dünya Müharibələri bir-birindən tamamilə ayrı dövrlərdə yaşanmış kimi görünsə də, əslində bu an olan hadisələrdir və sonsuza qədər də olmağa davam edəcəklər. Müxtəlif zamanlarda yaşadıqları düşünülən Misir, Astek, Yunan və Anadolu sivilizasiyaları da əslində eyni anda yaşamışlar.

Belə ki, 1000 il əvvəl Mesopotamiyada yaşayan bir cütçünün tarlasını əkərkən yağan yağış və cütçünün o yağış altında islandığı an da Allah Qatında dayanmaqdadır. Məsələn, Akkadlar dövründə bir söyüd ağacının budaqları arasında tor quran bir hörümçək torunu bu an hörür. Həmin hörümçək bu an torun küncünə çəkilmiş ovunu gözləyir. Yenə sizin bu

hörümçəyi gözünüzdə canlandırmağa çalışdığınız bu an o hörümçək yumurtlamış, yumurtalarını kürəyinə yığmış və onlarla məşğuldur. Yenə o hörümçəyin yumurtaları bu anda çatlamış, içindən bir çox kiçik hörümçək çıxmışdır.

Heç bir hadisə unudulmur, hamısını Allah bir çox hikmətlə yaratmışdır. Bu səbəblə heç bir şey israf olmaz, yox olmaz. İnsanların bu an bunları görmədikləri, bilmədikləri onların olmadığı mənasını verməz. Allah zamandan münəzzəh olduğundan Onun Qatında hər şey bir anda olmuş və bitmişdir. İnsanlar zamandan asılı olduqları üçün hadisələri keçmiş, indi və gələcək zamanda izləyərlər. Halbuki daha əvvəl qədər barəsində də qeyd etdiyimiz kimi, keçmiş zənn etdiyimiz hadisələr bizim üçün keçmişdir, gələcək zənn etdiyimiz hadisələr də bizim üçün gələcəkdir. Allah üçün keçmiş, gələcək, indi hamısı birdir. Məhz bu səbəbdən Allahdan heç nə gizli qalmaz. Bir ayədə bu həqiqətə diqqət çəkilmişdir:

(Loğman dedi:) **"Oğlum!** *(Gördüyün iş)* **bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın içində, yaxud göylərdə və ya yerin dibində olsa da, Allah onu aşkar edər. Həqiqətən, Allah Lətifdir, Xəbərdardır.** (Loğman surəsi, 16)

ÖZ HƏYATINIZ DA BİR ANDIR

Bu həqiqəti anlamaq üçün yalnız tarixin dərinliklərini düşünməyə ehtiyac yoxdur. Hər kəsin çox uzun zənn etdiyi öz həyatı üçün də bu həqiqət etibarlıdır. Sizin yeni doğulduğunuz, ananızın qucağına verildiyiniz o ilk an yox olmamışdır. O kadr, ya da o görüntü, ya da o hadisə sonsuza qədər var olacaq. Çünki Allah Qatında "hifz edilmiş"dir. Lakin daha əvvəl də ifadə edildiyi kimi siz 5 duyğu orqanınızdan asılı olduğunuz üçün və sizin yaddaşınızda bu məlumat saxlanmadığı üçün belə bir səhnəni görmürsünüz. Bu, həyatınız boyunca başınıza gələn hər hadisə üçün etibarlıdır. İbtidai məktəbə başladığınız gün, ya da uşaqkən qeyd etdiyiniz bir ad gününüz, başınıza gələn bir hadisə, liseyi bitirdiyiniz gün, universitet diplomunuzu aldığınız an, evliliyiniz və bunun kimi daha minlərlə hadisə əslində Allah Qatında eyni anda mövcuddur. Bu hadisələrin heç biri itməmiş və sonsuza qədər canlı olaraq mövcud olacaq.

Eynilə, 5 yaşındaykən dükandan aldığınız bir vaflini yeyərkən hiss etdiyiniz şəkər dadı, 7 yaşında ibtidai məktəbə başlayacağınız gün səhər erkən saatda həyəcanla oyanmağınız, liseydəki coğrafiya dərsində çəkdiyiniz çətinlik, riyaziyyat müəlliminizin yazı taxtasına yazdığı uzun tənliklər, bir yaxınınızı yol qəzasında itirdiyiniz zaman hiss etdiklərniz, işinizdə qazandığınız bir müvəffəqiyyətdən keçirdiyiniz qürur hissi, illərlə xəyal etdiyiniz bir şeyi almağa gedərkən sevinməyiniz, qısacası yaşadığınız və hiss etdiyiniz, başınıza gələn bütün bu hadisələr əslində eynilə dayanmaqda, yalnız sizin beyninizdə mühafizə edilməməkdədir. Mühafizə edilən də xatirə olaraq, yəni keçmiş kimi hiss etdirilməkdədir. Bu an var olan o səhnələri beyniniz qəbul etmir. Çünki dünyadakı imtahan sistemi belədir. İnsanlar keçən zamana tabe olduqlarını düşünər, həyatlarının keçmiş, indi və gələcək

olmaq üzrə hissələrə ayrıldığını sanarlar. Buna görə də axirətin varlığı, cənnət, cəhənnəm, hesab günü kimi mövzuların nə vaxt, nə şəkildə və necə olacağını asanlıqla qavraya bilməzlər. Allah Qatındakı zaman anlayışı ilə insanların tabe olduğu zaman arasında bir əlaqə qura bilməzlər. Lakin yaradılmış hər canlının, hər hadisənin və hər şeyin bir film lentini meydana gətirən kadrlar kimi kadr-kadr sonsuz olaraq yaradıldığını və eyni anda var edildiyini bilmək bu qavrayışı asanlaşdıracaq.

Allah Qatında hər şey olub-bitmişdir. Xalq arasında məşhur olan batil bir inanca görə Allah kainatı və insanı yaratmış, onlara bir müddət möhlət vermiş və onların sınanmalarını gözləyir. (Allahı tənzih edirik) Kainatın ömrü bitənə qədər də gözləyəcək. Lakin əslində Allahın gözləməsi kimi bir vəziyyətdən əsla bəhs oluna bilməz. Gözləmək insana xas bir acizlikdir. Allah isə insanların yaşadığı bütün acizliklərdən uzaqdır. Allahın Quranda Özünü tanıtdığı Qüddüs sifəti "səhvdən, qəflətdən, acizlikdən və hər cür əksiklikdən çox uzaq" mənasındadır. Bu səbəblə bütün insanların keçmişini, gələcəyini və yaşadıqları bütün hadisələri bilir. Lakin insan sınanma yeri olan bu dünya həyatında zamanı əvvəlli və sonralı zənn edər. Halbuki bu hissədə izah edildiyi kimi əvvəl-sonra, keçmiş-gələcək deyilən bir şey yoxdur. Hər şey, bütün insanlar, bütün canlılar eyni anda yaşamaqda, bütün zamanlar, bütün çağlar, bütün tarixlər və hətta bütün günlər, bütün saatlar, dəqiqələr və saniyələr də eyni andadır. İnsan qavrama qabiliyyəti məhdud olduğundan bunu görə bilmir. Allah Qatındakı zaman ilə insanların asılı olduğu zaman anlayışı arasındakı fərqə "Quranda Nisbilik" hissəsində nümunələr verilmişdi. Bu mövzuya bir ayədə belə diqqət çəkilir:

... Rəbbinin yanında olan bir gün sizin saydığınızın min ili kimidir!
(Həcc surəsi 47)

Allahın Quranda yer alan sifətlərindən bir başqası isə Həsib, yəni "Hər kəsin həyatı boyunca etdiklərinin hesabını bütünlüklə bilən" deməkdir.

Yaşanan, yaradılan, var olan heç bir hadisənin itmədiyi həqiqəti xatırlanacaq olsa Allahın Həsib sifəti daha yaxşı aydın ola bilər. Çünki hər şeyin məlumatı Allahın Qatındadır. Allah bu həqiqəti ayədə də ifadə etmişdir:

Həqiqətən, o Saat haqqında elm yalnız Allahdadır. Yağışı O yağdırır və bətnlərdə olanı O bilir. Heç kəs sabah nə qazanacağını bilə bilməz; heç kəs harada öləcəyini də bilməz. Allah isə, şübhəsiz ki, Biləndir, Xəbərdardır. (Loğman surəsi, 34)

Möminlərin Allahın böyüklüyünü təqdir edə bilmələrinin, Allaha olan təslimiyyətlərinin və güvənlərinin əsas səbəbi budur. Allahın onlara nə qədər yaxın olduğunun və Allaha nə dərəcə möhtac olduqlarının, Onun böyüklüyü yanında nə cür kiçik olduqlarının şüurundadırlar. Onların bu üstün əxlaqları Quranda belə bildirilmişdir:

De: "Allahın bizim üçün yazdığından başqa bizim başımıza heç nə gəlməz. O bizim Himayədarımızdır. Qoy möminlər Allaha təvəkkül etsinlər!" (Tövbə surəsi, 51)

De: "Allahın istədiyindən başqa, mən özümə nə bir zərər, nə də bir xeyir verməyə qadirəm... (Yunus surəsi, 49)

Bu ayələrdə xəbər verilən möminlər Allahın ucalığını və qüdrətini təqdir edə bilən insanlardır. Bundan ötrü də Allaha qəlbən boyun əymişlər.

ÖLÜM İNSAN ÜÇÜN YOX OLMAQ DEYİLDİR

Ölüm xalq arasında yanlış qəbul edilir. Ölən bir adama sanki yox oldu gözü ilə baxılır. Ümumiyyətlə, insanların axirətə, sonsuz həyata, cənnət və cəhənnəmə aid məlumatları da qeyri-kafi olduğundan ya ölümdən sonra yenidən diriləcəklərinə heç inanmazlar, ya da buna aid inancları naməlumdur. Bu səbəbdən bir yaxınlarını itirdiklərində onun əbədi olaraq yox olduğunu düşünənlər çoxdur. Halbuki bu tamamilə azğın bir inancdır. Əslində insan doğulduğu (Allah onu varlıq aləminə gətirdiyi) andan etibarən sonsuz həyatına başlamışdır. Həyatındakı digər kadrlar kimi ölüm də bir kadrdır, ancaq əslində o insan diridir. Ölümdən əvvəlki və sonrakı kadrlar və o insana aid hər şey eynilə mühafizə edilir. Məsələn, ölən bir adam haqqında bəzi insanlar cahilcə düşündükləri üçün "çox gənc bir insan idi, heyf oldu" deyərlər. Halbuki, o gənc insana aid hər şey, bütün xüsusiyyətlər, yaşadığı bütün detallar, uşaqlığı, doğumu, ailəsi ilə olan xatirələri canlı bir şəkildə eynilə dayanmaqdadır. Yox olmaz, ya da itməz, yaşananlar olduğu kimi mühafizə edilər. Dünyadakı imtahanın bir gərəyi olaraq insana göstərilməz, yaddaşından və görüntüdən silinər, lakin bu onların olmadığı mənasını verməz.

Allah Qatında bir insanın doğumu da, həyatı da, ölümü də eyni anda olub-bitmişdir. Hətta bütün insanlar üçün eyni şey etibarlıdır. Bütün insanlar bu an doğulmuş və bu an ölmüşlər. Yenidən dirilmiş və cənnət, ya da cəhənnəmdəki yerlərini almışlardır. Bu səbəblə heç bir insan ölməz, ya da yox olmaz, sonsuza qədər diridir. Sonsuzluğun içində bir zaman yaşanır və

buna görə hər kəsin gedəcəyi yer də (cənnət ya da cəhənnəm) müəyyəndir. Bu an insanların bir qismi cənnətdə, bir qismi isə cəhənnəmdədir. Bu həqiqət Quranda cənnət və cəhənnəmlə əlaqədar bir çox ayədə axirət həyatından bəhs edilərkən keçmiş, ya da indiki zaman istifadə edilərək bunların əslində bir an olduğuna diqqət çəkilmişdir:

Həqiqətən də Cənnət əhli həmin gün nemətlər içində kef çəkəcək. Onlar zövcələri ilə birlikdə kölgəliklərdə taxtlara söykənəcəklər.
(Ya Sin surəsi, 55-56)

Rəbbindən qorxanlar da dəstə-dəstə Cənnətə gətiriləcəklər. Nəhayət, ora çatdıqda onun qapıları açılacaq və onun gözətçiləri onlara deyəcəklər: "Sizə salam olsun! Xoş sizin halınıza! Əbədi qalmaq üçün buraya daxil olun!" Onlar deyəcəklər: "Bizə verdiyi vədini yerinə yetirən və bizi bu yerə varis edən Allaha həmd olsun! Biz Cənnətin istədiyimiz yerində sakin oluruq. *(Yaxşı)* **əməl sahiblərinin mükafatı necə də gözəldir!" Sən mələklərin, Ərşi əhatə edərək, Rəbbinə həmd ilə tərifler dediklərini görəcəksən. Onların arasında ədalətlə hökm veriləcək və: "Aləmlərin Rəbbi olan Allaha həmd olsun!"– deyiləcəkdir.** (Zumər surəsi, 73-75)

Günahkarlar atəşi görən kimi oraya düşəcəklərini yəqin edəcək və oradan qaçmağa bir yer tapa bilməyəcəklər. (Kəhf surəsi, 53)

İnsanların həyatında çox əhəmiyyətli bir sirr vardır. İnsanlar ölənlərin arxasınca "öldü" deyib kədərlənərkən əslində özləri də ölmüş və hətta yenidən dirildilmişlər. İnsanın öz doğumu ilə ölümü də eyni anda olmaqdadır. Film lenti nümunələrini yenidən xatırlasaq bu xüsusiyyət daha yaxşı aydın olar. Bütün insanların bir-bir həyatlarına, ölümlərinə, dirilmələrinə və sonsuz həyatlarına dair hər cür detal əksiksiz olaraq Allah Qatında tutulmaqdadır. Başqa sözlə desək, hər şey bu anda olur. Ölmək və dirilmək də müxtəlif zamanlarda meydana gələn hadisələr deyil. Sonsuzluq içində, ya da zamansızlıq içində insanlar doğulmuşlar, ölmüşlər, dirilmişlər və bu an diridirlər. İnsan Allahın yaratdığı andan etibarən sonsuz bir varlıqdır, yəni əbədi olaraq diridir. Arada "öz ölümünü" də bir kadr olaraq görər. Necə hər gün özünü canlı olaraq, diri olaraq görürsə bir dəfə də ölü olaraq görür.

Bunu belə bir misalla açıqlaya bilərik. Allah Quranda yuxunun da bir cür ölüm olaraq yaradıldığını xəbər vermişdir. Bu vəziyyətdə insan hər axşam onsuz da öldüyünü görür, hər səhər oyanarkən dirilməsini görür. Çünki ayədə belə deyilir:

Allah ölənlərin canını ölüm anında, ölməyənlərin canını isə onlar yuxuda ikən alır. Ölümünə hökm verdiyi kəsin canını saxlayır, digərini isə müəyyən olunmuş vaxtadək buraxır. Həqiqətən, bunda ağıl sahibləri üçün dəlillər vardır. (Zumər surəsi, 42)

İnsan bu şəkildə dirisini də, ölümünü də, yenidən dirilişini də həmişə görür. Bunun kimi əsl ölümünü də görəcək, amma nəticədə doğumu, ölümü, dirilməsi, axirətdə gedəcəyi məkan müəyyəndir və insan sonsuza qədər Allah

Qatında diridir. Bütün bu hadisələr Allah Qatında olub-bitmişdir. Bu səbəblə xalq arasında söylənən mənada ölümlə birlikdə yox olmaqdan söhbət gedə bilməz.

Bu həqiqətlər qarşısında bəzi insanların istifadə etdiyi "çox gözəl insan idi, çox gənc idi, çox sağlam bir cavan idi" kimi ifadələr mənasını itirir. Çünki çox gözəl deyilən insan da, çox gənc deyilən uşaq da, çox sağlam deyilən cavan da yox olmamışdır, bu an hamısı ən gözəl halları ilə mövcuddurlar. Allahın yaddaşında sonsuza qədər hamısı diridir. Bu da Allahın böyüklüyünün və elminin bir göstəricisidir. Allahın sonsuz elmi və qüdrəti Quranda belə xəbər verilir:

Allah, Ondan başqa ilah yoxdur, *(əbədi)* **Yaşayandır,** *(bütün yaratdıqlarının)* **Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər? O,** *(məxluqatın)* **gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, Ucadır, Uludur.** (Bəqərə surəsi, 255)

HEYVANLARIN DA HƏYATLARININ HƏR ANI QEYDLİDİR

Yer üzündə canlılıq başladığından bəri yaradılan hər heyvanın həyatındakı hər mərhələ də eynilə mühafizə edilməkdədir. Məsələn, 250 il əvvəl qütbdə yaşamış bir pinqvinin dünyaya gəldiyi ilk an, balıq tutmağı və ovlanmağı ilk dəfə öyrəndiyi an, öldüyü an kimi həyatının hər mərhələsi Allah Qatında mövcuddur. Sonsuza qədər də dayanacaq və bütün bunlar yaşadığımız bu an içində baş verir.

Bizim heç bir zaman görmədiyimiz, həyatına şahid olmadığımız 700 il əvvəl yaşamış bir dəvə, ya da M.ö. V əsrdə Amazon meşələrində yaşamış bir timsah, 2200-cü ildə Afrikada yumurtadan çıxacaq bir ilan, ya da bu gün Avstraliyada yaşayan bir kenquru üçün də vəziyyət eynidir. Bu sayılan heyvanların, daha doğrusu gəlmiş və keçmiş bütün heyvanların həyatlarına dair hər detal, hər mərhələ əslində eyni anda, yəni indi olmaqdadır. Məsələn, dəvənin doğulduğu an, səhrada yük daşıdığı an, su içdiyi an da daxil olmaqla hər anı gizlidir və bəhs edilən dəvə bu an əslində hələ su içir, hələ doğulur, hələ yük daşıyır… Dünya tarixi boyunca yaşamış bütün dəvələrin həyatlarına dair hər kadr canlı olaraq vardır. Bu günə qədər yaşamış trilyonlarca heyvan olduğu düşünülüncə bu mövzunu qavramaq çətin görünə bilər, lakin Allahın böyüklüyünün və qüdrətinin bir sirri də burada gizlidir. Allah Alim adı ilə gəlmiş-keçmiş, canlı-cansız hər şeyin məlumatına malikdir. Hafiz adı ilə bu canlılara aid hər cür məlumatı mühafizə edir. Quranda bu həqiqətə belə işarə edilir:

(Allah) **onları hesablamış və bir-bir saymışdır.** (Məryəm surəsi, 94)

Heyvanların ölümü də insanlarınkına bənzəyir. İnsanlar ölüncə necə həyatlarında keçirdikləri anlar yox olmursa, heyvanların yaşadıqları anlar da elədir. Bir insan sevdiyi bir heyvanı, məsələn quşunu itirdiyində onun üçün

kədərlənir. Halbuki, o quş Allahın yaddaşında ən gözəl şəkli ilə dayanmaqdadır. Quşun yeni yumurtadan çıxmış halı da, sahibinin evinə gəlməsi də, hələ uça bilmirkən etdiyi oyunlar da ən sevimli şəkilləri ilə varlıqlarını davam etdirir. Və ya bir it öldüyündə, onun ölü halı da, diri halı da, ölüm şəkli də Allah Qatında müəyyəndir. Ölüm şəklinə aid görüntü tək bir kadrdır, bunun xaricində yaşadığına dair saysız görüntü vardır və bunlar da Allah Qatında sonsuz olaraq dayanmaqdadır. İtin yolda gedən halı da, özünü sevdirən halı da, hürən halı da, yemək yeyərkən halı da, ovlanarkən aldığı şəkil də və sahibinin görmədiyi bütün halları da hamısı Allah Qatında mühafizə edilir.

Bu vəziyyət bütün heyvanlar üçün etibarlıdır. Quranda bildirilən Əshabi-Kəhfin mağarasının qapısında qollarını uzatmış vəziyyətdə gözləyən itin doğumu və ölümü, mağaranın qarşısında gözlədiyi hər saniyə bu an da Allahın hifzindədir. Eyni şəkildə, Hz. Salehin qövmünün özlərinə haram qılındığı halda kəsdikləri dəvənin Hz. Saleh tərəfindən gətirməsi də, daha sonra inkarçı qövm tərəfindən kəsilmə anı da yox olmamışdır, Allah Qatında mövcuddur. Və ya əzilən bir böcəyin də ölmədən əvvəl gedərkən, gəzərkən və ayaq altında əzilən zamankı bütün kadrları Allah Qatında dayanar. Böcəyin ölümü bir kadrdır və hər görünüşü eynilə dayanmaqdadır. Bizim əzilmə görüntüsündən etibarən o heyvana aid bir şey görməməyimiz onun yox olduğu mənasını verməz. Əksinə, bizim yaddaşımızda yaşamadığı, yaddaşımızda unudulduğu mənasını verər. Allah Qatında o böcəyə aid görüntü yenidən canlandırılsa, bizə 5 duyğumuzla hiss etdirilsə təkrar görərik.

Fransız Qiyamı dövründə bir adamın gördüyü rəngarəng bir kəpənək üçün də eyni şey etibarlıdır. Adam kəpənəyi gördüyündə "nə qədər gözəl rəngləri var" deyib bir müddət sonra onu bir quşun qapdığını görüb kədərlənə bilər. Halbuki o kəpənək bütün simmetriyası və rəngarəngliyi ilə Allah Qatında canlı olaraq dayanmaqdadır. Kəpənəyin yaşadığı hər saniyə hətta salisə, qanadını hər açması və hər bağlaması, yerə hər qonduğu an, yerdən qalxması, qonduğu bütün çiçəklər Allah Qatında müəyyəndir. Üstəlik kəpənək bu hərəkətlərin hamısını birdən bu an etməkdədir. Eyni anda kəpənək uçur, qonur, yeyir, ölür... Lakin bütün bunların sonunda kəpənək diridir, sonsuza qədər də diri olaraq qalacaq. Minlərlə il əvvəl bu kəpənəyin öldüyünü görüb kədərlənən adamın hissləri də və o adamın həyatının hər anı da sonsuza qədər mövcud olacaq.

Göydə və yerdə elə bir gizli şey yoxdur ki, açıq-aydın Yazıda *(Lövhi-məhfuzda)* **olmasın.** (Nəml surəsi, 75)

Beləcə "heyvanların ruhu varmı?", "onların sonu nə olacaq?" kimi sualların cavabı da verilmiş olur. Əhəmiyyətli olan o canlının Allahın yaddaşında olmasıdır. Allah Qatında məlumatı olduğu müddətdə (yaradıldığı andan sonsuza məhkum edilmişdir) bu varlıq canlı olar. Ancaq buradakı canlılıqdan qəsd Allahın bir hiss olaraq yaratmasıdır. Yoxsa digər canlıların heç birinin Allahın "Diri" adı ilə bir bənzərliyi yoxdur. Bu baxımdan heyvanın ruhunun olub-olmaması deyil, yaddaşda yaradılıb-yaradılmaması əhəmiyyətlidir. Allah diləsə, bu canlı yaddaşımızda var olar, diləməzsə yox olar. Allah insanın yaddaşından o heyvanın görüntüsünü alsa ölmüş olar, versə dirilmiş olar. Lakin nəticədə o heyvan Allahın yaddaşında sonsuza qədər ən canlı halı ilə var olacaq. Çünki Allah zamandan münəzzəhdir. Zamansızlıq içində də keçmiş, gələcək və ya indiki zamandan bəhs oluna bilməz. Hamısı bir andır.

ÇİÇƏKLƏR SOLUB İTMƏZ, MEYVƏLƏR YOX OLMAZ

Allah hər şeyin məlumatına sahib olandır. Yuxarıdakı ayədə xəbər verildiyi kimi yer üzü var edildiyindən bəri yaradılmış olan bütün yarpaqların, ömürləri boyunca keçirdikləri bütün hadisələri və vəziyyətləri də bilər. Məsələn, minlərlə il əvvəl Babildəki bir ağacın və hətta o ağacdakı bir yarpağın belə məlumatı Allah Qatında gizli dayanmaqdadır. Hətta o yarpağın yerə düşənə qədər keçirdiyi bütün mərhələlər ayrı-ayrı saxlanmaqdadır. Babildə ağacın altında oturub o yarpağın düşməyini izləyən insan fərqində olmasa da, onun düşməyini müşahidə etdiyi saniyələr bir-bir Allahın yaddaşında mövcuddur və bu saniyələrin heç biri yox olmamış, keçmişdə qalmamışdır.

Bir insan yarpağın ağacdan düşməyini çox əhəmiyyətli bir hadisə olaraq qəbul etməyə bilər. Ancaq yer üzündəki gəlmiş-keçmiş bütün yarpaqların düşməyinin və bütün canlıların hər anlarının bu şəkildə "hifz edildiyi" düşünüldüyündə Allahın böyüklüyü və elmi açıq-aşkar bir şəkildə qarşımıza çıxar. Bu, bir Quran ayəsində belə bildirilir:

... O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru *(şey)* **yoxdur ki, açıq-aydın Yazıda** *(Lövhi-Məhfuzda)* **olmasın.** (Ənam surəsi, 59)

Bunu görən insanın edəcəyi yeganə şey Rəbbimiz qarşısında boyun əyməkdir. Allah çox ucadır. Hər şeyin məlumatı Onun Qatındadır. **"O, göydən yerə qədər olan bütün işləri idarə edir..."** (Səcdə surəsi, 5) ayəsində xəbər verildiyi kimi, insanları, heyvanları, bitkiləri, qısacası hər canlı və hər hadisəni Allah yaradır və bunların hamısı Onun Qatında canlı olaraq mühafizə edilir.

Bu, çiçəklər üçün də etibarlıdır. Bir çiçək solduğunda insanlar onun öldüyünü, yox olduğunu zənn edərkən, əslində o Allah Qatında bütün detalları ilə dayanar. Çiçək tumurcuq halında ikən də, açmadan əvvəl də, yeni açdığında da, solduğunda və öldüyü zənn edildiyində də bütün bu mərhələləri Allah Qatında dayanmaqdadır. **De: "Onları ilk dəfə yaradan Özü onları dirildəcəkdir. O, hər bir məxluquna yaxşı bələddir."** (Ya Sin surəsi, 79) ayəsində xəbər verildiyi kimi, reallaşan hər mərhələ Allahın məlumatı daxilindədir. Ayrıca daha əvvəl də ifadə etdiyimiz kimi, çiçəkdə ardıcıl olaraq meydana gələn dəyişikliklər müxtəlif zamanlarda olmuş kimi görünsə də, əslində hər mərhələsi eyni anda yaşanmaqdadır. Allah Qatında bir çiçəyə aid hər detal saxlanmaqdadır, lakin Allah bunları dilədiyinə göstərir. Gəlinciyi görən insanların yaddaşından bir müddət sonra gəlinciyə aid bu görüntülər silinər, amma bunların hər biri Allahın yaddaşında qalar.

Allahın Muhsi ismi "Sonsuz olsa da, hər şeyin sayını bilən" deməkdir. Allah bu günə qədər yer üzündə var olmuş və budağından düşən bütün yarpaqların sayını ən yaxşı biləndir. Ayrıca bütün bitkilərin, bütün yarpaqların, bütün çiçəklərin yaranmalarından etibarən hər anları, yavaş-yavaş böyümələri, inkişafları, qurumaları, tökülmələri, üzərlərinə qonan böcəklər, tozlar, hər bir yarpağın üzərinə düşən hər yağış damlası sonsuza qədər Allahın məlumatı daxilindədir. Bunlar digər bütün canlıların həyatlarındakı hər anı ilə birlikdə bir anda və bir səthdə yaradılmışlar. Bütünlüklə bu anda, indi var edilmişlər. Bu səbəbdən bir yarpaq quruyub düşəndə, əslində o ölmür, yalnız bizim yaddaşımızdan silinir, halbuki başqa bir insanın yaddaşında hələ saxlanılır. Əgər Allah başqa insanların yaddaşında canlandırsa, onlar bu yarpağı görməyə davam edərlər.

Saxsınızda yetişdirdiyiniz bir bənövşə üçün də bu vəziyyət eynidir. Bənövşənizin ilk tumurcuqladığı an da, çiçək açdığı il anı da, böyüyüb inkişaf etməyi də, solub-büzülməsi də Allah Qatında müəyyəndir. Əslində bu

an hamısı birdən olmaqdadır. Başqa sözlə desək, bənövşə indi açmaqda, amma indi də solmaqdadır. Bənövşənin açması ilə solması arasında bir zaman yoxdur. Zaman anlayışı yalnız bizim üçün etibarlıdır, Allahın yaddaşı bütün zamanların üstündədir. Bu həqiqəti xatırlayınca aydın olur ki, yer üzündə tarix boyunca var olmuş bütün bənövşələr, əslində eyni anda açmaqda, eyni anda solmaqdadır. Bütün yarpaqlar bu an çıxmış, bütün yarpaqlar bu an tökülmüşdür. Belə ki, bundan 1500 il əvvəl Afrikadakı bir meşədə bir ağacın koğuşunda yaşamış kiçik bir bitkinin belə həyatının hər mərhələsi Lövhi-Məhfuzda qeydlidir. Eyni şəkildə bundan 14 əsr əvvəl Müsəlmanların Peyğəmbərimizə beyət etdikləri ağacın toxumdan çıxması, filizlərini torpağın üstünə doğru uzatması, sonra da quruması hər detalı ilə bu an mövcuddur. Yer üzündəki hər hansı bir dağda böyüyən bir otdan, dünyanın hər hansı bir çəmənliyində yetişən bir ota, səhradakı bir kaktusdan, varlığından kimsənin xəbəri olmadığı bir kola, buzların arasından çıxan bir novruzgülü çiçəyinə və ya asfaltın kənarında bitən bir çobanyastığına qədər hər bitkinin hər anı Allahın yaddaşında saxlanmaqdadır. Bəlkə bu bitkinin varlığından yer üzündəki heç bir insanın xəbəri belə olmaya bilər. Hətta heç bir zaman olmayacaq da. Lakin Allah əlbəttə ki, bütün bunlardan xəbərdardır:

... Göylərdə və yerdə zərrə qədər olan bir şey də Ondan gizli qalmaz. Bundan daha kiçik və daha böyük elə bir şey yoxdur ki, açıq-aydın Yazıda *(Lövhi-məhfuzda)* **olmasın."** (Səba surəsi, 3)

...Onun xəbəri olmadan heç bir meyvə toxumundan cücərib çıxmaz, heç bir dişi hamilə olmaz və daşıdığı yükü *(bətnindəkini)* **yerə qoymaz...** (Fussilət surəsi, 47)

Bir başqa ayədə isə bu mövzu belə ifadə edilmişdir:

O, yerə girəni də, oradan çıxanı da, göydən düşəni də, oraya qalxanı da bilir. O, Rəhmlidir, Bağışlayandır. (Səba surəsi, 2)

Bu izah edilənlərin insanın zehnində daha yaxşı canlana bilməsi baxımından, hər vaxt gördüyümüz meyvələrdən də nümunə verilə bilər. Məsələn, Afrikadakı bir banan ağacında yetişən bir bananın böyüklüyü, dadı, yetişməsi Allah Qatında müəyyəndir. Nə vaxt toplanacağı, kim tərəfindən qoparılacağı, nə vaxt yetişəcəyi və nə vaxt qaralacağı, hansı süfrəyə qoyulacağı, kimlər tərəfindən yeyiləcəyi Allah Qatında hələ o banan ağacının toxumu torpağa girmədən məlumdur. Allah bu həqiqəti bir ayəsində belə xəbər verir:

Yer üzündə elə bir canlı yoxdur ki, onun ruzisini Allah verməsin. *(Allah)* **onların qərar tutduqları yeri də, qorunub saxlanıldıqları yeri də bilir.** *(Bunların)* **hamısı açıq-aydın Yazıdadır** *(Lövhi-məhfuzdadır)***.** (Hud surəsi, 6)

Bananın hələ budağından ilk çıxdığı andan etibarən süfrəyə gedənə qədər keçirdiyi hər mərhələ Allah Qatında saxlanılır. Əslində o bananın budağından çıxdığı ilk andan etibarən yeyilənə qədər çox müddət keçmiş kimi görünür. Başqa sözlə desək, bananın uzun bir ömrü olduğu düşünülür.

Bu meyvə əvvəl budağında yetişir, sonra biri tərəfindən dərilir, qablaşdırılır, nəqliyyat vasitəsilə yüklənib uzun bir səfərə çıxır, bəlkə okeanlar aşaraq müxtəlif ölkəyə aparılır, orada da anbarlara qoyulub satıcılara paylanır və bəlkə də yetişdiyi yerdən çox uzaq bir ölkədə onu satın alan bir adamın ailəsindən biri, ya da qonağı tərəfindən yeyilir. Amma başdan bəri ifadə etdiyimiz kimi bu dünyagörüş yalnız zamandan və məkandan asılı olan insan üçün etibarlıdır. Allah Qatında isə bananın bütün ömrü bir anda keçir. Banan bu an yetişir və bu an biri tərəfindən yeyilir. Həmin banan bu an budağından qoparılır, bu an konteynerlərə yüklənir. Bir daha xatırlatmaq lazım olsa, o bananın həyatı ilə sizin həyatınız, ya da Sezarın həyatı və ya Böyük İskəndərin, ya da Edisonun həyatı əslində eyni anda yaşanır. Yer üzündəki gəlmiş-keçmiş bütün meyvələrin, bütün bitkilərin, bütün insanların, bütün heyvanların məlumatı Uca Allahın hifzindədir. Bu həqiqətlər səmimi bir niyyətlə yaxşıca, dərindən düşünülsə, bunun nə qədər böyük bir hadisə olduğu aydın ola bilər.

Digər əhəmiyyətli bir nöqtə isə bu meyvələrdən heç birinin əslində çürüməməsi, yox olmaması, solmaması, itməməsidir. Bir portağal düşünün. Aralıq dənizinin sahilində portağal bağçalarında 50 il əvvəl yetişmiş olsun. Bu portağalın nə vaxt, hansı ağacdan, hətta o ağacın hansı budağından çıxacağı, turş və ya şirin olacağı, böyüklüyü, forması, rəngi, kim tərəfindən budağından toplanacağı, hansı anbarda saxlanacağı, hansı yük maşınına yüklənəcəyi, kim tərəfindən daşınacağı, hansı meyvə satıcısına gedəcəyi,

meyvə satıcısından kim tərəfindən satın alınacağı, alındığı evdə kim tərəfindən yeyiləcəyi o portağalın qədərindədir. Bəlkə də meyvə səbətində unudulacaq və kiflənəcək. An-an kiflənmə mərhələləri və sonda tamamilə kiflənib xarab olması və ev sahibi tərəfindən zibilə atılması da qədərindədir. Bir portağalın ömrünün hər saniyəsi, qədərindəki hər an Allah Qatında sonsuza qədər vardır. Nəticə olaraq o portağal Allah Qatında ölməz, yox olmaz, sonsuza qədər ilk tumurcuqlandığı, yetişdiyi, çürüməyə başladığı və xarab olduğu hər halı ilə diri və canlı olaraq qalar. Çünki Allah Həyy, yəni diri olandır. Onun yaddaşındakı hər şey də Allah "Ol" dediyi andan etibarən diridir.

Göydən su endirən Odur. Biz onunla hər bir bitkini yetişdirdik, ondan yaşıl otlar bitirir, onlardan da üst-üstə düzülmüş dənələr çıxarırıq. Xurma ağacının tumurcuqlarından, sallanmış salxımlar yetişir. *(Biz həmçinin)* **üzüm bağları, bir-birinə bənzəyən və bənzəməyən zeytun və nar** *(ağacları da yetişdiririk)***. Bar verdiyi və yetişdiyi zaman onların meyvəsinə baxın. Şübhəsiz ki, bunlarda iman gətirən adamlar üçün dəlillər vardır.**

(Ənam surəsi, 99)

AXAN SU DA BOŞA GETMƏZ

Bura qədər izah edilən hər şey axan sular üçün də etibarlıdır. Çaydan, qaynaqdan, bulaqdan, bir artezian, ya da şəlalədən axan suyun hər damlasının hər anı Allah Qatında saxlanmaqdadır. Axan suyun bir damlası belə yox olmaz, itməz. Hər damla sonsuza qədər dayanar. Heç biri boşa getməz. Eynilə, canlılarda olduğu kimi onların da hər anı, hər halı Allahın yaddaşında gizlidir. Kainat var olduğundan bəri yer üzündə axmış, hələ də axan və gələcəkdə də axacaq bütün sular bu an axır. Başqa sözlə desək, hamısı indi bir anda axmaqdadır. Allah zamandan münəzzəhdir və axan suların da əvvəli və sonrası yoxdur. Kainatdakı hər hadisə kimi bu da bir anda baş verir. Sonsuzluğun içində bir zaman vardır və bütün hadisələr bir anda olmaqdadır.

300 il əvvəl Missisipidə bir anda axan su ilə 500 il əvvəl Reyn çayında bir anda axan su, ya da 200 il sonra Firatdan başqa bir anda axacaq su əslində bir anda axmaqdadır. Hamısı bu an, bu dəqiqə axır. Heç birində axan su yox olmaz, sonsuza qədər Allah Qatında axmağa davam edər.

GERİYƏ DÖNMƏK DƏ MÜMKÜNDÜR

Hər şeyin Allahın yaddaşında gizli olması qarşımıza çox əhəmiyyətli bir sirri çıxarır: Bir hadisədə geriyə doğru gedib o hadisənin başlanğıc anına çatmaq da Allahın diləməsilə son dərəcə asandır. İnsanlar zamandan asılı olduqları üçün belə bir hadisə onlara uzaq gəlir, halbuki Allah Qatında zaman yoxdur, daha əvvəl də ifadə etdiyimiz kimi, keçmiş və gələcək bir andır. Eynilə bir video kasetdəki kadrların bir anda var olması kimi. Biz bir filmi seyr etdikdən sonra o filmi geriyə çevirib yenidən seyr edə biliriksə, bizim üçün keçmiş hadisələri Allahın diləməsilə yenidən seyr etməmiz mümkündür. Əhəmiyyətli olan Allahın o an bizə o hadisələrə aid hissləri təkrar hiss etdirməsidir. Allah üçün keçmiş bir hadisəni yenidən yaratmaq son dərəcə asandır.

Bu həqiqətləri daha yaxşı qavraya bilmək baxımından belə qiymətləndirə bilərik: Quranda bəhs edilən Səba xalqının ayədə xəbər verildiyi kimi **"acı meyvəli, yulğunlu və bir az sidr ağacı olan iki bağa çevrilmiş"** (Səba surəsi, 16) bağçaları bu an hələ bəlaya uğramadan əvvəlki halı ilə Allah Qatında dayanmaqdadır. Və ya bu bağçalardakı ağacların sonradan çürüyüb yox olması, bağçanın məhv olması da Allahın yaddaşındadır. Bundan min il əvvəl dünyanın hər hansı bir yerində yamyaşıl olan bir bağçanın daha sonra bir əkin tarlasına çevrilməsi, sonra o əkin tarlasının üzərinə bir ev tikilməsi, sonra evin dağıdılıb yerində bir atelye tikilməsi, yüz ildən sonra o atelyenin dağılıb bir qəbiristanlığa çevrilməsi və sonda bu gün bu sahənin bir otel olaraq istifadə edilməsi və bu mərhələyə qədər arada keçən bütün mərhələlər sonsuza qədər Allah Qatında dayanmaqdadır. Allahın diləməsi ilə bu an bu məkanın içində olduğu andan geriyə doğru gedərək o bağçaların ilk halını görmək də mümkündür.

Şübhəsiz kainat yaradıldığı andan etibarən varlıqların və hadisələrin hər anının Allah Qatında gizli olması böyük bir hadisədir. Bu vəziyyət əslində inananlar üçün cənnətdə böyük bir nemət olacaq. Çünki insanlar istər öz keçmişlərini, istərsə də tarixdə keçmiş hadisələri maraqlanaraq görmək istəyə bilərlər. Allahın diləməsilə cənnətdə möminlər üçün görmək istədikləri bu hadisələrin hamısı onlara göstərilə bilər.

Məsələn, insan kainatın ilk yaradıldığı Big Bang anını, qalaktikaların ilk meydana gəlməsini, ilk atomun meydana gəlmə mərhələlərini, özünün ana bətnində keçirdiyi mərhələləri, tarixin hər hansı bir dövründə yaşanmış bir hadisəni, okeanların yüzlərlə metr altında insanların əsla çatmağa güc çatdıra bilmədikləri mühitlərdə yaşayan canlıları, Titanikin batmasını, anasının uşaqlığını, 3 nəsil sonrakı nəvəsinin həyatını, keçmişdə yaşadığı hadisələri, illər əvvəl itirdiyi pişiyini, uşaqkən yetişdirdiyi bir bitkini görmək istəyə bilər. Bunların hər biri digər bütün hadisələr kimi Allah Qatında bütün

detalları ilə mühafizə edilir. İnsan bu şəkildə nə ilə maraqlansa, Allahın diləməsi ilə öyrənə bilər və görə bilər ki, bu insan üçün həqiqətən də çox böyük bir nemətdir.

BU MƏLUMATIN VERDİYİ BÖYÜK MƏSULİYYƏT

Heç şübhəsiz kitabın əvvəlindən bu yana izah edilən mövzular son dərəcə əhəmiyyətli və təəccüblü həqiqətlərdir. Mövzunun bizim prizmamızdan mühüm olan istiqaməti isə yaşadığımız hər anın, hər rəftarımızın, söylədiyimiz hər sözün, ağlımızdan keçən hər düşüncənin, hər niyyətin Allah Qatında eynilə mühafizə edilməsidir. Möminlərin bu böyük həqiqətin fərqində olduqları Quranda Hz. İsanın söylədiyi bu sözlərdən də aydın olur:

Allah deyəcəkdir: "Ey Məryəm oğlu İsa! Sənmi insanlara: "Allahı qoyub məni və anamı iki tanrı qəbul edin!"– demişdin?" İsa deyəcək: "Sən pak və müqəddəssən! Haqqım olmayan bir şeyi demək mənə yaraşmaz. Əgər bunu demiş olsaydım, əlbəttə, Sən onu bilərdin. Sən mənim qəlbimdə olanları bilirsən, mən isə Sənin Özündə olanları bilmirəm. Şübhəsiz ki, qeybləri bilən Sənsən! (Maidə surəsi, 116)

Bununla birlikdə insan Allahın istəmədiyi bir əməli etdiyində, ya da Allahın qadağalarını pozanda hesab günü bu etdiklərinin heç birini inkar edə bilməyəcək və hətta etdiklərini qarşısında canlı bir şəkildə görə biləcək. Heç bir şey yox olmadığına, itmədiyinə görə edilən səhvlər, pisliklər də əslində gizli dayanmaqdadır. Bu səbəblə inkar edənlər özlərini kimsənin görmədiyini, eşitmədiyini sanaraq rahatca Allahın sərhədlərini pozaraq, ya da Allahın xoşuna gəlməyəcək əməllər edənlər və pis sözlər söyləyənlər böyük qarışıqlıq yaşayacaqlar. Allahın hər şey üzərində şahid olduğuna şəxsən özləri şahidlik edəcəklər. Ayədə belə buyrulur:

O, həm göylərdə, həm də yerdə *(ibadət olunan Tək)* **Allahdır. O, gizlində saxladığınızı da bilir, aşkarda etdiyinizi də. O, sizin nə qazanacağınızı da bilir.** (Ənam surəsi, 3)

Lakin Allahdan uzaq olan bu insanlar hesab günü etdikləri hər şeyi incəliyinə qədər gördüklərində artıq edəcək bir şeyləri qalmayacaq. Çünki o gün Allahın Quranda bildirdiyi kimi, bu insanlar ətraflı əhatə edilmişlər:

... Lakin Allahdan onlara güman etmədikləri *(bir əzab)* **düçar olacaqdır. Onların qazandıqları pis əməllər öz qarşılarına çıxacaq və istehza etdikləri** *(əzab)* **onları bürüyəcəkdir.** (Zumər surəsi, 47-48)

Hesab günü gəldiyində inkar edənlərin, münafiqlərin, Allahın əmrlərinə çəkinmədən baş qaldıranların heç bilmədikləri hadisələr reallaşacaq, Allahın insanların yaddaşında yenidən diriltməsi ilə bütün gizli fəaliyyətləri hər kəsin qarşısında ortaya çıxacaq. Eynilə ayədə ifadə edildiyi kimi, inkarçıların həyatları boyunca istehza etdikləri şey bu dəfə özlərini əhatə edəcək. İnkar edənlər dünya həyatında özlərinə verilən müddət ərzində inananların Allaha və axirətə olan inanclarına istehza etmişlər, ağıl çatdıra bilmədikləri üçün bu həqiqətləri "yanılma" olaraq şərh etmişlər. Lakin onların "yanılma" olduğunu

iddia edərək istehza etdikləri əslində özlərini heç gözləmədikləri istiqamətdən əhatə etmişdir. Çünki əslində yanılan özləridir. Həyatları boyunca etdikləri bütün pisliklərin görüntüsü Allahın hifzindədir və hesab günü bir-bir qarşılarına qoyulacaq. Bunları hər inkar etdiklərində isə bu hadisələri canlı olaraq qarşılarında görəcəklər. Beləliklə, Allahın elmi ilə əhatə olunduqlarını anlayacaqlar. Allah inkar edənlərin vəziyyətini belə bildirmişdir:

Allah da onlara istehza edər və azğınlıqlarını *(o qədər)* **artırar ki, sərgərdan gəzərlər.** (Bəqərə surəsi, 15)

Məkkə müşriklərinin Peyğəmbərimiz dövründə yükləndikləri günahlar da, Hz. Nuh peyğəmbər dövründəki inkarçıların etdikləri də, Hz. İbrahimi yandırmaq istəyənlərin etdikləri pisliklər də, Hz. Yusuf peyğəmbəri quyuya salan qardaşlarının etdikləri də, Hz. Musaya əziyyət verən bəzi İsrailoğullarının azğınlıqları da bir istisna belə olmadan Allah Qatında saxlanılır. Heç biri unudulmuş, ya da itib-getmiş deyil. Hamısı ən gizli, hətta bəlkə heç bir insanın şahid olmadığı incəliyinə qədər eynilə qorunur. Bu həqiqətə Quranda da diqqət çəkilmişdir:

Onlar *(öz günahlarını)* **insanlardan gizlədir, Allahdan isə gizlətmirlər** *(Ondan çəkinmirlər)*. **Halbuki onlar** *(Allahın)* **razı qalmadığı sözləri gecələr xəlvətdə söylədikləri vaxt belə, O, onların yanında olur. Allah onların nə etdiklərini əhatə edir.** (Nisa surəsi, 108)

İndiki vaxtda yaşayan inkarçılar, ya da münafiq xarakterlilər üçün də eyni şey etibarlıdır. Bu insanlar möminlərin, ya da dinin əleyhində etdikləri hiyləgər planların gizli qalacağını, ortaya çıxmayacağını, hesab günü əvəzini görməyəcəyini sanmamalıdır. Etdikləri ən kiçik bir pislik, atdıqları hər böhtan, söylədikləri hər söz bu an Allah Qatında yazılıdır. Allahın o görüntüləri onların yaddaşlarından alması onları yanıltmamalıdır. Özləri bundan on il əvvəl bir möminə atdıqları bir böhtanı unutmuş ola bilərlər, amma bu etdikləri bir hərf belə əksik olmadan Allahın yaddaşında vardır. Allah diləsə bu hadisələri bu anda da insanların yaddaşlarında canlandırar. Amma bu həqiqəti bilməyən inkarçılar ayədə ifadə edildiyi kimi **"düşüncəsiz bir camaat"** (Maidə surəsi, 58) olmaları səbəbindən Allahın qüdrətini qavraya bilməzlər. Lakin hesab günü həqiqəti görəcək və geriyə dönüşü mümkün olmayan bir utanc və peşmanlıq duyacaqlar.

Qövmünün qabaqda gedən inkarçılarının göstərdiyi bu tip bir "ağılsız"lıq qarşısında Hz. Şueyb peyğəmbərin Quranda verdiyi cavabda da eyni həqiqət vardır:

Onlar dedilər: "Ey Şueyb! Dediklərinin çoxunu anlamırıq. Biz səni aramızda zəif görürük. Əgər qəbilən olmasaydı, səni daşqalaq edərdik. Sən bizim üçün heç də böyük bir adam deyilsən". O dedi: "Ey qövmüm! Məgər mənim qəbiləm sizin üçün Allahdan da əzizdir? Siz Onu saymayıb unutdunuz. Şübhəsiz ki, Rəbbim sizin nə etdiklərinizi əhatə edir. (Hud surəsi, 91-92)

Allah hesab gününü yaratdığında bütün inkarçıların etdiklərinin hesabını da çox sürətli görəcək. Bu hissədə izah edilən mövzu, yəni yaradılan hər şeyin hər anının sonsuza qədər saxlandığı bilindiyində, Allahın bütün insanların hesabını bir anda və çox sürətli bir şəkildə görəcəyi də aydın olur. Ancaq insanın bu anı uzaq görməməsi çox əhəmiyyətlidir, çünki o an əslində bu andır. Yəni insanlar dünyada Allaha qarşı işlədikləri bütün günahların hesabını bu anda verirlər. İnkar edənlər etdiklərinin görülməyəcəyini, eşidilməyəcəyini və ya unudulacağını zənn edə bilərlər. Amma hesab günü böyük bir qarışıqlıqla qarşılaşacaqlar:

...Əksinə, elə zənn edirsiniz ki, Allah sizin etdiyiniz əməllərin çoxunu bilmir. Sizin öz Rəbbiniz barəsində bu zənniniz sizi məhv etdi və siz ziyan çəkənlərdən oldunuz. (Fussilət surəsi, 22-23)

NÜMAYİŞDƏ OLAN BİR ÇOX FİLMLƏRDƏ SORĞULANAN HƏQİQƏT SANDIĞIMIZ DÜNYA VƏ GÖRÜB-HİSS ETDİKLƏRİMİZ

Son bir neçə ildir nümayişdə olan bir çox filmə baxdığımızda, ssenarilərində işlənən ortaq mövzulardan biri diqqətimizi çəkir. Bu filmlərdə həqiqət olaraq qəbul edilən, varlığına mütləq olaraq inanılan dünya həyatı sorğulanır; yuxularda yaranan ya da simulyasiya kimi süni siqnallarla yaradılan mühitlərin nə qədər həqiqi ola biləcəyi vurğulanır.

Matriks (The Matrix), **Matriks 2** (The Matrix Reloaded), **13-cü mərtəbə** (The Thirteenth Floor), **Sərt krallıq** (Harsh Realm), **Vanil səma** (Vanilla Sky), **Həqiqətə çağırış** (Total Recall), **Truman Şou** (Truman Show), **Qəribə günlər** (Strange Days), **Sirli şəhər** (Dark City), **Gözlərini aç** (Open Your Eyes), **Tezlik** (The Frequency), **Yaradılış** (Existenz), **Tək** (The Ona) kimi bir çox film və serialda, insanların nəyin həqiqət nəyin xəyal olduğu haqqında nə cür ciddi bir yanılma içində ola biləcəkləri mövzusu işlənir.

Ayrıca, bu filmlərdə indiyə qədər yalnız elmi olaraq ortaya qoyulmuş bəzi şərhlərin, həyatımızı necə təsir edə biləcəyi canlandırılır və insanların bu mövzuda daha dərin düşünmələri təmin edilir. Məsələn, Matriks filmində bu ifadələr yer alır:

Həqiqət nədir? Həqiqəti necə təsvir edərsən? Əgər hiss edə bildiyin, iyləyə, dada, görə bildiyin şeylərdən danışırsansa, "həqiqət", beyinə göndərilən elektrik siqnallarının şərh olunmasıdır. Elmi izahlara əsasən hazırlanan bu filmlərin, bütün dünyada milyonlarla insanın diqqətini çəkmiş olmasının ən əhəmiyyətli səbəblərindən biri, şübhəsiz insanların artıq xarici dünyanın həqiqəti mövzusundakı qeyri-obyektivliyi sorğu-sual etmələridir.

Filmlərə mövzu olan bu ifadələr, keçmişdə bir çox filosofun ələ aldığı mövzular olmasına baxmayaraq, 20-ci əsrin son illərinə qədər lazım olan əhəmiyyəti görməmişdi. Ancaq bu gün elm, bu kitaba mövzu olan izahların artıq fəlsəfi bir görüş deyil, elmi həqiqətlər olduğunu ortaya qoymuşdur.

Həqiqət sandığımız dünyanı ve görüb hiss etdiklərimizi sorğulayan bu filmlərdən bəzisinə gəlin birlikdə, ətraflı diqqət yetirək.

MATRİKS (THE MATRİX)

Geridə qalan illərdə -bu il də ikinci bölümü ilə- ən çox seyr edilən və bəyənilən filmlərdən biri olan Matriksdə (The Matrix), süni zəka (artificial intelligence) olaraq bilinən cihazların dünyanı ələ keçirdiyi və insan irqini yalnız bir enerji qaynağı kimi istifadə edərək, insanlara xəyali bir dünya yaşatdıqları ssenari edilir. Yaşadığımız dövrdə ikincisinin yayımlanması ilə birlikdə geniş tamaşaçı kütlələri tərəfindən izlənilən "Matriks", virtual həqiqət meydana gətirən bir kompyuter proqramının çox inkişaf etmiş bir şəklini ifadə edir.

Bu kitabda, insanlara təsir edən və bəzi həqiqətlər üzərində düşünməyə sövq edən filmlərdən bəzi hissələrə, ayrıca, kitabın əvvəlki səhifələrində yeralan və bəhs edilən filmlərdəki izahatlar ilə böyük bir bənzərlik göstərən izahlara yer veriləcəkdir. Beləcə bir dəfə daha gözlər önünə səriləcək ki, bu kitaba mövzu olan açıqlamalar bütün dünya tərəfindən qəbul edilən qəti bir elmi həqiqəti təsvir edir və insanların etiraz etməsi, qəbul edib-etməməsi maddənin əsli mövzusundakı həqiqətləri dəyişdirməyəcəkdir.

"Neo" ləqəbi ilə xatırlanan filmin baş roldakı aktyoru, bu sistemin içində, böyük bir proqram şirkətində kompyuter proqramçısıdır. Burada yaşadığı və 20-ci əsrin son illərində keçən həyatının həqiqət olduğunu zənn edir. Halbuki, həqiqi bədəni 2199-cu illərdə içi maye dolu, xarici pərdəylə örtülü kapsula bənzər bir məkandadır. Burada özünə nə göstərilsə onu görür, nə hiss etdirilsə onu yaşayır. Əslində, bədəni çox fərqli bir mühitdə və zamanda olmasına baxmayaraq, özünü şəhər kütləsi içində işinə gedib gələn, kompyuter proqramlarıyla məşğul olan bir kəs olaraq düşünür. Qısası, "Matriks" deyilən süni bir dünyada, özünü həqiqi bir həyatı yaşayırmış kimi zənn edir.

Həqiqətlərin - Neonun xəyali bir dünyada yaşadığının - fərqində olan

“Morfeus” adındakı obraz, film boyu Neoya həqiqətləri izah edir. Məsələn, ona indiyə qədər gördüyü, eşitdiyi, iylədiyi, daddığı, hiss etdiyi şeylərin fiziki bir həqiqiliyinin olmadığını; bunların, beyninin içində özünə göstərilən xəyali görünüşlər olduğunu dəlilləriylə açıqlayır. Sonrakı hissələrdə filmin obrazları arasında baş verən söhbətlərdən nümunələr veriləcəkdir.

VİRTUAL HƏQİQƏT VƏ ELEKTRİK SİQNALLARINDAN İBARƏT OLAN DÜNYA

Günümüzdəki texnologiyanın inkişafı sayəsində, “xarici dünya” və ya “maddə” olmadan, hisslərin çox həqiqi bir şəkildə yaşana biləcəyinə dair müxtəlif nümunələr əldə edilmişdir. Xüsusilə son illərdə inkişaf edən “virtual həqiqət” anlayışı, bu mövzuda olduqca inandırıcı dəlillər təqdim edir.

Virtual həqiqət, ən sadə şəkliylə, kompyuterdə canlandırılan üçölçülü görünüşlərin, bəzi cihazların köməyi ilə insanlara “həqiqi bir dünya” kimi göstərilməsidir. Bu gün bir çox sahədə fərqli məqsədlərlə istifadə edilən bu texnologiyaya, bu səbəblə, “süni həqiqət”, “virtual dünyalar”, “virtual yerlər” kimi adlar da verilir. Virtual həqiqətin ən vacib xüsusiyyəti, xüsusi alətlər istifadə edən bir adamın gördüyü görünüşü həqiqi zənn edərək, aldanmasıdır. Bu səbəblə, son illərdə virtual həqiqət ifadəsinin ingiliscə qarşılığının əvvəlində “immersive” sözü də istifadə edilir və bu sözün mənası “dalmaq, qapılmaq”dır. (Immersive Virtual Reality: Qapdıran virtual həqiqət)

Virtual dünyanın yaradılması üçün lazımlı olan alətlərdə istifadə edilən sistem, beş duyğu orqanımız üçün uyğun olan sistemlə eynidir. Məsələn, istifadəçinin əlinə keçirdiyi əlcəyin içindəki mexanizmin təsiriylə, barmaq uclarına bəzi siqnallar verilər və bu siqnallar beyinə ötürülər. Beyin bu siqnalları ayırd edəndə bu adam, ətrafında olmadığı halda ipək bir parçaya və ya səthində bir çox girinti və çıxıntı olan, qabarıq naxışlı bir vazaya toxunduğunu hiss edər.

Virtual həqiqətin istifadəsinə başlayan əhəmiyyətli sahələrdən biri də tibb sahəsidir. Miçiqan Universitetində təkmilləşdirilmiş bir texnikayla həkim namizədləri və xüsusilə təcili xidmət heyəti süni bir əməliyyatxana mühitində təlimləndirilir. Bu tətbiqdə, bir otağın döşəməsinə və divarlarına əməliyyatxana ilə bağlı görünüşlər, əməliyyatxananın ortasına isə bir əməliyyat masası və bir "xəstə"nin görünüşü əks etdirilir. Həkim namizədləri isə üçölçülü eynəklərini taxaraq bu virtual xəstə üzərində əməliyyata başlayırlar. Növbəti səhifədəki şəkillərdən də aydın olacağı kimi, bu rəsmi görən bir insan, hansının həqiqət, hansının virtual olduğunu ayıra bilməyəcəkdir.

Matriks adlı filmdə də, filmin iki qəhrəmanı, bir kürsüdə yatmış vəziyyətdə ikən sinir sistemlərinə bir kompyuter bağlandığında özlərini tamamilə fərqli məkanlarda görürlər. Bir səhnədə, uzaq şərq idmanları edərkən, bir başqa səhnədə isə özlərini tamamilə fərqli geyimdə çox izdihamlı bir prospektdə getdiklərini görürlər. Filmin qəhrəmanı Neo, yaşadıqlarının həqiqiliyi qarşısında, bunların kompyuter tərəfindən yaradılan görünüşlər olduğuna inanmadığını dediyində isə, kompyuterdəki görünüş dondurularaq bu adama həqiqi zənn etdiyi dünyanın əslində bir görünüş olduğuna inandırılır.

Filmin bir səhnəsində realda başına naqillər bağlanmış şəkildə, pis geyimlərdə, olduqca köhnə bir kürsüdə uzanan Neo, kompyuter proqramı yükləndikdən sonra özünü tamamilə fərqli paltarlarla tamamən fərqli bir yerdə görür. Pis görünüşlü geyimləri dəyişmiş, saçı uzanmışdır. Olduğu simulyasiya mühitində, həqiqi halından tamamilə

fərqli bir görünüşə bürünmüşdür.

Morfeus (Morpheus): *Bu inşa, bizim yükləmə proqramımızdır. Hər şeyi yükləyə bilərik. Geyim, təchizatlar, silah, təhsil simulyasiyaları, ehtiyacımız olan hər şeyi.*

Neo: *Hal-hazırda bir kompyuter proqramının içindəyikmi?*

Morfeus (Morpheus): *Buna inanmaq çox çətindir? Geyimlərin fərqlidir. Qollarındakı və başındakı əlaqələr yoxdur. Saçın dəyişib. Hal-hazırdakı görünüşün müvəqqəti bir insan rəsmidir. Rəqəmsal mənliyinin zehni bir proyeksiyasıdır.*

Söhbətlərindən aydın olduğu kimi filmdəki Neo adlı obraz, gördüklərinin xəyal ola bilməyəcək qədər həqiqi olmasına görə həqiqəti qəbul etmək istəmir. Bu zaman həqiqətlərin şüurunda olan Morpheus ilə aralarında belə bir söhbət keçir:

Neo: *Bu həqiqət deyil? (kürsünü göstərərək)*

Morfeus (Morpheus): *Həqiqət nədir? Həqiqəti necə tərif edə bilərsən? Əgər hiss edə bildiyin, iyləyib, dadıb, görə bildiyin şeylərdən danışırsansa, həqiqət, beyinə göndərilən elektrik siqnallarının şərh olunmasıdır.*

Morfeus (Morpheus) adıyla xatırlanan müdrik adam tərəfindən Neoya həqiqi olduğunu düşündüyü dünyanın, əslində simulyasiyadan başqa bir şey olmadığı göstərilir. Buna, gördüyü hər ayrıntı daxildir. Avtomobillər, şəhərin səs-küyü, nəqliyyat, göydələnlər, okean, insanlar, qısacası, hər şey yalnız kompyuter proqramı ilə zehində yaranan canlandırmadan ibarətdir. Diqqət edilərsə, Morfeus (Morpheus) adlı obraz, yuxarıdakı sözlərində həqiqi zənn edilən hisslərin beyinə ötürülən elektrik siqnallarının şərhi olduğunu elmi olaraq izah edir.

Bu mövzu ilə bağlı kitabımızın səhifələrində yer alan açıqlamalardan bir qismi belədir:

Yaşadığımız dünya ilə əlaqədar bütün məlumatlarımız bizə beş duyğu orqanının vasitəsiylə gəlir. Yəni biz gözümüzün gördüyü, əlimizin toxunduğu, burnumuzun iylədiyi, dilimizin daddığı, qulağımızın eşitdiyi bir dünyanı tanıyırıq. Doğulduğumuz andan etibarən bu hisslərə bağlı olduğumuz üçün "xarici dünya"nın, hisslərimizin bizə tanıtdığından fərqli ola biləcəyini heç düşünmədik.

Halbuki, bu gün bir çox elm sahəsində aparılan araşdırmalar son dərəcə fərqli bir anlayışı özü ilə bərabər gətirmiş, hisslərimiz və qəbul etdiyimiz dünya ilə bağlı ciddi şübhələrin meydana gəlməsinə səbəb olmuşdur.

Bu yeni anlayışın çıxış nöqtəsi isə budur: Bizim "xarici dünya" hesab etdiklərimiz, yalnız elektrik siqnallarının beyində yaratdığı təsirlərdir. Almanın qırmızılığı, taxtanın sərtliyi, hətta ananız, atanız, ailəniz, sahib olduğunuz bütün mallar, eviniz, işiniz və bu kitabın sətirləri yalnız və yalnız beyninizdəki elektrik siqnallarından ibarətdir.

Biz, "görürəm" deyərkən, əslində gözümüzə gələn xəbərdarlıqların elektrik siqnalına çevrilərək beynimizdə meydana gətirdiyi "təsiri" görürük. Yəni "görürəm" deyərkən, əslində beynimizdəki elektrik siqnallarını seyr edirik. Həyatımız boyunca gördüyümüz hər görünüş bir neçə sm^3-lik görmə mərkəzində meydana gəlir. Oxuduğunuz bu sətirlər də, üfüqə baxdığınızda gördüyünüz ucsuz-bucaqsız mənzərə də, bu kiçik yerdə meydana gəlir.

Bizim gördüyümüz, toxunduğumuz, eşitdiyimiz və adına "maddə", "dünya" ya da "kainat" dediyimiz anlayışlar, yalnız və yalnız beynimizdə yaranan elektrik siqnallarıdır.

Bu nöqtədə təəccüblü bir həqiqətlə də qarşılaşırıq: Beynimizdə, əslində nə rənglər, nə səslər, nə də görünüşlər vardır. Beynimizdə olan tək şey elektrik siqnallarıdır. Bu, fəlsəfi bir görüş deyil; hisslərimizin fəaliyyəti ilə bağlı elmi bir izahdır.

Görmə hadisəsi olduqca mərhələli bir şəkildə reallaşır. Görmə əsnasında, hər hansı bir cisimdən gələn işıq dəstələri (fotonlar), gözün önündəki linzanın içindən qırılaraq keçər və gözün arxa tərəfindəki retinaya tərs olaraq düşərlər. Buradakı hüceyrələr

tərəfindən elektrik siqnalına çevrilən görmə xəbərdarlıqları, sinirlər vasitəsiylə beyinin arxa qismindəki görmə mərkəzi adı verilən kiçik bir bölgəyə çatarlar. Bu elektrik siqnalı bir sıra əməliyyatdan sonra beyindəki bu mərkəzdə görünüş olaraq qəbul edilər. Yəni görmə hadisəsi, əslində beyinin arxasındakı kiçik, işığın heç vaxt girə bilmədiyi, qapqaranlıq bir nöqtədə yaşanar.

Göründüyü kimi Matriks filmində işlənən mövzu, kitabımızın səhifələrində yer verdiyimiz elmi həqiqətlə eyni paraleldədir. İstər filmdəki söhbətlərdə, istərsə də yuxarıda ifadə edildiyi kimi, biz yalnız bizə beynimizdə göstərilən görünüşlərlə təmasda olarıq. Nə qədər həqiqi olurlarsa olsunlar, bütün hisslərimiz zehnimizin bir şərhidir. Bu səbəbdən, seyr etdiyimiz, parçası olduğumuz bu görünüşlərin süni siqnallarla yaradılıb yaradılmadığından heç vaxt əmin ola bilmərik. Başqa sözlə desək, həqiqət ilə xəyal arasındakı fərqi əsla deyə bilmərik.

İndi bu mövzuya yenə filmdəki hissələrdən yer verərək bir az daha təfərrüatlı toxunaq.

XƏYALLARLA HƏQİQƏTLƏR ARASINDAKI AYIRD EDİLMƏYƏN BƏNZƏRLİK

Filmdən götürülən kadrlarda göründüyü kimi, filmin qəhrəmanı Neoya həqiqətləri göstərən Morfeus (Morpheus), onun bir xəyal dünyasında yaşadığını və yaşadıqlarını həqiqət zənn etdiyini, bu dəfə televiziyadan göstərdiyi görünüşlərlə izah edir. Neonun, Matriksin içində gördüyü göydələnlər, avtomobillər, müasir görünüş və digər bütün ayrıntılar yalnız zehnində özünə seyr etdirilən hisslərdir. Dünyanın o ankı həqiqi halı isə tamam fərqlidir; dağılmış, məhv olmuş bir planetdir. Ancaq Neoya izah

edilənə qədər, həmişə həqiqi bir dünyada olduğunu düşünüb və həyatının həqiqiliyindən heç bir şübhə etmədən, bu xəyali dünyaya aldanaraq illərlə yaşamışdır.

Morfeus (Morpheus): *Bu bildiyin 20-ci əsrin sonundakı dünyadır. Hal-hazırda beyin sadəcə interaktiv bir simulyasiyası hissəsidir. Buna "Matriks" deyirik. Bir xəyal dünyasında yaşayırdın. Bu, bu günkü halıyla həqiqi dünyadır… Həqiqətin xaricinə xoş gəldin…*

Filmin bu kadrları ilə əlaqədar kitabımızda daha əvvəl yer verilmiş şərhlərdən bir qismi belədir:

… "Xarici dünya"ya heç vaxt çata bilmədiyimizə görə, bu dünyanın həqiqətən var olduğunu necə təyin edə bilərik?

Əlbəttə ki, təyin edə bilmərik. Əksinə, hər şey sadəcə hisslərin yığını olduğuna, hisslər də sadəcə zehində var olduqlarına görə, bizim üçün mövcud olan hisslər dünyasıdır. Tanıdığımız tək dünya, zehnimizin içində olan, orada çəkilən, səsləndirilən və rəngləndirilən, qısacası, zehnimizdə meydana gələn bir dünyadır və bizim varlığından əmin olduğumuz tək dünya da budur.

Beynimizdə seyr etdiyimiz hisslərin maddi qarşılıqları olduğunu isə əsla isbat edə bilmərik. Bu hisslər çox yaxşı "süni" bir qaynaqdan da gələ bilərlər.

Bunu belə bir nümunə ilə zehnimizdə canlandıra bilərik:

Əvvəlcə, beyninizi bədəninizin xaricinə çıxarıb, şüşə bir kubun içində süni olaraq yaşatdığımızı fərz edək. Bir də bunun yanına, hər cür elektrik siqnalını yarada bilən bir kompyuter yerləşdirək. Sonra, hər hansı bir yerə aid görünüş, səs, qoxu kimi məlumatların elektrik siqnallarını süni olaraq bu kompyuterdə yaradaq və qeyd edək. Bu kompyuteri elektrik naqillərilə beyninizdəki hiss mərkəzlərinə bağlayıb burada qeydli olan siqnalları beyninizə ötürək. Bu siqnalları qəbul etdikcə beyniniz (bir başqa sözlə "siz"), bunların qarşılığı olan mühiti görəcək və yaşayacaqdır.

Bu kompyuterdən beyninizə, öz görünüşünüzə aid elektrik siqnalları da ötürə bilərik. Məsələn, bir masada oturarkən qəbul etdiyiniz bütün görmə, eşitmə, toxunma kimi hisslərin elektron qarşılıqlarını beyninizə göndərdiyimizdə, beyniniz özünü bürosunda oturan bir iş adamı zənn edəcəkdir.

Kompyuterdən gələn xəbərdarlıqlar davam etdikcə bu xəyali dünya davam edəcəkdir. Sadəcə bir beyindən ibarət olduğunu isə heç bir şəkildə bilməyəcəkdir. Çünki beyində bir dünya meydana gəlməsi üçün beyindəki müvafiq mərkəzlərə lazımlı xəbərdarlıqların çatması kifayətdir. Bu xəbərdarlıqlar süni bir qaynaqdan, məsələn, bir qeyd cihazından ya da daha fərqli bir hiss qaynağından gələ bilər.

HİSSLƏRİMİZİN HƏQİQİ OLMASI XARİCİ DÜNYADA MADDİ QARŞILIQLARI OLDUĞUNU SÜBUT EDƏ BİLMƏZ

Hisslərimizin maddi bir qarşılığı olduğunu heç vaxt isbat edə bilmərik. Çünki beynimizdə hisslərin meydana gəlməsi üçün xarici dünyaya ehtiyacımız yoxdur. Bu gün –kitabın əvvəlində də toxunduğumuz kimi- simulatorlar kimi bir çox texnoloji inkişaf bu həqiqətin ən əhəmiyyətli dəlilləridir. Filmin qəhrəmanı Neo da, təhsil məqsədiylə girdiyi simulyasiya mühitini son dərəcə həqiqi zənn edir. Belə ki, döyüş əsnasında göstəriləcək müvəffəqiyyətin əzələlərin gücünə bağlı olduğunu və o yerdə həqiqətən hava ilə tənəffüs edərək yaşadığını düşünür. Halbuki, həqiqi bədəni bir kürsüdə kompyuter sisteminə bağlı olaraq uzanmışdır.

Tank: *Döyüş dərsinə nə deyirsən?*

Neo: *"Jujitsu". Jujitsu öyrənəcəyəm? Yüklənmə başa çatdıqdan sonra…*

Neo: *Kunq Fu bilirəm.*

Morfeus (Morpheus): *Göstər mənə.*

Morfeus (Morpheus): *Bu bir döyüş proqramıdır. Matriksin proqramlaşdırılmış həqiqətinə bənzəyir. Eynilə əsas qaydaları var. Cazibə kimi. Bu qaydaların bir kompyuter sisteminin qaydalarından fərqi yoxdur. Bəzi qaydalar dəyişə bilər. Bəziləri də ləğv edilə bilər.*

İndiki vaxtda da filmdəkinə bənzər bir texnologiyadan istifadə edərək insanlara, çox fərqli məkanlarda yaşadıqları hiss etdirilə bilər və bu insanlar gördükləri, eşitdikləri, etdikləri şeylər həqiqətmiş kimi reaksiyalar verə bilərlər. Bəzən bir otaq böyüklükdəki bir kubun bütün divarlarına və döşəməsinə stereo görünüşlər əks etdirilər və bu otağa daxil olan kəslər, taxdıqları stereo eynəklərlə, otaqda gəzib özlərini tamamilə fərqli məkanlarda, məsələn, bir şəlalə kənarında, bir dağın zirvəsində, dənizin ortasındakı bir gəminin göyərtəsində görə bilərlər. Başa taxılan kaskalar üçölçülü, dərinlik və məkan hissləri olan görünüşlər meydana gətirirlər. Görünüşlər insan ölçüləri ilə mütənasib olaraq verilir və əlcək kimi bəzi alətlərə toxunma hissi təmin edilir. Beləcə, bu alətləri istifadə edən adam, gördüyü virtual dünyadakı əşyalara toxuna bilər, onların yerlərini dəyişdirə bilər. Bu məkanlarda insanın gördüyü görünüşdəki səslər də son dərəcə inandırıcıdır. Səs hər istiqamətdən, fərqli dərinliklərə sahib olaraq verilə bilinir. Bəzi tətbiqlərdə, dünyanın çox fərqli yerlərindəki bir neçə adama eyni virtual yer göstərilə bilinir. Beləcə, məsələn, dünyanın fərqli ölkələrindən, hətta fərqli qitələrindən üç insan, özlərini digərləri ilə birlikdə bir sürət motosikletinə minərkən ya da bir iclasın sonunda fikir müzakirəsində görə bilərlər.

Bu nümunələr onu göstərir ki, bizim özümüzü bir məkanda görə bilməyimiz üçün xarici dünyanın mövcud olması şərt deyil. Bizim dünya haqqında qəbul etdiyimiz bütün hisslər, görünüşlər, dadlar və qoxular süni bir qaynaqdan da gəlsə, həqiqətən mövcud olsa da bizim bunu bir-birindən ayırd etməyimiz mümkün deyil. Biz hər vəziyyətdə sadəcə zehnimizin içində yaşayırıq və çöldəki maddənin əsli bizə əlçatmazdır.

GÖRÜNÜŞDƏKİ KEYFİYYƏT, AYRINTILARDAKI ZƏNGİNLİK SİZİ ALDATMASIN!

Filmin yenə bir başqa səhnəsində, simulyasiya mühitində Neoya Matriks adındakı virtual dünya tanıdılır. Hər şey həqiqətə son dərəcə uyğundur. Neo, küçədə gedən insanların nəqliyyat işıqlarında dayandıqlarını, sonra da yaşıl işıq yanınca getməyə davam etdiklərini görür. Hətta izdiham içindən bir nəfərin çiyninə dəydiyini, bədəninin sarsıldığını hiss edir.

Morfeus (Morpheus): *Matriks bir sistemdir, Neo… İçəridə, ətrafına baxanda nə görürsən? İş adamları, müəllimlər, vəkillər, dülgərlər. Xilas etməyə çalışdığımız insanların zehinləri. Onları qurtarana qədər, sistemin bir parçası olaraq qalacaqlar… Başa düşməlisən, bu insanların böyük bir qismi sistemdən çıxmağa hazır deyillər. Aralarından böyük bir qismi sistemə o qədər ümidsiz bir şəkildə bağlıdır ki, onu qorumaq üçün döyüşəcəklər…*

Neonun həqiqətmiş kimi ətrafa baxdığı bir anda, Morfeus (Morpheus) "dayandır" əmri verər və bir anda ətraflarındakı görünüş olduğu şəkliylə donar. İnsanlar olduqları kimi donub qalarlar, hovuzun axmaqda olan suyu dayanar, quş havada olduğu yerdə asılı qalar. Bu görünüşlə bağlı sadəcə Morfeus (Morpheus) və Neo söhbətlərinə davam edirlər. Neo çox təəccüblənər, lakin o zaman ətrafındakı hər şeyin yaşadığı xəyalın bir parçası olduğunu, həqiqət olmadığını daha yaxşı qavrayar.

Morfeus (Morpheus): *Dayandır.*

Neo: *Bu Matriksdir, elə deyil?*

Morfeus (Morpheus): *Sənə bir şey öyrətmək üçün hazırlanmış bir proqramdır.*

Bu filmdə yaşanan hadisələrin insan həyatında da bənzər şəkildə olmadığını isbat etmək mümkün deyil. Bir adam nə qədər inandırıcı təfərrüatlarla dolu bir məkanda olsa belə bunları yalnız öz zehnində yaşayır.

Öz xaricində bu hadisələrin, məkanların, insanların əsilləri olsa belə onlara çatmaz. Bu mövzunu açıqlayan izahlarımızdan bəziləri belədir:

İnsan, bir növ ekranda üçölçülü, son dərəcə dəqiq, son dərəcə həqiqi bir film seyr edir. Bu ekrana sanki yapışıq olduğundan heç cürə filmdən sıyrılıb, içində olduğu vəziyyəti görə bilməz.

… Maddə dünyası olsa da, olmasa da insan yalnız beynindəki hisslər dünyasını izləyər. Maddələrin əslləri ilə heç bir zaman qarşılaşa bilməz. Hətta, hər insana surətini görmək bəs edir. Məsələn, rəngarəng çiçəklərlə bəzənmiş bir bağçanı gəzən bir insan, əslində bu bağçanın əslini deyil, beynindəki surətini görər. Ancaq, bu bağça o qədər həqiqidir ki, hər bir insan bu xəyalında yaranan bağçadan həqiqiymiş kimi eyni zövqü alar. Hətta bu günə qədər milyardlarla insan, bu bağça kimi gördüyü hər şeyin əslini gördüyünü zənn etmişdir…

Allah, qüsursuz və saymaqla bitməyəcək qədər çox ayrıntıya sahib olan kainatı, hər an, əksiksiz olaraq yaradır. Üstəlik, bu yaradılış o qədər qüsursuzdur ki, yer üzündə bu günə qədər mövcud olmuş milyardlarla insan, bu kainatın və gördükləri hər şeyin bir xəyal olduğunu başa düşə bilməmişlər, həmişə maddənin əsli ilə təmasda olduqlarını zənn etmişlər.

Bəzi insanların şosedən sürətlə keçən bir avtobusu və ya bu avtobusun səbəb olduğu bir qəzanı, maddənin fiziki varlığı ilə təmasda olduqlarının təəccüblü bir dəlili bilmələrinin səbəbi, görünüşün insanı aldadacaq qədər həqiqi görünməsi və hiss edilməsidir. Məkan görünüşlərindəki, məsələn, şosedəki dərinlik və perspektivin qüsursuzluğu, məkanda görülən cisimlərin rənginin, şəklinin, kölgəsinin mükəmməlliyi, səs, qoxu və sərtlik hisslərinin çox dəqiq olması və görünüşün içində bir məntiq olması kimilərini aldada bilir və bəzi insanlar bu hadisələr nəticəsində bunların hiss olduğunu unudur. Amma zehində meydana gələn hisslər nə qədər əksiksiz və mükəmməl olarsa olsun, bunların bir hiss olduğu həqiqəti dəyişməyəcəkdir.

FİZİKA QANUNLARI DA HİSSLƏRİMİZİN BİR AÇIQLAMASIDIR

Morfeus (Morpheus), Neonun maddənin əsliylə bağlı həqiqətləri qavraması üçün bir çox üsul sınayır və ona bir çox dəlil təqdim edir. Bir əvvəlki hissədə təlimin bir parçası olaraq, Matriks adlı sistemin bir surətində görünüşün dondurulduğunu, beləcə həqiqi kimi görünən hər şeyin əslində virtual bir həqiqət olduğunu göstərdiyini izah etmişdik. Neonun buradakı təlimi, bu söhbətlə davam edir:

> **Neo:** *Onlar nədir?*
>
> **Morfeus (Morpheus):** *Sensor proqramlar. Sistemə bağlı qalaraq hər cür proqrama girib, çıxa bilərlər. Sistemdən çıxarmadığımız hər kəs potensial bir agentdir. Matriksin içində haradasa hər kəs bir agentdir, ya da deyildir. Onlardan gizlənərək və qaçaraq həyatda qaldıq, amma onlar qapı gözətçiləridir. Bütün qapıları tutublar. Açarlar onlardadır. Gec ya da tez, birinin onlarla döyüşməsi lazım olacaqdır.*

Neo: *Birimi?*

Morfeus (Morpheus): *Sənə yalan demiyəcəm. Bir agentə qarşı gəlib, onunla döyüşən hər kəs, canından oldu. Onların edə bilmədiklərini sən edəcəksən.*

Neo: *Niyə?*

Morfeus (Morpheus): *Bir divarın içindən yumruq atan agentlər gördüm. İnsanlar onlara bir silah boşaltdılar; ancaq güllələri ilə sadəcə havanı vurdular. Gücləri və sürətləri, qaydalara əsaslanan bir dünyaya bağlıdır. Buna görə sənin qədər sürətli və güclü ola bilməzlər.*

Neo: *Nə deməyə çalışırsan? Güllələri tuta biləcəyəmmi?*

Morfeus (Morpheus): *Xeyr Neo. Demək istədiyim budur: hazır olduğunda buna ehtiyac qalmayacaqdır.*

Yuxarıdakı söhbətdə də Morfeus (Morpheus), Neoya davamlı olaraq fizika qaydalarıyla düşünməməsini nəsihət edir. Matriks adlı sistemdə "agent" olaraq tanınan təhlükəsizlik işçiləri, sistemdəki virtual obrazların bədənlərini istifadə edərək hər şeyə hakim ola bilirlər. Ancaq bu sistemin zehinlərə göstərilən süni bir dünya olmasına görə, Neonun ən qeyri-mümkün kimi görünən şeyləri də bacara biləcəyi izah edilir.

Növbəti səhnələrdə isə filmdəki xarakterlərin lazım olduğunda fövqəlbəşər bir bacarıq sərgilədikləri görünür. Bunu son dərəcə həqiqi bir şəkildə yaşayırlar. Ancaq bu, əslində kompyuter tərəfindən beyində canlandırılan xəyallardan ibarətdir. Filmin qəhrəmanı Neo bu həyəcan verici hadisələri yaşadığını zənn edərkən, əslində kürsüsündə oturmuşdur.

Digər tərəfdən Morfeus (Morpheus), Neonun zehnini, həyatı boyu əldə etdiyi qeyri-obyektivlikdən, aldığı təlqinlərdən qurtarmağa -filmdəki ifadəsiylə zehnini azad etməyə- çalışır. Bu məqsədlə hər iki aktyor da bir atlama proqramına qoşulurlar. Burada Morfeus (Morpheus), bir-birindən uzaq və son dərəcə yüksək binalar arasında sanki uçurmuş kimi tullanır və Neonun da zehnini azad etdiyi (yəni qeyri-obyektivlikdən xilas olduğu) təqdirdə bunu bacara biləcəyini deyir. Ancaq Neo bir kompyuter proqramında olduğunu bildiyi halda, özünün fizika qaydalarına tabe olduğunu düşünür. Digər bir sözlə desək, həqiqi olmayan bir mühitə böyük əhəmiyyət verərək tullanarkən yıxılacağının qorxusunu yaşayır.

Əvvəlki səhifədəki kadrlarda da Neonun bu yüksək binalar arasından tullanmağı sınayarkən, tullana bilməyəcəyinə dair tərəddüd və qorxu hiss etməsiylə bərabər beton yerə düşməsi görünür.

Filmdə fantastik ünsürlər olmaqla birlikdə, verilən mesajlar son dərəcə düşündürücüdür. Məsələn, maddənin və məkanın xəyal olduğunu anlayan bir adam, digər insanların bilmədiyi çox əhəmiyyətli bir sirri də qavrayar: Dünyada etibarlı olan səbəb-nəticə əlaqələri, maddənin fiziki xüsusiyyətlərinin nəticəsində və ya insanlar arasındakı əlaqələrin nəticəsində meydana gələr. Maddə bir hiss olduğuna görə fiziki bir təsirə sahib ola bilməz. Hər fiziki təsir, ayrı-ayrı olaraq yaradılır. Məsələn, atılan bir daş şüşəni sındırmaz; daşın atılması və şüşənin qırılması görünüşləri ayrı-ayrı yaradılır. Gəmiləri suda üzdürən "suyun qaldırma qüvvəsi" və ya quşları havada tutan "havanın qaldırma qüvvəsi" də bir hiss olaraq yaradılır. Bu səbəbdən əslində bu kimi "qüvvələr"in hamısı, əslində bunları yaradan Allaha aiddir.

Necə ki, filmdə də bu həqiqətləri öyrənən baş roldakı aktyor, kompyuterə bağlı bir kürsüdə uzanarkən, Matriks olaraq xatırlanan virtual dünyaya girəndə, fizika qanunlarının xaricində hərəkətlər edə bildiyini görür. Məsələn, aşağıdakı kadrlarda görüldüyü kimi özünü güllələrə hədəf olmayacaq qədər fövqəladə bir sürətlə hərəkət edərkən görər. Üstəlik hər şey elə həqiqidir ki, aktyor gözünü kürsüdə açanda hələ də böyük bir çaşqınlıq yaşayır. Bu da bir mühiti insanlara yaşatmaq üçün çöldəki konkret həqiqətə ehtiyac olmadığının çox əhəmiyyətli bir dəlilidir.

Maddənin əsli mövzusunu izah etdiyimiz səhifələrdə bu mövzu üzərində də qalaraq fizika qaydalarının da zehində yarandığını belə izah etmişdik:

Allah, bizə yaşadığımız görünüşləri, bir səbəb və nəticə əlaqəsi içində, bəzi qanunlara bağlıymış kimi göstərir. Məsələn, gecə ilə gündüz, bizim beynimizdə yaranan görünüşlərdir və biz gecə ilə gündüzün günəşə və dünyanın hərəkətlərinə bağlı olaraq dəyişdiyini düşünərik. Məsələn, beynimizin içindəki görünüşdə günəş ən yüksəkdəykən, günorta vaxtı olduğunu bilərik və günəş batarkən də havanın qaraldığına şahid olarıq. Allah, kainata aid hissləri yaradarkən, bu səbəb və nəticə əlaqəsi ilə birlikdə yaratmışdır. Heç vaxt günəş batdığı halda gündüzü yaşamarıq.

Beynimizin içindəki xəyalda, əlimizdən buraxdığımız qələm həmişə yerə düşür. Buna səbəb olan səbəb və nəticə əlaqəsini araşdıranda "cazibə qanununu" taparıq. Allah, ruhumuza izlətdirdiyi görünüşləri müəyyən səbəblərə və qanunlara bağlıymış kimi göstərir. Bu səbəblərin və qanunların yaradılmasının bir səbəbi, həyatın imtahan üçün yaradılmasıdır.

Allah bütün bu hissləri, heç bir qanuna və səbəbə ehtiyac duymadan yaratmağa qadirdir. Məsələn, Allah, toxum olmadan bir gülü yarada bilir, bulud olmadan yağış yağdıra bilir ya da günəş olmadan kölgəni, gecəni və gündüzü yarada bilir. Allah Furqan surəsinin 45-47-ci ayələrində əvvəl kölgəni yaratdığını, sonra da günəşi ona dəlil etdiyini bildirir. Yuxularımız bu yaradılışı daha doğru qavramağımız üçün yaxşı bir nümunədir. Yuxumuzda günəşin maddi bir qarşılığı olmadığı halda, günəşin verdiyi işığı, istiliyi, aydınlığı eyni real həyatdakı kimi hiss edərik. Bu baxımdan yuxular, Allahın, günəş olmadan da günəşə aid hissləri zehnimizdə yarada biləcəyinin göstəricilərindən biridir. Ancaq Allah yaratdığı imtahan mühitində insanlar üçün hər şeyin bir səbəbini də yaratmışdır. Gündüzün səbəbi günəşdir, yağışın səbəbi isə buluddur. Bunların hamısı, beynimizdə Allahın ayrı-ayrı yaratdığı görünüşlərdir. Bir səbəbin nəticədən əvvəl yaradılması da, Allah, bu imtahan mühitində hər şeyin müəyyən qanunlarla işlədiyini düşünməyimizi və bu şəkildə elmi araşdırma etməyimizi təmin edir.

Allah, yaratdığı görünüşləri müəyyən səbəblərə bağlıymış kimi göstərər. Məsələn, bir alma budağından qopduğunda həmişə yerə düşər, heç vaxt göyə doğru yüksəlməz və ya havada asılı qalmaz. Allahın yaratdığı bu səbəblərin və qanunların araşdırılması isə elmin mövzularını meydana gətirər…

Allah, səbəb olmadan da nəticəni yaratmağa qadirdir. Məsələn, yuxusunda günəş olmadığı halda günəşin işıqlarıyla istiləndiyini hiss edən bir insan bunun bir dəlilidir.

BEYNİMİZİN İÇİNDƏKİ GÖRÜNÜŞLƏRİN XARİCİNƏ ÇIXA BİLMƏRİK

Doğulduğumuzdan etibarən beş duyğu orqanımıza bağlı olduğumuz üçün "xarici dünya"nın, hisslərimizin bizə tanıtdığından fərqli ola biləcəyini heç düşünməmişik.

İnsanın həyatına dair bildiyi hər şey gözləriylə gördükləri, qulaqlarıyla eşitdikləri, əllərivlə toxunduqlarından, qısacası, duyğu orqanlarıyla qəbul

etdiklərindən meydana gələr. Yəni insan daim öz "fərdi dünyasında" yaşayar. Kosmosdakı ulduzlar, üzərində yaşadığımız dünya, dünyanı dolduran milyardlarla insan, ətrafımızda gördüyümüz hər canlı, evimiz, evimizin içindəki əşyalarımız, hal-hazırda üzərində oturduğumuz kürsü, əlimizdə tutduğumuz kitab və daha milyonlarla incəliklə indiyə qədər min dəfə qarşılaşmışıq. Ancaq bunların hamısı, yenə bizim "fərdi dünyamıza" aid hisslərdir. Heç bir insan, indiyə qədər öz seyr etdiyi bu dünyanın xaricinə çıxa bilməmişdir. İnsan nə edərsə etsin, bütün həyatının və bədəninin bir xəyal olduğu, bunların əsilləri ilə təmasda olmadığı həqiqətini dəyişdirə bilməyəcəkdir…

Aşağıda yan tərəfdə filmdən gördüyünüz kadrlar Neonun, Matriksin nə olduğunu öyrənmək üçün Morfeusla (Morpheus) etdiyi söhbətə aiddir. Morfeus (Morpheus) bu söhbət əsnasında, Neoya Matriksin nə olduğunu təsvir edərkən, bu sistemdən "həqiqəti görməsinə maneə olan bir pərdə" kimi bəhs edir:

Morfeus (Morpheus): *Niyə burada olduğunu izah edim sənə. Bir şey bildiyin üçün buradasan. Bildiyini açıqlaya bilmirsən. Amma hiss edirsən. Həyatın boyunca hiss etdin. Dünyada tərs gedən bir şeylər var. Nə olduğunu başa düşmürsən, amma orada beynində daş parçası kimi səni özündən çıxardan bir şeydir. Səni mənə gətirən şey bu hiss idi. Nədən danışdığımı bilirsən?*

Neo: *Matriksdən?*

Morfeus (Morpheus): *Nə olduğunu öyrənmək istəyirsən? Matriks hər yerdədir. Ətrafımızda. Hal-hazırda, bu otaqda. Pəncərədən çölə baxdığında görərsən ya da televizoru açdığında. İşə getdiyində hiss edərsən… Vergi ödəyərkən. Həqiqəti görməməyin üçün dünya, bir pərdə kimi önünə çəkilmişdir sanki.*

Filmin qəhrəmanı Neo, həqiqəti öyrənmək üzrə, olduğu kapsuladan çıxarılıb oyandırılana qədər, özünə göstərilən xəyali dünyanın fərqində deyildi. Çünki həyatının hər anında bu sistemlə iç-içə yaşamış və ətrafındakı bütün insanlardan bu həyatın həqiqi olduğu təlqinini almışdır. Bu səbəblə, Neonun razı salınması, o ana qədər zənn edərək yaşadığı həyatının bir xəyaldan ibarət olduğunu dərk etməsi vaxt almışdır.

Bu vəziyyət indiki vaxtda maddənin əsli mövzusunda məlumatlandırılan bir qisim kəslər üçün də məqbuldur. Maddənin mütləq varlığına inanan və gördüklərinin xarici dünyadakı əsilləri ilə təmasda olduğundan əmin olan kəslər bəzi məntiqsiz etirazlara yönəlirlər. Ancaq burada izah edilənlər, - kim nə qədər etiraz edirsə etsin - eynilə bir fizika qanunu

və ya bir kimya düsturu qədər dəqiq həqiqətlərdir.

Matriks filminin yuxarıdakı görünüşləri ilə oxşar olan izahlarımızdan bir qismi belədir:

Dünyada yaşadığımız həyatın bir parçası olan bütün hadisələr, insanlar, binalar, şəhərlər, avtomobillər, vəzifələr, qısacası, həyatımız boyunca gördüyümüz, tutduğumuz, toxunduğumuz, iylədiyimiz, daddığımız, dinlədiyimiz hər şey, əslində beynimizdə yaranan görünüş və hisslərdir.

Biz, bizə verilən təlqinlə bunların, beynimizin xaricindəki bir dünyada sabit olduqlarını, hər birinin maddi varlıqlar olduqlarını və bizim bu səbəblə bunların əsillərini gördüyümüzü, hiss etdiyimizi zənn edərik. Halbuki, biz heç bir varlığın əslini əsla görə bilmərik və bu varlıqların əsillərinə əsla toxuna bilmərik. Qısacası, bizim həyatımız boyunca maddə bildiyimiz hər şey əslində bir xəyal olaraq beynimizdə meydana gələn görünüşlərdən ibarətdir.

Əgər diqqətlə düşünsəniz, görən, eşidən, toxunan, düşünən və hal-hazırda bu kitabı oxuyan ağıllı varlığın, yalnız bir ruh olduğunu və sanki bir növ pərdə üzərində "maddə" deyilən hissləri seyr etdiyini hiss edə bilərsiniz. Bunu qavrayan insan, insanlığın böyük hissəsini aldadan maddi dünya həyatından uzaqlaşıb, həqiqi varlıq həyatına girmiş olar…

GÖRƏN GÖZLƏRİMİZ DEYİL, GÖRÜNÜŞ BEYNİMİZDƏ MEYDANA GƏLİR

Daha əvvəl də qeyd etdiyimiz kimi, həyatımız boyunca aldığımız təlqinlə, bütün dünyanı gözlərimizlə gördüyümüzü zənn edərik. Hətta "gözlərimiz dünyaya açılan pəncərələrimizdir" deyə bilirik. Halbuki, görmənin elmi açıqlamasına görə həqiqət belə deyil; çünki biz gözlərimizlə görmərik. Gözlərimiz və gözlərimizə bağlı olan milyonlarla sinir hüceyrəmiz, sadəcə "görmə hadisəsinin" reallaşması üçün beyinə mesaj çatdıran naqil vəzifəsinə sahibdirlər.

Matriks adlı filmdə də baş roldakı aktyor, realda naqillərlə cihaza bağlı olduğu və gözləri bağlı olaraq bir kürsüdə yatdığı halda, çox canlı bir həyat yaşadığı hissinə qapılır. Ancaq o ana qədər gördüyü bütün rəngarəng, aydın, canlı görünüşlər, ona fiziki bir gözün varlığına ehtiyac olmadan göstərilmişdir. Eyniylə qaçdığını, hərəkət etdiyini, döyüşdüyünü zənn etdiyi görünüşləri də, əzələlərini istifadə etmədən bir kürsüdə yatarkən sadəcə seyr etmişdir.

Filmin qəhrəmanı real həyata dönüb həqiqi zənn etdiyi şeyləri, əslində xəyali bir dünyanın içində yaşadığını başa düşəndə isə çox təəccüblənmişdi. O günə qədər şüşə bir plafonun içində, beyninə verilən elektrik siqnallarından yaranan xəyali bir dünyada yaşadığı halda, özünü bir kompyuter proqramçısı zənn

edərək aşağıda yan tərəfdəki şəkildə olan məkanda yatırdı. Yəni həqiqi zənn etdiyi hər şey əslində bir xəyaldır.

Neo: *Nə edirsən?*

Morfeus (Morpheus): *Əzələlərin gücdən düşdü, onları yenidən işlədirik.*

Neo: *Gözlərim niyə ağrıyır?*

Morfeus (Morpheus): *Onları heç istifadə etmədin. İstirahət et Neo. Cavablar gəlir.*

Yuxarıdakı söhbətlərdən aydın olduğu kimi, Neo gözlərini ya da bədən əzələlərini istifadə etmədən beyninə ötürülən süni siqnallarla real bir həyat yaşadığı təəssüratında idi. Gözlərini heç istifadə etmədiyi halda son dərəcə rəngli, aydın və canlı bir dünya ilə təmasda olmuş; eyni şəkildə əzələlərini istifadə etmədiyi halda həyatı boyu özünü hərəkət halında hiss etmişdir.

Buradakı vəziyyət hər bir insan üçün bənzərdir. Məsələn, bir adam bazarda alver edən insanlara baxanda, bu insanları və bazarı gözləriylə görməz; çünki bu mənzərəyə aid görünüş gözünün qarşısında deyil, beyninin arxa tərəfində yaranar. Bu səbəbdən, gözə ehtiyac duymadan, beyninin müvafiq yerinə göndərilən süni siqnallarla da eyni görünüşü görməsi mümkün olacaqdır.

Filmin yuxarıdakı kadrları ilə paralel olaraq, kitabımızda yer alan ifadələrdən bir qismi belədir:

Otağınızın pəncərəsindən çöldəki mənzərəni seyr edərkən, həyatınız boyu aldığınız təlqindən dolayı, bu mənzərəni gözlərinizlə gördüyünüzü zənn edərsiniz. Halbuki, həqiqət belə deyil. Çünki siz gözlərinizlə çöldəki bir mənzərəni görə bilməzsiniz. Siz, beyninizin içində yaranan mənzərəyə aid görünüşü görərsiniz. Bu bir təxmin ya da bir fəlsəfə deyil, elmi bir həqiqətdir.

Bilindiyi kimi, gözümüzdəki hüceyrələrdən gələn elektrik siqnalları, beynimizdə görünüşə çevrilir. Məsələn, beyin, görmə mərkəzinə gələn bəzi elektrik siqnallarını bir günəbaxan tarlası olaraq şərh edər. Elə isə görən göz deyil.

Yaxşı, görən gözlərimiz deyilsə, beyinin arxa qismində, qapqaranlıq bir məkanda, bir gözə, retinaya, mərcəyə, göz sinirlərinə, göz bəbəyinə ehtiyac duymadan, elektrik siqnallarını rəngarəng bir günəbaxan tarlası olaraq görən, bu gördüyü mənzərədən zövq alan kimdir?

… Beyinin içində yaranan bu görünüşləri, bir televizor ekranından seyr

edən kimi izləyən, izlədikləri ilə sevinən, kədərlənən, həyəcanlanan, fəxr edən, təşvişə düşən, maraqlanan kimdir? Bütün gördüklərini və hiss etdiklərini şərh edəcək şüur kimə aiddir?

Həyatı boyu, qapqaranlıq, səssiz beyninin içində özünə göstərilən görünüşləri izləyən, düşünən, nəticə çıxaran, qərar verən şüur sahibi olan varlıq kimdir?

Bütün bunları qəbul edən, şüuru meydana gətirən varlığın, şüursuz atomların meydana gətirdiyi, su, yağ, zülal kimi maddələrdən ibarət olan bir beyinin ola bilməyəcəyi aşkardır. Beyindən əlavə, çox fərqli bir varlıq olmalıdır.

… Beyninin içindəki görünüşü "görürəm" deyən, beyninin içində eşitdiyi səsləri "eşidirəm" deyən, öz varlığının şüurunda olan və "mən mənəm" deyən bu varlıq Allahın insana vermiş olduğu ruhdur.

BÜTÜN LƏZZƏTLƏR BEYİNDƏ MEYDANA GƏLƏR

Dad bilmə hissi də digər duyğu orqanlarına bənzər şəkildə açıqlana bilər. İnsan dilinin ön tərəfində dörd fərqli tipdə kimyəvi qəbuledici vardır; bunlar duzlu, şirin, turş və acı dadlarına qarşılıq gəlir. Dad qəbuledicilərimiz bir sıra əməliyyatdan sonra bu hissləri elektrik siqnallarına çevirər və beyinə ötürərlər və bu siqnallar da beyin tərəfindən dad hesab edilər. Bir tortu, pendiri, portağalı ya da sevdiyiniz bir yeməyi yediyinizdə aldığınız dad, əslində elektrik siqnallarının beyin tərəfindən şərh olunmasıdır.

Matriks filmində də bu həqiqət yemək masasındakı söhbət əsnasında belə şərh olunmuşdur:

Tank: *Hə dostum. Çempionların səhər yeməyi. (Neoya sıyıq bənzəri bir yemək verilir)*

Maus (Mouse): *Gözlərini bağlasan yumurta yediyin təəssüratına qapılarsan… Mənə nəyi xatırlatdı, bilirsən? Ləziz buğda. Heç ləziz buğda yemisən?*

Sviç (Switch): *Xeyr, amma əslində sən də yeməmisən.*

Maus (Mouse): *Demək istədiyim elə budur. Cihazların ləziz buğdanın dadını haradan bildiyini yəqin bilmək istəyərsən. Bəlkə səhv etdilər. Bəlkə ləziz buğdanın dadı yulaf əzməsi ya da ton balığı kimi idi. Bu vəziyyətdə insanın ağlına çox şey gəlir. Məsələn, toyuq, bəlkə toyuğun dadını qərarlaşdıra bilmədilər, buna görə toyuq ətində hər şeyin dadı var.*

Dozer: *Yediyim şey sintetik amin turşuları, vitaminlər, minerallarla birləşdirilib. Bədənin ehtiyacı olan hər şey.*

Filmin bir başqa səhnəsində isə, həqiqətləri – Matriks adlı sistemin onlara xəyali bir dünya yaşatdığını- bilən obrazlardan biri, yediyi yeməyi belə təsvir edir:

> **Mr. Riqan (Reagan):** *Bilirsinizmi bu qızardılmış ətin mövcud olmadığını bilirəm. Bunu ağzıma qoyanda Matriksin beynimə bunun sulu və ləzzətli olduğunu dediyini bilirəm…*

Yuxarıdakı kadrlarda izahat verən adam, bütün həyatının özünə bir kompyuter proqramı tərəfindən həqiqət kimi göstərildiyini bilir. Bu səbəblə, yediyi qızardılmış ətin ləzzətinin əslində mövcud olmadığını, bunu sadəcə beynində qəbul etdiyini deyir, ancaq yenə də bu ləzzətdən həqiqiymiş kimi zövq aldığını ifadə edir. Bu söhbətlə bağlı kitabımızda yer verilən izahlardan bir qismi belədir:

Bizim gördüyümüz, toxunduğumuz, eşitdiyimiz və adına "maddə", "dünya" ya da "kainat" dediyimiz anlayışlar, yalnız və yalnız beynimizdə yaranan elektrik siqnallarıdır. Məsələn, meyvə yeyən biri, əslində meyvənin beynindəki hissiylə təmasdadır, əsliylə deyil. Adamın "meyvə" deyə xarakterizə etdiyi şey, meyvənin forması, dadı, qoxusu və sərtliyinə aid elektrikli informasiyanın beyində qəbul edilməsindən ibarətdir. Əgər beyinə gedən görmə sinirini kəssəniz, meyvə görünüşü də bir anda yox olar və ya burundakı qəbuledicilərdən beyinə uzanan sinirdəki bir qopuqluq, qoxu qəbulunuzu tamamilə yox edər. Çünki meyvə, bəzi elektrik siqnallarını beyinin şərh etməsindən başqa bir şey deyil.

Beyninizdə yaranan bir tort görünüşünə beyninizdə yaranan şəkər dadı əlavə edilər və tort haqqında hər şey sevdiyiniz hala gələr. Siz iştahla tortunuzu yeyəndə aldığınız dad, əslində elektrik siqnallarının beyninizdə meydana gətirdiyi bir təsirdən başqa bir şey deyil. Beyniniz kənardan gələn xəbərdarlıqları necə şərh edərsə siz ancaq onu o cür bilərsiniz. Yoxsa xaricdəki əsliylə əsla təmasda ola bilməzsiniz; məsələn, şokoladın özünü görə bilməz, iyləyə bilməz və dada bilməzsiniz. Ya da beyninizə gedən dad bilmə sinirləri kəsilsə, o an yediyiniz hər hansı bir şeyin dadının beyninizə çatması mümkün olmaz, dadbilmə duyğunuzu tamamilə itirərsiniz. Qəbul etdiyiniz dadların olduqca qüsursuz və həqiqi olması üstəlik bunlara aid görünüşləri də seyr etməniz sizi qətiyyən aldatmasın. Mövzunun elmi şərhi bu şəkildədir.

Eyni şəkildə, bu günə qədər heç bir insan nanənin əslinin dadına baxmamışdır. Nanə hesab edilən dad, beyində yaranan sadəcə bir hissdir.

Çünki nanənin əslinə nə toxuna bilər, nə onun əslini görə bilər, nə əslinin qoxusunu və ya dadını ala bilər. Nəticədə, biz həyatımız boyu bizə göstərilən surətlərlə yaşayarıq. Ancaq bu surətlər o qədər həqiqidir ki, heç vaxt surətlərini yaşadığımızı fərq edə bilmərik.

… Bir şokoladı ya da sevdiyiniz bir meyvəni yediyinizdə aldığınız dad, elektrik siqnallarının beyin tərəfindən şərh olunmasıdır. Xaricdəki obyekt isə əlçatmazdır; şokoladın özünü görə bilməz, iyləyə bilməz və dada bilməzsiniz. Məsələn, beyninizə gedən dadbilmə sinirləri kəsilsə, o an yediyiniz hər hansı bir şeyin dadının beyninizə çatması mümkün olmaz; dadbilmə duyğunuzu tamamilə itirərsiniz. Bu yerdə qarşımıza bir həqiqət də çıxar: Bir yeməyi daddığımızda bir başqasının o yeməkdən aldığı dadın və ya bir səsi eşitdiyimizdə başqa birinin eşitdiyi səsin bizim qəbul etdiklərimizlə eyni olduğundan əmin olmağımız mümkün deyil.

BÜTÜN QOXULAR DA BEYİNİN İÇİNDƏ YARANAR

Qəbul etdiyiniz qoxular da əslində uzaq bir məsafədən sizə gəlib çatmaz. Qoxu hissetmə mərkəzinizdə yaranan təsirləri, xaricdəki maddələrin qoxusu zənn edərsiniz. Halbuki, bir gülün görünüşü necə ki, görmə mərkəzinizin içindədirsə, o gülün qoxusu da eyni şəkildə qoxu hissetmə mərkəzinizin içindədir. Xaricdə nə gülün, nə də ona aid bir qoxunun varlığını əsla bilməzsiniz. Çünki hisslərimizin bizə tanıtdığı xarici dünya əslində beynimizə çatan "elektrik siqnalları yığını"ndan başqa bir şey deyildir. Beynimiz həyatımız boyu bu siqnalları qiymətləndirir. Biz də maddənin "xaricdəki" əsli ilə təmasda olduğumuzu düşünərək aldandığımızı bilmədən bir ömür sürərik.

Matriks filminin bir səhnəsində də qoxunun həqiqətindən şübhə edilir, lakin bir tərəfdən də hissdəki inandırıcılığa diqqət çəkilir.

> **Agent:** *Mən buradan nifrət edirəm. Bu zooparkdan, bu həbsxanadan, bu həqiqilikdən ya da hər nə deyirsinizsə. Artıq dözə bilməyəcəm. Ən çox da qoxu, belə bir şey varsa. Bunu artıqlaması ilə hiss edirəm.*

Filmdəki Matriks adlı kompyuter sistemində, "təhlükəsizlik üzrə məsuliyyət daşıyan agent" obrazının yuxarıdakı ifadələrindən də aydın olduğu kimi, digər bütün hisslərimiz kimi qoxunun da əsli olub-olmadığını başa düşməyimiz mümkün deyil. Bu mövzuya da kitabımızda belə yer verilmişdir:

Vanil qoxusu, gül qoxusu kimi uçucu molekullar, burnun epitelyum deyilən yerində titrək tüklərdə olan qəbuledicilərə gəlirlər və bu qəbuledicilərdə qarşılıqlı təsirə girərlər. Bu qarşılıqlı təsir beynimizə elektrik siqnalı olaraq ötürülər və qoxu hesab edilər. Nəticədə bizim gözəl ya da çirkin deyə adlandırdığımız qoxuların hamısı uçucu molekulların qarşılıqlı təsirlərinin elektrik siqnalına çevrildikdən sonra, beyindəki hisslərə çevrilmiş formasından başqa bir şey deyil. Bir ətiri, bir çiçəyi, sevdiyiniz bir yeməyi, dəniz qoxusunu, xoşunuza gələn ya da gəlməyən hər cür qoxunu beyninizdə

hiss edərsiniz. Lakin qoxu molekulları beyinə heç bir zaman çata bilməzlər. Səs və görünüşdə olduğu kimi beyninizə ötürülən sadəcə elektrik siqnallarıdır. Nəticə olaraq, doğulduğunuz andan etibarən xaricdəki obyektlərə aid olaraq bildiyiniz qoxular duyğu orqanlarınız vasitəsiylə hiss etdiyiniz elektrik xəbərdarlıqlarıdır.

… Bir görünüşün zehnimizdə meydana gəlməsi üçün, xaricdə bir qaynaq olmasına ehtiyac yoxdur. Eyni vəziyyət qoxu hissi üçün məqbuldur. Necə ki, yuxunuzda və ya xəyalınızda olmayan bir qoxunu hiss edə bilirsinizsə, real həyatda da qoxusunu duyduqlarınızın xaricinizdə mövcud olub-olmadıqlarından əmin ola bilməzsiniz. Xaricinizdə bu obyektlərin mövcud olduğunu düşünsəniz belə, əsla onların əsilləri ilə təmasda ola bilməzsiniz.

HAL-HAZIRDA BİR YUXUDA OLMADIĞINIZI NECƏ İSBAT EDƏ BİLƏRSİNİZ?

İnsanlar yuxularından oyandıqlarında o ana qədər gördüklərinin xəyal olduğunu başa düşərlər, amma “oyanma” görünüşüylə başlayan və adına “real həyat” dedikləri həyatın bir xəyal ola biləcəyindən nədənsə heç şübhələnməzlər. Halbuki, “real həyatımız” dediyimiz görünüşləri hissetmə şəklimiz, yuxularımızı hissetmə şəklimizlə tamamilə eynidir. Hər ikisini də zehnimizdə görürük və yuxularımızdan oyandırılmadığımız müddət ərzində, onların bir xəyal olduğunu başa düşmərik. Ancaq oyandığımız zaman “demək ki, gördüklərim bir yuxuymuş” deyərik.

Elə isə hal-hazırda gördüklərimizin bir yuxu olmadığını necə isbat edə bilərik? Yalnız hələ oyandırılmamış olduğumuz üçün, içində olduğumuz anı həqiqi zənn edə bilmərikmi? Hər gecə gördüyümüz yuxulardan daha uzun olan bu yuxudan bir gün oyandırıldığımızda, bu həqiqətlə qarşılaşmağımız çox yaxşı mümkündür və bunun əksini isbatlayacağımız heç bir dəlilimiz yoxdur.

Yuxuda “əlinizlə tutar, gözünüzlə görərsiniz”, amma əslində nə əliniz vardır, nə gözünüz, nə də görüb tuta biləcəyiniz bir şey. Bütün bunları beyinin xaricində təmin edən heç bir maddi həqiqət yoxdur. Açıq şəkildə aldanırsınız. Yaxşı, bəs real həyatla yuxunu ayıran nədir? Real həyatın davamlı olub, yuxunun kəsik-kəsik olması ya da yuxuda fərqli səbəb-nəticə əlaqələrinin olmasımı? Bunlar təməldə əhəmiyyətli fərqlər deyildir. Çünki nəticədə hər iki həyat da beyinin içində yaranar. Yuxu əsnasında həqiqi olmayan bir dünyada rahatlıqla yaşaya biliriksə, eyni şey içində olduğumuz dünya üçün də məqbul ola bilər. Yuxudan oyandığımızda real həyat dediyimiz daha uzun bir yuxuya başlamadığımızdan heç bir şəkildə əmin ola bilmərik. Yuxunu xəyal, dünyanı həqiqi saymamızın səbəbi, yalnız vərdişlərimiz və qeyri-obyektivliyimizdir və bu vəziyyət, bəlkə də bir gün, hal-hazırda yaşadığımızı zənn etdiyimiz dünya həyatından eynilə yuxudan oyandırıldığımız kimi oyandırıla biləcəyimizi göstərər.

Matriks adlı filmdə də, bu əhəmiyyətli nöqtə üzərində dayanılır. Filmin baş roldakı aktyoru Neo, tez-tez yuxu ilə real həyat arasında tərəddüdə düşər.

Filmin bir səhnəsində Neo, güzgüyə baxanda güzgüdəki qırıqlardan dolayı üzünü üç parça şəklində görür. Daha sonra güzgüdəki qırığın itərək görünüşünün düzəldiyini görür. Bunun çaşqınlığıyla ətrafındakılara dönərək onların da bu vəziyyəti görüb-görmədiklərini soruşar. Həqiqət olduğunu yoxlamaq üçün güzgüyə toxunduğunda isə, güzgü yapışqan bir hal alar və bədənini metal bir örtü kimi bürüməyə başlayar, hətta bu örtünün soyuqluğunu belə hiss edər. Bütün bu gördüyü, hiss etdiyi şeylərin həqiqi ola biləcəyinə ehtimal vermədiyi halda, yaşadıqları bədən tarazlığını sarsıdacaq dərəcədə həqiqidir. Müdrik adam rolundakı Morfeus (Morpheus) da Neoya, gördüklərinin, yaşadıqlarının həqiqiliyinə aldanmaması üçün, real dünya ilə xəyal dünyası arasındakı fərqin nə olduğunu soruşur:



Morfeus (Morpheus): *Həqiqi olduğuna inandığın bir yuxu gördünmü Neo? Bəlkə o yuxudan oyana bilməzsənsə? Xəyal dünyası ilə real dünya arasındakı fərqi necə başa düşərdin?*

Neo: *Bu ola bilməz!*

Morfeus (Morpheus): *Nə ola bilməz? Həqiqətmi?*

Aşağıda bu mövzu ilə əlaqədar kitabımızda yer verdiyimiz nümunələr və izahlar var:

Yuxusunda yüksək bir yerdən aşağı düşən bir insan da bunu bütün bədəni ilə hiss edər. Halbuki, o anda yatağında heç tərpənmədən yatır. Ya da, yuxusunda ayağı büdrəyib su yığınının içinə düşdüyünü görən bir insan, bütün paltarlarının islandığını, əsən külək səbəbiylə üşüdüyünü hiss edə bilər. Ancaq olduğu yerdə nə bir su yığını, nə də külək var. Hətta çox isti bir otaqda yatmasına baxmayaraq yaşlığı və üşüməyi, eynilə oyaq olduğu kimi yaşayar.

İnsan əslində təhlükəsizlik içində evində yatarkən, yuxusunda lunaparkda sürətlə fırlanan vaqonlara mindiyini görə bilər. Vaqonların sürətini, zaman-zaman tərs döndüyünü, əsən küləyi realdakının eynisi kimi hiss edə bilər.

Yuxu ilə real həyat arasındakı bənzərliyə diqqət çəkilən filmin bir başqa səhnəsi belədir: (Özündən kompyuter çipi satın almaq üçün evinin qapısına gələn müştərilərə)

Neo: *Heç yuxuda olduğundan ya da oyandığından şübhəyə düşdüyün oldumu?*

Yandakı kadrda Neo heç cür oyanıb-oyanmadığından əmin ola bilmir. Oyandığında saatın çaldığını eşidir, özünü otağında görür, masasını, kompyuterini də görür; lakin yuxusunda yaşadıqları o qədər həqiqidir ki, bunların xəyal olduğundan heç cür əmin ola bilmir. Yaşadığı bu ziddiyyətin verdiyi qarışıqlığa görə, özündən kompyuter çipi satın almaq

üçün qapısına gələn müştəriləri, ona heç yaxşı görünmədiyini deyərlər. Neo da yuxarıdakı ifadəsiylə yaşadığı tərəddüdü qapısına gələn bu kəslərlə paylaşmaq istəyər.

Neonun yaşadığı bu tərəddüd əslində son dərəcə təbiidir. Əslində düşünən hər bir insan belə bir ziddiyyət içində olduğunu fərq edə bilər. Kitabımızda bu mövzuya diqqət çəkdiyimiz bir çox keçid vardır. Bunlardan biri belədir:

İnsanların da yaşadığımız dünyanın həqiqi vəziyyətini sorğu-sual etməsi lazımdır. İnsan, xaricində mövcud olduğuna inandığı dünyanın əslinə heç vaxt çata bilməyəcəyi həqiqətinin fərqində olmalı və bu həqiqətdən dünyadakı məqsədi ilə əlaqədar qəti doğruları əldə etməlidir.

Filmdə də tez-tez vurğulanan, maddəylə təmasda ola bilmədiyimizin həqiqəti ilə bağlı, kitabımızda verilmiş nümunələrdən bir qismi belədir:

Yaxşı, yuxunuzdan heç oyanmadan yaşamağa davam etsəniz, yuxu içində yaşadığınızın, gördüklərinizin heç birinin əsli ilə təmasda olmadığınızın fərqinə vara bilərsinizmi? Qətiyyən xeyr. Oyanıb, özünüzü yatağınızda gördüyünüz müddətə qədər, heç bir zaman yuxuda olduğunuzu anlaya bilməzsiniz və böyük bir ömrü real həyatınızı yaşadığınızı zənn edərək keçirərsiniz. Elə isə, real həyat dediyimiz həyatımızın da bir yuxu olmadığını necə isbat edə bilərik? Bir gün bu gördüyümüz həyatdan çıxıb özümüzü tamamilə fərqli bir yerdə, bu həyatımıza dair görünüşləri izləyərkən görəcəyimizə dair bir məlumatımız varmı?

Matriks filmində, həqiqətlərin fərqində olan Morfeus (Morpheus), Neoya gördüklərinə inanmaması, həqiqəti dərk etməsi üçün araşdırmasını tez-tez nəsihət edir. Filmə aid aşağıdakı sətirlərdə də, yenə Morfeus (Morpheus), Neonun gördüklərinə inanmadan əvvəl sorğu-sual etməsinin lazım olduğuna belə diqqət çəkir:

> **Morfeus (Morpheus):** *Gözlərindən bəllidir. Səndə gördüklərini qəbul edən birinin gözləri var. Oyanmağı gözlədiyin üçün. Qəribə olsa da bunlar həqiqətən çox uzaq deyil.*

İnsanların da yaşadığımız dünyanın həqiqi vəziyyətini sorğu-sual etməsi lazımdır. İnsan, xaricində mövcud olduğuna inandığı dünyanın əslinə heç vaxt çata bilməyəcəyi həqiqətinin fərqində olmalı və bu həqiqətdən dünyadakı məqsədi ilə əlaqədar qəti doğruları əldə etməlidir.

Filmdə də tez-tez vurğulanan, maddəylə təmasda ola bilmədiyimizin həqiqəti ilə bağlı, kitabımızda verilmiş nümunələrdən bir qismi belədir:

… İnsanlar, ümumiyyətlə, "xarici dünya" anlayışına hər şeyi daxil etməzlər ya da etmək istəməzlər. Bu mövzuda bir az səmimi və cəsur düşünsəniz, evinizin, içindəki əşyalarınızın və ya antikvarlarınızın, bağ evinizin, yeni aldığınız avtomobilinizin, ofisinizin, ləl-cəvahiratlarınızın, bankdakı hesabınızın, qarderobunuzun, həyat yoldaşınızın, uşaqlarınızın, iş yoldaşlarınızın və sahib olduğunuz digər şeylərin də sizə göstərilən bu "xəyali xarici dünyaya" daxil olduğu həqiqətini fərq edərsiniz. Ətrafınızda gördüyünüz, eşitdiyiniz, iylədiyiniz, qısacası, beş duyğu orqanınızla qəbul

etdiyiniz hər şey bu "xəyali dünya"ya aiddir; ən sevdiyiniz sənətkarın səsi, oturduğunuz stulun sərtliyi, qoxusu xoşunuza gələn bir ətir, sizi isidən günəş, rənglərilə göz oxşayan bir çiçək, pəncərənizin yanında uçan bir quş, dənizin üzərində sürətlə irəliləyən bir sürət qayığı, bol məhsul verən bağçanız, işinizdə istifadə etdiyiniz kompyuter ya da dünyadakı ən keyfiyyətli musiqi saytınız…

Həqiqət budur. Çünki dünya yalnız insanı sınamaq üçün yaradılan bir görünüşlər toplusudur. İnsanlar qısa həyatları boyunca əslində həqiqəti olmayan hisslərlə sınanırlar.

Ətrafınızdakı mal-mülk ehtirasına qapılmış insanların ən çox nələrə dəyər verdiklərini bir düşünün: Yaxşı bir ev, lüks əşyalar, dəbdəbəli ləl-cəvahiratlar, son model bir avtomobil, banklarda yüksək miqdarda pul… Məhz bu səbəblə də bu insanlar, sahib olduqları bütün bu maddələri beyinlərindəki bir ekrandan izlədikləri və əsillərilə əsla qarşılaşa bilməyəcəkləri həqiqətindən çox qorxarlar.

Halbuki, qəbul etməsələr də beyinlərində yaranan bir surət olan dünya içində yaşayarlar. Xaricdəki dünya ilə təmasda olmaları mümkün deyil. Çünki səsi, işığı və qoxunu heç bir şəkildə keçirməyən beyinlərinin içinə girən sadəcə bu maddələrdən gələn elektrik siqnallarıdır.

Bir insanın sahibi olduğunu zənn etdiyi hər şeyi, evi, avtomobili, ailəsi, işi və bütün dostları beynində meydana gələn hiss və görünüşlərdən ibarətdir. Bu həqiqəti dərk edən bir insan, hər şeyin tək sahibinin, bu görünüşləri beynində yaradanın Allah olduğunu başa düşər. Dünya həyatına ehtirasla bağlı olan insanlar bu səbəblə bu həqiqətdən çox böyük bir qorxu duyarlar.

ZAMANSIZLIQ HƏQİQƏTİ

Zaman, bizim, yaşadığımız hadisələr arasında etdiyimiz müqayisəyə əsaslanan bir anlayışdır. Məsələn, bir adam avtomobilə minər. Sonra maşın açarını çevirər və qaz pedalına basaraq avtomobili hərəkət etdirər. Bir qədər yol getdikdən sonra avtomobilini səkinin kənarında saxlayar. Adam, bütün bu hərəkətlər arasında müqayisə aparar; hər biri arasında bir müddət keçdiyini düşünər və beləliklə, zaman hissini əldə edər.

Bütün hadisələr bizə müəyyən bir sıralama üsulu ilə göstərildiyi üçün, zamanın həmişə irəli doğru axdığını düşünürük. Məsələn, bir yarpaq ağacdan həmişə aşağı doğru düşər, yuxarı doğru qalxmaz və ya yağış damlaları həmişə göydən düşər, damlaların heç bir zaman damcılar halında yuxarı doğru qalxdığını görə bilmərik. Beləliklə, bir yarpağın ağacın budağındakı halı keçmişdirsə, aşağıya düşdüyü halı gələcəkdir. Halbuki, əgər yaddaşımızdakı məlumatlar, bir filmin başa verilməsi kimi tərsinə göstərilməyə başlayarsa bizim üçün gələcək, yəni yarpaqların aşağıda olması halı keçmiş olar, ağacın təpəsindəki halı isə gələcək olar.

Bu nümunədən aydın olduğu kimi zaman, hiss edənə bağlı olaraq dəyişən bir hissdir. Zamanın nisbiliyi yəni, dəyişkənliyi o qədər fərqlidir ki, bizim üçün minlərlə il davam edən bir zaman hissi, bir başqa yerdə yalnız tək bir saniyə belə davam edə bilər. Hətta, kainatın əvvəlindən axıra qədər keçən

çox böyük bir zaman, bir başqa yerdə bir saniyə belə deyil, sadəcə bir "an" ola bilər.

Matriks filmində də bütün hisslərlə birlikdə, zamanın da nisbi olduğu vurğulanaraq Neoya zaman mövzusunda da aldandığı izah edilir. Aşağıdakı kadrlarda filmin qəhrəmanı Neo, 2060-cı ildə ABŞ-da hazırlanmış, hava və quru nəqliyyat vasitəsi olaraq istifadə edilən bir gəminin içərisindədir. Daha əvvəl Matriksin içində geydiyi qəşəng paltarları ya da yaşadığı şəhərin müasir görünüşü artıq yoxdur. Bunun yerinə köhnəlmiş paltarlar geyinmiş və xaraba görünüşlü bir məkandadır.

Neo: *Morfeus (Morpheus) mənə nə oldu? Bura haradır?*

Morfeus (Morpheus): *Nə deyil, nə zaman?*

Neo: *"Nə zaman" mı?*

Morfeus (Morpheus): *1999-cu ildə olduğumuzu zənn edirsən amma 2199-a yaxınsan. Neçənci ildə olduğumuzu dəqiq deyə bilmərəm, çünki biz də dəqiq bilmirik. Hələlik bunu izah edəcək bir şey deyə bilmərəm.*

Bir kimsəyə bütün yaşadıqları kimi zaman hissi də süni siqnallarla çox fərqli olaraq hiss etdirilə bilər. Zamansızlıq həqiqəti ilə bağlı kitabımızda yer verilən izahlardan bir qismi belədir:

Zaman bir hissdən ibarət olduğuna görə də, tamamilə hiss edənə bağlı, yəni nisbi bir anlayışdır.

Zamanın axış sürəti, onu ölçərkən istifadə etdiyimiz istinadlara görə dəyişər. Çünki insanın bədənində zamanın axış sürətini mütləq bir düzgünlüklə göstərəcək təbii bir saat yoxdur…

Zamanın nisbiliyi, yuxuda çox aydın bir şəkildə yaşanar. Yuxuda gördüklərimizi saatlar davam etmiş kimi hiss etsək də, əslində hər şey bir neçə dəqiqə hətta bir neçə saniyə davam etmişdir.

… Zamanın nisbi (nisbi-relativ) bir anlayış olduğu, materialistlərin əsrlərdir zənn etdikləri kimi dəyişməz və sabit olmadığı, dəyişən bir hiss olduğu da bu əsrdə ortaya çıxmışdır. Zamanın və məkanın nisbiliyi Eynşteynin "Relativite" nəzəriyyəsiylə sübut edilmiş və bu həqiqət bu günkü müasir fizikanın təməlini meydana gətirmişdir.

Nəticə olaraq, zaman və məkan mütləq olmayan, başlanğıcları olan, Allahın yoxdan var etdiyi anlayışlardır. Zamanı və məkanı yaradan Allah, əlbəttə ki, bunlara tabe deyil. Allah, zamanın hər anını zamansızlıqda təyin etmiş, təsbit etmiş və yaratmışdır…

İnsanlar zamana tabe olduqları üçün belə bir hadisə onlara uzaq gəlir, halbuki, Allah qatında zaman yoxdur, daha əvvəl də qeyd etdiyimiz kimi keçmiş və gələcək tək bir andır. Eynilə bir video kasetdəki kadrların tək bir anda mövcud olması kimidir… Biz bir filmi seyr etdikdən sonra necə ki, o filmi geriyə qaytarıb yenidən seyr edə biliriksə, bizim üçün keçmiş hadisələri

Allahın diləməsiylə yenidən seyr etməyimiz mümkündür. Əhəmiyyətli olan Allahın o an bizə o hadisələrə aid hissləri təkrar hiss etdirməsidir.

XATİRƏLƏRİNİZ DƏ ƏSLİNDƏ BİR XƏYALDIR

Filmdə baş roldakı aktyor Neo, həqiqətləri yəni indiyə qədər həqiqi zənn etdiyi həyatının bir xəyaldan ibarət olduğunu öyrəndikdən sonra, təkrar Matriks adındakı virtual dünyaya gedəndə ətrafını heyrətlə izləyər. Avtomobildəki səfəri boyunca keçmişinə aid bəzi şeyləri xatırlayar; ancaq bunların heç birinin əslində yaşanmamış olmasından dolayı çaşqınlıq duyar. Neonun, keçmişinə aid xatirələr kimi düşündüyü hadisələrin hamısı, yaddaşına süni olaraq verilmiş görünüşlərdən ibarətdir.

Morfeus (Morpheus): *İnanılmazdır elə deyil?*

Neo: *Allahım.*

Triniti (Trınıty): *Nə oldu?*

Neo: *Orada yemək yeyirdim. Ləzzətli makaron hazırlayırlar. Həyatımla əlaqədar xatirələrim var. Heç biri olmayıb.*

Bu mövzuda kitabımızda yer vermiş olduğumuz şərhlərdən bir neçəsi belədir:

Biz, bizə verilən təlqindən dolayı, keçmiş, indi və gələcək kimi hissələrə ayrılmış zaman dilimlərini yaşadığımızı zənn edərik. Halbuki, “keçmiş” kimi bir anlayışa sahib olmağımızın tək səbəbi, -daha əvvəl də ifadə etdiyimiz kimi- yaddaşımıza bəzi hadisələrin verilməsidir. Məsələn, ibtidai məktəbdə qeydiyyat olunduğumuz an yaddaşımızda olan bir məlumatdır və biz bu səbəblə bunu keçmiş bir hadisə hesab edərik. Gələcəklə bağlı hadisələr isə yaddaşımızda yoxdur. Bu səbəblə, biz hələ xəbərdar olmadığımız bu hadisələri “yaşanacaq”, “gələcəkdə meydana gələcək” hadisələr kimi qəbul edirik. Halbuki, keçmiş necə bizim üçün yaşanıb, təcrübə edilib, görülmüş hadisələrdirsə, gələcək də eyni şəkildə yaşanmışdır. Ancaq bu hadisələr bizim yaddaşımıza verilmədiyi üçün biz bunları bilmirik.

5 yaşındaykən baqqaldan aldığınız bir vaflini yeyərkən hiss etdiyiniz şəkərin dadı, 7 yaşında ibtidai məktəbə başlayacağınız gün səhər erkən saatda həyəcanla oyanmanız, liseydəki coğrafiya dərsində içinizdə hiss etdiyiniz çətinlik, riyaziyyat müəlliminizin taxtaya yazdığı uzun tənliklər, bir yaxınınızı itirdiyiniz yol qəzasında hiss etdiklərniz, işinizdə qazandığınız bir müvəffəqiyyət səbəbiylə yaşadığınız qürur, illərlə xəyal etdiyiniz bir şeyi almağa gedərkən hiss etdiyiniz sevinc, qısacası, yaşadığınız və hiss etdiyiniz, başınıza gələn bütün bu hadisələr əslində eynilə qalır, sadəcə sizin beyninizdə mühafizə edilir. Mühafizə edilən də xatirə olaraq, an olaraq yəni keçmiş kimi hiss etdirilir. Hal-hazırda var olan o səhnələri beyniniz qəbul edir… İnsanlar axan bir zamana tabe olduqlarını düşünər, həyatlarının keçmiş, indi və gələcək olmaq üzrə hissələrə ayrıldığını zənn edərlər… Lakin yaradılmış hər canlının, hər hadisənin və hər şeyin eynilə bir film xəttini meydana gətirən kadrlar kimi, kadr-kadr sonsuz olaraq yaradıldığını və eyni anda var edildiyini bilmək bu qavrayışı asanlaşdıracaq.

BU HƏQİQƏTİN BİZİ APARDIĞI FÖVQƏLADƏ NƏTİCƏ

İnsan beyninin xaricində maddə olaraq adlandırılan, görünüşdən yaranan və möhkəmlik hissi verilən bir aləm vardır. Ancaq siz bu aləmə əsla duyğu orqanlarınız vasitəsilə ilə çata bilməzsiniz. Hər insan beynində yaranan aləmi seyr edər, beynində yaranan aləmə toxunar, beynindəki aləmin səsini dinləyər.

Matrix və Matrix Reloaded filmləri bütün dünyada böyük əks-səda yaratdı. Filmin mövzusu olan maddənin əsli ilə bağlı elmi faktlar bir çox televiziya kanallarında, jurnal və qəzetlərdə müzakirə olundu. Bu filmlərin milyonlarla insanın diqqətini çəkməsinin ən mühüm səbəblərindən biri də insanların bu məsələnin əhəmiyyətini dərk etməsi və dərindən düşünməyə başlamasıdır.

Allah, yaratdığı maddə aləmini, hər insana beynində bir görünüş olaraq izlətdirməklə yanaşı bu görünüşə möhkəmlik, sərtlik verərək görünüşü həqiqət kimi qəbul etdirir. 20-ci əsrdə elmi tapıntılarla sübut edilən bu həqiqət əsrlər əvvəl yaşayan böyük İslam alimi imam Rəbbani tərəfindən ətraflı bir şəkildə izah edilmişdir. İmam Rəbbaninin, məktublarından birində belə bir izahı var:

Xaricdə və həqiqətdə, Allah Təaladan başqa, varlıq yoxdur. Allah Təala, qüdrəti ilə, öz adlarının və sifətlərinin kamalını mümkün surətlərinin pərdəsində göstərib, yəni əşyanı, öz kəmalatına uyğun şəkildə hiss və vəhm mərtəbəsində icad edib, var etmişdir. Beləliklə, əşya, vəhmdə görünüb, xəyalda davam edir. O halda əşya, xəyalda göründüyü üçün vardır. Lakin

Allah Təala, bu görünüşə davam verdiyi, yox olmaqdan qoruduğu əşyanın quruluşuna möhkəmlik verdiyi və əbədi rəftarı da bunlara bağlı etdiyi üçün, vəhmdəki varlıq və xəyaldakı davam da, həqiqi varlıq olmuşdur.

(İmam-ı Rabbani, ikinci cild, 44-cü məktub)

Burada izah edilən, hər insanın üzərində çox ciddi düşünməsi lazım olan çox əhəmiyyətli bir həqiqətdir. Çünki bu həqiqəti görməməzlikdən gələn hər insan, ömrü boyunca kiçik bir nöqtədə yaranan görünüşü həqiqi zənn edərək aldanar. Məsələn, beynindəki bir nöqtədə yaranan binaların sahibi olduğunu zənn edən bir adam, bu görünüşdən ötəri qürurlanar, lovğalanar, bir gün öləcəyini unudaraq özünü sonsuz güclü zənn edər və ya beynindəki bir nöqtədə yaranan kasıb həyat görünüşü başqa bir insanın məzlum, bədbəxt və ümidsiz yaşamasına səbəb olar. Beyninin içindəki kiçik bir yerdə yaranan pul görünüşünü itirən insan dərhal pərişan olar. Beyninin içindəki avtomobil görünüşünün cızıldığını görən bir başqası isə hiddətlənər, mal ehtirasından ötəri böyük bir ehtiras duyar. Halbuki, bu kəslərin hər biri yuxusunda varlı və ya kasıb olan və ya yuxusunda avtomobili cızılan bir insandan fərqli bir vəziyyətdə deyillər. Cızılan avtomobil, beynimizin içində yaranan bir avtomobil görünüşüdür. Bu avtomobilin əslini, xaricdəki əsl halını heç kim, heç bir zaman bilməz və görməz. Bunu ancaq beynimizdəki və xaricindəki aləmi yaradan uca Allah bilir.

Məhz bu həqiqətin fərqində olmayan və ya çox açıq olmasına baxmayaraq bu həqiqəti qəbul etmək istəməyən insanlar, həyatları boyu həmişə yanılma içində, həqiqətləri görməzlikdən gələrək yaşayarlar. Bu insanların vəziyyəti bir kino filmini və ya teatr oyununu həqiqi zənn edərək bu filmin və ya oyunun içində yaşamaq istəyən bir insanın vəziyyəti kimidir. Ətrafındakılar bu insanı nə qədər razı salmağa və ona həqiqəti göstərməyə çalışsalar da bu insan bunu bilməzlikdən gəlir.

Ancaq hər insanın, heç bir istisna olmadan, bu həqiqəti anlayacağı, qavrayacağı və qəbul edəcəyi bir an vardır. Məhz bu an hər insana ölümlə birlikdə gələcəkdir. Ölümlə birlikdə insanın beynində seyr etdiyi dünya həyatına dair görünüş dəyişəcək, bunun yerinə ölüm anının, hesab gününün və axirətin görünüşü gələcəkdir. Allahın Quranda bildirdiyi kimi, ölümlə birlikdə insan sanki bir yuxudan oyanacaq, yuxusundan real dünyaya keçən kimi, həqiqi və sonsuz həyatına keçəcək, bu həyatın da görünüşü daha dəqiq və həqiqi olacaqdır. Eynilə yuxusundakı daha bulanıq görünüşdən oyanıb daha dəqiq olan dünya həyatına keçən insan kimi. Ayələrdə bütün aləmlərin Rəbbi olan Allah bu həqiqəti belə bildirir:

Onlar deyəcəklər: "Vay halımıza! Bizi yatdığımız yerdən kim qaldırdı? Bu, Mərhəmətli *(Allahı)***n vəd etdiyi** *(qiyamətdir)***. Elçilər doğru deyirlərmiş."** (Ya Sin surəsi, 52)

Sən bunun *(bu günün)* **haqqında qəflət içində idin. Amma Biz pərdəni sənin üzündən qaldırdıq. Sən bu gün çox yaxşı görürsən!"** (Qaf surəsi, 22)

Hər sözü etibarlı, elm və hikmətiylə nümunə olan Peyğəmbərimiz də bir hədisi şərifində **"İnsanlar yuxudadır, ölümlə oyanarlar"** (İmam Gazali, İslam Klasikleri 2, Bedir Yayınları, 18 səh. 36152) buyuraraq bu həqiqətə diqqət çəkmişdir.

Həqiqi olan ölümdən sonrakı həyatdır. Dünya həyatı isə, eynilə bir yuxu kimi insana beynindəki kiçik bir nöqtədə izlətdirilən bir görünüş aləmidir. Bir insanın bu görünüşə aldanıb, həqiqi və sonsuz həyatını unutması, düşünməməsi isə böyük bir qəflət və yanılmadır. Bu həqiqəti dünyada görməyənlər axirətdə böyük bir peşmançılıq yaşayacaqlar. Həyatları boyu bağlandıqları, həqiqi zənn edərək arxasından süründükləri, Allahı və axirəti unudaraq şirk qoşduqları insanların, malların, vəzifələrin, ünvanların əslində bir xəyal olduğunu, beyinlərindəki görünüşlər olduğunu başa düşəcəklər və bu peşmanlıqlarını dilə gətirəcəklər. Əsla yox olmayacağını zənn etdikləri şeylərin bir-bir itdiyini gördüklərində böyük hüsrana uğrayacaqlar. Allah, bu insanların axirətdəki etiraflarını Quranda belə bildirir:

Sonra da onlara deyiləcəkdir: "Haradadır şərik qoşduqlarınız – Allahdan başqa *(ibadət etdiklər iniz)***?" Onlar deyəcəklər: "Onlar bizi qoyub qaçdılar. Xeyr, biz öncə də heç bir şeyə ibadət etmirdik!" Allah kafirləri beləcə azğınlığa salar.** (Mumin surəsi, 73-74)

… Nəhayət, elçilərimiz onların canını almaq üçün yanlarına gəldikdə: "Allahdan savayı çağırdıqlarınız haradadır?"– deyəcəklər. Onlar: "Bizi qoyub qaçıblar!"– deyəcək və kafir olduqlarına dair öz əleyhlərinə şahidlik edəcəklər. (Əraf surəsi, 37)

Dünyada bu həqiqətləri görməzlikdən gələrək, düşünməyən hər insan axirətdə eyni sözləri deyə bilər, eynilə bağışlanması olmayan peşmanlığı yaşaya bilər. Allahın bir yuxu kimi göstərdiyi dünya həyatına qapılıb gedənlər, ölümü həqiqi və tək həyatlarının sonu zənn edənlər, ölümlə birlikdə içində olduqları bu qəflət yuxusundan oyanacaq, yuxularından ayrılacaqlar və məhz o zaman əsl həqiqəti görəcəklər. Ağlını və vicdanını istifadə edən, səmimi və diqqətli düşünən hər bir insan isə, daha dünyada ikən həqiqətləri fərq edərək, axirət həyatı üçün ciddi bir cəhd içində olacaqdır.

13-CÜ MƏRTƏBƏ (THE THIRTEENTH FLOOR)

On üçüncü mərtəbə adlı filmdə də Matriks filminə oxşar olaraq, həqiqi dünya ilə virtual dünya arasındakı təəccüblü bənzərlik nəzərə çarpır. Filmin mövzusu qısaca olaraq belədir: Filmə adını verən 13-cü mərtəbə, Los Ancelesdə bir iş yeri binasının 13-cü mərtəbəsidir. Burada filmin iki baş roldakı aktyoru olan Hanon Fuler (Hannon Fuller) və iş yoldaşı Duqlas Hol (Douglas Hall), kompyuter ilə virtual bir dünya yaradırlar. Bu virtual dünyada Los Ancelesin 1937-ci ildəki vəziyyəti canlandırılır. Sistemi quran bu kəslər isə 1999-cu ildə yaşayırlar.

Bu kompyuter proqramına bağlanmaq istəyən adam, bir yatağa uzanar və beyninə proqramdakı məlumatlar ötürülər. Beləliklə, sistemə daxil olan adam 1937-ci ilə aid virtual bir şəxsiyyət olar. Məsələn, bu adam 1999-cu ildə yaşayan Duqlas Hol (Douglas Hall) adlı, zəngin və müvəffəqiyyətli bir kompyuter şirkəti rəhbəri ikən, yaddaşına 1937-ci ildə yaşayan Con Ferquson (John Ferguson) adlı bir bank kassiri ilə əlaqədar məlumatlar yüklənir.

Sistemə qoşulan adam, yükləmə tamamlandıqdan sonra özünü bir anda 1937-ci ildə görər. Binalar, avtomobillər, paltarlar tamamilə o ilə aiddir. Simulyasiya mühitinə daxil olan kəsləri ən çox təəccübləndirən mövzu isə, hər iki həyatlarının da bir-biri ilə eyni həqiqətdə olmasıdır. Bu kəslər hər iki həyatlarında da suyun sərinliyini, çöldəki küləyin uğultusunu hiss edir, qarşılaşdıqları hadisələrdə qorxu və həyəcan kimi duyğuları bütün həqiqəti ilə yaşayırlar.

Filmin sonrakı dəqiqələrində isə sistemə qoşulan bu kəslər, həqiqi həyatları zənn etdikləri həyatlarının (1999-cu ildə Los Ancelesdəki həyatlarının) da əslində xüsusi olaraq hazırlanmış bir kompyuter proqramı olduğunu, o günə qədər həqiqi zənn etdikləri hər şeyin - şirkətləri, vəzifələri,

avtomobilləri, kompyuter sistemləri, ailələri, dostları…- bir xəyal olduğunu başa düşərlər. Əslində tarix 2024-cü il kimi çox daha sonrakı bir zamana aiddir və filmdə həqiqi bir həyat olaraq əks etdirilən bütün hadisələr simulyasiyanın bir parçasıdır. Filmin ən maraqlı tərəfi isə filmdəki obrazların simulyasiya içində simulatora bağlanaraq, mərhələli bir həyat yaşamaları və bu virtual yerlərdəki həyatlarının həqiqətlərlə olan fövqəladə bənzərliyidir.

Yan səhifədəki kadrlarda filmin baş roldakı obrazını canlandıran Duqlas Holun (Douglas Hall) simulyasiyaya bağlanması və 1937-ci ildə Con Ferquson (John Ferguson) adında bir bankirin şəxsiyyətinin özünə köçürüldüyü görünür.

Duqlas Hol (Douglas Hall) – Con Ferquson (John Ferguson) şüur transferi
İstifadəçi: Duqlas Hol (Douglas Hall)
Yükləmə üçün istifadəçini nizamlayır.
Proqram əlaqəsi: Con Ferquson (John Ferguson)
İstifadəçini proqrama sıralayır
Yükləmə üçün hazır
Sıralama tamamlandı.
Cənab Qrierson (Grierson), 117 Qərb Vinston, Pasadena
Şüur köçürülməsi
Köçürülmə əməliyyatı başladı.
Yükləmə tamamlandı.

Filmin qəhrəmanı Duqlas Hol (Douglas Hall) simulatora qoşulduqdan sonra, bədəni heç hərəkət etməməsinə baxmayaraq, özünü 1937-ci ildə, Con Ferquson (John Ferguson) adlı bir bank kassirinin şəxsiyyəti ilə canlı bir həyatın içində görər. Bu adamın bədəni 20-ci əsrdə simulator alətinə bağlı bir şəkildə yatmasına baxmayaraq, hər şey son dərəcə həqiqi görünür. Amma köhnə model avtomobillər, qarşılaşdığı insanlar, öz paltarı, fiziki görünüşü qısacası, hər cür təfərrüat, bu adamın beynində süni siqnallarla göstərilən görünüşlərdir.

Duqlas Hol (Douglas Hall) bu sistemi şəxsən özü hazırladığı halda, yandakı filmin kadrında da göründüyü kimi, görünüşünün və olduğu mühitin həqiqiliyi baxımından heyrətə düşür. Hətta güzgüyə xeyli baxaraq saçını, bığını, dərisinin rəngini nəzərdən keçirir.



Duqlas Hola (Douglas Hall), (1937-ci ildəki şəxsiyyətiylə Con Ferqusona (John Ferguson)) bu donuq hərəkətlərinə görə, bankdakı müdiri pis göründüyünü və istirahət etməsini tövsiyə edir. Ancaq Duqlas Hol (Douglas Hall), kompyuter mühitində həqiqətə bu qədər uyğun bir həyatı sürməsinə görə çox təsirlənir və bu sistemi qura bildiyinə görə sevinir:

Duqlas Hol (Douglas Hall): *Məncə olduqca yaxşı görünürəm.*

SİMULYASİYA MÜHİTİ VƏ ALDADICI HƏQİQƏT

Bizim "xarici dünya" olaraq qəbul etdiklərimiz, əvvəlki hissələrdə təfərrüatlı olaraq toxunduğumuz kimi yalnız elektrik siqnallarının beyində yaratdığı təsirlərdir. Pəncərənizdən gördüyünüz səmanın mavi rəngi, oturduğunuz kürsünün yumşaqlığı, içdiyiniz qəhvənin qoxusu, yediyiniz ətin ləzzəti, eşitdiyiniz telefon səsi, bütün yaxınlarınız, hətta bədəniniz-hamısı elektrik siqnallarının beyninizdəki şərhidir.

Əgər bu filmdə olduğu kimi, beynimizə inkişaf etmiş bir kompyuterin köməyiylə lazımlı elektrik siqnallarını göndərə bilmək mümkün olsaydı, eyni hissləri bütün həqiqətiylə qəbul etməyimiz mümkün olardı. Göründüyü kimi, süni olaraq yaradılan xəbərdarlıqlar nəticəsində, çöldə hər hansı bir maddi həqiqət yoxkən, beynimizdə həqiqi və canlı bir dünya meydana gəlməsi mümkündür. Necə ki, indiki vaxtda simulatorlar vasitəçiliyi ilə həyatımızdan müəyyən qisimləri son dərəcə həqiqi hisslərlə canlandırılır. Məsələn, ələ geyilən xüsusi bir əlcək ilə bir insan, yerdə olmadığı halda bir pişiyi əzizlədiyini, bir insanla qucaqlaşdığını, suyun altında əlini yuduğunu və ya sərt bir cismə toxunduğunu hiss edə bilir. Daha inkişaf etmiş olan sistemlərlə isə qolf oynadığını, xizək sürdüyünü, sürətlə avtomobil sürdüyünü və ya bir təyyarənin pilotu olduğunu hiss edə bilər. Əslində isə, toxunduğunu hiss etdiyi bu varlıqların ya da içində olduğunu zənn etdiyi bu məkanların heç biri həqiqi deyil. Bütün bunlar, insanın həyatındakı bütün hissləri və varlıqları beynində qəbul etdiyinin, bunların heç birinin əsli ilə təmasda ola bilmədiyinin qəti bir dəlilidir.

13-cü mərtəbə adlı filmdə də kompyuterlər vasitəsilə həqiqi həyatdan ayrılması mümkün olmayan virtual həyatlar yaradılır. Filmdəki obrazlar simulyasiya maşınları vasitəsilə fərqli zaman və mühitlərə bağlanır, burada həqiqi həyatları kimi yaşayırlar.

Aşağıdakı söhbətlərdə sistemin qurucularından Vitni (Whitney), Dedektiv Mak Beinin (McBain) üzərində işlədikləri simulyasiya sistemini izah edir:

Dedektiv Mak Bein (Mcbain): *Bütün dava-qırğın, böyük bir kompyuter oyunudur?*

Vitni (Whitney): *Xeyr, funksiyalarının işləməsi üçün istifadəçi lazım deyil. Bütün bölmələri, açıq öyrənmə imkanına sahib virtual birləşmələri.*

Dedektiv Mak Bein (Mcbain): *Bölmələrmi?*

Vitni (Whitney): *Elektronik, bənzər obrazlar. Sistemi onlar meydana gətirir. Düşünərlər, çalışarlar, yemək yeyərlər... Qısaca olaraq, bizə bənzədildiklərini deyə bilərik. Hal-hazırda işləyən bir nümunəmiz var: Los Anceles, 1937-ci illər.*

Dedektiv Mak Bein (Mcbain): *Niyə 37?*

Vitni (Whitney): *Fuller, öz gənclik dövrünü meydana gətirərək başlamaq istəmişdi. Bax, beynimin içinə yükləndikdə, mən 1937-ci ili yaşayaraq gəzərəm. Bədənim burada qalır və proqram, əlaqə bölməsinin şüuruna nəzarət edər.*

Yuxarıdakı ifadələrdən aydın olduğu kimi simulyasiya mühitində heç bir həqiqət yoxdur; yalnız süni siqnallar vardır. Nə görmək üçün gözə, nə eşitmək üçün qulağa, nə də hiss etmək üçün bədənə ehtiyac vardır. Adamın bədəni bir kürsüdə uzanarkən, kompyuter vasitəsilə zehininə yüklənən məlumatlar sayəsində, bu adam özünü çox fərqli bir məkanda və çox fərqli bir zamanda hiss edə bilir.

Bu mövzu ilə əlaqədar kitabımızda yer verdiyimiz bir qisim izahlar belədir:

Görmə, eşitmə, qoxubilmə, dadbilmə, toxunma orqanlarımızın hamısı bir -birlərinə bənzər bir mexanizmə sahibdir. Xaricdə mövcud olduğunu düşündüyümüz obyektlərdən gələn təsirlər (səs, qoxu, dad, görünüş, sərtlik və s.),

sinirlərimiz vasitəsiylə beyindəki duyğu mərkəzlərinə köçürülürlər. Beyinə çatan bəhsi keçən təsirlərin hamısı elektrik siqnallarından ibarətdir. Məsələn, görmə prosesi əsnasında xaricdəki bir qaynaqdan gələn işıq seli (fotonlar) gözün arxa tərəfindəki retinaya çatar və burada bir sıra əməliyyat nəticəsində elektrik siqnallarına çevrilərlər. Bu siqnallar, sinirlər vasitəsiylə beyinin görmə mərkəzinə ötürülər və biz də, bir neçə kub santimetrlik görmə mərkəzində rəngarəng, tərtəmiz, eni, boyu, dərinliyi olan bir dünyanı qəbul edərik.

Eyni sistem digər duyğu orqanlarımız üçün də xarakterikdir. Dadlar dilimizdəki bəzi hüceyrələr tərəfindən, qoxular burun epitelyumundakı hüceyrələr tərəfindən, toxunmaya aid hisslər (sərtlik, yumşaqlıq və s.) dəri altında yerləşdirilmiş xüsusi qəbuledicilər və səslər də qulaqdakı xüsusi bir mexanizm tərəfindən elektrik siqnallarına çevrilərək beyindəki lazımi mərkəzlərə göndərilir və o mərkəzlərdə qəbul edilirlər.

… İndi bir stəkan çay içdiyinizi düşünək. Əlinizdə tutduğunuz stəkanın sərtliyi və istiliyi dəri altındakı xüsusi qəbuledicilər tərəfindən elektrik siqnallarına çevrilərək beyinə çatdırılır. Eyni zamanda, çaya məxsus kəskin qoxu, onu içdiyiniz anda hiss etdiyiniz şəkərli dad və stəkana baxdığınızda gördüyünüz qəhvə rəngi də lazımi duyğu orqanlarımız tərəfindən bir elektrik cərəyanı olaraq beyinə çatdırılır. Dərhal sonra masaya qoyarkən stəkanın şüşəyə dəyməsiylə çıxan səs də qulağınız tərəfindən qəbul edilib beyinə elektrik siqnalı olaraq göndərilir və bu hisslərin hamısı beyindəki bir-birindən fərqli, amma bir-biriylə ortaq işləyən duyğu mərkəzləri tərəfindən şərh olunur. Siz də bu şərhin bir nəticəsi olaraq bir stəkan çay içdiyinizi düşünürsünüz. Yəni əslində hər şey beyindəki duyğu mərkəzlərində olub bitir, amma siz bütün bu hisslərinizin konkret bir varlığı olduğunu zənn edərsiniz. Halbuki, bu nöqtədə aldanırsınız, çünki beyninizdə qəbul etdiyiniz hisslərin beyninizin xaricində bir varlığı olduğunu düşünmək üçün heç bir dəliliniz yoxdur. Əgər beyninizə gedən görmə sinirlərini kəssəniz, bir anda görünüş yox olar. Eyni şəkildə, eşitmə sinirlərində bir problem olsa, xaricdə mövcud olduğunu zənn etdiyiniz səs də bir anda kəsilər.

XARİCDƏ İŞIQ YOXDUR

Hal-hazırda elm adamlarının son elmi kəşflərində maraqlı bir həqiqət vardır: Dünyamız əslində zülmət qaranlıqdır. Çünki bu gün artıq məlumdur ki, işıq tamamilə subyektiv bir anlayışdır; yəni insanların beynində bir hiss olaraq yaranar.

Əslində xarici dünyada işıq yoxdur. Nə lampalarımız, nə avtomobil faraları, nə də ən böyük işıq qaynağımız olaraq bildiyimiz günəş əslində işıq saçmaz. “İşıq” dediyimiz qavrayışa, qaynaq olan fotonlar, gözümüzün arxasındakı retina təbəqəsinə düşdüklərində buradakı hüceyrələr tərəfindən elektrik siqnalına çevrilər. Biz də əslində fiziki bir parça olan fotonları “işıq” hesab edərik. Əgər gözümüzdəki hüceyrələr fotonları “istilik parçaları” hesab etsəydilər, o zaman bizim üçün işıq, rəng və qaranlıq olaraq adlandırdığımız

anlayışlar heç bir zaman olmayacaq, cisimlərə baxdığımızda onların yalnız "isti" və ya "soyuq" olduqlarını hiss edəcəkdik.

13-cü mərtəbə filmində, Duqlas Hol (Douglas Hall) adındakı obraz, simulyasiya ilə 1937-ci ilə aid süni mühitə bağlanıb geri qayıtdıqdan sonra, mühitin həqiqiliyini belə dilə gətirir:

Vitni (Whitney): *İşıqlandırma necədir? Toxumalar…*

Duqlas Hol (Douglas Hall): *Rəngləndirməylə bir az da məşğul olmaq lazımdır, amma bölmələr fərq etmirlər.*

Vitni (Whitney): *Necədirlər?*

Duqlas Hol (Douglas Hall): *Sənin, mənim qədər həqiqidirlər.*

Filmdə dilə gətirilən həqiqət əslində doğrudur. İşıq və rəng kimi xüsusiyyətlər də süni siqnallar vasitəsilə son dərəcə həqiqi olaraq qəbul edilir. Bu mövzuyla əlaqədar kitabımızda yer alan izahlı nümunələrdən bir neçəsi belədir:

… Kəllə işığı içəri keçirməz, yəni beyinin içi qapqaranlıqdır. Bu səbəbdən, beynin işıqla təmasda olması əsla mümkün deyil… Qarşımızda bir şam olduğunu düşünək. Bu şamın qarşısına keçib onu uzun müddət izləyə bilərik. Amma bu müddət boyunca beynimiz, şama aid işığın əsli ilə heç bir zaman təmasda olmaz. Şamın işığını gördüyümüz anda belə başımızın və beynimizin içi qapqaranlıqdır. Qapqaranlıq beynimizin içində işıqlı, parlaq və rəngli bir dünyanı seyr edərik.

Bilindiyi kimi beynimiz kəlləmizin içində qorunar və kəllə işığı içəri keçirməz. Yəni beynimizin içi zülmət qaranlıqdır. Amma biz bu zülmət qaranlıqda mavi dənizləri, yamyaşıl ağacları, rəngarəng çiçəkləri, günəşin

parıltılarını və rənglərin hər tonunu görə bilərik. Bu, son dərəcə maraqlıdır və üzərində düşünülməsi lazımdır. Əgər biz varlıqların bizim xaricimizdəki hallarını görsəydik, bu çöldəki görünüşün işıltısını, rənglərini, parıltısını əsla görə bilməzdik. Çünki bu parıltılar və işıqlar kəlləmizdə maneə ilə qarşılaşacaq və beynimizdəki görmə mərkəzinə əsla çata bilməyəcəkdi. Elə isə biz bu parıltıları, ayın və günəşin işığını, salonumuzdakı çilçırağın parlaqlığını necə görə bilirik? İşığın əsla çata bilmədiyi beyində işıqlı görünüşlər necə meydana gəlir?

Əslində, beynimizin xaricində, bizim bildiyimiz işıq da yoxdur. Bizim bildiyimiz, tanıdığımız işıq, yenə beynimizdə meydana gələr. Xarici dünyada, yəni beynimizin xaricində işıq olaraq təyin etdiyimiz şey, elektromaqnit dalğalar və fotonlardır (fotonlar dənəcik şəklindəki enerjidir). Bu elektromaqnit dalğalar və ya fotonlar, retinanı xəbərdar edəndə, bizim bildiyimiz "işıq" meydana gəlir.

Nəticədə, işıq gözümüzə gələn bəzi elektromaqnit dalğaların və ya parçaların bizdə meydana gətirdiyi təsir ilə meydana gəlir. Yəni xaricdə, beynimizdəki görünüşü meydana gətirən bir işıq da yoxdur. Sadəcə bir enerji vardır və bu enerji, gözümüzə çatdığında biz rəngarəng, parlaq, işıqlı bir dünya görərik.

İşıq hissində olduğu kimi rənglər də beynimizdə meydana gəlir. Günəşdən gələn fotonlar (fotonlar dənəcik şəklindəki enerjidir) bir cismə toxunduqlarında, hər cisim bu fotonları fərqli dalğa boyunda əks etdirər. Bu fərqli dalğa boylarındakı fotonlar gözə çatanda, retina bölgəsində elektrik siqnalına çevrilərlər. Daha sonra bu elektrik siqnalları beyinin görmə mərkəzinə ötürülər. Burada olan sinir hüceyrələri elektrik siqnallarını "rəng" olaraq qəbul edərlər. Ancaq həqiqi dünyada nə işıq, nə də rəng var. Bu, beynimizin fərdi, bizə xüsusi bir şərhidir. Gözün quruluşundakı bir səhv, ya da digər canlılardakı kimi gözün quruluşundakı bir fərqlilik, gələn fotonların fərqli elektrik siqnallarına çevrilməsinə və eyni cismin çox fərqli şəkillərdə qəbul edilməsinə səbəb olacaq.

Bu mövzuyla bağlı əsərimizdəki izahatlardan bəziləri bunlardır:

Biz doğulduğumuz andan etibarən ətrafımızda rəngli bir dünya görər, rəngarəng bir mühitlə təmasda olarıq. Halbuki, kainatda bir dənə də olsun rəng yoxdur. Rənglər beynimizin içində meydana gələr. Xaricdə sadəcə fərqli dalğa boylarına sahib elektromaqnit dalğalar vardır. Gözümüzə çatan, bu fərqli dalğa boylarındakı enerjidir. Yuxarıda da qeyd edildiyi kimi, biz buna işıq deyirik, ancaq bu bizim bildiyimiz mənada parlaq, aydın bir işıq deyil, sadəcə bir enerjidir. Beynimiz, bu fərqli dalğa boylarına sahib enerjini şərh edəndə biz bunları "rənglər" olaraq görərik. Halbuki, nə dənizlər mavi, nə çəmənlər yaşıl, nə torpaq qəhvəyi, nə də meyvələr ranglidir. Onlar, yalnız beynimizdə elə hiss etdiyimiz üçün elədirlər.

… Həm rənglər, həm də işıq sadəcə bizim beynimizdədir. Yəni biz bir gülü qırmızı olduğu üçün qırmızı rəngdə görmərik. Bizim bir gülü qırmızı görməyimizin səbəbi, retinamıza toxunan enerjinin, beynimiz tərəfindən

qırmızı olaraq şərh olunmasıdır.

Rəng korluğu, rənglərin beynimizdə meydana gəldiyinin əhəmiyyətli dəlillərindəndir. Bilindiyi kimi gözdəki retinada yaranan kiçik bir pozğunluq rəng korluğuna səbəb olar. Bu vəziyyətdə bir çox insan yaşıl ilə qırmızını bir -birindən ayıra bilməz. Bu vəziyyətdə çöldəki obyektin "rəngli" olub-olmaması əhəmiyyətli deyildir. Çünki biz obyektləri onlar rəngli olduqlarına görə rəngli görmürük. Burada gəldiyimiz nəticə budur: Varlıqlara yüklədiyimiz bütün xüsusiyyətlər, "xarici dünyada" deyil beynimizdədir. Bizlər heç bir zaman hisslərimizi aşıb, xaricə çata bilməyəcəyimiz üçün maddələrin, ya da rənglərin varlığını da bilmərik.

BEYNİNİZDƏ İYLƏDİYİNİZ ÇİÇƏKLƏR

Bir çox insan iyləmək üçün çiçəklərə yaxınlaşdığında, çiçəklərin qoxusunu burnuyla hiss edəcəyini zənn edər. Halbuki, digər bütün hisslərimizdə olduğu kimi qoxu da beynimizin bir şərhidir. Qoxu qəbulumuzun fəaliyyəti də digər duyğu orqanlarımızın fəaliyyətinə bənzərdir. Məsələn, çiçəyə aid qoxu molekulları burun kanalından içəri girdikdən sonra, epitelyum bölgəsindəki alıcılar tərəfindən elektrik siqnalına çevrilərlər. Bir sıra əməliyyatdan sonra beyinə çatan bu siqnallar, beyindəki iyləmə mərkəzlərində çobanyastığı, gül, qərənfil ya da bir başqa çiçəyin qoxusu olaraq qəbul edilər. Eyni şəkildə süni yollarla beyninizə əlaqədar siqnallar göndərilmiş olsa, bu çiçəklər ortada yoxkən də qoxularını hiss etmək mümkün olardı.

Necə ki, 13-cü mərtəbə filmində də simulyasiya mühitindəki obrazlar, qoxuları da çox inandırıcı bir şəkildə hiss edə bilirlər. 1937-ci ildə bir kitabxanaçı olaraq yaşayan Mr. Qrierson (Grierson), filmdəki yaşlı obraz Hanon Fulerə (Hannon Fuller) bənzədilərək düzəldilmiş xəyali bir obrazdır. Hanon Fuler (Hannon Fuller), simulyasiya sisteminə qoşulduğunda bu adamın virtual mühitdəki bədənini istifadə edərək, bu ilin mühitində vaxt keçirir. 1937-ci ilin musiqilərini dinləyir, o dövrün rəqslərini izləyir və o dövrdən ictimai bir çevrə əldə edir. Ancaq sistemdən çıxdığında istifadə etdiyi bədən, proqramın gərəyi olaraq yenə köhnə həyatına davam edir. Bu səbəbdən, 1937-ci ilə aid simulyasiya mühitindəki kitabxanaçı Mr. Qrierson (Grierson), o müddət içində nələr yaşadığını tam olaraq xatırlaya bilmir və xatırladıqlarının da xəyal olduğunu düşünür. Bir söhbətində qoxu ilə əlaqədar bunları deyər:

Mr. Qrierson (Grierson): *Oyandığımda belə üzərimdə hələ də ətir qoxusunu hiss edirəm.*

Duqlas Hol (Douglas Hall): *Həqiqətinmi yoxsa xəyalınmı məhsulu?*

Filmin yuxarıdakı səhnəsindən də aydın olduğu kimi həqiqətdə ətir qoxusu olmadığı halda, kompyuter vasitəsilə yüklənən məlumatlar sayəsində oyunçular qoxunu da həqiqi olaraq qəbul edirlər. Bu mövzunu açıqlayan

kitabımızdakı şərhlərdən bir neçəsi belədir:

Qoxunu qəbul etmə mərkəzinizdə yaranan təsirləri, çöldəki maddələrin qoxusu zənn edərsiniz. Halbuki, bir gülün görünüşü necə ki, görmə mərkəzinizin içindədirsə, o gülün qoxusu da eyni şəkildə qoxunu qəbul etmə mərkəzinizin içindədir…

Qoxunun bir hiss olduğunu anlamaq üçün yuxuları düşünmək də faydalı ola bilər. İnsanlar yuxularında necə bütün görünüşləri son dərəcə həqiqi bir şəkildə görə bilirlərsə, eyni şəkildə yuxularında bütün qoxuları da həqiqətdə olduğu kimi hiss edərlər. Məsələn, yuxusunda restorana gedən bir adam, yeməyini menyudakı yeməklərin qoxuları arasında yeyir, dəniz kənarına gəzintiyə çıxan biri dənizin özünə xas qoxusunu hiss edir, çobanyastığı bağçasına girən biri o mükəmməl qoxulardan həzz alır. Ya da bir başqası parfümeriya mağazasına girib özünə ətir seçə və hətta tək-tək bu ətirlərin qoxusunu ayırd edə bilir. Hər şey elə həqiqidir ki, adam yuxusundan oyandığında bu vəziyyətə təəccübənir.

YAŞADIQLARINIZIN HƏQİQİ OLDUĞU HİSSİNİ BİLMƏYİNİZ ÜÇÜN XARİCİ DÜNYANIN VARLIĞI ŞƏRT DEYİLDİR

İlk dəfə bir kino pərdəsi görən insanlar, qarşılaşdıqları üstün texnologiya sayəsində, gördükləri obyektlərin “həqiqi” olduğunu zənn etmişlər və üstlərinə doğru gələn qatar görünüşü qarşısında çaxnaşmaya düşmüşlər. Hal-hazırda bu təsir, holoqram (üçölçülü görünüş) meydana gətirən xüsusi eynəklər sayəsində əldə edilə bilinir. Bu eynəyi taxan insanlar, gördükləri xəyali görünüşün həqiqi olduğu hissinə qapılır və qorxu, həyəcan kimi reaksiyalar verirlər. Bu kəslər virtual bir görünüş ilə təmasda olduqlarını bildikləri halda, yenə də xüsusi olaraq yaradılan bu həqiqi mühitə qapılmaqdan özlərini ayıra bilmirlər.

Bu vəziyyət, texniki keyfiyyətin qüsursuzluğundan ötəri “həqiqi dünya” olaraq qəbul etdiyimiz həyatımız üçün də məqbuldur. Necə ki, 13-cü mərtəbə adlı filmdə də texniki mükəmməlliyin aldadıcı olmasına diqqət çəkilmişdir.

Filmdə 1937-ci ildə Aşton (Ashton) adıyla xatırlanan obraz, simulyasiya sisteminin qurucularından Hanon Fulerin (Hannon Fuller) yazdığı və oxumaması lazım olan bir məktubu oxuyaraq əslində virtual bir dünyada yaşadığını öyrənir. O ana qədər yaşadıqlarının heç birinin həqiqət olmadığını öyrəndiyində əvvəl bunun bir zarafat olduğunu düşünür, ancaq daha sonra özləri üçün yaradılan bu xüsusi məkanın bir sonu olduğunu görəndə hirslənir. Ancaq verdiyi reaksiyaların heç biri virtual bir dünyada yaşadığı həqiqətini dəyişdirə bilməz. Bir tərəfdən sistemin qurucularından Duqlas Holdan (Douglas Hall) həqiqətləri izah etməsini istəyərkən, bir tərəfdən də təcavüzkar reaksiyalar verməyə davam edir. Aralarında baş verən danışıqlar belədir:

Aşton (Ashton): *Mən oxuduğumda zarafat olduğunu düşünmüşdüm. Dünya bir yalandır. Zəif bir ehtimal! Amma mən axmaq deyiləm, Cənab Hall… "Dünyanın sonuna getmək" haqqında yazanları oxudum.*

Duqlas Hol (Douglas Hall): *Nə yazırdı?*

Aşton (Ashton): *Məktubda yazılanı eynilə etdim. Heç getməyəcəyim bir yer seçdim. Taksona getməyi sınadım. Nədənsə oranı seçdim. Heç əyalətə getməmişdim. Avtomobili götürüb, şəhərdən kənara çıxdım. Səhrada 80 km. sürətlə gedirdim. Bir müddət sonra, yolda yalnız mən qalmışdım. Mənim ətrafımda isti və toz vardı. Məktubda nə deyirsə etdim: "Yol işarələrini izləmə və heç bir şəkildə dayanma. Barrikadalarda belə." Amma artıq şəhərə yaxınlaşmağım lazımkən, bir tərslik hiss etdim. Heç bir hərəkət və canlı yox idi. Sakitlik və sükunət hakim idi və avtomobildən endim. Gördüyüm şey, qorxudan, ürəyimi titrətdi. Doğru idi. Hər şey yalan idi. Həqiqi deyildi.*

Duqlas Hol (Douglas Hall): *Fuller mənə nəyə görə simulyasiyanın sərhədlərini yazsın? Mən onları bilirəm.*

Aşton (Ashton): *Sualları mən verirəm! Səbəbini bilmək istəyirəm… İndi mənə nəyin həqiqi olduğunu göstərməyini istəyirəm. Bu həqiqimi? (atəş açır) Bu, həqiqi qanmı?*

Aşton (Ashton), olduğu məkanın əslində virtual bir dünya olduğunu öyrəndiyində, bu həqiqəti qəbul etmək istəmir. Hətta bunu isbat etmək üçün Duqlas Hola (Douglas Hall) atəş açaraq, ayağından axan qanın həqiqi olub-olmadığını soruşur. Halbuki, bir kimsə yaralandığında da dəyişən bir vəziyyət yoxdur. Çünki bu adamın ayağından axan qan, hiss etdiyi ağrı və ya qorxu hisslərinin hamısı bir hissdir. Bu səbəbdən, bir kimsənin qorxu, ağrı kimi hissləri yaşaması da kənarda maddi bir dünyanın varlığına dəlil olaraq təqdim edilə bilməz.

Bu vəziyyət bizim üçün də məqbuldur. Biz beynimizdə seyr etdiyimiz hisslərin maddi qarşılıqları olduğunu heç bir zaman isbat edə bilmərik. Bu hisslərin "süni" bir qaynaqdan gəlib-gəlmədiklərini, ya da xarici dünyada maddi bir qarşılıqları olub-olmadığını təsbit etməyimiz mümkün deyildir. Çünki nə yaşayırıqsa yaşayaq, biz beynimizin xaricinə əsla çıxa bilmərik.

Bu mövzuda düşünmədən etiraz edən bir qisim kəslər, "bir yük maşınının önünə çıxan bir kimsə, yük maşını vurunca o zaman maddə xəyalmı, deyilmi başa düşər" kimi şərhlər edərlər. Halbuki, yük maşını vurduğunda da hər şeyi

beynimizdə yaşayarıq. Çünki yük maşınının görünüşü kimi, vurma hissi də, yük maşınından qaçmaq üçün yaşanan qorxu da beyində yaşanan hisslərdir. Eyni şəkildə biri sizə sillə vuracaq olsa, əlinin qüvvəsini, üzünüzdə yaranan ağrı hissini, qızartını da həmişə beyninizdə yaşayarsınız.

Bu mövzuyla paralel olaraq kitabımızda izah etdiyimiz nümunələrdən bir neçəsi belədir:

Etiraz: "Maddə beynimin xaricində vardır. Bıçaqla bir az kəsdiyimdə əlimdə hiss etdiyim ağrı, sızlama, əlimdən axan qan bir görünüş deyildir. Ayrıca, bunu yanımdakı dostum da gördü.

Cavab: Bu etirazı gətirənlərin ən əsas yanılması, görünüş xaricində səs, qoxu, toxunma kimi digər hisslərin də beyində meydana gəldiyini gözardı etmələridir. Bu səbəblə, "bıçağı beynimdə görmüş ola bilərəm, amma bıçağın itiliyi baxın həqiqidir, çünki əlimi kəsdi" deyirlər. Halbuki, bu adamın əlindəki ağrı, axan qanın verdiyi istilik və yaşlıq hissi və bütün digər hissləri yenə beynində meydana gələr. Yanındakı yoldaşının bu hadisəyə şahid olması bu həqiqəti dəyişdirməz, çünki dostu da bıçaqla eyni yerdə yəni beynindəki görmə mərkəzində meydana gəlir. Bu adam eyni hissləri, bıçaqla əlini kəsdiyini, əlindəki ağrını, qanın görünüşünü və istiliyini eynisi ilə yuxusunda da yaşaya bilər. Əlini kəsdiyini görən yoldaşını da yenə yuxusunda görər. Amma yoldaşının varlığı, bu yuxuda gördüklərinin maddi qarşılıqları olduğunun bir dəlili olmaz.

Hətta yuxusunda əlini kəsdiyi zaman biri gəlib, "bu gördüklərin bir hissdir, bu bıçaq həqiqi deyil, əlindən axan qan, hiss etdiyin ağrılar da həqiqi deyil, bunların hamısı hal-hazırda zehnində izlədiyin hadisələrdir" desə, adam buna inanmayacaq və yenə etiraz edəcəkdir. Hətta bəlkə "Mən materialistəm. Belə iddialara inanmıram. Hal-hazırda gördüklərimin hamısının maddi həqiqəti var, bax qanı görmürsənmü?" deyəcəkdir.

… Maddi dünyaya çatmağımız qeyri-mümkündür. Təmasda olduğumuz bütün obyektlər, həqiqətdə görmə, eşitmə, toxunma kimi hisslərin cəmindən ibarətdir. Qəbul mərkəzlərindəki məlumatları qiymətləndirən beynimiz, həyatımız boyunca maddənin bizim xaricimizdəki "əsli" ilə deyil, beynimizdəki surətləri ilə təmasda olar.

… Kompyuterdən beyninizə, öz görünüşünüzə aid elektrik siqnalları da göndərə bilərik. Məsələn, bir masada oturarkən qəbul etdiyiniz bütün görmə, eşitmə, toxunma kimi duyğuların elektrik qarşılıqlarını beyninizə göndərdiyimizdə, beyniniz özünü bürosunda oturan bir iş adamı zənn edəcəkdir. Kompyuterdən gələn xəbərdarlıqlar davam etdikcə də bu xəyali dünya davam edəcəkdir. Yalnız bir beyindən ibarət olduğunu isə heç bir şəkildə anlaya bilməyəcəkdir. Çünki beyinin içində bir dünya meydana gəlməsi üçün beyindəki əlaqədar mərkəzlərə lazımlı xəbərdarlıqların çatması kifayətdir. Bu xəbərdarlıqlar süni bir qaynaqdan, məsələn, bir qeyd cihazından ya da daha fərqli bir qəbul qaynağından gəlmiş ola bilər.

Aşağıdakı dialoqda isə Duqlas Holun (Douglas Hall) simulyasiyadan əlaqəsinin kəsilməsiylə həqiqi həyatına dönüşü köçürülür. Dostu Vitni

(Whitney), virtual dünyada Ashton şəxsiyyəti özünü öldürməyə çalışır. Duqlas Hol (Douglas Hall), olduğu virtual dünyada elə həqiqi bir qorxu yaşayır ki, həqiqi həyatına geri qayıtdığında təngnəfəs özünü müdafiə etməyə çalışdığı görülür. Hətta özünü qorumaq üçün yoldaşı Vitniyə (Whitney) yumruq atır.

Duqlas Hol (Douglas Hall): *Məni öldürməyə çalışdı.*

Vitni (Whitney): *Kim?*

Duqlas Hol (Douglas Hall): *Ashton. Bu dünyanın həqiqi olmadığını öyrəndi. Bu proyekt, bu təcrübə. İnsanların həyatlarıyla oynayırıq!*

Vitni (Whitney): *İndi nə danışdığını bilmirsən. Pis bir səfər etdiyini bilirəm amma…*

Douglas Hall: *"Pis bir səfərmi?" Bu insanlar həqiqidir. Sənin, mənim qədər həqiqidirlər.*

Vitni (Whitney): *Bəli, onları belə hazırladığımız üçün. Nəticədə, hamısı bir ovuc elektronik dövrədir.*

Bu söhbət və səhnələrdə də görüldüyü kimi bir insanın həqiqi olmayan bir mühiti, həqiqi həyatı zənn edərək yaşaması mümkündür. Duqlas Hol (Douglas Hall), sistemi hazırlayan kəslərdən biri olmasına və yoldaşı Vitni (Whitney) də gördüyü insanların elektronik montajdan başqa bir şey olmadığını xatırlatmasına baxmayaraq, bu vəziyyətə inanmaqda çətinlik çəkir. Haqqında danışılan kəslər hazırladıqları sistemin həqiqətə bənzərliyi haqqında mübahisə edərkən, əslində özləri də süni bir sistemin içində yaşayırlar. Ancaq o zaman xəbərləri olmadığı üçün, yaşadıqları dünyanı həqiqi zənn edirlər.

Kitabımızda da süni xəbərdarlıqlarla həqiqi bir mühitdə yaşamağı düşünməyin mümkün olduğuna dair bir çox izahat vardır. Bunlardan bəziləri belədir:

… Günümüzdəki texnologiya ilə, süni xəbərdarlıqlar ilə süni görünüşlər, digər bir sözlə süni bir dünya meydana gətirmək mümkündür. Bu süni görünüşlərin həqiqilərindən heç bir fərqi olmadığı, sınayan kəslər tərəfindən ifadə edilir. O halda, biz də hər an gördüyümüz "həyat görünüşü"nün, çöldə əsillərinin mütləq var olduğunu və təmasda olduqlarımızın da bu "əsillər" olduğunu iddia edə bilmərik. Çünki bu hisslərimizin səbəbi çox daha fərqli bir qaynaq ola bilər.

Beyinə gedən sinirlər kəsildiyində beyində heç bir görünüş meydana gəlməyəcəkdir. Bu vəziyyətdə insanın, "çöldə gördüyüm görünüşlərin əsilləri var" deməsinin heç bir mənası qalmayacaqdır, çünki bu əsilləri "mövcud olsalar belə" heç bir zaman görə bilməyəcəkdir.

XƏYAL İÇİNDƏ XƏYAL GÖRMƏK

Filmi sona qədər izləyənlər daha bir təəccüblü həqiqətlə qarşılaşırlar. Sistemi hazırlayan və simulyasiyaya bağlanaraq virtual dünyalarda həyat sürən aktyorların əsl bədənləri 2024-cü ildədir. Duqlas Holun (Douglas Hall) 1999-cu ildə Los Ancelesdə keçdiyini düşündüyü həyatı da əslində bir xəyaldır. Yəni xəyal içində xəyal yaşanır.

Bu vəziyyəti yuxunun içində yuxu görməyə də bənzədə bilərik. Yuxuda da heç bir maddi həqiqət olmamasına baxmayaraq son dərəcə həqiqi duyğular yaşaya bilər, hətta gündəlik həyatımızın bir parçası olaraq yatıb oyandığımızı zənn edə bilərik. Hətta yuxumuzun içində gördüyümüz yuxunun nə qədər həqiqi olduğunu, yuxumuzdakı yoldaşlarımıza izah edə bilərik.

Nəticə olaraq süni siqnallarla xəyal gördüyümüz, sonra da bunun fərqinə vardığımız hissini yaşaya bilərik. Filmdə bu cür bir həqiqətlə qarşılaşan Duqlas Hol (Douglas Hall), bu vəziyyətin qarışıqlığından çıxa bilmir.

> **Duqlas Hol (Douglas Hall):** *Bunun kimi neçə dənə simulyasiya dünyası var?*
>
> **Ceyn Fuler (Jane Fuller):** *Minlərlə… Amma sənindki, simulyasiya içindəki simulyasiya olan tək dünyadır. Heç ümid etmədiyimiz bir şey.*

BƏDƏNİNİZ DƏ BEYNİNİZDƏ YARANAN BİR GÖRÜNÜŞDÜR

Bəzi insanların öz bədənlərinə toxunmaları, barmaqlarını kəsdiklərində ağrı hiss etmələri, sahib olduqları bədənin bəzi ehtiyaclarını qarşılamaları bu insanlara öz bədənlərinin maddi həqiqəti ilə təmasda olduqları hissini verə bilər. Halbuki, bütün digər varlıqlar kimi insanın öz bədəni də bir hissdir və insanın özü, öz bədəninin maddi həqiqətinə əsla çata bilməz. Məsələn, insanın barmağını kəsdiyində hiss etdiyi ağrı yenə bir hissdir və ya acıb yemək yediyində duyduğu toxluq hissi yenə bir hissdir. İnsanın beyninə kənardan veriləcək olan süni xəbərdarlıqlar bu toxluq hissini yemək yemədən də meydana gətirə biləcəkdir. Buna görə, insan heç bir zaman öz bədəninin maddi bir həqiqəti olduğundan əmin ola bilməz. Ağrıları hiss edən, toxunan, bu yazını oxuyaraq anlayan, insanın ruhudur.

Bu mövzunu fərqli bir baxımdan da düşünə bilərik: Hal-hazırda oxuduğunuz kitab sizdən təxminən 30 sm qədər uzaqda görünür. Ətrafınızda divar, pəncərə və qapı olması, yerdən müəyyən bir yüksəklikdə kürsü üzərində oturmanız, önünüzdə masa olması sizə bədəninizin otağın içində bir yerdə olduğu hissini verə bilər. Halbuki, özünüzü qəbul etdiyiniz dünyanın ortasına qoymanız, yenə sizə zehninizin meydana gətirdiyi bir illüziyadır. Bu yanılmanın təbii bir nəticəsi olaraq da dünyanın içində olduğunuz hissini yaşayarsınız. Halbuki, həqiqət tam tərsidir; hər şey sizin içinizdədir.

Aşağıdakı kadrlarda simulyasiyanın içində bir simulyasiya obrazı olan Aşton (Ashton), həqiqətləri öyrəndikdən sonra Duqlas Holla (Douglas Hall) danışır. Aşton (Ashton) illərlə həqiqi zənn edərək bir xəyali yaşamış olmanın təəccübünü yaşayır. Ancaq bu virtual mühiti quran Duqlas Hol (Douglas Hall) da eyni hissləri paylaşır; çünki o da başqa bir virtual aləmin parçasıdır.

Duqlas Hol (Douglas Hall): *Xeyr Aşton (Ashton)… Mən də eynilə sənin kimiyəm. Bir yığın elektrik dövrəsi.*

Aşton (Ashton): *Nə demək istəyirsən?*

Duqlas Hol (Douglas Hall): *Hamısı tüstü və ayna. Eynilə sənin dünyandakı kimi Aşton (Ashton). Kompyuter simulyasiyasından başqa bir şey deyilik.*

Aşton (Ashton): *Amma məktubda - Hər şey saxtamıymış?*

Duqlas Hol (Douglas Hall): *Məktub mənə yazılmışdı. Fuller mənim dünyamdan bəhs edirdi.*

Aşton (Ashton): *Yaxşı, sən nə deyirsən? Bu dünyanın üstündə başqa bir dünya olduğunumu deyirsən?*

Duqlas Hol (Douglas Hall): *Bəli.*

Aşton (Ashton): *Başa düşmürəm.*

Duqlas Hol (Douglas Hall): *Fuller həll etmişdi.*

Maddi həqiqəti olmayan bir mühitdə, xəyali bir bədənlə yaşadıqlarını fərq edən aktyorlar, gördükləri, yaşadıqları heç bir şeyin özlərindən olmadığını başa düşürlər. Filmin bir başqa səhnəsində bu mövzu ilə əlaqədar bu ifadələr keçir:

> **Duqlas Hol (Douglas Hall):** *… Bunların heç biri həqiqi deyil. Elektrik naqilini çıxartdığında mən yox olaram. Dediyim, etdiyim heç bir şeyin mənası qalmaz…*

Filmdə simulyasiyanın bir parçası olduqlarını kəşf edən obrazlar, bütün yaşadıqlarının öz təsirləri xaricində inkişaf etdiyini, hər şeyin, içində olduqları virtual dünyanı meydana gətirən adamın idarəsində olduğunu başa düşərlər.

Bizim yaşadığımız vəziyyət də filmdəki aktyorların mövqeyi ilə oxşardır. İçində yaşadığımız dünyada hər şey Allahın idarəsindədir və hər cür ayrıntı imtahanın parçası olaraq yaradılmışdır. Həyatı boyunca gördüyü bütün hadisələri, eşitdiyi bütün səsləri Allahın, beynində bir görünüş olaraq yaratdığını bilən bir insan, qorxmaq, boş yerə sıxılıb kədərlənmək, çaxnaşmaya düşmək yerinə, hamımızın Yaradıcısı olan sonsuz mərhəmətli və şəfqətli olan Allaha təvəkkül edər.

Bu mövzu ilə əlaqədar kitabımızdakı bu şərhləri xatırlatmaq yerində

olacaqdır:

İnsanların həyatları boyunca yaşadıqları bütün çətinlik və sıxıntı səbəbi olan hadisələr də, həqiqətdə beyinlərinin içində meydana gəlir. Bu həqiqəti bilən bir insan qarşılaşdığı hər hadisəyə gözəl bir səbirlə səbir göstərər. Allahın hər şeyi xeyirlə yaratdığını bilər və təvəkküllü olar.

… Allah hər insana sanki hadisələri dəyişdirməyə, öz qərar və seçkisinə görə hərəkət etməyə imkanı varmış kimi bir hiss verər. Məsələn, insan su içmək istədiyində bunun üçün "qədərimdə varsa içərəm" deyərək oturub gözləməz. Bunun üçün qalxar, stəkanı götürər və suyu içər. Həqiqətən də, qədərində təsbit edilmiş stəkanda, təsbit edilmiş miqdarda su içər. Ancaq, bunları edərkən öz iradəsi və istəyi ilə etdiyinə dair bir hiss duyar və həyatı boyunca bu hissi hər etdiyi işdə yaşayar. Allaha və Allahın yaratdığı qədərinə təslim olmuş bir insan ilə bu həqiqəti qavraya bilməyən bir insan arasındakı fərq budur: Təslimiyyətli olan insan, öz etdiyi hissini yaşamasına baxmayaraq, bunların hamısını Allahın diləməsi ilə etdiyini bilər. Digəri isə, hər etdiyini öz ağlı və gücü ilə etdiyini zənn edərək yanılar.

… Göylərdə və yerdə olanların hamısı Allahındır və Onun təcəllisidir. Tək mütləq varlıq Allahdır və Allahın yaratdığı digər varlıqlar mütləq deyil, bir görünüşdür. Allahın yaratdığı görünüşləri seyr edən "mən"lər, yəni insanlar, Allahdan bir ruhdurlar.

Bu elm və bu böyük sirr qavrandığı təqdirdə insanların şüurları kəskin bir dəqiqliyə qovuşacaq, üzərlərindəki mənəvi hiss ortadan qalxacaqdır. Anlayan hər kəs Allaha könüldən təslim olacaq, Allahı çox sevəcək və Ondan çox qorxacaqdır… Bu təəccüblü həqiqəti anlayanlar yeni bir dünyagörüşü qazanacaq, yeni bir həyata başlayacaqlar.

SƏRT KRALLIQ (HARSH REALM)

Sərt Krallıq (Harsh Realm) adıyla yayımlanan bir serialda, Pentaqonun (Amerika Müdafiə Nazirliyinin) inkişaf etdirdiyi, bir döyüş oyunları simulyasiyası yer alır. Hərbi döyüş təhsilindəki yenilikləri test etmək məqsədiylə yaradılan bu virtual həqiqət oyunu gizli bir layihədir. Sistemə daxil olacaq kəslər ordunun idarəsindədir və bu kəslərin bədənləri başlarına naqillər bağlı vəziyyətdə xüsusi bir məkanda yerləşdirilir.

Sərt Krallıq adı verilən bu oyunun ən təəccüblü xüsusiyyəti, virtual bir mühitdə son dərəcə həqiqi bir həyatın canlandırılmış olmasıdır. Virtual dünyada da əsgərlər, düşmənlər, silahlar və insanların ictimai həyatı kimi bütün təfərrüatlar həqiqisindən fərqlənməyən şəkildədir. Hazırlanan bu oyunda iki növ insan var. Bunlardan ilki virtual obraz deyilən süni insanlardır; digəri isə oyuna daxil ola bilən həqiqi insanlar, yəni oyunçulardır. Mühitin həqiqiliyi kimi virtual obrazlar da həqiqi insanlarla ayırd edilə bilməyəcək dərəcədə bənzərdir.

Ancaq filmin ssenarisində Omar Santiyaqo (Omar Santiaqo) adıyla xatırlanan fərari bir əsgər sistemə gizlicə girərək, virtual dünyada hakimiyyət əldə etmişdir. Kimsə onun oyuna haradan girib-çıxdığını bilmədiyi üçün, bu adamın virtual dünyanı idarəetməsinə də müdaxilə edilmir. Santiyaqonu ələ keçirmək və onun dünya üzərindəki riyakar planlarına maneə törətmək məqsədiylə filmin baş rolda olan aktyorlarından Tom Hobsa (Tom Hobbes) vəzifə verilir.

Bir polkovnik, filmin qəhrəmanı Tom Hobsa (Tom Hobbes) Sərt Krallıq (Harsh Realm) haqqında məlumat verərək, buranın döyüş strategiyası öyrətmək üçün hazırlanmış “virtual həqiqi döyüş oyunu” olduğunu və vəzifəsinin Omar Santiyaqonu (Omar Santiaqo) məğlub etmək olduğunu bildirir. Bu mövzuda istəksiz kimi görünən Tom Hobsu (Tom Hobbes) razı salmaq üzrə, başına qulaqlığa bənzər bir alət taxılaraq, Sərt Krallıq simulyasiyasının məqsədini açıqlayan bir video kaset izlətdirilir. Bu videoda Sərt Krallıq layihəsində istifadə edilən mənzərələrdə, insanların həqiqi

həyatını təqlid etmək üçün 1990 siyahıyaalmadan, peyk xəritələrindən və digər gizli məlumatlardan faydalanıldığından bəhs edilir. Daha sonra təqdimat filmi gözlənilməz bir şəkildə kəsilir və Hobs bu kaseti izləyərkən, eyni zamanda oyuna daxil olduğunun fərqində olur.

Tom Hobs (Tom Hobbes) artıq virtual bir dünyadadır. Sərt Krallıq deyilən bu məkanda özü kimi ordunun daha əvvəl vəzifələndirmiş olduğu Pinokyo (Pinocchio) adında bir əsgərlə tanış olur.

Bu virtual dünyanın içindəki hisslər elə həqiqidir ki, film boyunca Tom Hobs (Tom Hobbes) bu həqiqətə aldanaraq, yalnız kompyuter oyununun bir parçası olan virtual obrazlara kömək edir, hətta onları qorumaq üçün həyatını təhlükəyə atır. Sonrakı səhifələrdə daha ətraflı toxunacağımız kimi, insanlar gördükləri görünüşün keyfiyyətinə və ayrıntılarına aldanaraq, xəyallarında yaşadıqları hadisələrin həqiqi olduğunu zənn edirlər.

HƏR İNSAN ÖZ EKRANIYLA, YƏNİ RUHUNA GÖSTƏRİLƏN GÖRÜNÜŞLƏRLƏ TƏMASDADIR

Üçölçülü film hazırlanarkən iki fərqli baxımdan çəkilən görünüş eyni ekran üzərində əks etdirilir. Tamaşaçılar rəng filtri və ya polyarizasiya filtrli xüsusi eynəklər taxarlar. Gözlüyün şüşəsindəki filtrlər iki görünüşdən birini tutar, beyin bunları birləşdirib üçölçülü görünüş halına gətirər. Halbuki, tamaşaçıların qarşısında üçölçülü bir görünüş yoxdur, bu xüsusi bir texnikayla əldə edilir.

Eyni şəkildə, insanın dünya həyatıyla bağlı gördüyü görünüşlər də yalnız iki ölçülüdür. Yəni yüksəklik və genişlik ölçülərinə malikdir. Lakin üçölçülü film izləyərkən istifadə edilən texnikaya bənzər bir şəkildə, insanın təmasda olduğu görünüşlər də özünə 3 ölçülü olaraq hiss etdirilir. Məhz, bu vəziyyət, insanların, beyinlərindəki ekrandan izlədikləri görünüşlərə həqiqət deyərək yanılmalarının arxasındakı ən əhəmiyyətli səbəblərdəndir. Görünüşümüzdə, məsafə, dərinlik, rəng, kölgə, işıq kimi ünsürlər o qədər qüsursuzca istifadə edilmişdir ki, beynimizdə yaranan üçölçülü, rəngli və canlı görünüşü son dərəcə inandırıcı qəbul edirik. Ayrıntıların çoxluğu, görünüşdəki kəsilməz keyfiyyət, bizə bir ömür boyu həqiqi bir həyat yaşadığımız təəssüratını verər. Ancaq üçölçülü, dərinlikli bir perspektivi izləyir olmağımız, bunların xarici dünyada qarşılıqları olduğunu heç bir zaman isbat etməz.

Necə ki, Sərt Krallıq adlı bu serialda da yaradılan süni dünya həqiqətlərə nə qədər bənzər olsa da, oyuna qoşulan kəslərin bədənləri bir yataqda naqillərə bağlıdır. Yaşadıqları nə qədər həqiqi olursa olsun, bütün olanlar beyinə gələn süni elektrik siqnallarının şərhindən başqa bir şey deyildir.

> **Cenerik (Jenerik):** *Eynilə həqiqi dünyamız kimi bir dünya da var. Siz bu dünyada yaşayırsınız. Ailəniz və dostlarınızla. Hələ siz bunu bilməsəniz də, mən sizi qurtarmaq üçün göndərildim. Bu bir oyundur.*

Aşağıdakı sətirlərdə isə filmin qəhrəmanı Tom Hobsun (Tom Hobbes) virtual dünyada keçirdiyi ilk günlərdəki düşüncələri yer alır. İfadələrində də

göründüyü kimi, Tom Hobs (Tom Hobbes) olduğu mühitin həqiqi olmadığını bildiyi halda, yenə də bu şəkildə düşünməkdən özünü çəkindirə bilmir.

> **Tom Hobs (Tom Hobbes):** *... Bütün bunların həqiqi olmadığını, içində yaşadığım bu dünyanın virtual bir həqiqət olduğunu bilməyimə baxmayaraq... gündəlik yaşayıram, yaşadıqlarıma bir məna verməyə çalışır və gücümü qorumağa cəhd göstərirəm. Həyatda qalmaq üçün əlimdən gələni edirəm.*

Filmin qəhrəmanı aşağıdakı sətirlərdə də, daxil olduğu xəyali dünyanın həqiqətə bənzərliyini tez-tez vurğulayır. Hətta olduğu mühit o qədər güclü bir həqiqət hissi verir ki, yaşadıqlarının bir oyunun parçası olması üçün dua edir.

> **Tom Hobs (Tom Hobbes):** *Omar Santiyaqodan (Omar Santiaqo) qaçırıq. Bu dünyanı idarə edən kompyuter proqramını ələ keçirən fərari bir əsgərdir. Ordunun məni, öldürməyim üçün göndərdiyi adam Santiyaqo idi. Əgər bütün bunlar həqiqi deyilsə, hələ səbəbini tam anlaya bilməyimə baxmayaraq, ondan qorxuları həqiqi və böyükdür... Buranın real dünyanın bir surəti olduğunu deyirlər. Bütün insanlarıyla hamımızın Sərt Krallığın virtual həqiqətində yaşayacaq və ya öləcək olan bir surəti vardır... Amma yalnız proqrama bağlanmış bizlər, həqiqətin şüurundayıq: bu bir oyundur. Bunun bir oyun olduğunun doğru olması üçün dua edirəm...*

Yuxarıda filmdən verilən nümunələr, hal-hazırda yaşadığımız həyatımız üçün də məqbuldur. Çünki hamımız bizə ruhumuza göstərilən görünüşləri izləyər, onlarla təmasda olarıq. Xaricimizdə həqiqi bir dünya mövcud olsa belə ona çata bilməyimiz, əsli ilə qarşılaşa bilməyimiz əsla mümkün deyildir.

Bu mövzunu kitabımızda vurğuladığımız bu nümunələrlə yekunlaşdırmaq mümkündür:

Maddə bir qəbul olduğuna görə, "süni" bir şeydir. Yəni bu qəbulun bir başqa güc tərəfindən edilməsi, daha açıq bir ifadəylə yaradılması lazımdır. Həm də davamlı olaraq. Əgər davamlı bir yaratma olmazsa, maddə dediyimiz hisslər də yox olub gedərlər. Bu, bir televiziya ekranında görünüşün davam edə bilməsi üçün, yayımın da daimi davam etməsi kimidir.

Yaxşı, kim bizim ruhumuza ulduzları, dünyanı, bitkiləri, insanları, bədənimizi və gördüyümüz digər hər şeyi davamlı olaraq seyr etdirir?

Çox açıqdır ki, içində yaşadığımız bütün maddi kainatı, yəni hisslərin hamısını yaradan və davamlı yaratmağa davam edən üstün bir Yaradıcı vardır. Bu Yaradıcı, bu cür görkəmli bir yaradılış sərgilədiyinə görə də, sonsuz bir güc və elm sahibidir.

Necə ki, o Yaradıcı, bizə Özünü tanıdır. Yol göstərici olaraq göndərmiş olduğu Qurani Kərim yoluyla bizə Özünü, kainatı və bizim niyə var olduğumuzu izah edir.

İNSANIN BƏDƏNİ DƏ HİSSLƏRİNİN BİR ŞƏRHİDİR

İnsanların maddənin əslinə bağlı olan həqiqətləri qavramaqda çətinlik çəkmələrinə səbəb olan bir amil, öz bədənləri mövzusunda aldanmalarıdır. Aşağıya baxdıqlarında gördükləri bədən və bu bədənin hər tərəfindən özlərinə çatan toxunma hissləri, onların dünyanı səhv qəbul etmələrinə gətirib çıxarar. Bu bədənin verdiyi təəssürat səbəbiylə, sanki bir "xarici dünya"nın içində yaşadıqları hissinə qapılarlar.

Halbuki, bədənimiz də xarici dünyaya aid bütün hisslərimiz kimi bizim

üçün bir surət görünüşüdür. Bu səbəbdən, bizim təmasda olduğumuz bədən çöldəki əsli deyil, beynimizin içində yaranan və hisslərimizin bir şərhi olan xəyalıdır.

Aşağıda bu mövzu ilə əlaqədar Sərt Krallıq adlı serialda olan söhbətlərdən bir qismi yer alır:

Tom Hobs (Tom Hobbes): *Oyunu qazanmaq üçün əmr aldım.*

Mayor Vaters (Watters): *Bu bir oyun deyil. Çıxış yoxdur. Evə qayıtmaq yoxdur. Mənim də vəzifəm eyni idi.*

Tom Hobs (Tom Hobbes): *O zaman niyə həqiqi dünyada Santiyaqonu aradan götürmürlər?*

Mayor Vaters (Watters): *Harada olduğunu bilmirlər. Haradan çıxıb-girdiyini. Bütün proqramı oğurladı.*

Pinokyo (Pinocchio): *Əgər burada ölsən, yox etdikləri bir virtual obraz olmayacaq, bu sən olacaqsan. Həqiqi dünyada bir yerdə bir xərəyin üstündə yatan sənin beynin, şüurun, başındır.*

Yuxarıdakı izahlarda da göründüyü kimi Sərt Krallıq oyununa qoşulan kəslər, bir kompyuter oyunundakı kimi virtual görünüşləriylə olarlar. Həqiqi bədənləri isə, oyuna aid görünüşlərin kompyuterlər vasitəsilə beyinlərinə ötürüldüyü tamamilə fərqli məkanlardadır.

Məsələn, aşağıdakı şəkildə orduda vəzifə alan Inga Fosa adındakı bir qadının bu virtual mühitə keçişi görünür. Fosa elektronik bir otaqda kürsüyə uzanır, başına xüsusi bir alət taxır və bədəninin yoxlanışdan keçməsiylə birlikdə simulyasiyaya keçişi təmin edir. Bir sonrakı kadrlarda isə özünü Sərt Krallıq oyununun içində Santiyaqo şəhərinin hökumət binasında tapır.

Aşağıda, yandakı görünüşlərdə isə filmin baş rol oyunçularından Pinokyonun (Pinocchio), üzü yaralı şəkildə naqillərlə bağlanmış bədəni görülür. Ancaq Sərt Krallıq oyunu içərisində üzündə belə bir yara yoxdur. Bu nümunədən də aydın olacağı kimi, süni siqnallarla bir insanın xarici görünüşünü olduğundan çox fərqli qəbul etməsi mümkündür.

Bu mövzuyla əlaqədar olaraq kitabımızda yer verdiyimiz bəzi şərhlər belədir:

İnsanların, gördüklərinin beyinlərində bir hiss olduğunu qavramalarını maneə törədən səbəblərdən biri də, bədənlərini də bu görünüşün içində görmələridir. “Mən bu otağın içində olduğuma görə, demək ki, bu otaq mənim beynimdə meydana gəlmir” kimi səhv bir nəticəyə gəlirlər. Onları bu səhv nəticəyə gətirən yanılmaları isə öz bədənlərinin də bir görünüş olduğunu unutmalarıdır. Necə ki, ətrafımızda gördüyümüz hər şey beynimizdə yaranan bir görünüş isə, öz bədənimiz də eyni şəkildə beynimizdə yaranan bir görünüşdür. Məsələn, hal-hazırda oturduğunuz kürsüdə, boyunuzdan aşağıda qalan qisminizi görürsünüz. Bu görünüş də digərləri kimi eyni sistemlə meydana gəlir. Əlinizi ayağınızın üzərinə qoyduğunuzda bu toxunma hissi yenə beyninizdə meydana gəlir. Yəni siz hal-hazırda beyninizdə yaranan bədəninizi görür və bədəninizə toxunduğunuzu beyninizdə hiss edirsiniz.

Bədəniniz də beyninizdə bir görünüş olduğuna görə, otaqmı sizin içinizdədir yoxsa sizmi otağın içindəsiniz? Bu problemin doğru cavabının, “otaq sizin içinizdə” olduğu çox açıqdır və siz beyninizdəki otaq görünüşünün içindəki bədəninizin görünüşünü görürsünüz.

Bir insan həqiqətdə evindəki divanında rahat şəkildə yatarkən, yuxusunda özünü bir döyüşün içində görə bilər. Hətta döyüşün bütün gərginliyini, qorxu və çaxnaşmasını son dərəcə həqiqi olaraq yaşaya bilər. O əsnada isə tək başına, səssiz və sakit bir yerdə yatır. Yuxusunda gördüyü son dərəcə inandırıcı görünüş və səslər isə beynində meydana gəlir.

Bu yazıları oxuyarkən içində oturduğunuzu sandığınız otağın da əslində içində deyilsiniz; əksinə otaq sizin içinizdədir. Bədəninizi görməyiniz, sizi otağın içində olduğunuza inandırar. Ancaq bunu unutmayın; bədəniniz də beyninizdə yaranan bir görünüşdür.

ZEHNİMİZDƏKİ GÖRÜNÜŞLƏRİN XARİCİ DÜNYANIN ƏSLİ OLDUĞUNA İNANAN İNSAN ALDANMIŞ OLAR

Bir insan bir ağac gördüyündə, onun ağacın özü olduğunu düşünsə, özünü aldatmış olar. Çünki beynimizin xaricinə çıxıb ağacın əslinə çatmağımız heç bir zaman mümkün olmaz. Kitabda tez-tez dilə gətirdiyimiz

kimi adamın təmasda olduğu ağac beynindəki elektrik siqnallarının şərhindən başqa bir şey deyildir. Bunu bir başqa tərəfdən belə bir nümunə ilə də açıqlaya bilərik:

Fiziki həqiqətin özü ilə təmasda olduğumuz şəklindəki fərziyyəmiz, bir kompyuter ekranındakı şəkilə verdiyimiz reaksiya ilə bənzər bir vəziyyətdir. Kompyuterin düymələrini hərəkət etdirdiyimizdə, ekrandakı oxu hərəkət etdirdiyimizi görərik. Əslində kompyuter əsas əməliyyat mərkəzinə bir məlumat dalğası göndərər. Bu məlumat dalğası oxun yeni mövqeyini ölçər və ekrandakı görünüşü yeniləyər. Köhnə kompyuterlərdə bir əmrin verilməsi və ekrandakı təsirlərinin görülməsi arasında nəzərə çarpan bir gecikmə var idi. Ancaq bu gün kompyuterlər olduqca sürət qazandığı üçün, saniyənin kiçik bir parçasında dəyişən görünüşü belə yenidən hesablaya bilirlər. Bu səbəbdən, kompyuter düymələrini hərəkət etdirməyimizlə ekrandakı oxun hərəkətindəki uyğunlaşma, bizə oxu hərəkət etdirdiyimiz hissini verər.

Gündəlik həyatdakı təcrübələrimiz də yuxarıdakı nümunəyə bənzər bir vəziyyətdir. Bir daşa vurmaq istədiyimizdə, ayağımızı hərəkət etdirmə istəyi bədənimizin əlaqədar bölgələrinə çatdırılır və ayağımız daş ilə görüşmək üzrə hərəkət edər. Beyin bədənin geri göndərdiyi məlumatları -məsələn, daşın sərtlik hissini, ayağımızda hiss etdiyimiz ağrını- alar və həqiqi bir görünüş təqdim etmək üzrə yeniləyər. Əslində eynilə kompyuterdə olduğu kimi bizim təcrübələrimizdə də bir gecikmə olur. Amma beynimizin hisslərimizlə əlaqədar məlumatları şərh etməsi saniyənin beşdə biri qədər qısa bir müddətdə meydana gəlir. Bu səbəblə, bu gecikmənin fərqində deyilik və fiziki dünya ilə birbaşa olaraq qarşılıqlı təsir halında olduğumuz kimi bir təəssürata qapılarıq.

Əgər hər şey biləcəyimiz zehnimizdə reallaşan görünüşlərdən ibarətdirsə, hisslərimizin ardında fiziki bir həqiqət olduğundan necə əmin ola bilərik? Bu yalnız bir fərziyyə deyilmi? Bəli, bu yalnız bir fərziyyədir. Lakin isbatı heç bir şəkildə mümkün deyildir. Çünki fiziki bir dünyanın varlığına inananların əllərindəki tək dəlilləri yenə beyinlərində yaranan xəyallardır.

Təmasda olduğumuz maddənin əsli ilə təmasda olduğuna inananların vəziyyəti, virtual bir dünyada yaşananların həqiqi olduğunu iddia etmək qədər məntiqsizdir. Necə ki, serial boyunca Pinokyo (Pinocchio) adlı obraz, Tom Hobsun (Tom Hobbes), ətrafındakı görünüşlər həqiqətmiş kimi hərəkət etməsinin məntiqsizliyini izah edir.

Filmin bir hissəsində Tom Hobs (Tom Hobbes) həqiqi həyatdakı nişanlısının virtual obraz olaraq surətinə rast gələr və heç bir həqiqəti olmayan bu virtual surəti qorumaq üçün, öz həyatını təhlükəyə atar. Eyni şəkildə çox sevdiyi iti həqiqi həyatdakının bir surəti olaraq oyunda mövcuddur və onu itirməmək üçün də dəfələrlə riskə girər.

Filmin bir başqa səhnəsində Tom Hobs (Tom Hobbes), oyunun döyüş təhsili üçün xüsusi hazırlanmış bir bölgəsində kiçik bir uşağa rast gələr. Uşağa şəfqət duyar, ona geri dönməsini, olduqları məkanın təhlükəli olduğunu deyər. Ancaq yanındakı əsgər Tom Hobsa (Tom Hobbes) uşağın

yalnız kompyuter oyununun bir parçası olduğunu xatırladar və aralarında belə bir söhbət keçər:

Tom Hobs (Tom Hobbes): *Sən burada nə axtarırsan. Evin ə geri dön. (kiçik uşağı xəbərdar edir)*

Erik Somers (Eric Sommers): *O uşağa çox öyrəşmə.*

Tom Hobs (Tom Hobbes): *Niyə öyrəşməyim?*

Erik Somers (Eric Sommers): *Baxbunun oynandığını 100 dəfə gördüm. Uşaq bir dəfə belə 28-ci gündən sonrasını görə bilmədi.*

Tom Hobs (Tom Hobbes): *Amma hələ də buradadır.*

Erik Somers (Eric Sommers): *O sadəcə bir oyun fiqurudur. O sənin və mənim kimi deyil. Təkrar gəlib, burada ölsünlər deyə simulyasiya onları yenidən proqrama yükləyir.*

Tom Hobs (Tom Hobbes) virtual bir dünyada olduğunu bildiyi və özünə davamlı olaraq təmasda olduğu virtual obrazların simulyasiyanın bir parçası olduqları xatırladıldığı halda, görünüşün həqiqətinə aldanaraq reaksiyalar verər. Məsələn, döyüşün qızışdığı bir anda düşmənlərdən saxlanmağa çalışarlarkən, düşmənlərin bölgəsinə doğru gedən usage görüncə özünü tuta bilməyərək onu qurtarmaq üçün canını təhlükəyə atar.

Pinokyo (Pinocchio): *Sən nə edirsən?*

Tom Hobs (Tom Hobbes): *O yalnız bir uşaqdır.*

Pinokyo (Pinocchio): *Sommersin bu yer haqqında dediklərini eşitdin. Heç bir şeyi dəyişdirə bilməzsən.*

Tom Hobs (Tom Hobbes): *Mən buna inanmıram.*

Bir başqa səhnədə isə yenə düşmənlərdən qaçdıqları bir zamanda uşağa atəş açıldığını görər. Kömək etmək üçün əlinə aldığında isə bədəni yox olar. Özünə daha əvvəl də xatırladıldığı kimi uşaq oyunun bir parçası olaraq vurulmuşdur və oyun yenidən təkrar başlanana qədər də oyuna daxil ola bilməyəcəkdir.

Yuxarıda filmdən verdiyimiz nümunələr əlaqədə olduğu dünyanın, beynindəki surəti olduğunu qəbul edə bilməyən kəslərin vəziyyətləri ilə bənzərdir. Əlbəttə, bizim yaşadığımız dünya bir film ilə müqayisə edilə biləcək şəkildə deyildir. Çünki bizim içində olduğumuz dünya bir kompyuter oyunu və ya texnoloji bir inkişaf ilə açıqlana bilməz. Dünyada yaşayan canlı-cansız bütün varlıqlarla birlikdə Uca Allah yaratmışdır və həyatımızın yaradılış məqsədini bizə Quranda belə açıqlamışdır:

Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım.
(Zariyat surəsi, 56)

Məhz bu səbəblə, biz həyatımız boyunca Allahın bizə əmr etdiklərini yerinə yetirməklə və Ona ibadət etməklə məsuluq.

Bəhs edilən filmlərlə olan bənzərlik isə həyatımızın texniki həqiqəti ilə əlaqədardır: "Gözümlə görürəm, qulağımla eşidirəm, elə isə yaşadığım dünya həqiqətdir" deyərək özünü aldadan bir çox insan, əslində bu sözlərini də beyinlərinin içindəki səssizlikdə deyir. Bu texniki həqiqətlər, bu gün hər hansı bir fiziologiya kitabında və ya lisey biologiya kitablarında belə ola biləcək son dərəcə açıq həqiqətlərdir. Görünüşün və hisslərin beyində necə meydana gəldiyi, bütün tibb fakültələrində təfərrüatlı şəkildə öyrədilir.

İnkişaf edən elmlə birlikdə fizika, kvant fizikası, psixologiya, nevrologiya, biologiya, tibb kimi elmlər bu həqiqətin texniki istiqamətlərini açıq şəkildə ortaya çıxarmışdır. Bu səbəbdən, bu gün, maddənin əslinə heç bir zaman çata bilməyəcəyimiz elmi bir həqiqətdir və xarici dünyanın əsliylə təmasda olduğunu iddia edən bir kimsə bu elmi həqiqətən üz çevirir. İnsanın vəzifəsi isə, bu elmi həqiqətləri qəbul etmək və zehnimizdə yaşadığımız dünya içində Uca Allaha olan məsuliyyətlərimizi bilərək yaşamaqdır. Aşağıda bu mövzu ilə əlaqədar kitabımızdakı şərhlərdən bir qismi yer alır:

… Maddi dünyanın hisslərimizdən meydana gəldiyi həqiqəti, imtahanın sirrini ortadan qaldırmaz. Maddə, hiss olsa da və ya əsli zehnimizin xaricində mövcud olsa da, Allahın haram etdikləri haram, halal etdikləri isə halaldır. Məsələn, Allah donuz ətini haram etmişdir. "Donuz necə olsa beynimdə gördüyüm bir görünüşdür" deyərək bu heyvanın ətini yeməyin, böyük bir səmimiyyətsizlik və ağılsızlıq olacağı açıqdır və ya, "qarşımdakı insanların hamısı əslində zehnimdə yaranan görünüşlərdir, bunlara yalan danışsam heç bir şey olmaz" demək də, Allahdan qorxan və bu həqiqəti lazımi kimi qavrayan bir insanın edəcəyi bir şey deyildir. Bu, Allahın bütün sərhədləri, əmr və qadağanları üçün məqbuldur… Allah, bütün dünyanı hisslər məcmusu olaraq yaratmışdır, ancaq bizləri bu hisslər içində Quranda bildirdiklərindən məsul tutmuşdur.

… Səmimi düşünən bir insan çox açıq şəkildə görəcək ki, imtahan üçün maddənin olması şərt deyil. Allah, imtahan mühitini görünüş aləmi içində yaratmışdır. Bir insanın namaz qılması, halala və harama diqqət yetirməsi üçün maddənin olması lazım olduğunu irəli sürənlərin heç bir səbəbləri yoxdur. Ayrıca, əhəmiyyətli olan ruhdur. Axirətdə cəzalandırılan və ya cənnət nemətləri ilə ruzi verilən də ruhdur. Allahın imtahan etdiyi varlıq da insanın ruhudur. Bu səbəbdən, maddənin beynimizdəki bir xəyal olduğu həqiqəti halal və haramların tətbiq olunmasını və ibadətlərin yerinə yetirilməsinə qətiliklə maneə törətməz.

Bəzi kəslər tarixdə maddənin həqiqəti mövzusunu qavramışlar ancaq Allaha olan imanları və Quranı qavrayışları zəif olduğu üçün azğın inanclar çıxarmışlar. "Hər şey necə olsa xəyaldır, o zaman ibadətlərə nə ehtiyac var" deyənlər olmuşdur. Bunlar son dərəcə azğın və cahil fikirlərdir. Hər şeyin

Allahın bizə göstərdiyi bir görünüş olduğu doğrudur. Ancaq, Allahın bizləri Qurandan məsul tutduğu da qəti bir həqiqətdir. Bizim vəzifəmiz Allahın əmr və qadağanlarına böyük bir dəqiqliklə əməl etməkdir.

Allah, bizi bir hisslər dünyasında yaşatsa da, bizə, bu dünyanı müəyyən səbəblərə bağlı kimi göstərir. Məsələn, biz acanda, "necə olsa xəyaldır, bir şey olmaz" demərik, yemək yeyərik. Yemədiyimiz təqdirdə zəifləyər və bir müddət sonra həyatımızı itirə bilərik. Allah dilədiyi zaman, dilədiyi adam üçün, dilədiyi şeyi vəsilə edib bu səbəbləri ortadan qaldıra bilər. Biz bunu bilmərik. Ancaq, bu çox əhəmiyyətli bir həqiqətdir: Allah bizi Quranın hamısından məsul tutmuşdur və biz Qurandakı ibadətləri və saleh əməlləri yerinə yetirə bilmək üçün bu səbəblər dairəsində yaşamaq məcburiyyətindəyik…

Nəticə olaraq, insanın ilk növbədə Allahın Quranda ona verdiyi məsuliyyətləri vicdanı ilə qənaəti gələnə qədər tətbiq etməsi və yerinə yetirməsi lazımdır. Maddənin həqiqətini bilmək və dünyaya, bu həqiqətə görə bir dünyagörüşü əldə etmək isə, insanın Allah rizası üçün etdiyi bu səylərini daha da gücləndirər, qərarlılığını qat-qat artırar.

BAŞLANĞICI VƏ SONU MÜƏYYƏN EDİLMİŞ BİR FİLMİ İZLƏMƏK

Daha əvvəlki bir hissədə zamanın nisbi olduğuna, qəbul edənə görə dəyişənlik göstərən, sabit olmayan bir anlayış olduğuna toxunmuşduq. Bu həqiqətin bilinməsi, qədər mövzusunun qavranması baxımından da çox əhəmiyyətlidir. Çünki qədər, Allahın keçmiş və gələcək bütün hadisələri "tək bir an" içində yaratmış olmasıdır. Bu da, Allah Qatında kainatın yaradılış anından qiyamətə qədər olan hər hadisənin yaşanmış və bitmiş olması deməkdir.

İnsanların əksəriyyəti, Allahın hələ yaşanmamış hadisələri əvvəldən necə bildiyini, Allah Qatında keçmiş və gələcək bütün hadisələrin necə yaşanıb bitdiyini və qədərin həqiqətini heç cür qavraya bilməzlər. Halbuki, "yaşanmamış hadisələr" bizə görə yaşanmamış hadisələrdir. Çünki biz Allahın yaratdığı zamana bağlı olaraq həyatımızı davam etdirərik və yaddaşımıza verilən məlumatlar olmadan heç bir şey bilmərik. Allah isə zamana və məkana tabe deyil, onsuz da bunların hamısını yoxdan yaradan Özüdür. Bu səbəblə, Allah üçün keçmiş, gələcək və indi hamısı birdir və hamısı olub bitmişdir.

Keçmiş və gələcəyin həqiqətdə Allah Qatında yaradılmış və yaşanmış olaraq gizli və planlı hadisələr olmaları bizə çox əhəmiyyətli bir həqiqəti göstərir: Hər insan qeyd - şərtsiz qədərinə təslim olmuşdur. İnsan necə

keçmişini dəyişdirə bilməzsə, gələcəyini də dəyişdirə bilməz. Çünki keçmişi kimi gələcəyi də yaşanmışdır; gələcəyindəki bütün hadisələr, nə vaxt, harada, nə yemək yeyəcəyi, kiminlə nə danışacağı, nə qədər pul qazanacağı, hansı xəstəliklərə tutulacağı, nəhayət nə vaxt, necə, harada öləcəyi hamısı müəyyəndir və bunları dəyişdirə bilməz. Çünki bunlar onsuz da Allah Qatında, Allahın elmində yaşanmış olaraq vardır. Sadəcə bunların məlumatı hələ insanın öz yaddaşına verilməmişdir.

Bu səbəbdən, başlarına gələn hadisələrə kədərlənən, əsəbiləşən, qışqırıb çığıranlar, gələcəyi üçün narahat olanlar, hirslənənlər əslində özlərini boş yerə üzürlər. Çünki necə olacağından narahatlıq və qorxu duyduqları gələcəkləri, onsuz da yaşanmışdır və nə edərlərsə etsinlər bunları dəyişdirmə imkanları yoxdur.

Sərt Krallıq filminin bir hissəsindəki II Dünya müharibəsi ilə əlaqədar səhnələr də, bu mövzunun başa düşülməsinə köməkçi ola bilər. Filmin bu hissəsində filmin baş rol oyunçuları meşəlik sahədə gəzərlərkən, kompyuter oyunundakı bir səhvdən ötəri, özlərini bir anda davamlı olaraq təkrar edən bir döyüş simulyasiyasında görərlər.

Tom Hobs (Tom Hobbes): *O da nə idi elə? Proqram səhvimi?*

Oyunun bu qismində II Dünya müharibəsindəki Ardennes Meydan müharibəsi canlandırılır. Bir körpünün iki başında olan Alman və Amerikan ordularının kiçik qabaqcıl birlikləri arasındakı döyüş, 1 aydan çox davam edən bir mühasirə mübarizəsini təmsil edir.

Tom Hobs (Tom Hobbes) : *Oradakı körpüdür. Mən zabit məktəbindəykən II Dünya müharibəsindəki Ardennes Meydan müharibəsini araşdırmışdıq. Alman və Amerikan ordularının iki kiçik qabaqcıl birliyi arasında, Belçika Hottendə mühasirə vardı. 1 aydan çox davam etdi. Bu körpünün eyni körpü olduğuna and içə bilərəm.*

Pinokyo (Pinocchio): *Bu bir qarşıdurma simulyasiyasıdır.*

Tom Hobs (Tom Hobbes): *Bir nədir?*

Pinokyo (Pinocchio): *Virtual Vuruşma Simulyasiyasıdır. Sərt Krallıq proqramının beta testini edərkən köhnə döyüş ssenarisi yüklədilər: Pork Çop Hil (Pork Chop Hill), Pikets Çarg (Pickets Charge) kimi.*

Tom Hobs (Tom Hobbes): *O zaman, bu da bir başqa oyundur.*

Pinokyo (Pinocchio): *Bu bir döyüş yerində təhsil proqramıdır. Sərt Krallığın əsas inkişaf səbəbidir.*

Tom Hobs (Tom Hobbes): *Bu hələ də burada nə axtarır?*

Pinokyo (Pinocchio): *Kim bilir? Ehtimalla gözdən qaçmışdır. Həqiqi dünyada biri "sil" düyməsinə basmağı unutmuşdur.*

Özlərini fərqli bir zamanda görən filmin qəhrəmanları bir alman əsgəri tərəfindən öldürüləcəkləri vaxt, amerikalı bir əsgər qrupu onları qurtarır. Ancaq zaman fərqindən dolayı fərqli mövzulardan bəhs etdikləri üçün amerikan əsgərləri tərəfindən casus zənn edilərək əsir alınırlar.

Filmin ilk səhnələrində Erik Somers (Eric Sommers) adıyla xatırlanan və həqiqi dünyada varlığı olan bir əsgərin partlamalar qarşısındakı soyuqqanlılığı diqqəti çəkir. Bura davamlı təkrarlanan bir döyüş təhsili simulyasiyası olduğu üçün hər şey proqramlaşdırıldığı şəkildə inkişaf edir. Bunun şüurunda olan əsgər yerə yatır, 3-ə qədər saydığında yanına bir əl bombası düşür, o da bombanı götürərək sığınacağın xaricinə atır. Ardınca, çayını içməyə davam edir. Qısacası, hər şey proqramın bir parçası olaraq inkişaf etdiyi və oyun davamlı olaraq əvvələ qayıdıb eyni hadisələri eyni şəkildə təkrar etdiyi üçün əsgər qarşıdurma altındaykən belə sakitliyini qoruyur.

Erik Somers (Eric Sommers): *Üç… iki… bir. (Bombanı götürüb kənara atır, sonra da çayı götürüb davam edir.)*

Erik Somers (Eric Sommers): *Əl bombası.*

Erik Somers (Eric Sommers) adlı bu əsgər də, filmin qəhrəmanları olan Tom Hobs (Tom Hobbes) və Pinokyo (Pinocchio) kimi həqiqi dünyada kompyuterlərə bağlanaraq oyuna daxil edilmiş bir adamdır. Bu səbəbdən, o da yaşadıqları zaman və məkanın həqiqət olmadığını bilir. Lakin oyunun bu hissəsindən bir çıxış yolu tapa bilməmişdir və bura ilk dəfə gələn Tom Hobs (Tom Hobbes) və Pinokyoya (Pinocchio) 4 km^2-lik bu döyüş sahəsində olan hadisələrin həmişə proqramlaşdırıldığı kimi inkişaf etdiyini deyər. Məsələn, mühasirəyə almanın hər dəfə 34 gün, qarşı hücumun 28 gün davam etməsi, əsgər batalyonundakıların hansı gün və hansı hadisəylə öləcəyinin müəyyən olması kimi.

Filmin bu qisimləri, qədər mövzusunun başa düşülməsi baxımından açıqlayıcı bir nümunədir. Bir insan, bütün həyatını bir film lenti olaraq düşünsə, biz bu lenti video kasetdən seyr edər kimi seyr edərik və kaseti irəli çəkmək kimi bir imkanımız yoxdur. Kaseti dəfələrlə seyr etsək də əvvəldən hazır olan bu filmin heç bir ayrıntısını dəyişdirə bilmərik. Bizə dəyişdirirmişik kimi gələn anlar da əslində filmin əvvəldən təyin olunmuş anlarıdır.

Ancaq bu filmi bütün təfərrüatlarıyla təsbit etmiş, yaratmış olan və həqiqət hissi ilə yaşadan Allahdır və bu film lentinin hamısını eyni anda görür və bilir. Biz necə bir cədvəlin əvvəlini, ortasını və sonunu bir dəfədə görə biliriksə, Allah bizim bağlı olduğumuz zamanı əvvəlindən sonuna qədər tək bir an olaraq ehtiva etmişdir. İnsanlar isə yalnız zamanı gəlincə bu hadisələri yaşayıb, Allahın onlar üçün yaratdığı qədərə şahid olarlar. Bu, dünya üzərindəki bütün insanların qədərləri üçün bu şəkildədir.

… Allah, bizə hadisələri müəyyən bir ardıcıllıqla, kiçikdən böyüyə doğru axacaq şəkildə, sanki keçmişdən gələcəyə axan bir zaman varmış kimi hiss etdirdiyi üçün, bizə gələcəyimizlə əlaqədar hadisələri bildirməz, bunların məlumatını yaddaşımıza verməz. Gələcək bizim yaddaşımızda yoxdur, ancaq Allahın sonsuz hafizəsində, bütün insanların keçmişləri və gələcəkləri vardır. Bu, daha əvvəl də ifadə edildiyi kimi, bir insanın həyatını, onsuz da mövcud olan bir filmdən izləməsi kimidir. Film, onsuz da çəkilmiş və bitmişdir. Ancaq, bu filmi irəli çəkə bilməyən insan, kadrları tək-tək seyr etdikcə həyatını görər. Hələ seyr etmədiyi kadrların isə gələcəyi olduğunu zənn edərək yanılır.

… Qədərə iman edən bir insan, başına gələn heç bir hadisədən ötəri kədərlənməz, ümidsizliyə qapılmaz. Əksinə, son dərəcə təvəkküllü, təslimiyyətli və həmişə rahat olar… İnsanın qarşılaşdığı çətinliklər də, əldə etdiyi müvəffəqiyyət və zənginliklər də Allahın təqdiri ilədir. Bunların hamısı Rəbbimizin insanları sınamaq üçün qədərlərində əvvəldən təyin etdiyi hadisələrdir… Sadəcə insanların deyil, bütün canlıların, əşyanın, günəşin, ayın, dağların, ağacların, hər varlığın Allah qatında təyin olunmuş bir qədəri vardır.

… Hər anı Allahın qatında yaşanmış, görülmüş və hələ də Allahın elmində hazır olan bir həyat üçün narahat olmaq, qorxu duymaq,

kədərlənmək böyük bir qəflətdir… Əslində hər insan onsuz da Allaha təslim olmuş və boyun əymiş olaraq yaradılmışdır. Çünki istəsə də, istəməsə də Allahın özü üçün yaratdığı qədərə boyun əyərək yaşayar… Allaha təslim olan, Allahın yaratdığı qədərin özü üçün ən xeyirlisi olduğunu bilən bir insanı üzəcək, qorxudacaq, narahat edəcək heç bir şey yoxdur. Bu insan, əlindən gələn hər səyi göstərər, ancaq bu səyin də qədərində olduğunu, nə edərsə etsin qədərində yazılı olanları dəyişdirməyə güc çatdıra bilməyəcəyini bilər.

Mömin, Allahın yaratdığı qədərə təslim olacaq, bununla bərabər qarşılaşdığı hadisələr qarşısında əlindən gəldiyincə səbəblərə sarılacaq, tədbir görəcək, hadisələri xeyirə yönləndirmək üçün çalışacaq, amma bütün bunların qədər daxilində reallaşdığı və Allahın ən xeyirlisini əvvəldən təqdir etdiyinin şüuru və rahatlığı içində olacaqdır.

AĞRI, ACI KİMİ HİSSLƏR DƏ BEYNİMİZDƏKİ HİSSLƏRİN ŞƏRHİNDƏN BAŞQA BİR ŞEY DEYİLDİR

Filmin qəhrəmanlarından Tom Hobs (Tom Hobbes) bir toplama düşərgəsinin əməkdaşları tərəfindən tutulur və taxta-şalban işlərində işlədilmək üçün düşərgədə həbs edilir. Burada anasının virtual dünyadakı surətinə rast gələr. Anasının ölmək üzrə olan bir xərçəng xəstəsi olduğunu öyrəndiyində, gördüyü görünüşlərin virtual bir həqiqət olduğunu unudaraq, ona kömək etməyə çalışar. Yoldaşı Pinochhio da düşərgədəki mühafizəçilər tərəfindən yaralanmışdır. Tom Hobbes ona planlarından bəhs etdiyində aralarında belə bir danışıq keçir:

Tom Hobs (Tom Hobbes): *Özünü necə hiss edirsən?*

Pinokyo (Pinocchio): *Əgər bunlar həqiqi deyilsə, necə bu qədər ağrıya bilər?…*

Tom Hobs (Tom Hobbes): *Buradan çıxmaq məcburiyyətindəyik… Mövzu bundan daha mürəkkəbdir.*

Pinokyo (Pinocchio): *Necə yəni?*

Tom Hobs (Tom Hobbes): *Anamı tapdım. O buradadır.*

Pinokyo (Pinocchio): *Ananmı? Hobbes. Burada bir çox insana rast gəldim. Həqiqi dünyada tanıdığım insanlara.*

Tom Hobs (Tom Hobbes): *O mənim anamdır.*

Pinokyo (Pinocchio): *Xeyr. Yalnız onun kimi görünür. Dünyadakı hər kəsin burada bir surəti vardır. Hər şey belə qurulmuşdur.*

Amma onlar yalnız virtual simvol faylları, həqiqi insanlar deyil.

Tom Hobs (Tom Hobbes): *Məni tanıdı. Mənim kim olduğumu bilir.*

Pinokyo (Pinocchio): *Bilmir, o sadəcə bir oyunun parçasıdır. Sənə nə olduğunu bilmir. Bütün bunların həqiqi olduğunu zənn edir.*

Tom Hobs (Tom Hobbes): *Ağrı çəkir. Bu sənin hiss etdiyindən fərqlidir?*

Filmin bu qismində görüldüyü kimi, filmin qəhrəmanları həqiqətdə bir yataqda uzanmış olmalarına baxmayaraq, özlərini yaralanmış, ağrı hiss edərkən görürlər. Bu ağrının həqiqəti ilə eyni olduğunu düşünürlər. Amma əslində bu hisslər onlara süni olaraq verilir.

Əsərlərimizdə də insanların duyduqları hisslər səbəbiylə, -məsələn, şiddətli bir ağrı, qorxu və s.- maddənin əsli ilə təmasda olduqlarını zənn etdikləri izah edilir. Amma əslində bu bir yanılmadır. İnsan heç bir zaman maddənin əsli ilə təmasda ola bilməz. Bu mövzu ilə əlaqədar kitabımızdakı qeydlərdən bir qismi belədir:

Bir insan əlini kəsdiyində hiss etdiyi ağrı, nəmlik, sızıltı hissi də beynində meydana gələr. Eynilə insan, yuxusunda da əlini kəsdiyini görə bilər və eyni hissləri yuxusunda da yaşaya bilər. Halbuki, yuxusunda yalnız bir xəyal görür, ortada nə bir bıçaq, nə də qanayan bir yara var. O halda ağrı hissi, bütün həyatımızı beynimizin içində bir görünüş olaraq gördüyümüz həqiqətini dəyişdirmir.

… Sadəcə görmə deyil, toxunma, zərbə, sərtlik, ağrı, istilik, soyuqluq, nəmlik kimi bütün hisslər, eynilə görmə kimi insanın beynində yaranan hisslərdir. Məsələn, avtobusa minmək üçün avtobusun qapısının soyuq metalını əlində hiss edən bir insan, əslində bu "soyuq metal hissini" beynində hiss edər. Bu çox açıq və bilinən bir həqiqətdir. Toxunma duyğusu, daha əvvəl də ifadə edildiyi kimi, bir insanın -məsələn, barmaqlarından gələn sinir xəbərdarlıqlarının- beyninin müəyyən bir nöqtəsində meydana gətirdiyi bir hissdir. Hiss edən barmaqlarımız deyil. İnsanlar bunu elmi olaraq da açıqlandığı üçün qəbul edirlər. Ancaq, mövzu avtobusun qapısını tutmaqda deyil, avtobusun insanı vurması hadisəsi olunca, yəni bu toxunma hissi daha şiddətli və ağrı verici olunca, bu həqiqətin məqbul olmadığını sanırlar. Halbuki, ağrı və ya zərbə də beyində hiss edilir. Avtobusun vurduğu bir insan zərbənin şiddətini və bütün ağrısını beynində hiss edər.

… İnsan yuxusunda da özünü avtobus vurduğunu, qəzadan sonra gözünü xəstəxanada açdığını, əməliyyata alındığını, həkimlərin söhbətlərini, ailəsinin tələşla xəstəxanaya gəlişini, şikəst qaldığını və ya canının çox yandığını görə bilər. Yuxusunda yaşadığı bütün bu hadisələrin görünüşlərini, səslərini, sərtlik hissini, ağrını, işığı, xəstəxanadakı rəngləri, hər cür hissi çox aydın və dəqiq hesab edir və bunların hamısı həqiqi həyatdakılar qədər təbii və inandırıcıdır. O an, yuxunun içindəki biri ona yuxu gördüyünü, gördüklərinin bir xəyal olduğunu ona desə inanmaz. Halbuki, gördüklərinin hamısı bir xəyaldır və nə avtobusun, nə xəstəxananın, nə də yuxusunda gördüyü

bədəninin xarici dünyada maddi qarşılığı yoxdur. Yuxusunda gördüyü bədənin və avtobusun maddi qarşılıqları olmamasına baxmayaraq, "həqiqi bir bədənə" "həqiqi bir avtobus" vurmuş kimi hiss edər.

… Sürətli bir zərbə, can ağrıdan itin dişləri, şiddətli bir sillə, maddənin əsli ilə təmasda olduğunuzun dəlili deyildirlər. Çünki bəhs edildiyi kimi bunların eynisini yuxunuzda da, maddi qarşılıqları olmadığı halda yaşaya bilərsiniz. Ayrıca, bir hissin şiddətli olması, o hissin beyində meydana gəldiyi həqiqətini də dəyişdirmir. Bu, elmi olaraq isbatı olan çox açıq bir həqiqətdir.

… Çətinliklər, sıxıntılar, qorxu meydana gətirən hadisələr də insanın beynində meydana gələn xəyallardır. Gördüyü görünüşlərin həqiqi tərəfini bilən bir insan, yaşadığı sıxıntıdan ötəri çətinlik duymaz, bunlardan şikayət etməz və ya ən təcavüzkar və təhlükəli düşmənin qarşısında belə, beynindəki xəyallarla qarşı-qarşıya olduğunu bilərək qorxu və ümidsizliyə qapılmaz. Hər birinin Allahın meydana gətirdiyi görünüşlər olduğunu və Allahın bunları hikmətlə yaratdığını bilər. Hər nə ilə qarşılaşırsa qarşılaşsın, Rəbbimizə olan təslimiyyət və etibarın verdiyi bir rahatlıq yaşayar.

VANİL SƏMA (VANILLA SKY)

Vanil Səma adlı filmdə, insanın yaşadığı hadisələrdən nəyin yuxu, nəyin həqiqi həyat olduğu mövzusunda yaşaya biləcəyi tərəddüdə diqqət çəkilir. Həm filmin qəhrəmanı, həm də tamaşaçılar film boyunca bu mövzuda ciddi bir qərarsızlığa düşürlər. Filmin baş rol oyunçusu Devid Eyms (David Aames) ətrafındakı kəslərin ideal olaraq gördükləri dəbdəbəli bir həyata malikdir. Atasının ölümündən sonra özünə miras qalan böyük bir nəşriyyat şirkətinin başçısıdır. İstər fiziki görünüşü, istər maddi mövqeyi, istərsə də ictimai çevrəsi baxımından ətrafındakı hər kəsin qibtə etdiyi bir həyatı yaşayır.

Ancaq bir gün, keçirdiyi bir yol qəzası nəticəsində üzü parçalanır və aktiv həyatı sona çatır. Bir anda köhnə dostlarından kimsəni ətrafında görməz. Özünü tək və bədbəxt hiss etdiyi belə bir dövrdə, geridə qalan həyatını "oyaq yuxu" (lucid dream) deyilən gözəl xəyallarla yaşatmaları üçün bir şirkətlə razılaşma imzalayır. Beləcə, bu adamın zehnində istədiyi yaşda, istədiyi fiziki görünüşlə, istədiyi kəslərlə süni bir həyat yaşadılır. Ancaq eynilə bir yuxuda olduğu kimi adam özünə izlətdirilənlərin bir xəyal olduğunun fərqində olmadan, həqiqi bir həyat yaşadığı təəssüratına qapılır.

YUXU HƏQİQİDİR, YOXSA HƏYAT?

Yuxunuzdakı hadisələr tamamilə sizin nəzarətiniz xaricində inkişaf edir. Nə yeri, nə zamanı, nə də ssenarini siz təyin edərsiniz. Yuxunuzun bir yerlərində özünüzü birdən bəzi hadisələrin içində görərsiniz. Dəyişik məntiq hörgüləri, qarışıq təbiət qanunlarıyla qarşı-qarşıya qalmanıza baxmayaraq bunların bir çoxu sizə qəribə gəlməz. Həqiqətdə nə əliniz, nə gözünüz, nə də görülüb-tutulacaq bir şey olmadığı halda, ətrafınızdakı hər şey sizin üçün həqiqi, əllə tutulan, gözlə görülən şeylərdir.

Yaxşı bu anda həqiqət olaraq qəbul etdiyimiz həyatımızı yuxulardan

ayıran nədir? Həqiqi həyatın davamlı olub, “yuxunun kəsik-kəsik olması” ya da “yuxuda fərqli səbəb-nəticə əlaqələrinin olması” deyirsinizsə, bunlar təməldə əhəmiyyətli fərqlər deyildir. Çünki hər iki həyat da beyinin içində meydana gələr. Yuxu əsnasında həqiqi olmayan bir dünyada rahatlıqla yaşaya biliriksə, eyni vəziyyət, yaşadığımız dünya üçün də məqbul ola bilər. Yuxudan oyandığımızda həqiqi həyat dediyimiz daha uzun bir yuxuya başladığımızı düşünməyimizə maneə olan heç bir məntiqli səbəb yoxdur.

Necə ki, “Vanil Səma” adlı filmdə də, hər insanın yaşaya biləcəyi bu ziddiyyət ssenaridə işlənən əsas mövzu olmuşdur. Məsələn, filmin ilk səhnələrində baş rol oyunçusu Devid, elektron saatının “gözlərini aç, gözlərini aç” şəklindəki zəngilə oyanar. Saatının 9:05 olduğunu gördükdən sonra, üzünü yuyar və aynada özünə baxaraq saçından bir tel qoparar. Daha sonra işinə getmək üçün avtomobiliylə yola çıxar. Ancaq hər gün keçdiyi izdihamlı Nyu York küçələrini o səhər boş olaraq görər. Binalar, avtomobillər hər şey yerli-yerində olmasına baxmayaraq ətrafda heç bir insan yoxdur. Tam bu vəziyyətin qorxusunu yaşayarkən, saatının “gözlərini aç, gözlərini aç” zəngilə yenidən oyanar. Yuxusunda xəyal etdiklərini bu dəfə həqiqi həyatında edir. Saatına baxar, 9:05 olduğunu görər, üzünü yuyar, aynada özünə baxar və eynilə yuxusunda etdiyi kimi saçından bir tel qoparar. Sonra da avtomobilinə minərək işə getmək üçün yola çıxar. Yuxusundan tək fərq isə şəhərin küçələrində insanların olmasıdır.



Filmin yandakı kadrlarında görüldüyü kimi yuxuda da adamın özünü həqiqi həyatda etdiklərini edərkən görməsi, hətta bunların həqiqiliyindən heç şübhə etməməsi mümkündür.

Bu mövzu ilə əlaqədar kitabımızda yer alan izahlardan bir qismi belədir:

İnsan, yuxusunda çox həqiqi hadisələr yaşaya bilir. Pilləkəndən diyirlənib ayağını sındıra bilir, ciddi bir yol qəzası keçirə bilir, bir avtobusun altında qala bilir, acdığında bir tort yeyib doya bilir. Gündəlik həyatda rast gəlinən hadisələrin bənzərləri yuxuda da eyni inandırıcılıqla, eyni hisslərlə yaşanır. Yuxusunda özünü avtobusun vurduğunu görən adam yenə yuxusunda, qəza etdikdən sonra gözünü xəstəxanada aça bilər; şikəst qaldığını anlayar, amma əslində bu bir yuxudur… Yuxusunda yaşadığı bütün bu hadisələrin görünüşlərini, səslərini, sərtlik hissini, ağrını, işığı, rəngləri, hər cür hissi çox aydın bir şəkildə duyur. Yuxuda təmasda olduğu hisslərin hamısı həqiqi həyatdakı qədər təbiidir. Yuxusunda yediyi bir tort hisslərdən ibarət olmasına baxmayaraq adamı doyurar. Çünki doymaq da bir hissdir. Halbuki, həqiqətdə o anda adam yataqda uzanmış vəziyyətdədir. Ortada nə pilləkən, nə yol hərəkəti, nə avtobus, nə də tort var. Yuxudakı adam, xarici dünyada qarşılıqları olmayan qəbul və hissləri yaşayır və görür. Yuxuda, “xarici dünya”da heç bir maddi qarşılığı olmayan hadisələrin yaşanması, görülməsi, hiss edilməsi, “xarici dünya”nın tamamilə hisslərdən meydana gəldiyini çox dəqiq şəkildə ortaya qoyur.

İnsan bir itin hücumuna məruz qalsa da, bütün bunları beynində gördüyü həqiqəti dəyişməz. Çünki insan eyni hadisəni yuxusunda da bütün həqiqəti ilə görə bilər, eyni həyəcan və qorxunu yuxusunda da yaşaya bilər.

Filmin bir başqa səhnəsində Devid, dostu Sofyaya gördüyü yuxulardan necə təsirləndiyini belə izah edir:

Devid (David): *Necə izah etsəm, çox qorxunc bir yuxu gördüm… Aşağı avtomobilimə enirəm, dostum vardı… orada və yanıma gəldi… Qorxunc bir şəkildə avtomobili sürürdü. O kədərliydi, necə izah etsəm… avtomobili körpüyə doğru sürdü…*

Sofya (Sofia): *O anda işə gedəcəkdin?*

Devid (David): *Ola bilər. Sonra qolum və üzüm parça-parça olmuşdu. Amma daha da pisi… oyana bilmirəm…*

Devid (David): *Yuxularım mənimlə zalım zarafatlar edirdi. Məni incidirlər. Bəzən yuxularımdan həqiqətə oyanmaq istədiyim də olurdu. Amma təkrar yuxuma geri dönə bilmirdim. Edə bilmirəm. Yuxularım hər zaman gözəl olmazdı…*

Nəyin həqiqət, nəyin yuxu olduğu mövzusunda yaşanan ziddiyyətlərin əsas səbəbi, hər ikisində də seyr edilən həyatların zehində meydana gəlməsidir. Həqiqət olaraq adlandırdığımız həyatımız da kitab boyunca açıqlandığı kimi, beyinə çatan elektrik siqnallarının meydana gətirdiyi təsirdən başqa bir şey deyildir və yaşadıqlarımızın bizə həqiqi olaraq hiss etdirilməsi də heç bir zaman bir ölçü deyildir. Biz yalnız hisslərimizin beynimizdəki şərhləriylə təmasda olarıq və kənarda bu hisslərimizin maddi qarşılıqlarının olub-olmadığından əsla əmin ola bilmərik. Eynilə yuxularımızda olduğu kimi…

Yuxu ilə əlaqədar bir nümunə mövzunu daha yaxşı açıqlayacaqdır. İndiyə qədər olan izahatımıza uyğun olaraq beynimizin içində bir yuxu seyr etdiyimizi düşünək. Yuxuda xəyali bir bədənimiz olacaqdır. Xəyali bir qolumuz, xəyali bir bədənimiz, xəyali bir gözümüz və xəyali bir beynimiz. Yuxu əsnasında bizə "harada görürsən?" kimi bir sual gəlsə verəcəyimiz cavab "beynimdə görürəm" olacaqdır. Amma ortada həqiqi bir beyin yoxdur. Yalnız xəyali bir bədən, xəyali bir kəllə və xəyali bir beyin vardır. Yuxunuzdakı görünüşü görən iradə isə, yuxudakı xəyali beyin deyil, ondan daha "irəlidə" olan bir varlıqdır.

Yuxudakı mühitlə həqiqi həyat dediyimiz mühit arasında hər hansı bir fiziki fərq olmadığını bilirik. Elə isə, bizə həqiqi həyat dediyimiz mühitdə, "harada görürsən?" sualı soruşulduğunda da yuxarıdakı nümunədəki kimi "beynimdə" cavabını vermənin bir mənası yoxdur. Hər iki vəziyyətdə də görən və qəbul edən iradə, bir ət parçası xüsusiyyətindəki beyin deyildir.

Beyini analiz etdiyimizdə qarşımıza, digər canlı orqanlarda da olan zülal və yağ molekulları kimi molekullardan daha fərqli bir maddə çıxmaz. Yəni beyin dediyimiz ət parçasında, görünüşləri seyr edərək şərh edəcək, şüuru meydana gətirəcək, qısacası "mən" dediyimiz şeyi yarada biləcək bir şey yoxdur.

Bir sonrakı səhifədəki səhnədə isə filmin baş rol oyunçusu Devid həkimiylə danışarkən, həkimi ona xəyal və həqiqəti ayıra bilib-bilmədiyini soruşar. Devid əvvəl özündən çox əmin olaraq ayıra bildiyini deyər. Lakin keçmişinə aid yaddaşındakı xatirələri xatırlamağa çalışdıqca, ən sonunda qərarsızlığa düşərək həqiqəti ayıra bilmədiyini deyər. Üstəlik, filmin qəhrəmanı bütün bu söhbətləri edərkən də özünə izlətdirilən xəyali bir dünya içində yaşayır.



Həkim: *Kim idi o restorandakı adam? Kim idi o?*

Devid (David): *Bilmirəm.*

Həkim: *Xəyal və həqiqəti ayıra bilirsənmi?*

Devid (David): *Təbii ki? Bəs sən?*

Həkim: *Bunu düşün, hansı razılaşma imzaladığını yaxşıca düşün. İmzaladınmı?*

Devid (David): *Bir imza xatırlayıram.*

Həkim: *Restorandakı adam da orada idimi? Bir müqavimət hiss edə bilərsən, amma cavab başının içindədir.*

Devid (David): *Bəli var. (Bu zaman imzaladığı kağız və texniki xidmət əməkdaşı bir an yaddaşında canlanır.)*

Həkim: *Yaxşı. Alley kim?*

Devid (David): *Mən nəyin həqiqi olduğunu bilmirəm.*

Filmin yuxarıdakı hissələrinin də düşündürdüyü kimi insan gördüyü görünüşlərin həqiqətinə qapılaraq xəyali bir dünyanı həqiqi zənn edərək yaşaya bilər. Filmdə özünə göstərilən süni yuxular içində yaşayan Devid, əvvəllər yaşadıqlarının həqiqətinə səmimi olaraq inanır. Bu vəziyyət bir çox insanın bu anda yaşadığı həyat üçün də məqbuldur. Çünki insanlar təmasda olduqları görünüşlərin, səslərin ya da hisslərin əsilləri olduqlarını iddia edərlər. Halbuki, bütün bunlar zehinlərindəki surətlər, yəni əsillərinə heç bir zaman çata bilməyəcəkləri xəyallardır.

Kitab boyunca vurğuladığımız bu məntiqlə əlaqədar əvvəlki səhifələrimizdə yer verdiyimiz izahlardan bir neçəsi belədir:

… Maddi qarşılıqları olmayan hissləri həqiqi sanaraq aldanmağımız çox asandır. Necə ki, bu həqiqəti yuxularımızda tez-tez yaşayarıq. Yuxuda tamamilə həqiqət kimi görünən hadisələr yaşayar, insanlar, obyektlər,

mühitlər görərik. Amma hamısı bir qəbuldan başqa bir şey deyildir. Yuxu ilə "həqiqi dünya" arasında isə əsas fərq yoxdur; hər ikisi də zehində yaşanar.

Süni olaraq yaradılan xəbərdarlıqlar nəticəsində, xaricdə hər hansı bir maddi həqiqət yoxkən, beynimizdə əsli qədər həqiqi və canlı bir maddi dünya meydana gələ bilər. Verilən süni xəbərdarlıqlar nəticəsində bir insan, həqiqətdə evində oturarkən təyyarə istifadə etdiyini zənn edə bilər.

ƏSLİNƏ ÇATA BİLMƏYƏCƏYİMİZ BİR DÜNYANIN TAMAŞAÇISI OLDUĞUNUZU UNUTMAYIN

Başınızı qaldırıb, olduğunuz otaqda gözünüzü gəzdirəcək olsanız, xaricinizdə bir otağın mövcud olduğu, sizin də otağın içində bir yerdə olduğunuz hissini duyarsınız. Basdığınız yerin ayaqlarınızın altında olduğundan, ətrafınızda da hava boşluğunun varlığından əminsiniz. Ancaq bu hisslər, göstərilən görünüşlərin həqiqiliyi, qüsursuz uyğunluğu, üçölçülü olması kimi səbəblərlə sizi və milyardlarla insanı yanıldır.

Halbuki, ailəniz, eviniz, məktəbiniz, iş yeriniz hamısı da sizin üçün zehninizdə yaradılır. Günəş, ay və ulduzlar da sizin içinizdə dönür. Qısacası, siz dünyanın içində deyil, dünya sizin içinizdədir.

Necə ki, filmdəki "oyaq yuxu" (lucid dream) olaraq ifadə edilən xəyali dünya da, bu mövzunun başa düşülməsi baxımından şüur açıcı bir nümunə ola bilər. Aşağıdakı sətirlər insanlara bir yuxu kimi, xəyali bir dünya təqdim edən bir şirkətin təqdimat söhbətləridir. Bunlar bir filmdə yer alan ifadələrdir, amma bu gün inkişaf edən elm sayəsində bu hadisələr tamamilə həqiqətdir. Günümüzdəki texniki imkanlarla, istəyən adama süni bir mühit yaradılaraq həqiqi bir həyat hissi vermək mümkündür.

Təqdimat: *Proqramdakı model, kişi, amerikan… Doğum və ölüm… Öz istədiyiniz yaşda həyatınıza istədiyiniz kimi davam edə bilərsiniz… Həyatınıza dilədiyiniz yaşdan davam edə bilərsiniz. Bu anda ya da istədiyiniz gələcəkdə yaşaya bilərsiniz. Xatirələrinizdə olanlarla. Həyatınız həqiqi bir dünyada davam edəcəkdir. Dəqiqə - dəqiqə. Xəyal edə bildiyiniz hər şey. Əgər istəsəniz bir yaz günündə… Gözəl bir filmdə, ya da sevimli pop mahnınızın klipində. Hansını seçərsinizsə seçin, hər şey tamamilə təsiredicidir. Problemlərinizdə texniki dəstək veririk. Yatacaqsınız və həyatınızın geri qalan hissəsi həqiqi bir yuxuda davam edəcəkdir.*

Xanım: *Oyaq bir yuxu və nə olursa olsun bu bir yuxudur. Dincliyin yuxusu, müvəffəqiyyətin yuxusu, dünya ilə əlaqədar sevdiklərinizin olduğu bir yuxudur. Bunu həqiqi mənada deyirəm. Düşün Devid. Böyük bir həyat. Hər nə istəyirsənsə… Bu zehinin inqilabıdır.*

Yuxarıda görüldüyü kimi, filmin qəhrəmanı Devid özünə həqiqi həyat hissi verən, xoşbəxt olacağı bir yuxu izlətdirilməsi üçün razılaşma imzalamışdır. Ancaq bu xəyali dünyanın bir gərəyi olaraq etdiyi razılaşmanı xatırlaya bilmir və yaşadığı xoşbəxtliklərin həqiqi olduğunu zənn edir. Halbuki, o anda bədəni xüsusi bir məkanda olur və özünə məqsədli olaraq, olmasını istədiyi həqiqi görünüşlər göstərilir.

Filmin bir səhnəsində, yaşanan bəzi texniki əksikliklərə görə, razılaşma imzaladığı şirkətin bir işçisi Devidə vəziyyəti açıqlamaq məcburiyyətində qalır. Bir xəyal dünyasında yaşadığını qəbul etmək istəməyən Devid, həddindən artıq reaksiyalar verir. Ancaq şirkətin işçisi olduqları məkandakı görünüşü dondurarak göstərilən görünüşlərin öz idarələrində olduğunu isbatlayar.

Texnik: *Problemlərinmi var?*

Devid (David): *Bax, kimsənin yaxşılıq etməsinə ehtiyacım yoxdur.*

Texnik: *Bütün bunların bir açıqlaması var Devid. Bir-birimizi tanıyırıq. Məni internetdə tapmışdın. Sənə kömək etmək üçün buradayam Devid.*

Devid (David): *Kimsən sən? Niyə məni izləyirsən?*

Texnik: *Ən əvvəl və ən əhəmiyyətlisi sakit olmağın lazımdır.*

Devid (David): *Sakitləşmək. Sakitləşəcəkmişəm.*

Texnik: *Duyğularını bir kənara burax… Mənə inan.*

Devid (David): *Bax, mən yaxşıyam. Oldumu?*

Texnik: *David, bütün bu insanlara bir bax. Hamısı bir şəkildə bura gəlmiş deyilmi?*

Devid (David): *Təbii ki.*

Texnik: *Yəni səninlə bir əlaqələri yoxdur.*

Devid (David): *Xeyr, yoxdur.*

Texnik: *Eləmi? Bəlkə onlar buradadırlar, çünki sən burada olmalarını istəyirsən. Sən güclüsən. Hər şeyi yaxşıya apara bilər ya da məhv edə bilərsən.*

Devid (David): *Yaxşı, hamısının çənələrini, xüsusilə də sənin bağlamağını istəsəm?*

Texnik: *Gördünmü? Mənimlə bir razılaşma imzaladın Devid.*

Devid (David): *Yaxşı, mənim həqiqi həyatımda nə oldu? Necə sizə gəldim?*

Texnik: *Həqiqətən, bilmək istəyirsənmi?*

Devid (David): *Mənə hər şeyi göstər. Yəni bütün bunlar bir xəyal idimi? Məsələn, Mc Cabenin (həkiminin adı) bura gəlməsini istəsəm necə?*

Görüldüyü kimi insanın süni yollarla həqiqi olduğunu düşünə biləcəyi, ətrafındakı cisimlərə toxunub, yediklərinin dadını ala biləcəyi, gülüb əylənə biləcəyi çox canlı bir dünya içində yaşaması mümkündür və filmdə də bu həqiqət bir mövzu edilmişdir.

Bu həqiqətin başa düşülməsi son dərəcə əhəmiyyətlidir. Çünki maddənin ardındakı bu sirri qavrayan kəslər çox daha fərqli bir ruh halı yaşayacaqlar. Hər şeydən əvvəl, maddənin həqiqi tərəfinin başa düşülməsi ilə insanlar Allahın harada olduğu, cənnət və cəhənnəmin varlığı, ruhun mahiyyəti, ölümdən sonrakı həyat, sonsuzluq kimi mövzuları rahatlıqla qavraya bilirlər. Məsələn, əvvəllər materialist bir dünyagörüşünə sahib və ya bu görüşün təlqini altında formalaşmış insanlar bu mövzuları qavraya bilməzkən, maddənin bir xəyal olaraq qəbul edildiyinin fərq edilməsiylə, Allahın tək mütləq varlıq olduğunu açıq şəkildə görə bilirlər.

Bunun nəticəsi olaraq dünya həyatında bağlanılan hər şeyin, hərisliyin, ehtirasların mənasızlığı görüləcək; qürur və əzəmətin yerini təvazökarlıq və mülayimlik, xəsisliyin və eqoizmin yerini fədakarlıq və köməkləşmə, etibarsızlıq və çətinliyin yerini barış və təvəkkül alacaqdır. Çünki maddənin bir xəyal olduğunu, Allahın "hiss və xəyal mərtəbəsində yaratdığı" bir dünyada yaşadığını anlayan insan, Allahın yaratdığı hadisələr və varlıqlar arasında mübarizə etməkdən xilas olar. Hər xeyirin və şərin Allahdan olduğunu bilər və hər işində Allaha dua edib Ondan kömək istəyər. İnsanların gözlərində böyütdükləri mövqelərin, pulların, mülklərin -görkəmli evlərin, lüks avtomobillərin, bahalı geyimlərin – yalnız bir xəyal olduğunu və Allahın bunları sınamaq üçün yaratdığını bildiyi üçün bunlara bir dəyər verməz.

Ayrıca, maddənin və məkanın bir xəyal olduğunu anlayan insan, Allahdan başqa hər hansı bir varlıqdan qorxmaqdan da xilas olar. Gördüyü hər şeyin Allahın yaratdığı hisslər olduğunun və Allahın icazəsi olmadıqca heç kimin özünə bir şey edə bilməyəcəyinin fərqindədir. İnsanlar özlərinin və gözlərində böyütdükləri insanların bir kölgə varlıq olduqlarını anladıqlarında, Allaha şirk qoşmadan iman edəcək və dünya həyatının aldadıcı bəzəklərinə qapılmadan, yalnız Allahın razılığını qazanmaq üçün yaşayacaqdırlar.

Maddənin xəyal hesab edilməsi mövzusunun, insanların ruh halında necə müsbət bir dəyişməyə səbəb olduğuna kitabımızda geniş olaraq yer vermişik. Bunlardan bir qismi belədir:

Tək mütləq varlıq olan Allah, əlbəttə ki, yaratdığı insanı hərtərəfli bilir. Bu, Allah üçün çox asandır. Lakin bəzi insanlar cəhalətləri səbəbiylə, bunu anlamaqda çətinlik çəkirlər. Halbuki, "xarici dünya" sandığımız qəbulları seyr edərkən, yəni həyatımızı davam etdirərkən, bizə ən yaxın olan varlığın, hər hansı bir qəbul deyil, Allahın Özü olduğu açıq-aşkar bir həqiqətdir.

Quranda yer alan, **“İnsanı Biz yaratdıq və nəfsinin ona nəyi vəsvəsə etdiyini də bilirik. Biz ona şah damarından da yaxınıq.”** (Qaf surəsi, 16) ayəsinin sirri də bu həqiqətdə gizlidir. Amma bir insan öz bədəninin “maddə”dən meydana gəldiyini zənn etdiyində bu əhəmiyyətli həqiqəti qavraya bilməz. Çünki özünə ən yaxın olanın yenə öz bədəni olduğunu zənn edir. Məsələn, bu insan öz varlığını “beyni” hesab edirsə, ona şah damarından daha yaxın bir varlıq ola biləcəyinə ehtimal verməz.

… Hər şeyin zehnində yaşadığı surətlər olduğunu qavradığında, artıq xarici, içərisi, uzaq, yaxın kimi anlayışların bir mənası qalmamışdır. Şah damarı da, beyni, əli, ayağı da, öz xaricində zənn etdiyi evi, avtomobili və hətta çox uzaqda sandığı günəş, ay, ulduzlar da tək bir səthdədir. Allah onu ətraflı əhatə etmişdir və ona “sonsuz yaxın”dır.

… Hər şeyin bir görünüş olduğu həqiqəti isə, bütün bu ehtirasları və bağlılıqları mənasızlaşdırması baxımından çox əhəmiyyətlidir. Çünki bu həqiqətin başa düşülməsi, insanların sahib olduqları və olmağa çalışdıqları hər şeyin, ehtirasla sahib olduqları mülklərinin, varlıqlarıyla öyündükləri uşaqlarının, özlərinə ən yaxın sandıqları dostlarının, yoldaşlarının, ən sevdikləri bədənlərinin, bir üstünlük olaraq gördükləri mövqelərinin, oxuduqları məktəblərin, keçirdikləri tətillərin bir xəyaldan ibarət olduğunu göstərir. Bu vəziyyətdə bunlar üçün edilən ehtiraslar, keçirilən zamanlar, sərf olunan səylər də boşunadır.

O halda bəzi insanlar sahib olduqları mal və mülkləriylə, “yaxtalarıyla, vertolyotlarıyla, fabrikləriylə, holdinqləriylə, köşkləriylə, ərazilərivlə” sanki bunlar həqiqətən varmışcasına öyündükləri zaman alçalırlar.

… Bunların bənzərlərini yuxularında da tez-tez görərlər. Yuxularında da evləri, çox sürətli avtomobilləri, son dərəcə qiymətli ləl-cəvahiratları, bir yığın dollarları, yığın-yığın qızıl və gümüşləri vardır. Yuxularında da yüksək bir mövqedə olarlar, minlərlə adamın çalışdığı bir fabrikləri olar, bir çox insana hökm edə biləcək bir gücləri olar, hər kəsin heyran qaldığı paltarlar geyərlər… Ancaq necə ki, yuxuda sahib olduqları ilə öyünmək onları gülməli vəziyyətə salırsa, eyni şəkildə bu dünyada təmasda olduqları görünüşlə öyünmək də buna bərabərdir. Yuxularında gördükləri də, bu dünyada əlaqədə olduqları da nəticədə zehinlərindəki bir görünüşdən ibarətdir.

Böyük bir holdinqin sahibi, evləri, son model avtomobilləri, qarşısında əyilən, özünə hörmət edən işçiləri olan bir insan, həqiqətdə sahib olduğu hər şeyi beyninin içində bir görünüş olaraq görür. Sahib olduğu etibarı da yenə beynində meydana gəlir. Çox ciddi və əhəmiyyətli olduğunu düşündüyü, zamanının böyük bir qismini ayırdığı işi, iş yoldaşlarıyla etdiyi yığıncaqlar, qəbul etdiyi qərarlar da yenə beynində meydana gələn görünüşlərdir. Eynilə insan pulunu böyük bir ehtirasla saydığında əslində beynindəki pulları sayar. Qürurla və nümayiş edərək yaxtayla gəzərkən, nümayiş etdirdiyi insanların, yaxtanın və gördüyü mənzərənin beynində yaranan görünüşlər olduğunu fərq edə bilməz. Özünə bu həqiqət izah edildiyində isə, sahib olduğu bütün varlığını və etibarını itirməmək üçün bu həqiqətə şiddətlə etiraz edər.

Halbuki, eynilə adam yuxusunda da bunların hamısına sahib olduğunu görə bilər və yuxusunda bunların həqiqiliyindən əsla şübhəyə düşməz. Yuxusunda da özünə bunların həqiqi sahibi olmadığı deyilsə, buna etiraz edər. Ancaq oyandığında hamısının bir xəyal olduğunu anlayar.

HƏQİQƏTƏ ÇAĞIRIŞ (TOTAL RECALL)

Həqiqətə çağırış (Total Recall) adlı filmdə də, Vanil Səma (Vanilla Sky) filmində olduğu kimi istər baş rol oyunçusu, istərsə tamaşaçılar, yaşanan hadisələrdən nəyin həqiqi, nəyin xəyal olduğunu ayırd edə bilmirlər. Filmin qəhrəmanı həqiqət olaraq qəbul etdiyimiz həyatında, Duqlas Kueyd (Douglas Quaid) adında bir inşaat işçisidir və ən böyük xəyalı Marsa getməkdir.

Marsda həyatın mümkün olduğu xəyali bir dövrün canlandırıldığı filmdə, burada terrorist fəaliyyətlər olur və Marsın idarəedicisi (Velos Cohageen), bu qiyamları yatırmaq üçün hər cür əməkdaşlığa açıq olduğunu bildirir. Filmin qəhrəmanı Duqlas Kueyd (Douglas Quaid) də Marsa getmə və oradakı bu hadisələri dayandırma xəyalları qurur. Lakin dostu bu fikrə qarşı çıxdığından, ən son həlli həqiqəti qədər inandırıcı xatirələr yaşadan, digər bir ifadəylə virtual tətil təşkil edən "Recall" adında bir şirkətə müraciət etməkdə görür. Burada bütün təfərrüatların adamın seçiminə görə əvvəlcədən nizamlandığı, həqiqətindən fərqsiz və əslindən çox daha ucuz tətil imkanları təqdim edilir. Hətta adam dilədiyi təqdirdə, özündən fərqli bir insan olaraq, başqa bir insanın şəxsiyyətiylə bu səyahəti edə bilir.

Filmin baş rol oyunçusu Duqlas Kueyd (Douglas Quaid) də, pul qarşılığında Marsa getdiyinə dair 15 günlük xatirələrin yaddaşına yüklənməsi

üçün bir müqavilə bağlayar. Bədəni bir kürsüdəykən, yaddaşına verilən məlumatlarla özünü Marsda gizli bir agent olaraq görə biləcəkdir. Ancaq bu məlumatların zehninə yüklənməsi əsnasında, bir əksiklik olar və yaddaşındakı məlumatlarla daha əvvəl oynanmış olduğu ortaya çıxar və filmin qəhrəmanı həqiqət olaraq qəbul etdiyimiz həyatında da, özünü Marsdakı hadisələrlə vəzifəli gizli bir agent olaraq hiss etməyə başlayar.

Film boyunca Duqlas Kueydin (Douglas Quaid) həyatının nə qədərinin həqiqət olduğu, yaddaşındakı xatirələrin hansılarının həqiqətən yaşandığı, hansılarınınsa süni olaraq yaradıldığı dəqiq olaraq aydın olmur. Sonrakı səhifələrdə filmdən olan hissələrdə görəcəyiniz kimi, bu filmdə də xəyallarla həqiqətlər arasındakı fərqi duymamaq tez-tez vurğulanır.

SƏYAHƏT EDƏN BİR KİMSƏ ƏSLİNDƏ KİLOMETRLƏRİ BEYNİNDƏ QƏT EDƏR

Kitabın əvvəlindən bəri müxtəlif nümunələrlə toxunduğumuz kimi, maddə dediyimiz hər şey (öz bədənimiz, ətrafımızdakı cisimlər, üzərinə basdığımız torpaq, günəş, planetlər, ulduzlar və s.) əslində bir qavrayışdır. Məsələn, səmaya baxdığınızda günəşi özünüzdən çox uzaqlarda görərsiniz. Halbuki, günəş sizin üçün qapqaranlıq beyninizin içində yaranan bir görünüşdən başqa bir şey deyildir. Eyni şəkildə, bizdən milyonlarla kilometr uzaqda sandığımız planetlər də, beynimizdəki görünüş mərkəzində yer alan, yəni bizim "uzağımızda" deyil, əksinə "içimizdə" mövcud olan hisslərdir.

Həqiqətə çağırış (Total Recall) adlı bu filmdə də bir tətil şirkəti, süni olaraq verilən siqnallarla insanlara həqiqətindən fərqsiz xatirələr yaşadır. İnsanlar zehinlərinə yüklənən məlumatlarla, çox uzaq məkanları oradalarmış kimi həqiqi görə bilir, buralarda tətil etdikləri hissinə qapıla bilirlər.

Aşağıdakı sətirlərdə və görünüşdə Recall adındakı bu tətil şirkətinin televiziya təqdimatı yer alır:

> **Reklam:** *Aysberq qədər işiniz olmasına baxmayaraq, Antartikada xizək sürmək istəmədinizmi? Pulsuz olmanıza baxmayaraq dəniz altında tətil etməyi arzulamadınızmı? Pilləkənləri çıxa bilmədiyiniz halda Marsın dağlarına çıxmağı hər zaman istəmədinizmi? O zaman RECALL-a gəlin, bizdə xəyal etdiyiniz tətili satın ala bilərsiniz, həm həqiqətən daha ucuz, həm də daha yaxşıdır. Həyatınızı boş yerə sərf etməyin, RECALL-a müraciət edin və sizə ömür boyu unuda bilməyəcəyiniz bir xatirə verək.*

Duqlas Kueyd (Douglas Quaid), bu reklamı izlədikdən sonra, ən böyük xəyalı olan Marsa getmənin necə mümkün olacağını öyrənmək üzrə, "Recall" şirkətindən Bob Mak Klein (Bob McClane) adındakı bir səlahiyyətli şəxs ilə görüşər. Filmdən götürülən aşağıdakı sitatlarda isə bəhs edilən virtual tətilin necə olacağı ilə əlaqədar təfərrüatlar qərarlaşdırılır:

Mr. Mak Klein (McClane): *O zaman Mars olsun. Bir dəqiqə lütfən… Mars turu əlavələr istisna olmaqla sizə 899-a düşər. Bu ayrıntılarıyla birlikdə, iki həftəlik bir xatirəni ehtiva edir…*

Duqlas Kueyd (Douglas Quaid): *İki həftəlik tur nələri ehtiva edir?*

Mr. Mak Klein (McClane): *Əvvəl bunu bilin: RECALL-da yalnız birinci sinif xatirələri ala bilərsiniz. Kosmos vasitəsində tək kabinet, Hiltonda lüks otaq, bütün görülməyə dəyər yerlər, Mount Pyramid, böyük kanallar…*

Duqlas Kueyd (Douglas Quaid): *Nə qədər həqiqi olur?*

Mr. Mak Klein (McClane): *Ağlınızdakı hər xatirə kimi.*

Duqlas Kueyd (Douglas Quaid): *Axmaqlamayın.*

Mr. Mak Klein (McClane): *Xeyr, həqiqətən! Beyniniz heç bir fərq tapmayacaqdır. Qətiyyən!*

Duqlas Kueyd (Douglas Quaid), Marsdakı mühitə aid təfərrüatlarla yanaşı öz şəxsiyyəti ilə əlaqədar məlumatları da seçə bilir. Belə bir imkanı olduğunu öyrənən filmin qəhrəmanı, Marsda keçirəcəyi müddət boyunca gizli bir agent vəzifəsində olmağı istəyər.

Dr. Lull: *Yadplanetli şeylər də istəyirsinizmi?*

Duqlas Kueyd (Douglas Quaid): *Təbii ki, niyə olmasın… Mars mənə hər zaman təsir etmişdir.*

Assistent: *Biz hazırıq.*

Dr. Lull: *O halda yuxu ölkəsinə gedək.*

Duqlas Kueydin (Douglas Quaid) maşına bağlanışı ilə əlaqədar görünüşlər.

Filmdə də bir nümunəsini gördüyümüz kimi, yuxu ya da süni siqnallarla yaradılan mühitlərlə həqiqi həyatdakı məkanlar arasında texniki baxımdan bir fərq yoxdur. Hər ikisində də bütün gördüklərimizi beynimizdə görərik. Bizim çox uzaq sandığımız planetlər, çox böyük sandığımız dünya, əslində beynimizin içinə sığdırılmış bir hisslərin məcmusudur. Bu mövzu ilə paralel kitabımızda təqdim etdiyimiz bir neçə nümunə belədir:

Üzərində düşünülməsi lazım olan ayrı bir nöqtə də uzaqlıq hissidir.

Uzaqlıq, məsələn, bu kitabla aranızdakı məsafə, sadəcə beyninizdə meydana gələn bir boşluq hissidir. Bir insanın özündən çox uzaqda sandığı maddələr də əslində beyninin içindədir. Məsələn, insan göyə baxıb ulduzları seyr edər və bunların milyonlarla işıq ili uzaqlığında olduqlarını sanar. Halbuki, ulduzlar onun içində, beynindəki görünüş mərkəzindədirlər.

… Həyatımız boyunca yaşadığımız, gördüyümüz, hiss etdiyimiz hər şey beynimizdə meydana gəlir. Məsələn, kürsüsündə oturaraq şüşədən çölü seyr edən bir insan, kürsünün sərtliyini, döşəməsinin sürüşkənliyini beynində hiss edər. Mətbəxdən gələn qəhvə qoxusu həqiqətdə mətbəxdə, yəni uzağında deyil, beyninin içindədir. Şüşədən gördüyü dəniz mənzərəsi, quşlar, ağaclar isə yenə beynində meydana gələn görünüşlərdir. Özünə qəhvə təklif edən dostu və qəhvənin gözəl dadı da yenə beynində meydana gələr. Qısacası, evinin salonunda oturduğunu və şüşədən çölü seyr etdiyini zənn edən bir insan həqiqətdə, beyninin içindəki ekrandan salonunu, şüşədən görünən mənzərəni izləyir. Məhz insan, beynindəki ekranda izlədiyi, mənalı şəkildə bir yerə gətirilən hisslərinin hamısına "həyatım" deyər və heç bir zaman beyninin xaricinə çıxa bilməz.

BEYNİMİZDƏKİ VİRTUAL DÜNYA

Kompyuterlərlə, simuliyasiyalarla üçölçülü və həqiqi görünüşlər hazırlayıb heç olmayan bir mühiti insanlara yaşatmaq indiki vaxtda sıradan bir hadisə halına gəlmiş vəziyyətdədir. Texnologiyanın çox inkişaf etmiş olduğu ölkələrdə əyləncəyə və təhsilə istiqamətli bir çox vasitə edilir. Bunların böyük bir qismində insan beynində üçölçülü görünüş meydana gətirən kompyuter proqramları istifadə edilir. Bu texnikanın istifadə edilməsindəki əsl məqsəd isə beş duyğunu təsir edərək oynayanlara xəyali bir mühitdə həqiqi həyat yaşadıqları təsiri verməkdir.

NASA-dakı astronavtlardan memarlara, pilotlardan mühəndislərə qədər bir çox peşədə təhsil, simulyasiya deyilən üçölçülü görünüşlərlə keçilir. Məsələn, bu simulyasiyalarla keçilən uçuş təhsilindəki bir pilot həqiqi hava şəraitiylə kompyuterin ona yaşatdığı xəyali hava şərtlərini ayıra bilmir. Seyr etdiyimiz xarici elmi-fantastik filmlərinin böyük bir qismində də insan həyatının görünüşlərdən meydana gəlməsi və beyində yaradılan virtual dünyalarla olan bənzərliyi yer alır. Bu filmdə də əyləncə məqsədli bu texnikanın inkişaf etdirilmiş şəkli tətbiq olunur. Virtual tətil etmək istəyənlər, istədikləri yerdə, istədikləri kəslərlə istədikləri qədər müddətdə tətil etdikləri hissini yaşamaq imkanına sahibdirlər.

Ancaq filmin axışında Marsa aid 15 günlük xatirələrin və yeni şəxsiyyət məlumatlarının yüklənməsi əsnasında, gözlənilməz bir vəziyyət olar və daha yükləmə edilmədən Duqlas Kueyd (Douglas Quaid) Mars haqqında danışmağa başlayar. Artıq özünü həqiqi həyatında da başqa biri zənn edir. Filmin bu hissəsində baş qəhrəmanı, həqiqətdə Duqlas Kueyd (Douglas Quaid) şəxsiyyətiylə bir tətil şirkətində olmasına baxmayaraq, özünü öldürülmək istənilən bir agent sanır.

Dr. Lull: *Bu bir yaddaş donmasıdır!*

Duqlas Kueyd (Douglas Quaid): *Öldürəcəklər.*

Mr. Mak Klein (McClane): *Nə deyir bu? Bilmirəm!*

Duqlas Kueyd (Douglas Quaid): *Mənim adım Kueyd deyil.*

Dr. Lull: *... Baxın, səhərdən bəri Marsdan bəhs etdi. Həqiqətən orada idi!*

Mr. Mak Klein (McClane): *... Eqo turundakı agent rolunu yaşayır!*

Yaddaşına yüklənən məlumatlar əsasında yaşadıqlarını həqiqi zənn edən Duqlas Kueydin (Douglas Quaid) vəziyyəti son dərəcə düşündürücüdür. Heç bir həqiqəti olmayan virtual bir dünyanı həqiqi zənn edərək yaşaması, indiki vaxtda da maddənin əsli ilə təmasda olduğunu düşünərək, bu maddi dünyaya ehtirasla bağlananların vəziyyətinə bənzəyir. Halbuki, kimsə zehnindəki surət olan görünüşlərdən, surət olan hisslərdən yola çıxaraq çöldə maddi bir dünya olduğunu və yaşadıqlarının həqiqi olduğunu isbat edə bilməz. Bu mövzu ilə əlaqədar kitabımızda verdiyimiz izahlardan bir neçəsi belədir:

… Bu anda başınızı qaldırıb içində olduğunuz otağa baxdığınızda gördüyünüz, sizin xaricinizdəki otaq deyil. Siz otağın, beyninizin içində yaranan surət olan görünüşünü görərsiniz və heç bir zaman bu otağının əslini duyğuların vasitəsi ilə görmənizə imkan yoxdur.

… Bu həqiqət, bir fəlsəfə və ya hər hansı bir fikir deyildir. Əksinə bu gün müasir elmin qəti olaraq isbat etdiyi və inkarı qətiliklə mümkün olmayan texniki bir həqiqətdir. Bu gün tibb, biologiya, fizika, nevrologiya, beyin və əlaqədar bütün sahələrdə mütəxəssis olan hansı elm adamına "biz dünyanı necə və harada görürük?" deyə soruşulsa, verdikləri tək cavab vardır: bütün dünyanı beynimizdəki görmə mərkəzində görürük.

YADDAŞIMIZDAKI MƏLUMATLAR DA XƏYALLARIMIZDAN QALAN XATİRƏLƏRDİR

Bir insanın keçmişi, əslində o insanın yaddaşında yer alan məlumatlardan ibarətdir. Əgər bu insanın yaddaşı silinsə, keçmişi qalmayacaqdır. Gələcək isə insanların düşüncələrindən ibarətdir. İnsan gələcəyi üçün plan hazırlayar, gələcəyini düşünər. Ancaq insanın düşüncələri də ortadan qaldırılsa, bu dəfə gələcək deyə bir anlayış da qalmayacaqdır. Yaddaşı və düşüncələri alınan bir insan üçün yalnız içində yaşadığı "an", yəni "bu an" qalacaqdır.

Həqiqətə çağırış (Total Recall) adlı bu filmdə də filmin qəhrəmanının yaddaşında bəzi dəyişikliklər edildiyi, bunun nəticəsində zamanı və ətrafındakı hadisələri fərqli qiymətləndirdiyi aydın olur. Filmdə Duqlas Kueydin (Douglas Quaid), daha əvvəl yaddaşından silinmiş bəzi məlumatların canlanmasına görə həyatında dəyişikliklər olur. Düşmənləri tərəfindən izlənilməyə, hətta öldürülməyə çalışılar, ancaq bu hücumların həqiqətmi, yoxsa bir zamanlar yaddaşına yerləşdirilmiş xəyal dünyasınamı aid olduğunu ayıra bilmir.

Filmin sonrakı səhnələrində Duqlas Kueyd (Douglas Quaid) onu izləyən bəzi insanlardan qaçaraq evinə gəlir. Bütün olanları yoldaşına izah etdiyində, yoldaşı olanların həqiqi olmadığına onu razı salmağa çalışar.

Lori: *... Hər şey sırayla. Niyə casuslar səni öldürsünlər?*

Duqlas Kueyd (Douglas Quaid): *Bilmirəm amma Marsla əlaqədardır.*

Lori: *Sən oraya heç getmədin ki.*

Duqlas Kueyd (Douglas Quaid): *Bəli hər şey qəribədir, amma mən Recalla getdim.*

Lori: *O beyin qəssablarınamı? Nə etdilər?*

Duqlas Kueyd (Douglas Quaid): *Mən Mars üçün bir tur ayırdım və sonra… Recallı unut! Onlar məni öldürmək istədilər!*

Lori: *Heç kim səni öldürmək istəmədi.*

Duqlas Kueyd (Douglas Quaid): *İstədi! Amma mən onları öldürdüm.*

Lori: *Bax, Recalldakı adamlar sənin beynini qarışdırıblar. Sən paranoid xəyal görürsən.*

Duqlas Kueyd (Douglas Quaid): *Bu da paranoid xəyaldır? (əlindəki qanları göstərir)*

Yoldaşının da bir oyun içində olmasından şübhələnən Duqlas Kueyd (Douglas Quaid), ona həqiqətləri izah etməsi üçün israr edər. Filmin aşağıdakı səhnələrindən də aydın olacağı kimi, Duqlas Kueydin (Douglas Quaid) həqiqət olaraq qəbul etdiyimiz həyatında da əslində xəyali bir şəxsiyyəti həqiqi zənn edərək yaşadığı aydın olar. Duqlas, həqiqətdə tamamilə fərqli biridir, lakin yaddaşına yüklənən məlumatlarla özünü səkkiz ildir evli bir inşaat işçisi zənn edir. Həyat yoldaşı, iş yoldaşı, qısacası, bütün həyatı yaddaşına yüklənmiş süni məlumatlardır və Duqlas Kueyd (Douglas Quaid) o günə qədər bütün bunları həqiqət zənn etmişdir.

Duqlas Kueyd (Douglas Quaid): *Hə danış!*

Lori: *Mən sənin arvadın deyiləm.*

Duqlas Kueyd (Douglas Quaid): *Doğurdan? Eləmi!*

Lori: *Səni 6 həftədir tanıyıram. Evliliyimiz bir yaddaş yüklənməsidir.*

Duqlas Kueyd (Douglas Quaid): *Ah?*

Lori: *Toyumuzu xatırlayırsanmı? Gizli kəşfiyyat köçürdü.*

Duqlas Kueyd (Douglas Quaid): *Bizim dostlarımız, mənim işim, 8 illik bərabərliyimiz yalanmı?*

Lori: *İşin həqiqətdir. Gizli kəşfiyyat tapdı.*

Duqlas Kueyd (Douglas Quaid): *Axmaqlıq!*

Lori: *Sənin şəxsiyyətini yenidən yazdılar. Səni nəzarətdə tutmaq üçün məni yoldaşın olaraq vəzifələndirdilər. İncimə, amma bütün həyatın bir yuxudur.*

Duqlas Kueyd (Douglas Quaid): *Yaxşı, əgər mən mən deyiləmsə, o zaman Allah xatirinə mən kiməm?*

Lori: *Bilmirəm. Mən burada yalnız vəzifəmi yerinə yetirirəm.*

Filmdə yer alan bu mövzu bizlərə bunu düşündürür: Biz yaddaşımızdakı məlumatların həqiqi olduğu ön mühakiməsiylə hərəkət edərik. Halbuki, yaddaşımıza verilən məlumatlar olmadan heç bir şeyi bilmərik. Bu mövzunu açıqlayan kitabımızdakı bir neçə nümunə belədir:

Bir insanın keçmişi yaddaşına verilən məlumatlardan meydana gələr. Yaddaş silindiyində insanın keçmişi də silinər. Gələcəyi isə düşüncələrindən ibarətdir. Bu düşüncələr olmadığında isə insanın yalnız yaşadığı "an" qalar.

Zaman, beyində saxlanan bəzi xəyallar arasında müqayisə edilməsiylə mövcud olur. Əgər bir insanın yaddaşı olmasa, beyni bu cür şərhlər etməz və dolayısilə zaman qəbulu da meydana gəlməz. Bir insanın "mən otuz yaşındayam deməsinin səbəbi, beynində bəhs edilən otuz ilə aid bəzi məlumatların yığılmış olmasıdır. Əgər yaddaşı olmasa, ardında belə bir zaman hissəsi olduğunu düşünməyəcək, yalnız yaşadığı tək bir "an" ilə əlaqədə olacaq.

TOXUNMA HİSSİ MADDƏNİN ƏSLİNƏ ÇATDIĞINIZA BİR DƏLİL OLA BİLMƏZ

Gecə gördüyümüz yuxudakı görünüşlərlə, oyanınca görməyə davam etdiyimiz görünüşlər arasında elmi olaraq da, məntiqi olaraq da bir fərq yoxdur. Yuxunu görərkən biri yuxumuza girsə və bizə "qorxma, bir yuxu görürsən, bunların heç biri həqiqi deyil, hal-hazırda yatağında yatırsan, beyninin içindəki şeyləri seyr edirsən" deyəcək olsa, yaşadığımız həqiqi hisslərdən ötəri ona heç bir şəkildə inanmaq istəmərik.

Filmdə də buna bənzəri bir nümunə yaşanır. "Recall" adındakı virtual tətil şirkətində məsləhətçi olduğunu söyləyən bir adam, Marsda otel otağında olan Duqlas Kueydin (Douglas Quaid) ziyarətinə gələr və ona yaşadıqlarının heç birinin həqiqi olmadığını izah edər. Kueydin hələ Recall şirkətində olduğunu və özünün də proqramın bir parçası olduğunu, həqiqətdə orada olmadığını deyər. Ancaq Duqlas Kueyd (Douglas Quaid) yaşadıqlarının həqiqi olduğuna elə inanmışdır ki, bunların xəyal ola biləcəyinə ehtimal vermir. Aralarında baş verən söhbət belədir:

Duqlas Kueyd (Douglas Quaid): *Nə istəyirsiniz?*

Vəzifəli: *Sizin üçün başa düşülməsi çətin olacaqdır. Təəssüf ki, sizə deməyim lazım olan bir şey var, siz həqiqətdə burada deyilsiniz.*

Duqlas Kueyd (Douglas Quaid): *Az qalsın inanacaqdım.*

Vəzifəli: *Ciddi deyirəm. Siz burada deyilsiniz və mən də deyiləm.*

Duqlas Kueyd (Douglas Quaid): *İnanılmaz bir şey… (adamın çiynini sıxır tənəli gülərək) Haradayıq biz?*

Vəzifəli: *Recallda. İmplantasiya kürsüsünə bağlısınız və mən sizi nəzarət altında saxlayıram.*

Duqlas Kueyd (Douglas Quaid): *İndi yuxumu bu yəni. Bu da mənə satdığınız o gözəl tətil.*

Vəzifəli: *Tam deyil. Yaşadığımız hər şey xatirə lentlərinə bağlanan bir xəyaldır. Amma siz hər an bir şey daha icad edirsiniz.*

Duqlas Kueyd (Douglas Quaid): *Yaxşı mənim xəyalımda siz nə edirsiz?*

Vəzifəli: *Mən təhlükəli vəziyyətlər üçün köçürüldüm… Sizi yuxunuzdan çıxartmaq çətindir. Mən danışmaqla sınamaq istəyirəm.*

Duqlas Kueyd (Douglas Quaid): *Cohageen bunun üçün sizə nə ödəyir?*

Vəzifəli: *Bir düşünün: Yuxunuz köçürmə əsnasında başladı. Marsa səyahət, Hiltondakı otaq. Bunların hamısı Recall-Ego turunun ünsürləridir. Əksinə, özünüz agent rolunu seçdiniz.*

Duqlas Kueyd (Douglas Quaid): *Axmaqlıq. Hər şey təsadüf.*

Vəzifəli: *…. (Marsda dostu olmasını istədiyi adamın necə olacağını özü seçmişdi. Texnik əməkdaşı bu seçkisini özünə xatırladır.)*

Duqlas Kueyd (Douglas Quaid): *O həqiqidir. Recalla getmədən əvvəl onun yuxusunu gördüm.*

Vəzifəli: *Cənab Quaid, nələr deyirsiniz? Onun yuxusunu gördüyünüz üçünmü həqiqətdir?*

Duqlas Kueyd (Douglas Quaid): *Bəli.*

Əvvəlki səhifədəki sətirlərdə də görüldüyü kimi, Duqlas Kueyd (Douglas Quaid) gördüklərinin həqiqi olduğunu şirkət əməkdaşının çiyninə toxunaraq isbat etməyi düşünür. Ancaq digər bütün hisslərimizdə olduğu kimi toxunma duyğusu da beynimizdə izlədiyimiz həyatımızın bir parçasıdır. Duqlas Kueyd (Douglas Quaid) də qarşısındakı adamın çiyninə toxunduğunu gördüyündə, əlini adamın çiyninə uzatması, sərtliyini hiss etməsi, paltarına toxunması bunların hamısı zehnindəki şərhlərdən ibarətdir. Bu vəziyyət bir kimsənin yuxusunda qarşısındakı adamın çiyninə toxunmasından fərqsizdir. Bu səbəbdən, toxunmaq, maddənin əsliylə əlaqədə olduğumuzu heç bir şəkildə sübut etməz. Hələ ki, belə bir isbat axtarışı içində olan bir kimsənin xəyallarından başqa dəlili də yoxdur. Bu mövzu haqqındakı izahlarımızdan bəziləri belədir:

… Yuxusunda maddənin əsli ilə təmasda olduğunu iddia edən bir adam özündən son dərəcə əmin ola bilər. Özünə "maddənin xəyal olduğunu", "xarici dünyanın əsliylə təmasda olmanın mümkün olmadığını" izah edən dostunun çiyninə əlini qoyaraq "İndi mən bir xəyalammı? Sən əlimi çiyində hiss etmirsənmi? O zaman necə xəyal ola bilirsən? Haradan çıxarırsan bu iddiaları? Gəl sənlə bir Boğaz turu edək, həm bu mövzunu danışarıq, bir də belə bir mövzuya niyə inanırsan deyə mənə izah edərsən" deyə bilər. Dərinləşən yuxusunda gördüyü bu yuxu o qədər dəqiqdir ki, keflə avtomobili

işə salıb, mühərrikə yavaş-yavaş qaz verər və sonra birdən pedala basıb avtomobili sanki sıçradar. Yolda sürətlə gedərkən ağaclar və yol xətləri sürətdən sanki blok bir görünüş meydana gətirər. Bir tərəfdən də təmiz Boğaz havasını alar.

Tam dostuna etiraz etməyə, o anda yaşadıqlarının xəyal olmadığını izah etməyə hazırlanarkən saatının zəngiylə oyanar. Ancaq maraqlıdır ki, yuxusunda gördüklərinin xəyal olduğuna etiraz edən bu insan, oyaq ikən də gördüklərinin zehnində yaranan surət görünüşlər olduğunu izah edən bir yoldaşı yanında olsa, ona da eyni şəkildə etiraz edəcəkdir.

Bəzi insanlar isə, görünüşün beyinlərində meydana gəldiyini qəbul edir, ancaq gördükləri görünüşün əsillərinin çöldə olduğunu iddia edirlər. Halbuki, bu heç bir zaman isbat edə bilməyəcəkləri bir iddiadır. Çünki bu günə qədər heç bir insan, beyninin xaricindəki obyektlərin xaricinə çıxa bilməmişdir.

Hər insan, beynindəki hüceyrəsinin içində yaşayır və hisslərinin özünə göstərdikləri xaricində heç bir şey yaşaya bilməz. Bu səbəbdən, hisslərinin xaricindəki dünyada nələr olduğunu heç bir zaman bilə bilməz…

İnsan hər zaman yenə beynində yaranan xəyal ilə təmasda olacaqdır. Bu səbəbdən, insanlar "maddi qarşılıqlara" heç bir zaman çata bilməyəcəklər.

… Texnologiyanın və ya elmin irəliləməsi də bu mövzuda hər hansı bir dəyişikliyə səbəb ola bilməz. Çünki hər elmi tapıntı və ya texnoloji ixtira yenə insanların beyinlərində meydana gələcək, bu səbəblə də, bu üsulla da xarici dünyaya çatmaq mümkün ola bilməyəcək.

HƏQİQƏTİNDƏN FƏRQSİZ HOLOQRAM GÖRÜNÜŞLƏR

Elm adamları xarici dünyanın varlığına gərək olmadan beyində virtual bir dünya yaradıla biləcəyini bir neçə dəfə sübut etdilər və hər keçən gün dünyanı kompyuter mühitində elektrik siqnalı olaraq meydana gətirib, insanlara bu siqnallarla istənilən görünüşü yaşatdırmaq daha da asanlaşır. Məsələn, hazırlanan üçölçülü və həqiqətindən fərqi olmayan kompyuter simulyasiyaları yoluyla əsli ilə eyni xüsusiyyətlərə sahib görünüşlər əldə edilir. Ayrıca, bu görünüşlərlə təmasda olan insanlar, həqiqətində olduğu kimi reaksiyalar verirlər.

Filmin bir səhnəsində holoqram texnikası istifadə edilərək, həqiqət ilə kölgə görünüşlər arasındakı bənzərlik vurğulanır. Filmdə Duqlas Kueyd (Douglas Quaid) biləyinə taxdığı saata bənzər bir alət sayəsində öz bədəninin holoqram görünüşlərini əldə edir. Bunun sayəsində özünü öldürmək istəyən düşmənləri, kölgə görünüşləri tutmağa çalışdıqları üçün məqsədlərində müvəffəqiyyətli ola bilmirlər.

Adam: *Onun holoqramı var.*

Duqlas Kueyd (Douglas Quaid): *Məni həqiqi Kueydmi (Quaid) zənn edirsiniz? Doğru bildiniz!*

BİR GÜN YUXUDAN OYANDIĞINIZ KİMİ, BU HƏYATDAN DA OYANA BİLƏCƏYİNİZİ HEÇ DÜŞÜNDÜNÜZMÜ?

Yuxu görmək, digər bütün zehni əməliyyatlar kimi, beyinin bir məhsuludur. Bir insan istər oyaq, istərsə də yuxuda olsun, beyin daimi olaraq elektrik dalğaları verər. Ancaq yuxu əsnasında, beyindən əzələlərə siqnal göndərən sinir yolları tutular. Bu səbəbdən, yuxular əsnasında bədən hərəkət etməz. Lakin təməldə adamın yuxudaykən də, oyaqkən də vəziyyəti eynidir. Məsələn, yuxunuzda da, indi olduğu kimi, aşağıya doğru baxdığınızda əli-qolu olan, gedən, nəfəs alan, toxunma hissləri olan bir bədən görərsiniz və çox inandırıcı bir şəkildə həqiqi bir həyat yaşadığınız hissinə qapıla bilərsiniz.

Halbuki, yuxuda gördüyünüz virtual bədən, yalnız sizin zehninizdə yerləşən, amma sanki zehninizin xaricindəymiş kimi hiss etdiyiniz qəbullardan ibarətdir. Yəni yuxu, eynilə oyaq olduğu kimi beynimizin əlaqədar mərkəzlərinə gələn xəbərdarlıqların şərh olunmasıyla yaranan bir hisslər məcmusudur.

Kitab boyunca müxtəlif nümunələrinə toxunduğumuz kimi, yuxudakı hadisələr bəzən o qədər təsirlidir ki, insanlar bəzən oyanınca yaşadıqlarının həqiqi olub-olmadığını düşünürlər. Əslində, oyandıqdan sonra yaşadığımız həyatla yatarkən gördüyümüz yuxular arasında texniki olaraq heç bir fərq yoxdur. Bir insan yuxu əsnasında, oyaqkən etdiyi şeylərin hamısını edə bilər; danışar, yemək yeyər, nəfəs alar, qaçar, gülər, ağlayar, yaralanar, avtomobil sürər. Çox vaxt gündəlik həyatın bir surəti olan yuxu mühitində hər şey onsuz da bildiyi və vərdiş etdiyi şəkliylə vardır. Buna görə yuxudakı hadisələrə sanki olanlar həqiqətmiş kimi reaksiya verər. Bəzən qorxu dolu bir yuxudan qışqıraraq oyanar, bəzən də gördüyü gözəl bir yuxudan heç oyanmaq istəməz.

Aşağıdakı söhbətlərdə filmin qəhrəmanı da bütün yaşadıqlarının bir yuxu olması ehtimalını düşünür.

> **Melina:** *İnana bilmirəm. Bir yuxu kimidir. Nə oldu?*
>
> **Duqlas Kueyd (Douglas Quaid):** *Ağlıma qorxunc bir şey gəldi: Əgər bu həqiqətən bir yuxudursa?*

İnsan xarici dünya olmadan da bütün hissləri bütün canlılığı ilə yaşaya bilər və buna verilə biləcək ən açıq nümunə… yuxulardır. Bir insan yuxusu əsnasında gözləri bağlı olaraq yatağında yatar. Ancaq buna baxmayaraq, həqiqi həyatında qarşılaşdığı hadisələrin, yaşadığı hisslərin, xəbərdarlıqların hamısını yuxularında, həqiqətlərindən ayırd edilə bilməyəcək qədər həqiqi hesab edər. Bu həqiqətə, bu kitabı oxuyan insanların hamısı şəxsən öz yuxularında tez-tez şahid olarlar. Məsələn, gecə yatağında səssiz və sakit bir mühitdə, ətrafında ikinci bir adam belə yoxkən yatan bir insan, yuxusunda özünü çox izdihamlı bir məkanda, bir təhlükə içində görə bilər. Can qorxusuyla bu təhlükədən qaçdığını, bir divarın arxasına sığındığını həqiqətmiş kimi yaşaya bilər. Hətta yuxusunda gördükləri o qədər həqiqidir ki, qorxu və çaxnaşma duyğusunu həqiqətən təhlükəli bir mühit varmış kimi

eynisi ilə hiss edər. Hər səs-küydə ürəyi ağzına gələr, qorxudan titrəyər, ürəyi sürətlə döyünər, tərləyər, insan bədəni təhlükə anlarında nələr hiss edirsə, fiziki olaraq nə reaksiyalar versə hamısını eynilə yaşayar. Halbuki, zehninin xaricində, gördüklərinin heç birinin qarşılığı yoxdur.

HƏYATINIZI YUXULARINIZ KİMİ TAM FƏRQLİ BİR YERDƏ İZLƏYİR OLA BİLƏRSİNİZ

Yuxusunda qəhvə içən bir insan, qəhvənin şəkərini, tamını, içindəki südün dadını, həqiqətən qəhvə içirmiş kimi hiss edər. Ancaq ortada nə qəhvə, nə də içəcək bir şey vardır. Necə ki, yuxusunda qəhvə içən bir insana biri gəlib, "bu anda yuxudasan və bu qəhvə əslində bir görünüş" desə, dərhal etiraz edər. "Görünüş olarmı? Bax istiliyini hiss edirəm. Birdən içincə dilim yanır. Hətta qəhvəni içincə susuzluğum keçdi. Görünüş olsa susamamı keçirərmi heç?" deyər. İçdiyini zənn etdiyi qəhvənin əslində beynində yaranan bir görünüş olduğunu, içərkən hiss etdiyi istilik, susuzluq kimi hisslərin də yenə beynində yaranan hisslər olduğunu ancaq yuxusundan oyandıqdan sonra anlayar.

Yuxularımızda yaşadıqlarımızla həqiqi həyatda yaşadıqlarımız eyni məntiqlə meydana gələr. Yuxularımız necə zehnimizdə yaşanırsa, həqiqi həyatımız da zehnimizdə yaşanar. Yuxularımıza "xəyal" deməyimizin tək səbəbi, səhər oyandığımızda bədənimizi yatağımızda görməyimiz və "demək ki, mən yatırdım və bunları yuxumda gördüm" nəticəsinə gəlməyimizdir.

HƏQİQİ HƏYATIMIZLA YUXULARIMIZ ARASINDAKI BƏNZƏRLİK MUSİQİ DÜNYASINDA

Məşhur amerikalı pop sənətçisi Britni Spirs (Britney Spears), 2001-ci ildə Las Veqasda təşkil etdiyi konsert nümayişi üçün olduqca maraqlı və insanları düşünməyə sövq edən bir təqdimat hazırlamışdı. Xüsusilə təqdimatın açılış qismi olmaq üzrə, konsert boyunca hər şeyin zehində olub bitdiyi vurğulanmaqda idi. Bütün yaşananların, hətta o anda tamaşaçıların konsertdə izlədiyi bütün tamaşaların da əslində insanların zehnində olduğu tez-tez xatırladılmaqda idi.

Sənətkar bu təqdimatıyla insanlara, həqiqi olaraq yaşadıqları həyatlarının da əslində bir yuxu ola biləcəyini düşündürür. Parlaq görünüşlərlə çox təfərrüatlı olaraq yer verilən bu mövzuya nümunə olaraq, özünün izdihamlı bir tamaşaçı birliyi qarşısında konsert verdiyi yuxusundan nümunə verir. Sonra da bunların yuxunun içində bir yuxu ola biləcəyini xatırladır.

Hər şey zehninizdə idi…

Gördüyüm və ya görməkdə olduğum hər şey yoxsa yuxunun içindəki bir yuxumu?

Nə vaxtsa çox həqiqi olduğunu hiss etdiyiniz bir yuxu gördünüzmü?

Həqiqi həyatla xəyal dünyası arasındakı fərqi çətinliklə söyləyə bildiyiniz...

Hal-hazırda hansı dünyanın içindəsiniz?

Dünən gecə bu anın xəyalını qururdum.

Və hamınızla birlikdə buradaydım.

Və indi yuxularım həqiqət oldu.

Hər şey zehninizdə idi.

Yuxarıda konsert nümayişləri arasında yer alan bu ifadələr, bizlərə içində yaşadığımız dünyanın həqiqətini sorğulamağı xatırladır. Yuxumuzda

gördüyümüz yerlərin və hadisələrin, bir başqa yerdə və ya ölçüdə maddi qarşılıqları olduğunu düşünmərik. Çünki bütün həqiqətinə baxmayaraq, yuxumuzdakı hərəkətli həyatımızın biz yatağımızda sabit bir şəkildə yatarkən olduğunu bilərik. Eyni şəkildə, hal-hazırda gördüyünüz və adına "həqiqi həyat" dediyimiz dünyanın əsliylə təmasda olduğumuzu da iddia edə bilmərik. Yuxudan fərqsiz olaraq "gördüyünüz hisslərin qaynağının, xarici dünyadakı cisimlər və bunları qəbul edən bədənimiz" olması şərt deyildir. Çünki kənarda hər nə qədər maddi bir dünya olsa da, biz yenə surət görünüşlərdən yaranan xəyal olan bir dünyanı seyr edərik.

Yuxunuzda özünüzü tamamilə xəyal dünyaları içində görərsiniz. Ətrafınızda gördüyünüz cisimlərin və insanların heç bir həqiqiliyi yoxdur. Üzərində gəzdiyiniz torpaq, yuxarıdakı səma, gördüyünüz evlər, ağaclar, avtomobillər və digərləri tamamilə xəyaldır; maddi bir qarşılıqları yoxdur və hamısının yeri, sizin beyninizin içidir. Beyninizdə, daha doğrusu zehninizdə vardırlar və bundan başqa bir yerdə də deyildirlər.

MADDƏNİN ƏSLİ MÖVZUSUNDA ELMİ İNKİŞAFLAR

Holoqram Bir Dünyadamı Yaşayırıq?



Dünyanın ən məşhur elm jurnallarından biri olan New Scientist adlı jurnal, 27 aprel 2002-ci il tarixindəki üz qabığında, oxucularına əhəmiyyətli bir elmi tərəqqini çatdırmışdır. J. R. Minkel tərəfindən qələmə alınan məqalə "Saxta Kainat" başlığı altında və "Niyə hamımız bir holoqramın içində yaşayırıq?" üz qabığındakı yazısı ilə nəşr olunmuşdur. Bu məqalədə açıqlanan elmi təsbiti bu şəkildə yekunlaşdıra bilərik:

Dünyanı bir işıq seli hesab edirik, buna görə də bu hisslərə baxaraq maddəni mütləq həqiqi zənn etmək böyük bir yanılma olacaqdır. New Scientist, elm adamı-müəllif J. R. Minkelin bu əhəmiyyətli mövzu ilə əlaqədar bu etirafına yer vermişdir:

Hal-hazırda bir jurnal tutursunuz, bunu qatı bir maddə hesab edirsiniz və siz bunun kainatda müstəqil bir şəkildə mövcud olduğunu görürsünüz. Ətrafınızdakı əşyalar də eyni şəkildə, bəlkə bir fincan qəhvə ya da bir kompyuter, hamısı kənardan həqiqətmiş kimi görünür. Amma hamısı yalnız bir xəyaldır.

Minkel məqaləsində, bəzi elm adamlarının bu fikri "hər şeyin nəzəriyyəsi" olaraq adlandırdıqlarını söyləyir. Bundan əlavə, Minkel elm adamları tərəfindən "hər şeyin nəzəriyyəsi"nin, kainatın quruluşunun açıqlanmasında ilk pillə olaraq qəbul edildiyini köçürür.

Bəhsi keçən jurnalda nəşr olunan bu məqalə, kainatı beynimizdə bir xəyal olaraq qəbul etdiyimizi, bu səbəbdən, bizim maddənin əsliylə təmasda olmadığımızı açıqlayan elmi bir qaynaqdır.



Elm Adamları Süni Siqnallarla İtirilən Duyğuları Yenidən Qazandırırlar

Amerikanın məşhur aktual jurnalı Time-nin 11 mart 2002 tarixli sayında "Bədən elektriki" başlığıyla nəşr olunan məqalədə əhəmiyyətli bir elmi tərəqqi çatdırıldı. Məqaləyə mövzu olan xəbərdə elm adamlarının, kompyuter çiplərini insanın sinir sistemiylə birləşdirərək, duyğu orqanlarının müalicə edilməsində istifadə etdiklərindən bəhs edilirdi.

Avropa, Amerika və Yaponiyadan olan tədqiqatçılar inkişaf etdirdikləri yeni üsulla kor bir kimsəni görməsi, iflic bir xəstəyə yenidən hərəkət qabiliyyəti qazandırmağı məqsəd qoyurdular. Xəstələrin bədənlərinə elektrodlar

yerləşdirərək, canlı toxumalarla silikon çiplərin birləşdirildiyi protez parçaları istifadə edərək bu məqsədlərini qismən tətbiq etməyi bacarmışdılar.

Məsələn, bir qəza nəticəsində boynu qırılan Holqersen adındakı bir danimarkalının, çiyinlərini, sol qolunu və sol əlini çox az hərəkət etdirə bilməsi istisna olmaqla, boyundan aşağısı iflic idi. Bilindiyi kimi iflic, boyun və onurğa iliyi travmasından qaynaqlanır, çünki beyin və əzələlər arasında hərəkət edən sinir yolu zərər görmüş ya da yolu bağlanmışdır. Bədəndən beyinə gedən siqnalları çatdıran sinirlərlə, beyindən bədən əzələlərinə təlimat daşıyan sinirlər arasındakı məlumat axışı kəsilər. Bu xəstəyə sinir protezi yerləşdirilərək, beyindən gələn siqnalların onurğa iliyinin ziyan görən hissələrini sovuşdurmaq, beləcə qol və ayaqlara bir az hərəkət qazandırmaq məqsəd qoyuldu.

Xəstənin sol əlinə təməl funksiyaları qazandırmaq üçün əşyaları qavramağa, tutmağa və buraxmağa yarayan bir sistem istifadə edildi. Əməliyyatla sol qolunun üst qisminə, ön qoluna və sinəsinə hər biri metal pul böyüklüyündəki səkkiz elastik elektrod, qavramağa nəzarət edən əzələlərə əməliyyatla bağlandı. Bu elektrodlar daha sonra çox incə naqillərlə sinəyə yerləşdirilən və sinir sisteminə təsir edən bir xəbərdarediciyə bağlandı. Bu xəbərdaredici də xəstənin bir az hərəkət etdirə bildiyi sağ çiyninə yerləşdirilən bir mövqe-qəbul etmə vahidinə bağlandı.



Bunun nəticəsində isə bu oldu: Xəstə bir stəkanı qaldırmaq istədiyində sağ çiynini yuxarı qaldırır. Bu hərəkət mövqe qəbuledicisindən sinəsindəki xəbərdarediciyə elektrik siqnalı göndərir. Bu xəbərdaredici də siqnalı qolundakı və əlindəki əzələlərə doğru çatdırır. Bunun nəticəsində əzələlər sıxılıb, sol əl bağlanır. Stəkanı buraxmaq istədiyində isə sağ çiynini aşağı endirir, beləcə sol əl açılır. Bu cür protezler sayəsində, iflic orqanlardan gələn toxunma ilə əlaqədar məlumatlar bədənin digər hissələrinə çatdırılır və beləcə duyğuların yenidən qəbul edilməsi mümkün olur.

Bu işlərin bir başqası isə, Brüsseldəki Louvain Universitetində görmə ilə əlaqədar reallaşdırılır. Çubuq və konus hüceyrələri ölüncə retinası işığa reaksiya verməyən, ardından da kor olan belçikalı bir xəstənin, sağ optik sinirinin ətrafına yerləşdirilən bir elektrod sayəsində bəzi görünüşləri təkrar görməsi mümkün olmuşdur.

Bu xəstənin vəziyyətində elektrod, kəllənin içində açılan kiçik bir oyuq içinə yerləşdirilmişdir və bu elektrod bir xəbərdarediciyə bağlıdır. Bir başlıq ilə açılan video kamera, görünüşləri radio siqnalları şəklində xəbərdarediciyə çatdırır. Bu xəbərdaredici zərər görmüş çubuq və konus hüceyrələrini keçərək doğrudan optik sinirə elektrik siqnallarını çatdırır. Optik sinir siqnalları xəstənin görmə mərkəzinə daşındıqdan sonra, bunlar bir görünüş şəklində yenidən təşkil edilir. Hər nə qədər xəstənin gördüyündəki keyfiyyət,

stadionlardakı işıqlı tabloların miniatürü şəklində olsa da, bu sistemin reallığını göstərmək üçün kafi bir nümunədir.

Bu xəstə üzərində tətbiq olunan süni görmə sisteminə "Microsystem-based Visual Prosthesis" (MIVIP – Mikrosistem-əsaslı Vizual Protez) deyilir. Bu cihazlar xəstənin kəllə sümüyünə qalıcı olaraq yerləşdirilmişdir, lakin bunları istifadə edə bilməsi üçün Louvain Universitetində kiçik bir otağa getməsi və üzgüçü papaqlarına bənzəyən bir başlıq geyməsi lazımdır. Bu başlıq plastikdən hazırlanmışdır və ön qisminə sabitlənmiş standart bir video var. Ekrandakı görünüşü meydana gətirən nöqtələr nə qədər çox olsa, elektrik xəbərdarlıqlarının sayı da o qədər çox olar. Bu da görünüşün daha keyfiyyətli olmasını təmin edir.

Eyni xəbərdə maraqlı bir hadisədən də belə bəhs edilirdi:

1998-ci ildə Stelak (Stelarc) adındakı avstraliyalı bir sənətkar bədəninə elekrodlar yerləşdirərək bir nümayiş təşkil etdi. Bədəni, əzələlərini istəksiz sıxılmalarla hərəkətə keçirilə biləcək kafilikdə elektrik şokları daşıyan elektrodlar ilə qapalı idi. Bu elektrodlar da bir kompyuterə bağlı idi və nümayiş əsnasında, internet vasitəsilə Paris, Helsinki və Amsterdamdakı kompyuterlərlə əlaqə quruldu. Bu üç bölgədəki iştirakçılar, toxunulmayan bir ekran üzərində görünən bədənin müxtəlif hissələrinə toxunaraq, Stelarca hər istədiklərini etdirə bilirdilər.

Bu və buna bənzər texnologiyalar çox kiçik ölçülərə endirilə bildiyi və doğrudan bədənin içinə yerləşdirilə bildiyi təqdirdə tibb sahəsində çox əhəmiyyətli kəşflərə yol aça biləcək xüsusiyyətdədir. Ancaq bu inkişafların göstərdiyi çox əhəmiyyətli bir həqiqət daha vardır: xarici dünyanın zehnimizdə izlədiyimiz bir surət olduğu…

Time jurnalının bu məqaləsində süni olaraq verilən xəbərdarlıqlarla görünüşün, toxunma hissinin və s. meydana gələ biləcəyinə dair praktik nümunələr təqdim edilmişdir. Məsələn, kor bir kimsənin görə bilməsi bunun ən açıq dəlilidir. Xəstənin gözü ya da görəcəyi bir əşya olmamasına baxmayaraq, süni olaraq verilən siqnallarla görməsi mümkün olmuşdur.

Elmi Jurnallar Filmlərdə İşlənən Simulyasiya Dünya Ssenarilərinin Həqiqi Həyat Üçün Də Mümkün Ola Biləcəyini İfadə Edirlər

Dünya miqyasında məşhur elm jurnalı "New Scientist"in 27 iyul 2002-ci il tarixli sayında da "Həyat bir proqramdır, o zaman silindiniz" başlığıyla nəşr olunan məqaləsində Maykl Bruks (Micheal Brooks), Matriks filmindəki kimi simulyasiya olan bir dünyada yaşaya biləcəyimiz ehtimalını bu sözlərlə gündəmə gətirir:

Matriks II–ni gözləməyinizə ehtiyac yoxdur. Onsuz da nəhəng bir kompyuter simulyasiyası içində yaşaya bilərsiniz… Əlbəttə ki, "The Matrix" filminin həqiqi olmadığını düşündünüz. Çünki yalnız elə düşünməyiniz istənildi.

Məqalənin yazıçısı Maykl Bruks (Micheal Brooks), Yale Universitetindən Nik Bostrom (Nick Bostrom) adında bir filosofun şərhlərinə

də yer verərək düşüncələrini dəstəkləyir. Nik Bostrom (Nick Bostrom), Hollivud istehsalı filmlərin, bir çox adamın düşündüyündən daha çox həqiqətə yaxınlaşdıqlarını düşünür. Bundan əlavə, etdiyi hesablar nəticəsində, bizim də filmlərdəki kimi bir simulyasiya olan dünya içində yaşamağımız ehtimalımızın olduğunu düşünür.

Xüsusilə son illərdə, maddənin əsliylə təmasda ola bilmədiyimiz həqiqətinin başa düşülməsiylə birlikdə, bu elmi həqiqət insanları daha dərin düşünməyə yönəldir. Filmlərə də tez-tez mövzu olan bu vəziyyət, fiziki həqiqəti olmayan mühitlərin, nə qədər həqiqi olaraq canlandırıla biləcəyini; hətta insanların bu xəyali görünüşlərə aldana biləcəyini də vurğulayır.

MADDƏNİN ARDINDAKI HƏQİQƏT

"Maddənin ardındakı həqiqət" mövzusu əslində yeni kəşf edilmiş, əvvələr bilinməyən bir mövzu deyil. Bu həqiqətə Quranın bəzi ayələrində işarə edilməklə yanaşı, həmçinin bu həqiqət, bəzi ayələrin daha yaxşı başa düşülməsində də əhəmiyyətli bir sirrdir. Tarix boyu Allahın göndərdiyi elçilər, dərin düşünən saleh möminlər bu həqiqəti cəmiyyətlərə açıqlamışdırlar.

Verdikləri bu açıqlamalardan bir hissəsinə aid mətnlər dövrümüzə qədər gəlib çatmışdır. Xüsusilə orijinal mətnləri təhrif edilən haqq dinlərin degenerasiyaya uğramış fərqli cərəyanları, bu həqiqəti bir sirr kimi mühafizə etmək istəmişdirlər. Dolayısilə yəhudilik və xristianlıq kimi dinlərə aid əldə qalan mətnlərdə də bu həqiqəti görmək mümkündür. Qədim yunan filosoflarından Pifaqor, Elea məktəbi, xüsusilə də **"Mağara ideası"**yla Platon və onlardan sonra gələn bir çox mütəfəkkir bu mövzunu bir cəhətdən açıqlamışdırlar. Daha sonrakı dövrlərdə də bu mövzu, müxtəlif görüş və şərhlərlə birlikdə, səmimi olaraq düşünüb həqiqəti görmüş kəslər tərəfindən izah edilmiş və öyrədilmişdir.

21-ci əsrə daxil olarkən, Eynşteyndən başlayaraq müasir fizika, kvant fizikası, astronomiya, psixologiya, anatomiya kimi elm sahələrində baş verən inkişaflar, materialist dünyagörüşünə sahib, köhnə elm anlayışını müdafiə edən ətrafları dərindən yaralamışdır. Paleontoloji tədqiqatlar, genetika elmi kimi sahələrdə görülən işlərlə təkamül nəzəriyyəsi çökmüş, optika, psixologiya kimi sahələrdə görülən işlərlə isə idrak prosesinin sirri açılmış, astronomiya sahəsindəki fəaliyyətlər nəticəsində Biq Bənq, yəni kainatın və maddənin bir başlanğıcı olduğu kəşf edilmiş, atom və atom altı zərrəciklərin araşdırılması isə bütün klassik fizikanı alt-üst edərək, relyativizmi, yəni zamanın nisbi bir anlayış olduğu həqiqətini sübut etmişdir.

Elm sahəsində Allahın varlığını və bütün kainat üzərindəki sonsuz hakimiyyətini dəfələrlə təsdiq edən bu inkişaflar, fanatizm və ön mühakimənin nümayəndəsi olan materialist mütəfəkkirləri çıxılmaz vəziyyətdə qoymuşdur. Bu çıxılmaz vəziyyət indi də davam dir. Televiziyada, məktəblərdə, konfranslarda bir çox elm adamı və mütəfəkkir, bizdən kənardakı dünya ilə təmasda olmağımızın qeyri-mümkün olduğunu, beynimizdə hiss edilən duyğulardan ibarət bir həyatı yaşadığımızı bildikləri halda, özlərini bilməməzliyə vurur, insanlara bu həqiqəti izah etmir, hətta, elə bil, heç belə bir həqiqət yoxmuş kimi hərəkət edirlər.

Ancaq həqiqətləri görməzlikdən gəlmək bir çıxış yolu deyil. Necə ki, bu kitabda həqiqətlərdən qorxmağın və qaçmağın nə qədər faydasız olduğu, insana nə kimi zərərlər verəcəyi vurğulanır və bu cür davranan kəslərin ruh halları nümayiş olunur.

Maddənin ardındakı sirri öyrənmək, Allahın varlığı, sifətləri, qədər, ruh, cənnət, cəhənnəm, sonsuzluq, zamansızlıq kimi anlayışların doğru şəkildə başa düşülməsini də təmin edəcək. Bu sayədə oxucular; "Allah haradadır?", "Qədər nədir?", "Ölümdən sonra nə baş verəcək?" kimi hər gün eşitdikləri

sualların cavablarını ən doğru şəkildə öyrənəcək və daha bir çox mövzuda axtardıqları cavabları bu kitabda tapacaqlar.

3 GÜNLÜK QARŞILIQLI SÖHBƏT HALINDA KEÇƏN GÖRÜŞ

MÖVZULAR:

Maddənin Həqiqəti
Allahın Varlığı
Sifətləri
Ruh
Cənnət
Cəhənnəm
Sonsuzluq
Zamansızlıq
Allah haradadır?
Tale (Qədər) Nədir?
Ölümdən Sonra Nə Baş Verəcək?

İŞTİRAKÇILARIN ADLARI:

Xədicə
Zəhra
Tural
Elvin

Qarşılıqlı söhbət halında keçən bu görüşdə iştirak edən oxuculardan birincisinin adı Xədicədir. Xədicə xanım bu mövzuyla çox yaxından maraqlandığı üçün, təmasda olduğu hər şeyin yalnız beyin tərəfindən qavranılan hisslər toplusundan ibarət olduğunu və bu hisslərlə təmasda olduğunu anlamışdır. Ancaq bu görüntülərin qaynağı mövzusundakı biliyini artırmaq, ən doğrusunu öyrənmək istəyir.

İkinci oxucunun adı isə Zəhradır. Zəhra xanım sahib olduğu hər şeyin bir xəyal kimi olduğunu, öldükdən sonra onların da bir yuxu kimi bitəcəyini öyrənmişdir. Amma tam qavraya bilmədiyi bəzi mövzularla əlaqədar cavablar axtarır.

Üçüncü oxucumuz Turaldır. Bu mövzunu bir dostundan eşidən Tural bəy, bəzi kitablar oxumuş amma mövzunu tam bilmədiyi üçün ağlında bir çox sual işarəsi qalmışdır. Bu mövzunun elmi istiqaməti onu çox maraqlandırır.

Oxucuların suallarını isə bu mövzunu illərlə bundan əvvəl Öyrən-Öyrət Yayımlama Mərkəzinin hazırladığı elmi kitablardan öyrənən, mövzu haqqında ətraflı məlumat sahibi olan Elvin cavablandırır.

1 - Cİ GÜN

Bu əhəmiyyətli söhbətin ilk günü, bir həftənin axırı şəhərdən kənardakı bir yay istirahət evində başlayır.

Elvin: *Bəli yoldaşlar, göndərdiyiniz məktublar sayəsində sizi yaxından tanıma imkanım oldu. Məktublarınızda çox münasib suallar vermişdiniz. Əslində bu sualların cavabları təxmin etmədiyiniz qədər açıq və aydındır. Söhbətimizin irəliləyən dəqiqələrində bunu siz də görəcəksiniz.*

İndi ilk sualı kim vermək istəyir?

Tural: *Mən mövzu barəsində elə də bir şey bilmədiyim üçün ən başdan başlamağı təklif edirəm. Oxuduğuma görə yaşadığımız həyatın bir görüntüdən ibarət olduğu və bizim xarici aləmdə mövcud olan dünya ilə heç vaxt təmasda ola bilmədiyimiz deyilir, elə deyilmi?*

Elvin: *Doğrudur!*

Tural: *Əvvəlcə bu görüntünü nə demək olduğunu izah etsən çox sevinərəm.*

Elvin: *Tural bəy, sən biologiya sahəsində mütəxəssissən, elə deyilmi?*

Tural: *Bəli!*

Elvin: *Bu mövzunu anlamaq üçün beş duyğu üzvünün necə fəaliyyət göstərdiyini bilmək kifayətdir. Tural bəy! Biz liseydə oxuduğumuz biologiya dərslərini xatırlayarkən, sən də bu mövzuda mütəxəssis olduğuna görə, bizə ilk öncə "görmə duyğusu" olmaqla beş duyğunun necə fəaliyyət göstərdiyini sadə şəkildə izah edə bilərsənmi?*

Tural: Texniki cəhətdən çox mürəkkəb və təfərüatlı bir sistem var. Bütün duyğu orqanları barədə tək-tək danışmağa çalışsaq bu saatlarla davam edər. Bütün duyğu orqanları çox mürəkkəb sistemlərə malikdir, məsələn, sadəcə eşitmə orqanı olan qulaq barəsində cildlərlə kitab yazılmışdır, ancaq bu mürəkkəb sistemi qısa şəkildə yekunlaşdırmaq, bunu və bütün beş duyğu orqanının hamısını xülasə halında izah etmək mümkündür.

Xarici aləmdən xəbərdarlıq siqnalı dediyimiz, yəni bizim sinir uclarımızı xəbərdar edən işıq, səs, dad, qoxu, sərtlik kimi xarici təsirlər, duyğu orqanlarımız olan göz, qulaq, dil, burun və dəriyə çatar. Burada ilk mərhələ başlayar, sinir ucları, bu xəbərdarlıq siqnalını qəbul edib sinirlər boyunca hərəkət edə biləcək bir elektrik siqnalına çevirər. İkinci mərhələdə isə bu elektrik siqnalları beynin bu mövzuyla əlaqəli görmə, eşitmə, iybilmə və ya dadbilmə mərkəzlərinə ötürülər. Son mərhələdə beyin bunları qəbul edərək müvafiq reaksiyanı verər.

Elvin: Təşəkkürlər, Tural bəy, çox gözəl izah etdin. Bəli sistem bu cür işləyir, ancaq xüsusilə qavrama mərhələsində, yəni hiss etdiyimiz şeyin nə olduğunu anlama mərhələsində sistem daha da mürəkkəb hal alır. Məsələn, biz burada otururuq və gölü seyr edirik, gölə və ətraf mühitə aid görüntü siqnalları, ətrafdan gələn çiçək qoxuları, eşitdiyimiz quş səsləri, oturduğumuz masanın sərtliyi kimi görüntü meydana gətirən saysız incəliklər bir yerə toplanır, yaddaşımızda saxlanmış məlumatlarla müqayisə edilir və olduğumuz mühit beynin əlaqəli mərkəzində mənalı bir hal alır. Tural bəy

indi bizə deyə bilərsənmi ki, məsələn, bu qarşıdakı ağacı görəndə necə bir əməliyyat baş verir?

Tural: Çox sadədir, ağaca aid məlumatlar, yəni ağacın rəngi, uzaqlığı, ölçüləri işıq sayəsində gözümə gəlib çatır. Bu məlumatlar gözün daxili hissəsində elektrik siqnalına çevrilərək sinir hüceyrələrinə çatdırılır, sinir hüceyrələri də bu məlumatları beynin görmə mərkəzinə ötürürlər. Görmə mərkəzinə çatan bu siqnalları da beyin bir ağac kimi qavrayır.

Elvin: Yəni bu ağac hal-hazırda sənin qabağında dayanır, yoxsa beynindəki görmə mərkəzində?

Tural: Əlbəttə ki, beynimdəki görmə mərkəzində.

Zəhra: *Bir dəqiqə. Yaxşı, ağacın görüntüsü mənim beynimdə ola bilər, amma ağac da qabağımda dayanır! Yəni gedib o ağacdan bir meyvə qoparda bilərəm və ya ağaca söykənib kölgəsində otura bilərəm, elə deyilmi?*

Elvin: *Dostlar, xahiş edirəm tələsmədən mövzuları ardıcıllıqla analiz edək. Bir qədər düşünək; ağacı ağac edən hər şeyi, yəni rəngini, budaqlarını, yarpaqlarını beynimizin görmə mərkəzində olduğunu dərk edirik, ağaca toxunduğumuzda və ya ondan bir meyvə qopardığımızda həmişə beş duyğu üzvümüzün, yəni görmə, eşitmə, dadbilmə, toxunma və iybilmə duyğularını beynimizə çatdırdığı görüntünü, səsi, dadı, qoxunu və toxunma hissini yaşayarıq. Heç vaxt hisslərimizdən kənar bir şeylə təmasda ola bilmərik. Yəni görmə duyğumuz olmasa görə bilmərik, eşitmə duyğumuz olmasa eşidə bilmərik. Əslində bütün həyatımızı beş duyğumuz vasitəsiylə beynimizdə hiss etdiyimiz şeylər meydana gətirər.*

Zəhra: *Yaxşı, bunu qəbul edirəm, amma, budur baxın bu ləzzətli kekslərə əlimi uzadıb onlardan götürürəm və nuşcanlıqla yeyirəm. Mən bu keksi yediyimə və hətta bu keks mənə enerji verdiyinə görə bunun əsli ilə təmasda ola bilmirəm demək, doğru ola bilərmi? Biz əsli ilə təmasda olmadığımız bir şeydən belə bir dad ala bilərikmi?*

Elvin: *Əslində bir qədər əvvəl ağac nümunəsində bunun cavabını vermişdik. Yəni keks də, ağac da, masa da sizin beyninizdəki duyğu mərkəzindədir. Amma narahat olmayın! Bir qədər sonra verəcəyimiz nümunələr bu mövzuya daha da aydınlıq gətirəcək!*

İndi qısa şəkildə yekunlaşdırmalı olsaq: Biz həyatımız boyunca beynimizin içində yediyimiz keksin dadını və ləzzətini bilir, beynimizin içindəki bədənin bu yeməkdən aldığı enerjindən istifadə edirik. Eynilə beynimizin içindəki ağacın, beynimizin içindəki meyvəsini qopardar və beynimizin içindəki ağacın beynimizin içindəki kölgəsi altında sərinlik hiss edərik. Dünya haqqında bildiyimiz hər şey duyğu üzvlərimizin bizə çatdırdığı siqnallardan ibarətdir. Bu siqnalların beynə daşıdığı məlumatlar istisna olmaqla; "görəsən bunların əsli necə bir şeydir, əslləri ilə bizim gördüklərimiz tamamilə eyni xüsusiyyətə sahib ola bilərmi?" kimi suallara heç vaxt cavab verə bilmərik; çünki duyğularımızın hüdudlarını aşaraq kənara çıxmağımız qeyri - mümkündür. Buna görə də ömrümüz boyunca

beynimizin içində, duyğu orqanlarıyla qavranılan bir dünyanı seyr edərik. Baxın, tanınmış filosof Rassel də, "Fəlsəfənin problemləri" adlı kitabında, bu problemlə qarşılaşdıqda ortaya necə bir vəziyyət çıxdığını belə vurğulayır:

"Daha da irəli getmədən, indiyə qədər kəşf etdiklərimizi qiymətləndirmək yaxşı olar. İndiyə qədər məlum oldu ki, duyğu orqanlarımız tərəfindən necə olduğunun bilindiyi fərz edilən hər hansı bir obyekti ələ aldığımız vaxt, duyğu orqanlarımızın bizə bilavasitə ötürdüyü məlumatlar, bizdən asılı olmayan bir obyekt barəsindəki həqiqət deyil, biz və obyekt arasındakı əlaqələrə bağlı, duyğu orqanlarındakı məlumatlar həqiqətdir. Buna görə də, bilavasitə gördüyümüz və hiss etdiyimiz şey, ancaq bir 'görüntü'dür və biz bu görüntünün arxada dayanan bir 'həqiqətin' əlaməti olduğuna inanarıq. Amma əgər həqiqət, gördüyümüz şey deyilsə, bir həqiqət olduğunu bilməyimiz mümkündürmü?" (Bertrand Russell, Felsefenin Problemleri, 1912, s.7)

Xədicə: *Bir nümunə verə bilərəmmi? Mənim kompyuter mühəndisliyi bölməsində təhsil aldığımı bilirsiniz, buna görə də, bu mövzuya heç də yad olmadığımı, ehtimal ki, təxmin etmisiniz. Bu mövzu mənim maraq dairəmə daxildir. Bəlkə də, bizə bir qədər gec gəlib çatır, amma texnologiyanın yüksək inkişaf etdiyi ölkələrdə əyləncə və təhsil sahəsi üçün bir çox alət hazırlanılır. Bunların içində böyük pay sahibi olan, insan beynində üç ölçülü görüntü meydana gətirən kompyuter proqramlarından istifadə olunduğunu siz də bilirsiniz. Bu gün bütün uşaqların başından durmadığı üç ölçülü kompyuter oyunlarının yaradılmasındakı əsas məqsəd, beş duyğu orqanına təsir edərək uşaqlara xəyali bir mühitdə real həyat yaşandığı təəssüratı verməkdir. NASA-dakı astronavtlardan memarlara, mühəndislərə qədər bir çox peşə sahəsində təhsil, simulyasiya deyilən üç ölçülü görüntülərlə həyata keçirilir. Bu simulyasiyalarla keçirilən uçuş təhsilindəki bir pilot real hava şəraitiylə kompyuterin ona yaşatdığı xəyali hava şəraitini ayırd edə bilmir. Seyr etdiyimiz xarici elmi-fantastik filmlərin böyük bir hissəsi, insan həyatının görüntülərdən meydana gəlməsini və ya beyində yaradılan virtual aləmləri mövzu olaraq götürür.*

Tural: *Xədicə xanım düz deyir! Elm dünyasındakı vəziyyət də, bundan fərqli deyil. Beş-on il bundan əvvəl elə də əhəmiyyət daşımayan bu mövzu, bu gün çox əhəmiyyətli bir hal aldı. Bu sahədə o qədər böyük işlər görülmüşdür ki, heç olmayan bir dünyanı kompyuterdə elektrik siqnalı halında meydana gətirib insanlara bu siqnallarla istənilən görüntünü seyr etdirib yaşatmaq getdikcə asanlaşır. İnsanlar da buna çox öyrəşiblər. Fizika, atom və biologiya sahələrində aparılan böyük tədqiqatların böyük bir hissəsini də bu mövzu təşkil edir.*

Elvin: Çox haqlısınız! Texnologiyadakı inkişaflar insanın bu mövzunu daha tez anlamasını təmin edəcək yeni nümunələr ortaya qoyur. Ancaq bunu da ifadə etməliyəm ki, səmimi və qərəzsiz şəkildə baxdıqda, bu mövzunu qavramaq olduqca asandır. Verdiyiniz bu nümunələri bilməsək belə bir şey dəyişməz, çünki vəziyyət olduqca açıqdır. Daha əvvəl bu mövzu üzərində heç düşünməmiş və ya bu mövzudan heç xəbəri olmamış bir insanın

öyrəndikləri qarşısında ilk anda bir qədər əks reaksiya verməsi mümkündür. Doğulduğumuz andan etibarən həqiqət kimi qəbul etdiyimiz bir şeyin izahının, əslində bizim bildiyimizdən olduqca fərqli olduğunu öyrənmək, bəzi insanların müxtəlif reaksiyalar verməsinə səbəb ola bilər. Ancaq adamın əsl məqsədi həqiqətləri öyrənməkdirsə, onda qarşı çıxmadan onları qəbul etməlidir.

Buna görə də, hər gün yaşadığımız nümunələr sayəsində, bu həqiqəti daha yaxşı qavrayacağıq. Həmçinin mövzunun texniki cəhətdən izah olunması kifayət etməz. Bununla yanaşı, bizi necə nəticələrə gətirdiyinə də baxmalıyıq.

Zəhra: Əslində mən indiyədək izah etdiklərinizi çox yaxşı anladım. Amma sizin də qeyd etdiyiniz kimi, bu mövzunun bizi hara aparacağı məni çox maraqlandırır. İnsanın bir anda bu qədər yad olduğu mövzuya alışması bir qədər çətin olur.

Elvin: Məncə də, hamınız içində olduğumuz vəziyyəti çox yaxşı anladınız, bu onsuz da, başa düşülməsi, elə də çətin bir şey deyil. Elmi cəhətdən də qəbul edilmiş açıq bir həqiqətdir. Ancaq bu mövzu sizdə qəti qənaət yaratmalıdır, buna görə də, mövzunu başqa bir aspektdən də analiz edək. Xədicə xanım, indi bizə, sənə çox təsir edən və görüb də unuda bilmədiyin, bir yuxu barədə danışa bilərsənmi?

Xədicə: Hələ dünən axşam bir yuxu gördüm və o mənə çox təsir etdi: ...Meşədə vəhşi heyvanların hücumuna məruz qalıram. Ölüm qorxusuyla meşədəki cığırlarla var gücümlə qaçdığım vaxt, ayağım kollara ilişir və yıxılıram. Buna görə də heyvanlarla aramdakı məsafə daha da azalır. Meşədəki bir daxmaya girirəm. Qapını örtürəm və içəridən bağlayıram. Lakin vəhşi heyvanlar pəncərədən girməyə çalışırlar. Orada əlimə keçirdiyim dəmir çubuqla ümidsiz şəkildə özümü müdafiə etməyə, vəhşi heyvanları qovalamağa çalışıram. Tam bu əsnada çöldən gələn şeypur səsinə oyandım. Dərindən nəfəs alıb gördüyüm şeyin yuxu olduğuna şükr etdim.

Elvin: *Yaşadığımız həyatla, yatdığımız vaxt gördüyümüz yuxular arasında nə fərq var? Bəlkə də, bunu heç düşünmədiniz, hətta bu ağlınıza belə gəlmədi, amma yuxular bu mövzunu anlamaqda bizə çox yardım edəcək. Bir yuxu, bizə çox təsir etsə belə, gündəlik həyatdakı işlərlə məşğul olduğumuz andan etibarən həm öz təsirini, həm də aydınlığını itirir. Bir qədər əvvəl qan tər içində qalaraq kabusdan oyanan bir insan, beş dəqiqə sonra səhər yeməyini yeyərkən, yuxunun sarsıdıcı təsirindən xilas olmuş vəziyyətdədir və ya gözəl bir yuxu görərkən məktəbə getməsi üçün oyandırılan bir uşaq, üzünü yuyarkən yuxudakı xoşbəxtliyini çoxdan itirmiş vəziyyətdədir.*

Yuxudakı hadisələr bəzən o qədər təsirli olur ki, insanlar oyandıqları vaxt bəzi hallarda yaşadıqlarının həqiqət olub-olmadığı barədə düşünürlər. Əslində oyandıqdan sonra yaşadığımız həyatla, yatdığımız vaxt gördüyümüz yuxular arasında texniki cəhətdən heç bir fərq yoxdur. Bir insan yuxu əsnasında, oyanıq olarkən etdiyi şeylərin hamısını edə bilər; danışar, yemək

yeyər, nəfəs alar, qaçar, gülər, ağlayar, yaralanar, nəhayət avtomobili idarə edər. Gündəlik həyatının bir surəti olan yuxu mühitində hər şey onsuz da bildiyi və vərdiş etdiyi halıyla mövcuddur. Buna görə də, yuxudakı hadisələrə, elə bil, onlar həqiqətmiş kimi reaksiya verir. Bəzən qorxu dolu bir yuxudan qışqıraraq oyanar, bəzən də gördüyü gözəl bir yuxudan heç oyanmaq istəməz.

Zəhra: Mən də keçən ay reallığa bənzər bir yuxu görmüşdüm. Yuxumda yüksək sürətli katerlə dənizin sularını yara-yara sahili dövr edirdim. Qonşular dəniz kənarında toplanmış halda, yeni aldığım kateri heyranlıqla seyr edir, mən də onları riqqətləndirmək üçün daha çox qaza basırdım. Dənizin qoxusunu, katerin sürətindən əmələ gələn güclü küləyi nə qədər aydın hiss etdiyimi çox yaxşı xatırlayıram. Katerin sürəti yüksək olduğu üçün yer-göy katerin uğultusuyla inləyirdi. Kater dövr etdikcə dənizin suyu hərdənbir üstümə sıçrayır, mən də eynəyimin şüşəsinə düşən su damlalarını silmək məcburiyyətində qalırdım. Kateri tam sürətlə idarə edərkən, altı bir qaya parçasına dəydi və kater batmağa başladı. Özümü dənizə atdım və zor-bəla sahilə qədər üzərək xilas oldum. Oyandığımda isə yuxunun təsirindən qan tər içində qalmışdım, uzun bir müddət katerə belə minə bilmədim.

Elvin: Yuxuda yaşadığımız hadisələr necə də realdır, elə deyilmi? İndi yuxularınızdakı təfərrüatları xatırlamağa çalışın. Məsələn, Zəhra xanım, katerlə gedərkən hiss etdiyiniz təfərrüatları; səsləri, rəngləri, qoxuları, hətta yuxuda yaşadığınız qorxu, aclıq, sevinc, sevgi kimi hissləri, oyanıq vaxtda yaşadığınız hallarından ayırd edə bilərsinizmi?

Zəhra: *Yəqin ki, edə bilmərəm.*

Tural: *Sizi bilmirəm, amma mən keçən gün gördüyüm yuxuyla, real həyatı bir-birinə qarışdırdım. Həmin axşam erkəndən yatmaq istəyirdim, çünki sabahısı gün ailəcə İstanbul adalarına yemək yeməyə gedəcəkdik. Bacım da öz otağına yatmağa getdi. Yorğun olduğum üçün dərhal yuxuya getdim. Yuxumda bacımdan yeni köynəyimi yumasını və ütüləməsini xahiş etdim. O da həm şalvarımı ütülədi, həm də köynəyimi yuyub ütülədi. Bütün mərhələlərini gördüyüm bu hadisələri daim yaxından izləyir və onlara şahid olurdum. Səhər yuxudan oyandığımda, bacım, artıq istədiklərimi yerinə yetirmişdi. Səhər oyandığımda gördüklərimin yuxu, yoxsa həqiqət olduğundan tam əmin ola bilmədim. Yəni görəsən həqiqətən bacım əşyalarımı ütüləmişdi, yoxsa bunlar bir yuxu idi? Bir qədər düşünüb həqiqət olduğuna qənaət gətirdim və gedib bacıma təşəkkür etdim. Bacım təəccüblənəndə başa düşdüm ki, bunların hamısı yuxumda baş vermiş bir hadisə idi. Dərhal sözü dəyişdirdim.*

Elvin: *Bəli, çox düz deyirsən, bəzən yuxular o qədər real olar ki, insan onları real həyatla qarışdırar. Həmçinin bunu təkrar-təkrar xatırlatmaq istəyirəm: Yuxu görərkən hiss etdiklərimizlə, oyandıqdan sonra hiss etdiklərimiz arasında heç bir fərq yoxdur. Hər iki vəziyyətdə də eyni xəbərdarlıq siqnallarına eyni reaksiyaları veririk. Yəni yemək yedikdə dadını hiss edər və doyar, təhlükəli bir vəziyyətdə qorxub qaçar, şən vəziyyətdə*

gülüb əylənərik. Bəzən qəribə hadisələr yaşasaq da, hisslər heç dəyişməz.

Zəhra: Bəli, bu fikirlə tam razıyam. İndinin özündə belə dənizdə üzərək xilas olmağa çalışdığım vaxt, suyun nə qədər soyuq olduğunu xatırlayır və hətta hiss edə bilirəm.

Elvin: Ancaq bütün bunlardan daha da maraqlısı, yuxularımızda yaşadığımız bu hadisələri necə gördüyümüzdür. Tural bəy, sən yuxularımızı harada gördüyümüzü deyə bilərsənmi?

Tural: Bu sualın cavabı çox asandır. Əlbəttə ki, yuxuları da beynimizdə görürük. Yəni gündəlik həyatda necə ki, hər şeyi beynimizdəki duyğu mərkəzlərində yaşayırıqsa, yuxuda da bu şəkildə yaşayırıq. Texniki cəhətdən bir fərq yoxdur.

Elvin: Bura qədər izah edilənləri eşitdiniz. Yaxşı, Zəhra xanım siz deyin, gecə gözümüz yumulu olduğu halda, qaranlıq beynimizin içində bu qədər aydın və rəngli bir dünya necə meydana gəlir? Günəş necə parlayır, çiçəklər necə rəngarəng, dəniz necə gömgöy olur və gözümüz yumulu olduğu halda, bunları necə görə bilirik? Görmək üçün gözə ehtiyacımız yoxdurmu?

Zəhra: Bu suallara verə biləcək cavabım yoxdur. Nə demək istədiyini başa düşmədim. Bir qədər əvvəl izah etdiyim yuxu da buna dəlilidir.

Elvin: *Bizə kənardan bir xəbərdarlıq siqnalı gəlməsə və ya digər bir sözlə, dünya dediyimiz şeyə aid xəbərdarlıq siqnalları, yəni işıq, rəng, ölçü kimi xüsusiyyətlər bilavasitə duyğu orqanlarımıza gəlib çatmasa da görüb hiss edə bilərik. Bütün bu qavrama əməliyyatları əsnasında bir dünyanın meydana gəlməsi üçün, duyğu orqanlarının kənardan gətirdiyi siqnallara ehtiyacımız yoxdur. Çünki nə görən göz, nə də eşidən qulaqdır. Məsələn, bütün bu hisslər süni şəkildə yaradılıb bilavasitə beynimizin əlaqədar mərkəzlərinə ötürülsə, heç olmayan bir keksi yeyər, heç olmayan bir ölkəyə gedər, heç olmayan bir çiçəyi iyləyər və bunların xəyal olduğunu da anlaya bilməzdik.*

Zəhra: *Necə yəni?*

Elvin: *Məsələn doyduğumuz vaxt mədəmiz beynimizə bir siqnal göndərərək dolduğunu bildirər. Əgər biz eyni siqnalı heç yemək yemədən beynə göndərsəydik, yenə özümüzü doymuş hiss edərdik. Bir qədər əvvəlki nümunədə olduğu kimi, bir ağaca baxdığınızı fərz edin. Gözünüz ağacla əlaqədar beynə siqnallar göndərər. Bunların eynisini biz süni şəkildə yaradıb əlaqədar sinirlərə ötürsəydik, gözə ehtiyac olmadan da yenə eyni ağacı görərdiniz.*

Tural: *Əslində bir qədər əvvəl verdiyimiz virtual dünyaya aid nümunələr bu mövzunu tam şəkildə izah edir. Baxın mən bu mövzunu bir qədər daha genişlədib bir neçə nümunə daha verim, mükəmməl şəkildə başa düşülməsi üçün.*

Bildiyiniz kimi, texnologiyanın inkişafıyla birlikdə simulyator deyilən sistemlər bir çox sahədə istifadə olunmağa başlandı. Taxılan eynəkli kaska və əlcək əlaqəsiylə xəyali bir mühit yaradıla bilir və bunlardan istifadə edən adam bu mühitləri eynilə həqiqətmiş kimi yaşaya bilir. Simulyatorlarda

adamın əlinə keçirdiyi əlcək, içindəki mexanizmin təsiriylə barmaq uclarından beynə siqnallar göndərir və bu siqnallar nəticəsində adam, məsəl üçün, bir pişiyə toxunduğunu zənn edir. Ancaq bu mexanizmin bənzəri başına keçirdiyi kaskada da var. Mükəmməl qavrama prosesinin təmin edilməsi üçün, kaskadan adamın beyninə siqnallar gedir və bu siqnallar nəticəsində beyində pişiyin görüntüsü əmələ gəlir. Bununla yanaşı adama pişiyin səsi də dinlədilir. Beləliklə də, həm görüntü, həm səs, həm də toxunma hissiylə mükəmməl qavrama prosesi baş verir. Ortada tək bir pişik belə olmadığı, adam həqiqətən bir pişiklə qarşı-qarşıya olduğunu zənn edir.

Zəhra: *İndi anladım!*

Xədicə: Mən də anladım. Bir düşünün, danışdığım yuxunu görərkən biri yuxuma girsə və mənə: "Qorxma, bir yuxu görürsən, bunların heç biri həqiqət deyil, hal-hazırda yatağında yatırsan, beyninin içindəki şeyləri seyr edirsən" desə, onu pis şəkildə acılayar, vaxtımı aldığı üçün də hirslənərdim. Bəli indi daha yaxşı anlayıram, gecələri yuxuda gördüyüm görüntülərlə, oyandığım vaxt görməyə davam etdiyim görüntülər arasında həm elmi, həm də məntiqi cəhətdən bir fərq yoxdur. Onsuz da kompyuterlərlə, simulyatorlarla belə üç ölçülü və həqiqi görüntülər əldə edib, heç olmayan bir mühiti insanlara yaşatmaq, artıq adi bir hal almışdır.

Bu, mənə keçən gün seyr etdiyim bir filmi (The Matrix) də xatırlatdı. Bəlkə siz də seyr etmisiniz. Filmin mövzusu hal-hazırda danışdığımız nümunəylə eyni idi. Filmin qəhrəmanları bir maşına bağlanıb kompyuterin köməyi ilə özlərini çox müxtəlif məkanlarda, çox müxtəlif şeylər edərlərkən görürdülər. Məsələn, bir idman salonunda uzaq şərq idmanları etdiklərini zənn edirdilər. Amma həmin anda dar bir otaqda, bir kresloda otururdular. Üstəlik filmin bir hissəsində bir oyunçu baş roldakı adama gördüyü şeylərin əslində görüntü olduğunu, həmin anda bir kompyuterə bağlanmış olduğunu, gəzdikləri şəhərin hər yerinin və insanların, kompyuter tərəfindən hazırlanmış görüntülər olduğunu başa salmağa çalışırdı. Filmdəki qəhrəman inanmadıqda isə, kompyuter görüntünü tamamilə dondurur və beləliklə də, kinoaktyorda qənaət yaranırdı.

Tural: *Bəli, o filmi mən də seyr etdim, amma heç bu cəhətdən düşünməmişdim.*

Zəhra: *Elvin bəy, mən də anladım, amma bu mövzunu bir qədər də aydınlaşdıra bilərsənmi? Nə qədər çox nümunə versəniz o qədər yaxşı aydın olar!*

Elvin: *Əlbəttə! Bax indi, sənin yuxuna qayıdaq, yuxunda dənizdə üzərkən suyun soyuqluğunu, suyun qaldırma qüvvəsini, ağzına girən dəniz suyunun duzluluğunu, dənizin qoxusunu, suda üzdüyün vaxt yaranan yorğunluq hissini, dalğaların, qağayıların səsini, suda üzdüyün vaxt sudan çıxan səsləri, üzərkən suda yaranan dalğalanmanı, əmələ gələn köpükləri və daha yüzlərlə, minlərlə şeyin hamısını eyni anda hiss etmədinmi?*

Zəhra: *Bəli.*

Elvin: *Bu qədər çox və alışdığın bu şeylərdən ötrü görüntünün həqiqət*

olduğuna tam razı qaldın, elə deyilmi?

Zəhra: *Bəli.*

Elvin: *Məhz dünya həyatı da yuxudakı hisslər toplusu kimi, hətta daha da çox inandırıcıdır. Bizə o qədər çox, təfərrüatlı və aydın xəbərdarlıq siqnalları gəlib çatır ki, bir çox adam, əks ehtimalı belə düşünmədən, ömrünün sonuna qədər gördüyü hər şeyin əsliylə təmasda olduğunu zənn edərək yaşayır. Ta ölənə qədər... Halbuki eyni şey yuxu üçün də keçərlidir. Bayaq da danışdıq, yuxunda da girdiyin dənizin, oturduğun kreslonun əsliylə təmasda olduğunu zənn edirsən. Bir sözlə, yaxşı şəkildə düşünsən, yuxunda yaşadığın şeylərin də, oyandıqdan sonra yaşadığın həyatın da eyni görüntülərdən ibarət olduğunu anlayarsan.*

Zəhra: *Bunu anlayıram, amma yuxudan oyandıqdan sonra dünyaya geri qayıdıram. Yəni həqiqi dünyaya, mən yuxu görərkən o olduğu yerdə dayanır. Buna görə də, hisslərdən kənardakı maddi dünyanın varlığı ortada deyilmi?*

Elvin: *Əslinə baxanda, maddi dünya dediyimiz şey, haqqında heç bir məlumatımız olmayan, necə bir şeyə bənzədiyini də heç vaxt öyrənə bilməyəcəyimiz bir məkandır. Hisslərimizdən başqa, maddəni biz heç vaxt görə bilmərik və ona toxuna bilmərik. İnsan dünyaya göz açdığı gündən etibarən daim hisslərlə təmasda olar; məktəbini, ailəsini, oyuncaqlarını, yediyi yeməyi, mindiyi avtomobili, dostlarını, qarşısındakı gözəl bir mənzərəni, evini, otağını, işyerini, yəni həyatını meydana gətirən hər şeyi beynində seyr etdiyi halıyla bilər. İnsan hisslərindən əsla kənara çıxa bilməyəcəyi üçün, xarici aləmdə nə var deyə gedib baxması, görməsi də qeyri -mümkündür. Buna görə də, əslində hər insan ömrü boyu beyninin içindəki dünya görüntüsüylə təmas halında yaşayar.*

Zəhra: *Amma insanlar Aya gedir və ya mən təyyarəyə minib başqa şəhərə gedə bilirəm, deməli, məsafə məhfumu var!*

Elvin: *Əslində məsafə, dərinlik, böyüklük kimi anlayışlar da görüntünün bir hissəsini təşkil edir. Bunu sadə nümunələrlə anlamaq mümkündür. Gecə yuxunda Ayı və ulduzları görə bilirsənmi? Və ya danışdığın yuxuda olduğu kimi gəmiyə minib gəzə bilirsənmi?*

Zəhra: Bəli…

Elvin: Yuxunda gördüyün ulduzlarla, oyanıq vaxtı gördüyün ulduzlar səndən eyni uzaqlıqda yerləşmirmi?

Zəhra: Bəli, amma…

Tural: Mən cavab verə bilərəmmi? Bunu optika dərsində oxumuşduq! Məsafə dediyimiz şey bir növ üç ölçülü görmə formasıdır. Görüntülərdə məsafə və dərinlik hissini oyandıran şey perspektiv, kölgə və hərəkət dediyimiz ünsürlərdir.

Elvin: Çox doğrudur! Optika elmində boşluq (space) qavrayışı deyilən, bu qavrayış forması da rəng qavrayışı kimi çox mürəkkəb sistemlərə malikdir, amma sadə dillə izah etmək lazımdırsa bunu söyləyə bilərik: Əslində gözümüzə gəlib çatan görüntü yalnız iki ölçülüdür. Yəni hündürlük və genişlik ölçülərinə malikdir. Göz bülluruna gəlib çatan görüntülərin

ölçüləri və iki gözün eyni anda iki fərqli görüntü görməsi dərinlik və məsafə hissini meydana gətirər. Yəni bizim bir gözümüzə düşən görüntü digər gözə düşən görüntüdən düşmə bucağı, işıq kimi ünsürlər baxımından fərqlənir. Beyin bu iki fərqli görüntünü vahid formaya gətirərək dərinlik və məsafə hissini meydana gətirər.

Bunu daha yaxşı anlamaq üçün bir təcrübə aparaq. Tural bəy sən təcrübə obyekti ola bilərsənmi?

Tural: Məmnuniyyətlə!

Elvin: Əvvəlcə sağ qolunu xeyli irəli uzad və şəhadət barmağını göstər. İndi gözlərini barmağına zilləyib növbəylə sağ və sol gözlərini yumub aç. İki gözünə iki müxtəlif görüntü gəldiyi üçün barmağının yavaş şəkildə yer dəyişdirdiyini və ya sürüşdüyünü görəcəksən. İndi gözünü sağ şəhadət barmağına zilləməyə davam edib, sol şəhadət barmağını mümkün qədər gözlərinə yaxınlaşdır. Yaxındakı barmağının cüt görüntü meydana gətirdiyini görəcəksn, bu isə qavrayış sistemində uzaqdakı barmağından fərqli bir dərinlik meydana gəldiyinin dəlilidir. İndi bu vəziyyətdə, gözlərini növbəylə yumub açsan yaxındakı barmağın daha çox yer dəyişdirdiyini görəcəksən, çünki iki gözə düşən görüntülər arasındakı fərq artmışdır.

Tural: *Bəli düz deyirsən!*

Xədicə: *Mən də elədim. İndi ağlıma gəldi, 3D formatlı filmlər çəkilərkən də bu texnikadan istifadə edilir; iki fərqli formada çəkilən görüntü eyni ekran üzərində əks etdirilir. Tamaşaçılar rəng filtri və ya polyarizə filtrə sahib xüsusi eynək taxırlar. Eynəyin şüşəsindəki filtrlər iki görüntüdən birini qəbul edir, beyin isə bunları birləşdirib üç ölçülü görüntü halına gətirir, elə deyilmi?*

Elvin: *Doğrudur! İndi başqa bir təcrübə aparaq. Xədicə xanım, bir gözünü yumub ətrafına baxarsanmı? Dərinliyi qəbul etməyə davam edirsən, elə deyilmi? Bəs üç ölçülü görünüş kimi, iti bir qavrayış, iki ölçülü görüntünü qəbul edən tək bir torlu qişada necə meydana gələ bilir?*

Bunun cavabı, tək gözlə baxıldığında aydın olan dərinlik ünsürlərindədir.

İki ölçülü görüntüləri qəbul edən torlu qişada dərinlik hissinin yaranması, iki ölçülü rəsmdə həqiqi dərinlik hissi meydana gətirməyə çalışan rəssamın istifadə etdiyi texnikaya çox bənzəyir. Bəzi rəssamlar bu dərinlik hissini çox müvəffəqiyyətlə meydana gətirirlər. Dərinlik hissini meydana gətirən bəzi əhəmiyyətli ünsürlər vardır, bunlar: obyektlərin üst-üstə yerləşməsi, atmosfer perspektivi, toxuma dəyişikliyi, xətti perspektiv, ölçü, hündürlük və hərəkətdir.

Elvin: *Üst-üstə düşən görüntülər dərinlik hissinin meydana gəlməsində çox əhəmiyyətli bir ünsürdür. Zəhra xanım təcrübə aparmaq sırası sizdədir. İndi bu iki qələmdən birini bir əlinizə, digərini də o biri əlinizə alın. Gözlərinizdən bir qədər uzaqda tutun, amma üst-üstə düşməsinlər. İndi bir qələmi azacıq uzaqlaşdırın və bir gözünüzü yumun. İki gözlə baxmadıqda hansının daha uzaqda olduğunu anlamaq nə qədər çətindir, elə deyilmi?*

Zəhra: *Bəli haqlısan!*

Elvin: İndi bir gözünüz yumulu halda, iki qələmi bir-birinə yaxınlaşdırın və birini digərinin üstünə gətirin, indi dərinlik və məsafə daha asan ölçülür, elə deyilmi?

Zəhra: Doğrudur!

Elvin: Çox tanınmış bir amerikalı psixoloq James J. Gibson, struktur dəyişikliyinin dərinlik hissində nə qədər əhəmiyyətli rol oynadığını ilk dəfə başa düşənlərdəndi. Gəzdiyimiz zəmin, yol və ya çiçəklərlə dolu bir tarla əslində bir toxumadır. Bizə yaxın toxumalar daha təfərrüatlı, uzaqdakılar isə daha sadə kimi görünər. Buna görə də, bir toxuma üzərinə yerləşdirilən obyektlərin uzaqlığı haqqında mühakimədə yürütmək daha asandır.

Xədicə: Sən bunu deyən vaxt, dünən gördüyümüz günəbaxan tarlası ağlıma gəldi, bütün bunları cəm etdiyim vaxt, tarlanın mənə niyə ucsuz-bucaqsız göründüyünü daha yaxşı qavradım.

Elvin: Həmçinin burada kölgə və işıq ünsürləri də dövrəyə girərək üç ölçülü görüntünü tamamlayar. Məsələn, rəssamların çəkdikləri rəsmləri heyranlıqla seyr etməyimizin səbəbi, kölgə və perspektiv ünsürlərindən istifadə edərək rəsmə verdikləri dərinlik və realizm hissidir. Perspektiv, uzaqdakı cisimlərin baxan adama görə yaxındakı cisimlərlə müqayisədə daha kiçik görünməsindən qaynaqlanır. Məsələn, bir mənzərə rəsminə baxdığı vaxt, uzaqdakı ağaclar kiçik, yaxındakı ağaclar böyük görünər və ya rəsimdə, arxa plandakı dağ görüntüsü ön planda yerləşən insan görüntüsündən daha kiçik çəkilər. Xətti perspektivdə isə rəssamlar paralel xəttlərdən istifadə edərlər. Məsələn, qatar relsləri üfüq xəttində birləşərək məsafə və dərinlik hissini meydana gətirər.

Xədicə: Nəticədə məsafə və dərinlik dediyimiz şeyin də beynimizdə yaranan bir hiss olduğu ortaya çıxdı!

Elvin: Doğrudur, məhz görüntüdə, bu ünsürlərdən üstün bir elm və sənətlə istifadə edilmiş olması və saysız təfərrüatın bir yerdə cəmləşməsi nəticəsində, ortaya hisslərimizdən ibarət, amma çox həqiqi və inandırıcı bir dünya ortaya çıxır.

Zəhra: Yəni şey kimi mi? Əvvəllər ağ-qara rəngli televizorlarda qarlı cisimlərə aid görüntüləri seyr edərdik, amma o qədər də diqqəti cəlb etməzdi, indi kinoteatra getdikdə yaxşı çəkilmiş bir kinofilm nümayiş etdirilərsə, həmin kinofilm insanı özündən alıb aparır və insan sanki həqiqətmiş kimi hiss edir. Keçən gün ailəcə dinozavrlardan bəhs edən 3D formatlı bir kinofilmə baxmağa getdik, filmi seyr etməyimiz üçün bir ədəd 3D formatlı eynək verdilər, mən belə, dinozavrları canlı zənn etdim, hələ, uşaqları heç razı sala bilmədim. Sanki canavarlar səhnədən çıxıb üzərimizə gələcəkdi.

Elvin: *Bəli Zəhra xanım, haqlısınız. Bir görüntüdəki incəliklər, yəni işıq, kölgə, ölçülər, nə qədər mükəmməl olsa, həmin görüntü o qədər gerçək olar və duyğularımızı aldadar. Beləliklə də, biz üçüncü ölçü olan dərinlik və məsafə varmış kimi hərəkət edərik. Halbuki bütün görüntülər hər hansı filmin müəyyən bir kadrı kimi tək bir səth üzərində yerləşər. Beynimizdəki görmə mərkəzi 1 sm^3 həcmə malikdir, yəni bir noxuddan belə kiçikdir! Bütün uzaq*

məsafələr, uzaqdakı evlər, göydəki ulduzlar, Ay, Günəş, havada uçan təyyarə, quşlar kimi görüntülər bu kiçik yerdə yerləşir. Yəni sizin baxıb da minlərlə kilometr yuxarıda olduğunu dediyiniz təyyarəylə, əlinizi uzadıb tuta bildiyiniz stəkan arasında texniki cəhətdən məsafə yoxdur, hamısı beyninizdəki duyğu mərkəzində tək bir səth üzərindədir.

Zəhra: Dayan bir qədər düşünüm… İndiyədək danışdıqlarımızı nəzərə aldığımız təqdirdə, əlimizdə bir dəlil olmadığı aydın olur. Amma hələ də maddənin mütləq varlıq olduğunu iddia edən bir çox insan var, elə deyilmi?

Elvin: Zəhra xanım, sizin mütləq maddə dediyiniz şey nədir?

Zəhra: Budur, əllə tutduğum, gözlə gördüyüm, tək halda mövcud olan, boşluqda yer tutan, kütləsi və həcmi olan hər şeydir.

Elvin: Məsələn, bu qarşıda dayanan sizin avtomobiliniz maddi bir obyektdirmi?

Zəhra: *Bəli.*

Elvin: *Avtomobili maddə edən xüsusiyyətlər hansılardır?*

Zəhra: *İstehsalında istifadə olunan metallar, boyalar, sonra da böyüklüyü və ağırlığı kimi şeylər.*

Elvin: *Onda bayaq danışdığımız şeylərə geri qayıtsaq, hisslərimiz yoluyla qəbul etdiyimiz avtomobil görüntüsündən rəng, sərtlik, işıq, dərinlik kimi yalnız duyğu yoluyla meydana gələn hissləri çıxartsaq geridə nə qalar? Daha doğrusu belə sual verək: Duyğu orqanlarınızdan beyninizə gedən sinirləri kəssək və ya onların fəaliyyətini bir müddət dayandırsaq, qarşınızda nə qalar?*

Zəhra: *Heç nə!*

Elvin: *Bu təqdirdə Allahın yaratmış olduğu və xarici aləmdə var olan maddəylə əlaqədar heç bir məlumata sahib ola bilməzsiniz. Sizin üçün burada dərhal Bertran Rasselldən bir sitat gətirmək istəyirəm. İndiyədək danışdığımız bu şeyləri zehninizdə daha da yaxşı canlandıracaq. Rassell bu mövzuda bunları söyləyir: "...Barmaqlarımızla masaya basdığımız andakı toxunma hissinə gəldikdə, bu, barmaq uclarındakı elektron və protonlar üzərində yaranan bir elektrik təsiridir. Müasir fizikaya görə, masadakı elektron və protonların yaxınlığından meydana gəlmişdir. Əgər barmaq uclarımızdakı bu təsir, başqa bir yolla yaranmış olsaydı, heç masa olmamasına baxmayaraq, eyni şeyi hiss edəcəkdik".* (Bertrand Russell, Rölativitenin Alfabesi, Onur Yayınları, 1974, s.161-162) *Yəni barmaq uclarınızdakı elektron və protonların beyninizə ötürdüyü siqnallar sayəsində avtomobilinizə toxunduğunuzu düşünürsünüz.*

Bu mövzunu yuxularla da izah etmək mümkündür. Zəhra xanım, yuxularda gördüyümüz avtomobillər həqiqətdə mövcuddurlarmı? Öz avtomobilinizi yuxunuzda görsəniz, eyni şeyi deməyəcəksiniz?

Zəhra: *Əlbəttə ki, xeyr, dolayısilə dediyinizi qəbul edirəm. Buradan da, maddə deyilən şeyin əslinin necə olduğunu tam olaraq bilmədiyimizi anlayırıq.*

Elvin: *Zəhra xanım, narahat olmayın, bunu heç kim bilmir. Maddə*

deyilən hər şey bizim üçün yalnız bir hissdən ibarətdir. Duyğularımız bizə yalnız rəng, işıq, dad, qoxu kimi görüntünü meydana gətirən hissləri çatdırar, amma bunlardan fərqli olaraq maddə deyə bir şey haqqında heç bir məlumat çatdırmazlar. Buna görə də biz, xaricimizdəki dünyanın həqiqətdə necə olduğunu heç vaxt bilmərik. Elmin gəldiyi nəticə də budur. Hər şeyin yalnız maddi varlıqlardan ibarət olduğunu iddia edənlərin isə bunu isbat etmələri üçün verəcəkləri heç bir ağıllı, məntiqli və elmi cavab yoxdur. Bütün ömrümüz boyu yalnız zehnimizdəki görüntüləri gördüyümüz və bütün həyatımız bu görüntülərdən ibarət olduğu üçün, maddə adı verilən və hisslərimiz xaricindəki bir məkanda olan şeyi təsvir etmək, haqqında şərh vermək qeyri-mümkündür. Çünki bu, anadangəlmə kor bir insanın rənglər haqqında fikir bildirməsinə bənzəyir. Rəngləri heç görməmişdir ki, tərifini də verə bilsin. Belə bir tərif verməyə təşəbbüs edən adam yalnız fərziyyə irəli sürməkdədir.

Tural: *Elvin bəy, indi ağlıma keçən gün yaşadığım bir hadisə gəldi. İki yoldaşımla birgə yay istirahət evimizin qarşısında dayanıb dolunayı (bütöv ayı) sabit, kiçik bir teleskopla seyr edirdik. Yoldaşıma: "Ayın bütöv ay haldakı görüntüsü çox gözəldir, bu qədər uzaqdan belə mükəmməl parıldaması çox valehedicidir, kraterləri, dağları belə görünür. Bizdən minlərlə kilometr uzaqdaymış, inanılmaz bir uzaqlıq!" deyərkən göz qapağımın alt hissəsi qaşındı. Qaşımağa başladığım vaxt ayın, aşağı-yuxarı müxtəlif istiqamətlərə doğru hərəkət etdiyini gördüm. Gözümü teleskopdan ayırdım. Bir gözüm yumulu halda gözümü qaşımağa davam etdim. Yay istirahət evləri də, yoldaşım da, bütün dəniz və yay istirahət məkandakı bütün evlər də qaşımağımın formasına görə müxtəlif istiqamətlərdə hərəkət edirdi. Ay həqiqətən də minlərlə kilometr uzaqda olsaydı, göz qapağını qaşımaq qədər sadə bir əməliyyatla bu qədər hərəkət edərdimi? Yoldaşım, sahil, yay istirahət məkanındakı evlər, dəniz müxtəlif uzaqlıqlarda görünürdü. Amma hamısı sadə bir göz qaşıma əməliyyatı sayəsində eyni anda hərəkət edirdi. İndi daha yaxşı anlayıram ki, xarici aləmdə olduğunu düşündüyüm və məndən uzaqda hesab etdiyim şeyi seyr etdiyimi güman etməklə yanılırmışam. Əslində Ay da, digər cisimlər də və hətta özüm də eyni yerdəymişəm. Bunların hamısı sadəcə beynimdə yaranan üç ölçülü bir görüntüymüş.*

Elvin: Çox gözəl! İndi bir də təkrarlayaq. Yolda gedən bir insan əslində beyninin içindəki yolda gedər, beyninin içindəki avtomobillərin yanından keçər. Eynilə yuxusunda getdiyi kimi tənha bir yolda gedərkən, Tural bəyin etdiyi kimi iki gözümüzün alt qapaqlarını yavaşca ovuşdurmağımız bizə bu həqiqəti daha yaxşı xatırladar. Yol və ağaclar müxtəlif istiqamətlərə doğru hərəkət edər. Bu, beynimizin içindəki görüntünün hərəkətə gəlməsidir. Seyr etdiyimiz televizorun antenasını hərəkət etdirdikdə necə ki, görüntü də hərəkət edirsə, burada da eyni şey baş verir. Beynimizin içindəki televizorun qarşısında əyləşib də onu seyr edən bir insan mövqeyindəyik, görüntüdə nə göstərilsə onu seyr edərik. Yemək yemək, yolda getmək, məktəbə getmək,

işdən qayıtdıqdan sonra yoldaşlarla görüşmək; yəni bütün həyatımızı sanki bir video kasetdəki film kimi seyr edərik. Görüntü, səs, qoxu, dad, toxunma duyğusu beyində hiss edilən duyğulardır. Yəni xarici aləmimizi, daxili aləmimizdə yaşayarıq. Bütün həyatımızı beynimizin içindəki kiçik evimizdə keçirərik. Oradakı televizordan xarici aləmi seyr edərik. Bütün bunları beynimizin içindəki 1 sm^3 həcmə malik "hüceyrəmiz"də yaşayarıq. O "hüceyrəmiz"dən heç çıxmadan bir ömür sürərik.

Tural: Məsələn, rəng korluğu xəstəliyinə tutulmuş bir insanın dünyanı fərqli rənglərdə görməsi də bu mövzuya dəlil ola bilərmi?

Elvin: *Yəqin ki, bu mövzunu olduqca yaxşı anladınız. Bəli sizin də dediyiniz kimi, insan ömür boyu bu görüntüləri seyr etdiyi üçün hissləri ona nə çatdırsa dünyanı o cür qəbul edər. Duyğu orqanlarının zədələnməsi korlanmış bir görüntünün qəbul edilməsinə səbəb olar, buna görə də, rəng korluğu xəstəliyinə tutulmuş bir insan həqiqi rəngi anlaya bilməz. Göz xəstələri dünyanı bulanıq görər.*

Zəhra: *Anlayıram…*

Elvin: *İnsan ömrü boyu bu görüntülərdən kənara çıxa bilməz, buna görə də, gördüyümüz şeylərin bizim gördüyümüz şəkildə olduqlarını iddia etmək, bunların əsl hallarıyla təmasda olduğumuzu düşünmək məntiqsiz və faydasızdır.*

Tural: *Bir dəqiqə Elvin bəy, mən bir şey soruşmaq istəyirəm, bu mövzunu bilən çox adam vardırmı? Daha öncə bu mövzunu gündəmə gətirən, izah edən insanlar olubdurmu?*

Elvin: Bayaq da söylədiyim kimi bu həqiqəti kəşf etmiş bir çox insan var. Sadəcə düşüncə sahəsində deyil, elmin; fizika, atom, astronomiya kimi sahələrində fəaliyyətlər aparan, hamımızın adlarını tez-tez eşitdiyimiz tanınmış elm adamları da bu mövzunu bir yolla anlayıb öz fikirlərinə görə şərh etmişdirlər. Materialist mütəfəkkirlər, məsələn, Marks, Lenin kimi insanlar da bu mövzunu o vaxtlar öyrənmiş, amma öz materialist dünyagörüşlərinə görə çox təhlükəli hesab etmişdirlər. Buna görə də, hər nə qədər həqiqəti bilsələr də, belə bir şeyi qəbul etmələrinin öz mənfəətlərinə xələl yetirəcəyini görüb bu həqiqətə qarşı tədbirlər görməyə çalışmışdırlar. İstəyirsənsə sənə lazımi qaynaqları verim, sən də araşdırma apar, nəticələrini isə sabah danışarıq.

2 - Cİ GÜN

Sabahısı gün mövzu yemək süfrəsində davam edər…

Zəhra: *Dostlar, bütün gecə düşündüm və ağlıma hələ də cavablandıra bilmədiyim bir sual gəldi. Yaxşı, razıyam hər şey beyində qəbul edilir, amma bunların əsli xarici aləmdə də eynilə mənim gördüyüm kimi olmalıdır, əgər belə olmasaydı səninlə danışa bilərdikmi? Mənim söylədiklərimi necə başa düşürsən? Deməli, qarşımda başqa insanlar var və onlarla eyni dili danışıb eyni dadları hiss edirik. Məsələn, hamımız yeməkdən eyni dadı aldıq, salatdakı limonun dadı hamımıza turş gəldi, deməli, xarici aləmdə, hər kəsin yediyi eyni bir yemək dadı, eyni bir limon dadı var və ya fabrikə getdiyim vaxt, işçilər orada işləyirlər və onların iş bölgüsüylə hazırladıqları malları biz satırıq. Mən təmasda olmasam belə, bu dünya xarici aləmdə eynilə mövcuddur. Elə deyilmi?*

Elvin: *Zəhra xanım bunu soruşmağınız yaxşı oldu, beləliklə, dünən danışdığımız şeyləri yadımıza saldıq. Amma əvvəlcə bunu ifadə etmək lazımdır ki, biz heç vaxt xarici aləmdə maddə olmadığını demirik. Biz, Allahın yaratdığı və xarici aləmdə mövcud olan maddənin əsliylə heç vaxt təmasda ola bilməyəcəyimizi, yəni heç vaxt bu süfrənin, bu süfrədəki qab-qacaqların, çəngəllərin, stəkanların, çörəyin, şorbanın həqiqi halını bilməyəcəyimizi deyirik. Daim yalnız və yalnız beynimizdəki süfrənin başında əyləşib, beynimizdəki süfrənin başında yemək yeyib, beynimizdəki süfrənin başında söhbət edəcəyik.*

Zəhra: *Doğrudur!*

Elvin: *Onda məni harada görürsünüz?*

Zəhra: *Beynimdə.*

Elvin: *Yaxşı, bəs səsimi harada eşidirsiniz?*

Zəhra: *Beynimdə…*

Elvin: *Bu otaq, otaqdakı əşyalar, Xədicə xanım və Tural bəyə aid səs və görüntülər harada əmələ gəlir?*

Zəhra: *Onlar da beynimdə amma…*

Elvin: *Yediyiniz limonun turş dadını harada hiss edirsiniz?*

Zəhra: *Yaxşı, başa düşdüm, həm o, həm də siz beynimin içindəsiniz!*

Elvin: *Eynilə eviniz, ailəniz, iş yeriniz, işçiləriniz, fabriklərinizdə istehsal olunan məhsullar, seyr etdiyiniz televizor, getdiyiniz bir ölkə, onların danışdığı xarici dil və bunlara aid hər cür məlumat və bunlar arasında müqayisə aparmağınızı təmin edən yaddaş da beyninizdədir, elə deyilmi?*

Baxın bu əhəmiyyətli həqiqətlə əlaqədar Bertran Rassel və L. Vitgenşteyn kimi tanınmış filosofların fikirləri belədir: "…Məsələn, bir limonun necə bir proses nəticəsində əmələ gəldiyi sualını vermək və bu prosesi araşdırmaq olmaz. Limon, yalnız dillə bilinən dad, burunla hiss edilən qoxu, gözlə görülən rəng və formadan ibarətdir və təkcə bu xüsusiyyətləri elmi bir araşdırma və mühakimə mövzusu ola bilər. Elm, maddi dünyanın əslinin necə olduğunu heç vaxt bilə bilməz."

(Orhan Hançerlioğlu, Düşünce Tarihi, Remzi Kitabevi, İstanbul: 1987, s.447)

Xədicə: Onda bir yeməyi yediyimiz vaxt, başqa bir adamın o yeməkdən aldığı dadın və ya bir səsi eşitdiyimiz vaxt, başqa bir adamın eşitdiyi səsin bizim hiss etdiklərimizlə eyni olduğundan əmin olmağımız qeyri-mümkündür. Belə söyləyə bilərikmi?

Elvin: Bəli Xədicə xanım. Çox düzgün şəkildə ifadə etdin. Tanınmış elm adamı Lincoln Barnett də bu mövzunu tam olaraq belə ifadə edir: "Heç kim özünün qırmızı rəngi və ya "do" notunu başqa bir insanın hiss etdiyi kimi, hiss edib - etmədiyini bilməz". (Lincoln Barnett, Evren ve Einstein, Varlık Yayınları,Çev: Nail Bezel, s.20) Biz ancaq duyğu orqanlarımız yoluyla bizə gəlib çatan məlumatları bilərik. Çünki bizdən kənardakı konkret reallıqla bilavasitə təmasda ola bilmərik. Bunu da şərh edən beyindir. Əsliylə heç bir şərt altında təmasda ola bilmərik. Dolayısilə eyni şeydən danışdığımızı düşündüyümüz vaxt da, əslində hər kəsin beyni fərqli bir şey qəbul edə bilər. Bunun səbəbi qəbul edilən şeyin qəbul edəndən asılı olmasıdır.

Gördüyünüz kimi, hər an yalnız hisslərdən ibarət bir görüntünü seyr etdiyimiz, xaricimizdəki obyektlərin əsllərilə heç bir şəkildə təmasda ola bilmədiyimiz mövzusunda ediləcək bir etiraz və ya gətiriləcək əks bir dəlil yoxdur. Bu andan sonra insanın bunu qəbul etməsinə mane olan şeylər səmimi şübhələr deyil, ön mühakimə, dünyaya bağlılıq, ehtiraslar kimi fərdi problemlərdir.

Zəhra: *Bir qədər düşünməliyəm!*

Xədicə: *Dünəndən bəri bu mövzunu düşünürəm. Ağlımda heç bir şübhə qalmadı, amma insanın alışması bir qədər çətin olur; çünki gördüyüm şeylərdə olan sonsuz saydakı incəliklər diqqətimi dağıdır. Elvin bəy, mən də bir sual vermək istəyirəm. Bu mükəmməl görüntülərin qaynağı nədir? Hərçənd ki, cavabını təxmin edirəm, amma sən izah etsən daha yaxşı olar.*

Tural: *Mən əvvəlcə bir şey əlavə etmək istəyirəm. Dünən gecə Elvinin izah etdiyi mövzularla əlaqədar çox sayda kitaba baxdım. Həmçinin internetdə uzunmüddət vaxt keçirdim. Səhərə qədər bu mövzunu araşdırdım. Əslində sənin də söylədiyin kimi Platondan Muhyiddin Ərəbiyə, İmmanuel Kantdan Corc Berkeleyə qədər mütəfəkkirlərin böyük bir hissəsi bu mövzunu bir yolla anlamış və izah etmişdir. Ancaq yaşadıqları dövrün şərtləri və zidd görüşlərin təzyiqi, mövzunun tam şəkildə başa düşülməsinə və yayılmasına mane olmuşdur. Bir hissəsi də kəşf etdikləri şeyi səhv qiymətləndirmişlər. Mən bunları araşdırdıqdan sonra, bu mövzunu xarici qaynaqlarda biologiya, fizika və anatomiya mövqeyindən də araşdırdım və hər şeyin qəbul prosesində məna qazandığı və beynimizdəki bir görüntünü seyr etdiyimiz mövzusunda heç bir şübhəm qalmadı.*

Elvin: Tural bəy, araşdırma apardığın üçün səni alqışlayıram. Maddənin hisslər toplusu olması həqiqətini tam anlamayan kimsələr; "bu bir idealizmdir, bilinən qədim fəlsəfədir" deyərək mövzunun üstündən keçməyə çalışırlar. Halbuki, bu üstündən keçiləcək mövzu deyil. Bütün bəşəriyyət üçün olduqca əhəmiyyətli həqiqətdir. Sənin də dediyin kimi bu mövzu nə düşüncə aləmində, nə də elm aləmində mövcud olan yeni mövzu deyil. Hələ

elmin bir o qədər inkişaf etmədiyi dövrlərdə də bəzi mütəfəkkirlər bu mövzudan ya ilahi kitablar və elçilərin yol göstərməsi, ya da təfəkkür yoluyla xəbərdar olmuşdurlar. Onsuz da, bir qədər əvvəl bəzi mütəfəkkirlərdən sitatlar gətirdik.

Fəlsəfənin iki sahəsindən biri olan idealizm və ilahi dinlərdə rast gəldiyimiz mistisizm, bu mövzuyla yaxından maraqlanmışdır. Həmçinin inkişaf edən elmlə birlikdə fizika, astronomiya, atom fizikası, psixologiya, biologiya, tibb kimi elm sahələri istər-istəməz bu həqiqətin texniki cəhətlərini ortaya çıxarmışdır. Buna görə də, bu mövzunun insana yad gəlməsi, saydığımız bu mövzularla maraqlanmamasından qaynaqlanır. Halbuki bu gün liseylərdə keçirilən biologiya dərslərində belə, "hisslərin beyində meydana gəlməsi" mövzusu ətraflıca izah edilir. Yəni hər insan məktəbdə öyrəndiyi bir neçə bioloji məlumatla belə bu həqiqəti qavraya bilər.

Tural: Belə çox bilinən mövzudan xəbərsiz olmaq inanılası şey deyil! Bunu düşünməyə mane olan insanların məqsədlərini nə olduğunu anlaya bilmirəm!

Elvin: Sənin də dediyin kimi, həm bu həqiqəti kəşf edən kəslərin içində olduqları şərait, həm də bu kəslərin böyük hissəsinin etdiyi səhv şərhlər və ən əhəmiyyətlisi də insanların bu mövzuya verdiyi reaksiyalar, bu mövzunun bütün dünya tərəfindən başa düşülməsinə mane olmuşdur. Materialist dünyagörüşü bu həqiqəti gizlətmək, təkzib etmək, yayılmasına mane olmaq üçün hər cür şeyə əl atmışdırlar. Məsələn, bu mövzunu çox yaxşı dərk etmiş filosof Berkeleyin, dövrünün ən böyük mütəfəkkiri olmasına baxmayaraq, bu mövzudakı fəaliyyətlərinə görə ona qarşı, başda fransız materialistləri olmaqla güclü təhqir və qaralama kampaniyası başladılmış və o dəliliklə belə ittiham edilmişdir, ancaq yazdığı əsərlər bir çox adamın həqiqəti görməsinə də vəsilə olmuşdur.

Həmçinin bunu da bilməlisiniz ki, bu həqiqəti anlamaq, yeni və həqiqi həyata başlamaq və insanın həyata olan dünyagörüşünün tamamilə dəyişməsi deməkdir. Belə olduqda insanlara maddənin mütləq varlıq olduğunu zənn etdirməyə çalışan aldadıcı materialist düşüncələr aradan qalxar. İnsanlar həqiqi kainatdan xəbərdar olar. Adam ömrü boyu, hisslərdən ibarət olan görüntülərlə həm yetişdirilər, həm də imtahan olunar. Sonsuzluq, zamansızlıq, tale kimi mövzuların sirri də bu həqiqətdə gizlənmişdir.

Xədicə: *Bu eyni zamanda olduqca böyük bir həqiqətdir. Amma, hələ də mənə bir şey maraqlı gəlir. Zəhmət olmasa, artıq bizə bu görüntülərin qaynağını izah edə bilərsənmi?*

Elvin: *Bəli, növbə Xədicə xanımın sualındadır. Daha sonra ən incə nöqtələrini izah edəcəyəm, amma bəri başdan sənə bildiyin həqiqəti deyim. Bütün bu görüntüləri bizə seyr etdirən, hisslər içində bir həyat yaşatdıran Allahdır. Bu, açıq-aydın bir həqiqətdir. Amma Allahın sonsuz qüdrətini, hər şeyi yoxdan var etdiyini izah etmədən əvvəl sizə bir qədər də incə nöqtələri çatdırmaq istəyirəm.*

Xədicə: *Bəli, hər şeyi Allahın bizə seyr etdirdiyi, mənim də çox yaxşı qavradığım bir mövzuydu. Amma dediyin kimi sən izah etməyə davam et. Sonra bu mövzuda mənim də demək istəyəcəyim bəzi şeylər olacaq.*

Elvin: *Hal-hazırda bilirik ki, bizim həyat kimi yaşadığımız hər şey, gördüyümüz hər görüntü, eşitdiyimiz hər səs beynimizdə meydana gəlir. Bizim dünya dediyimiz şey, hisslərdən yaranan üç ölçülü görüntüdür. Xarici aləmlə, yəni maddi dünya ilə bilavasitə təmasda olduğumuza dair bir məlumat, bir dəlil, bir sübut yoxdur. Ömrümüz boyu bizə göstərilən görüntülərdən başqa bir şeylə təmasda ola bilmirik. Məsələn, baxın, televiziyada tanınmış bir aparıcı var və jurnalistlərlə müsahibə aparır. Tural bəy, sən bizə bu vəziyyəti açıqlaya bilərsənmi?*

Tural: *Bəlkə də, bu aparıcının xəbəri yoxdur, amma əslində o televiziya ekranına çıxdığı vaxt geniş tamaşaçı kütləsi qarşısında şou göstərmir, beyninin içindəki görüntüyə şou göstərir, yəni şou göstərdiyini zənn edir. Mətbuat konfransı keçirdiyini zənn edərkən, əslində beyninin içindəki mətbuat nümayəndələrinin görüntüsü qarşısında açıqlama verir, yəni açıqlama verdiyini zənn edir. Məsələn, bu aparıcının proqramını seyr edən kəslər də, ayrı-ayrılıqda beyinlərində həmin bu aparıcını görürlər. Aparıcı da öz beynindəki veriliş salonunda izdihamlı xalq görüntüsünü görür. Onlara bir şey deməyi düşünür. Halbuki bütün bunlar, içi zülmət qaranlıq olan beynində baş verir.*

Elvin: *Tural bəy bu mövzunu çox gözəl ifadə etdi. Ancaq insan bu şəkildə düşünməyə elə də vərdiş etməmişdir. Buna görə də, istəyirsinizə daha çox nümunə üzərində danışaq. Hansı kanalda ən sevdiyiniz proqramlar verilir? Durun digər kanallara da baxaq.*

Tural: Baxın burada da bir tok-şou var! Daha əvvəl seyr etmişdinizmi? Bu proqramda daim hipnoz nümayiş etdirirlər. Elvin bəy, bu hipnoz da bizim mövzumuza daxil deyilmi?

Elvin: Az qala unudacaqdım! Əlbəttə ki, hipnoz bu mövzunun daha yaxşı başa düşülməsinə kömək edə bilər. Ekrandakı hipnozçuya baxın. Verdiyi təlqinlərlə, tamaşaçılara görülməmiş şeylər etdirir. Baxın bu uşaq özünü tanınmış bir futbolçu, bütün balışları da top kimi görür. Bu qadın hər tərəfdə ləkələr görür və əlindəki bezlə onları silməyə çalışır. Uzun boylu uşaq ətrafında gördüyü hər kəsi kosmosdan gəlmiş bir varlıq zənn edir.

Məhz siz də gördünüz. Yuxu kimi, hipnoz əsnasında da adama verilən süni təlqinlərlə heç olmayan bir dünya yaradıb, hipnoz olmuş adamı bu dünyada yaşatmaq mümkündür.

Xədicə: Doğrudur, indi gedib bu uşağa: "bunların hamısı xəyaldır, sənə hipnoz etdilər, əslində nə sən tanınmış bir futbolçusan, nə də təpiklədiyin bu şeylər topdur!" desək çox əks bir reaksiyayla qarşılaşa bilərik. Hal-hazırda izdihamlı insan kütləsi olan bir veriliş salonundasan, yüzə yaxın adam sənin hipnoz seansını seyr edir desək, onu qətiyyən bu söylədiklərimizə inandıra bilmərik.

Elvin: *Bəli haqlısan, indi gələk bu günün mövzusuna, dünən və bu gün:*

"hər şey hisslərdən təşkil olunur və bunlar axırda beynin əlaqədar mərkəzinə gəlib çatırlar və biz də orada qəbul etdiyimiz bu görüntülərə bir məna veririk" demişdik. Burada üç əhəmiyyətli sual var. Birincisi, bütün bu işləri görən beyindirmi? İkincisi, bu görüntünü seyr edən, yəni mən dediyimiz şeyin mahiyyəti nədir? Üçüncüsü də bu görüntülərin qaynağı və bizə göstərilməsinin səbəbi nədir?

Zəhra: *Doğru söylədin.*

Elvin: *Yəni sizə görə bu görüntüləri görən, hiss edən, gülən, ağlayan, vicdan, əxlaq kimi daha bir çox mənəvi dəyərə sahib olan şey beyindirmi? Beyin orta hesabla 1,5 kiloluq bir ət parçası deyildirmi? Beynin maddi varlığının gördüyümüz digər obyektlərdən bir fərqi varmı? Bunları bir düşünün. Beyin də qol kimi, qıç kimi bir görüntü deyilmi?*

Xədicə: *Haqlısan. Bunu heç düşünməmişdim!*

Zəhra: *Bir dəqiqə, sən nə demək istəyirsən! Yəni beyində mi, beynin içində qəbul edilən bir görüntüdür? Onda mənə hər şeyi harada gördüyümüzü deyə bilərsənmi?*

Elvin: *Təəccüblənəcəyiniz bir mövzu ilə, bu sualın cavabın verməyə çalışacağam. İndi izah edəcəyim mövzunu, bəlkə də, ilk dəfə eşitmiş ola bilərsiniz. Bir qədər əvvəl necə gördüyümüzü və eşitdiyimizi izah edərkən, qulağımıza gəlib çatan səs dalğalarının sinirlərlə elektrik siqnalı halında beynə ötürüldüyünü və eşitmə prosesinin beyində baş verdiyini demişdim. Ancaq bütün bunlardan daha diqqət çəkici məqam, beynin içində, bütün bu qüsursuz əməliyyatlar nəticəsində üç ölçülü və rəngarəng görüntüləri görən, səsləri tamamilə qüsursuz şəkildə eşidən, yüzlərlə fərqli dadı bir-birindən ayırd edə bilən, düşünə bilən, hiss edə bilən, plan qura bilən bir varlığın olmasıdır. Beyin yalnız gözdən, qulaqdan, burundan, dildən, dəridən gələn elektrik siqnallarını özündə toplayar. Ancaq beynin içində bu siqnalları şərh edən, yəni görüntünü görən başqa bir varlıq vardır. Xədicə xanım, bunları beynindəki hüceyrələrin etdiyini deyə bilməzsən, elə deyilmi?*

Xədicə: *Əlbəttə ki, Elvin bəy, hüceyrə deyilən şeyin gözü, qulağı yoxdur ki, görsün və eşitsin!*

Elvin: *Bəli, məhz insanı təəccübləndirən şey də budur. Bu varlıq gözə ehtiyac duymadan görən, qulağa ehtiyac duymadan eşidən, gördüklərini, eşitdiklərini qavrayan bir varlıqdır. Elm adamları da, bu günə qədər bu mövzuda açıqlamalar vermişdirlər. Məsələn, R. L. Gregory adlı yazıçı bu mövzuyla əlaqədar vəziyyəti belə açıqlamışdır: "Gözlərin beyində şəkillər meydana gətirdiyini söyləməyə istiqamətli bir meyl vardır, lakin bundan qaçınmaq lazımdır. Beyində şəkil meydana gəldiyi deyilsə, bunu görməsi üçün, beynin içində bir göz daha olmalıdır (lakin, bu gözün şəklini görə bilmək üçün bir gözə daha ehtiyac olacaq,... və bu da sonsuz sayda göz və şəkil olması mənasını verər. Bu da qeyri-mümkündür".* (R.L.Gregory, Eye and Brain: The Psychology of Seeing, Oxford University Press Inc. New York, 1990, s.9) *Gördüyünüz kimi, bu yazıçı əslində vəziyyəti anlamış və açıq şəkildə ifadə etmişdir. Amma materialist fikirlərindən ötrü; "beynin içindəki göz"ün kimə aid olduğunu cavablandıra*

bilməmiş və həqiqəti bəri başdan rədd etmişdir. Karl Pribram da, elm və fəlsəfə aləmində, duyğuları hiss edənin kim olduğu ilə əlaqədar bu əhəmiyyətli axtarışa diqqət çəkmişdir: "Yunanlılardan bəri, filosoflar; "maşının içindəki xəyalət", "kiçik insanın içindəki kiçik insan", və s. üzərində düşünümüşdülər. Mən (beyindən istifadə edən varlıq) haradadır? Əsas bilməyi həyata keçirən kimdir?" Assizli hörmətli Fransiskin də söyləmiş olduğu kimi: "Axtardığımız şey baxanın nə olduğudur". (Karl Pribram, David Bohm, Marilyn Ferguson, Fritjof Capra, Holografik Evren I, Çev: Ali Çakıroğlu, Kuraldışı Yayınları, İstanbul: 1996, s.37)

İndi mən də sizdən yenidən soruşuram, burada mənim danışdıqlarımı dinləyən, incəliklər barədə suallar verən, özünü maraqlandıran məsələlərə cavab axtaran bu şüur sahibi (beyninizin içindəki hüceyrələr və duyğu mərkəzləri deyilsə) kimdir?

Tural: *Necə yəni, beynimizdə bizim söylədiklərimizi, suallarımızı dinləyən və şərh edən bizim bilmədiyimiz birimi var?*

Elvin: *Tural bəy, verdiyin sualın cavabı çox əhəmiyyətlidir. Çünki bu günə qədər aparılan tədqiqatlar və müşahidələr nəticəsində belə bir mərkəzə, varlığa rast gəlinmədiyini dedim. Onda insanın beynində yaranan bu səsi, musiqini, insanın danışdığı şeyləri dinləyən insanın şüurudur.*

Tural: *Şüurmu dediniz? Yaxşı bu şüur beynimizin içində haradadır?*

Elvin: Şüur deyərkən beyni meydana gətirən sinirlər, yağ təbəqəsi, sinir hüceyrələrindən bəhs etmirəm. Bu şüur, Allahın yaratdığı və insana vermiş olduğu Ruhdur. Ruh, görüntünü seyr etmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyac duymaz. Bunlardan da əlavə, düşünmək üçün beynə ehtiyac duymaz. Bu, Allahın yaratdığı möcüzədir.

Xədicə: Onda görən, eşidən, hiss edən əslində ancaq ruhumuzdursa, duyğu orqanlarımızın təkcə vasitəçi rolunu oynadığını deyə bilərikmi?

Elvin: Əlbəttə ki, Xədicə xanım. Bu, açıq bir həqiqətdir.

Xədicə: Bu həqiqət insanı həyəcanlandırır.

Zəhra: Üstəlik həm təəccübləndirir, həm də düşündürür. İnsan, gücünün heç nəyə çatmadığını yenidən anlayır və Allahın böyüklüyünə şahid olur.

Elvin: Çox doğru söyləyirsiniz Zəhra xanım. Sizin kimi bu açıq və elmi həqiqəti öyrənən hər insan, əslində beynin içindəki bir neçə kub santimetrlik, qapqaranlıq məkana bütün kainatı üç ölçülü, rəngli, kölgəli və işıqlı halda sığdıran uca Allahı düşünüb, Ondan qorxub, Ona sığınmalıdır.

Tural: *Mən də anlayıram! Beynimizlə də hisslər vasitəsilə təmasda ola bildiyimizə görə bunları görən, qəbul edən, tək bir şey ola bilər. Bu da, Allahın yaratdığı və hamımıza verdiyi ruhumuzdur. Ruhun görüntüdən fərqli, xüsusi varlıq olduğu məlumdur. Bu günə qədər bütün bu xüsusiyyətlərin beynə aid olduğunu necə düşündüyümü bilmirəm!*

Elvin: *Ruhun bir xüsusiyyəti isə gördüyü görüntünün onda təsir oyatmasıdır. Görüntülər ruhda toxluq, kədər, sevinc, qorxu kimi hisslərin yaranmasına gətirib çıxarar. Yəni bu görüntülər ruha təsir edəcək, ruh isə bu görüntülərə qarşı reaksiya verəcək şəkildə yaradılmışdır. Bu şəkildə özünəməxsus bir dünyada, imtahan mühitində olduğumuzu görərik. Beləliklə*

də, dünya həyatı dediyimiz şeyin ruh tərəfindən seyr edilən xüsusi görüntülər olduğu aydın olar.

Xədicə: *Ruh yalqız və təkcə görüntüləri qəbul edən bir varlıqdırsa, onda bu görüntüləri bizə seyr etdirən, ruhdan kənar üstün bir varlıq vardır. Həmçinin bu görüntüləri bizə seyr etdirməsində də mütləq bir məqsəd vardır.*

Elvin: *Bəli Xədicə xanım. Əslində bu, heç bu qədər uzatmadan, bir dəfə də aydın ola biləcək məsələdir. Sənin də bildiyin kimi bizə hər şeyi seyr etdirən, üstün elm sahibi Allahdır.*

Bu görüntülər fasiləsiz surətdə ruhumuza seyr etdirilər. Allah bu şəkildə hamımızı öz dünyamızda yaşatmaqda və imtahan etməkdədir.

Xədicə: *Bunu bir televiziya yayımı kimi də düşünə bilərik, elə deyilmi? Yəni Allah, dünya hesab etdiyimiz görüntülərin müəyyən hikmət və elmlə ruh dediyimiz varlıq tərəfindən qəbul edilməsini təmin edər. Bu yayım kəsilmədiyi və dəyişmədiyi müddətcə, yəni Allah bizə istədiyi görüntüləri göstərdiyi müddətcə heç xəbərimiz olmadan hadisələrə qarşı reaksiya verərik, halbuki biz ruh və ruhun seyr etdikləri xaricindəki bir xarici aləmlə təmasda deyilik.*

Elvin: *Əlbəttə ki! Ruhun varlığı açıq şəkildə sübut edildikdən sonra geriyə bu görüntülərin qaynağı və səbəbi qalır. Həmçinin bütün bu öyrəndiklərimizdən çıxaracağımız mühüm nəticələr var. Birinci mövzu, görüntülərin qaynağı və mahiyyətidir. Artıq bilirik ki, biz maddənin əsliylə təmasda deyilik və yalnız hisslərdən ibarət mükəmməl bir dünya seyr etməkdəyik. Bu görüntülərdəki mükəmməllik, yaradılışındakı sənət, elm, hikmət kimi ünsürlər bizə üstün Yaradıcımızı tanıdır. Hər şeyi yaradan Allahdan savayı mütləq varlıq yoxdur. Allahdan başqa yerdə qalan digər şeylər, Allahın bizə görüntü olaraq göstərdiyi təcəlliləridir. Allah bütün gücün, ağlın, elmin, sənətin, qüdrətin, hikmətin sahibidir. Biz görüntüləri, görüntülərin yaradılışındakı üstün elmi, ruhun görüntü qarşısındakı vəziyyətini düşünərək Allahın varlığını və sifətlərini ən mükəmməl şəkildə görərik. Əgər biz bu həqiqəti bu şəkildə bilməsək, Allaha iman etmə mövzusunda böyük problemlər yaşayar, çox səhv qənaətlərə gələrik.*

Xədicə: *Onda Allahdan başqa varlıq yoxdur.*

Elvin: *Əlbəttə ki, Allahdan başqa mütləq varlıq yoxdur və olması da qeyri-mümkündür. Varlıqlar, bizim üçün yalnız ruhun gördüyü görüntülər, gecə gördüyümüz yuxular kimi bir xəyal, bir hiss şəklində mövcuddur. Bunun xaricində bir şeyin mütləq varlıq olduğunu iddia etmək, onunla təmasda olmağın mümkün olduğunu söyləmək yanlış bir inancdan qaynaqlanır.*

Həmçinin, hər şey Allahın yaratdığı bir hiss olduğu üçün, heç bir varlığın özünəməxus güc və iradəsi yoxdur. Bəzi insanlar Allahın varlığını izah etməyə çalışarkən; "Allahı görə bilmirik, amma radio dalğalarını da görə bilmirik və radio dalğalarının mövcud olduğunu bilirik. Onda Allah radio dalğası kimi mövcuddur" tərzində qəribə məntiqlər yürüdərlər ki, bu da çox yanlışdır. Bu məntiqlə düşünən insan, maddəni mütləq varlıq qəbul etməkdə, Allahı isə (Allahı tənzih edirəm) maddəni əhatə edən mücərrəd varlıq kimi

təxəyyül etməkdədir. Halbuki əslində Allah mütləq varlıqdır, digər varlıqlar Onun yaratdığı təcəlilərdir. Allah vardır, ondan başqa hər şey kölgə varlıqdır.

Zəhra: *Amma biz bu mövzuları belə öyrənmədik! Yaxşı, hər şeyi Allah yaratmışdır, Ondan başqa ilah yoxdur və ən uca sifətlər ona məxsusdur, amma biz dünyada tamamilə öz iradəmiz və ağlımızla yaşayarıq. Yəni insan öz yolunu özü müəyyən edər.*

Elvin: *Zəhra xanımın dediklərindən də aydın olduğu kimi, Allah və tale haqqında bir çox səhv inancdan ötrü insanların başı qarışmış vəziyyətdədir. Maddənin Allahdan asılı olmadığına inanan bir insan, əlbəttə ki, hər şeyi bəzi düşüncələrinə görə qiymətləndirəcək. Allahın sonsuz gücünü, sonsuz elmini, mütləq varlığını qavraya bilməyənlər, Allahın varlığı haqqında çox yanlış fikirlərə sahibdirlər. Onu göylərdə bir yerdə olan, dünya işlərinə müdaxilə etməyən bir varlıq kimi (Allahı tənzih edirəm) təsvir edərkən yaşadıqları dünyanın yeganə qəti həqiqət olduğuna inanarlar. Hətta bir qədər əvvəl də qeyd etdiyim kimi, çəkinmədən əsl maddi varlıqların özləri olduqlarını, (Allahı tənzih edirəm) Allahın isə xəyal, maddi olmayan ruhani varlıq olduğunu, maddəyə də təsir göstərmədiyini düşünər və bunu müdafiə edər və ya, Allahı gözləri ilə görə bilmədikləri üçün; "yəqin ki, Allah bizim görə bilməyəcəyimiz bir yerdə, kosmosun və ya göylərin uzaq yerində mövcuddur" deyərlər. (Allahı tənzih edirəm) Bunların hamısı böyük yanılmadır.*

Çünki Allah, yalnız göylərdə deyil, hər yerdədir. Allah, tək mütləq varlıq olaraq, bütün kainatı, bütün insanları, yerləri, göyləri, hər yeri əhatə etmişdir və Allah bütün kainatda təcəlli etməkdədir. Hədislərdə rəvayət edildiyinə görə, Peyğəmbərimiz, Allahın göydə olduğunu söyləyən birinə doğru söylədiyini bildirmişdir. Ancaq bu rəvayət, Allahın hər yerdə olduğu həqiqətiylə qətiyyən ziddiyyət təşkil etmir. Çünki, dünyanın sizin olduğunuz nöqtəsindəki bir adam əllərini göyə açaraq Allaha dua etsə və Allahın göydə olduğunu düşünsə, cənub qütbündəki başqa insan da eynilə Allaha üz tutsa, şimal qütbündəki digər insan da əllərini göyə açsa, Yaponiyadakı, ABŞ-dakı, ekvatordakı bir insan da eynilə əllərini göyə açaraq Allaha üz tutsa, bu vəziyyətdə hər hansı sabit istiqamətdən danışmaq qeyri-mümkün olar. Eynilə kainatın və kosmosun müxtəlif yerlərindəki cinlər, mələklər, şeytanlar da göyə üz tutub dua etsələr, hər hansı sabit göydən və ya istiqamətdən danışmaq mümkün olmayacaq, bütün kainatı əhatə edən bir vəziyyət yaranacaq.

Bunu da unutmamaq lazımdır ki, Allah zamandan və məkandan asılı deyil. Allahın zatı başqadır. Allahın təcəlliləri isə hər yerdədir. Bir adam bir otağa girsə burada Allah yoxdur desə, Allahı inkar etmiş olar. Allahın təcəlliləri o otaq da daxil olmaqla hər yerdədir. Siz hara üz tutsanız, Allahın təcəllisi oradadır. Allahın hər yeri əhatə etdiyi, bizə şah damarımızdan yaxın olduğu, hara üz tutsaq da Allahın sifətlərini görəcəyimiz bir çox Quran ayəsi ilə bildirilmişdir. Məsələn, Allah, Bəqərə surəsinin 255-ci ayəsində; ***"...Onun***

Kürsüsü göyləri və yeri əhatə edir…" deyə bildirir. Hud surəsinin 92-ci ayəsində isə; ***"...Şübhəsiz ki, Rəbbim sizin nə etdiklərinizi əhatə edir."*** deyilərək, Allahın insanları da, etdiklərini də əhatə etdiyi bildirilir.

Xədicə: *Mən də daim belə düşünürdüm; çünki bizə belə öyrətdilər. Amma indi nə qədər yanıldığımı anlayıram.*

Elvin: *Bu mövzu Quranın bir çox ayəsində bildirilmişdir. Bir qisim ayələrin başa düşülməsində də əhəmiyyətli bir sirr rolunu oynayır. Sizin kimi, maddənin bir cür xəyal olduğunu anlayan insanlar üçün, artıq hər şey açıq və aydın bir hal alar. Belə olduqda, insan bir anda Allahın özünə nə qədər yaxın olduğunu qavrayar. Beləliklə də, Allah haqqında verilən səhv şərhlər, insanların sahib olduğu səhv inanclar da dərhal aydınlığa qovuşar. Allahın insana yaxınlığı mövzusunu bu günə qədər elə də çox düşünməmiş ola bilərsiniz. Amma bu həqiqətlər düşünüldükdə, əslində həyatımız boyu bizə ən yaxın olan varlığın Allah olduğu aydın olur.*

Tural: *Heç bur cür düşünməmişdim!*

Elvin: *Bəli Tural bəy! Allah sənə məndən, Xədicə xanımdan, Zəhra xanımdan hətta sənin özündən belə daha yaxındır. Qaf surəsinin 16-cı ayəsində Allah insan üçün;* ***"Biz ona şah damarından da yaxınıq."*** *deyir. İsra surəsinin 60-cı ayəsində isə;* ***"Rəbbin insanları əhatə etmişdir"*** *deyə bu həqiqət bildirilmişdir. Ancaq insan, bədəninin "maddə"dən ibarət olduğunu zənn etdikdə bu əhəmiyyətli həqiqəti qavraya bilməz. Məsələn, "özü" zənn etdiyi yer beynidirsə, eşik kimi qəbul etdiyi yer isə özündən 20-30 sm uzaqlıqdadır. Amma maddənin əsliylə təmasda olmadığını, yalnız zehnindəki hisslərlə təmasda olduğunu qavradığı vaxt, artıq içəri, eşik, uzaq, yaxın kimi anlayışlar öz mənasını itirər. Allah onu hər tərəfdən əhatə etmişdir və ona "sonsuz yaxın"dır.*

Tural: *Sonsuz yaxınlıq! Daha əvvəl bunu heç düşünməmişdim. Çox açıq, çox aydındır, amma eyni zamanda bu günə qədər düşünmədiyim bir həqiqətdir. Həqiqətən çox təəccüblüdür!*

Elvin: *Baxın bu mövzuyla əlaqədar başqa ayələr də var. Bu ayələri sizə çatdırmaq istəyirəm. Xahiş edirəm dinləyin.*

(Can) boğaza yetişdiyi zaman –
həmin an siz *(can verən adama)* baxırsınız.
Biz ona sizdən daha yaxın oluruq, siz isə *(bunu)* **görmürsünüz.**
(Vaqiə surəsi, 83-85)

Başqa ayədə isə bu mövzudan belə bəhs edilir:

Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən *(onlara)* **yaxınam,**
Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm.
Qoy onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər ki,
doğru yola yönələ bilsinlər. (Bəqərə surəsi, 186)

Tural: *Bəli, ayələr məsələni çox yaxşı açıqladı. Həqiqətən də sonsuz yaxınlıq deyərkən nəyi nəzərdə tutduğunu indi olduqca yaxşı anladım.*

Xədicə: *Sözün açığı mən də anladım və çox həyəcanlandım. Allah hər an*

mənimlə birlikdə olub, hər dəfə dua etdikdə duamı eşidir, etdiyim və düşündüyüm hər şeyi bilir. Yəni mənə məndən daha yaxındır. Bu, həqiqi mənada çox böyük bir həqiqətdir. İnsan bu günə qədər bunları necə düşünə bilmədiyini anlaya bilmir.

Elvin: *Maddənin əsl mahiyyətinin başa düşülməsi, qarşımıza daha başqa əhəmiyyətli həqiqətlər də çıxarar. Bu həqiqətləri düşünən insan Allahdan başqa mütləq varlıq olmadığını, hər şeyi Allahın yaradıb, hər an onlara nəzarət etdiyini anlayar. Məsələn, Allah Nəml surəsinin 64-cü ayəsində; "insanları davamlı yaratmaqda" olduğunu xəbər vermişdir. Yəni hər an hər şeyi yaradan Allahdır. Bu həqiqət Fatir surəsinin 41-ci ayəsində;* ***"Həqiqətən, Allah göyləri və yeri tərpənməsinlər deyə, tutub saxlayır. Əgər tərpənsələr, Ondan başqa onları heç kəs tutub saxlaya bilməz. Həqiqətən də, O, Həlimdir, Bağışlayandır."*** *deyə açıqlayır. Yəni kainatdakı hər şey, hər an Allahın hakimiyyəti altındadır; Onun izni və yaratması sayəsində varlığını davam etdirməkdədir.*

Tural: *İndi daha da yaxşı anlayıram. Yəni biz hər şeyi seyr edirik və Allahdan başqa güc sahibi yoxdur, deməli, mən bir şey edirəm deyərkən, əslində o şeyi Allah edir, mən isə özüm edirmiş kimi hiss edirəm, elə deyilmi?*

Elvin: *Çox doğrudur. Allahın yaratdığı və ruh tərəfindən qəbul edilən görüntülərə müdaxilə etmək qeyri-mümkündür. Bizə seyr etdirilən görüntüdə nə varsa onu görərik. Bu görüntünü dəyişdirmək, ona təsir göstərmək isə qeyri-mümkündür. Bu mərhələdə tale mövzusu da asanlıqla aydınlığa qovuşar. Allahın yaratdığı bu dünya görüntüsündə nə seyr ediriksə o bizim taleyimizdədir. Öz həyatımız hesab etdiyimiz müəyyən hadisələrin gedişatını bir filmi seyr edən kimi seyr edərik. Bizim üçün təqdir edilən taledə nə varsa onu hiss edər, onu qavrayarıq. Bu mövzu Quranda, İnsan surəsinin 30-cu ayəsində:* ***"Amma Allah istəməyincə, siz istəyə bilməzsiniz!..."****, Ənfal surəsinin 17-ci ayəsində isə:* ***"...atdığın zaman sən atmadın, Allah atdı…"*** *deyə açıq şəkildə ifadə edilmişdir. Saffat surəsinin 96-cı ayəsində isə eyni həqiqət:* ***"Axı sizi də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır."*** *deyə xəbər verilmişdir. Bu ayələr, insanın müstəqil varlıq olmadığını, Allahdan asılı olduğunu göstərir.*

Xədicə: *Halbuki ətrafımızda çox geniş şəkildə; "taleyinə qalib gəldi" və ya "taleyinin qurbanı oldu" kimi ifadələr eşidirik.*

Elvin: *Bu ifadələr məlumatsızlıqdan, tale həqiqətini, Allahın sonsuz qüdrətini qavraya bilməməkdən qaynaqlanır. Taleyin (Qədərin) nə olduğunu, sizin üçün ən ümumi mənada belə təsvir edə bilərəm: Tale (Qədər), Allahın keçmiş, gələcək və hazırkı anı tək bir an olaraq bilməsidir.*

Zəhra: *Elvin bəy, bunu bir qədər də aydınlığa qovuşdura bilərsənmi? Hələ baş verməmiş hadisələr necə bilinər?*

Elvin: *Zəhra xanım, yaşanmamış bir hadisə insan üçün yaşanmamışdır. Allah isə zamandan və məkandan asılı deyil, onsuz da zamanı və məkanı yaradan Özüdür. Buna görə də, Allah üçün indi, keçmiş, gələcək bir andır və hamısı olub bitmişdir.*

Xədicə: *Onda taleyinə qalib gəlmək deyə bir şey ola bilməz.*

Elvin: *Bəli Xədicə xanım, çox düz danışdın. İnsan taleyinə müdaxilə edə bilmədiyi kimi, taleyində olmadığı müddətcə də bir addım belə ata bilməz. Məsələn, insanın ömrü uzanmaz və ya qısalmaz. Allah bunu Quranda, Səba surəsinin 30-cu ayəsində:* ***"De: "Sizə vəd edilmiş bir gün vardır ki, siz onu nə bircə saat belə yubada, nə də tezləşdirə bilərsiniz.""*** *deyə bildirmişdir. Buradan da aydın olduğu kimi təsadüf nəticəsində bir şey baş verməz, edilən səhv nəticəsində bir hadisəylə qarşılaşılmaz. Hər şey Allahın müəyyənləşdirdiyi şəkildə, müəyyənləşdirdiyi vaxtda baş verir. Bunun qarşısını almaq və ya dəyişdirmək insanların əlində deyil. Yəni insanların belə bir gücü yoxdur.*

Tural: *İnsanlar ölüm, qəza, xəstəlik kimi hallarda və ya hadisələr istədikləri şəkildə getmədikdə bir cür üsyan duyğusu yaşayırlar. İndi bunun nə qədər səhv olduğunu daha yaxşı anlayıram.*

Elvin: *Seyr etdiyimiz hər hadisəni, hər an Allah yaratdığına görə, bu hadisələr bir hikmət və elmlə yaradılır. Heç bir şey boş yerə yaradılmaz. Məsələn, bir biznesmen Ankaraya getmək üçün təyyarəyə minər, amma son anda pul kisəsini yaddan çıxardıb aerodromda qoyduğunu xatırlayıb təyyarədən enər, onsuz havalanan təyyarə yerə çırpılar və beləliklə də, biznesmen ölümdən xilas olar. Belə vəziyyətdə tale həqiqətini qavramamış bir adam, bu adam barədə; "ölümdən xilas oldu, taleyini dəyişdirdi" kimi sözlər deyəcək. Əslində bu adamın yaşadığı hər an onun taleyinin bir hissəsidir. Təyyarəyə minməsi, pul kisəsini götürməyi yaddan çıxartması, təyyarənin yerə çırpılması və kənardan baxan bir adamın verdiyi şərhlərin hamısı taleyində mövcuddur, bir dəyişiklik olmamışdır. Tale əslində həyatın hər anına hakimdir. Bu tale ilk yaradılış anında məlum idi.*

Tural: *Yəni dünyaya gəlmədən əvvəl yaşayacağımız bütün hadisələrin bəlli olduğunu, Allah tərəfindən bilindiyinimi demək istəyirsən?*

Elvin: *Bəli Tural bəy. Bax bunu sənə yenə Qurandakı bir ayə ilə izah edəcəyəm. Allah insanlara belə söyləyir:* ***"Sən hansı bir işdə olsan, Qurandan nə oxusan, siz nə iş görsəniz, başınız ona qarışarkən Biz sizə şahid olarıq. Nə yerdə, nə də göydə zərrə qədər bir şey Rəbbindən gizli qalmaz. Bundan daha kiçiyi və daha böyüyü yoxdur ki, açıq-aydın Yazıda*** *(Lövhi-Məhfuzda)* ***olmasın."*** (Yunus surəsi, 61). *Bu ayədən də aydın olduğu kimi, yer üzündə baş vermiş və baş verəcək hər hadisə, hələ bu kainat yaradılmadan Allah Qatında yazıda müəyyən olmuşdur. Məhz bu səbəblə də, sən hələ dünyaya gəlmədən əvvəl, hətta sənin anan, atan, baban belə dünyada olmadığı vaxtda, sənin bu gün burada bizimlə bu söhbəti aparacağın Allah tərəfindən bilinməkdədir.*

Xədicə: *Mən yenə taleyin səhv başa düşülməsiylə əlaqədar bir nümunə vermək istəyirəm. Mənim bir tanışım dəri xərçənginə tutulmuşdu, çox az ömrü qaldığı deyilirdi, amma xaricdə müalicə aldı və sağaldı. Həmin vaxtlarda belə fikirlərlə daha tez-tez qarşılaşırdım; "ölümə qalib gəldi", "ömrü uzandı" kimi şeylər söyləyirdilər.*

Elvin: *Sizin də anladığınız kimi ömrün uzanması və ya qısalması qeyri-mümkündür. Xəstə olan adam taleyində, xəstə olduğunu, ölümünün yaxın olduğunu, müalicə olunduğunu və sağaldığını görər. Bütün bu hadisələr müəyyən ardıcıllıqla baş verər, amma əslində hamısının nəticəsi əvvəldən bəri məlumdur.*

Bu həqiqəti öyrəndikdə, bizə çətin gələn, ancaq həll edə bilmədiyimiz bir çox məsələnin asanlıqla həll olunduğunu görərik. Burada ən əhəmiyyətli mövzu, Allahın tək mütləq varlıq, tək güc sahibi olması və hər şeyi əhatə etməsidir. Belə olduqda, Allah bizə şah damarımızdan da yaxındır. Hər şey Onun nəzarəti altındadır, O hər şeyi ən gözəl şəkildə yerbəyer edib taledə müəyyən etmişdir. İnsan yalnız özü üçün müəyyənləşmiş taleyi seyr edər. Bu isə hər cür maddi və ya mənəvi narahatlığı, gələcəklə əlaqədar qorxuları yox edər. İnsanın dünya ehtirasları öz əhəmiyyətini itirər, yalnız Allahın rizasını qazanmaq əhəmiyyət qazanar. Beləliklə insan, hadisələri həqiqi mənasıyla və doğru şəkildə görüb şərh edər. Hər şeyin yaradıcısı və mütləq hakimi, üstün yaradıcı olan Allahın gücünü və hər şeyə hakim olduğunu qavrayar.

Tural: *Bu izah etdiklərin çox həssas və çox əhəmiyyətli mövzulardır. Əvvəllər bunu səhv anlayan, səhv şərh edən kəslər olmuşdurmu?*

Elvin: *Çox haqlısan! Tarixdə bu kimi azğın anlayışlar mövcud olmuşdur. Məsələn, bəzi cərəyanlar mövzuya yalnız bir cəhətdən baxmış və "ibadətə nə ehtiyac var, onsuz da hər şeyi Allah edir" demiş və ibadətləri tərk etmişdirlər. Bəziləri isə "insan boşuna çalışır" deyərək təmbəllik etmiş, heç bir şey üçün səy göstərməmişdirlər. Daha da azğın fikrə sahib kimsələr isə özlərini (Allahı tənzih edirik) Allah ilə bir hesab edəcək dərəcədə irəli getmişdirlər. Bu kimi azğın fikirlərə yiyələnən kəslərlə əlaqədar Ənam surəsinin 148-ci ayəsində;* ***"Müşriklər deyəcəklər: "Allah istəsəydi, nə biz, nə də atalarımız*** *(Ona)* ***şərik qoşar, nə də biz bir şeyi haram edə bilərdik." Onlardan əvvəlkilər də*** *(öz peyğəmbərlərini)* ***beləcə yalançı hesab etmişdilər. Axırda əzabımızı daddılar. De: "Bizə göstərə biləcəyiniz bir bilginizmi var? Siz ancaq zənnə qapılır və ancaq yalan danışırsınız.""*** *deyilərək, zənnə qapılaraq hərəkət edən bu cür kəslərin əslində həqiqəti söyləmədikləri və doğru yolda olmadıqları xəbər verilmişdir.*

Xədicə: *Bu çox əhəmiyyətli bir mövzudur. Bir qədər də ətraflı şəkildə izah edə bilərsənmi?*

Elvin: *Burada bilməyimiz lazım olan çox əhəmiyyətli bir məsələ var. Allah dünyada imtahan mühiti yaratmış və insanlara elçilər və kitablar göndərərək onlara doğru yolu və məsuliyyətlərini bildirmişdir. Qarşımızdakı məsuliyyət, bədən görüntüsüylə bağlı olduğumuz bu imtahan mühitində Allahın bizə bildirdiyi şəkildə hərəkət etməkdir. Yəni biz bu görüntülərə verdiyimiz reaksiyalardan ötrü məsuliyyət daşıyırıq. Axirətdə, bu görüntü mühitində etdiyimiz şeylərin qarşılığını cənnət və ya cəhənnəm olaraq görəcəyik.*

Xədicə: *Biz, həm heç nə etmirik, həm də edirik eləmi?*

Elvin: *Xədicə xanım mövzunun iki tərəfi var; birincisi zahiri, yəni*

görünən tərəfidir. Bu nöqteyi-nəzərdən baxdıqda, insan etdiyi hər şeyə görə məsuliyyət sahibidir. Biz, bədən görüntüsüylə bu dünyaya bağlanmışıq və ruhumuz bu görüntü aləmində baş verən hadisələrdən təsirlənir. Allah bizə belə bir hiss verir. Yəni acdığımız vaxt, bədən görüntüsünü yemək görüntüsüylə doyurmaq məcburiyyətindəyik. Bədənimiz xəstələndiyi vaxt, həkim və dərman görüntülərinə müraciət etməliyik, yorulduğumuz vaxt yatmaq və dincəlmək məcburiyyətindəyik. Bütün bu hadisələr və hisslər sonsuz elm və hikmətlə yaradılmışdır. Məhz bu səbəblə də, ilk baxışda bizə bu şəkildə görünən həyatın əsl mahiyyətini anlamaq və həqiqəti görmək hadisənin ikinci, yəni zahiri tərəfidir. Bu həqiqəti öyrənən insan əslində özünə məxsus bir gücü olmadığını, yalnız zehnindəki dünya ilə təmasda olduğunu və bütün gücün Allaha məxsus olduğunu anlayar. Beləliklə də, həyata və dünyaya həqiqi dəyərini verər.

Tural: *Yəni bu mövzunu bilən bir insan da xəstələnər, həkimə gedər, dərman qəbul edər, amma bunları edərkən əslində taleyini seyr etdiyini, bu hadisədəki hikməti, xəstəliyi verənin və sağaldanın Allah olduğunu qavrayar və buna uyğun reaksiyalar verər, elə deyilmi?*

Elvin: *Afərin Tural bəy. Sənin dediyin bu şey, Şuəra surəsində belə bildirilir:* ***"O Rəbb ki, məni yaratmış və məni doğru yola yönəltmişdir; O Rəbb ki, məni yedirdir və içirdir; O Rəbb ki, xəstələndiyim zaman mənə şəfa verir; O Rəbb ki, məni öldürəcək, sonra dirildəcəkdir; O Rəbb ki, Haqq-hesab günü xətalarımı bağışlayacağını Ondan umuram."*** (Şuəra surəsi, 78-82). *Bütün gücün Allaha məxsus olduğunu, Allahdan başqa dost və yardımçı olmadığını anlayan insan bu sayədə, Allaha tam səmimi şəkildə iman edər və ibadətlərini tam səmimiyyətlə yerinə yetirər. Bu hadisəni dərk etdiyi müddətcə dünyanın mənfi təsirlərindən xilas olar. Dərman qəbul edər, amma sağaldanın Allah olduğunu bilər. Yemək yeyər, amma doyuranın Allah olduğunu bilər, yəni eyni həyatı yaşamağa, həqiqətdən xəbərdar şəkildə davam edər.*

Zəhra: *Elvin bəy çox gözəl, çox düz deyirsən, amma indi məni bu dünyaya bağlayan evim, işim, bu qədər ildir ki, qazandığım mal-mülk, mən öldükdən sonra adımı, nəslimi davam etdirəcək uşaqlarım barəsində bir şey demədin. Əgər bu dediklərini qəbul etsəm, bunların əsllərivlə təmasda olmadığımı, yalnız zehnimdəki surətləriylə təmasda olduğumu da qəbul etməliyəm.*

Elvin: *Zəhra xanım, əgər istəyirsinizsə bu gün danışdığımız bu şeylər barəsində bir qədər düşünün və sabah edəcəyimiz son söhbətə mütləq qoşulun. Çünki sabah deyəcəyim şeylərin böyük bir hissəsi sizi və sizin kimi düşünənləri maraqlandırır.*

Zəhra: *Əlbəttə ki, sevə-sevə qoşularam. Onsuz da bu qədər açıq bir həqiqəti qəbul etməmək niyyətində deyiləm; bu, göz görə-görə həqiqətdən qaçmaq olar. Amma tam olaraq öyrənmək istədiyim bir neçə incə məqam daha var.*

Tural: *Hər şeyin zehnimdə yaranan hisslər olduğu, xarici aləmlə əsla*

təmasda ola bilmədiyim, ruh və Allahın varlığı mövzularında, məni maraqlandıran bir sual qalmadı, amma inşaAllah mövzunu daha da irəli apara bilərik. Bu təqdirdə, mən də yeni suallar taparam.

Xədicə: *Elvin bəy, belə inanılmaz bir həqiqət niyə bəzi insanları narahat edir? Həm də həqiqətlər qarşısında qulaqlarını tıxmalarının, gözlərini yummalarının bir faydası olmadığı halda!*

Elvin: *Bunu düşünmək üçün bir gün vaxtın var, sabah görüşdüyümüzdə ümid edirəm ki, bütün sualların cavabını tapmış olacaqsan.*



3 - CÜ GÜN

3-cü gün Zəhra xanımın evində keçər…

Zəhra: *Uşaqlar bəlkə mənə hirslənirsiniz, amma bir qədər də məni anlamağa çalışın. Əgər yaxşı niyyətli bir insan olmasaydım, bu günə qədər bütün görüşlərə gəlib bu mövzuları öyrənməyə çalışardımmı? Mən də həqiqətləri öyrənmək istəyirəm, amma insanın yaşı artdıqca bəzi şeylər daha çətin olur.*

Elvin: *Zəhra xanım elə deməyin, heç kim sizə hirslənmir. Dünən danışdıqlarımızı xatırlayın, bir şeyi anlamaq və ya anlamamaq, qəbul etmək və ya etməmək sizin taleyinizdədir (qədərinizdədir) və heç kimin bu taleyi (qədəri) dəyişdirməyə gücü çatmaz. Məhz bunu çox yaxşı bildiyimiz üçün bizim məsuliyyətimiz, ancaq həqiqətləri sizə izah etməkdir. Amma seçim hüququ sizindir.*

Xədicə: *Elvin bəy haqlıdır.*

Tural: *Elvin bəy yanında bir kitab gətirmisən, bu gün hansı mövzu barədə danışacağıq?*

Elvin: *Bu kitab Qurandır. Daha əvvəl sizə Qurandan verdiyim nümunələri həmişə əzbərdən demişəm, bu dəfə siz də oxuyub öz gözlərinizlə görün deyə yanımda gətirdim. Əgər siz də razı qalsanız, bu gün insanların maddi dünyanın həqiqi mahiyyətini bilmədən hərəkət etdikləri təqdirdə hansı çətin vəziyyətlərdə qaldıqları və həqiqəti öyrəndikdən sonra verdikləri reaksiyaların səbəbləri haqqında danışaq.*

Xədicə: *Bunlar həmçinin mənim suallarımın da cavabıdır.*

Tural: *Deyəcəyin şeyləri eşitmək üçün səbirsizlənirəm.*

Elvin: *İndi sizə Qurandan bəzi ayələr oxuyacağam. Bu ayələr əsasında danışarkən, iki gündür danışdığımız bütün mövzuları bir daha nəzərdən keçirmiş olacağıq. Əgər indiyədək danışdıqlarımız barəsində bir tərəddüdünüz vardırsa, bunu deməyin tam vaxtıdır.*

Tural: *Mən öyrəndiklərim qarşısında deməyə bir söz tapa bilmirəm. Həm gözümün qabağındakı həqiqəti öyrəndim, həm də bütün həyata baxışım tamamilə dəyişdi. İnsan düşündükcə, bu mövzudan həyatının hər sahəsində faydalanma imkanı tapır. Yaşadığım hər an mənim üçün əhəmiyyətli, mənalı bir hal aldı. Hər şeyi möcüzə kimi görməyə başladım. Amma çatışmayan bir çox cəhətimin olduğunu da bilirəm.*

Xədicə: *Mən onsuz da inanclı bir insan idim, amma mənim inanc hesab etdiyim şeylə, həqiqi mənada Allaha iman etmək, Onun sifətlərini hər yerdə görmək, Onun varlığını, gücünü, sifətlərini qavramaq arasında çox böyük fərq var. Mən yalnız başıma bir iş gəldikdə və ya bir imtahana girəcəyəm vaxt dua edərdim. Ramazan ayı gəldikdə, ailəcə oruc tutardıq, bəzən də ölümü xatırlayıb qorxu hissi keçirərədim, amma indi Allahı olduqca çox zikr etməyin və düşünməyin lazım olduğunu anlayıram. Ətrafımdakı insanların demək olar ki, hamısı bu cür yaşayır, bu cür düşünür. Mən tezliklə hər şeyi öyrənib ailəmə, dostlarıma danışmaq istəyirəm. Onsuz da bir-iki gündür, məndə bir dəyişiklik olduğunu da görürlər.*

Elvin: *Zəhra xanım…*

Zəhra: *Mən bu mövzuda danışmaq istəmirdim, amma yenə də deyim. Yaxşı, texniki cəhətdən heç bir şübhəm qalmadı, amma öyrəndiyim bu şeyləri gündəlik həyatıma tətbiq etməkdə bir qədər çətinliklə üzləşdim. Yəni məşğul olduğum, ağlımı qurcalayan o qədər çox mövzu vardır ki, bu həqiqəti yadda saxlaya bilmirəm.*

Elvin: *İstəyirsinizə, bu dediklərinizi yadınızda saxlayın, bir qədər sonra danışaq.*

Zəhra: *Necə istəyirsən.*

Elvin: *Daha əvvəl dediyim kimi, Quranda Allahın yeganə güc sahibi olduğu, hər şeyi əhatə etdiyi və hər şeyin yeganə hakimi olduğu mövzusunda çox sayda ayə var. Mən sizə bunlardan bəzilərini oxuyacağam. İlk öncə Bəqərə surəsinin 255-ci ayəsini oxuyuram:*

Allah, Ondan başqa ilah yoxdur, *(əbədi)* **Yaşayandır,** *(bütün yaratdıqlarının)* **Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər? O,** *(məxluqatın)* **gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, Ucadır, Uludur.**

Bu ayə və bu mövzudakı digər ayələrdə Allahın sifətləri bildirilir və bir qədər əvvəl danışdığımız, xalq arasındakı yanlış anlayışın əksinə, Allahın hər an hər hadisəni idarə etdiyi, hər an hər yerdə olduğu və mütləq varlığı ifadə edilir. Bu mövzuyla əlaqədar digər bir ayədə, Bəqərə surəsinin 115-ci ayəsində isə; **"Məşriq də, məğrib də Allahındır! Hansı səmtə yönəlsəniz, Allahın Üzü orada olar. Həqiqətən, Allah** *(hər şeyi)* **Əhatəedəndir, Biləndir."** deyilir.

Xədicə: *Müsəlman olmağıma baxmayaraq, bu günə qədər bir dəfə belə Quranı oxumadım. Bu mövzunun Quranda bu qədər açıq şəkildə izah edildiyini də təxmin etmirdim.*

Elvin: *İnsanlar həqiqətləri öyrənmək üçün, Allahın insanlara nazil etdiyi Kitabı oxumaq əvəzinə, oradan-buradan eşitdikləri məlumatlara inanırlar. Halbuki bu olduqca yanlış bir hərəkətdir. Hər insan Qurandan məsuldur və Quranı oxumaq, ayələrini öyrənmək və ayələrdəki hökmləri tətbiq etməklə məsuldur. Amma onsuz da, artıq bunun əhəmiyyətini anladığınızı düşünürəm.*

Zəhra: *Bunu etiraf etməliyəm ki, Xədicə xanım kimi mən də bu yaşıma qədər bir dəfə belə olsun Quran oxumadım. Halbuki oxumaq üçün çox imkanım olmuşdu.*

Elvin: *Gec qalmamısınız. Həqiqəti öyrənməyin, xətaya son qoymağın yaşı yoxdur.*

Zəhra: *Haqlısan.*

Elvin: *Bizi və hər şeyi yaradan Allah, Quran və elçiləri vasitəsilə bizə doğru olanı, gözəl olanı, səhv və pis şeyləri açıq şəkildə bildirmişdir. Burada yalnız bir neçəsini oxuduğumuz ayələrdən başqa, Quranda həyatımızın hər*

anında bizə rəhbərlik edəcək, doğru yolu göstərəcək nəsihətlər var. İnsanın ən əhəmiyyətli işi, Yaradanımızın verdiyi bütün öyüdləri, əmrlərini, qadağalarını ən yaxşı şəkildə öyrənib, qavrayıb tətbiq etməyə çalışmaqdır. Bunun qarşısında bir bəhanə gətirmək olmaz. Əks halda Nur surəsinin 39-cu ayəsində: **"Kafirlərin əməlləri səhradakı ilğıma bənzəyir ki, susamış kimsə onu su hesab edər. Ona yaxınlaşdıqda isə onun heç nə olduğunu görər. O öz yanında Allahı tapar. O da onun cəzasını verər. Allah tez haqq-hesab çəkəndir."** *deyə xəbər verildiyi kimi, böyük ehtimalla, xəyal olan bir həyatı şüursuz şəkildə yaşayıb, peşmançılıq çəkəcəyi bir aqibətlə üzləşəcəkdir.*

Zəhra: *Dostlar, daha çox tərəddüd etmənin mənasız olduğunu anlayıram. Əslində üç gündür ki, bu işin axırının necə olacağını təxmin edirdim, danışdığımız şeylərdə tək bir qüsur, tək bir səhv belə tapa bilmədim və nəticədə tərəddüd etməklə özümü aldatdığımı anladım. Bəli həqiqətlərdən qorxduğumu etiraf etməliyəm. Bəlkə də, sizin itirəcək elə də bir şeyiniz yoxdur, amma mən illərdir ki, sahib olduğum hər şeyi bir anda itirmək istəmirdim. Mənim vəziyyətim, malını, mülkünü, uşaqlarını, ailəsini və işini, bir anda itirən insanın məntiqsiz etirazlarından başqa bir şey deyildi, ancaq özünü aldatmağa çalışan bir insanın bu rəftarı həqiqəti dəyişdirmir.*

Elvin: *Zəhra xanım, sizi alqışlayıram. İnanın ki, sizin kimi reaksiya verən insanların sayı çox azdır. Ancaq deyəsən, bir şeyi səhv başa düşürsünüz. Siz heç bir şey itirmirsiniz. Əksinə çox böyük xeyir qazanırsınız. Çünki sahib olduğunuz hər şeyin, Allahın sizə verdiyi nemətlər olduğunu anlayırsınız. Dünyadakı imtahan mühitində Allahın sizi bu gözəl nemətlərlə sınadığını, bunları sizə cənnəti qazanmağınız üçün bir vasitə kimi verdiyini öyrənirsiniz. Əsla unutmayın, hər şeyi zehnində yaşadığını öyrənən bir insan əslində heç bir şey itirməz, əksinə hadisələrin gerçək üzünü anladığı üçün böyük xeyir qazanar. Məsələn, bir görüntü ilə təmasda olduğunu, hər şeyi Allahın özünə seyr etdirdiyini qavrayan bir insan bu məlumata görə hərəkət etdiyi vaxt, sahib olduğu şeylərə layiq olduqları qədər dəyər verər. Əsl dəyər verilməli varlığın, Rəbbimiz olduğunu unutmaz. Üstəlik hər şeyin Allahdan gələn bir nemət olduğunu bildiyi üçün, özünə verilən bütün nemətlərdən olduqca böyük həzz alar. Bu nemətlər üçün dayanmadan şükr edər. Amma həmçinin bu nemətlərin hamısının özünə, imtahan olunması üçün verildiyini bilər, bunlara qətiyyən yiyə durmaz, hərisliyə və ehtirasa qapılmaz. Beləliklə də, Allahın istədiyi kimi bir ömür sürərək, ölümdən sonra daha gözəl bir həyatı seyr etməyə başlayar.*

Zəhra: *Heç bu baxımdan düşünməmişdim.*

Elvin: *Allah, Ənam surəsinin 70-ci ayəsində;* **"Dinlərini oyun və əyləncə sayanları və dünya həyatının aldatdığı şəxsləri tərk et. Bununla xatırlat ki, heç kəs qazandıqlarına görə özünü məhvə məhkum etməsin. Allahdan başqa onun nə bir hamisi, nə də bir havadarı olacaqdır. O nə cür fidyə versə də, ondan qəbul olunmayacaq. Onlar qazandıqları** *(günahlara)* **görə məhvə məhkum olanlardır..."** *deyə buyurmuşdur. Bu ayədən*

aydın olduğu kimi təkəbbürlü, özünü bəyənmiş, hətta sanki özünü ilah hesab edən (Allahı tənzih edirəm) bəzi kəslər, əslində kinoteatr pərdəsindəki bir görüntü kimi xəyal olduqlarını anladıqları vaxt o təkəbbürün yerini böyük bir acizlik duyğusu alar. Gözünü dünya sevgisi bürüyənlər, sahib olduqları hər şeyin xəyal olduğunu gördükləri vaxt, dünyanın, uşaqlarının, vəzifələrinin, sərvətlərinin, ətraflarında güc sahibi kimi gördükləri dostlarının hamısının Allaha məxsus olduğunu, Allahın hakimiyyəti altında olduğunu anlayıb, dərindən sarsılırlar. Belə olduqda da, iki seçim hüquqları olur, ya maddə və dünyaya olan ehtirasları yox olur və Allaha üz tuturlar, ya da tam əksinə bu həqiqəti unutmağa çalışıb dünyaya daha çox bağlanırlar. Amma öz-özlərini aldatdıqlarını bildiklərindən ötrü, daim narahat, gərgin və əzab dolu bir ömür sürürlər.

Zəhra: *Elvin bəy, mən haqqı seçirəm. Əlbəttə ki, həqiqətlərdən qaçmağın heç bir fayda vermədiyini çox yaxşı anladım. Amma dediyin bu sözlər qəlbimi daha da möhkəmləndirdi.*

Elvin: *Göründüyünə görə, həqiqətən də siz haqqı seçmisiniz. Onsuz da gözəl olan, haqq olandır.*

Xədicə: *Elvin bəy, bildiyimə görə, gördüyü görüntünü beyninin içində gördüyünü anlamayan və ya anlamazlıqdan gələn bir çox insan var. Bunlar yazıçı, elm adamı, professor olmaqla, etibar sahibidirlər. Xüsusilə də bu mövzunu texniki cəhətdən tam bilən bu kəslər, bu mövzudan bəhs etməyərək ya bunu gizlədir, ya da bu mövzunu bilən biri kimi davranmırlar. Məsələn, tibb və biologiya sahəsində ixtisaslaşmış kəslər belə, bu mövzudan xəbərdar deyilmi?*

Elvin: *Xədicə xanım əslində bu sualın cavabını bir qədər əvvəl Zəhra xanım verdi. Əlbəttə ki, bir çox insan bu mövzunu bir yolla öyrənmişdir. Əgər bu mövzu təkcə görüntülərin beyində olmasıyla məhdudlaşsaydı, bundan əmin ol ki, indi hər kəs bunu qəbul edərdi. Ancaq xarici aləmlə təmasda ola bilmədiyini, hər şeyi beyninin içində etdiyini anlayan bir insan, dərhal ikinci mərhələni, yəni bu görüntüləri yaradanın Allah olduğunu istər-istəməz görər. Bütün həyatını sahib olduğu və sahib olmağı arzuladığı maddi dəyərlər üzərinə qurmuş bir insan, belə olduqda həqiqətləri anlamazlıqdan gəlməyə üz tutur. Çünki bu həqiqətlər ona, Allahın və buna bağlı olaraq haqq-hesab gününün, cənnət və cəhənnəmin varlığını da xatırladır. Əgər qarşımızdakı şüur və vicdan sahibi bir insandırsa, həyatını bu həqiqətə görə yenidən qaydaya salar. Belə olduqda problem yaranmır, ancaq bəzi insanlar bu həqiqəti gördükləri vaxt, təşvişə qapılıb özlərini aldatmaq yolunu seçirlər. Bu həqiqət onlara qorxu və narahatlıq verir. Zəhra xanımın da söylədiyi kimi, sanki unutmaqla və ya gözünü yummaqla həqiqətlərdən xilas olacaqlarını düşünürlər. Həqiqətləri qavraya bilməyən insanların vəziyyətinə Rum surəsində belə diqqət çəkilir:*

Onlar dünya həyatının görünən tərəfini bilir,
axirətdən isə büsbütün qafildirlər. (Rum surəsi, 7)

Zəhra: *Mən bunu, özüm də yaşadığım üçün bilirəm, insan ehtiraslarının əsiri olur. Yəni bəzi şeyləri görürsən, amma yiyə durduğun şeylərin heç birinin üzərində bir hökmranlığının olmadığını, hər şeyin səni də yaratmış olan Allahın idarəsi altında olduğunu düşünmək, ilk anda insana bir qədər qəribə gəlir. Bir də özünü çox güclü, çox ağıllı, müvəffəqiyyət və vəzifə sahibi bir biznesmen kimi gördüyün vaxt; "göynən gedirsən". Belə bir insana; "əslində yaşadığın hər şey zehnində yaradılır, bu pulların, fabriklərin, işçilərin, katibələrin, malların, evlərin, avtomobillərin əsllərilə təmasda deyilsən" dediyin vaxt ehtirasları dövrəyə girir.*

Elvin: *Yəni, ayədə;* **"Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl göstərilmişdir. Bunlar, dünya həyatının keçici zövqüdür, gözəl qayıdış yeri isə Allah dərgahındadır."** (Ali İmran surəsi, 14) *deyə bildirildiyi kimi.*

Zəhra: *Bəli tam da ayədə deyildiyi kimi.*

Elvin: *Quranda şeytandan bəhs edilərkən, onu doğru yoldan sapdırıb Allaha üsyana sövq etdirən səbəblərin başında maddə sevgisi və mütləq varlıq olmaq ehtirasının gəldiyi bildirilir. Bu şeytani ehtiras insanı böyük bir hərisliklə dünyaya bağlamaq istəyər. Xəyal olmaq, "bir heç" olmaq, əzəmətli, təkəbbürlü insanların əsla qəbul etməyəcəkləri bir həqiqətdir. İnkar ediləsi mümkün olmayan həqiqətdir, yaşanaraq sübut edilər, ancaq buna baxmayaraq, dünya ehtirası və onu itirmə ehtimalı bəzi kəslərin bu açıq-aydın həqiqəti düşünməsinə mane olar. Quranda şeytanın özündən razılığı və azğınlığı xüsusilə vurğulanmışdır. Baxın oxuyuram:*

... İblisdən başqa *(hamısı)* **səcdə etdi. O, səcdə edənlərdən olmadı.**
(Allah) **dedi: "Mən sənə əmr etdikdə sənə səcdə etməyə nə mane oldu?"**
(İblis) **dedi: "Mən ondan daha üstünəm. Çünki Sən məni oddan, onu isə palçıqdan yaratmısan!"** (Əraf surəsi, 11-12)

Xədicə: *Elvin bəy bu əhəmiyyətli həqiqətləri bizə səbirlə izah etdiyin üçün sənə çox təşəkkür edirəm. Bu mövzu barəsində çox düşünmüşdüm və bu mövzunu tam təfərrüatlı şəkildə bilmək istəyirəm. Allahın izni ilə bu gün ağlımda məni maraqlandıran heç bir sual, heç bir qaranlıq nöqtə qalmadı.*

Elvin: *Əsl mən, bu gözəl söhbət üçün təşəkkür edirəm. Xədicə xanım hələlik tələsmə, hələ izah etmək istədiyim bir neçə şey daha var. İstəyirsinizsə gəlin televizoru açıb bir qədər seyr edək. Bu mövzuyla əlaqədar qarşımıza bir neçə nümunə daha çıxa bilər.*

Tural: *Baxın ən sevdiyim şou proqramı başladı. Televiziyada bir şou proqramı gedir, indi düşünürəm ki, görəsən bir insanın gedib buradakı aparıcıya həqiqətləri izah etdiyi, yəni bu tamaşaçıların, onu çox sevindirən bu böyük tamaşaçı kütləsinin, əslində beynində yaradıldığını, alqış səslərinin, arxasındakı bir çox jurnalistin, öz gözəlliyinin, malının, ailəsinin də eynilə zehnində canlanan görüntülər olduğunu, hal-hazırda əslində Allahın hüzurunda olduğunu, hər kəsin tərifləyiği zəkasının belə özünə aid olmadığını söylədiyi təqdirdə, onun buna necə reaksiya verəcəyi mənə çox*

maraqlıdır.

Xədicə: *Yəqin ki, bundan o qədər xoşu gəlməzdi... Bax, bu kanalda da iqtisadiyyat mövzusunda açıq iclas keçirilir. Onların vəziyyəti daha da çətindir. Bütün iqtisadiyyatın, pulların, bankların, inflyasiyanın, müştərilərin və BVF-nin seyr etdikləri bir görüntü olduğunu onlara necə izah etmək olar bilmirəm. Ciddi-ciddi danışırlar, bunlara; "bunlar sizin zehninizdə yaraadılır, bu ehtiraslardan uzaqlaşın, yalnız Allahın rizasını axtaran bir həyata üz tutun" desən, əlindən oyuncağı alınmış uşaq kimi hirslənə bilərlər…*

Elvin: *Bəli Xədicə xanım haqlısan. Bu insanların ən böyük səhvidir, yəni həqiqətləri unudub dünyaya ehtirasla bağlanmaları. Halbuki insanlar Allaha təslim olsalar, Ona təvəkkül etsələr, həqiqətlərdən qaçmaqdan imtina etsələr, çox xoşbəxt, rahat olar və əmin-amanlıq içində yaşayarlar. Allah, Özünə üz tutan insanlara daim doğru yolu göstərər, problemləri də vardırsa onlara ən gözəl çıxış yollarını təqdim edər. Baxın, sizə bu mövzuda bir ayə oxumaq istəyirəm:*

… Allahdan qorxana, *(Allah)* **çıxış yolu göstərər və ona təsəvvürünə gətirmədiyi bir yerdən ruzi bəxş edər. Kim Allaha təvəkkül etsə,** *(Allah)* **ona kifayət edər. Allah Öz əmrini yerinə yetirəndir...** (Talaq surəsi, 2-3)

Xədicə: *Bu çox əhəmiyyətli bir həqiqətdir. Yəni televiziyada seyr etdiyimiz bu insanlar içində olduqları çətin vəziyyətdən, ancaq dünyəvi ehtiraslarından uzaqlaşıb Allaha üz tutduqları təqdirdə xilas ola bilərlər.*

Elvin: *Bəli Xədicə xanım. Həmçinin bir qədər əvvəl qeyd etdiyin kimi, xəyaldan başqa bir şey olmayan şeylərin, sanki əsliylə təmasda olurmuş kimi hərəkət edən bu insanlar, içində olduqları vəziyyəti görsələr yəqin ki, çox çətin vəziyyətdə qalarlar. Ömrünü bir xəyal arxasınca qaçmaqla keçirib ən sonunda həqiqəti görən bir insanın keçirdiyi peşmançılıq və xəcalət hissini təsvir etmək qeyri-mümkündür. Kəhf surəsində bu insanların vəziyyətinin necə izah olunduğuna bir baxın:*

De: "Sizə əmlləri baxımından ən çox ziyana uğrayanlar barəsində xəbər verimmi? O kəslər haqqında ki, onların dünya həyatındakı səyləri boşa çıxmışdır. Çünki onlar özlüyündə yaxşı işlər gördükləri gümanında idilər. (Kəhf surəsi, 103-104)

Zəhra: *Bütün həyatıma yenidən nəzər salmağımın və Allaha təslim olmağımın lazım olduğunu, artıq çox yaxşı anlayıram.*

Xədicə: *Mən də öyrəndiyimiz bu həqiqətlərdən sonra əvvəlki kimi olmayacağam. Elvin bəyin söylədiyi kimi yeni bir həyata başlamış vəziyyətdəyəm. Öyrəndiyim şeyləri düşünüb həyata keçirəcəyəm. Allahdan başqa bir güc sahibi olmadığı üçün, işə əvvəlcə onu tanımaqla, Ona yaxın olmaqla və Onun istədiyi kimi hərəkət etməklə başlayacağam. Əlbəttə ki, bütün bunları edə bilmək üçün dərhal bir Quran alacağam və Allahın məndən istədiklərini öyrənəcəyəm.*

Tural: *Deməli, bu vəziyyətdə hamımız eyni fikirdəyik. Bu üç gün ərzində bütün həyatım, bütün planlarım dəyişdi. Mən bir müəllim olduğum üçün*

üzərimdə ayrıca böyük bir məsuliyyət də hiss edirəm. Öyrəndiyim bu həqiqəti daha da dərindən mənimsəyib bilməyənlərə başa salmaq, mənim üçün ən əhəmiyyətli vicdani məsuliyyət halını aldı.

Elvin: *Dostlar, unutmayın ki, bir neçə gün ərzində çox əhəmiyyətli həqiqətlər barəsində danışdıq. Mən sizə bu həqiqətləri izah edirmiş kimi görünmüş ola bilərəm. Halbuki, mən də sizinlə birlikdə dinlədim. Heç bir insanın danışma, düşünmə gücü yoxdur. Allah insanın taleyində (qədərində) nə yazmışdırsa, insan da onu danışar və onu düşünər. Allah bizə bu söhbətlərlə Öz qüdrətini başa salmış, xatırlatmış oldu.*

Bunu anladıqdan sonra hamımız Ondan kömək diləməli və Hz. Süleymanın ayədə bildirilən duası kimi; **"...Ey Rəbbim! Mənə həm mənim özümə, həm də valideynlərimə əta etdiyin nemətə şükür etmək üçün, Sənin razı qalacağın yaxşı əməl etmək üçün ilham ver və məni öz mərhəmətinlə əməlisaleh qullarına qovuşdur!"** (Nəml surəsi, 19) deyə dua etməliyik.

MADDƏNİN HƏQİQƏTİ MÖVZUSUNA GƏLƏN ETİRAZLARA CAVABLAR

Maddənin həqiqəti mövzusu son dərəcə açıq, aydın və başa düşülən olduğuna baxmayaraq, daha əvvəlki mövzularda da toxunulduğu kimi, bəzi insanlar bir çox səbəbdən bu həqiqəti qəbul etməkdən qaçırlar və özlərini bilməməzliyə vururlar.

Bu həqiqəti öyrənən bir çox insan maddənin ardındakı sirri öyrəndiklərinə görə, yaşadıqları qeyri-adi həyəcanı dilə gətirmiş, bu həqiqətin həyatlarını və bütün düşüncələrini kökündən dəyişdirdiyini bildirmişlər. Bir çox insan isə bu həqiqəti daha yaxşı qavraya bilmək üçün daha ətraflı suallar verərək mövzunu daha dərindən anlamağa çalışmışlar.

Bəzi kütlələr isə bu mövzunu kor-koranə rədd edir və öz ağılları ilə bəzi məntiqlər irəli sürərək bu qeyri-adi həqiqəti inkar etməyin yollarını axtarırlar. Əslində isə, bu mövzunun rəddi elmi cəhətdən mümkün deyil. Bu mövzunu rədd edən insan görüntünün və ya səslərin beyninin içində əmələ gəlmədiyini elmi cəhətdən sübut etməlidir. Amma gələn etirazların heç birində heç bir elm adamı, nevrologiya professoru, beyin mütəxəssisi, psixoloq, psixiatr və ya biologiya professoru – heç kim bütün hisslərimizin beynimizdə əmələ gəldiyini inkar etmir. Çünki bu elmi cəhətdən qəti olduğu bilinən həqiqətdir.

Buna baxmayaraq, bəziləri "Görüntü beynimizdə əmələ gəldiyinə görə..." -deyə başlayan bir cümlənin ardınca açıq-aşkar bir həqiqətdən qaçmaq üçün bəzi söz oyunları oynayır, bu həqiqətin üstünü söz oyunları və ya təmtəraqlı elmi üslubla örtməyə çalışırlar. Bunun ən açıq nümunələrindən biri "Görüntü beyində əmələ gəlir?" -deyə sual verilən bəzi elm adamlarının verdikləri cavablardır.

Bu elm adamlarından biri sözügedən suala belə cavab verirlər: "Xeyr, beyində görüntü əmələ gəlmir. Gələn siqnallar əyani təcrübənin əsasını təşkil edən görüntü əmələ gətirirlər".

İndi bu elm adamının həqiqətləri görməzlikdən gəlmək üçün istifadə etdiyi metodu nəzərdən keçirək. Bu elm adamı "Görüntü beyində əmələ gəlir?" sualına əvvəlcə qəti şəkildə: "Yox", - deyir. Ardınca da gələn siqnallarla görüntünün görməyimizi təmin edən təsviri görüntünü əmələ gətirdiyini bildirir. Nəticədə, verilən suala əslində: "Bəli", -deyir. Beyində əmələ gələn görüntü, əlbəttə, "təsviri görüntü"dür. Yəni beyinin içində heç vaxt masanın, günəşin və ya göy üzünün özü olmaz. Təsviri və ya başqa sözlə, görüntüsü olur. Biz də: "Dünyanı görürük", - deyərkən "təsviri dünyanı", "dünyanın surətini" və ya "xəyali dünyanı" görürük. Bunların hamısı eyni həqiqətin fərqli formalarda ifadəsidir. Bu elm adamının etdiyi şey "Beynimizdə gördüyümüz dünya təsviri dünyadır?" sualına "Əsla yox, beynimizdə gördüyümüz dünyanın surətidir" kimi cavab verməsidir. Yəni verilən sualı əvvəlcə qətiyyətlə inkar edib sonra ardınca da fərqli izahla, bir az daha qarışıq cümlələrlə beynimizdə gördüyümüzü təsdiq edir. Bu, bəzi elm adamlarının bu həqiqəti qəbul etdikdə tək mütləq varlıq kimi qəbul etdikləri maddəni itirməyin gətirdiyi qorxu və həyəcan ilə üzləşdikləri

səmimiyyətsiz metoddur.

Bəziləri isə görüntünün beynimizdə əmələ gəldiyini inkar etmir, amma yenə: "Bəli, bütün dünyanı beynimin içində görürəm" -deməkdən qaçmaq üçün: "Beyin sadəcə gələn siqnalları şərh edir və sinir fəaliyyətlərini nizamlayır, beləliklə, görüntünü görür, səsi eşidirsiniz", -deyərək dolayı yolla cavab verirlər. Onsuz da əsas məsələ beyin bütün prosesləri etdikdən sonra görüntünün harada əmələ gəlməsidir. Bu elm adamının verdiyi cavab sualın cavabı deyil, görüntü əmələ gəlməzdən əvvəlki mərhələnin qısa izahıdır. Beyin gələn siqnalları şərh edir, ancaq sonra bu şərh etdiklərini yenidən gözə və ya qulağa geri göndərmir. Ona görə də görən göz, eşidən də qulaq deyil. Elə isə, beyin gələn siqnalları şərh etdikdən sonra nə edir? Bu şərh edilən məlumat harada qalır, bu məlumat görüntüyə və ya səsə harada çevrilir? Bu məlumatı görüntü kimi görən, səs kimi eşidən kimdir? Bu elm adamlarından istənilən cavablar bunlar ikən, onlar bir çox dolayı cavabla həqiqəti etiraf etməkdən qaçırlar. Əslində, bu qədər açıq həqiqətlə bağlı mübahisə edilməsi böyük möcüzədir.

Ancaq bu etiraz və ya mövzudan qaçma üsullarının hamısı əsassız və zəifdir. Burada izah edilənləri inkar edən şəxsin bütün hisslərimizin beynimizdə əmələ gəlməsi həqiqətini inkar edən bilgilərlə gəlmədikcə deyəcəklərinin dəyəri olmayacaq. Ancaq insan çox açıq həqiqəti qavradığı halda, bu görüntüləri əmələ gətirənin – öz fikrinə görə və cahil inadkarlıqla – Allah olduğunu inkar edə bilər; "Bu mövzu haqqında düşünmək əhvalımı pozur", -deyə bilər; "Maddənin əslini heç vaxt görə bilmədiyimi düşündükcə ürəyim sıxılır", "Həyatımın heç bir mənası qalmadı", -deyə bilər. Amma bunu dərhal bildirmək lazımdır ki, maddə mövzusundakı bu mühüm həqiqəti öyrənmək əsla əhvalı pozmur. Əksinə olaraq, Allahın üstünlüyü və gücünü daha dərindən təqdir etməyə, Allahın üstün yaratma sənətini daha yaxşı qavramağa, Allahı daha çox sevməyə, beləliklə, gördüyü bütün görüntülərin də Allahın təzahürləri olması şüuru ilə daha çox sevməyə, hamısından daha çox şövq almağa, imanda dərinləşməyə səbəbdir. Qısaca desək, çox böyük nemətdir. Buna baxmayaraq, heçlik halına gəlib Allahdan başqa heç bir varlığın qalmaması imanın dərinliyini qavramamış bəzi insanlara ağır gələ bilər. Ancaq bu insanlar əsla: "Gördüklərimi gözlərimlə görürəm", - və ya: "Gördüklərim xarici aləmdəki maddənin əslidir", -deyə bilməzlər. Çünki bunları sübut edəcək heç bir elmi dəlilə və ya müşahidəyə malik deyillər, ola da bilməzlər. Onsuz da ən qatı materialist belə bütün görüntünü beynində gördüyünü qəbul edir.

Bu bölmədə, əsasən, bu həqiqəti qəbul etmək istəməyən şəxslərdən gələn etirazlara verilən cavablara yer veriləcək. Aşağıdakı etirazları və cavablarını oxuduqda, səmimi və obyektiv düşündükdə bu sualların cavablarının çox açıq olduğunu siz də görəcəksiniz.

Etiraz:
"Yolda avtobus gördükdə əzilməmək üçün qaçırsınız. Deməli, avtobus var. Əgər beyninizdə görürsünüzsə, niyə qaçırsınız?"

Cavab: Bu və buna bənzər sualları verənlərin yanıldıqları və anlaya bilmədikləri cəhət hiss məfhumunun sadəcə görmə hissi ilə bağlı olduğunu hesab edirlər. Əslində isə, təkcə görmə deyil, toxunma, vurma, zərbə, sərtlik, ağrı, isti, soyuq, nəm kimi bütün hisslər eynilə görmə kimi insanın beynində əmələ gələn hisslərdir. Məsələn, avtobusa minmək üçün avtobusun "soyuq metalını əlində hiss edən insan", əslində, bu soyuq metal hissini beynində hiss edir. Bu, çox açıq və məlum həqiqətdir. Toxunma hissi, daha əvvəl də bildirildiyi kimi, bir insanın barmaqlarından gələn sinir oyanmalarının beyinin müəyyən nöqtəsində əmələ gətirdiyi hissdir. Hiss edən barmaqlarımız deyil. İnsanlar bunu elmi cəhətdən də açıqlandığı üçün qəbul edirlər. Ancaq məsələ avtobusun qapısını tutmaq deyil, avtobus insanı vurduqda, yəni bu toxunma hissi daha şiddətli və ağrılı olduqda, bu həqiqətin əsassız olduğunu hesab edirlər. Əslində isə, ağrı və ya zərbə də beyində hiss edilir. Avtobusun vurduğu insan zərbənin şiddətini və bütün ağrını beynində hiss edir.

Bəzi insanlar avtobusa toxunduqda soyuq metal hissinin beyinlərində əmələ gəldiyini qəbul edirlər. Ancaq avtobus vurduqda meydana gələn ağrı hissinin də beyində əmələ gəldiyini qəbul etmirlər. Əslində isə, insan yuxuda onu avtobus vurduğunu görərsə, eyni ağrını hiss edəcəkdir.

Bunu daha yaxşı anlamaq üçün yuxuları düşünmək faydalı olar. İnsan yuxuda da onu avtobus vurduğunu, qəzadan sonra gözünü xəstəxanada açdığını, əməliyyat edildiyini, həkimlərin danışıqlarını, ailəsinin narahatlıq içində xəstəxanaya gəldiyini, şikəst olduğunu görə bilər. Yuxuda yaşadığı bütün bu hadisələrin görüntülərini, səslərini, bərklik hissini, ağrını, işığı, xəstəxanadakı rəngləri, hər cür hissi çox parlaq və aydın hiss edir. Bunların hamısı gerçək həyatdakı kimi təbii və inandırıcı olur. O an yuxuda birisi ona yuxu gördüyünü, gördüklərinin xəyal olduğunu deyərsə, ona inanmaz. Əslində isə, gördüklərinin hamısı xəyaldır və avtobus, xəstəxana və ya yuxuda gördüyü bədəninin xarici aləmdə maddi qarşılığı yoxdur. Yuxuda gördüyü bədənin və avtobusun maddi qarşılıqları olmamasına rəğmən, "həqiqi bədənə" "həqiqi avtobus" vurmuş kimi hiss etməkdədir.

Elə isə materialistlərin "maddənin varlığını şillə yesən, anlayarsan", "dizinə təpik dəysə, maddənin varlığına şübhən qalmaz", "it görəndə qaçırsan", "avtobus vursa, beynində olub-olmadığını anlayarsan", "əgər hissdirsə, onda şosseyə çıxıb avtomobillərdən qaçmadan ortada dur" kimi etirazların heç bir mənası və əsası yoxdur. Sürətli zərbə, itin ağrı verən dişləri və ya möhkəm şillə maddənin əsli ilə təmasda olduğumuzun dəlili deyil. Çünki bildirildiyi kimi, bunları eynilə yuxuda da maddi qarşılığı olmadığı halda yaşaya bilirsiniz. Bundan əlavə, hissin şiddətli olması o hissin beyində əmələ gəlməsi həqiqətini də dəyişdirmir. Bu, elmi sübutu olan açıq həqiqətdir.

İnsan hər hansı bir itin hücumuna məruz qalarsa, bütün bunları beynində gördüyü həqiqəti dəyişməz. Çünki insan eyni hadisəni yuxuda da bütün gerçəkliyi ilə görə bilər, eyni həyəcan və qorxunu yuxuda da yaşaya bilər.

Bəzi insanların şossedə sürətlə keçən avtobusu və ya avtobusun səbəb olduğu qəzanı maddənin fiziki varlığı ilə təmasda olduqlarının təsirli dəlili zənn etmələrinin səbəbi görüntünün insanı aldadacaq qədər həqiqi görünməsi və hiss edilməsidir. Məkan görüntülərindəki, məsələn, şossedəki dərinlik və

perspektivin qüsursuzluğu, məkanda görünən cisimlərin rəng, forma, kölgə mükəmməlliyi, səs, qoxu və sərtlik hisslərinin çox aydın olması və görüntünün içində məntiq tamlığının olması bəzilərini yanıldır. Bəzi insanlar bu hadisələr nəticəsində bunların hiss olduğunu unudurlar. Amma zehində meydana gələn hisslər nə qədər tam və mükəmməl olsa da, bunların hər birinin hiss olması həqiqəti dəyişməyəcək. İnsan şossedə yeriyərkən qəza baş versə də, zəlzələdə uçan evin altında qalsa da, yanğında alovlar ətrafını bürüsə də, pilləkəndən yıxılsa da, bütün bu hadisələri zehnində yaşayar və əsla əsilləri ilə təmasda ola bilməz.

Bir insan şossedəki avtobusun qarşısına özünü atdıqda zehnindəki avtobus zehnindəki bədənini vurur. O insanın bu qəza nəticəsində həyatını itirməsi, bədəninin parçalanması bu həqiqəti dəyişdirmir. Əgər insanın zehnində gördüyü bu hadisə ölüm ilə nəticələnirsə, Allah o insana göstərdiyi görüntünü pərdənin qaldırılması kimi qaldırır və o şəxsə başqa bir görüntü, axirətə aid görüntülər göstərir. Bu həqiqəti indi səmimiyyətlə düşünüb anlamayanlar öldükdə dərhal anlayacaqlar.

Etiraz:
"Bütün cisimləri beynimdə gördüyüm doğrudur, ancaq bunların hamısının xəyali görüntü olmasına inana bilmirəm."

Cavab: Bütün dünyanı beynimizdə hiss etməyimiz elmin qəti şəkildə sübut etdiyi və savadlı insanların heç birinin əksini iddia etmədiyi həqiqətdir. Ancaq insanların dərk edə bilmədikləri əsas məsələ budur: "Biz bütün cisimləri zehnimizdə hiss ediriksə, zehnimizdən kənarda mövcud olan cisimlərin əsllərini heç bilməyəcəyik?" Bu şübhə doğrudur, biz heç vaxt zehnimizdə hiss etdiklərimizdən kənarda maddənin əslinin olub-olmadığından əmin ola bilmərik. Çünki biz beynimizdən kənara çıxıb xarici aləmdə nə olduğunu görə bilmərik. Beyindəki görüntülərin xarici dünyada qarşılığının necə olduğunu bilməyimiz elə buna görə mümkün deyil. Çünki nə bu iddianı irəli sürən şəxs, nə nevroloq, nə beyin cərrahı, nə filosof, nə də hər hansı başqa bir insan bu günə qədər beynindən kənara çıxmamışdır ki, beynindən kənardakı maddənin necə olduğunu bilsin.

Beyinə gedən sinirlər kəsilərsə, beyində heç bir görüntü əmələ gəlməyəcəkdir.

İnsanın həyatına dair bildiyi hər şey beyninə gələn elektrik siqnallarının beyni tərəfindən qavranma formasından qaynaqlanır. Yəni insan daima öz beyninin içində əmələ gələn dünyasında yaşayır. Göyə baxdıqda gördüyümüz

quşlar, küçənin o biri tərəfində gözdən itməkdə olan avtomobil, otağımızdakı əşyalar, əlimizdəki bu kitab, dostlarımız, qohumlarımız, bunların hamısı beynimizdəki xəyali görüntülərdir. Heç kim beyninin içində əmələ gələn bu həyatdan kənara çıxa bilməz. Bu, nə elmlə, nə də texnologiya ilə əldə edilməsi mümkün olan vəziyyətdir. Çünki elm adamı nə icad etsə də, yenə onu beyninin içindəki görüntünün içində icad edəcəkdir. Ona görə, "xarici aləmi görmək üçün icad etdiyi şey" də beyninin içindəki görüntünün içində qalacaqdır.

Heç bir insanın maddənin əslinin nəyə bənzədiyini bilməsi mümkün deyil; çünki heç bir insan maddənin əsli ilə heç vaxt təmasda olmamışdır. İlk insandan bəri yer üzündə səsin əslini eşidən, mənzərənin əslini görən və ya gülün əslini qoxulayan tək bir insan belə yaşamamışdır.

Etiraz:
"Bıçağı əlimə sürtdükdə, əlimdə hiss etdiyim ağrı, əlimdən axan qan görüntü deyil. Həm də bunu yanımdakı dostum da gördü."

Cavab: Əslində, bu mövzunu bundan əvvəlki etirazların cavablarında ətraflı izah etmişdik. Ancaq mövzunu əhəmiyyəti baxımından bir daha vurğulamaqda fayda var.

Bu etirazı edənlər görüntüdən başqa səs, qoxu, toxunma kimi digər hisslərin də beyində əmələ gəldiyini görməzlikdən gəlib xəta edirlər. Buna görə: "Bıçağı beynimdə görə bilərəm, amma baxın, bıçağın itiliyi həqiqidir, çünki əlimi kəsdi", -deyirlər. Əslində isə, bu şəxsin əlindəki ağrı, axan qanın verdiyi istilik və nəmlik hissi və bütün digər hisslər də beynində əmələ gəlir. Yanındakı dostunun bu hadisəyə şahid olması bu həqiqəti dəyişdirmir, çünki dostu da, bıçaqla eyni yerdə, yəni beynindəki görmə mərkəzində əmələ gəlir. Bu şəxs eyni hissləri-bıçaqla əlini kəsdiyini, əlindəki ağrını, qanın görüntüsünü və istiliyini eynilə yuxuda da yaşaya bilər. Əlini kəsdiyini görən dostunu da yuxuda görür. Amma dostunun varlığı bu gördüklərinin yuxu olmadığının dəlili deyil.

Bir insan əlini kəsdikdə hiss etdiyi ağrı, nəm, sızıldama hissi də beyində əmələ gəlir. Eyni insan yuxuda da əlini kəsdiyini görə bilər və eyni hissləri yuxusunda da yaşaya bilər. Əslində isə, yuxuda sadəcə xəyal görür, ortada nə bıçaq, nə də qanayan yara var. Elə isə ağrı hissi bütün həyatımızı beynimizin içində görüntü kimi gördüyümüz həqiqətini dəyişdirmir.

Hətta yuxuda əlini kəsdikdə biri gəlib: "Bu gördüklərin hissdir, bu bıçaq həqiqi deyil, əlindən axan qan, hiss etdiyin ağrı da həqiqi deyil, bunların hamısı hal-hazırda zehnində gördüyün hadisələrdir" , -deyərsə, həmin şəxs buna inanmaz və yenə etiraz edər. Hətta bəlkə: "Mən materialistəm. Belə iddialara inanmıram. Hal-hazırda gördüklərimin hamısını hiss edirəm, bax, qanı görmürsən?" -deyər.

Elə: "Maddənin əsli ilə təmasda oluram", -deyə israr edənlər yuxarıdakı misalda görünən şəxs kimidirlər. İçində yaşadıqları hisslər dünyasında: "Bütün bunlar hissdir və bu hisslərin əsli ilə əsla təmasda ola bilməzsən", -deyilir, ancaq onlar bu həqiqətə inadla qarşı çıxırlar.

Ancaq bunu da unutmaq olmaz ki, insanın əli kəsildikdə: "Necə olsa, bu bir görüntüdür", -deyərək tədbir görmədən dayanmaz. Çünki Allah bu görüntülər içində insanları bəzi səbəblərə bağlı şəkildə yaratmışdır. Məsələn, əli kəsilən insan bunun üçün lazımi dərmanlardan istifadə edir, əlini sarıyır və həkimə gedir. Ancaq bu proseslərin hamısının beynində əmələ gələn görüntüləri ilə təmasda olur. Sarğı bezi də, istifadə etdiyi dərmanlar da beynində əmələ gələn görüntülərdir.

Etiraz:
"Maddənin zehnimizdə gördüyümüz xəyalı ilə təmasda olduğumuzu söyləmək İslam dininə uyğundur?"

Cavab: Bəzi müsəlmanlar maddənin beynimizdəki xəyalı ilə təmasda olduğumuz həqiqətinin İslam dininə uyğun olmadığını irəli sürür və keçmişdə din alimlərinin bu həqiqəti qəbul etmədiklərini iddia edirlər. Ancaq bu, doğru deyil. Əksinə, burada izah edilənlər Quran ayələrinə tamamilə uyğundur; hətta bir çox ayənin cənnət və cəhənnəmin, sonsuzluq, zamansızlıq, ölümdən sonra dirilmə, axirət kimi Quranda bildirilən mövzuların qəti şəkildə başa düşülməsi baxımından da son dərəcə vacibdir.

Əlbəttə, bu mövzunu bilməsə də, insan həqiqi imanı ilə yaşaya bilər. Allahın Quranda bildirdiyi hər şeyə könüldən və heç bir şübhə etmədən iman gətirə bilər. Amma bunu bildirmək lazımdır ki, bu mövzu insanın imanda və Allaha yaxınlıqda dərinləşməsini təmin edir və keçmişdə bir çox böyük İslam alimi də bu həqiqəti bu yöndə açıqlamışlar. Ancaq yaşadıqları dövrdə elmin bu mövzunu hələ aşkar etməməsi və mövzunu səhv anlamağa meyilli insanların varlığı onların bu izahlarının geniş kütlələrə yayılmasına mane olmuşdur.

Maddənin əsl mahiyyətini açıqlayan İslam alimlərindən biri və ən böyüyü "hicri 10-cu əsrin mücəddidi" sayılan və əsrlərdir bütün İslam dünyasının böyük hörmətini qazanmış **İmam Rəbbani**dir. İmam Rəbbaninin *"Məktubat"* adlı əsərində bu mövzu ilə bağlı hərtərəfli izahlar yer alır. İmam Rəbbani Allahın kainatı "hiss və xəyal" mərtəbəsində, yəni hiss dərəcəsində yaratdığını bir məktubunda belə açıqlayır:

Yuxarıda belə bir cümlə işlətdim: "Sübhan Haqqın xəlqi (Allahın yaratması) hiss və xəyal mərtəbəsindədir". Bunun mənası belədir:

Allahu-Təala əşyanı elə bir mərtəbədə yaratmışdır ki, o mərtəbədə əşya üçün hiss və xəyaldan başqa bir yerdə sübut (sabitlik) və hüsul (varlıq) yoxdur.

(Mektubat-ı Rabbani, 357. Mektup, çev. Abdulkadir Akçiçek, Çile yayınevi, 1983, s. 163)

Diqqət edilirsə, İmam Rəbbani bizim gördüyümüz aləmin, yəni bütün varlıqların hiss və xəyal mərtəbəsində, yəni hiss səviyyəsində yaradıldığını xüsusi şəkildə vurğulayır. Bu xəyal mərtəbəsindəki aləmdən kənarda (xaricdə) isə sadəcə Allahın Zatı var. İmam Rəbbani tək mütləq varlığın Allah olduğunu belə izah edir:

Xaricdə uca Haqdan başqası mövcud deyil... *Bəlkə də* ***şanı böyük Allahın yaratması ilə xəyal mərtəbəsində sübut (sabitlik) tapmışdır...*** *Əgər onun üçün görüntü sabit olarsa, o, xəyal mərtəbəsindədir. Əgər onun sübutu (sabitliyi) varsa, o da* ***Uca Allahın xəyal mərtəbəsindəki sənəti ilədir.*** *Xülasə, onun sabitliyi və görüntüsü tək mərtəbədədir. Sübutu bir yerdə, görüntüsü başqa bir yerdə deyil..."*

(Mektubat-ı Rabbani, 470. Mektup, çev. Abdulkadir Akçiçek, s. 519)

Beləliklə, İmam Rəbbaninin də izahlarından açıq şəkildə anladığımız kimi, maddə mütləq varlıq deyil və biz onun haqqında çox məhdud məlumata malikik. Biz sadəcə zehnimizdə bizə göstərilən görüntünü görürük. Bu görüntünü bütün detalları ilə yaradan və bizə tamaşa etdirən isə aləmlərin Rəbbi olan Allahdır.

Yeganə mütləq varlığın Allah olduğunu, Allahın bütün kainatı xəyal mərtəbəsində yaratdığını açıqlamış digər böyük İslam alimi **Muhyiddin Ərəbidir.** Elmdəki dərinliyinə görə "Şeyxi-əkbər" (ən böyük şeyx) kimi tanınan Muhyiddin Ərəbi *"fususul-hikəm"* (Hikmətlərin Mahiyyəti) adlı kitabında kainatın Allahın təzahürlərindən ibarət kölgə varlıq olduğunu belə açıqlamışdır:

Biz deyirik ki, bilməlisən ki, Haqdan başqa varlıqlar, yaxud aləm adı ilə tanınan şey Haqqa nisbətən bir şəxsin kölgəsi kimidir. Belə olduqda masiva, yəni Allahdan başqa olan varlıqlar Allahın kölgəsidir... ***Kölgə, şübhəsiz, hissdə mövcuddur.*** (Fusus-ül Hikem, çev. Nuri Gencosman, İstanbul 1990, s. 117-18)

Muhyiddin Ərəbinin bu sözlərində bildirdiyi kimi, insan Allahın Özündən üfürdüyü ruhu daşıyan, Allahın təzahürü olan varlıqdır. Tək mütləq varlıq Allahdır. İnsan isə xəyaldır. Bu çox mühüm həqiqətdir və əksini düşündükdə insan böyük xətanın içinə düşür.

İmam Rəbbani ilə bərabər **Mövlana Cami** də Quranın işarətləri ilə və ağıl yolu ilə tapdığı bu heyrətamiz həqiqəti: ***"Kainatda nə varsa, hamısı hiss və xəyaldır. Ya güzgülərdəki əkslərdir, ya da kölgələr kimidir"***, -deyərək dilə gətirmişdir.

Göründüyü kimi, böyük İslam alimləri bu həqiqəti açıq şəkildə izah etmişlər və ona görə, bu mövzunun Qurana və sünnəyə qarşı olduğunu iddia etmək və ya İslam alimlərinin qəbul etmədiyini irəli sürmək inandırıcı deyil. Bundan əlavə, bunu da unutmaq olmaz ki, bütün görüntüləri beynimizdə görməyimiz heç kimin inkar edə bilmədiyi, qəti şəkildə sübut edilmiş həqiqətdir. Keçmişdə bu həqiqət elmi cəhətdən məlum olmadığı üçün bəzi İslam alimlərinin bu həqiqəti ortaya çıxarmadıqları təbiidir. Bundan başqa,

maddənin əsli ilə təmasda ola bilmədiyimiz həqiqətini bəzi kütlələr təhrif edilmiş inancla açıqlamış və dinin hökmlərini və qaydalarını bu şəkildə aradan qaldırmağa çalışmışlar. Belə təhrifedici və səmimiyyətsiz cərəyanlara görə, bəzi İslam alimləri müsəlmanları bu cür təhlükələrə qarşı xəbərdar etmişlər. Ancaq bunlar bu həqiqətin təhrifedici şərhləridir. Burada izah edilənlərlə qarışdırmaq olmaz.

Doğrusu, başdan bəri vurğuladığımız kimi, maddəni Allah yaratmış və biz onun əsli ilə təmasda ola bilmirik.

Etiraz:
"Hər şeyin xəyalı ilə təmasda oluruqsa, Allahın bəzi sifətlərini necə açıqlaya biləcəyik?"

Cavab: Bəzi inananlar maddənin həqiqi mahiyyətinin qəbul edilməsi ilə Allahın bir çox isminin pərdələndiyini, maddənin xəyal olması ilə Allahın bəzi isimlərinin, təzahürlərinin açıqlana bilmədiyini zənn edirlər. Bu da yenə dərin düşünməməkdən və izah edilənləri tam qavraya bilməməkdən irəli gələn xətadır.

Hər şeydən əvvəl, Allahın isimlərini heç bir düşüncə, heç bir güc pərdələyə bilməz. Heç bir elmi həqiqət Allahın isimlərinin təzahür etməsinə mane ola bilməz. Onsuz da bu elmi həqiqətləri yaradan da Allahdır. Allah Öz yaratdığı varlıqlardan və qanunlardan münəzzəhdir. Ona görə, yer üzündə mövcud olan heç bir güc və ya heç bir məlumat Allahın isimlərinin təzahürlərini aradan qaldırmaz. Belə bir şeyi düşünmək Allahın sonsuz qüdrətini təqdir etməməkdir.

Bundan başqa, maddənin zehnimizdə əmələ gələn surəti ilə təmasda olduğumuz həqiqəti bu şəxslərin fikirlərinin əksinə, Allahın isimlərinin hər an, hər yerdə dayanmadan təzahür etdiyini göstərən vacib dəlildir. Çünki eyni ilə film görüntüsü kimi, hiss və xəyal mərtəbəsində əmələ gələn görüntü öz-özünə meydana gələ bilmədiyinə görə və mütləq onu göstərən bir varlıq olmalı olduğuna görə, deməli, bunu var edən bir Yaradan vardır. Bu Yaradan üstün güc və qüdrət sahibi olan uca Allahdır.

Görüntünün fasiləsiz, davamlı olması isə Yaradanımız Allahın hər an yaratmanı davam etdirməsinin açıq dəlilidir. Belə ki, göylərin və yerin, yəni kainatın sabit və dəyişməz olmadığını, sadəcə Allahın yaratması ilə mövcud olduqlarını və Allah yaratmanı dayandırdıqda yox olacaqları bir ayədə belə ifadə edilir:

Həqiqətən, Allah göyləri və yeri tərpənməsinlər deyə, tutub saxlayır. Əgər tərpənsələr, Ondan başqa onları heç kəs tutub saxlaya bilməz. Həqiqətən də, O, Həlimdir, Bağışlayandır. (Fatir surəsi, 41)

Allah "Nəml" surəsinin 64-cü ayəsində isə "insanları davamlı yaratmaqda olan" olduğunu xəbər vermişdir. **"Onlar heç bir şey yaratmayan, özləri xəlq edilmiş olan şeyləri** *(Allaha)* **şərik qoşurlar?"** (Əraf surəsi, 191) ayəsində isə yenə insanların hər an yaradılmaqda olduqlarına diqqət çəkilir.

Yəni gördüyümüz görüntülərin fasiləsiz, davamlı olmasının səbəbi bu

görüntülərin sabit varlıqlarının olması deyil, Allahın onları hər an yaratmasıdır. Ona görə, insan hər anda hər gördüyü, hiss etdiyi varlıqda Allahın davamlı yaratmasının təzahürünü görür.

Beləliklə, bu həqiqət Allahın isimlərinin kainatdakı təzahürlərinin görünməsini daha da aydınlaşdırır. Məsələn, bir bağa girdikdə bağdakı meyvə, çiçək və ağacların zehnində ona göstərilən xəyalı ilə təmasda olduğunu bilən insan dərhal bu xəyalı ona göstərən, ona saysız-hesabsız neməti və gözəlliyi bəxş edən, Rəzzaq olan Allahı xatırlayar. Çox gözəl ev sahibi olan, ancaq bu evin, içindəki bütün əşyaların, qızıl və gümüşlərin həqiqi mahiyyətini bilən, yəni hamısının beynindəki görüntüsü ilə təmasda olduğunu anlayan insan bu mülk ilə azğınlaşıb lovğalanmaz. Eynilə Hz. Süleyman kimi ona bu mülkün gözəlliyini göstərən, onu bununla zəngin edən Vəhhab (bəxşişi çox olan, qarşılıqsız bəxş edən) olan Allahı xatırlayar. Bir insana Allahın varlığını, birliyini, Allahın tək mütləq varlıq olduğunu, cənnətin və cəhənnəmin varlığını anladan biri, qarşısındakı insan iman gətirdikdə Allahın Hadi (hidayət verən, lütf edən, doğru yol göstərən) isminin təzahürünü görər.

Bu həqiqəti yenidən xatırlatmaq lazımdır ki, hər insanın beynində əmələ gələn görüntülərə tamaşa etməsi, bu görüntülərin səslərini beynində eşitməsi, beynindəki görüntülərə toxunması elmi həqiqətdir və biz sahib olduğumuz hisslərimizlə beynimizdən kənarda nə olduğunu əsla bilmirik. Elə isə bizə bu görüntüləri göstərən, bu səsləri dinlədən və görüntünü daima səbəb-nəticə əlaqəsi içində yaradan gücün varlığından əmin oluruq. Bu güc Allahdır və Allah bizim üçün bu görüntüləri yaratmadıqda bizim üçün dünya həyatı həyat olmaz. Elə isə bizim hər anımızda Allahın yaratması və Allahın isimlərinin təzahürləri fasiləsiz davam edir. Məsələn, bu kitabı oxuyan şəxs üçün Allah fasiləsiz şəkildə bu kitabın və içindəki yazı və rəsmlərin görüntülərini yaratmağa davam edir.

Bu, bizə Allahın Xaliq sifətini və yaratmadakı gücünü göstərir. Allah hal-hazırda yer üzündəki milyardlarla insanı milyardlarla fərqli görüntüyə tamaşa etdirir və bu görüntülərin hər biri böyük ahənglə, fasilə olmadan və ən incə təfərrüatına qədər yaradılır. Heç bir insanın görüntüsündə ən kiçik detal belə əksik olmadan ona göstərilir. Bu həqiqəti düşünmək insanlara Allahın sonsuz gücünü, aləmlərin tək hakimi olduğunu göstərəcəkdir.

İmam Rəbbani maddənin xəyal mərtəbəsində yaradıldığını izah edərkən Allahın adlarını hiss və xəyal mərtəbəsində təzahür etdirdiyini belə açıqlamışdır:

... Sübhan Haqq kəmali-qüdrəti ilə ***adəm (yoxluq) aləmində adlardan hər bir ad üçün əşyalardan bir əşya təyin etdi. Və onu hiss və xəyal mərtəbəsində yaratdı.*** *Həm də istədiyi vaxtda və istədiyi şəkildə...* ***Aləmin sübutu (sabitliyi) hiss və xəyal mərtəbəsində olub xarici mərtəbədə deyil...*** *Xaricdə (kənarda) belə uca Vacib Zatın (Allahın) zat və sifətlərindən başqası da sabit və mövcud deyil...*

(Mektubat-ı Rabbani, 470. Mektup, çev. Abdulkadir Akçiçek, s. 517-18)

Bu həqiqəti anlayan insan uğurlarını, zənginliyi, əşyalarını özünün

sayəsində olduğunu düşünməz və bunlara sahib çıxıb lovğalıq etməz. Çünki hər an, hər yerdə Allahın isminin təzahürünü, Allahın ona hiss etdirdiyi görüntünü çox yaxşı bilir. Allaha nə qədər möhtac və aciz olduğunu əsla unutmaz. Allahın aşağıdakı ayəsində də bildirdiyi həqiqətə "həqqul-yəqin" (qəti həqiqət olaraq) iman gətirər:

Ey insanlar! Siz Allaha möhtacsınız.
Allah isə Zəngindir, Tərifəlayiqdir. (Fatir surəsi, 15)

Etiraz:
"Bu, keçmişdə idealistlərin irəli sürdüyü köhnə fəlsəfədir."

Cavab: Bəzi kütlələr maddənin həqiqətinin izah edilməsindən çox narahat olduqları üçün maddənin beynimizdə əmələ gələn surəti ilə təmasda olduğumuz həqiqətini keçmişdə irəli sürülmüş fəlsəfələrdən biri kimi göstərməyə çalışırlar. Əslində isə, elmi irəliləyişlər bu mövzunun fəlsəfə deyil, elmi həqiqət olduğunu göstərir. Ona görə də sözügedən şəxslərin cəhdi boş yerədir.

Bir fikrin daha əvvəlki dövrlərdə də başqa mütəfəkkirlər tərəfindən müdafiə edilməsi həmin fikri nə əsassız edir, nə də dəyərdən salır. Maddənin xəyalı ilə təmasda olduğumuz həqiqəti keçmişdə də, dövrümüzdə də bəzi insanlar tərəfindən başa düşülmüş və ifadə edilmişdir.

Ayrıca keçmişdə yaşamış idealistlərin fikirləri, onlara qarşı çıxmış olan materialistlər tərəfindən əsassız edilməmişdir ki, "keçmişdə də bu mövzudan bəhs olundu" deyənlərin haqlı tərəfi olsun.

DÜNYANI BEYNİMİZDƏ NECƏ GÖRDÜYÜMÜZ MÖVZUSU BİR FƏLSƏFƏ DEYİL

Maddənin əsli haqqındakı həqiqətlər ilk dəfə kəşf edilmiş bir mövzu deyil, keçmişdə bu həqiqətin sadəcə bir fəlsəfə kimi izah edildiyi doğrudur. Ancaq dövrümüzdə bu həqiqət elmi cəhətdən sübut edilmişdir.

Tarix boyu bir çox mütəfəkkir, din və elm adamı bu mövzunu gündəliyə gətirmiş, maddənin sadəcə surəti ilə təmasda olduğumuzu izah etmişdir. Məsələn, qədim yunan filosoflarından Pifaqor, Elea məktəbi, xüsusilə "Mağara ideyası" ilə Əflatun (Platon) kimi bir çox mütəfəkkir bu mövzunu birtərəfli açıqlamışdılar. Zərdüştlük, Buddizm, Taorizm kimi batil inancların, yəhudilik və xristianlıq kimi dinlərin əlimizə gəlib çatan mətnlərində də bu mövzudan bəhs edildiyi görünür. İmam Rəbbani, Muhyiddin Ərəbi, Mövlana Cami kimi böyük İslam alimləri də maddənin əsli mövzusunu bütün açıqlığı ilə izah etmişlər. Bu mövzuda fikirlərinə yer verilməli olan digər alim irlandiyalı din alimi və filosof Berkeleydir.

Maddənin sadəcə zehnimizdəki surətini bildiyimizi açıqlayan Berkeley, dövründə yaşayan və maddəni mütləq varlıq qəbul edən materialistlər tərəfindən təzyiqlərə məruz qalmış, təhqir və iftira yolu ilə susdurulmağa çalışılmışdır.

Ancaq nə Berkeley, nə də digər mütəfəkkirlər yaşadıqları dövrdə mövcud olan elmi tapıntıların çatışmazlığına görə, bu fikirlərini elmi dəlillərlə

dəstəkləyə bilməmişlər. Buna görə, qarşı fikirlərin təzyiqinin də təsiri ilə mövzunun tam şəkildə başa düşülməsi və ya yayılması mümkün olmamışdır. Bir qismi isə kəşf etdikləri bu mühüm həqiqəti səhv dəyərləndirmiş, həqiqətə yaxınlaşsalar da, ən doğru nəticəni çıxara bilməmişlər. Bəzi bədniyyət kütlələr də bu həqiqəti təhrif etməyə çalışmışdır.

MADDƏNİN ƏSLİ MÖVZUSU TEXNİKİ HƏQİQƏTDİR

Ancaq dövrümüzdə "maddənin zehində hiss edilməsi", fəlsəfi mövzudan çıxmış, elmi dəlillərlə sübut edilən həqiqətə çevrilmişdir. Elm dünyasındakı irəliləyişlər insanın duyğu orqanlarının funksiyasını öyrənmişdir. Bu funksiya kitabın əvvəlində də izah etdiyimiz kimi, hər duyğu orqanı üçün eynidir: xarici aləmdən duyğu orqanlarına gələn təsirlər hüceyrələrimiz tərəfindən elektrik siqnallarına çevrilir və sinirlər yolu ilə beyindəki qavrama mərkəzlərinə çatdırılır. İnsan xarici aləmi beynindəki kiçik qavrama mərkəzlərində görür, eşidir, qoxulayır, dadır və ya hiss edir.

Bu texniki həqiqətlər bu gün hər hansı bir fiziologiya kitabında və ya orta məktəb biologiya kitablarında belə rast gəlinəcək qədər açıq həqiqətlərdir. Görüntünün və hisslərin beyində necə əmələ gəlməsi bütün tibb fakültələrində ətraflı şəkildə öyrədilir. İnkişaf edən elmlə yanaşı, fizika, kvant fizikası, psixologiya, nevrologiya, biologiya, tibb kimi elmlər bu həqiqətin texniki tərəflərini açıq şəkildə üzə çıxarmışdır.

Apardığı fəaliyyətləri ilə böyük marağa səbəb olan, hamısı mükafata layiq görülmüş 8 kitabın müəllifi, nəzəri fizika alimi Dr. Fred Alan Volf elmi irəliləyişlərin, xüsusilə də, kvant fizikasında əldə edilən nəticələrin insanlara görünən dünyanın beynimizdə təmasda olduğumuz xəyali varlıqlardan ibarət olduğunu göstərdiyini belə açıqlayır:

Bütün materializmin, fiziki dünyanın, bizə məlum olan gerçəkliyin, bütün varlığın fövqündə bir şey var. Bu, ənənəvi dualizmi də təkzib edir. Mən bunu mistik görüş kimi deyil, kvant fizikası kimi görürəm. Bizim ən müasir fiziki dünya anlayışımıza görə, tərif edilməz dünya, mistik dünya, "xəyali" dünya ola bilər. Alman fiziki və kvant mexanikasının qabaqcıllarından Verner Heyzenberq irəli sürdüyü kimi, şüuru daha fərqli görürəm. Həqiqət daha çox yuxu kimidir, mən yuxuda gerçəklik görürəm. ***Hamımızın bir hissəsi olan, bu yuxunu əmələ gətirən varlığı və ya böyük Ruhun varlığını qəbul edirəm və bu, elmi açıqlamalarla əldə edə biləcəyimiz nəticədir.***

(Robert Lawrence Kuhn, Closer To Truth, Mc Graw-Hill, New York, 2000, s. 8)

Bu elm adamı maddi dünyanın zehnimizdə qavrandığını "elmi kəşflərlə görmüş" və qavramış bir çox elm adamından yalnız biridir. Bu açıq elmi həqiqəti qəbul etməyənlərin inkar səbəbi isə elmi deyil, ideoloji səbəbdir. Çünki bu elm adamları böyük mühafizəkarlıqla bağlı olduqları materializmi təməlindən əsassız edəcək bu həqiqəti göz görə-görə qəbul etmək istəmirlər. Belə ki, Dr. Volf bu həqiqətin materializmi təkzib edəcəyini bildirir.

XIX əsrdə əldə edilən elmi nəticələr nəzərə alındıqda xarici aləmin beyində qavranması həqiqətini hər hansı bir fəlsəfə kimi qəbul etmək heç inandırıcı deyil. Çünki **bu, fəlsəfə deyil, elmi kəşflərin açıq şəkildə**

göstərdiyi texniki həqiqətdir. Bu, insanların məhz içində yaşadıqları, inkar edilməz məsələdir. Dinsiz də olsa, dindar da olsa, hər insan bu mövzunu qeyd-şərtsiz bilir, inkar etməyinin də mənası yoxdur.

Etiraz:
"Maddənin həqiqəti mövzusu vəhdəti-vücud düşüncəsi ilə eynilik təşkil edir?"

Cavab: Vəhdəti-vücud düşüncəsini izah edən bir çox böyük İslam aliminin keçmişdə bu kitabda yer verilən bəzi mövzuları düşünərək izah etdikləri doğrudur. Ancaq burada izah edilənlər vəhdəti-vücud düşüncəsi ilə eyni deyil. Tarix boyu bir çox alim və mütəfəkkir bu həqiqəti izah etmişlər. Ancaq bir qismi səhv fikirlərə düşərək Allahın yaratdığı varlıqları tamamilə yox hesab etmişlər. Əslində isə, maddənin beynimizdə əmələ gələn xəyalını gördüyümüzü söyləmək "gördüyümüz varlıqların heç birinin olmadığını" demək deyil. **Çünki gördüyümüz bütün varlıqlar, dağlar, düzənliklər, çiçəklər, insanlar, dənizlər, qısaca desək, gördüyümüz hər şey, Allahın Quranda mövcud olduğunu bildirdiyi hər varlıq yaradılmışdır və vardır. Ancaq bunların hər biri görüntü kimi vardır.**

Allahın yaratdığı hər varlıq, biz görsək də, görməsək də, vardır. Çünki onsuz da bu varlıq yaradılmışdır və daha əvvəl də deyildiyi kimi, ilk yaradıldığı halından öldüyü ana qədərki hər halı Allahın hifzində sonsuzluğa qədər mövcud olmaqda davam edəcəkdir.

Beləliklə, maddənin beynimizdə əmələ gələn xəyalı ilə təmasda olmağımız onu yox halına salmaz. Ancaq bizə maddənin mahiyyəti haqqında məlumat verir ki, bu da maddənin görüntü olması həqiqətidir.

Etiraz:
"İnsan xəyal olduğunu bildiyi şeyi necə sevər? Hər şeyin zehnimizdə əmələ gələn xəyal olduğunu qəbul etsək, anamızı, atamızı, dostlarımızı, Peyğəmbərimizi necə sevərik?"

Cavab: Bu sualı verən insan hər şeydən əvvəl özünün də xəyal olduğunu bilmir və ya dərk etmir. Özünü mütləq, dostlarını, yaxınlarını, ailəsini isə xəyal kimi qəbul edir. Əslində isə, özü də digər yaxınları kimi xəyal varlıqdır. Gördüyü, toxunduğu bədəni eynilə yaxınlarının bədənləri kimi beynində əmələ gələn görüntüdür.

Bundan başqa, bu sualı verən insanların yaxınlarının, dostlarının zehinlərində meydana gələn hiss olmaları onların sevilmələrini əngəlləyir. Əgər insan yaxınlarını və dostlarını, onların bədənlərindən və ya maddi varlıqlarından ötrü sevirsə, bu yanlış sevgi formasıdır. Doğru olan, insanı Allahın o insanda təzahür edən xüsusiyyətlərinə görə sevməkdir. Məsələn, biz Peyğəmbərimizi heç görmədiyimiz halda, onda Allahın Vəli, Məlik, Kərim, Vəkil, Hadi kimi bir çox isminin çox gözəl təzahür etdiyini, Allahın ən bəyəndiyi əxlaqı onda təzahür etdirdiyini bildiyimiz üçün ona qarşı çox böyük sevgi və məhəbbət duyuruq. Amma bu sevgimizin yeganə qaynağı Peyğəmbərimizin əsl sahibi olan Allaha olan sevgi və məhəbbətimizdir.

"Bütün varlıqların beyindəki görüntüləri ilə təmasda olduğunu" demək "bu varlıqların" olmadığını demək deyil. Allahın yaratdığı hər şey - insanlar, binalar, göllər, göy üzü və digər bütün varlıqların hamısı var. Ancaq biz bunların hamısının sadəcə zehnimizdə qavradığımız halını bilirik və biz onları sadəcə beynimizdə görə bilirik.

Müsəlmanları, insanları, digər bütün varlıqları da Allaha olan sevgilərinə, onların Allahın təzahürü olduqlarına görə sevirlər. Məsələn, hər hansı bir ceyran balasını sevən müsəlman o ceyranda Allahın mərhəmətinin, şəfqətinin təzahürünü, Allahın o ceyranda yaratdığı sevimliliyi bəyəndiyi üçün, görüntüsü mərhəmət hissini təhrik etdiyi üçün ona qarşı sevgi göstərir. Ceyranı və ya hər hansı başqa bir canlını tək başına, müstəqil varlıq kimi sevməz.

Bir müsəlman heç bir insana və ya varlığa müstəqil sevgi və ya bağlılıq duymaz. Bütün sevgilərin mənbəyi Allah sevgisidir. Quranda **"...Sizin Allahdan başqa nə bir himayəçiniz, nə də bir köməkçiniz vardır."** (Bəqərə surəsi, 107) ayəsi ilə insanın Allahdan başqa dostu olmadığına diqqət çəkilmişdir. Başqa bir ayədə isə insandan: **"Məgər Allah Öz qulunu qane etmirmi?"** (Zumər surəsi, 36) -deyə soruşulur. Elə isə sevdiklərimiz də Allahdan ayrı, müstəqil varlıqlar kimi bizim dostumuz və köməkçimiz ola bilməzlər. Ona görə, bütün yaxınlarımızın, dostlarımızın zehnimizdə hiss olması bu həqiqəti daha da qüvvətləndirir. Biz, məsələn, anamızı sevərkən, əslində, sevdiyimiz Allahın ana görüntüsündə təzahür edən Rəhim, Rauf (əsirgəyən), Asim (qoruyucu) sifətləridir. Mömin qardaşımızı sevərkən onda Allahın təzahür etdirdiyi və razı olduğu gözəl əxlaqı sevirik. Onun təqvasından və davranışlarından Allahın razı olduğunu umduğumuz üçün biz də ondan razı oluruq. Onun Allahı sevdiyini, Allahdan qorxub çəkindiyini gördüyümüz üçün Allahın yaratdığı bu imanlı görüntüdən biz də zövq alır, xoşlanırıq. Ona görə, biz insanı sevdikdə həqiqətdə Allahı sevirik və o görüntüyə olan məhəbbət və sevgimizin əsl mənbəyi Rəbbimizə olan məhəbbət və sevgimizdir.

Allahın yaratdığı varlıqlara sevgi, şəfqət, məhəbbət duyan müsəlman həqiqətdə sevgisini və məhəbbətini Allahın yaratmasına, Onun yaratmasındakı üstün sənətə və gücə duyur. Bir canlının üzündə təzahür edən gözəlliyinin əslinin Allaha aid olduğunu bilir.

İnsanları Allahdan ayrı tutaraq sevənlər, insanlara Allahdan müstəqil varlıqlar kimi bağlananlar, insanları Allahı sevən kimi sevənlər isə böyük səhv edirlər. Çünki Qurana görə, tək sevgi və bağlılıq Allaha qarşıdır, varlıqlar isə Allahın təzahürləri kimi sevilir. Allah insanlara müstəqil dəyər verərək bağlananlar haqqında Quranda belə buyurmuşdur:

İnsanlardan elələri də vardır ki, Allahdan qeyrilərini *(Ona)* **tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür. Kaş zülm edənlər əzabı gördükləri zaman bütün qüdrət və qüvvətin Allaha məxsus olduğunu və Allahın şiddətli əzab verdiyini görəydilər.** (Bəqərə surəsi, 165)

Ayədə də bildirildiyi kimi, insanlara və ya varlıqlara Allahın varlığından başqa güc vermək və onlara bu şəkildə bağlanmaq onları Allaha bərabər və ortaq etməkdir. Əslində isə, Allahdan başqa heç bir varlıq hər hansı bir hərəkəti icra etməyə qadir deyil.

Quranın bir çox ayəsində Allahdan başqa varlıqlara güc aid edən insanlara bu həqiqət bildirilmişdir:

Allahdan savayı çağırdıqlarınız da sizin kimi qullardır. Əgər doğru deyirsinizsə, çağırın onları, sizə cavab versinlər. Məgər onların ayaqlarımı var, onunla yerisinlər? Yoxsa onların əllərimi var, onunla tutsunlar? Yoxsa onların gözlərimi var, onunla görsünlər? Yoxsa onların qulaqlarımı var, onunla eşitsinlər? De: "Çağırın şəriklərinizi! Sonra mənə qarşı hiylə qurun və mənə heç möhlət də verməyin! Həqiqətən, mənim himayədarım Kitabı nazil edən Allahdır.

O, əməlisalehlərə himayəçilik edir. Ondan savayı çağırdıqlarınız nə sizə yardım edə bilər, nə də özlərinə köməkçi ola bilərlər." Siz onları doğru yola çağırsanız, eşitməzlər. Onları sənə baxan görürsən, halbuki onlar görmürlər.

(Əraf surəsi, 194-198)

Yuxarıdakı ayələrdə açıq şəkildə xəbər verildiyi kimi, Allahdan başqa heç kimin hər hansı bir şəkildə insana kömək etməsi mümkün deyil. İnsanın ən sevdiyi, həyatı boyu mütləq varlıqlar olduqlarını zənn etdiyi anası, atası, uşaqları, dostları da olsa, çətin vəziyyətə düşdükdə o insana kömək edə bilməzlər. İnsanın yaxınlarının, dostlarının köməyi ancaq Allahın istəyi və izni ilədir. Allahın istəyi xaricində heç bir insanın öz-özünə belə kömək etməsi mümkün deyil. Hətta Allahın istəyi xaricində insanın yeriməsi, görməsi, eşitməsi, qısaca desək, həyata davam etməsi də mümkün deyil. Bundan başqa, unutmaq olmaz ki, əslinin necə olduğunu bilmədiyimiz, sadəcə xəyali görüntüləri ilə təmasda olduğumuz varlıqlar axirətdə bu iddianı irəli sürənlərdən uzaqlaşdırılacaq və Quranda bildirildiyi kimi, hər kəs "tamamilə tək" sorğu-sual ediləcəkdir. Yəni necə ki, dünyada hər kəs sadəcə Allah ilə bərabərdirsə, axirətdə də o cür hesaba çəkiləcəkdir. Allah bu həqiqəti bir ayəsində belə bildirir:

Sizi ilk dəfə yaratdığımız kimi Bizə tək olaraq gəldiniz. Sizə xəyal kimi göstərdiyimiz şeyləri ardınızda buraxdınız. Sizin yanınızda ortaq olduqlarını iddia etdiyiniz vasitəçilərinizi görmürük. Aranızdakı bağlar kəsilmişdir. İddia etdiklərniz sizi tərk etmişdir.

(Ənam surəsi, 94)

Hər insan, məsələn, dostuna baxarkən zehnində Allahın onun üçün yaratdığı dost görüntüsünü görür. Beyninə gedən sinirlər kəsilərsə, dostunun görüntüsü itəcəkdir. Daima Diri və Qaim olan sadəcə Allahdır. Elə isə insan əsli ilə əsla əlaqə qura bilməyəcəyi, sadəcə zehnində olan varlığa nə üçün bağlansın? Unutmaq olmaz ki, insanın bağlanacağı, sevərək boyun əyəcəyi tək dostu uca Allahdır.

Etiraz:
"İnsan sevdiklərinin də özü kimi həqiqi və daimi olmasını istəyir."

Cavab: Bu mövzuya etiraz edən bəzi şəxslər belə deyirlər: "Halbuki, insan istəyər ki, dostları da özü kimi həqiqi və daimi olsun. Başqa cür necə ola bilər?"

Bu ifadələr bu şəxslərin maddənin gerçək mahiyyəti ilə bağlı izah edilən mövzunu anlamadığını və ya üzərində lazımi şəkildə düşünmədiyini göstərir. Çünki bu sözləri deyən şəxsin özü də "gerçək və daimi" deyil ki, yaxınlarının da özü kimi olmasını istəsin. Bu həqiqətin üzərində lazımi şəkildə düşündükdə insan öz bədəninin də Allahın ruhuna tamaşa etdirdiyi görüntü olduğunu anlayacaqdır.

Müsəlman bir insanı sevdikdə həqiqətdə Allaha olan sevgisini göstərir. Allahın yaratdığı görüntüyə olan sevgi və məhəbbətin əsl mənbəyi o görüntünü sevəcəyimiz şəkildə yaradan Allaha olan sevgi və məhəbbətimizdir.

Bəzi insanların bədənlərinə toxunmaları, barmaqlarını kəsdikdə ağrı hiss etmələri, malik olduqları bədənin bəzi ehtiyaclarını təmin etmələri bu insanlara öz bədənlərinin xəyali görüntü olduğunu unutdura bilər. Əslində isə, bütün digər varlıqlar kimi insanın öz bədəni də hissdir və insanın özü öz bədəninin maddi gerçəkliyinin əslini bilmir. Məsələn, barmağını kəsdikdə duyduğu ağrı da hissdir. Yemək yeyərkən doyması da hissdir. İnsanın beyninə kənardan verilən süni siqnallar bu toxluq hissini yemək yemədən də meydana gətirə bilər. Ancaq insan heç bir zaman öz bədəninin əslinin necə olduğunu bilmir. Ağrıları hiss edən, toxunan, bu yazını oxuyaraq anlayan, tənqid yazan Allahın insana verdiyi ruhdur. Ona görə, insan özü də Allahın bir təzahürüdür. Bu şəxslərin hesab etdiyi kimi, mütləq və daimi deyil.

İnsan beyninə kənardan verilən süni siqnallar ilə toxluq hissini əmələ gətirmək mümkündür. Bir insan yemək yeməsə də, süni siqnallarla özünü tox hiss edə bilər.

Etiraz:
"Kainatın hisslərin cəmi olması nəticəsinə gəlmək kainatın necə işlədiyini araşdırmağı, yəni elmi tərk etməyə gətirib çıxarır."

Cavab: Bu, daha çox materialistlərin irəli sürdüyü və bu böyük həqiqəti, elmi yox edəcək mövzu kimi göstərmək üçün dilə gətirdikləri etiraz formasıdır. Bu etirazın əsassızlığı və məntiqsizliyi isə açıqdır.

Allah bizə yaşadığımız görüntüləri səbəb-nəticə əlaqəsi içində bəzi qanunlara bağlı kimi göstərir. Məsələn, gecə ilə gündüz bizim beynimizdə əmələ gələn görüntülərdir və biz gecə ilə gündüzün Günəşə və Yerin hərəkətlərinə bağlı şəkildə dəyişdiyini hiss edirik. Məsələn, beynimizin içindəki görüntüdə Günəş ən təpədə ikən, günorta saatı olduğunu bilirik və Günəş batarkən də havanın qaraldığına şahid oluruq. Allah kainata aid hissləri yaradarkən bu səbəb-nəticə əlaqəsi ilə birlikdə yaratmışdır. Heç vaxt Günəş batdığı halda, gündüzü yaşamırıq. Elə Allahın zehnimizdə yaratdığı bu səbəb-nəticə əlaqəsinin müşahidə edilməsi və araşdırılması elmdir.

Günəşin doğması da, batması da insanın beynində meydana gələn görüntülərdir. İnsan beyninin içindəki Günəşin batmasını görür və bu görüntüdən həzz alan isə ruhudur.

Başqa bir nümunə də verək: beynimizin içindəki xəyalda əlimizdən buraxdığımız qələm həmişə yerə düşür. Buna səbəb olan səbəb-nəticə əlaqəsinin araşdırılması nəticəsində "yerin cazibə qüvvəsi qanununu" kəşf edirik. Allah ruhumuza tamaşa etdirdiyi görüntüləri müəyyən səbəblərə və qanunlara bağlı şəkildə göstərir. Bu səbəb və qanunların yaradılma məqsədi həyatın imtahan üçün yaradılmasıdır. Bu qanunların və "kainat" adı verilən hisslər cəminin necə bir nizam içində işlədiyinin araşdırılması isə elmi əmələ gətirir. Ona görə, elm Allahın yaratdığı qeyri-adi görüntülərin əlaqəli kimi göründüyü qanunları anlamaq üçün vacibdir.

Beləliklə, materialistlərin iddia etdiyi kimi, maddənin əsli ilə təmasda olmadığımız həqiqətini qəbul etmək elmi inkar etməyə gətirib çıxarmır. Əksinə, bu həqiqəti səmimi niyyətlə qəbul edənlər, elmi bu hisslərin cəmi kimi anlayıb, bu cəmdəki sirləri qavramaq üçün vacib yol kimi görürlər.

Bu elm anlayışı ilə materialist elm anlayışı arasında isə böyük fərq var. Sözügedən hisslər cəminin müşahidə edərək kəşf etdiyimiz təbiət qanunları bu cəmi yaratmış Allahın qanunlarıdır. Maddəni mütləq varlıq zənn edən,

təbiət qanunlarının maddənin özündən qaynaqlandığını düşünən, onları yaradanın da təbiət qanunları olduğu xətasına düşən materialistlərin elm anlayışı isə bu həqiqətlə birlikdə çökür.

Bunu da unutmaq olmaz ki, Allah bütün bu hissləri heç bir qanuna və səbəbə ehtiyac hiss etmədən yaratmağa gücü çatandır. Məsələn, Allah toxum olmadan gülü yarada bilər, bulud olmadan yağış yağdıra bilər və ya Günəş olmadan kölgəni, gecəni və gündüzü yarada bilər. Allah bir ayəsində bu həqiqəti belə bildirir:

**Məgər Rəbbinin kölgəni necə uzatdığını görmürsənmi?
Əgər O, istəsəydi, onu hərəkətsiz halda saxlayardı.
Sonra Biz günəşi onun bələdçisi etdik. Sonra o kölgəni yavaş-yavaş
Özümüzə tərəf çəkdik. Sizin üçün gecəni örtük, yuxunu rahatlıq,
gündüzü də canlanma vaxtı edən Odur.** (Furqan surəsi, 45-47)

Ayədə də göründüyü kimi, Allah əvvəlcə kölgəni yaratdığını, sonra da Günəşi ona dəlil etdiyini bildirir. Yuxularımız bu yaradılışı daha yaxşı qavraya biməyimiz üçün nümunədir. Yuxuda Günəşin maddi qarşılığı olmadığı halda, Günəşin verdiyi işığı, istiliyi, aydınlığı eynilə gerçək həyatdakı kimi hiss edirik. Bu cəhətləri ilə yuxular Allahın Günəş olmadan da Günəşə aid hissləri zehnimizdə yarada biləcəyinin göstəricilərindən biridir.

Allah səbəb olmadan da nəticəni yaratmağa gücü çatandır. Məsələn, yuxuda Günəş olmadığı halda, Günəşin işıqları ilə isindiyini hiss edən insan bunun dəlilidir.

Ancaq Allah yaratdığı imtahan mühitində insanlar üçün hər şeyin səbəbini də yaratmışdır. Gündüzün səbəbi Günəşdir, yağışın səbəbi isə buluddur. Bunların hamısı beynimizdə Allahın ayrı-ayrı var etdiyi görüntülərdir. Səbəbin nəticədən əvvəl yaradılması ilə də Allah bu imtahan mühitində hər şeyin müəyyən qanunlarla işlədiyini də düşünməyimizi və bu yolla elmi tədqiqat aparmağımızı təmin edir.

Etiraz:
"Bir tərəfdən Allahı iman həqiqətləri ilə açıqlayarkən, digər tərəfdən Onun varlıq dəlili kimi təqdim etdiyi varlıq aləminin yox olduğunu demək ziddiyyət deyilmi?"

Cavab: Maddənin əsli ilə bağlı izahları tam qavraya bilməyən bəzi insanlar "maddi dünyanın əsli ilə təmasda ola bilmərik, sadəcə zehnimizdəki xəyali görüntülərilə təmasda oluruq" ifadəsini "heç bir şey yoxdur" kimi səhv anlayırlar. Əslində isə, "maddənin hisslərin cəmi olduğunu və ya beynimizdə gördüyümüz görüntü olduğunu" demək "maddənin olmadığı" demək deyil. Maddi kainat vardır, amma biz əslini heç vaxt bilmərik. Biz sadəcə maddənin zehnimizdəki surəti ilə, yəni xəyalı ilə təmasda oluruq.

Maddənin xəyalı ilə təmasda olmağımız Allahın varlığının qəti dəlilidir. Çünki (eynilə görüntü kimi) hiss və xəyal mərtəbəsində olan varlıq öz-özünə meydana gəlmədiyinə görə, bu, bunu var edən Yaradanın olduğunu, yəni üstün güc sahibi Allahı göstərir. Ona görə, maddi kainatın görüntü olması həqiqəti Allahın varlığının və birliyinin qəti dəlilidir. Bu səbəbdən, maddənin görüntüsü ilə təmasda olmağımız ilə varlıqların Allahın varlığına dəlil təşkil etməsi arasında heç bir ziddiyyət yoxdur, əksinə, mübahisəsiz məntiq əlaqəsi vardır.

Allah bütün varlıqları yaratmışdır, ancaq biz bu varlıqların sadəcə zehnimizdəki hisslərini, görüntülərini bilirik və bu görüntü varlıqlara aid xüsusiyyətlərin tədqiq edilməsi, araşdırılması, Allahın yaratma üstünlüyünün, sənətinin və sonsuz ağlının dəlillərini göstərir. Beləliklə, "maddənin hisslərin cəmi olduğunu" demək və sonra bu görüntülərə aid xüsusiyyətləri araşdıraraq Allahın ucalığını, böyüklüyünü və qüdrətini görmək əsla ziddiyyət deyil.

Bundan əlavə, bunu da bildirmək lazımdır ki, bəzi şəxslər ancaq Allahı düşünən varlıqlar olduqda Allahın var olduğunu (Allahı tənzih edirik) hesab edir və bu böyük xətaya görə, bəzi etirazlar irəli sürürlər. Əslində isə, Allah istərsə, yaratdığı bütün görüntüləri silə bilər, bütün varlıqları yox edə bilər. Ancaq Allah yenə var olmaqda davam edər. Çünki O, əzəli və əbədidir, əvvəli və sonu yoxdur, əvvəl və axırdır. Allah istədiyini bir anda yox edə biləcəyinə bir çox ayəsində diqqət çəkir:

Ey insanlar! Əgər *(Allah)* **istəsə, sizi yox edib** *(yerinizə)* **başqalarını gətirər. Allah buna qadirdir.** (Nisa surəsi, 133)

Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə Zəngindir, Tərifəlayiqdir. Əgər istəsə, sizi yox edib *(yerinizə)* **yeni bir məxluq gətirər. Bu, Allah üçün çətin deyildir.** (Fatir surəsi, 15-17)

Allah bütün varlıqları yaratmazdan əvvəl də vardır, bütün varlıqlar yox olsalar da, var olacaqdır. Rəbbimiz ayələrdə belə bildirir:

(Yer) **üzündə olan hər kəs ölümə məhkumdur. Ancaq Rəbbinin əzəmətli və kəramətli Üzü əbədidir.** (Rəhman surəsi, 26-27)

Etiraz:
"Bu açıqlamalar qəbul edildikdə, haram və halal qavrayışları qalmır."

Cavab: Bu, tamamilə həqiqətdən kənar iddiadır. Çünki maddi dünyanın əsli ilə təmasda olmamağımız həqiqəti imtahanın sirrini ortadan qaldırmaz. Maddənin əslini heç vaxt bilməsək də, Allahın haram buyurduqları haram, halal buyurduqları isə halaldır. Məsələn, Allah donuz ətini haram buyurmuşdur. "Necə olsa da, donuzun xəyalı ilə təmasda oluram" deyərək bu heyvanın ətini yeməyin böyük səmimiyyətsizlik və ağılsızlıq olduğu aydındır. "Qarşıdakı insanların hamısının sadəcə zehnindəki görüntülərini gördüyünü və onlara yalan söyləyərsə, heç bir şey olmayacağını" demək də Allahdan qorxan və bu həqiqəti lazımi olduğu kimi qavrayan insana yaraşmaz. Bu, Allahın bütün hədlərinə, əmr və qadağalarına da aiddir. Məsələn, bu həqiqət 5 vaxt namazımızı (səlatımızı) yerinə yetirməyi, zəkat verməyi ortadan qaldırmaz. Verdiyimiz zəkatın maddəsinin və bu zəkatı verdiyimiz insanların zehnimizdəki xəyallar olmaları fərz olan bu ibadətin yerinə yetirilməsinə mane olmaz. Allah bütün dünyanı hisslər cəmi kimi yaratmışdır, ancaq bizlərin boynuna bu xəyallar içində Quranda bildirdiklərinə görə məsuliyyət qoyur.

Keçmişdə bəzi kütlələr bu həqiqəti təhrif edərək halal və haramları ortadan qaldırmağa çalışmışdır. Ancaq bu kütlələr onsuz da əsas inanc kimi azğın anlayışa malik idilər və bu həqiqəti də nəfsləri və mənfəətləri üçün istifadə edə bilərlər. Ancaq bilmək lazımdır ki, onların gəldikləri bu nəticə doğru deyil, təhrif edilmişdir.

Beləliklə, səmimi düşünən insan çox açıq şəkildə görəcəkdir ki, imtahan üçün maddənin əsli ilə təmasda olmaq şərt deyil. Allah imtahan mühitini görüntü aləmi içərisində yaratmışdır. Bir insanın namazı (səlatı) yerinə yetirməsi, halala-harama diqqət etməsi üçün maddənin əslini bilməli olduğunu irəli sürənlərin heç bir əsası yoxdur. Bundan əlavə, əsas olan ruhdur. Axirətdə cəzalandırılan və ya cənnət nemətləri ilə ruziləndirilən də ruhdur. Allahın imtahan etdiyi varlıq da insanın ruhudur. Ona görə, maddənin beynimizdəki xəyalı ilə təmasda olmağımız həqiqəti halal və haramlara əməl edilməsinə və ibadətlərin yerinə yetirilməsinə əsla mane olmaz.

Burada bunu da bildirmək lazımdır ki, görüntüyə görə məsuliyyət daşımayacaqlarını iddia edənlər cəhənnəmə girdikdə də: "Biz buna görə məsuliyyət daşımayacağımızı dedik, ona görə də buradayıq", - deyəcəklər. Amma bunu da unutmamalıdırlar ki, dünya həyatı kimi cəhənnəm də görüntü olsa da, cəhənnəm əzabı sonsuzluğa qədər yaşanacaqdır. Allah bu görüntü içində inkar edənlərə əzabı hər yönü ilə hiss etdirəcəkdir.

Etiraz:
"Bütün insanlar hər hansı bir ağac gördükdə, onun yarpaqlarına yaşıl deyirlər. Hər kəs bu ağacı eyni cür tərif etdiyinə görə, deməli, bu ağac sadəcə mənim zehnimdə deyil."

Cavab: Ətrafımızdakı insanların yaşıl dediyinə biz də yaşıl deyirik. Ancaq onların yaşıl adlandırdıqları rəng bizim zehnimizdə gördüyümüz yaşıldır, yoxsa bizim mavi gördüyümüzə yaşıl deyirlər, buna öyrənmə imkanımız əsla yoxdur. Çünki daha əvvəl də bildirildiyi kimi, zehnimizdən kənarda rənglər yoxdur. Xarici aləmdə sadəcə işığın fərqli dalğa uzunluqları var və bu dalğa uzunluqlarını rənglərə çevirən beynimizdir. Ona görə, rənglər bizim daxilimizdə əmələ gəlir və başqa şəxsin bizim beynimizdə əmələ gələn rəngi görmək imkanı yoxdur. Bu mövzu bir çox filosof və elm adamı tərəfindən mübahisə edilən məsələdir və elm adamlarının ortaq qənaəti budur: "Biz, bizim qırmızı dediyimiz gülü yanımızdakı şəxs də bizim gördüyümüz kimi görür, yoxsa o bizim mavi dediyimizə qırmızı deyir, bunu heç vaxt bilmərik". Bu sadəcə rənglər üçün deyil, bütün hisslərimizə də aiddir. Məsələn, Daniel Dennet bu mövzu haqqındakı düşüncələrini və marağını belə ifadə edir:

... Bir şeyə baxdıqda sizin və mənim eyni rəngi gördüyümüzü haradan bilərəm? İkimizə də rəng adları, ümumi şəkildə rəngli cisimlərdə göstərilərək öyrədilmişdir, tamamilə fərqli rəng təcrübələri keçsək də, bu rəngləri sözlə ifadə etməyimiz oxşar olacaqdır. Məsələn, qırmızı şeylərin mənə görünməsi yaşıl şeylərin sizə görünməsi kimi olsa da. (Daniel Dennet, Consciousness Explained, s.389)

Bizim yaşıl dediyimiz rəngi yanımızdakı digər şəxs eyni şəkildə görür? Bunu heç vaxt bilmərik. Məsələn, bu şəkil iki insanın beynində fərqli rənglərdə görünə bilər. Birinin yaşıl dediyini digəri eyni cür adlandırmasına baxmayaraq, mavi görə bilər. Bu, heç vaxt müəyyən edilə bilməz.



Harvard Universitetindən psixologiya professoru Dryu Vesten isə elmi cəhətdən digər şəxsin gülü bizimlə eyni cür qavrayıb-qavramadığını bilməyəcəyimizi belə açıqlayır:

Əgər qavrayış yaradıcı və ya struktural prosesdirsə, insanlar dünyanı hansı dərəcəyə qədər eyni şəkildə qavrayırlar? Qırmızı bir insana göründüyü kimi, digər insana da eyni şəkildə görünür? Əgər bir insan sarımsağı xoşlayırsa və digəri xoşlamırsa, bu eyni dadı xoşlayan və xoşlamayan 2 fərqli insandır, yoxsa sarımsaq hər biri üçün fərqli dada malikdir? Qavrayışın struktural təbiəti insanların dünyanı hansı dərəcəyə qədər həqiqətdə olduğu kimi görüb-görmədikləri problemini yaradır. Platon bizim qavradıqlarımızın hər hansı bir mağaranın divarındakı kölgələrdən bir az daha çox olduğunu iddia edir. Bir fincan qəhvənin isti olduğunu söyləmək nə məna verir? Ot, həqiqətən, yaşıldır? Görmə sistemi işığın müəyyən dalğa uzunluqlarını ayırd etməkdən məhrum olan və yaşıl rəng korluğu olan insan otu yaşıl görməz. Yaşıllıq bir obyektin (otun), qavrayanın xüsusiyyətidir, yoxsa müşahidəçi ilə müşahidə edilən arasındakı bir növ əlaqələrdir? Bütün bunlar duyğu və hissin həlledici cəhətindəki fəlsəfi suallardır.

(Drew Westen, Psychology; Mind, Brain and Culture, John Wiley & Sons, Inc, NY 1996, s. 118)

Göründüyü kimi, eyni tərifləri verməyimiz və ya eyni rəngin adını söyləməyimiz eyni şeyləri görməyimiz demək deyil. İnsanların qavrayışlarını müqayisə etmək isə tamamilə mümkünsüzdür, çünki hər kəs beyninin içindəki özünə aid dünyanı görür. Bu etirazla bağlı başqa bir açıqlama isə sonrakı etirazda verilir.



Dostları ilə çəmənlikdə gəzən insan həqiqətdə beyninin içindəki çəmənlikdə, beyninin içində gördüyü dostları ilə gəzir, beyninin içindəki təmiz havanı qoxulayır. Çəmənlikdə gəzərkən çiçəkləri nəzərdən keçirən üç nəfərin zehnində üç ayrı çiçək görüntüsü əmələ gəlir. Bu, sözügedən çiçəklərin xarici aləmdəki əsillərini gördüklərinə dəlil kimi göstərilə bilməz.

Etiraz:

"Mənimlə birlikdə üç nəfər bağda gəzir və üçümüz də eyni şeyləri görürük. Hamımızın zehnində gördükləri bir-birinin eynisidirsə, onda zehnimizdəki görüntülərin xəyal olduğunu necə deyə bilərik?"

Cavab: Sizinlə birlikdə başqa insanların da eyni şeyləri görməsi maddənin xarici aləmdəki əslini görməyiniz mənasına gəlməz. Çünki siz ətrafınızdakıları da beyninizin içində görürsünüz. Məsələn, meyvə bağında dostlarınızla birlikdə gəzərkən gördüyünüz alma, ərik, tut ağacları, rəngarəng çiçəklər, quşların səsi, əsən meh, xoş çiçək və meyvə ətri necə beyninizdə əmələ gəlirsə, dostlarınız da və onların danışıqları da beyninizdə əmələ gəlir. Yəni dostlarınız xarici aləmdəki bağda deyil, sizin zehninizdə

gördüyünüz bağda gəzirlər. Ona görə, dostlarınızın sizinlə eyni görüntünü görməsi gördüklərinizin əsli ilə təmasda olmağınız demək deyil.

Hətta böyük stadion dolu insanla hər hansı bir futbol matçına tamaşa etdikdə minlərlə insanın vurulan qolu eyni anda görməsi və buna eyni anda münasibət göstərməsi də nə o stadionun, nə futbolçuların, nə hakimlərin, nə də stadionu dolduran insanların əsl varlıqlarını gördüyünüzə dəlil deyil. Çünki stadion və içindəki futbolçular, tamaşaçılar, alqışlar və orada gördüyünüz hər şey sizin beyninizdə əmələ gəlir. Qol vuran futbolçu da, bu qola sevinən tamaşaçılar da sizin içinizdədir. Siz beyninizdə atılan qola sevinirsiniz, beyninizdəki insanlarla birlikdə alqışlayırsınız. Nəticədə, ətrafınızda gördüyünüz insanların sizin gördüklərinizi təsdiqləməsi xarici aləmdəki əslləri ilə təmasda olduğunuz demək deyil. Çünki "yanınızda" olduğunu dediyiniz insanlar nə qədər çox olsalar da, əslində, beyninizin içindədirlər.

BİR STADİON DOLU İNSANIN HƏR BİRİ BEYNİNDƏKİ AYRI FUTBOL OYUNUNA TAMAŞA EDİR

Bir futbol oyununa baxmaq üçün stadiona daxil olan şəxs içəridəki minlərlə insanla eyni oyuna baxacağını zənn edir, əslində isə, böyük səhv edir.

Çünki stadiondakı hər insanın beynində ayrı futbol meydanı, ayrı futbolçular, ayrı tamaşaçılar, qısaca desək, ayrı görüntülər əmələ gəlir. Ancaq hər kəs tək bir stadionun və tək bir matçın olduğunu, həmçinin minlərlə insanın eyni oyunu izlədiyini zənn edər. Hətta evdə televizorda bu oyuna tamaşa edən hər insanın da ekrandakı eyni oyuna baxdığını düşünər.

Əslində isə, hər insanın beynində ayırd edilməyəcək qədər eyni olan, tamaşaçı sayı qədər surət yaradılır. Nə stadionda oturanlar xarici aləmdəki görüntünü, nə də evlərindəki televizorun qarşısında oturanlar ekrandakı həqiqi görüntünü görə bilməzlər. Çünki heç bir insanın beyninin içindəki ekrandan çıxıb xarici aləmdəki görüntünün əsli ilə təmasda olması mümkün deyil. Bu insanların tək görə bildikləri şey beyinlərinə çatan məlumatların beyinlərindəki ekranda şərh edilməsidir. Görən ruhdur. Həm ruhu, həm də əslinə eynilə bənzəyən görüntüləri isə Allah yaradır. Hər insan üçün ayrı-ayrı yaradan da göylərin və yerin Rəbbi olan Allahdır.

Etiraz:
"Xarici aləmi olduğu kimi qavrayırıq, ona görə də davranışlarımızda hər hansı bir anormallıq yoxdur. Məsələn, uçurumun kənarında düz yolda olduğu kimi düz yerimirik. Uçurumu görüb dayanırıq."

Cavab: Bu etiraz bu şəxsin düşüncə qarışıqlığı içində olduğunu və izah edilənləri heç anlamadığını göstərir. Çünki bu şəxsin etirazı belə bir iddiaya əsaslanır: "Xarici aləmdə maddi gerçəklik var. Ancaq hər kəs bu maddi dünyanı öz zehnində fərqli görə bilər". Bu şəxs ortada belə bir iddianın olduğunu zənn edir və buna etiraz edərək: "Xarici aləmdə maddi gerçəklik var və biz onu olduğu kimi görürük, kimsə xarici aləmi olduğundan fərqli görə bilməz. Bunun dəlili də budur ki, xarici aləmdə uçurum olduqda onu uçurum kimi görürük və kənarına çatdıqda dayanırıq", - deyərək bu iddianı əsassız etdiyini zənn edir.

Əslində isə, burada haqqında danışılan həqiqət bu şəxsin anladığından çox fərqlidir. Burada "xarici dünyanın olduğu, amma bu dünyanı bizim eynilə deyil, fərqli gördüyümüz" deyilir. Bundan başqa, "bütün yaşadıqlarımızı zehnimizdə gördüyümüz və əslləri ilə heç vaxt təmasda olmadığımız, buna görə də, xarici aləmdəki əsllərinin necə olduğunu bilmədiyimiz vurğulanır".

Yolda yeriyərkən uçurumdan yıxılmamağımız isə maddənin xarici aləmdəki orijinalı ilə təmasda olmağımız demək deyil. Biz düz yolda yeriyərkən də, uçurumun kənarına çataraq dayandıqda da beynimizin içindəki yolda yeriyir, beynimizin içindəki uçurumu görürük. Hətta bu uçurumdan yıxılsaq da, beynimizdə gördüyümüz uçurumdan yıxıldığımıza dair hissləri də beynimizdə hiss edərik. Eyni ilə daha əvvəl izah etdiyimiz avtobusun vurması, itin dişləməsi və s. kimi nümunələrində olduğu kimi. Uçurumdan yıxıldıqda baş verən yaralanma, sınıq və ya ağrı kimi hisslərin hamısı beynimizdə əmələ gələn görüntü və hisslərdir.

Etiraz:
"Allahın bizə bu görüntülərə tamaşa etdirməsinin məqsədi bizi imtahan etməkdir. Bəs hərəkətlərin yaradıcısı olan Allah nə üçün belə bir imtahan mühiti yaratmışdır?"

Cavab: Əlbəttə, insanların davranışlarının necə olduğunu görmək üçün Allahın onları sınamağa ehtiyacı yoxdur. Çünki bütün hadisələri, zaman və məkanları yaradan Rəbbimizdir. Allah zaman və məkandan münəzzəhdir. Bizim üçün keçmiş və gələcək hadisələr Onun qatında tək bir an içində yaşanıb sona çatmışdır. Ancaq Allah yaratdığı imtahan və səbəblər daxilində insanların öz davranışlarına şahid olmaları, nə üçün cənnətə və ya nə üçün cəhənnəmə getdiklərini bilmələri üçün bizlərə bunları yaşadır. Allahın dost olduğunu, sonsuz ədalətli, mərhəmətli və şəfqətli olduğunu bilən insan Allahın bu yaratmasından razı olur.

Allah bizlərə Öz qatında olub-bitmiş hadisələri tamaşa etdirir. İnsana isə bunları özü etdiyi hissini verir və bu hiss içində bizə Quran vasitəsilə

bildirdiyi hər şeyə görə məsuliyyət daşıdığımızı xəbər verir. Bizim boynumuza düşən vəzifə Rəbbimizin bizə əmr etdiklərini yerinə yetirməkdir. Bundan sonranı isə ancaq Rəbbimiz istədikdə öyrənə bilərik. Bu sirri və hikməti Allah istəyərsə, bizə dünyada və ya axirətdə göstərə bilər və ya heç vaxt göstərməyə bilər. Allahın bir ayəsində bildirdiyi kimi: **"...Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər..."** (Bəqərə surəsi, 255). Nə olursa olsun, Allah bizim sahibimiz və dostumuzdur. Elə isə bizim üzərimizə düşən bizə sonsuz nemətlər bəxş edən Allaha güvənmək, Onun hər yaratdığından razı olmaqdır.

Bəzi insanlar tarixən maddənin əsli mövzusunu qavramışlar, ancaq Allaha olan imanları və Quranı qavramaları zəif olduğu üçün təhrif edilmiş inanclar meydana gətirmişlər. "Hər şey necə də olsa, xəyaldır, onda ibadətlərə nə gərək var", -deyənlər olmuşdur. Bunlar son dərəcə azğın və cahil fikirlərdir. Hər şeyin Allahın bizə göstərdiyi xəyallar olduğu doğrudur. Ancaq Allahın boynumuza Qurandakı əmrlərə görə məsuliyyət qoyduğu da qəti həqiqətdir. Biz Allahın əmr və qadağalarına dəqiqliklə əməl etməliyik.

Allah Quranda insana ruh ilə bağlı çox az məlumat verildiyini bildirir. Nəticədə, Allah bu imtahan görüntüsünü bir məqsədlə yaratmışdır. Allah bu məqsədi ayələrində belə bildirir:

Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbr edənlərə müjdə ver. (Bəqərə surəsi, 155)

Siz hökmən malınız və canınızla sınaqdan keçiriləcəksiniz. Sizdən əvvəl Kitab verilənlərdən və müşriklərdən bir çox əziyyətverici sözlər eşidəcəksiniz. Əgər səbr edib *(Allahdan)* **qorxsanız,** *(bilin ki,)* **bu, əzmkarlıq** *(tələb edən)* **əməllərdəndir.** (Ali-İmran surəsi, 186)

Bu imtahanın bir çox hikməti var. Bunlardan biri bizim sınanmağımız və buna əsasən, sonsuz həyatımızda harada olacağımızın müəyyən edilməsidir. Digər bir hikməti isə insanların öz etdiklərinə həyatları boyu şahid olmaları, əxlaqlarını axirət günündə Quran əxlaqı ilə müqayisə edilərək nə üçün cənnət və ya cəhənnəmə layiq görüldüklərini görmələri ola bilər. Ancaq bunun doğrusunu Allah bilir. Biz ancaq dua ilə Allahdan bizə elmini açıb-göstərməsini istəyə bilərik.

Etiraz:
"Bu danışılanlardan başa düşdüyümüz kimi, ölümdən sonra da xəyallarla təmasda olacağıq. Xəyallarla təmasda olmaq sonsuza qədər davam edəcək? Cənnət və cəhənnəm də görüntülərdən ibarətdir?"

Cavab: Allah dünyada bütün insanları sadəcə ruhlarına göstərilən görüntüləri qavrayacaq şəkildə yaratmışdır. Yəni biz sadəcə zehnimizdə bizə göstərilənləri görə bilirik, zehnimizdən kənardakıları görmək və ya onlara toxunmaq imkanımız yoxdur. Ancaq Allah ölümdən sonra insanı başqa bir yaradılışla yaradacaqdır. Bu yaradılış da görüntü çərçivəsində olacaq, yəni biz yenə cənnət görüntüsünü zehnimizdə görəcəyik. Bu yeni yaradılışın necə olacağını bilmirik. Ancaq bunu da unutmaq olmaz ki, cənnət və cəhənnəmin

hiss kimi qavranması nə cənnətdən alınacaq zövqü, nə də cəhənnəmdə olan əzabı azaltmayacaq. Hər hansı bir insan dünya həyatında, zehnində necə əlinin yandığının bütün əlamətlərini, ağrını hiss edirsə, bu hissin gerçəkliyi axirətdə də davam edəcəkdir.

Ağrı kimi hisslər də beyində hiss edilir. Ancaq bütün insanların bildiyi bu ağrı hissi bütün digər hisslərimiz kimi son dərəcə həqiqi yaradılır. Hətta bəzən insan hiss etdiyi ağrının şiddətindən huşunu itirir. Buna bənzər bəzi görüntülərin də zehnimizdə bir hiss kimi yaradıldığına baxmayaraq, çox həqiqi olduqları üçün insana bir çox cəhətdən narahatlıq verir. Məsələn, pis görüntü, pis qoxu, xoş olmayan səs insanda böyük narahatlıq meydana gətirir. Bunların beyində qavranması bu həqiqəti dəyişdirmir. **Ona görə, cəhənnəmin insanların ruhuna xəyal kimi göstərilməsi inkar edənlərin sonsuza qədər çəkəcəyi əzabı azaltmayacaq.** Allah qüsursuz yaratması ilə dünya həyatını insanlara "mütləq həqiqət" zənn edəcəkləri şəkildə necə aydın və inandırıcı yaradırsa, axirət həyatını da elə yaratmağa gücü çatandır. Allah bir çox ayəsində cəhənnəm əzabının dözülməz əzab olduğunu bildirir:

Əzabım isə üzücü əzabdır. (Hicr surəsi, 50)

Biz kafirlərə mütləq şiddətli bir əzab daddıracaq və onları etdikləri əməllərin ən pisi ilə cəzalandıracağıq. Budur Allahın düşmənlərinin cəzası – Od! Ayələrimizi inkar etmələri üzündən orada onları, cəza yeri kimi, əbədi yurd gözləyir. (Fussilət surəsi, 27-28)

Eyni vəziyyət cənnətə də aiddir. Bir insanın dünya həyatında zövq aldığı, xoşladığı, gözəl gördüyü hər şey zehnində meydana gələn hissdir. Məsələn, ən yaxın dostu ilə söhbət edən insan zehnində əmələ gələn dostu ilə söhbət edir. Bir şəlalənin möhtəşəm görüntüsünü, gurultulu səsini dinləyən insan həqiqətdə zehnində əmələ gələn şəlaləyə baxır, zehnində əmələ gələn səsini dinləyir. Bu, qəti həqiqətdir. Ancaq bu vəziyyət insanın bu görüntüdən zövq almasına mane olmur. Bu səbəbdən, Allah Quran ayələrində cənnətin insanlar üçün böyük qurtuluş və xoşbəxtlik olduğunu, cənnətdə nəfslərinin xoşladığı hər şeyin mövcud olduğunu belə bildirir:

Öz Rəbbindən qorxanları *(ağacları)* **altından çaylar axan Cənnət bağları gözləyir ki, onlar orada əbədi qalacaqlar.** *(Bu,)* **Allahdan bir ziyafətdir. Allahın dərgahında olan** *(nemətlər)* **möminlər üçün daha xeyirlidir.**
(Ali-İmran surəsi, 198)

Rəbbi Öz tərəfindən onları bir mərhəmət, razılıq və içərisində onlar üçün tükənməz nemətlər olan Cənnət bağları ilə müjdələyir. Onlar orada əbədi qalacaqlar. Şübhəsiz ki, ən böyük mükafat Allah dərgahındadır. (Tövbə surəsi, 21-22)

(O gün) **kimin tərəziləri ağır gələrsə xoşbəxt güzəran sürəcək.**
(Qariə surəsi, 6-7)

Bundan başqa, bütün bu gözəl görüntüləri ona tamaşa etdirənin Allah olduğunu bilən insan bundan daha çox zövq alır. Məsələn, dərdiyi almanın təzə və gözəl qoxusunu alan və bu qoxunu, meyvənin estetik görünüşünü,

dadını və gözəlliyini onun üçün yaradan Allahı düşünən insan bu görüntüdən digər insanların aldıqlarından daha böyük zövq alar. Cənnətdə də Allah hər mömin üçün cənnət görüntüsünü ayrı-ayrı yaradacaq və hər möminə nəfsinin istədiyi hər şeyin ən gözəlini orada verəcəkdir. İnsan dünyada və axirətdə tək dostu, vəlisi, qoruyucusu və yaradıcısı olan Allah ilə bərabərdir. İnsanın cənnətdə yanında görəcəyi peyğəmbərlər, elçilər, saleh möminlər, hurilər və qılmanlar isə Allahın dostluğunu, sevgisini və yaxınlığını ən çox təzahür etdirdiyi varlıqlardır.

Bu bir həqiqətdir ki, Allahın bizə verdiyi həyat hisslərimizin cəmidir. Bu həqiqəti anlayan səmimi insan Allahın ədalətindən, hər şeyi qüsursuz yaratmasından və Allahın yaratdığı hər şeyin ən gözəli və ən xeyirlisi olduğundan heç şübhələnməməlidir. Allah cənnəti də, cəhənnəmi də xəyal kimi görüntü içərisində yaradacaq. Ancaq bu həqiqət Allahın Qurandakı vədini dəyişdirmir. Cənnətdə insana ən böyük zövqlər və gözəlliklər sonsuza qədər bəxş edilərkən inkar edənlər üçün də cəhənnəmdə ən şiddətli əzablar sonsuza qədər davam edəcəkdir. Allahın yaratması qüsursuzdur və Allah vədindən dönməz.

Belələri, əməllərinin ən yaxşısını qəbul edəcəyimiz, günahlarından keçəcəyimiz və Cənnət əhli içərisinə daxil edəcəyimiz kimsələrdir. Bu onlara verilmiş doğru vəddir. (Əhqaf surəsi, 16)

Ayələrdə də bildirildiyi kimi, cənnət hal-hazırda Allah qatında mövcuddur. Allah cənnəti və cəhənnəmi yaratmışdır və hər ikisi də hər halı və anları ilə Allahın hifzində hal-hazırda durur.

Etiraz:
Heç vaxt mütləq varlıqlar ilə üz-üzə gəlməyəcəyik? Davamlı olaraq xəyali mühitlə təmasda olduğumu bilmək məni narahat edir.

Cavab: Tək mütləq varlıq Allahdır. Gördüyümüz digər varlıqlar Allahın təzahürləridir. İnsanların ümumi qənaəti daima özlərinin və gördükləri digər varlıqların mütləq olmaları, Allahın isə radio dalğaları kimi onları əhatə etməsidir (Allahı tənzih edirik). Əslində isə tam doğru olan bunun əksidir. Yəni var olan yalnız Allahdır. İnsanın Allahın zatını gözləri ilə görməməsi onu aldatmamalıdır. İnsan hara çevrilsə də, kimə baxsa da, əslində, görüb baxdığı hər yerdə Allahın təzahürləri vardır. Üstəlik, bu, insanı narahat etməz, əksinə, Allaha iman gətirən insanın çox xoşuna gələcək həqiqətdir. Allahın tək mütləq varlıq, bizim isə xəyal olmağımız qul üçün şərəfdir. Belə bir həqiqət insana sevinc verir. Rəbbimizə olan heyranlığımızı və Onun sonsuz qüdrətinə olan təslimiyyətimizi qat-qat artırır.

Bundan başqa, insanın bütün dünyəvi istəklərini təbii olaraq aradan qaldıran, Allaha heç bir şirk qoşmadan iman gətirməsini təmin edən vacib məlumatdır. Çünki insan Allahdan başqa mütləq varlıq olduğunu dedikdə o varlığı Allaha ortaq qoşur, ona Allahın gücündən başqa güc aid etmiş olur. Amma bu həqiqəti bilən insana belə vəziyyət şamil edilə bilməz. Belə bir insan Allahdan başqa heç kimdən qorxmaz. Bir güc və ya imkan əldə etdikdə

bunun Allaha aid olduğunu bilir.

Allahın yaratdığı həmişə ən gözəl və ən xeyirlidir. Bu həqiqət heç vaxt unudulmamalıdır. Allah bir ayəsində belə bildirir:

Razı qalmış və razılıq qazanmış halda öz Rəbbinə tərəf dön!
(Fəcr surəsi, 28)

İnsan daima Allahın yaratdığı hər hadisədən razı qalmalıdır. Onda bu məlumatın insanların Allaha olan yaxınlıqlarını necə artıracağı daha yaxşı qavrana bilər. Bundan əlavə, bu böyük həqiqəti nəzərə alaraq Quran bir daha oxunduqda bir çox ayənin hikməti daha yaxşı başa düşülər.

Ancaq Allaha iman gətirməyən, dünya həyatına bağlı olan, axirəti istəməyən, materialist fikrə malik olan insanlar üçün bu həqiqətin narahatlıq verən, vahiməli vəziyyət olması həqiqətdir. Çünki həvəslə bağlandıqları hər şeyin, mütləq varlıq zənn etdikləri şəxslərin gerçəkdə xəyalı ilə təmasda olduqlarını anlamaq onlar üçün böyük ümidsizlik və məhvdir. Bunu anladıqda bütün həyatları boyu xəyalın ardınca qaçaraq, həvəslənərək boş yerə yorulduqlarını anlayacaqlar və mənasız işlərlə məşğul olub, həqiqətləri inkar etdiklərini görüb çox peşman olacaq, hətta son dərəcə alçalacaqlar. Bu insanların xəyal olan şeyləri həqiqət zənn edərək aldanmaları isə onları axirətdə məhv edəcəkdir.

Onlar özlərini ziyana uğradarlar. Uydurduqları *(bütlər)* **isə onlardan qeybə çəkilib gedər. Şübhə yoxdur ki, axirətdə ən çox ziyana uğrayanlar da onlardır.** (Hud surəsi, 21-22)

Amma Allahı tək dost və vəkil kimi qəbul edən, Allaha könüldən bağlı qullar üçün hər şeyin xəyal, Allahın tək mütləq varlıq olması böyük sevinc vəsiləsi və gözəllikdir.

Etiraz:
Xəyali mühitin sona çatması heçlikdir?
İnsan bu heçliyin içində qala bilərmi?

Cavab: İnsanların bu mövzu üzərində düşünmələrinə mane olan, onları qorxudan səbəblərdən biri bu mövzu üzərində fikirlərini cəm edərək dərindən düşündükdə özlərinin və toxunduqları hesab etdikləri cisimlərin əslini heç vaxt görə bilməyəcəklərini anlamaq və heçliyin içində qalmaqdan qorxmaqdır. Ancaq Allahın istəyi xaricində Allah bu imtahan dünyası üçün yaratdığı səbəbləri ortadan qaldırmaz. Bu səbəblər biz ölənə qədər bizim üçün yaradılmaqda davam edəcək.

Toxunduqda stolun bərkliyini hiss edəcəyik, əlimizi kəsdikdə əlimiz qanayacaq, ağrı hiss edəcəyik, aclıq, qorxu, ağrı, xəstəlik kimi imtahanları yaşayacağıq. Xəyallar dünyasında yaşamağımız bizi bu səbəblərə bağlı olmaqdan ayırmayacaq. Ölümümüzlə birlikdə isə yenə də heçlik olmayacaq, Allahın Quranda bildirdiyi kimi, fərqli ölçüyə və səbəblərə bağlı həyatımız başlayacaq. Beləliklə, insanın heçlik içində qalacağından qorxması yersizdir, çünki Allah bu imtahan mühitində insanı yaratdığı üçün bu hissləri yaratmaqda davam edəcək. Belə ki, Allahın Quranda bildirdikləri bu

yöndədir. İnsanın dünya həyatına aid hissləri bitdikdə axirət həyatına dair hissləri başlayacaq və insan heç vaxt heçlik içində olduğunu hiss etməyəcək.

Etiraz:
Beynindən kənarda mövcud olan dünya ilə əsla təmasda olmayacağını anlayan insan üçün dünya həyatındakı imtahan davam edir?

Cavab: Bu, çox mühüm məsələdir. Bəzi kütlələr bu həqiqətin qavranması ilə imtahan mühitinin sona çatdığını irəli sürərək səmimiyyətsiz düşüncə ortaya atırlar. Ancaq imtahan mühiti əvvəlki cavablarda da bildirildiyi kimi, biz ölənə qədər davam edir.

Allah bizi maddənin əsli ilə təmasda olmayacaq şəkildə yaşatsa da, bizə bu dünyanı müəyyən səbəblərə bağlı şəkildə göstərir. Məsələn, biz acdıqda bunun xəyal olduğunu, heç nə olmayacağını demirik, yemək yeyirik. Yemədikdə zəifləyər, bir müddət sonra həyatımızı itirə bilərik. Allah istədiyi vaxt istədiyi şəxsə istədiyi şeylər vasitəsi ilə bu səbəbləri aradan qaldıra bilər. Biz bunu bilmərik. Ancaq bu, çox vacib həqiqətdir: Allah bizim boynumuza Qurandakı hər şeyə görə məsuliyyət qoymuşdur və biz Qurandakı ibadətləri və saleh əməlləri yerinə yetirə bilmək üçün bu səbəblər çərçivəsində yaşamalıyıq.

Məsələn, Allah insanlara yaxşılığı əmr edib pislikdən çəkindirməyi əmr edir. Məzlum qadın və uşaqların zülmdən, sıxıntıdan xilas edilməsini əmr edir. Allah Quranda: "Nə üçün onlar üçün mübarizə aparmırsınız?" -deyə soruşur. Allahın bu səbəblər daxilində insanların üzərinə qoyduğu bu vəzifələri yerinə yetirməmək isə əsla doğru və səmimi davranış olmaz.

Əksinə, gördüyü hər hadisəni Allahın ona tamaşa etdirdiyini dərk edən insan gördüyü hər görüntüyə görə əvvəlcə məsuliyyət hiss edər. Bir çox insanın əksinə, qarşılaşdığı hər hadisədə daim yaxşılığı əmr edib pisliklərə mane olmağa çalışar. Bu vəzifəni heç vaxt başqalarına aid etməz, heç vaxt: "Bir azını da başqası etsin, mən bu qədər edə bilirəm", -deyə bunun kimi bəhanələr gətirməz. Bu elmə vaqif olan insan: "Allah mənə bu görüntünü göstərirsə, mənim bunu həll etməyimi istəyir, bunun məsuliyyəti mənim üzərimə düşür", -deyər.

Beləliklə, bir insan, əvvəla, Allahın Quranda onun üzərinə qoyduğu vəzifələri vicdanı ilə əlindən gəldiyi qədər yerinə yetirməlidir. Maddənin əslini bilmək və bu həqiqətə əsasən dünyaya dair fikir əldə etmək isə insanın Allah rizası üçün göstərdiyi cəhdi daha da gücləndirər, qətiyyətini qat-qat artırar.

Etiraz:
Allahın hər yerdə olduğunu söyləmək doğrudur? Allahın hökmranlığı göylərdə deyil?

Cavab: İnsanlardan bəziləri özlərini, maddəni, ətraflarında gördükləri dünyanı mütləq varlıq zənn edirlər. Allahı isə (Allahı tənzih edirik) bu mütləq maddəni əhatə edən xəyal kimi düşünürlər və ya Allahı gözləri ilə görə bilmədikləri üçün: "Hər halda Allah bizim görə bilmədiyimiz bir yerdə,

kosmosun və ya göyün uzaq bir yerindədir", -deyirlər (Allahı tənzih edirik). Bunların hamısı səhvdir.

Çünki Allah sadəcə göydə deyil, hər yerdədir. Allah tək mütləq varlıq kimi bütün kainatı, bütün insanları, yerləri, göyləri – hər yeri əhatə etmişdir və Allah bütün kainatda təzahür edir. Hara çevrilsəniz, Allahın üzü oradadır. Hədislərdə rəvayət edildiyinə görə, Peyğəmbərimiz Allahın göydə olduğunu söyləyən şəxsə doğru söylədiyini bildirmişdir. Ancaq bu rəvayət Allahın hər yerdə olması həqiqətinə zidd deyil. Belə ki, dünyanın sizin olduğunuz nöqtədəki şəxs əllərini göyə qaldıraraq Allaha dua edərsə və Allahın göydə olduğunu düşünərsə, cənub qütbündə başqa hər hansı bir insan da eyni şəkildə Allaha yönələrsə, şimal qütbündə birisi əllərini göyə qaldırarsa, Yaponiyadakı, Amerikadakı, ekvatordakı insan da eyni şəkildə əllərini göyə qaldıraraq Allaha yönələrsə, bu halda, hər hansı sabit istiqamətdən bəhs etmək mümkün deyil. Eyni şəkildə, kainatın və kosmosun fərqli nöqtələrindəki cinlər, mələklər, şeytanlar da göyə doğru dua edərsə, hər hansı sabit göydən və ya istiqamətdən bəsh etmək mümkün olmayacaq, bütün kainatı əhatə edən vəziyyət olacaq. Siz hara üz tutsanız, Allah orada təzahür edir. Daha əvvəlki mövzularda da bildirildiyi kimi, Allahın üzünü görəcəyimiz bir çox Quran ayəsi ilə bildirilmişdir. Məsələn, Allah "Bəqərə" surəsinin 255-ci ayəsində: **"...Onun Kürsüsü göyləri və yeri əhatə edir..."** - deyə bildirir. "Hud" surəsinin 92-ci ayəsində isə: **"Şübhəsiz ki, Rəbbim sizin nə etdiklərinizi əhatə edir."** - deyilərək Allahın insanları da, etdiklərini də bildiyi xəbər verilir.

Quranda da bildirildiyi kimi, Allah sadəcə göylərdə deyil. Allah hər yeri əhatə edəndir. Bu məlumat bizə Quran vasitəsilə verilir. Maddənin ardındakı sirr ilə bağlı həqiqətin izah edilməsi isə bu ayələrin insanlar tərəfindən daha yaxşı başa düşülməsinə və qavranmasına səbəb təşkil edir. Maddənin mütləq varlıq olmadığını anlayan insanlar Allahın hər an hər yerdə olduğunu, hər an onları gördüyünü və eşitdiyini, hər şeyə şahid olduğunu və onlara şah damarlarından daha yaxın olduğunu, hər dua edənin duasını eşitdiyi açıq şəkildə anlayacaqlar.

MÜBAHİSƏLƏRİN YURDU CƏHƏNNƏM

Allah Quranda **"Biz bu Quranda insanlar üçün hər cür məsəli ətraflı izah etdik. İnsan isə ən çox mübahisə edəndir."** (Kəhf surəsi, 54) ayəsi ilə insanların mübahisəçi xüsusiyyətlərinə diqqət çəkir. Bəzi insanlar, xüsusilə mənfəətlərinə zidd olduğunu düşündükləri məsələlərdə, həqiqətlər çox açıq olduğu halda, özlərini bilməməzliyə vururlar. Lazımsız təfərrüatlara aparan, hər hansı bir nəticə gətirməyən mənasız suallar verərək mübahisə edirlər. Bu xüsusiyyətlərinə görə, insanlardan bəziləri tarix boyu Allahın seçdiyi bütün peyğəmbər və elçilərlə mübahisə etmiş, onların gətirdikləri açıq-aşkar həqiqətlərə qarşı həqiqətdən kənar misallar gətirmişlər. Qarşı gəlmələrindəki məqsəd isə səmimi şəkildə həqiqətləri öyrənmək deyil, əksinə, həqiqətləri görməməzliyə vuraraq öz fikirlərinə görə çətinlik yaratmaqdır.

Səmimi şəkildə öyrənmək, düşünmək və anlamaq məqsədilə sual verənləri bu açıqlamadan kənar etmək lazımdır. Əlbəttə, insanların bir çoxunun ilk dəfə qarşılaşdıqları və həyata baxışlarını tamamilə dəyişdirəcək belə vacib mövzuda sual vermək, daha yaxşı anlamaq üçün araşdırmaq və bilənlərlə məsləhətləşmək son dərəcə doğru və vacibdir. Sual və araşdırmalarında səmimi və xoş niyyətli olan insanların üslublarının mübahisəçi, şübhəçi və anlayışsız insanlarla eyni olmadığı məlumdur. Ona görə, burada haqqında danışılan şəxslər həqiqətləri qəbul etməkdə inadkarlıq edən, mübahisəni və inkarı vərdiş halına gətirən insanlardır.

Allah bir ayəsində mübahisəçi insanların halını belə açıqlayır:

Onlar dedilər: "Bizim məbudlarımız yaxşıdır, yoxsa o?"
Onlar bunu sənə yalnız höcət etmək üçün dedilər.
Doğrusu, onlar höcətləşən adamlardır. (Zuxruf surəsi, 58)

Quranda inadkar və mübahisəçi insanlara verilən nümunələrdən biri də firondur. Firon Hz. Musanın ona bütün həqiqətləri tam açıq şəkildə izah etməsinə baxmayaraq, onun izah etdikləri ilə heç bir əlaqəsi olmayan, bundan başqa, cavabını alsa belə, ona heç bir fayda verməyən sual vermişdir. Ona Allahın varlığını izah edən Hz. Musaya fironun sualı belədir:

(Firon) **dedi: "Bəs əvvəlki nəsillərin halı necə olacaq?"** (Ta Ha surəsi, 51)

Aydındır ki, firon bu sualı sadəcə mübahisə olsun deyə vermişdir. Sualında səmimi öyrənmə istəyi yoxdur və öz zəif ağlına görə, Hz. Musanın cavabsız qalaraq çətin vəziyyətə düşəcəyini hesab edir. Ancaq Hz. Musa onun bu sualındakı məqsədini dərhal anlayır, ayədə də bildirildiyi kimi, ona çox açıq və qəti cavab verir:

(Musa) **dedi: "Onlar haqqındakı bilgi Rəbbimin yanında olan bir Kitabdadır. Rəbbim nə xəta edir, nə də unudur!"** (Ta Ha surəsi, 52)

Mübahisəçi və qəsdən həqiqətləri bilməməzliyə vuran xarakter, əlbəttə, sadəcə firona və ya keçmişdə yaşayan bir sıra inkarçılara aid deyil. Dövrümüzdə də insanların böyük hissəsi mənfəətlərinə zidd olan məsələlərdə, xüsusilə, dinlə bağlı məsələlərdə mübahisə etməyə başlayırlar. Səmimi yanaşdıqda anladıqları mövzuları qəsdən anlamaq istəmədikləri sual və üslublarından bəlli olur. Xüsusilə bu kitabda izah edilən qədər (tale) həqiqəti və maddənin həqiqi mahiyyəti kimi mövzular insanların ən çox özlərini bilməməzliyə vurduqları mövzulardır. Buna görə də bu mövzularda verdikləri suallar həqiqəti araşdırıb öyrənməyə yönələn səmimi araşdırmadan çox öz ağlına görə bu həqiqəti əsassız etməyə yönəlir. Məsələn: "Əgər hər şey görüntüdürsə, nə üçün ibadətlərimizi yerinə yetirək?" -deyə sual verənlər verdikləri sualın nə qədər mənasız olduğunu dərk etmirlər. Bir insanın görüntü kimi yaradılması nə üçün onun namazı (səlatı) yerinə yetirməsinə mane olsun və ya bir yeməyin görüntü olması nə üçün onun haram olmasına mane olsun, bunu düşünmədən, sadəcə etiraz etmək üçün bu sualları verirlər. Tək məqsədləri heç bir məntiq olmadan, sadəcə qarşı çıxmaq, doğru olanları qəbul etməmək və inadkarlıq etməkdir.

Möminlər isə həqiqətləri gördükdə heç mübahisə etmədən, Quranda da bildirildiyi kimi: "Eşitdik və itaət etdik", -deyərək dərhal qəbul edir və əməl edirlər. Onlara mübahisəçilərin verdiyi suallara isə onlarla mübahisə etmədən, qəti və açıq cavablar verirlər. Allah mübahisə edənlərə möminlərin belə cavab vermələrini bildirmişdir:

De: "Allah barəsində bizimlə mübahisəmi edirsiniz? Halbuki O, bizim də Rəbbimiz, sizin də Rəbbinizdir! Bizim əməllərimiz bizə, sizin əməlləriniz isə sizə aiddir. Biz Ona sadiq olanlarıq!" (Bəqərə surəsi, 139)

Möminlərlə mübahisə edənlər, qədəri və Allahın tək mütləq varlıq olduğunu, özlərinin isə Allaha aid bir varlıq olduqlarını inkar edərək çox açıq həqiqətlər barədə özlərini bilməməzliyə qoyanlar, məntiqsiz suallarla cənnət və cəhənnəmin varlığını, Allahın mərhəmətini və ədalətini öz zəif ağılları ilə sorğu-sual edənlər bunu çox yaxşı anlamalıdırlar: bu mübahisələrinə cəhənnəmdə də davam edəcəklər. Quran ayələrində cəhənnəm əhlinin davamlı olaraq mübahisə edib çəkişəcəkləri xəbər verilmişdir:

Onlar orada höcətləşərək deyərlər: "Allaha and olsun ki, biz açıq-aydın azğınlıq içində idik." (Şuəra surəsi, 96-97)

O zaman onlar odda bir-birilə höcətləşəcəklər. Zəiflər təkəbbür göstərənlərə: "Biz sizin ardınızca gedirdik. İndi siz odun bir hissəsindən bizi qurtara bilərsinizmi?"– deyəcəklər. Təkəbbür göstərənlər: "Hamımız bunun içindəyik. Artıq Allah qullar arasında hökmünü vermişdir"– deyəcəklər. (Mumin surəsi, 47-48)

Yuxarıdakı ayələrdən də göründüyü kimi, inkar edənlər atəşin içində olarkən də mübahisəyə davam edəcəklər. Başqa ayələrdə də inkarçıların möminlərlə mübahisə etməyə çalışdıqlarını və belə dediklərini Allah bildirir:

Onlar deyəcəklər: "Ey Rəbbimiz! Bunu bizə kim təqdim edibsə, onun əzabını odda ikiqat elə!" *(Günahkarlar)* **deyəcəklər: "Bizə nə olub ki,** *(dünyada ikən)* **pis adamlar saydığımız kişiləri burada görmürük? Biz onları** *(haqsızcasınamı)* **məsxərəyə qoyurduq? Nə isə, onlar gözə dəymirlər?" Şübhəsiz ki, bu, od sakinlərinin bir-biri ilə höcətləşməsi bir həqiqətdir.** (Sad surəsi, 61-64)

Cəhənnəm əhli cəhənnəmin dar və sıx yerlərində dəmir qamçılarla, üzərlərinə tökülən qaynar su ilə oddan dəriləri əriyərkən yenə mübahisə etməyə davam edəcəklər. Nəticəsiz mübahisələri heç bitməyəcək, özlərinin nə üçün əzab çəkdiyini bir-birlərindən soruşacaqlar, Allah və möminlər haqqında mübahisə etməkdə davam edəcəklər:

Onlar öz Rəbbi barəsində höcətləşən iki dəstədir. Kafirlər üçün oddan paltar biçiləcək, başlarına da qaynar su töküləcəkdir. Bununla, olanların bətnlərindəkiləri və dərisi əridiləcəkdir. Onlar üçün dəmir toppuzlar da hazırlanmışdır. Onlar hər dəfə oradan çıxmaq, qəmdən qurtarmaq istədikdə yenidən oraya qaytarılacaq *(və onlara)*: **"Dadın odun əzabını!"** *(– deyiləcəkdir.)* (Həcc surəsi, 19-22)

Ancaq bu mübahisələrdən də heç bir nəticə əldə etməyəcəklər. Dünyada həqiqətlər haqqında özlərini bilməməzliyə qoyaraq mübahisə edən inkarçılar, Allahın istəyi xaricində, sonsuzluğa qədər davam edəcək cəhənnəm əzabı içində, faydası olmayan peşmançılıqla mübahisə edərək yaşayacaqlar.

Cəhənnəm əhlinin cəhənnəmdə də mübahisələrinə davam etməsi onların cəhənnəm atəşini gördükdə belə iman gətirməyəcəklərinin, mübahisələrə davam edərək həqiqətləri anlamayacaqlarının göstəricisidir. Bu insanlar cəhənnəm əzabının içində ikən belə inkarlarına davam edirlər:

Odda olanlar Cəhənnəm gözətçilərinə deyəcəklər: "Rəbbinizə yalvarın ki, heç olmasa, bircə gün əzabımızı yüngülləşdirsin!" *(Mələklər)* **deyəcəklər: "Məgər elçiləriniz açıq-aydın dəlillər gətirməmişdilər?" Onlar: "Əlbəttə** *(gətirmişdilər)***!"– deyəcəklər.** *(Mələklər) (dəː)* **"Elə isə özünüz yalvarın!"– deyəcəklər. Kafirlərin yalvarması isə boş şeydir.** (Mumin surəsi, 49-50)

Cəhənnəm atəşinin içində olarkən də: "Rəbbim", -deyərək dua etməyən və təkəbbür göstərməkdə davam edən bu insanların sahib olduqları davranış və əxlaqi pozuntu ortadadır. Bu insanlara bütün nümunələr verilsə də, bütün dəlillər göstərilsə də, anlamazlar. Allah bir ayəsində bəzi insanların inanmayacaqlarını belə bildirir:

(Kafirlər) **Allahın adı ilə möhkəm and içdilər ki, əgər onlara bir ayə gəlsə, mütləq ona inanacaqlar. De: "Ayələr ancaq Allahın yanındadır. Siz haradan biləsiniz ki, o** *(ayələr)* **gəldikdə onlar yenə də iman gətirməyəcəklər?"** (Ənam surəsi, 109)

Buna görə, bəzi insanların burada izah edilən həqiqətləri çox açıq və anlaşılan olmasına baxmayaraq, anlamamaqlarına təəccüblənmək lazım deyil. Bu insanların həqiqətlər qarşısında boyun əyməmələri də Allahın bir ayəsidir.

HƏQİQƏTLƏRDƏN QAÇMAQ OLMAZ

İnsanların fikirlərini kökündən dəyişdirən, insanları Allaha qəti iman etdirən, Quranda bəhs edilən bütün gözəl əxlaq xüsusiyyətlərinin sevərək və istəyərək yaşanmasını təmin edən, insanlardakı həvəs, rəqabət, kin, düşmənçilik, paxıllıq hisslərini aradan qaldıraraq sevgi, mərhəmət, şəfqət, təvazökarlığı hakim edən bu qeyri-adi vacib həqiqəti, yəni maddənin xəyal olması həqiqətini öyrənən və anlayan insanların sayı sürətlə artır. **"Bu qədər açıq həqiqəti bu günə qədər necə olub da anlamadığını"** deyən insanlar çoxluq təşkil edir.

İnsanların qədər, zaman, ölüm, dirilmə, cənnət, cəhənnəm kimi mövzuları qəti şəkildə başa düşmələrini təmin edən bu böyük sirri qavrayan hər insanın digərlərini də bu mühüm məlumatdan xəbərdar etməsi çox vacibdir. Bunu edən insan bu sayədə həm insanların Quranı daha yaxşı və asan anlamalarını təmin edər, həm də insanların sürətlə hidayətlərinə səbəb olar.

Allah Ona gizli və açıq şəkildə şirk qoşulmadıqda, yalnız Ona ibadət edildikdə, tək İlah və tək güc kimi Allah qəbul edildikdə Quran əxlaqını

dünyaya hakim edəcəyini müjdələyir:

Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi onları da yer üzünün varisləri edəcək, möminlər üçün onların Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir. Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar. Bundan sonra küfr edənlər – məhz onlar fasiqlərdir. (Nur surəsi, 55)

Quran əxlaqının dünyaya hakim olması üçün ən mühüm məsələ olan şirkdən, yəni Allahdan başqa güclərin olduğuna inanmaqdan çəkinmək lazımdır. Allahdan başqa maddənin mütləq olduğunu iddia etmək, Allahın maddəni ancaq xəyal kimi əhatə edəcəyini düşünmək, Allahı ağıl kimi mücərrəd varlıq kimi görmək, Allahdan başqa gücdən qorxmaq, insanın istədikdə qədərini dəyişdirə biləcəyini düşünmək (hamısından Allahı tənzih edirik), zamanı, məkanı mütləq zənn etmək kimi şirk olan inanclardan qurtulmaq üçün bu kitabda izah edilən mövzular yaxşı başa düşülməlidir. Bu səbəbdən, "bu mövzunun nə kimi əhəmiyyətinin olduğunu, niyə hər fürsət düşəndə kitablarda bu mövzuya yer verildiyini" deyənlər bu vacib həqiqəti yenidən düşünməlidirlər.

Tək mütləq varlıq Allahdır və Allah biz bu kitabı yazarkən də, oxuyarkən də, bu kitab haqqında düşünərkən də bizə baxır, bizi görür, eşidir, bütün gizli bilgilərimizi bilir. Allah bizi hər tərəfdən əhatə etmişdir. **Gerçək mütləq varlıq olan Allahdır, ağıl kimi görünməyən və mücərrəd olan isə biz qullarıq. Bu həqiqət Allahı sevən və Allaha qul olduğunu dərk edən biri üçün böyük şərəf və gözəllikdir.** Bu həqiqətdən müsəlmanların qaçması doğru olmaz. Müsəlmanlar haqq olanı könüldən qəbul etməli, görməməzliyə vurmağa çalışaraq Allah qatında alçalmamalıdırlar. Allah inanan qullarını Quranda belə xəbərdar edir:

Özünüz də bilə-bilə haqqa batil donu geyindirməyin və haqqı gizlətməyin. (Bəqərə surəsi, 42)

Bunu da unutmaq olmaz ki, bu həqiqətin açıqlanması materializmin süqut etməsinə və bütün dünyada mənəviyyatın və gözəl əxlaqın hakim olmasına vəsilə olacaqdır. Bunu anlayan materialist kütlələr bu həqiqətin açıqlanmasından çox narahat olur, fəlsəfələrini kökündən məhv edəcəyini anladıqları bu həqiqətin insanlara açıqlanmasına mane olmaq üçün son dərəcə gülünc və çarəsizliklərini göstərən yollara əl atırlar. Ancaq bu gün maddənin həqiqəti mövzusu bütün açıqlığı ilə üzə çıxmışdır. Keçmişdə sadəcə bir fəlsəfə kimi qalan, elmi kəşflərin dəstəkləyə bilmədiyi bu həqiqət dövrümüzdə elm tərəfindən açıq şəkildə ortaya qoyulmuşdur. F.Vester bu həqiqəti qavramış biri kimi bu mövzuda belə deyir:

Bəzi mütəfəkkirlərin "insan xəyaldır, əslində, bütün yaşananlar keçici və aldadıcıdır, bu kainat kölgədir" kimi sözləri günümüzdə elmi cəhətdən sübut edilir. (Frederick Vester, Düşünmek, Öğrenmek, Unutmak, İstanbul: Arıtan Yayınevi, 1991, s. 6)

Materialistlərin səyləri artıq boş yerədir. Məlumatın böyük sürətlə bütün

dünyaya qısa zamanda ötürüldüyü dövrümüzdə əsrlərdir gözdən qaçırmağa çalışdıqları **bu böyük həqiqət bu gün Qayanadan İngiltərəyə, Amerikadan İndoneziyaya, Sinqapurdan İsveçə, materialistlərin qalaları olan Rusiyadan Çinə, Kubadan Albaniyaya qədər hər yerdə oxunur, öyrənilir və izah edilir.** Materializm böyük gurultu ilə süqut edir. Çünki bu gün başa düşülmüşdür ki, maddənin əsli ilə heç vaxt təmasda ola bilmərik. **Maddə ilə təmasda ola bilmədiyimizə və ola bilməyəcəyimizə görə materializm də yoxdur.**

Quranın bəzi ayələrində işarə edilən və bir çox mövzunun başa düşülməsini daha da asanlaşdıran bu vacib həqiqətin materializm kimi batil və din əleyhinə olan bir fəlsəfəni məhv etməsi çox mühüm irəliləyişdir. Quranda Allah belə bildirir:

Xeyr, Biz haqqı batilin üstünə atarıq və o da onun işini bitirər. Bir anda *(batilin)* **yox olub getdiyini görərsiniz.** *(Allaha)* **aid etdiyiniz sifətlərə görə vay halınıza!** (Ənbiya surəsi, 18)

Ayədə də xəbər verildiyi kimi, doğru olan batilin üstünə atıldıqda batil bir inanc olan materializmin beyni maddə də yox olub gedir. Hər hansı bir materialistin bu həqiqətin qarşısını almaq və ya dəyişdirmək imkanı da qətiyyən yoxdur.

DARVİNİSTLƏR NƏLƏRİ DÜŞÜNMÜRLƏR?

- Darvinistlər mutasiyaların canlıları inkişaf etdirdiyini, onlara yeni orqanlar və xüsusiyyətlər qatdığını iddia etmənin, zəlzələlərin bir şəhəri müasirləşdirdiyini iddia etmək qədər məntiqsiz olduğunu, genetik məlumatı artıran faydalı mutasiyaların heç reallaşmadığını və əsla reallaşa bilməyəcəyini düşünmürlər.
- Darvinistlər gözyaşlarında olan "lilozim" fermentinin bir çox bakteriya növünü parçalaya bilmə və mikrobları öldürmə xüsusiyyəti sayəsində gözləri müxtəlif xəstəliklərdən qoruduqlarını, lizozim maddəsinin binaların təmizliyində istifadə edilən dezenfektan maddələrdən belə daha təsirli olduğunu, amma buna baxmayaraq bu maddənin insan gözünə zərər vermədiyini, bunun Allahın bütün insanlar üçün yaratdığı bir nemət olduğunu düşünmürlər.
- Darvinistlər canlılığın cansız maddələrdən təsadüfən meydana gəldiyini iddia edərkən, 19-cu əsrdə Luis Pasterin "Həyat ancaq həyatdan gəlir" dissertasiyasını isbat etdiyini, cansız maddələrin həyat meydana gətirə bildikləri iddiasını elmi olaraq çürütdüyünü düşünmürlər.
- Darvinistlər insan bədənindəki funksiyaların tam lazım olduğu müddətdə yerinə yetirilməsinin fermentlərin yardımı ilə olduğunu, bu vəzifələri şüursuz atomlardan ibarət olan fermentlərin öz başına öyrənə bilməyəcəklərini düşünmürlər.
- Darvinistlər "elm adamlarının etdikləri təcrübələr, həyatın kimyəvi reaksiyalarla öz-özünə başlaya biləcəyini göstərmişdir" deyə iddia edirlər, ancaq bunu göstərən tək bir təcrübənin belə olmadığını, üstəlik elmin, bunun nəzəri səviyyədə belə mümkün olmadığını isbat etdiyini düşünmürlər.
- Nüvədəki 46 xromosomun hər biri, bir insan ilə əlaqədar bütün məlumatları daşıyan genlərə malikdir. Darvinistlər, insan vücudunda olan bütün orqanların, hüceyrələrdə yer alan genlərin tərif etdiyi bir plan çərçivəsində tikildiklərini, məsələn, vücudda dəriyə 2.559, beyinə 29.930, gözə 1.794, tüpürcək vəzisinə 186, ürəyə 6.216, sinəyə 4.001, ağciyərə 11.581 gen tərəfindən nəzarət edildiyini düşünmürlər.
- Darvinistlər DNT-də hər hansı bir pillədəki, məsələn, 1 milyard 719 milyon 348 min 632-ci pillədəki bir hərfin səhv kodlaşdırılması kimi bir səhvin belə, hüceyrə üçün, başqa sözlə insan üçün qorxunc nəticələrə yol aça biləcəyini və bu kodlaşdırmanın təsadüflərlə açıqlanmasının qeyrimümkün olduğunu düşünmürlər.
- Güclü olan həyatda qalır iddiasında olan Darvinistlər, düşmənlərinə qarşı son dərəcə yırtıcı ola bilən aslanların balalarına qarşı niyə son dərəcə şəfqətli olduqlarını düşünmürlər.

- Darvinistlər bir dinozavrın ağcaqanadı yaxalamağa çalışarkən qanadlandığını iddia etsələr də, ağcaqanadın onsuz da mükəmməl bir qanad və uçuş sisteminə sahib olaraq saniyədə 1000 dəfə qanad çırpan varlıq olduğunu düşünmürlər.
- Darvinistlər ağacların, heç bir nasos və ya hidrofor sistemi olmadan ehtiyacları olan suyu metrlərlə uzunluqdakı ən uc budaqlarda olan yarpaqlara qədər çatdıra bilmələrini təsadüflərlə açıqlana bilməyəcəyini düşünmürlər.
- Darvinistlər millimetrin 100-də biri böyüklüyündəki hüceyrələrimizin içindəki "mitokondri" deyilən enerji stansiyasının, bir neftayırma zavodundan ya da bir hidroelektrik stansiyasından daha kompleks olduğunu düşünmürlər.
- Darvinistlər şüursuz təsadüflər nəticəsində meydana gəldiyini iddia etdikləri, insan bədənindəki 100 trilyon hüceyrənin hər birində mövcud olan DNT molekullarının tək bir dənəsində bir milyon ensiklopediya səhifəsini dolduracaq məlumatın olduğunu düşünmürlər.
- Darvinistlər hər şeyin maddədən ibarət olduğunu söyləyərkən DNT-nin ehtiva etdiyi "məlumat"ın maddə olmadığını düşünmürlər.
- Darvinistlər tək bir yumurta hüceyrəsinin bölünərək, bir-birindən fərqli saysız hüceyrəni meydana gətirdiyini, bu hüceyrələr arasında mükəmməl bir ünsiyyət və əməkdaşlığın var olduğunu və bunun elm adamlarının dərk edə bilmədiyi hadisələrdən biri olduğunu düşünmürlər.
- Darvinistlər palçıqlı bir suyun içində təsadüfən əmələ gəldiyini iddia etdikləri zülalın necə meydana gəldiyini, ikinci bir zülalın da əmələ gələrək necə onunla birləşdiyini, üçüncünün də bunlara necə əlavə olunduğunu və bu qeyri-mümkün sistemin bu şəkildə necə davam etdiyini və ən sonunda bütün bunların bir araya gələrək təsadüfən bir hüceyrə halına gəlib canlanmasının mümkün olmadığını düşünmürlər.
- Darvinistlər yer üzündəki bütün canlıların xüsusiyyətlərini, "Ana təbiət" adını verdikləri xəyali bir güc tərəfindən əldə etdiklərini iddia edərkən, əslində ilahlaşdırdıqları "Ana təbiət"-in daş, torpaq, çəmən, ağac və çiçəklərdən meydana gəldiyini, ağılsız və şüursuz olduğunu düşünmürlər.
- Darvinistlər instinkt olaraq adlandırdıqları canlılardakı ağıllı davranışların və fədakarlıq xüsusiyyətlərinin təsadüfən ortaya çıxdığını iddia edərkən, bu instinkt anlayışının canlılarda ilk olaraq necə meydana gəldiyi, necə istiqamətləndirildiyi və nəsillər boyunca necə davam etdiyini izah edə bilmədiklərini düşünmürlər.
- Darvinistlər quşların daha az enerji xərcləmək üçün "V" şəklində uçmalarının, kor təsadüflərlə açıqlana bilməyəcəyini düşünmürlər.

- Darvinistlər bir buqələmunun olduğu mühitə görə rəngini necə dəyişdirdiyini, xaricdən özünü görə bilməyən bu canlının mühitlə eyni rəngi necə meydana gətirə bildiyini, təsadüflərin şüursuz bir heyvana, qorunma məqsədli rəng dəyişdirmə qabiliyyəti verə bilməyəcəyini düşünmürlər.
- Darvinistlər arıların, çanaqlı bağaların və quşların xəritələri olmadan uzun məsafəli səfərlər edə bilmə xüsusiyyətlərini, bu xüsusiyyətləri heyvanlara ilham edənin Uca Allah olduğunu düşünmürlər.
- Darvinistlər eyni torpaqda yetişməsinə, eyni su ilə sulanmasına baxmayaraq, bənzərsiz rəng, fərqli qoxu və dadlara sahib bitkiləri, insan ruhuna ən xoş gələcək şəkildə Allahın yaratdığını düşünmürlər.
- Darvinistlər Lotus bitkisinin, üzərindəki toz dənəciklərini, düşən yağış damlalarını hərəkət etdirərək təmizləməsindəki şüurun təsadüflə meydana gələ bilməyəcəyini düşünmürlər.
- Darvinistlər atmosfer təzyiqi indiki dəyərindən bir qat daha çox olsa, atmosferdəki su buxarı nisbətinin azalacağı və dünya üzərindəki quraqlıqların hamısının çölləşəcəyini, bunun nəticəsində də həyatın qeyri -mümkünləşəcəyini düşünmürlər.
- Darvinistlər Günəşdə meydana gələn partlamaların ortaya çıxardığı enerjinin olduqca böyük olduğunu, tək bir partlamanın Hiroşimaya atılanın bənzəri olan 100 milyard ton atom bombasının gücünə bərabər olduğunu, bu yandırıcı təsirin də atmosfer vasitəsilə Dünyaya ən ideal şəkliylə çatdığını düşünmürlər.
- Darvinistlər kainatın sonsuz olmadığını, sıfır həcmə sahib tək bir nöqtənin partlamasıyla yoxdan var olduğunu düşünmürlər.
- Darvinistlər kainatın meydana gəlməsinə səbəb olan Böyük Partlayışın bütün kainatı əhatə edən və fövqəladə bir həssaslığa sahib bir nizam meydana gətirdiyini və bunun yalnız Allahın izni ilə reallaşdığını düşünmürlər.
- Darvinistlər Günəş Sisteminin qalaktika mərkəzi ətrafındakı sürətinin saatda tam 720.000 km olduğunu, 200 milyon ulduzu əhatəsində saxlayan Süd Yolu qalaktikasının kosmos içindəki sürətinin saatda 950.000 km olduğunu, belə bir kompleks və sürətli bir sistem içində heç bir problem və toqquşma olmadan Allahın qurduğu qüsursuz tarazlığa görə yaşadığımızı düşünmürlər.
- Darvinistlər internet texnologiyasının və ya sadə bir telefon stansiya sisteminin belə təsadüfən meydana gələ bilməyəcəyini, bunun mühəndislik, dizayn, məlumat, şüur, ağıl və texnologiya tələb etdiyini bildikləri halda, beyindəki kimi fövqəladə komplekslikdəki sistemin əmələ gəlməsinin təsadüflərlə açıqlana bilməyəcəyini düşünmürlər.

- Darvinistlər davamlı qanın içində gəzməsinə baxmayaraq, yalnız damarların birində qanama olduqda hərəkətə keçib laxtalanmağı təmin edən Trombin zülalının təsadüfi dəyişmələr nəticəsində meydana gəldiyini iddia etməyin ağılsızlıq olduğunu düşünmürlər.
- Darvinistlər ana bətnindəki ortaq bir ana hüceyrədən çoxalaraq meydana gələn hüceyrələrin, bölünmə müddəti içində getdikcə fərqliləşib ayrı-ayrı toxumaları, orqanları əmələ gətirdiyini; başqa sözlə tək bir hüceyrədən insanın burnunun, əlinin, böyrəyinin əmələ gəldiyini və bu orqanları əmələ gətirən hüceyrələrin lazım olduğu qədər çoxalıb, tam bir əl əmələ gəldiyində və ya düz bir burun əmələ gəldiyində çoxalmağı dayandırdıqlarını düşünmürlər.
- Darvinistlər insanın bir yeri kəsildiyində qanının laxtalana bilməsi və insanın qan itkisindən ölməməsi üçün lazım olan 20 fərqli fermentin eyni anda var olmasının lazım olduğunu və bunun xəyali təkamül mexanizmləriylə əsla açıqlana bilməyəcəyini düşünmürlər.
- Darvinistlər sinir xəbərdarlıqlarının saniyədə təxminən 9 km sürətlə bədənimizdə irəlilədiyini və beləliklə bir çox təhlükədən qorunmuş olduğumuzu düşünmürlər.
- Darvinistlər ürəyimizin hər gün bədənimizdə 19.308 km boyunca 36 milyard litr qan vurduğunu düşünmürlər.
- Darvinistlər oxuduğumuz hər saniyədə, retinamızın eynilə bir kompyuter kimi 10.000 000 000 (10 milyard) hesablama reallaşdırdığını düşünmürlər.
- Darvinistlər bədənimizin təxminən 5.6 litr qana sahib olduğunu, bu 5.6 litr qanın hər dəqiqə tam 3 dəfə bədənimizi gəzdiyini, bir gündə təxminən 19.000 km yol aldığını düşünmürlər.
- Darvinistlər göz qırpmağı təmin edən əzələnin bədəndəki ən sürətli əzələ olduğunu, bu əzələnin saniyədə gözümüzü 5 dəfə qırpmamızı təmin etdiyini, bunun sayəsində gündə təxminən 15.000 dəfə göz qırpdığımızı düşünmürlər.
- Darvinistlər ana südünün yeni doğulmuş uşağın bütün ehtiyaclarını qarşıladığını, uşaq yeməkləri hazırlayan şirkətlərin ana südünün bir bənzərini hələ də hazırlaya bilmədiklərini düşünmürlər.
- Darvinistlər insan gözünün ən inkişaf etmiş kameradan daha çox inkişaf etmiş bir görünüş və dəqiqlik təmin etdiyini düşünmürlər.
- Darvinistlər insan bədənində, nə vaxt hüceyrə çıxarılması və nə zaman hüceyrənin yox edilməsi lazım olduğunun, insan iradəsi və məlumatı xaricində, qüsursuz bir tarazlıq və nizam içində işlədiyini düşünmürlər.
- Darvinistlər insanın inkişafının bir ölçü ilə olması, boyun uzanması, əl və ayaqların müəyyən nisbətdə böyüməsi və lazımlı ölçüyə çatdığında hər

birinin dayanmağa qərar verməsi kimi şüurlu bir sistemin əsla şüursuz əmələ gələ bilməyəcəyini düşünmürlər.

- Darvinistlər bədəndə gündə 260-400 milyarda qədər qan hüceyrəsi yarandığını, ana mərkəz olan sümük iliyində reallaşan bu istehsalın, "Kök Hüceyrə" adı verilən xüsusi bir hüceyrənin dəyişik bölünmə qabiliyyətlərindən asılı olduğunu düşünmürlər.
- Darvinistlər təsadüflərlə inkişaf etdiyini iddia etdikləri beynin, heç bir sinir bir-birinə qarışmadan, heç bir axsaqlıq olmadan funksiyasını davam etdirməyi necə bacardığını düşünmürlər.
- Darvinistlər şüursuz meydana gəldiyini iddia etdikləri qaşın uzandıqdan sonra şüurlu şəkildə dayanma qərarını necə aldığını düşünmürlər.
- Darvinistlər təsadüfən meydana gəldiyini iddia etdikləri kirpiklərin, müəyyən bir boydan sonra sanki şüurlu bir şəkildə uzanmağı dayandırdığını, buna baxmayaraq saçların isə hansı şüurla uzanmağa davam etdiyini düşünmürlər.
- Darvinistlər təsadüfən meydana gəldiyini iddia etdikləri bir bədənin niyə beynə, gözə, sümük sisteminə, oynaqlara ehtiyac duyduğunu, hüceyrə nüvəsinə, DNT-yə necə sahib olduğunu düşünmürlər.
- Darvinistlər nazikbağırsağın kiçik bir bölgəsində, var olduqları müddət boyunca yalnız B-12 vitaminini tutmaqla vəzifələndirilmiş xüsusi bir hüceyrə qrupunun trilyonlarca molekul içindən B-12 vitaminini ayırd edib saxlayaraq, bunların qan dövranına keçməsini təmin etdiklərini, beləcə qan istehsalı üçün sümük iliyinə çatmalarına səbəb olduqlarını, gözləri, əlləri və ya bir beyni olmayan bu bağırsaq hüceyrələrinin B-12 vitamininin insan bədəni üçün daşıdığı əhəmiyyəti necə bilib, bunu trilyonlarca molekul arasından seçib ayıra bildiklərini düşünmürlər.
- Darvinistlər bütün həyatları boyunca beyinlərinin içində elektrik axınlarının meydana gətirdiyi görüntülərlə həmsöhbət olduqlarını və bu görüntünün xaricdə olan əslinə heç bir zaman çata bilməyəcəklərini düşünmürlər.
- Darvinistlər eşitdikləri səslərin, gördükləri insanların, qoxuladıqları qoxuların yalnız beyinlərində yaranan bir hiss olduğunu, bunların maddi varlığını heç bir zaman isbat edə bilməyəcəklərini düşünmürlər.
- Darvinistlər beynin içində yaranan üstün keyfiyyətdəki səsin yalnız elektrik siqnallarından əmələ gəlmiş olduğunu və bunun təsadüflərlə qəti olaraq açıqlana bilməyəcəyini düşünmürlər.
- Darvinistlər təsadüfən meydana gəldiyini iddia etdikləri beynin ən sürətli kompyuterlərdən yüzlərlə qat daha sürətli və daha kompleks şəkildə işlədiyini və beynin funksiya sisteminin bənzərinin elektronik sahədə reallaşdırıla bilməsinin mümkün olmadığını düşünmürlər.

- Darvinistlər insanı insan edən xüsusiyyətlərin, insana aid duyğu, düşüncə, hiss, sevgi və inanc kimi anlayışların beynin içindəki neyronların fəaliyyəti olmadığını, bütün bunların maddi izahının olmadığını düşünmürlər.
- Darvinistlər sevinən, düşünən, şərh edən, təhlil edən, eşitdiyi səsləri tanıyan, xatırlayan, bir çiçəyin görüntüsündən, qoxusundan zövq alan varlığın insanın ruhu olduğunu düşünmürlər.
- Darvinistlər bütün dəlilləriylə var olan insan ruhu qarşısında Materiyalizmin yox olub getdiyini və Darvinizmin insan ruhunu heç bir şəkildə izah edə bilmədiyini düşünmürlər.
- Darvinistlər sevgi, vəfa, dostluq, dürüstlük kimi anlayışların, heç bir materialist anlayış ilə açıqlana bilməyəcəyini, xəyali təkamül mexanizmlərinin bütün bunlara heç bir şəkildə izah gətirə bilmədiyini düşünmürlər.
- Darvinistlər beynin içinin qaranlıq olmasına baxmayaraq oraya çatan elektrik siqnalları ilə yaranan görüntünün rəngli olmasındakı möcüzəni təsadüflə açıqlana bilməyəcəyini düşünmürlər.
- Darvinistlər beynin quruluşunu göz önünə alaraq yaddaş kimi bir funksiyanın necə, harada olduğunu və lazım olduğunda necə dövrəyə girdiyini düşünmürlər.
- Darvinistlər gecə gözləri bağlı yatarkən, necə 1300-1400 qramlıq bir sinir yumağı olan beynin içindəki qapqaranlıq məkanda günəş şüalarıyla parıldayan bir səma gördüklərini, yağışdan islanıb üşüdüklərini, bir gülün xoş ətirli qoxusunu içlərinə çəkə bildiklərini, ləzzətinə doya bilmədikləri yeməklər yediklərini düşünmürlər.
- Darvinistlər Təkamül nəzəriyyəsinin lehində tək bir ara-keçid formasının belə tapılmadığını düşünmürlər.
- Darvinistlər yer üzü qatlarının çox böyük bir hissəsinin araşdırıldığını, ələ keçən arxeoloji tapıntılara və paleontologiya elmindəki irəliləmələrə baxmayaraq, dəlil olaraq təqdim edə biləcəkləri bir dənə belə təkamülləşmə nümunəsi ilə qarşılaşılmadığını düşünmürlər.
- Darvinistlər milyonlarla illik arxeoloji tapıntıların yaşayan nümunələri ilə hal-hazırda qarşılaşmanın, təkamül nəzəriyyəsinin etibarsızlığını bir daha təkrar gözlər önünə sərdiyini düşünmürlər.
- Darvinistlər təkamül nəzəriyyəsini dəstəkləmək üçün etdikləri hər araşdırmada müvəffəqiyyətsizliyə uğradıqlarını, əldə etdikləri hər tapıntıda təkamülü rədd edən dəlillərin ortaya çıxdığını, tapılmış qalıqların məlumatları ilə canlılığın yüz milyonlarla il əvvəldən, yəni ilk yaradıldıqları andan bəri eyni olduqlarını, elmin göstərdiyi həqiqətlərin, kainatı və canlıları Allahın yaratdığını isbat etdiyini düşünmürlər.

- Canlıların daşlaşmış arxeoloji tapıntılarının, yer üzərində bir təkamül müddəti yaşandığını sübut etdiyini zənn edən Darvinistlər, gerçəkdə bütün arxeoloji tapıntıların Darvinin nəzəriyyəsiylə tamamilə zidd bir "təbiət tarixi" ortaya çıxardığını; canlı növlərinin təkamül müddətində addım-addım ortaya çıxmadıqlarını, bir anda qüsursuz hallarıyla yaradıldıqlarını sübut etdiyini düşünmürlər.
- Darvinistlər "Bu böyük və möhtəşəm kainatı, çox geriyə və çox irəliyə baxa bilmə qabiliyyəti olan insan da daxil olmaq üzrə, kor təsadüf və ya zərurətin əsəri olaraq görmək çox çətin, hətta qeyri-mümkündür." (A. Murat Aytekin, "Arkadaşlığın Evrimi", Birgun, 15 Ağustos 2005) sözünün Təkamül Nəzəriyyəsinin qurucusu Çarlz Darvinə aid olduğunu düşünmürlər.
- Darvinistlər bu gün astrofizik, fizika, biologiya kimi fərqli elm sahələrinin, kainatda və təbiətdə təsadüflərlə açıqlanması qeyri-mümkün bir nizam olduğunu açıqca göstərdiyini və bunun da "Yaradılış Həqiqəti"ni sübut etdiyini düşünmürlər.
- Darvinistlər canlı növlərindəki fərqli orqanların mərhələ-mərhələ ortaya çıxdığını iddia edərkən, məsələn, bir sürünənin ayaqlarının mərhələ-mərhələ qanadlara çevrildiyini müdafiə edirlər, ancaq yarı ayaq, yarı qanad halındakı bir orqanın işə yaramayacağını və belə şikəst bir canlının milyonlarla il deyil, bir neçə həftə belə həyatda qala bilməyəcəyi səbəbindən belə bir təkamülləşmənin qeyri-mümkün olduğunu düşünmürlər.
- Darvinistlər növlərin bir-birindən təkamülləşdiyini iddia edərkən arxeoloji tapıntılarda bunu dəstəkləyəcək bir dəlilin belə əldə edilmədiyini düşünmürlər.
- Darvinistlər daşlaşmış arxeoloji tapıntıların canlıların milyonlarla ildir heç bir dəyişməyə uğramadıqlarını isbat etdiyini düşünmürlər.
- Darvinistlər Allahın varlığını və yaratmasını inkar etdikləri üçün yer üzünün bir anda son dərəcə fərqli bədən strukturlarına və kompleks orqanlara sahib bir çox canlı ilə dolmasının, əlbəttə ki, bu canlıların yaradılmış olduqlarının dəlilli olduğunu düşünmürlər.
- Darvinistlər dənizdən çıxan balığın sürünən olaraq təkamülləşdiyini və bu xəyali təkamül müddətinin milyonlarla il olduğunu iddia edərkən bir balığın sudan çıxınca bir neçə dəqiqədən çox yaşaya bilməyəcəyini , dərhal öləcəyini düşünmürlər.
- Darvinistlər təxminən 150 il əvvəl "Əgər həqiqətən növlər o biri növlərdən yavaş inkişaflarla törəmişsə, niyə saysız ara-keçid formasına rast gəlmirik?" (52 Science, 17 Temmuz 1981, s.289) – deyə soruşan Darvinin zamanından bu günə kimi hələ də tək bir ara-keçid forması tapılmadığını düşünmürlər.

- Darvinistlər Darvinin yazdığı “Növlərin Mənşəyi” adlı kitabda “Nəzəriyyənin Çətinlikləri” başlığıyla yazdığı hissədə bəhs edilən ziddiyyətlərin hələ də öz həllini tapmadığını, illər keçdikcə və elm inkişaf etdikcə bu ziddiyyətlərin daha da çox artmış olduğunu düşünmürlər.
- Darvinistlər sürünən çənəsinin və sürünən qulağının mərhələli olaraq məməli çənəsinə və qulağına çevrildiyini iddia edərkən bunun necə reallaşdığı sualının cavabsız olduğunu, xüsusilə tək sümükdən ibarət olan bir qulağın üç sümüklü hala çevrilməsinin mümkün olmadığını və bu sırada səsləri eşitmə funksiyasının davam etməsinin də qeyri-mümkün olduğunu düşünmürlər.
- Darvinistlər insan vücudundakı funksiyaların tam lazım olan sürətdə və tam lazım olan zamanda yerinə yetirilməsinin fermentlərin iştirakıyla olduğunu, bu görəvləri şüursuz atomlardan ibarət olan fermentlərin öz başlarına öyrənə bilməyəcəklərini düşünmürlər.
- Darvinistlər 19-cu əsrin texnologiyası ilə suyla dolu bir şar kimi gördükləri və təsadüfən əmələ gəldiyini iddia etdikləri hüceyrənin elm adamlarının bənzətməsiylə, Nyu York şəhəri qədər kompleks bir quruluşa sahib olduğunu düşünmürlər.
- Darvinistlər, məşhur bir molekulyar bioloq olan professor Maykl Dentonun, "Hüceyrəyə yaxınlaşıb tədqiq etdiyimiz zaman, üzərindəki milyonlarca kiçik qapı ilə qarşılaşırıq. Bu qapıların hər hansı birindən içəri girsək, fövqəladə bir texnologiya və bizi heyrətləndirəcək komplekslikla üz-üzə gəlirik.” sözünü düşünmürlər.
- Darvinistlər, qandakı daşıyıcı zülallardan biri olan albumin molekulunun, yağları, zəhərləri, dərmanları və qida maddələrini necə bor-birindən ayırd edə bildiyini düşünmürlər.
- Darvinistlər, albumin kimi atomlardan ibarət şüursuz bir molekulun qaraciyəri, ödü və mədəni tanıyıb, daşıdığı maddələri çaşmadan, yanılmadan, heç xəta etmədən hər səfərində doğru yerə və ehtiyac olan qədər buraxdığını düşünmürlər.
- Darvinistlər, vücuda daxil olan virus və bakteriya kimi yad maddələrin qanda olan antikor və leykosit adı verilən savaşçılar tərəfindən zərərsiz hala gətirildiyini düşünmürlər.
- Darvinistlər, insulin zülalının vücuddakı şəkər artığını bazaya yığma əmrini verdiyini və beləliklə lazım olan anda qanda və bazada şəkər olduğunu, əks təqdirdə hüceyrənin şəkər ehtiyacı qarşılana bilmədiyində ölümün qaçınılmaz olduğunu düşünmürlər.
- Darvinistlər, işçi arıların öz can güvənliklərini düşünmədən həyatları bahasına, içində yaşadıqları cəmiyyətdəki digər arıların güvənliyini təmin etmək üçün iynələrini düşmənlərinə batıraraq ölümü gözə

almalarını təsadüflərlə açıqlamanın imkansız olduğunu düşünmürlər.

- Darvinistlər, ovlarını yaxaladıqlarında iti və kəskin dişləri ilə parçalayan timsahların necə olur ki, balalarına zərrə qədər zərər vermədən ağızlarındakı qoruyucu kisədə daşıdıqlarını düşünmürlər.
- Darvinistlər, vücudunda üstün bir kimya mütəxəssisi kimi düşmənləri üçün 100 dərəcəlik kimyəvi bir silah yaradan bombardıman böcəyinin bu yandırıcı maddə ilə necə öz vücuduna zərər vermədiyini düşünmürlər.
- Darvinistlər, fillərin ən önəmli xüsusiyyəti olan bir-birlərinə bağlılıqlarının, fədakarlıq və yardımlaşmalarının, sürüdə yeni doğmuş bir filin bütün fillər tərəfindən sevgi və şəfqətlə qarşılanmasının və bütün canlılardakı fədakarlıq və əməkdaşlıq nümunələrinin, "təbiətin yalnızca bir savaş yeri" olduğu iddialarını açıq-aşkar və qəti şəkildə keçərsiz etdiyini düşünmürlər.
- Darvinistlər, bir aylıq səyahətləri zamanı yerə heç enmədən 15.000 km uçan albatrosların, köçləri zamanı Dünyanın çevrəsini dolaşan qaranquşların, 3.000 km-lik bir məsafəni qət edə bilən çəyirtkələrin və doğumlarından qısa bir müddət sonra 6.000 km-lik səyahətə çıxan ilanbalıqlarının bu yöntəmləri öz-özlərinə tapabilməyəcəklərini düşünmürlər.
- Darvinistlər, ağıla və şüura sahib olmayan qarışqaların Günəşin yönünü istifadə edərək yollarını necə tapdıqlarını düşünmürlər.
- Darvinistlər bir milçəyin, başının sağ və sol tərəflərində 4000 ayrı bölmə olan, cəmi 8000 bölməli pətək gözlərə sahib olduğunu, bu 8000 bölmənin hər birində, görüntünü fərqli bucaqlardan görən bir mərcək olduğunu və bunun təsadüflərlə gerçəkləşməsinin qeyri-mümkün olduğunu düşünmürlər.

TƏKAMÜL NƏZƏRİYYƏSİ SAXTAKARLIQDIR

Təkamül nəzəriyyəsini inkar edən hələ çox elmi dəlil var. Bu kitabın məzmunu nəticə çıxarmaq üçün kifayətdir: təkamül nəzəriyyəsi materialist fəlsəfənin mövcudluğuna bəraət qazandırmaq üçün müdafiə olunan və "elmi" maska geyindirilmiş ağ yalandır. Bu yalan nəzəriyyə elmə yox, təbliğata və saxtakarlığa arxalanaraq cəmiyyətin "beynini doldurmaq" məqsədini daşıyır. Əvvəlki səhifələrdə olan bəzi əsas dəlilləri qısaca olaraq ümumiləşdirək:

TƏKAMÜL NƏZƏRİYYƏSİ HƏLƏ BAŞLANĞIC MƏRHƏLƏSİNDƏ İFLASA UĞRAYIB

Təkamül nəzəriyyəsi əvvəlcədən özü-özünə zidd olan nəzəriyyədir. Çünki təkamülçülər indiyə qədər Yer üzündəki bütün canlıların əsas maddəsini təşkil edən, canlı orqanizm üçün zəruri olan tək bir zülalın yaranmasını və ya ilkin atmosferdə canlı hüceyrənin qorunub saxlanmasını izah edə bilmirlər. Ehtimalların hesablanması, fiziki və kimyəvi düsturlar isə

həyatın təsadüfən əmələ gəlməsi fikrini tamamilə təkzib edir. Milyonda bir təsadüf nəticəsində zülalların ardıcıl birləşməsi və hüceyrənin əmələ gəlməsi; trilyonda bir təsadüf nəticəsində bu hüceyrələrin bir yerə yığılması və canlı orqanizmin əmələ gəlməsi; bu canlı orqanizmlərdən balıqların əmələ gəlməsi; balıqlardan quruya çıxan sürünənlərin peyda olması; sürünənlərdən quşların və məməlilərin əmələ gəlməsi; bu yolla Yerdə yaşayan milyonlarla növlərin peyda olması fikri sizcə, ağıllı və məntiqlidirmi?

Bəlkə də sizin üçün bu, mümkün deyil, amma təkamülcülər doğrudan da bu nağıla inanırlar. Lakin bu, ancaq inamdır, belə ki, bunun doğruluğunu isbat edən heç bir sübut yoxdur. Yarıbalıq-yarısürünən və ya yarısürünən-yarıquş kimi ara-keçid forma qalıqları da tapılmamışdır. Hətta müasir laboratoriya şəraitində zülalın ilkin (təkamülçülərin adlandırdığı kimi) atmosferdə alınması ehtimalı sübut olunmayıb: bundan əlavə, heç olmasa zülalın tərkibində olan bir amin turşusunun əmələ gəlməsi istisna olunur. Əksinə, bütün bu cəhdlərin nəticəsində təkamülçülər özləri də istəmədən göstərdilər ki, təkamül kimi bir proses Yerdə heç vaxt baş verməyib və baş verə də bilməz.

TƏKAMÜL NƏZƏRİYYƏSİ GƏLƏCƏKDƏ DƏ TƏSDİQ OLUNMAYACAQ

Canlı orqanizmlərin bir-birinə oxşar çox növü var. Məsələn, ata və pişiyə oxşayan növlər var. Həşəratlar da bir-birinə bənzəyir. Lakin bu bənzərlik heç kimi təəccübləndirmir. Amma nəyə görəsə insanın və meymunun xarici oxşarlığı bəzi insanlarda cürbəcür ssenarilər quracaq qədər maraq doğurdu. Bunlarla yanaşı, insanın və meymunun xarici oxşarlığı hələ heç nə demir. Kərgədan və kərgədan böcəyi də xarici görünüş etibarilə bir-birinə oxşayır, amma məməli heyvanla həşərat arasında təkamül əlaqəsini qurmaq cəhdi çox gülməli olardı.

İnsanla meymun və meymunla başqa heyvanlar arasındakı oxşarlıq da səthi oxşarlıqdan başqa bir şey deyil. Əgər həndəsə möcüzəsi olan şanı tikən arıların, mühəndislik möcüzəsi olan toru hörən hörümçəklərin əqli bacarığını müqayisə etsək, məlum olar ki, onlar insana meymundan daha çox yaxındır. Bəzi hallarda hətta insandan da mükəmməldirlər...

Bundan əlavə, insanla meymun arasında böyük fərq var. Son nəticədə meymun adi heyvandır, şüur nöqteyi-nəzərindən atdan və itdən seçilmir. İnsan isə ağıla malik şüurlu varlıqdır - iradəsi var, düşünür, danışır, həll edir, götür-qoy edir. Bütün bu xüsusiyyətlər "ruhun" funksiyalarıdır.

Məhz bu "ruh" məsələsi insanı heyvandan ayıran keçilməz uçurumu əmələ gətirir. Heç bir fiziki oxşarlıq insanla başqa canlı orqanizmlər arasında olan səddi aşa bilməz. Təbiətdə ruha malik olan ancaq bir canlı orqanizm var ki, o da insandır.

ALLAH HƏR ŞEYİ ÖZ İSTƏDİYİ KİMİ YARADIR

Təkamülçülərin ssenarilərinin biri həyata keçsəydi, nə dəyişilərdi? Heç nə... Çünki təkamül nəzəriyyəsinin irəli sürdüyü və təsadüflərə arxalanan hər bir mərhələ ancaq möcüzə nəticəsində əmələ gələ bilər. Yəni canlı orqanizmin yaranmasının hər bir mərhələsi Yaradanın sayəsində həyata keçə bilər. Bu mərhələlərin təsadüfən həyata keçməsi heç cür mümkün deyil. Əgər ilkin mühitdə zülal yaranıbsa da ehtimal qanunları, biologiya və kimya qanunları sübut edir ki, bu da təsadüfən baş verməyib. Əgər təkid etsək ki yaranıb, onda onun İlahi tərəfindən yaradılmasını təsdiqləməkdən başqa heç bir alternativ qalmır. Bu məntiq təkamülçülərin başqa məsələləri üçün də doğrudur. Məsələn, balıqların sudan quruya keçməsini təsdiqləyən heç bir paleontoloji tapıntı, eləcə də bu keçidi doğruldan heç bir məntiqli fiziki, kimyəvi və bioloji qayda yoxdur.

Yox, əgər kimsə təkid edirsə ki "balıqlar quruya çıxaraq sürünənlərə çevriliblər", onda bunu deyən bütün qayda-qanunlardan kənarda olmaqla Yaradanı da tanımalıdır. O Yaradanı ki, "Ol" deyir və hər şey həyata keçir. Başqa hər bir fikir özünə və məntiq qaydalarına zidd olacaq.

Həqiqət göz qabağındadır: bütün canlılar mükəmməl yaradıcılığın nəticəsidir, bu isə hər şeydən Güclü, hər şeyi Bilən və şüurlu Yaradanın varlığını sübut edir. Bu Yaradan isə Allahdır. O, göyün, yerin və onların arasında olan hər şeyin Sahibidir.

ALLAHIN DƏLİLLƏRİNİ GÖRƏ BİLMƏK ÜÇÜN "AĞIL SAHİBİ" OLMAQ LAZIMDIR

İnsanların bir çoxu Allaha inandıqlarını, Allahı tanıdıqlarını bildirirlər. Ancaq əslində Allahı lazım olduğu kimi tanıyıb qiymət vermirlər. Bunun üçün də "ağıl sahibi" olmaq lazımdır.

Bu yerdə mühüm bir mövzunu xatırlatmaq faydalı olacaq: Allahı dərk etmək, Allahı lazım olduğu kimi tanımaq üçün ağıl lazımdır deyiləndə, burada nəzərdə tutulan "zəka" deyildir. Ağıl və zəka bir-birindən tamamilə fərqlənən iki anlayışdır. Zəka, bir insanın bioloji olaraq sahib olduğu zehni qabiliyyətdir. Zəka nə artar, nə azalar. Ağıl sadəcə iman edənlərə aid olan bir xüsusiyyətdir. Bu Allahdan qorxub çəkinən təqva sahibi olan iman edənlərə Allah qatından böyük bir nemət olaraq verilir. Ağıl, Allahın səmimi qullarına verdiyi bir nur, bir anlayışdır. Və insanın təqvası ölçüsündə bu anlayış, yə'ni sahib olduğu ağıl səviyyəsi də artar.

Ağıl sahibi olan insanın ən nəzərə çarpan xüsusiyyətləri, Allahdan qorxub çəkinməsi, daima vicdanına uyması, hər hadisəni, gördüyü hər şeyi Qurana görə qiymətləndirməsi və hər an Allahın rizasını axtarmasıdır.

Bir insan, dünyanın ən zəkalı, ən bilikli, ən mədəniyyətli insanı olsa belə, əgər bu xüsusiyyətlərə sahib deyilsə, "ağılsız" olacaq və bir çox həqiqəti görməyəcək, qavrama qabiliyyətindən məhrum qalacaqdır. Zəka ilə ağıl arasındakı fərqi belə bir misal ilə nəzərə çatdıra bilərik:

Bir elm adamı, məsələn, bədənin sinir sistemi ilə əlaqədar, illərlə çox dərin və dəqiq araşdırmalar aparmış ola bilər. Ancaq əgər ağıl sahibi deyilsə, bu adam sadəcə olaraq sinir hüceyrələri arasındakı proseslərlə əlaqədar məlumatları daşıyan bir insan olacaq. Yəni, sahib olduğu bu biliklərin arxasındakı mühüm həqiqəti qavramayacaqdır. Lakin, ağıl sahibi olan bir insan, sinir sistemindəki möcüzəvi xüsusiyyətləri, dərinlikdəki mükəmməllikləri görərək, bu qədər qüsursuz bir işin ancaq və ancaq bir Yaradanı, üstün ağıl sahibi olan bir planlaşdırıcısının olmasının labüd olduğunu anlayar. Deyək ki: "sinir sistemini bu qədər qüsursuz yaradan güc, əlbəttə, bütün digər canlıların da yaradıcısıdır. Və ölümdən sonra axirət yurdunu yaratmağa da gücü çatandır".

Bu kitabda bildirilənlər Allahın varlığına ağlı ilə şahid olunması üçündür. İnsanların bir qismi Allahın varlığına iman etməzlər, bir qismi isə Allahın varlığına iman etdiklərini söyləyərlər, amma Allahın qüdrətini lazım olduğu kimi qiymətləndirə bilməzlər. Ancaq düşünmədikləri və ağıllarını işlətmədikləri üçün Allaha dəqiq bir biliklə iman etməyin gərəkliyini qəbul etməzlər. Lakin, ağıl sahibi olan iman edənlər Allahın varlığının və xəlq etməsinin dəlillərini ağılları ilə görür və sonsuz qüdrət sahibi olan Allahdan içləri titrəyərək qorxu duyarlar.

Allah Quranda yaratma dəlillərini bildirdikdən sonra, bunlarda ancaq ağıl sahibi olanlar üçün dəlillər olduğunu bildirməkdədir:

Sizə həm qorxu, həm də ümid verən ildırımı göstərməsi, göydən yağmur endirib ölləndən sonra *(onunla)* **torpağı diriltməsi də Onun qüdrət əlamətlərindəndir. Şübhəsiz ki, bunda ağılla düşünən bir qövm üçün ibrətlər vardır.** (Rum surəsi, 24)

DİN ELMƏ İLHAM VERİR

İslam ağıl və vicdanın dinidir. İnsan dinin açdığı həqiqətləri öz ağlı ilə görür və gördüklərindən öz vicdanına uyğun nəticə çıxarır. Şüurlu və vicdanlı insan kainatda mövcud olan hər hansı bir şey haqqında anlayışı olmasa belə, onu öyrənərək kainatın ali şüura, ali biliyə və sonsuz qüdrətə malik olan uca Yaradan tərəfindən yaradıldığını dərk edəcək. Və yaxud, məsələn, Yer üzündə yaşamaq üçün vacib olan yalnız bir neçə şərti təhlil edərək anlamaq olar ki, Yer kürəsi insanın yaşaması üçün xüsusi şəkildə yaradılmış planetdir. Şüurlu və vicdanlı insan Yerin təsadüflər nəticəsində yaranması müddəasının cəfəngiyat olduğunu çox asanlıqla dərk edir. Başqa sözlə, ağılın və vicdanın kateqoriyaları ilə düşünən hər bir insan Allahın varlığının sübutlarını bütün aydınlığı ilə görə bilər. Qurani-Kərimdə bu cür insanlar haqda belə deyilir:

O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər *(və deyərlər)*:
"Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizi cəhənnəm odunun əzabından qoru!"
(Ali-İmran surəsi, 191)

Bu səbəblə, Allah Quranda insanları onları əhatə edən yaradılanların sübutu haqqında düşünməyə və onları diqqətlə öyrənməyə çağırır. Kainatdakı sistemləri, canlı orqanizmləri və cansız təbiəti öyrənməyə başlayan hər bir insan öz müşahidələri üzərində düşünəcək, bunlarla əlaqədar ortaya çıxan hər bir suala cavablar axtaracaq və tezliklə Allahın müdrikliyini, sonsuz biliyini və hədsiz qüdrətini etiraf etməyə başlayacaq. Allahın, insanları üzərində düşünməyə çağırdığı bəzi suallar ayələrdə bu şəkildə müəyyən edilir:

Məgər onlar başlarının üstündəki göyə baxıb onu necə yaratdığımızı, necə bəzədiyimizi və orada heç bir yarıq olmadığını görmürlərmi?! Eləcə də yeri necə döşədiyimizi, orada möhkəm duran dağlar yaratdığımızı, hər cür gözəl növdən yetişdirdiyimizi görmürlərmi?! Dönüb qayıdan hər bir bəndə üçün ibrət dərsi və öyüd-nəsihət olsun deyə etdik. Biz göydən bərəkətli su endirdik, sonra onunla bağlar və biçilən taxıl dənələri yetişdirdik. Həm də tumurcuqları bir-birinin üstünə düzülmüş, hündür xurma ağacları bitirdik. (Qaf surəsi, 6-10)

Yeddi göyü qat-qat yaradan da Odur. Sən Rəhmanın yaratdığında heç bir uyğunsuzluq görməzsən. Bir gözünü qaldırıb bax, heç orada bir yarıq görə bilərsənmi?! (Mülk Surəsi, 3)

Elə isə insan nədən yaradıldığına bir baxsın! (Tariq surəsi, 5)

Məgər dəvəyə baxmırlar ki, necə yaradılmışdır? Göy necə ucaldılmışdır? Dağlar necə dikəldilmişdir? Və yer necə döşədilmişdir? (Ğaşiyə surəsi, 17-20)

Yuxarıda gətirilən ayələrdən də göründüyü kimi, Allah insanları göyü, yağışı, bitkiləri, heyvanları, doğulma prosesini, təbiətin coğrafi

xüsusiyyətlərini və digər hadisələri öyrənməyə və tədqiq etməyə çağırır. Bu xilqətlərin öyrənilmə və tədqiq edilmə vasitəsi isə az öncə qeyd etdiyimiz kimi, yalnız elmdir. Elmi tədqiqatların nəticəsində əldə edilmiş biliklər isə insana Allahın sonsuz biliyini, idrakını, qüdrətini, yaradılanların sirrini açıqlayır. Tarix boyu bəşəriyyətin inkişafında böyük rolu olmuş əksər alimlərin Allaha dərindən inanması faktı isə onunla izah edilir ki, elm Allahın varlığını dərk etməyin əsas yoludur.

ALLAHA İMAN GƏTİRƏN ELM ADAMLARI

Materialistlər və ateistlər hansı şəkildə səy göstərsələr də, danılmaz bir həqiqət var: bizi əhatə edən dünyanın elm tərəfindən öyrənilən bütün fenomenlərini Allah yaradıb. Deməli, rasional və vicdanlı yanaşmada elm və din daim harmoniya halında olacaqlar. Bu cür əməkdaşlığın rəmzləri keçmişdə yaşamış və hazırda yaşayan Allaha inanan alimlərdir. Bu insanlar öz kəşfləri ilə bütün bəşəriyyətə böyük faydalar veriblər.

Təbiət qanunlarının tədqiqi ilə məşğul olan, yeni kəşflər edən, kainatın sirlərini açmağa can atan alim əsl həqiqətdə Allahın yaratdıqlarını dərindən öyrənən və onlar haqda bütün lazımi məlumatları öyrənməyə cəhd edən insandır. Bu səbəblə, elm və din bölünməz, tam, alim isə Allahın yaratdıqlarında ortaya qoyduğu nəhayətsiz və heç nə ilə müqayisə edilməyəcək qüdrət və əzəmətini dərk edən insandır. Buna görə də alimlər geniş yayılmış bir nöqteyi-nəzərin əksinə olaraq Allahın yaratdıqları ilə daha çox maraqlanan insanlar kimi Onun mövcudluğunu və vahidliyini başqa insanlardan daha tez dərk edirlər.

Öz intellektual potensialından tam şəkildə istifadə edən və elmə böyük töhfələr verən xeyli alimin adı bizə əsrlər boyunca məlum oldu. Bu insanlar elmlə dinin harmoniyada olmasını nümayiş etdirməklə yanaşı, bəşəriyyətə xidmət etdilər. Kainatın Allah tərəfindən yaradıldığı, nizama salındığı və daim tamamilə Onun hökmranlığı altında qalacağı fikri elmin inkişafının gedişatını müəyyən edən Nyuton, Kepler, Leonardo da Vinçi, Eynşteyn kimi alimlərin apardığı tədqiqat və müşahidələrin nəticəsində təsdiqlənib. Bundan əlavə, iddia etmək olar ki, elmin əsas prinsipləri Yaradana inanan insanlar tərəfindən qoyulmuşdur və din müasir elmin yaranmasında əsas rol oynayıb.

Bütün dövrlərin ən görkəmli alimi hesab edilən İsaak Nyutonun kainat haqqında baxışları bu sözlərlə aydın ifadə edilə bilər:

"Günəş sisteminin qəribə strukturu, planet və kometaların möcüzəli mexanizmi yalnız kiminsə böyük biliyi və gücü sayəsində mövcud ola bilər. O, tək Yerin ruhuna deyil, ümumiyyətlə, bütün canlılara rəhbərlik edir. O, Allahdır!" (Newton, Principia, 2. baskı; J. De Vries, Essentials of Physical Science, B. Eerdmans Pub.Co., Grand Rapids, SD, 1958, s.15)

Həmçinn məlumdur ki, Allah-Təalaya inam görkəmli alim Keplerin işinə istiqamət verirdi. Fizika sahəsində xidmətlərinə və fon kosmik şüalanmasının tədqiq edilməsinə görə 1978-ci ildə Nobel mükafatına layiq görülmüş Arno

Penzias, İohann Kepler haqda bunları deyirdi:

"Müəyyən yeganə mərkəz ətrafında fırlanma haqqındakı fikir Allaha inanan Keplerə qədər gedib çıxırdı. Kepler dindar insan idi.

O, Müqəddəs Əhdi-ətiqi və Vahid Yaradanı etiraf edirdi. O dövrdən etibarən əsrlər ərzində böyük mübarizə getdi. Alimlərin hələ ümidi var. Kepler isə öz ümidini inamda tapdı". (http://www.ldolphin.org/bumbulis/)

Biz kitabın bu bölümünü dindar insanlar olaraq müasir elmin əsasını qoyan və onun inkişafına səbəb olmuş keçmiş və hazırkı alimlərin fəaliyyətinə həsr edirik. Bu bölümdə haqqında söhbət açılan insanlar kainatı və həyatı Allahın yaratdığına inanırdılar. Frensis Bekon onların baxışlarını ümumiləşdirərək deyirdi:

"Bütün mövcudluq və məxluqat Allahın əməlidir. Onun bütün yaratdıqları Yaradanın hər şeyi bildiyinə və hər şeyə qadir olduğuna işarə edir. Bütün dünya Allahın yaratdığıdır". (http://www.ldolphin.org/bumbulis/)

Allah Quranın bir çox ayələrində buyurur ki, yaradılanlar haqda düşünməyə imkan əldə etmək, Allah qarşısında lazımi dərəcədə qorxunu dərk etmək və onun böyüklüyünü və gücünü anlamaq üçün alim və ya bilikli olmaq lazımdır. Bu ayələrdən bir neçəsi belədir:

...Evlərin ən zəifi isə, şübhəsiz ki, hörümçək yuvasıdır. Kaş biləydilər! Şübhəsiz ki, Allah onların Allahı qoyub nəyə ibadət etdiklərini bilir. O, yenilməz qüvvət, hikmət sahibidir! Biz bu məsəlləri insanlar üçün çəkirik. Onları yalnız haqqı bilənlər anlayarlar. Allah göyləri və yeri haqq olaraq yaratmışdır. Həqiqətən, bunda möminlər üçün bir ibrət vardır! (Ənkəbut surəsi, 41-44)

Göylərin və yerin yaradılışı, dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun qüdrət əlamətlərindəndir. Şübhəsiz ki, bunda bilənlər üçün nişanələr vardır! (Rum surəsi, 22)

Allah Özündən başqa heç bir Allah olmadığına şahiddir. Mələklər və elm sahibləri də haqqa-ədalətə boyun qoyaraq O qüvvət, hikmət sahibindən başqa ibadətə layiq heç bir varlıq olmadığına şəhadət verdilər. (Ali-İmran surəsi, 18)

Lakin onların elmdə qüvvətli olanları və möminləri sənə nazil edilənə və səndən əvvəl nazil olanlara inanır, namaz qılır, zəkat verir, Allaha və axirət gününə iman gətirirlər. Biz, əlbəttə, onlara böyük mükafat verəcəyik! (Nisa surəsi, 162)

KEÇMİŞDƏ YAŞAMIŞ ALLAHA İNANAN ALİMLƏR

Rocer Bekon (1220-1292)

"İnamın rəhmi böyükdür". (Dan Graves, Scientists of Faith, Kregel Resources, 1996, s.26)

Müasir alimlərin dahi həkim adlandırdığı Rocer Bekon tanınmış ingilis alimi və ilahiyyatçısı idi. O, eksperimental üsula böyük əhəmiyyət verdi və elmdəki keçmiş adətlərə son qoydu. Allahın işığı insanların görməsi üçün yaratdığına inanan Bekonun özü də çox vacib müşahidələr aparıb. Öz əsrini bir neçə yüz il qabaqlayan Bekon öz dövründə əlçatmaz olan ideyalar irəli sürərək texniki inkişafı hamıdan qabaq duydu.

Paravozlar, qatarlar, avtomobillər, təyyarələr, kranlar, as-ma körpülər - bunlar Bekonun XIII əsrdə təklif etdiyi layihələrdən yalnız bəziləridir.

Alim öz dostlarının birinə məktubunda yazırdı:

"Gələcəkdə bir nəfərlə idarə olunan, xeyli avarçının hərəkətə gətirdiyi gəmilərdən daha iti hərəkət edən gəmilər, həmçinin qoşqu heyvanlarının gücündən istifadə etmədən inanılmaz sürətlə hərəkət edən arabalar istehsal olunacaq". (conn.me.queensu.ca/~mech480/ aeroquot.PDF)

Bundan əlavə, Rocer Bekon linzaların böyüdücü xüsusiyyətini və onların mümkün tətbiq sferasını təsvir etdi. Yerə doğru axan ulduz işıqlarının bizə bir anda deyil, müəyyən vaxt ərzində çatacağı haqda fərziyyəni də ilk dəfə Bekon söyləyib. O, Yerin yastı deyil, kürəşəkilli olması fikrini Xristofor Kolumbun dünyaya gəlməsindən 200 il əvvəl irəli sürüb. Bundan əlavə, o, bildirib ki, Avropadan düz Qərbə üzəndə Hindistana çatmaq olar.

Rocer Bekon düşünürdü ki, sınaq yolu ilə əldə edilən bilgilər iman edən insanlara böyük xeyir verəcək. O, deyirdi:

"Gələcəkdə biz elmin keçmişdə olduğu kimi, hazırda da mömin insanlar üçün faydalı olduğunu görəcəyik".

(Michael Bumbulis, Chnistianity and The Birth of Science, http://www.ldolphin.org/bumbulis)

Rocer Bekon tədqiqatçı kimi bir nöqteyi-nəzəri müdafiə edirdi. Bu nöqteyi-nəzərə görə, elm heç də dinə zidd deyil, əksinə, o, ateistləri Allaha iman edənlərin haqlı olmasına inandırmaq üçün əsl vasitə ola bilər. Bu sözlər ona aiddir:

"Elmin insanların etiqadını möhkəmləndirmək üçün vacib dəyərləri var".

(First Book of Francis Bacon of the Proficience and Advancement of Learning Divine and Human)

Frensis Bekon (1561-1626) - Elmdə İnduktiv Metodun Banisi

FRENSİS BEKON

Görkəmli alim, elmi metodologiyanın banilərindən biri Frensis Bekon qatı dindar kimi tanınırdı.

Frensis Bekon elmi tədqiqatların insanı Yaradana yaxınlaşdırması haqda fikir söyləyərək fəlsəfənin (elmin) Allahın sözündən sonra batil inanclara qarşı ən yaxşı həll yolu olduğunu və inancın təsdiq etdiyi ən böyük dəstək olduğunu ifadə etmişdir. (http://www.christianity.co.nz/ science4.htm)

"Yanlış yola sürüklənməmək üçün bizim diqqətlə oxumalı olduğumuz iki kitabımız var. Bunlardan birincisi, Tanrının vəhyinin də yer aldığı Kitabdır. İkincisi isə Tanrının gücünü sübut edən yaradılışın özüdür."

(Bekon, sitat: Morris 1982, 13-14)

"Bir az fəlsəfə əqli ateizmə yönləndirir, fəlsəfənin dərinlikləri isə Tanrı haqqında düşüncələrə gətirib çıxarır. Axı əql parçalanmış, ikinci dərəcəli səbəblərlə dolu olanda öz axtarışını onların üzərində saxlaya bilər. Səbəblərin bir-biri ilə əlaqəli ardıcıllığını dərk edəndə isə onun İlahi Niyyət və Tanrıya doğru yönəlməsi qaçılmaz olur." (Bacon 1875, 64.)

Lord Bekon "Təcrübələr"in (1601) "Həqiqət haqqında" adlanan birinci fəslində yazırdı: *"Tanrının zəhmət çəkdiyi günlərdə yaratdığı ilk şey gözlə görünən işıq, son şey isə şüurun işığı idi... Əvvəlcə O, materiyanın, yaxud xaosun üzünü işıqlandırdı. Sonra insanın üzünü işıqlandırdı və həmin vaxtdan Öz seçilmişlərinə daim ilham verir və onların üzünə nur salır."*

(Bacon 1875)

Qalileo Qaliley (1564-1642)
Eksperimental Fizikanın Banisi

Qalileo Qaliley göyü teleskop vasitəsilə görən ilk insandır. Qaliley ilk olaraq Yerin dairəvi olduğunu bəyan etdi və Ayda qaranlıq sahələr, dağlar və kraterlərin olması gümanını söylədi. Elmə böyük töhfələr verən və haqlı olaraq onun tarixində fəxri yer tutan bu insan inanırdı ki, ağıl, hiss etmək və danışmaq qabiliyyəti bizə Allah tərəfindən bəxş edilmişdir. O, belə hesab edirdi ki, bunlardan ən yaxşı şəkildə istifadə edilməlidir. O, təbiətdə olan hər şeyin İlahi məna sayəsində mövcud olduğu fikrinin mübahisəsizliyi üzərində israr edirdi. Qaliley deyirdi: "Təbiət şübhəsiz ki, Allahın ikinci kitabıdır, biz ondan imtina etməməyə və onu oxumağa məcburuq". O, müqəddəs kitablar və İlahi yaradılışlar arasında hər ikisinin Allah tərəfindən yaradılması səbəbi ilə heç bir ziddiyyətin olmadığını bu şəkildə bildirirdi.

(http://home.columbus.rr.com/ sciences/enlightened_belief_ history.htm)



QALİLEO QALİLEY

Qalileyin 1629-cu ildə bitirdiyi "Böyük dünya sistemləri haqqında dialoq" adlı kitabının titul vərəqi (aşağıda).



Qaliley Yerin dairəvi olduğunu və Ayda qaranlıq sahələrin, dağların və kraterin olduğunu hamıdan əvvəl bəyan edib.

Qalileyin istifadə etdiyi ilk iki teleskop. Bu teleskoplar bu gün Florensiya şəhərinin muzeyində təqdim edilirlər. Fraqmentdə biz teleskopun konveksion şüşəsini görürük.

"Səcdə etdiyim və minnətdar olduğum Tanrıya,
Nəzəri ilə göyləri idarə edən Tanrıya,
Yorğun, amma həyat dolu olanda yenə Ona üz tuturam."

(Qaliley, sitat: Caputo 2000, 85.)

"İnsanın dərk etdiyi, tapdığı və düzəltdiyi bütün möcüzəvi şeylər haqqında düşündükcə daha çox əmin oluram ki, insan şüuru Tanrının əsəridir. Üstəlik, Onun ən böyük əsərlərindən biridir." (Qaliley, sitat: Caputo 2000, 85.)

"Allahın kitabı heç vaxt yanılmır; onun göstərişləri tamamilə həqiqi və sarsılmazdır. Lakin onu tədqiq və şərh edənlər çox vaxt müxtəlif səhvlərə yol verirlər." (Qaliley, sitat: Ross 1991, 20.)

İohann Kepler (1571-1630)
Fiziki Astronomiyanın və Müasir Optikanın Banisi

Astronomiyanın banisi olan dahi alim planetlərin hərəkətini hesabladı, Günəş sistemindəki məsafə və ölçünü müəyyən etdi, ulduzların göy qübbəsində hərəkətini əks etdirən ilk astronomik təqvimi buraxdı.

Dərin elmi bilgilərə sahib olan Kepler, bununla belə, kainatı Yaradanın xəlq etdiyinə inanırdı. *Kepler ondan: "Nə üçün elmlə məşğul olursan", - deyə soruşanlara: "Yaradanın əsərlərindəki ləzzəti hiss etmək üçün", - deyə cavab vermişdir.* (Johannes Kepler, alıntı: J.H. Tiner, Johannes Kepler-Giant of Faith and Science (Milford, Michigan: Mott Media, 1977), s. 197)

İOHANN KEPLER

Kepler deyirdi: *"Biz astronomlar, Allah dininin tərəfdarları təbiət kitabına baxaraq Allaha şükür etməliyik".*

(Henry M. Morris, Men of Science Men of God, Master Books, 1992, s.13)

Kepler inanırdı ki, Allah hər əsərində Özü haqda şahidlik edir. Onun həyatını və elmi əsərlərini öyrəndikdə qarşımıza geniş dünya görüşlü və kainatda İlahi mənanın varlığına qəti əmin olan bir insan çıxır.

Kepler özünə belə suallar verirdi: "Ağ ayıları və ağ canavarları qar basmış şimal sahələrinə kim göndərdi? Balina, ayı və canavarların yeminə

çevrilən yumurtaları qoyan quşları kim orada məskunlaşdırdı?" Özü də cavab verirdi:

"Bu, bizim Allahımızdır və O, hər kəsdən yüksəkdədir. Onun müdrikliyi sonsuzdur və Onun heç bir hüdudu yoxdur".

Kepler öz düşüncələrini bu cür davam etdirirdi:

"Yaradanı anlamaq üçün bütün hisslərinizdən və intuiasiyanızdan istifadə edin."

(Harmonice Mundi, Harmonies of the World, Johannes Kepler Gesammelte Werke, Munih, 1937, cilt. 6, s. 363)

"Sən təbiətin işığı ilə bizdə Öz lütfünün işığına istək yaradırsan ki, onun köməyilə də biz Sənin qüdrətinin işığına qədəm qoyaq. Yaradan və Tanrı Sənə eşq olsun, Öz yaratdıqlarınla mənə sevinc bəxş etdiyin üçün. Mən Sənin əllərinlə yaradılanlara heyranam." (Kepler, sitat: Beer and Beer 1975, 526.)

"Təbiətin Dünyası, İnsanın Dünyası, Tanrının Dünyası - bunların üçü də bir-birinə uyğundur. Biz görürük ki, Tanrı bir memar kimi, dünyanın təməlini qayda və qanunlara əsasən qoyub və hər şeyi dəqiq ölçü ilə yaradıb."

(Kepler, sitat: Tiner 1977, 172)

"Biz astronomlar Ulu Tanrının təbiət kitabını oxuyan kahinləri olduğumuz üçün, hər şeydən əvvəl, öz şüurumuzun qüdrətini deyil, Tanrının qüdrətini tərifləməyimiz lazımdır." (Kepler, sitat: Morris 1982, 11; həmçinin bax: Graves 1996, 51.)

Yohannes Baptista von Helmont (1579-1644)

Helmont qaz kimyası və kimyəvi fiziologiyannın banisi, termometri və barometri icad etmiş görkəmli alimdir. Tanınmış yazıçı Uolter Peycels öz dindarlığı ilə tanınan Helmont haqqında danışarkən yazırdı ki, o, öz elmi əsərlərinin ilhamını inamdan alırdı. (Dan Graves, Scientists of Faith, Kregel Resources, 1996, s. 51)

Blez Paskal (1623-1662)
Hidrostatika, Hidrodinamika və Ehtimal Nəzəriyyəsinin Banisi


BLEZ PASKAL

Qədim yunan alimlərindən sonra həndəsədə xeyli irəliləyiş əldə etmiş görkəmli təbiətşünas alim Blez Paskal artıq çox gənc yaşlarında bir çox kəşflərin müəllifi idi. Onun digər fəaliyyəti də uğurlu idi. Blez Paskal riyaziyyat sahəsində çoxsaylı işləri ilə yanaşı, fizikada da az iş görmədi. Məsələn, o, atmosferi tədqiq edərək və mayelərin mexanikası ilə məşğul olaraq atmosferdəki təzyiqin hündürlüyün artmasına mütənasib olaraq dəyişdiyini kəşf etdi.

Elm tarixində vacib yer tutan Blez Paskal dindar insan idi. Blez Paskalın *"Allah hər şeyin yaradıcısıdır: riyaziyyatdan tutmuş elementlərin qaydasına qədər"* sözlərində onun Allahın sonsuz qüdrəti qarşısındakı heyrəti ifadə olunmuşdur. (A.g.e,, s. 57)

Blez Paskala görə, "*İnsan Allahın elçisi qarşısında təkəbbür və ümidsizlik hiss etmədən əyilməlidir.*" (Paskal, "Düşüncələr", № 678.)

Blez Paskala görə, *"Dini inanc sayəsində insanların gözü açılır. Onlara yalnız özlərini sevdiklərini, qul, kor, köməksiz, bədbəxt və günahkar olduqlarını göstərir. Allah insanları azad etmək, maariflədirmək, arındırmaq, sağaltmaq istəyir. Allah insanlara yardım etməsəydi, onlar günah və səfalət içində itib batardılar."* (Paskal, "Düşüncələr", № 689-690.)

Con Rey (1627-1705)
Müasir Biologiya və Təbiətşünaslığın Banisi

CON REY

Məşhur ingilis botaniki Con Rey dindar insan idi. Onun fikrincə, əgər insan dünyaya Allahın gözəlliyini əks etdirmək üçün gəlibsə, o, bütün onu əhatə edən yaradılışlara diqqət yetirməlidir. Bu fikri öz prinsipinə çevirən Con Rey çox gənc yaşlarında elmi tədqiqatlarla məşğul olmağa başlamışdı. O, botanika və zoologiyada öz dövrünün böyük nüfuz sahiblərindən biri idi. Con Rey İlahi yaradılışlardakı sonsuz müdriklikdən bəhs edən kitab dərc etmişdi. O, öz əsərində bitkilərin, həşəratların, quşların, balıqların və digər orqanizmlərin minlərlə növünü təsvir edir və onların hamısının təbiəti Yaradanın mövcudluğuna işarə etdiyini deyirdi.

Con Rey yazırdı: *"Başlanğıcda hər şeyi Allah yaratdı, sonra bu günə qədər Onun tərəfindən mühafizə edildi və hələ də ilk yaradıldıqları kimidirlər."* (Henry M. Morris, Men of Science Men of God, Master Books, 1992, s. 18)

Botanika sahəsində xeyli işlər görmüş Con Rey elmlə dinin sıx əlaqədə olduğunu həmişə qeyd edir və: *"Azad insan üçün təbiətin gözəlliyi, Allahın böyüklüyü və sonsuz müdrikliyi haqda düşünməkdən gözəl heç nə yoxdur"*, - deyirdi. (Dan Graves, Scientists of Faith, Kregel Resources, 1996, s. 66)

Con Rey "Tanrının Yaradılışda Təzahür Edən Müdrikliyi" (1691) adlı kitabında yazırdı: *"Tanrının mövcudluğunu sübut etmək üçün bu dahi yer və göy quruluşunun bütün hissələrinin və üzvlərinin quruluşu və təşkilində, qayda-qanun və düzülüşündə, məqsəd və istifadə olunmasında aşkar edilən heyrətamiz incəsənət və hikmətdən daha böyük və ya, ən azından, daha aydın və inandırıcı bir dəlil yoxdur."* (Ray 1717, Part I.)

"Azad insan üçün təbiətdəki nəfis yaradılışların müşahidə edilməsindən və Tanrının sonsuz hikmətinin və yaxşılığının təsbihindən daha şərəfli və xoş bir məşğuliyyət yoxdur." (Rey, sitat: Graves 1996, 66; həmçinin bax: Yahya 2002)

"Biz bədənimizi qidalandırırıq, amma ruhumuzun da qidalanmağa ehtiyacı var. Ruhun qidası bilikdir, xüsusən də Tanrı haqqında biliklər və

əbədi dünya, xoşbəxtlik məsələlərinə - Tanrının oxunan və təbliğ edilə bilən sözünə dair biliklər. 1 Pet. 2:2, "Yeni doğulmuş körpə südü sevən kimi, siz də təmiz söz südünü sevin ki, onunla böyüyüb xilas ola biləsiniz." (Ray 1717, 399.)

"... Həyat döyüş meydanıdır və biz qüdrətli və yorulmaz düşmənlərlə: şeytan, dünya və əynimizdə olan ətdən paltarla döyüşməli olacağıq." (Ray 1717, 401.)

"Cəsarətlə nəfsə və mənəvi düşmənlərinin hücumlarına qarşı vuruşan və əks hücuma keçən kəs, ətdən olan libasını (yəni bədənini) təmiz saxlayan və vicdanı ilə Tanrıya və insana həqarət etməyən kəs bu dünyada kamil bir həyatdan zövq alacaq və əbədiyyətə qovuşacaq." (Ray 1717, 402.)



Reyin əsas ilahiyyatçı əsərləri:

"Müqəddəs Həyata Dair Nəsihət"
(A Persuasive to a Holy Life, 1700)
kitabı

və

"Fiziki-Teoloji Söhbətlər"
(Physico-Theological Discourses, 1692)
adlı üç cildli kitabıdır.


Three *Physico-Theological*
DISCOURSES,
CONCERNING
I. The Primitive CHAOS, and Creation of the World.
II. The General DELUGE, its Causes and Effects.
III. The Dissolution of the WORLD, and Future Conflagration.
Wherein are largely discussed,
The Production and Use of Mountains; the Original of Fountains, of Formed Stones, and Sea-Fishes Bones and Shells found in the Earth; the Effects of particular Floods, and Inundations of the Sea; the Eruptions of *Vulcano's*, the Nature and Causes of Earthquakes.
Also an Historical Account of those Two late remarkable Ones in *Jamaica* and *England*.
With PRACTICAL INFERENCES.
By *JOHN RAY*, late Fellow of the *Royal Society*.
The Third Edition, Illustrated with Copper-Plates, and much more Enlarged than the former Editions, from the Author's own MS.
London: Printed for WILLIAM INNYS, at the *Prince's Arms* in S. *Paul's* Church yard, 1713.

Robert Boyl (1627-1691)
Müasir Kimyanın Banisi

ROBERT BOYL

Boyl müasir kimyanın banisi və elmin inkişafına yol açmış bir çox kəşflərin müəllifidir. Buna nümunə olaraq Robert Boylun qazın təzyiqi ilə havanın həcmi arasındakı asılılığı kəşf etməsini göstərmək olar. Bunun əsasında zaman ötdükcə indi Boyl qanunu kimi tanınmış prinsiplər formalaşdırılmışdır. Bundan əlavə, lakmus kağızının və ən bəsit soyuducunun icad edilməsi Boyla məxsusdur. Robert Boyl suyun donarkən genişləndiyi faktını müəyyən etmiş, kimyəvi elementlərin ilk müasir təsnifatını hazırlamışdı. Robert Boyl "havada təzyiq olduğundan atom zərrəcikləri arasında boşluq olmalıdır" fikrini söyləyərək atom nəzəriyyəsini də zənginləşdirmişdir.

Bu qədər kəşfin müəllifi olan Robert Boyl Allahın mövcudluğuna inanırdı. O hesab edirdi ki, kainatda uca Allahın həyata keçirdiyi müəyyən

şüurlu məna var. Robert Boyl öz əsərlərində və ifadələrində tez-tez qeyd edirdi ki, elm Allaha inanmaqdan ayrılmamalıdır. Məktublarının birində o yazırdı:

"Təbiəti yaradana həmd oxuyun... Bildiyinizi bəşəriyyətin rifahı və xoşbəxtliyi yolunda sərf edin". (Dan Graves, Scientists of Faith, s. 63)

Robert Boyl başqa bir fikrində bildirirdi ki, canlı orqanizmlərin mükəmməlliyi Allahın varlığının sübutudur:

"Dünyadakı mövcud sistemlərin mükəmməlliyi, xüsusilə də canlıların heyrətamiz xüsusiyyət və qabiliyyətləri, onların heyrət doğuran quruluşları əsrlər ərzində mütəfəkkirlərin Allahın mövcudluğunu etiraf etməsinin səbəbi idi". (John Marks Templeton, Evidence of Purpose - Scientists Discover the Creator, Continuum, New York 1994, s.50)

Boylun ən mühüm ilahiyyatçı əsərlərindən biri olaraq, *"Təbiətşünaslıqla Müqayisədə Teologiyanın Üstünlüyü"* (1674) əsərini misal göstərmək olar. Robert Boyl dini təbliğ üçün vəsait ayırmışdı. (Məşhur "Boyl qiraətləri" indinin özündə də keçirilir.)

"Güclü bir teleskopla çoxdan kəşf olunmuş ulduz və planetlərə baxarkən, möhtəşəm bir mikroskopla bənzərsiz məharətlə hazırlanmış möcüzəvi təbiət əsərlərini tədqiq edərkən; anatomiya bıçağı ilə və kimyəvi sobaların işığında təbiət kitabını dərk edərkən, çox vaxt məzmurçu kimi hayqırmağım gəlir: "Gördüyün işlərin sayı - hesabı yoxdur, ey Tanrı! Sən hər şeyi hikmətlə icra etmisən." (Boyl, sitat: Woodall 1997, 32)

Boyl "Teologiyanın üstünlüyü"ndə (1674) yazırdı: *"Göy cisimlərinin çoxluğu, gözəlliyi və ardıcıllığa malik olması, heyvan və bitkilərin mükəmməl quruluşu və təbiətin digər hadisələri şüurlu, qərəzsiz müşahidəçini, haqlı olaraq, ali, qüdrətli, lütfkar və mərhəmətli Yaradanın mövcud olduğuna dair nəticə çıxarmağa vadar edir."* (Boyl, sitat: Seeger 1985, 183-184.)

Boyl din ilə fəlsəfə arasında ziddiyyət görmürdü. (İndiki dövrdə "elm" adlandırdığımız məfhum on eddinci əsrdə "fəlsəfə"adlandırılırdı; bax: Woodall 1997.) O yazırdı: *"Əgər əsassız olaraq deyilən bütün cəfəngiyat səciyyəli fikirləri kənara qoysaq) Tanrı ilə həqiqi Fəlsəfə arasında zənn edilən ziddiyyət o qədər də böyük olmayacaq, əsl ziddiyyət isə heç olmayacaq."* (Boyl, sitat: Woodall 1997, 32.)

Antoni van Levenquk (1632-1723)

ANTONİ VAN LEVENQUK

Antoni van Levenquk ilk dəfə bakteriyaları kəşf etmiş alimdir. Antoni van Levenquk böyüdücü şüşə kimi istifadə etdiyi eynəklə toxumaları öyrənməyə başladı. Bu cür müşahidələrlə maraqlanaraq optik linzaları hazırlamaqla məşğul oldu və sonunda bakteriyaları mikroskopla görən ilk insan oldu.

Həyatın Yaradanın iştirakı olmadan öz-özünə yarandığı ideyasını təkzib etmək cəhdi Antoni van Levenquku olduqca vacib elmi tədqiqatlar aparmağa sövq etdi. O, bitki və heyvanların qidalanma sistemini, bitkilərin qidalı maddələri

Levenqukun bakteriyaları müşahidə etmək üçün hazırladığı mikroskop.

nəql etmə sistemini, törəyib artma prosesini öyrəndi, müxtəlif bitki strukturlarını və qan hüceyrələrini tədqiq etdi. Antoni van Levenquk kapillyarları öyrənməklə ilk dəfə müəyyən etdi ki, onlardan qan hüceyrələri keçir. Bundan əlavə, əzələlərin liflərdən ibarət olması Antoni van Levenqukdan öncə heç kəsə məlum deyildi. (Dan Graves, Scientists of Faith, s. 70)

İsaak Nyuton (1642-1727)
Klassik Fizikanın və Sonsuz Kiçik Həcmlərin Hesablanmasının Banisi


İSAAK NYUTON

Bütün dövrlərin dahi alimi hesab edilən İsaak Nyuton, eyni zamanda, riyaziyyatçı və fizik idi. Əgər İsaak Nyutonun elmə verdiyi töhfələri qiymətləndirsək, ən əvvəl onun kəşf etdiyi ümumdünya cazibə qüvvəsini qeyd etmək lazımdır.

İsaak Nyuton güc və təcil arasındakı əlaqəni kütləyə bağlayırdı. O, hərəkət və qeyri-hərəkət prinsipini izah etdi, bədənə qoyulan bütün qüvvələrin əvəzləyicisinin sıfıra bərabər olduğu təqdirdə bədənin sürətinin dəyişməməsi haqda tezis irəli sürdü.

Artıq dörd əsrdir ki, insan fəaliyyətinin sadə texniki hesablamalardan ən çətin texnoloji layihələrə qədər bütün sahələrində İsaak Nyutonun dinamika qanunları heç bir dəyişikliyə uğramadan tətbiq edilir. İsaak Nyuton ümumdünya cazibə qanunundan əlavə, mexanika və optika kimi fundamental sahələrdə də vacib kəşflər etmişdir. İsaak Nyuton işığı təşkil edən yeddi rəngi kəşf etməklə optika kimi tamamilə yeni elm sahəsinin əsasını qoydu.



Üst şəkildə günəş işığının Nyutonun prizmasından istifadə etdikdə parçalanması əks etdirilib.



İsaak Nyutonun əvvəlcə linzadan, sonra işığı onu əmələ gətirən rəng parçalayan iki prizmadan daxil olan işığın iki dəlikdən keçməsini əks etdirən rəsmi.

İsaak Nyuton insan təfəkkürünün gələcək inkişafını müəyyən edən bu nailiyyətlərlə yanaşı, ateizmi təkzib edən və yaradılış hipotezasını dəstəkləyən ciddi elmi əsərlər də yazdı. O, öz nöqteyi-nəzərini belə xülasə edirdi: *"Yaradılış kainatın yaranmasının yeganə elmi izahıdır."*

İsaak Nyuton inanırdı ki, onun ifadə etdiyi kimi, nəhəng saatlarla fasiləsiz işləyən mexaniki kainat yalnız həddsiz bilik və qüdrət sahibi olan Yaradanın əsəri ola bilər. Nyutonun dünya proseslərinin axınını dəyişdirən kəşflərinin əsasında onun Allaha yaxınlaşmaq cəhdi dayanırdı. Nyuton üçün Allahı dərk etməyin və Ona yaxınlaşmağın yolu Allahın yaratdıqlarını öyrənməkdir. Qarşısına belə məqsəd qoyan alim böyük şövqlə tədqiqat işlərinə qapılmışdı. "Princiria Mathematica" ("Riyaziyyatın qanunları") əsərində Nyuton onu elmi axtarışlara vadar edən səbəb haqda deyirdi:

"Allah-Təala nəhayətsiz və mütləqdir. O, hər şeyi bacaran və idarə edəndir. Onun mövcudluğu əbədiyyətə bağlıdır. O, əbədi mövcuddur. O, bütün olmuşlar və olacaqlar haqda bilir. O, sonsuz və hədsizdir. O, əbədi varlıqdır. O, hər zaman hər yerdə olaraq zamanı və onun müddətini yaradır". (Sir Isaac Newton, Mathematical Principles of Natural Philosophy. Latinceden Çeviri Andrew Motte, Revize Florian Cajore, Great Books of the Western World 34, Robert Maynard Hutchins, Baş editör, William Benton, Chicago, 1952:273-74)

Nyuton "Natural fəlsəfənin riyazi başlanğıcları" (London, 1687) əsərinin rəy hissəsində yazırdı:

"Günəşin, planetlərinvə kometaların bu cür nəfis birləşməsi qüdrətli və çox müdrik bir Varlığın niyyətindən və hökmündən başqa, heç nə ilə baş verə bilməzdi. ...O, hər şeyi dünyanın qəlbi kimi deyil, kainatın hakimi kimi idarə edir və Öz ilahiliyinə görə Ulu Tanrı Hakimi-Mütləq adlandırılmalıdır." (Nyuton. "Başlanğıclar", M.: "Nauka", 1989. - s.659.)

"Həqiqi Hökmranlıqdan belə görünür ki, həqiqi Tanrı Canlı, çox Müdrik və Qadirdir, digər kamilliklərə əsasən Ali, başqa sözlə hər şeydən Mükəmməldir. O, Əbədi və Sonsuzdur, Qadir və Əllamədir, daha doğrusu, əbədiyyətdən əbədiyyətədək mövcuddur və sonsuzluqdan sonsuzluğadək

nüfuz edir, hər şeyi idarə edir, olan və ola biləcək hər şeyi bilir."
(Nyuton. "Başlanğıclar", - s.660. Həmçinin bax: Caputo 2000, 88.)

"Tanrı dünyanı xəlq edib və gözə görünmədən onu idarə edir. O, bizə Onu sevməyi və Ona sitayiş etməyi, Ondan başqa, heç bir tanrıya sitayiş etməməyi, valideynlərimizə hörmət etməyi və əzizlərimizi özümüz kimi sevməyi, mötədil, ədalətli, sülhsevər və hətta vəhşi heyvanlara qarşı da rəhmdil olmağı buyurub." (Nyuton, sitat: Memoirs of the life, Writings, and Discoveries of Sir Isaac Newton by Sir David Brewster, Edinburgh, Thomas Constable and Co., 1855, Vol. II, 354.)

"Dindarlığın əksi təcrübədə bütpərəstliyə çevrilənateizmə etiqad etməkdir. Ateizm insan nəsli üçün o qədər mənasız və irəncdir ki, çox az adam ona etiqad edir.

Bütün quşlarda, heyvanlarda və insanlarda sağ və sol tərəflərin eyni olması (daxili orqanlar istisna olmaqla) təsadüfdürmü, onların hamısının iki gözünün olması və onların hər birinin üzün bir tərəfində yerləşməsi təsadüfdürmü, hər biri başın hər iki tərəfində yerləşən iki qulağının olması, iki dəliyi olan burnun olması, iki ön pəncənin, yaxud iki qanadın, yaxud da çiyinlərdən bitən iki qolun olması, budlardan bitən iki ayağın olması və bundan artığının olmaması təsadüfdürmü? Əgər xarici formaların yeknəsəqliyi Yaradanın müdrik niyyətinin nəticəsi deyilsə, onda nədir?

Necə oldu ki, bütün canlı varlıqlarda gözlər və yalnız gözlər şəffafdır, onların içində şəffaf maye, mərkəzində büllur, onun qarşısında isə bəbək var və bütün bunlar bir-birinə o dərəcədə ideal uyğunlaşıb və görməni o qədər ideal şəkildə təmin edir ki, nə isə sıradan çıxsa, heç kim bunu düzəldə bilməz. Məgər kor təsadüf işığın və refraksiyanın nə olduğunu bilə bilərmi, müdrikliklə bütün canlıların gözlərini onların işığın xüsusiyyətlərindən istifadə edə biləcəkləri şəkildə yarada bilərdimi?! Bu və ya digər fikirlər həmişə bəşəriyyəti dünyanı Xəlq edənə və Öz gücü ilə onu saxlayan və buna görə də bizdə ehtiram qarışıq qorxu hissini oyadanın varlığına inandırıb və bundan sonra da inandıracaq.

Məhz buna görə də biz hamımız Vahid Tanrı qarşısında, Sonsuz, Əbədi, Hər yerə nüfuz edən, Əllamə, Qadir Tanrı, var olan hər şeyi Yaradan, ən Müdrik, ən İnsaflı, ən Xoşməram və ən Müqəddəs Tanrı qarşısında səcdə etməliyik. Biz Onu sevməli, Ondan qorxmalı, Ona hörmət etməli, Ona təvəkkül etməli, Ona dua etməli, Ona şükür və həmd etməli, Onun adını ucaltmalı və Onun vəsiyyətlərinə boyun əyməliyik." (Nyuton, sitat: Memoirs of the life, Writings, and Discoveries of Sir Isaac Newton by Sir David Brewster, Edinburgh, Thomas Constable and Co., 1855, Vol. II, 347-348.)

"İnandıqdan sonra həqiqəti dilə gətirməkdən utanmayın. Əks təqdirdə, siz başqalarının yolunda maneəyə çevrilən və İsaya inanan, lakin sinaqoqdan qovulmamaq üçün öz imanını moizə etməkdən qorxan yəhudi hökmdarların aqibəti sizi də gözləyə bilər. Beləliklə, inandıqdan sonra həqiqətə görə utanmayın - onu açıq şəkildə dilə gətirin və öz qardaşlarınızı da inandırmağa can atın... Ağıllılar Günəş kimi parlayacaq, çoxlarını həqiqətə inandıranlar isə ulduzlar kimi əbədi olaraq parlayacaqdır.

Əzab çəkmək şərəfinə layiq görüldüyünüz üçün də sevinin, çünki bunun

mükafatı böyük olacaq!" (Nyuton, sitat: The Religion of Sir Isaac Newton, Frank E. Manuel - red., London, Oxford University Press, 1974, 112.)

"Tanrı həmişə hər yerdə mövcud olmaqla həmişə və hər yerdə olmağa davam edir." (Nyuton, "Başlanğıclar" - s. 660.)

"Ateizm çox mənasız şeydir. Mən Günəş sisteminə baxanda Yer kürəsini Günəşdən məhz elə məsafədə görürəm ki, bu məsafədən kifayət qədər hərarət və işıq ala bilmək olur. Bunu təsadüflə izah etmək mümkün deyil."

(Nyuton, sitat: Tiner 1975.)

CON FLEMSTİD

Con Flemstid (1646-1719)

Məşhur Qrinviç Rəsədxanasının banisi Con Flemstid məşhur ingilis astronomlarından biri idi. O, xeyli müşahidə apararaq teleskoplar dövrünün ilk ulduzlu xəritəsini tərtib etdi. Bununla yanaşı, Con Flemstid öz dindarlığı ilə tanınırdı.

(Henry M. Morris, Men of Science Men of God, s. 31)

Con Vudvard (1665-1728)

Con Vudvard əsl iman edənlərdən biri, geologiyanın inkişafına əhəmiyyətli dərəcədə böyük töhfə verən alim və bu elmin banilərindən biri idi. Onun elmdə ən böyük nailiyyəti Kembricdə paleontologiya muzeyinin təməlini qoymasıdır. (A.g.e, s. 27)

Karl Linney (1707-1778)

Allaha inanan alim Karl Linney botanika sahəsində vacib əsərlərin müəllifidir. Karl Linney bitkilərdə cinsi çoxalma təzahürünü kəşf etdi və "bioloji təsnifat" anlayışını elmi dövriyyəyə daxil etdi.

(Dan Graves, Scientists of Faith, s. 82)

Jan Delyuk (1727-1817)

İsveçrə fiziki Jan Delyuk elmə "geologiya" kimi termini daxil etdi. Jan Delyuk öz atası ilə birgə müasir civə termometrinin və hidrometrin icadçısıdır. Bu alim həmçinin kainatın və həyatın təsadüfən yaranması hipotezasının əleyhdarı və yaradılış hipotezasının tərəfdarıdır.

(Henry M. Morris, Men of Science Men of God, s. 33)

Ser Uilyam Qerşel (1738-1822)

Ser Uilyam Qerşel XVIII əsrin tanınmış astronomlarından biridir. O, öz dövrü üçün inikas qabiliyyəti nöqteyi-nəzərindən güclü teleskoplar qurması ilə məşhurlaşmışdı. Onların köməyi ilə qalaktika və dumanlıqların

müşahidəsi sahəsində o vaxta qədər əlçatmaz olanları görə bildi. Dindar insan olan Ser Uilyam Qerşel deyirdi: *"Ateist-astronomlar dəli olmalıdırlar"*. O, bu sözlərlə astronomiya ilə məşğul olan və kainatda hökm sürən mükəmməl qaydanı bilavasitə müşahidə edən alimin Allaha necə inanmamasından təəccübləndiyini ifadə edirdi. (A.g.e.s. 31)



SER UİLYAM QERŞEL



Ser Uilyam Qerşel öz tədqiqatlarını kral III Georqun ona verdiyi vəsaitlə hazırladığı teleskopların köməyi ilə aparırdı.

Uilyam Peyli (1743-1805)

Uilyam Peyli İlahi Yaradılışa inanan alim idi. Onun yuxarıda qeyd etdiyimiz "Təbii ilahiyyat" əsəri o dövrün ən çox alınan kitablarından idi. Uilyam Peylinin bu ifadəsi geniş yayılmışdı: *"İnsanın yaratdıqları incəsənət əsərləridirsə, canlı məxluqlar insandan olduqca yüksəkdə duran varlığın əsərləri olmalıdır."* Canlı orqanizmlərin bu mühitdə yaşaması üçün bütün vacib xüsusiyyətlərə malik olmasını Peyli *"müəyyən bir kəşf bir dizaynın və dizayn edici bir Yaradıcının dəlillərini təmsil edir"* sözü ilə açıqlayır.

(William Paley, Natural Theology; or, Evidences of the Existence and Attributes of the Deity Collected from the Appearances of Nature [Edinburgh,1816], bölüm 5, kısım 5, s.61)

Verner Heyzenberq (1901-1976)
Fizik Üzrə Nobel Mükafatı Laureatı

VERNER HEZENBERQ

Verner Heyzenberq Fizika üzrə Nobel mükafatına 1932-ci ildə, tətbiqi, hər şeydən əvvəl, hidrogenin allotropik formalarının kəşfinə gətirib çıxaran kvant mexanikasının yaradılmasına görə layiq görülüb. 1927-ci ildə Heyzenberq sonradan onun öz adı verilmiş məşhur *qeyri-müəyyənlik prinsipini* işləyib hazırlayıb.

Verner Heyzberq deyirdi:

"Təbiətşünaslıq badəsindən alınan ilk qurtumdan ateizm doğur, amma qabın dibində bizi Tanrı gözləyir." (Sitat: Hilderband 1988, 10.)

ROBERT ENDRYUS MİLLİKEN

Robert Endryus Milliken (1868-1953)
Fizika Üzrə Nobel Mükafatı Laureatı

Robert Endryus Milliken 1923-cü ildə "Elementar elektrik cərəyanı və fotoelektrik effektin müəyyən edilməsi istiqamətində təcrübələrinə görə" fizika üzrə Nobel mükafatı laureatı olub. Milliken elektron cərəyanını müəyyən edib və *Eynşteynin fotoelektrik tənliyini* sübut edib.

"Avtobioqrafiya"da Robert Milliken yazırdı: *"Bəşəriyyətin tərəqqisi və rifahı iki dairəyə əsaslanır. Əgər bunlardan biri yıxılarsa, bütün tikili məhv olar. Bu iki dirək yetişdirilmənin və bütün dünyada yayılmanın məğzidir: 1) Dinin ruhu; 2) Elmin (biliyin) ruhu."* (Milliken 1950, 279)

"Alimlərin Tanrısı" adlı müsahibəsində (Collier's; 24 oktyabr 1925) Milliken deyirdi:

"Mən, ən azından, əminliklə iddia edə bilərəm ki, dini inkar etmək üçün elmi əsas yoxdur. Eynilə, mənim fikrimcə, elmlə din arasında münaqişəyə bəraətin olmadığı kimi, çünki onlar tamamilə fərqli sahələrə aiddir. Elmdən yaxşı başı çıxmayan kəslər və dindən yaxşı başı çıxmayan kəslər, həqiqətən də, bəzən mübahisə edirlər və kənardan bunu müşahidə edənlərə elə gəlir ki, elmlə din arasında münaqişə baş verir, hərçənd, əslində, bu münaqişə yalnız cahilliyin iki növü arasında baş verir.

Bu cür ilk ciddi mübahisə Kopernik öz nəzəriyyəsini irəli sürərkən baş vermişdi. Bu nəzəriyyəyə görə, Yer kürəsi hamar səth deyil və kainatın mərkəzi deyil, sadəcə bir gün ərzində öz oxu ətrafında, bir il ərzində isə Günəş ətrafında dövr edən çoxsaylı kiçik planetlərdən biridir. Kopernik, hər şeydən əvvəl, alim deyil, ruhani idi, din adamı idi. O bilirdi ki, həqiqi dinin

əsasları heç bir elmi kəşfin narahat edə bilmədiyi bir yerdə gizlənib. O, din təliminə qarşı çıxdığına görə deyil, irəli sürdüyü nəzəriyyəyə görə təqiblərə məruz qalmışdı. Belə ki, onun nəzəriyyəsinə əsasən, insan kainatın mərkəzi hesab olunmurdu. Bu nəzəriyyə isə bir sıra eqoistlər üçün olduqca xoş olmayan bir xəbər idi." (Millikan 1925.)

"Mən təsəvvür edə bilmirəm ki, əsl ateist necə alim ola bilər."

(Sitat: Grounds 1945, 22.)

"Heç vaxt elə bir mütəfəkkir insana rast gəlməmişəm ki, o, Tanrıya inanmasın." (Millikan 1925.)

"Avtobioqrafiya"da Milliken yazırdı:

"Amma mən bir az da uzağa gedəcəyəm, çünki kimsə soruşacaq: "Tanrı ideyası haradan yaranıb? Məgər bu, dinin bir hissəsi deyilmi?"

Düşünürəm ki, bəli, bir hissəsidir. Ona görə də üç üsulla cavab verəcəyəm.

Birinci cavab qismində Müqəddəs Kitabdan bir sitat gətirəcəyəm: "Tanrını heç kim heç vaxt görməyib... Kim ki deyir: "Mən Tanrını sevirəm", öz qardaşına isə nifrət edir, həmin kəs yalançıdır: Çünki gözləri ilə gördüyü qardaşını sevməyən kəs görmədiyi Tanrını necə sevə bilər?" Başqa sözlə, insanın Tanrıya münasibəti həmin insanın başqa insanlara - öz qardaşlarına olan münasibətində təzahür edir və əks olunur.

Mənim ikinci cavabım - Çikaqo Universitetinin Baptist İlahiyyatçılıq fakültəsinin dekanı Şayler Metyusun fikri olacaq. Ondan "Tanrıya inanırsınızmı?" - deyə soruşulanda o deyib: ***"Dostum, bu sualı verən kəsin cavaba deyil, təhsilə ehtiyacı var."***

Üçüncü cavabım - öz cavabımdır. Min il əvvəl İov məhdud insan şüuru ilə Tanrını dərk etmək cəhdlərinin əbəs olduğunu başa düşərək bəyan etdi: "Sən araşdırmalarla Tanrını tapa bilərsənmi? Hakimi - mütləqi tamamilə dərk edə bilərsənmi?" Müdrik insanlar həmişə təbiətdəki heyrətamiz qayda-qanuna heyran olur və bu zaman öz məhdudluqlarını və cahilliklərini başa düşürdülər. Onlar üçün təbiətdə immanent şəkildə mövcud olan Varlığın qarşısında sükutda və səcdədə qalmaq olduqca asan idi. Onlar dini nəğmə oxuyanların sözlərini təkrarlayırdılar: "Bir dəli ürəyində dedi: Tanrı yoxdur."" (Millikan 1950, 286-287.)

"Mən dini və elmi bəşəriyyəti irəli və yuxarı dartmış və dartmağa davam edən iki qohum qüvvə hesab edirəm." (Millikan 1956, 286.)

"Həqiqi elmlə həqiqi din arasında münaqişənin mümkün olmadığı elm və dinin məqsədlərini öyrənərkən aşkara çıxır. Elmin məqsədi təbiətin faktları, qanunları və prosesləri haqqında biliklərin - xurafat və mənfi rəylərin olmadığı biliklərin inkişafından ibarətdir. Dinin, hətta elmin məqsədlərindən də vacib olan məqsədləri isə bəşəriyyətin vicdanının, ideallarının və məqsədlərinin təşəkkülüdür." (Millikan 1925.)

"Elm möhtəşəm Tanrı konsepsiyasına gətirib çıxarır. Dinin ali idealları ilə tamamilə uzlaşan bu konsepsiyaya uyğun olaraq, Tanrı insanın yaşadığı yer üzünü yaratmaqla əsrlər boyu özünü büruzə verir. Əsrlər boyu O, materiyaya həyat verir və bu prosesin kulminasiya nöqtəsi mənəvi təbiətə və

ilahi xüsusiyyətli qüvvələrə malik olan insan olur." (Sitat: Kargon 1982,146.)

"Biz Uca Yaradanın niyyətində bizə məhz hansı yerin ayrıldığını və Onun bizə nə etməyi həvalə etdiyini bilmirik.

Amma bu mənada biz müəyyən dərəcədə hansısa rolu oynayırıq, ***əks təqdirdə, bizdə məsuliyyət hissi olmazdı.*** *Sırf materialistik fəlsəfə mənə cahilliyin ən yüksək nöqtəsi kimi görünür.*

Məhz bu məsuliyyət hissi - bizə ayrılan rolu mümkün qədər yaxşı oynamalı olduğumuzu dərk etmək - bizim ilahi xüsusiyyətimizi təşkil edir." (Millikan 1950, 277-278.)

"Əksər dahi alimlər dərindən dindar insanlar olublar ki, bunu onların həyatı da sübut edir: Ser İsaak Nyuton, Maykl Faradey, Ceyms Klerk Maksvell, Lui Paster. Onlar sadəcə dindar insanlar deyil, həm də öz din icmalarının sadiq üzvləri olublar. Axı həyatda hər şeydən vacib mənəvi və ruhi dəyərlərə, həyatın əhəmiyyətə və mənaya malik olduğuna inanmaq bizim harasa getdiyimizə inanmaqdır! Bu alimlərdə bu cür iman olmasaydı, onlar çətin ki, belə dahi alimlər olardılar." (Millikan 1925.)

"Mən, əslində, səmada Tanrının barmaq izlərini görmüşəm. Mən Onun daim Öz əsəri üzərində olduğunu gördüm." (Sitat: Neff 1952, 20.)

"Dinin ruhu ilə idarə olunan elm - tərəqqinin açarı və bəşəriyyətin ümididir." (Sitat: Kargon 1982, 147.)

Artur Şavlov (1921-1999)
Fizika Üzrə Nobel Mükafatı Laureatı

ARTUR ŞAVLOV

Artur Şavlov, lazerin ixtiraçılarından biri "Lazer spektroskopiyasının inkişafına verdiyi töhfələrə və materiyalardan elektromaqnit şüalanmanın qarşılıqlı təsirinin spektroskopik təhlilinə həsr edilmiş inqilabi əhəmiyyətli işlərinə görə" 1981-ci ildə fizika üzrə Nobel mükafatı laureatı olub. Artur Şavlov və Çarlz Tauns lazeri ilk patentləşdirən alimlərdirlər. Onlar lazerlər haqqında elmin baniləri hesab edilirlər.

Artur Şavlov elmlə dinin münasibətlərini belə təsvir edirdi:

"Din imana əsaslanır. Mənə belə gəlir ki, kainatın və həyatın möcüzələri qarşısında təkcə "necə?" deyil, həm də "niyə?" sualını vermək lazımdır. Bu suala yalnız din cavab verir. Mən bu suallara cavabı içində böyüdüyüm və zamanın sınağından üzüağ çıxmış dində tapdım.

Amma dini kontekst elmi tədqiqatlar üçün gözəl əsasa çevrilir. 18-ci Psalmda deyildiyi kimi, "Göylər Tanrının qüdrətini möizə edir və Onun əllərinin işi barəsində ətrafa soraq verir." Elmi tədqiqat - sitayiş aktıdır, çünki o, Tanrının əsərlərindəki möcüzəni getdikcə daha çox açır."

(Sitat: Margenau and Varghese, 1997, 105-106; və sitat: Templeton 1994.)

"Mən belə qənaətə gəlirəm ki, Tanrı həm kainatda, həm də mənim şəxsi

həyatımda vacibdir.” (Sitat: Margenau and Varghese, 1997, 107.)

“Xeyli sayda müxtəlif pərəstiş və dini sektalar mövcuddur və mən bunda təəccüblü heç nə görmürəm, çünki əminəm ki, Tanrı bizə göründüyü dərəcə də gözəldir. Həmçinin olduqca mürəkkəbdir və təbiidir ki, müxtəlif insanlar Onu müxtəlif cür qavrayırlar.

Kəndli ilə filosofun Tanrı haqqında təsəvvürlərinin eyni olmasını gözləmək olmaz. Tanrı hamını, hətta Tanrı haqqında öz təsəvvürü olan alimləri də əhatə etmək üçün kifayət qədər böyükdür.” (Schawlow 1998, Capter I, Part 5.)

Nikolay Kopernik (1473 - 1543)
Heliosentrik Kosmologiyanın Banisi

“Tanrının böyük işlərini başa düşmək, Onun müdrikliyini, qüdrətini və gücünü dərk etmək, onun qoyduğu qanunların möcüzəsinə toxunmaq - heç şübhəsiz, bütün bunlar, Tanrıya sitayişin Allahbəyənən üsullarıdır. Və Ona görə cahillik bilikdən daha xoş ola bilməz.”

(Kopernik, sitat: Neff 1952, 191-192; və Hubbard 1905, v.)

Kopernik “Göy Sahələrinin (Sferaların) Dövr Etməsi Haqqında” *(De Revolutionibus Orbium Caelestium, 1543)* adlı inqilabi əsərində yazırdı:

“Axı açıq-aşkar ən yaxşı formada düzülmüş və İlahi əl tərəfindən idarə olunan predmetlərlə məşğul olan kəs - bunların üzərində ciddi - cəhdlə düşünən və müəyyən vərdiş qazanan kəs xeyir əmələ həvəslənməzmi, yaxud da hər cür xoşbəxtlik və xeyirxahlıqla dolu olan Tanrıya heyran olmazmı?Axı ilahi peyğəmbər əbəs yerə demirdi ki, Tanrının niyyətlərinə heyrandır və Onun işlərini gördükcə sevinir, çünki onlar, bir növ, bizi ali xoşbəxtliyin dərk edilməsinə aparan vasitə rolunu oynayır.” (Kopernik, 1873, 10-11.)

NİKOLAY KOPERNİK


RENE DEKART

Rene Dekart (1596-1650) Analitik Həndəsənin və Müasir Fəlsəfənin Banisi

Dekart "İlkin Fəlsəfə Haqqında Düşüncələr" (1641) adlı kitabında yazırdı:

"Həmişə ehtimal edirdim ki, teologiyadan daha çox fəlsəfənin əsasları ilə sübut edilməli olan məsələlər arasında iki əsas məsələ var: hərçənd biz imanlılara Tanrının mövcudluğuna və ruhun bədənlə birlikdə ölmədiyinə əmin olmaq kifayətdir, amma, görünür, bu iki vəziyyəti öncədən sübutlar gətirmədən təbii əqlin köməyilə imansızlara heç bir din və hətta heç bir əxlaqi keyfiyyət aşılamaq mümkün deyil. Bu dünyada qüsurlar çox vaxt xeyirxah əməllərdən daha böyük mükafat aldığı üçün bəziləri Tanrıdan qorxmasaydı və gələcəkdə qəbir həyatını gözləməsəydilər, faydalı olanı həqiqi olandan üstün tutardılar." (Descartes, 1901.)

"...Tanrının mövcudluğuna inanmaq hər mənada düzgündür." (Descartes 1950, Letter of Dedication.)

"Beləliklə, görürəm ki, biliyin doğruluğu və etibarlılığı sırf həqiqi Tanrını dərk etməkdən asılıdır. Ona görə də əvvəllər, Onu dərk etməzdən əvvəl mükəmməl biliyə dair heç nəyə malik ola bilməzdim. İndi isə mənə həm Tanrı və digər dərk edilən məfhumlara, həm də istənilən cismani təbiətə dair tam və etibarlı biliklərə malik olmaq müyəssər olub." (Descartes 1901, Meditation V.)

Volter (1694-1778) Fransız Filosofu və Tarixçisi, Maarifçiliyin Ən Nüfuzlu Mütəfəkkirlərindən Biri

VOLTER

"Bu gecə düşüncələrə daldım. Təbiətin müşahidəsi məni özünə çəkdi; Mən bu sonsuz səltənətin sərhədsizliyi, hərəkəti və ahəngdarlığına heyran oldum.

Ən çox heyran qaldığım isə bu böyük qüvvələri idarə edən Şüur idi. Öz-özümə deyirdim: "Yalnız kor bu mənzərənin möhtəşəmliyini görə bilməz, yalnız axmaq onu Yaradanı tanımaz, yalnız ağılsız Ona sitayiş etməz." (Volter, sitat: Redman 1963, 187.)

"Ölüm döşəyində ikən Tanrı qarşısında səcdə edirəm, dostlarımı sevirəm, düşmənlərimə qarşı nifrət hiss etmirəm və xurafata nifrət edirəm."
(Volter, sitat Parton 1884, 577.)

"Bütün təbiət Onun mövcudluğunu hayqırır, Ali Şüurun, sərhədsiz qüvvənin, möhtəşəm qayda-qanunun olduğunu hayqırır və hər şey bizim Ondan asılı olduğumuzu göstərir." (Volter, sitat: Parton 1884, 554.)

"Mən Tanrıya inanıram, mistik və ilahiyyatçıların təbliğ etdiyi Tanrıya deyil, təbiətin Tanrısına, dahi həndəsəçiyə, kainatı yaradana, hər şeyin mənşəyinə, dəyişməz, transsendent, əbədi mənşəyə inanıram."
(Volter, sitat: Cragg 1970, 237.)


İMMANUİL KANT

İmmanuil Kant (1724-1804) Qərb Sivilizasiyasının Tarixində Ən Böyük Filosoflardan Biri

Kant "Xalis Şüurun Tənqidi" adlı fəlsəfi əsərində yazırdı:

"Mən həmişə Tanrının mövcudluğuna və qəbir həyatına inanacağam və əminəm ki, bu inamı heç nə sarsıda bilməz, çünki bununla mənim öz gözümdə nifrətə layiqolmaqdan qaçaraq, imtina edə bilmədiyim bütün əxlaq prinsiplərim məhv olardı." (Kant, "Xalis Şüurun Tənqidi")

Kant "Teologiya Fəlsəfəsinə Dair Mühazirələr"də yazırdı:

"Tanrı dünyanı Öz şanına görə yaratdı, çünki yalnız Onun müqəddəs qanunlarına tabe olmaq Onu tərənnüm edir. Tanrını tərənnüm etmək nə deməkdir? Bu, Ona xidmət etməkdən başqa, bir şey deyil. Bəs Tanrıya necə xidmət etmək olar? Əlbəttə ki, Tanrıya müxtəlif cür tərifiər yağdırmaqla Onun rəğbətini qazanmağa çalışmaq olmaz. Çünki tərif, ən yaxşı halda, sadəcə qəlblərimizin mərhəmət və rəğbətə nail olması üçün vasitə rolunu oynayır. Tanrıya xidmət etmək isə yalnız və sadəcə Onun iradəsini yerinə yetirməkdən və Onun müqəddəs qanun və vəsiyyətlərinə riayət etməkdən ibarətdir." (Kant 1978, 142-143.)

"Tanrı dünyanın yeganə hakimidir. O, despot kimi deyil, monarx kimi idarə edir; belə ki, O, tövsiyələrinə qul qorxusundan deyil, sevgidən qaynaqlanaraq riayət edilməsini istəyir. O, bir Ata kimi, bizim xeyrimizə olanları vəsiyyət edir. O, heç vaxt bir tiran kimi adi şıltaqlıq naminə buyurmur. Bundan əlavə, Tanrı Onun tövsiyələrinin mənası barədə düşünməyimizi tələb edir və əvvəlcə xoşbəxtliyə layiq olmağımızı, sonra isə onu hiss etməyimizi istədiyi üçün bizi həmin tövsiyələrə əməl etməyə vadar edir." (Kant 1978, 156; *Lectures on Philosophical Theology.*)

Herman Hesse (1877-1962) Ədəbiyyat Üzrə Nobel Mükafatı Laureatı

HERMAN HESSE

Herman Hesse "Humanizmin klassik ideallarının, eləcə də parlaq üslubun açıq-aydın təzahür etdiyi ehtiraslı yaradıcılığına görə" 1946-cı ildə ədəbiyyat üzrə Nobel mükafatına layiq görülüb.

Hesse öz dostu Miqel Serrano ilə söhbətində öz Tanrı anlayışı haqqında deyirdi:

"Sən səmadakı buludlar kimi sovrulub aparılmağına imkan verməlisən. Müqavimət göstərməməlisən. Tanrı bu dağlarda və bu göldə mövcud olduğu kimi, sənin taleyində də mövcuddur. Bunu başa düşmək olduqca çətindir, çünki insan getdikcə təbiətdən, eləcə də özündən daha çox uzaqlaşır."

(Sitat: Miguel Serrano, *C. G. Jung and Hermann Hesse: A Record of Two Friendships*, 1966, 10.)

"Elə insanlar var ki, həyatın onlara Tanrı tərəfindən borc verildiyini dərk edirlər; onlar həyatdan eqoistcəsinə istifadə etmirlər, onu Tanrıya xidmətə və qurban verməyə həsr edirlər. Bu, ta uşaqlıqdan mənim həyatıma böyük təsir göstərib." (Hesse 1972, 59.)

"Təbiətə yaxınlaşdıqca Tanrının səsini eşidirsən." (Sitat: Serrano 1966, 10.)

"Müqəddəsliyə gedən yol hər kəsdə bir cürdür. Mən çoxlu səhvlər və acı əzab-əziyyətlər yolu ilə gedirdim, özümə əzab verirdim, inanılmaz axmaqlıqlar edirdim. Mənim azad ruhum bilirdi ki, riyakar müqəddəslik qəlbin xəstəliyidir. Mən asketizmə qapılır və öz bədənimə mismar vururdum. Bilmirdim ki, imanlı olmaq sağlamlıq və sevincdir." (Sitat: Gellner 1977, Vol.1.)


CON RELEY MOTT

Con Reley Mott (1865-1955) Nobel Sülh Mükafatı Laureatı

Con Reley Mott yorulmadan dini moizələrinə, beynəlxalq təbliğat hərəkatlarında fəal iştirakına və müharibə zamanı humanitar fəaliyyətinə görə 1946-cı ildə Nobel Sülh mükafatına layiq görülüb.

O, deyir ki, *"Dini insanlara çatdıran zaman namuslu olmağımız çox vacibdir. Belə ki, insanlar savadsızlığı və riyakarlığı dərhal hiss edirlər. Biz yalnız bildiyimiz, inandığımız və öz həyatımızı, həqiqətən də, həsr etdiyimiz şeylər barədə danışmalıyıq. Bizim sözlərimizə onun arxasında dayanan həqiqət güc verir. Sadə bir həqiqəti xatırladım: Bataqlığa batmış adamı yalnız möhkəm torpaq üzərində dayanan kəs oradan çıxara bilər."* (Mott 1944.)

CORC KÜVYE

Corc Küvye (1769-1832)

Elm tarixində görkəmli anatom və paleontoloqlardan biri olan Küvye müqayisəli anatomiyanın banisi və paleontologiyanı ayrıca elmi fənn kimi irəli sürən alim hesab edilir. Tədqiqatçı yaradılışa inamı ilə məşhurluq qazandı, həmçinin hər şeyin Allah tərəfindən yaradıldığını sübut etdiyi mübahisələrdəki iştirakı ilə məşhurlaşdı. Bunlardan əlavə, Küvye mənşəyi hələ qədim Yunanıstan dövrünə gedib çıxan təkamül nəzəriyyəsinin əsassızlığını bəyan etdi. (Henry M. Morris, Men of Science Men of God, Master Books, 1992, s. 38-39.)

Hemfri Devi (1778-1829)

Allaha inamı ilə tanınan Hemfri Devi öz dövrünün görkəmli kimyaçılarından biri idi. Tanınmış alim Faradey onunla birgə işləyirdi. Hemfri Deviyə ilk dəfə xeyli vacib kimyəvi elementi xalis şəkildə tanımaq nəsib olmuşdur. O, istilik hərəkəti nəzəriyyəsini, təhlükəsiz lampanı və almazın karbonun kristal modifikasiyası olduğunu kəşf etməklə elmə böyük töhfələr vermişdir. (A.g.e, s. 38.)


HEMFRİ DEVİ


ADAM SECVİQ

Adam Secviq (1785-1873)

Adam Secviq XIX əsrin aparıcı geoloqlarından biri idi. Kembri və Devons geoloji sistemlərinin tədqiqi ona məxsusdur. Bu adları həmin sistemlərə Secviq vermişdir. Adam Secviq, eyni zamanda, həm rahib, həm də Çarlz Darvinin dostu olaraq təkamül nəzəriyyəsini cəsarətlə rədd etdi. (A.g.e, s. 53.)

Maykl Faradey (1791-1867)
Elektronika və Elektromaqnit Sahə Haqqında Təlimin Banisi


MAYKL FARADEY

Öz dövrünün dahi fiziki kimi qəbul edilən Maykl Faradey elektrik və maqnetizmin təzahürlərinin öyrənilməsində vacib rol oynamışdı. Maykl Faradey fizikadan əlavə kimyanı da xeyli zənginləşdirdi.

O, Allaha inanan bir alim idi və hesab edirdi ki, elm və din harmoniyada olmalıdır. Maykl Faradey düşünürdü ki, dünyanı yeganə Yaradan xəlq etdiyi üçün təbiətdə hər şey vahid tamın hissəsidir. Maykl Faradey bu prinsipə əsaslanaraq elektrikin və maqnetizmin bir-biri ilə bağlı olması qənaətinə gəldi.

(Dan Graves, Scientists of Faith, s. 111.)

"Mən mövcud olan hər şeyin sahibi Tanrı qarşısında səcdə edirəm və ümid O, Özü istədiyi vaxt və Öz qərarına əsasən, Öz Sözü və Öz əhlini İlahi təbiətdən xəbər verənlərə çevirən qüdrətli və dəyərli vəsiyyəti ilə məni xilas edəcək və mən həmin vaxtı səbirlə gözləyəcəyəm." (Faradey, sitat: Jones 1870, Vol.II, 471.)

"Bizim oxumalı olduğumuz təbiət kitabı Tanrının əli ilə yazılıb."

(Faradey, sitat: Seeger 1983, 101.)

Söhbətlərindən birində (London, 7 iyul 1861-ci il):

"Elə buna görə də, qardaşlarım, biz imtiyazlarımıza dünyada hər şeydən çox dəyər verməliyik. Tanrının… yerinə yetirilmiş qanunlarının mükəmməlliyi bizə nə qədər aydın görünürsə, Tanrıya Öz heyrətamiz nemətinə görə bir o qədər çox minnətdar olmalıyıq." (Faradey, sitat: Eichman 1993, 93-94.)

Semyuel Morze (1791-1872)


SEMYUEL MORZE

Semyuel Morze bəşər tarixində olduqca vacib məsələ olan teleqrafı kəşf etmiş böyük alimdir. Amerikada o, həmçinin ilk fotokameranı hazırlayıb.

Semyuel Morze kainatı müəyyən bir məqsəd üçün xəlq edən Yaradanın mövcudluğuna inanırdı. Onun fikrincə, maddi və mənəvi aləm bir-birinə harmonik təsir göstərir. Semyuel Morze yazırdı:

"Mənim bilgilərim çoxaldıqca dini mənbələrin postulatları aydınlaşır. Allahın böyüklüyü olduqca aydın dərk edilir. Gələcək sevinc və ümidlə nurlanır".

(Henry M. Morris, Men of Science Men of God, s. 47.)

Cozef Henri (1797-1878)

Görkəmli Amerika fiziki və dindar alim Cozef Henri Prinston Universitetinin professoru idi. Cozef Henri qalvanometr və elektromaqnit motor icad etdi. O, öz tədqiqat və müşahidələrini apararkən Allaha dua və səcdə etmək üçün mütləq vaxt tapırdı. (A.g.e, s. 49.)

Lui Aqassis (1807-1873)


LUİ AQASSİS

Geniş yayılmış fikrə görə, Amerikanın dahi bioloqu olan Lui Aqassis təkamül nəzəriyyəsinə qarşı öz kəskin çıxışları ilə tanınırdı.

Lui Aqassis yaradılışı rədd edən nəzəriyyələri qəbul etmirdi və təbiətin hər aspektində İlahi planın olduğunu düşünürdü. Lui Aqassis deyirdi:

"Zamanın və məkanın vəhdəti təkcə fikrə yox, həmçinin səbəbə, gücə, böyüklüyə, ağıla, gələcəyi əvvəlcədən görməyə, hər şey haqda bilməyə və hər şeyi görməyə işarə edir. Bir sözlə, bütün bu keyfiyyətlər insanın səcdə etməli və sevməli olduğu Allahın mövcudluğunu var gücü ilə bəyan edir". (http://www.ucmp.berkeley.edu/ history/agassiz.html)

Ceyms Preskott Coul (1818-1889)

CEYMS PRESKOTT COUL

Termodinamikanın ilk qanununu kəşf etməklə məşhurlaşan Ceyms Preskott Coul bundan əlavə kabellərlə keçən elektrik cərəyanının hasil etdiyi istiliyin miqdarını və ilk olaraq qaz molekullarının sürətini tapıb. Ceyms Preskott Coulun böyük elmi nailiyyəti "mexaniki istilik tənliyi" idi.

Bu vacib kəşf gələcəkdə kainatın ən əsas qanunlarından biri olan enerjinin saxlanması qanununun kəşfi üçün yol göstərən ulduz oldu. Bu qədər vacib kəşflərin müəllifi Ceyms Preskott Coul təbiət qanunlarının tədqiqinin Allahı dərk etməyə yaxınlaşmağa icazə verdiyinə inanan alimlərdən idi. Bu inam onu yeni kəşflərə və elmi fəaliyyəti davam etdirməyə həvəsləndirirdi. 1864-cü ildə Ceyms Preskott Coul 717 alimin imzaladığı antidarvin manifestinin tərtib edilməsinin təşəbbüskarlarından biri idi. O, burada bu əhəmiyyətli sözləri söyləmişdi:

"Allahın iradəsini tanıdıqdan və ona tabe olduqdan sonra bizim daha bir

vacib işimiz qalır: Onun işlərində olan sübutlardan Onun müdrikliyini, qüvvəsini və rəhmliliyini dərk etmək. Təbiətin qanunlarını dərk etmək Allahı dərk etməkdir". (Dan Graves, Scientists of Faith, s. 133)

Corc Qabriel Stouks (1819-1903)

CORC QABRİEL STOUKS

Görkəmli ingilis alimi Corc Qabriel Stouks ən əvvəl fizika və riyaziyyat sahəsində bir neçə vacib kəşf etdi. O, həmçinin yer qravitasiyası, astrofizika, kimya, akustika problemləri üzrə tədqiqatlar aparır, istiliyin üzə çıxmasını öyrənirdi. O, kvarsinin şüşənin əksinə olaraq ultrabənövşəyi şüanı buraxdığını nümayiş etdi. O, lord Kelvinlə birgə elektrotermodinamika ilə məşğul olurdu. Corc Qabriel Stouks "X" şüalarının Maksvell spektrinin elektromaqnit hissəsi olduğunu göstərdi. Bir vaxtlar London Viktorian İnstitutunun rəhbəri olan Corc Qabriel Stouks həmçinin Kembric Universiteti Fəlsəfə cəmiyyətinin həqiqi üzvü idi.

Təbiəti öyrənərkən həmişə dindar olaraq qalan Corc Qabriel Stouksun əsərlərində onun din haqda mülahizələrini söylədiyi bir çox fraqmentlər var. Onun fikrincə, təbiətin qanunları bu qanunları öz istəyi ilə müəyyən edə bilən Allahın iradəsi ilə uzlaşır. (www.leaderu.com/offices/schaefer/docs/scientists.html)

Rudolf Virxov (1821-1902)

Rudolf Virxovun elmə töhfəsi, əsasən, dərmanları işləyib hazırlamasından ibarətdir. Rudolf Virxov xəstəliklərin səbəbini hüceyrə səviyyəsində öyrənirdi. O, ilk dəfə leykemiyanı təsvir etdi. Bundan əlavə, o, antropoloji və arxeoloji tədqiqatlarla məşğul olurdu. Rudolf Virxov Darvinin və Gekkelin nəzəriyyəsinə qarşı çıxış edən ən görkəmli alimlərdən biri idi. O, alman məktəblərində tədris olunmağa başlanan təkamül nəzəriyyəsindən cəsarətlə imtina edərək və elmin hüdudlarını aşaraq hətta siyasi fəaliyyətə başlamışdı.

(Henry M. Morris, Men of Science Men of God, s. 58-59.)

RUDOLF VİRXOV

Qreqori Mendel (1822-1884)

QREQORİ MENDEL



Mendel noxud üzərində apardığı tədqiqatlar nəticəsində irsiyyət qanunlarını kəşf etdi. Allaha inanan alimin bu nailiyyəti Darvinin təkamül nəzəriyyəsi üçün əsas dalanlardan biri oldu.

Genetikanın indi "Mendel qanunları" kimi tanınan üç qanununu kəşf etmiş görkəmli alim tarixə irsiyyət prinsiplərini şərh edən insan kimi daxil oldu. Bu, təkamül nəzəriyyəsinin təkzib edilməsində vacib elmi əsaslardan biri oldu.

Öz kəşflərindən darvinizmlə mübarizədə istifadə edən Qreqori Mendel gündəlik həyatında dindar idi. O, Yer kürəsinin təsadüfən yaranması haqda fikri inkar edirdi. O, inanırdı ki, hər şey, həmçinin Yer olduğu kimi Allah tərəfindən yaradılıb. (Dan Graves, Scientists of Faith, s. 143.)

Lui Paster (1822-1895)
Mikrobiologiya və İmmunologiyanın Banisi

Təbabət tarixində fəxri yer tutan Lui Paster, əsasən, xəstəliklərin mikrobiologiyası nəzəriyyəsi və cəsarətlə təkamül xurafatını qəbul etməməsi ilə məşhurlaşdı. O, ilk dəfə qıcqırma prosesinin üzvi əsasını kəşf etdi və bu prosesin nəzarətdə saxlanması üsullarını hazırladı. Tədqiqatları onu mikrobiologiya ilə dərindən məşğul olmağa vadar etdi. Lui Pasterin bu


LUİ PASTER

sahədəki tədqiqatlarının nəticəsi quduzluq, difteriya, qarayara kimi xəstəliklərlə mübarizədə sterilizasiya və pasterizasiya üsullarının kəşfi oldu.

Allaha inanan Lui Paster Darvinin nəzəriyyəsinə qarşı çıxış etdiyi üçün ateist alimlər tərəfindən təzyiqlərə məruz qalırdı. Lui Pasterin elmlə din arasında harmoniyanın vacibliyi haqda bir çox ifadələri məşhurdur. Onlardan ikisini sizin nəzərinizə çatdırırıq:

"Təbiəti nə qədər çox öyrəniramsə, Yaradan tərəfindən xəlq edilənlərə bir o qədər çox heyran oluram. Elm insanı Tanrıya yaxınlaşdırır."

(Paster, sitat: Lamont 1995; həmçinin bax: Tiner 1990, 75.)

"Əsl fəlsəfə yalnız kainatı yaradan İlahi impulsu "səbəb" sözü ilə adlandırır." (Paster, sitat: Geison, 1995, 141-142.)

"Elm insanı Allaha doğru aparır".

(Jean Guitton, Tanrı ve Bilim, Çeviren: Yaşar Avunç, Simavi Yayınları, 1993.)

"Biliyin kifayət etməməsi insanı Tanrıdan uzaqlaşdırır, ancaq əsl elm insanı Ona yaxınlaşdırır." (Paster, sitat: 1991, 5; həmçinin bax: Yahya 2002.)

Lord Kelvin (Uilyam Tomson) (1824-1907) Termodinamika və Energetikanın Banisi



UİLYAM TOMSON (LORD KELVİN)

Lord Kelvin XIX-XX əsrin əvvəllərinin aparıcı fiziklərindən biridir, o, həmçinin öz dindarlığı ilə tanınırdı. O, elmi aləmdə öz kəşfləri və riyaziyyat və fizikaya böyük töhfələr verməsi ilə nüfuz qazanıb. Lord Kelvin ilk dəfə hidrogen və heliumun uğurlu mayeləşməsi üsulunu icad etməyə nail oldu. Fizika sahəsində kəşfləri ilə əlaqədar istiliyi ölçmək cədvəli "Kelvin cədvəli" adlanır. Bundan əlavə, Lord Kelvin termodinamikanı fiziki fənn dərəcəsinə yüksəltdi və onun birinci və ikinci qanunlarını qəti şəkildə xülasə etdi.

Lord Kelvinin Allaha inamını sübut edən ifadələrindən bəziləri:

"Azad düşüncəli insan olmağa qorxmayın. Siz dərindən düşünsəniz, elm vasitəsilə Allaha inam əldə edəcəksiniz". (www.leaderu.com/offices/schaefer/docs/scientists.html)

"Biz həyatın ən əvvəlinə baxsaq, elm böyük Gücün əzəli olduğunu qəti şəkildə təsdiqləyəcək". (Henry M. Morris, Men of Science Men of God, s. 66.)

Lord Kelvin (Uilyam Tomson), Britaniya elmin inkişafı assosiasiyasının prezidenti, Assosiasiyaya müraciətini (Edinburq, Avqust 1871-ci il) yekunlaşdırarkən demişdi:

"Biz hər yerdə şüurlu və lütfkar niyyətin inandırıcı sübutlarını görürük, hətta bəzi metafizik, yaxud elmi çətinliklər bizi bir anlıq onlara şübhə etməyə vadar etsə də, bu sübutlar yenidən bizə elə bir qüvvə ilə nüfuz edir ki, onlara qarşı çıxmaq qeyri-mümkün olur. Biz təbiətdə azad iradənin təsirini görürük və dərk edirik ki, canlı olan hər şey yorulmadan iş görən vahid Yaradan və

Hakimdən asılıdır.” (Kelvin 1871; həmçinin bax: Seeger 1985a, 100-101.)

Lord Kelvin (Uilyam Tomson) “Təbii fəlsəfəyə dair giriş kursu”nun birinci mühazirəsində deyirdi:

“Biz hiss edirik ki, yaradılışın ahəngdarlığının və tamlığının qorunub saxlanması üçün Yaradan tərəfindən müəyyənləşdirilmiş qanunları dərk etmək qabiliyyəti Onun bizim şüurumuza verdiyi ən böyük imtiyazdır.

Tanrının möcüzəvi əməllərini nə qədər çox dərk ediriksə, onlar haqqında düşünərkən və onları Fikirləşənə yaxınlaşmağa çalışarkən Onun qarşısında ehtiram və səcdəmiz bir o qədər güclü olur.” (Kelvin, sitat: Seeger 1985a, 99-100.)

Yuniversiti - Kollecdə edilmiş çıxışdan (1903-cü il): *“Öz düşüncələrinizə azadlıq verməkdən qorxmayın. Əgər siz, həqiqətən də, düşünən insansınızsa, elm sizi mütləq Tanrıya inama gətirib çıxaracaq.”* (Kelvin, sitat: Yahya 2002.)

“Ateizm ideyası o qədər mənasızdır ki, mən onu ifadə etmək üçün söz də tapa bilmirəm.” (Lord Kelvin Vict. Inst., 124, p. 267, sitat: Bowden 1982, 218.)

Müraciətində (23 may 1889-cu il): *“Çoxdan fikir vermişdim, elm aləminin hüdudlarından kənarda belə bir fikir mövcuddur ki, guya elm Yaradan haqqında bütün anlayışları məhv edərək, Təbiətin bütün hadisələrinin izahını verməyə nail olub. Həmişə əmin olmuşam ki, bu cür təsəvvür tamamilə əsassızdır.”* (Kelvin 1889.)

“Elm cəmiyyətimiz üçün çox az şey edə bilər. Ancaq o, həddindən artıq əhəmiyyətli olan bir şeyi edə bilər, daha dəqiq desək, sübut edə bilər ki, bizi əhatə edən cansız materiya aləmində və canlı aləmdə gördüyümüz hər şey heç də atomların təsadüfi birləşməsinin nəticəsi deyil.” (Kelvin 1889.)

Cozef Con Tomson (1856-1940)
Elektronu Kəşf Edən Fizika Üzrə Nobel Mükafatı Laureatı; Atom Fizikasının Banisi


COZEF CON TOMSON

Elektronun mövcudluğunu ilk dəfə (1897) müəyyən edən Cozef Con Tomson Kembric Universitetinin fizika professoru idi. Əsl İmanlı olan Tomson bəyan edirdi ki, elmin nailiyyətləri Allahın varlığını təsdiqləyir:

"Elm qalasının qülləsinin başından böyük İlahi əməllər görünür".

(www.leaderu.com/offices/schaefer/docs/scientists.html)

Məşhur “Nature” elmi jurnalı (*Nature*, 26 avqust 1909) Cozef Con Tomsonun Britaniya assosiasiyasının prezidenti vəzifəsinə keçərkən çıxış etdiyi nitqi dərc edilib. Ser Cozef müraciətinin sonunda demişdi:

“Bir-birinin ardınca zirvələri fəth edirik və qarşımızda cəlbedici və gözəl mənzərələr açılır, lakin biz məqsədi görmürük, üfüqü görmürük. Uzaqda yeni-yeni zirvələr görünür ki, onların fatehlərinin də qarşısında daha geniş üfüqlər açılacaq. Fəth edilmiş hər yeni zirvə istənilən elmi kəşfin sübut etdiyi bir fikri

dərinləşdirir: "Tanrının əməlləri böyükdür."" (Thomson 1909, *Nature*, vol. 81, p. 257)

Ser Ouen Riçardson (Fizika üzrə Nobel mükafatı laureatı, 1928-ci il) öz müəllimi və dostu Cozef Con Tomsonu belə təsvir edirdi: *"Dərindən dindar olan, ...hər gün evdə diz çöküb dua edən - ömrünün sonunadək xanım Tomsondan başqa, heç kimin bilmədiyi bir vərdişi olan bir insan idi."*

(Ricardson 1970, "Sir Joseph J. Thomson", in *The Dictionary of National Biography*, Oxford University Press, p. 862.)

Reymond Ziger (Milli Elm Fondunun tədqiqatçısı) "Cozef Con Tomson, anqlikan" adlı bioqrafik məqaləsində qeyd edirdi:

"Tomson bir müəllim kimi mütəmadi olaraq kollecin ibadətgahında bazar günü ayininə qatılırdı, kollecin rəhbəri kimi isə səhər ayininə də gedirdi... Cozef Con Tomsonun öz şəxsi həyatındakı dini fəaliyyətinə gəldikdə isə, o, hər gün diz çökərək dua edirdi." (Seeger 1986, 132.)

Ser Uilyam Haggins (1824-1910)



SER UİLYAM HAGGİNS

Dindar insan və gözəl astronom olan Ser Uilyam Haggins özündə Yerdə mövcud olan elementlərin əksəriyyətini ehtiva edən ulduzların, əsasən, hidrogendən ibarət olduqlarını kəşf etdi. Eyni zamanda, Ser Uilyam Haggins ilk dəfə kainatın genişlənməsini sübut etmək üçün Doppler effektini izah etdi (ulduzlar bir-birindən uzaqlaşdıqca işıq şüalanmasının spektrin qırmızı hissəsindən göyə doğru yerini dəyişməsi).

(Henry M. Morris, Men of Science Men of God, s. 73.)



Hər hansı bir qalaktikanın işıq dalğalarının spektri onun Yerdən uzaqlığından asılı olaraq Doppler effektinə uyğun şəkildə dəyişir. Şəkildə bu dəyişikliklərin xarakteri göstərilib. Bu mühüm kəşfi edən Ser Uilyam Haggins dindar adam idi.

Ceyms Klerk Maksvell (1831-1879)
Statik Termodinamikanın Banisi


CEYMS KLERK MAKSVELL

Qısa ömür yaşamasına baxmayaraq, Ceyms Klerk Maksvell elmə mühüm bir töhfə verdi. Müasir fizikanın banilərindən biri hesab edilən Ceyms Klerk Maksvell işıqla elektrikin bir-birindən qarşılıqlı şəkildə asılı olduğunu göstərdi. İşıq, elektrik və maqnetizm kimi hadisələri bir-birinə bağlamaq tənliyin birində ona nəsib oldu.

Eynşteyn özünün nisbilik nəzəriyyəsi üzərində işləyərkən bu alimin tənliyindən istifadə etmişdi. O, Ceyms Klerk Maksvellin uğurlarını Nyutonun zamanından etibarən ən cəsarətli və uğurlu sınaq kimi qiymətləndirmişdi. Ceyms Klerk Maksvell həmçinin dindar idi. Təkamül nəzəriyyəsini qəbul etməyən Ceyms Klerk Maksvell fransız ateist alimi Laplasın məşhur kosmoqonik hipotezasına etirazını bildirdi, həmçinin Darvinin tərəfdarı olan təkamülçü-filosof Herbert Spenserə qarşı kəskin tənqidlə çıxış etdi.

Ceyms Klerk Maksvell öz məktublarının birində deyirdi ki, *Allaha inanan alim öz tədqiqatlarını dinin xeyrinə aparmalıdır.*

(Dan Graves, Scientists of Faith, Kregel Resources, 1996, s. 153.)

"Britaniya Ensiklopediyası"nda (1997) Maksvellə həsr olunmuş məqalədə deyilir: "Müasir fiziklərin əksəriyyəti qəbul edir ki, XIX əsrdə yaşamış Ceyms Klerk Maksvell XX əsrin fizikasına çox böyük təsir göstərib. Fizikanın inkişafına verdiyi əsaslı töhfələrə görə, Maksvellin adı çox vaxt Ser İsaak Nyuton və Albert Eynşteynlə yanaşı çəkilir."

"İnsanı... Yaradan, Səni axtara bilməsi və Sənin yaratdıqların üzərində hökmranlıq edə bilməsi üçün ona ruh verən Qadir Tanrı, bizə Sənin əllərinin əsəri olan hər şeyi başa düşməyi öyrət ki, öz faydamız üçün torpağı becərək, Sənə xidmət etmək üçün şüurumuzu gücləndirək və bununla da, Sənin xeyir-duanı alaq." (Maksvell, sitat: Bowden 1998, 288; həmçinin: Williams and Mulfinger 1974, 487.)

Maksvell həyat yoldaşına məktubunda (Dekabr 1873-cü il) yazırdı: *"Mən həmişə ruhən sənin yanındayam, amma sənə də, mənə də bir-birimizə nə vaxtsa ola biləcəyimizdən qat-qat yaxın olan Biri var. Biz yalnız Onun vasitəsilə bir-birimizi, həqiqətən də, dərk edirik."*

(Maksvell, sitat: Campbell and Garnett 1882, 387.)

Həyat yoldaşına məktubundan (23 İyun 1864-cü il): *"Tanrının Onun lütfünə sığınan və Onun nemətini qəbul etməyə hazır olan kəslər üçün nə hazırladığını bir düşün."* (Maksvell, sitat: Campbell and Garnett 1882, 338-339.)

Con Stratt (1842-1919)

Con Stratt elektromaqnit dalğalarının tədqiqi ilə məşğul idi, o, həmçinin akustika, qaz dinamikası və digər elm sahələrinin problemlərinin həllinə

böyük töhfə verdi. Con Stratt arqonu və digər nadir qazları kəşf etdi. Öz dindarlığı ilə tanınan alim əsərlərinin birində yazırdı: *"Allahın işləri böyükdür!"* (Henry M. Morris, Men of Science Men of God, s.79.)

Corc Vaşinqton Karver (1865-1943)

CORC VAŞİNQTON KARVER

XIX əsrin 80-ci illərindən başlayaraq aqronomiya elmin çox vacib sahəsi oldu. Karver məhz bu sahədəki kəşfləri ilə məşhurlaşan alim idi.

Hər kəs Karveri dindar insan kimi tanıyırdı. O, öz çıxışlarında müzakirə edilən mövzunu dinlə əlaqələndirməyi bacarırdı. "Atlanta" jurnalında dərc edilən müsahibələrinin birində ona gilin əsasında icad etdiyi rəng haqda verilən suala cavab olaraq Karver bəyan edirdi:

"Mənim etdiyim yeganə şey odur ki, Allahın yaratdığını insanların istifadə edə biləcəyi hala gətirdim. Bu, mənim icadım deyil. Bu, Allahın ixtirasıdır". (Gene Adair, George Washington Carver, s.82,83, http://www.bemorecreative.com/one/431.htm)

Ser Ceyms Cins (1877-1946)

Görkəmli fizik Ser Ceyms Cins kainatın sonsuz bilik sahibi olan Yaradan tərəfindən xəlq edildiyinə inanırdı. Onun fikirlərinin mənasını açıb göstərən ifadələrindən bəzilərini misal gətirək:

"Biz kainatdakı məqsədi və onun icra edilməsinə nəzarət edən Qüvvənin təzahürünü kəşf etdik".

(Sir James Jeans, in his Rede Lecture at Cambridge, The Times, London, 5 Kasım 1930.)

SER CEYMS CİNS

"Kainatın elmi cəhətdən tədqiq edilməsinin nəticəsini bir ifadə ilə belə ümumiləşdirmək olar: kainatı sonsuz biliyə sahib olan bir Varlıq layihələndirmişdir".

(Sir James Jeans, The Mysterious Universe, New York: Macmillan Co., 1932/ Cambridge, England: University Press, 1932 s.140.)

Albert Eynşteyn (1879-1955)
Fizika Üzrə Nobel Mükafatı Laureatı


ALBERT EYNŞTEYN

Bizim dövrün ən görkəmli alimlərindən biri Albert Eynşteyn, eyni zamanda, dindar idi. O, təsdiq edirdi ki, elm dindən ayrı inkişaf edə bilməz. Bu sözlər ona məxsusdur:

"Mən dərin inama malik olmayan əsl alim təsəvvür edə bilmərəm. Bunu belə ifadə etmək də olar: dinsiz elm topaldır". (Einstein, Science, Philosophy and Religion, A Symposium, Conference on Science yayını, Philosophy and Religion in Their Relation to the Democratic Way of Life, Inc., New York, 1941)

Albert Eynşteyn güman edirdi ki, *kainatdakı möcüzəvi nizam təsadüfən əmələ gələ bilməz və bizi əhatə edən dünyanı yüksək zəkaya malik olan Yaradan xəlq edib.*

Eynşteyn bəyan edirdi ki, *təbiəti öyrənən hər kəsin içində müəyyən dini itaətkarlıq hissi doğulmalıdır.* (1920; alıntı: Moszkowski, Conversations with Einstein, s. 46)

O, həmçinin deyirdi: *"Elmlə ciddi məşğul olan hər kəs əmin olur ki, təbiətin qanunlarında müəyyən ruh var və bu ruh insandan yüksəkdir. Bu səbəblə elmlə məşğul olmaq insanı dinə gətirir".*

(Letter to a child who asked if scientists pray, January 24, 1936; Einstein Archive 42-601)

Albert Eynşteynin elmə bu münasibəti onun növbəti sözlərindən də aşkar edilir:

"Din hissi nə vaxt itsə, elm ilhamı olmayan eksperimentlərə çevrilir".

(Letter to Maurice Solovine,1 Ocak, 1951; Einstein Archive 21-174, 80-871, Solovine'de yayınlandı, s. 119)

Albert Eynşteyn tarixin ən görkəmli alimlərindən biridir. O, öz kəşfləri ilə yanaşı, dərin dindarlığı ilə də tanınır.

Şəkildə: Eynşteyn Parisdə mühazirə oxuduğu zaman bəyan etdi ki, elmi dinsiz təsəvvür etmək mümkün deyil.

"Mən Tanrının dünyanı necə yaratdığını bilmək istəyirəm. Bu və ya digər ünsürün spektrində bu və ya digər hallar mənə maraqlı deyil. Mən Onun düşüncələrini bilmək istəyirəm, yerdə qalan isə təfərrüatlardır."

(Sitat: Ronald Clark, *Einstein: The Life and Times*, London, Hodder and Stoughton Ltd., 1973, 33.)

"Biz müxtəlif dillərdə çox sayda kitabların olduğu nəhəng bir kitabxanaya düşmüş uşağa bənzəyirik. Uşaq bu kitabları kiminsə yazdığını bilir, amma onların necə yazıldığını bilmir. O, həmin kitabların yazıldığı dilləri başa düşmür. Uşaq kitabların düzülüşündə hansısa mistik ardıcıllığın olduğunu dumanlı şəkildə ehtimal edir, amma bu ardıcıllığın nədən ibarət olduğunu bilmir.

Mənə elə gəlir ki, hətta ən müdrik insan da Tanrı qarşısında məhz belə görünür. Biz kainatın heyrətamiz şəkildə qurulduğunu və müəyyən qanunlara tabe olduğunu görürük, amma bu qanunları çətinliklə başa düşürük. Bizim məhdud əqlimiz bürcləri hərəkətə gətirən sirli qüvvəni dərk etməyə qadir deyil." (Sitat: Denis Brian, *Einstein: A Life*, New York, John Wiley and Sons, 1996, 186.)

"Əgər iudaizmi (peyğəmbərlərin moizə etdiyi formada) və xristianlığı (İsa Məsihin moizə etdiyi formada) sonrakı əlavələrdən, əsasən də keşişlərin etdiyi əlavələrdən təmizləsək, yerdə bəşəriyyətin bütün sosial xəstəliklərini sağaltmağa qadir olan bir təlim qalar. Və hər bir xoşməramlı insanın borcu öz kiçik dünyasında təkidlə, gücü çatdığı qədər bu təmiz bəşəriyyət təliminin yenidən həyata qaytarılması uğrunda mübarizə aparmaqdır."

(*Albert Einstein, Ideas and Opinions*, New York, Bonanza Books, 1954, 184-185.)

"Nəticə etibarilə, məgər hər iki dinin fanatikləri iudaizmlə xristianlıq arasındakı fərqləri şişirtmirdilərmi? Biz hamımız Tanrının iradəsinə əsasən yaşayırıq və demək olar ki, eyni mənəvi qabiliyyətləri inkişaf etdiririk. Yəhudi, yaxud bütpərəst, qul, yaxud azad insan - biz hamımız Tanrıya məxsusuq."

(Sitat: H.G. Garbedian, Albert Einstein: Maker of Universes, New York, Funk and Wagnalls Co., 1939, 267.)

"Elmlə ciddi məşğul olan hər kəs bunu dərk edir ki, təbiət qanunlarında bəşəriyyətdən qat-qat üstün olan bir Ruh (qüvvə) özünü göstərir. Biz öz məhdud qüvvələrimizlə bu Ruhun qarşısında öz zəifliyimizi hiss etməliyik. Bu mənada, elmi axtarışlar xüsusi növ dini hissə gətirib çıxarır ki, bu hiss də, həqiqətən, nisbətən məsum olan dindarlıqdan çox şeydə fərqlənir."

(Eynşteynin 1936-cı ildə səsləndirdiyi fikri. Sitat: Dukas and Hoffmann, *Albert Einstein: The Human Side*, Princeton University Press, 1979, 33.)

"İnsan Təbiətin sirlərinə nə qədər dərindən nüfuz edirsə, Tanrını bir o qədər çox xatırlayır." (Sitat: Brian 1996, 119.)

"İnsanın alnına yazılan ən gözəl və dərin həyəcan sirr duyğusudur. O, əsl elmin əsasında dayanır. Bu duyğunu hiss etməyən, bu heyranlığa qapılmayan kəs, demək olar ki, ölüdür. Kainatın dərkedilməzliyində özünü büruzə verən Ali Şüurlu Qüvvənin mövcudluğuna dərindən və emosional şəkildə əmin olmaq, Mənim Tanrı ideyam budur." (Sitat: Libby Anfinsen 1995)

"Mənim dinim bizim öz ağlımızla yalnız qismən əhatə və dərk edə bildiyimiz dünyanın təsvirinin ən kiçik təfərrüatlarında özünü büruzə verən sonsuz şüurluluq qarşısında təvazökarcasına heyranlıq hissimdən ibarətdir."

(Eynşteynin 1936-cı ildə səsləndirdiyi fikri. Sitat: Dukas and Hoffmann 1979, 66.)

"Mən dünyanı nə qədər çox tədqiq edirəmsə, Tanrıya inamım bir o qədər güclənir." (Sitat: Holt 1997)

Maks Yammer (fəxri fizika professoru, "Eynşteyn və Din" *(Einstein and Religion, 2002)* bioqrafik kitabının müəllifi) iddia edir ki, Eynşteynin olduqca məşhur olan ***"Dinsiz elm axsaq, elmsiz din kordur"*** fikri dahi alimin dini fəlsəfəsinin kvintisensiyasıdır. (Jammer 2002, Einstein 1967, 30.)

"... Dini ənənələrdə bütün niyyət və mülahizələrimizdə əldə rəhbər tutmalı olduğumuz ali prinsiplərə rast gəlirik. Bu ali məqsədə çatmaq üçün bizim zəif qüvvələrimiz kifayət etmir. Amma o, bizim bütün niyyət və mülahizələrimizin etibarlı əsasını təşkil edir."

(Albert Einstein, Out of My Later Years, New Jersey, Littlefield, Adams and Co., 1967, 27.)

"Mənim, hətta öz məhdud şüurumla yenə də qavramağa qadir olduğum kosmosun bütün ahəngdarlığına baxmayaraq, yenə də Tanrının olmadığını iddia edənlər tapılır. Amma məni hər şeydən çox qıcıqlandıran odur ki, onlar öz baxışlarını dəstəkləmək üçün məndən sitat gətirirlər."

(Sitat: Clark 1973, 400, Jammer 2002, 97.)

Eynşteyn fanatik ateistlər haqqında yazırdı:

"Fanatik Ateistlər də var ki, onların dözümsüzlüyü din fanatiklərinin dözümsüzlüyü ilə oxşardır və bu, eyni mənbədən qaynaqlanır. Onlar ağır mübarizədən sonra atılmış zəncirlərin əzabını hələ də hiss edən qullara bənzəyirlər. Onlar "xalq üçün tiryək"ə qarşı üsyan edirlər. Onlar üçün sferaların musiqisi dözülməzdir.

Təbiətin möcüzəsi, onun insan mənəviyyatı və insan məqsədləri ilə ölçülməsinin mümkün olmasından dolayı azalmır."

(Sitat: Max Jammer, Einstein and Religion: Physics and Theology, Princeton University Press, 2002, 97)

"Həqiqi din - əsl həyatdır. Bütün qəlblə yaşamaq, bütün mərhəməti və insafı ilə yaşamaqdır." (Sitat: Garbedian 1939, 267.)

"Elmin bütün böyük nailiyyətlərinin arxasında dünyanın məntiqi quruluşuna və dərk edilən olmasına əminlik dayanır. Bu əminlik dini həyəcanla oxşardır... Kainatın dərk edilməzliyində özünü nüruzə verən ali şüurlu qüvvənin mövcudluğuna dərindən və emosional şəkildə əmin olmaq. Mənim Tanrı ideyam budur." (Einstein 1973, 255.)

"Gərgin əqli fəaliyyət və Tanrının təbiətinin öyrənilməsi, bu həyatın bütün əziyyətlərinə tab gətirməkdə mənə kömək edəcək, təsəlli, güc və inadkarlıq verəcək mələklər bunlardır." (Sitat: Calaprice 2000, ch. 1.)

Corc Lemetr (1894-1966)

Corc Lemetr kainatın yaradılma faktını müdafiə edən böyük partlayış nəzəriyyəsini yaratdı. O, hesab edirdi ki, bu dünyanın əvvəli olub və onu son gözləyir və bu bilgi əksər insanların Yaradana inanmasına xidmət edəcək. İman edən insan olan Corc Lemetr güman edirdi ki, din və elm bəşəriyyəti sonda eyni həqiqətlərə gətirib çıxaracaq.

(Dan Graves, Scientists of Faith, Kregel Resources, 1996, s. 159)

CORC LEMETR



Şəkildə: Albert Eynşteynin böyük partlayış nəzəriyyəsini irəli sürən, kainatın yaradılma faktını müdafiə edən dindar insan Corc Lemetrlə görüşü.



SER ELİSTER HARDİ

Ser Elister Hardi (1896-1985)

Ser Elister Hardi müasir okeanologiyanın banisidir. Öz fəaliyyəti ilə dinin yayılmasına yardım göstərən alimlərə mükafat verən Templton Fondu bu sahədəki fəaliyyət və xidmətlərinə görə, 1985-ci ildə Ser Elister Hardini də mükafatlandırdı.

(http://www.templeton.org/Prize/)

Verner fon Braun (1912-1977)

VERNER FON BRAUN

Verner fon Braun kosmosun bütün dünya üzrə tanınmış tədqiqatçılarından biridir. Verner fon Braun İkinci Dünya Müharibəsi illərində alman raket proqramının rəhbəri idi və məşhur V-2 raketini yaratmışdı.

Doktor Verner fon Brauna Amerika Kosmik Agentliyi NASA-nın direktoru olmaq da nəsib olmuşdu. O, eyni zamanda, dindar idi. Verner fon Braun kainatda mövcud olan yaradılış və layihə haqda bunları söyləyib:

"İnsanın səyləri ilə kosmosa uçuşu həyata keçirmək fövqəladə qələbədir. Ancaq kosmos insana öz qapılarının yalnız kiçik hissəsini açır. Hətta bu kiçik çatdan olsa belə kainatın böyük sirlərinə tamaşa etmək sözsüz ki, bizim Yaradana olan inamımızı təsdiqləyir. Böyük Zəkanı inkar edən alimi və inkişafda olan elmi inkar edən imanlı insanı başa düşmək mənə çox çətin gəlir". (Henry M. Morris, Men of Science Men of God, Master Books, 1992, s. 85)

Şəkildə:

Doktor Braun və ABŞ prezidenti Con Fitscerald Kennedi.

Alim deyirdi ki, o, Allahı inkar edən alimləri başa düşmür.

Verner fon Braun 1974-cü ilin may ayında dərc edilmiş məqaləsində yazırdı:

"İnsan bu kainatda səbəb və məqsədin olduğunu dərk etmədən kainatda hökm sürən qayda-qanunla üzbəüz qala bilməz. Biz kainatın və onda məskunlaşmış hər şeyin heyrətamiz cizgilərini daha yaxşı tanımaqla bu məqsəd və onun üçün həyata keçmiş səbəb qarşısında məftun olmaq üçün daha çox səbəb tapdıq... Kainatda hər şeyin təsadüfən yaranmasına inanmağa məcbur etmək yalnız elmin obyektivliyinin və qərəzsizliyinin itməsinə gətirib çıxarır. İnsan beyninin və ya insan gözünün əmələ gəlməsinə hansı təsadüfi hadisə səbəb ola bilər?".

(Dennis R. Petersen, Unlocking the Mysteries of Creation, Creation Resource Foundation: El Dorado, California, 1990, s. 63.)



İkinci dünya müharibəsi zamanı Verner von Braun (şəkildə sarıqlı əlli) alman raket proqramına rəhbərlik edirdi və V-2 raketini yaratdı (soldakı şəkildə). Doktor Braun kosmosun ən tanınmış tədqiqatçılarından biridir.

Maks Plank (1858-1947)
Fizika Üzrə Nobel Mükafatı Laureatı


MAKS PLANK

Görkəmli alman fiziki Maks Plank onun adını daşıyan fiziki konstantanı kəşf edib. Berlin Universitetinin professoru olan Maks Plank 1900-cü illərdə bəyan etdi ki, şüa çay axınına bənzər daimi axın xarakteri daşımır, ancaq onun daha çox yağış damlalarının şüşəyə dəyməsi ilə oxşarlığı var. Maks Plankdan əvvəl alimlər belə hesab edirdilər ki, işığın hərəkəti dalğavarı xarakterlidir. Hər işıq zərrəciyinin cərəyana malik olduğunu kəşf edən Maks Plank isə bu daşıyıcılara fotonlar adını verdi. "Foton" anlayışı fizikada inqilaba çevrildi. Aydın oldu ki, işıq tək səsə bənzər dalğa kimi deyil, həm də zərrəciklər şəklində yayılır.

Bir çox mühüm kəşflərin müəllifi olan Maks Plank sonsuz güc və bilik sahibi olan Allahın dünyanı idarə etdiyinə inanırdı. Kainatdakı qaydaları Allah-Təalanın yaratdığını təsdiq edən Maks Plank öz inamını bu sözlərlə ifadə edirdi:

"Elmin hər hansı bir sahəsi ilə maraqlanan onun məbədinə girməzdən

əvvəl bu yazını oxumalıdır: "İman et. İman hər alimin ayrılmaz xüsusiyyətidir"". (Max Planck, Where Is Science Going?, Allen & Unwin, 1933, p.214)

Plank "Din və təbiətşünaslıq" adlı məşhur məruzəsində yazırdı: *"Din də, təbiətşünaslıq da Tanrıya inama ehtiyac duyur, özü də din üçün Tanrı istənilən düşüncədən əvvəldə dayanır, təbiətşünaslıq üçün isə axırda. O, bəziləri üçün təməl, bəziləri üçün isə istənilən dünyagörüşü prinsiplərinin quruluş zirvəsi deməkdir."* (Plank M. Din və Təbiətşünaslıq//Fəlsəfə məsələləri. - N8 - 1990. - s. 35.)

"Din insanın Tanrı ilə əlaqəsidir. O, insan həyatının tabe olduğu və bizim rifahımızı və əzablarımızı öz hakimiyyəti altında saxlayan ilahi qüvvə qarşısında mömin qorxusuna əsaslanır. "Öz niyyətlərində bu qüvvə ilə uzlaşma tapmaq, onun rəhmətini qazanmaq" - dindar insanın əbədi niyyəti və ali məqsədi bax budur. Çünki o, yalnız bu cür özünü bu həyatda onu gözləyən (görünən və görünməyən) təhlükələrdən qorunmuş hiss edə, öz qəlbində daxili aləmi ilə bağlı olan və yalnız Tanrı ilə möhkəm bağlılıqla və Onun qadirliyinə şəksiz inamla təmin oluna bilən ən saf xoşbəxtliyə nail ola bilər." (Plank, yenə orada. - s. 27.)

Plank "Din və Təbiətşünaslıq" (1937-ci ilin mayı) məruzəsini tamamlayarkən demişdi: *"Skeptisizm və ehkamçılığa, imansızlıq və mövhumata qarşı din və təbiətşünaslığın birgə apardığı mübarizəni yorulmadan və aramsız olaraq davam etdirmək lazımdır. Bu mübarizədə məqsədi göstərən şüar isə həmişə bunu ifadə edib və edəcək: Tanrıya doğru!"* (Plank, yenə orada. - s. 36.)

"Belə hallarda dini məqsədyönlü yalan və mənsəbpərəst keşişlərin uydurması elan edən, yuxarıdakı ali qüvvəyə mömin inamını yalnız istehzalı sözlərlə qarşılayan ateist hərəkatının ciddi-cəhdlə təbiət elmlərinin idrakından istifadə etməsinə, guya onunla birlikdə getdikcə daha da sürətlə bütün yer üzündə xalqların bütün təbəqələrinə pozucu təsir göstərməyə davam etməsinə təəccüblənmək lazım deyil. Ətraflı izah etməyimə ehtiyac yoxdur ki, bu hərəkatın qələbəsi ilə məhv olan qurbanlar təkcə mədəniyyətimizin ən dəyərli xəzinələri deyil, həm də daha da pisi, daha yaxşı gələcəyə ümidlər ola bilərdi." (Plank, yenə orada. - s. 27.)

İkinci dünya müharibəsi zamanı, 1945-ci ilin fevralında Plankın həyatında faciə baş verdi. Onun oğlu Ervin Hitlerə qarşı baş tutmayan sui-qəsddə iştirak etdiyinə görə faşistlər tərəfindən edam edildi. 1945-ci ilin mart ayında Plank öz dostu Anton Kippenberqə yazırdı:

"Əgər, ümumiyyətlə, təsəlli varsa, onu əbədiyyətdə tapmaq olar. Məndə uşaqlıqdan əbədiyyətə inamın dərindən kök salmasını göylərin mərhəməti hesab edirəm. Qoy Tanrı səni yaşamağa məcbur olduğumuz bu dəlilik sona çatana kimi bizi gözləyən hər şeydən qorusun və möhkəmləndirsin."

(Sitat: Heilbron 1986, 195-196.)

(Dindar insan buna belə cavab verir ki,) *"Tanrı hələ insan yer üzünə gəlməzdən əvvəl mövcud olub və O, əsrlər boyu imanlı və imansız insanları Öz qadir əllərində saxlayıb, O, insan düşüncəsi üçün əlçatmaz olan yüksəklikdə durur və Yer öz üzərindəki hər şeylə birlikdə xarabalığa*

çevriləndə də orada duracaq. Həqiqi dindar insanlara yalnız və yalnız o kəslər özlərini aid edə bilərlər ki, bu imana etiqad etsinlər və bu inamla da özlərini Qadir Tanrı tərəfindən həyatın bütün təhlükələrindən qorunmuş hiss etsinlər, Ona hörmət etsinlər və Ona hədsiz dərəcədə etibar etsinlər."

(Plank M. Din və Təbiətşünaslıq//Fəlsəfə məsələləri. - N8 - 1990. - s. 30.)

Əsas işlərindən biri olan "Elm hara gedir?" (1932) əsərində Plank qeyd edirdi:

"Dinlə elmi bir-birinə qarşı qoymaq olmaz, çünki onlar bir-birini tamamlayır. Yəqin ki, hər bir ciddi və düşüncəli insan dərk edir ki, onun təbiətinin tərkibi olan dini hissəsini qəbul etmək və inkişaf etdirmək vacibdir. Bu məqsədlə ki, insan qəlbinin bütün qüvvələri mükəmməl bir ahəngdarlıqda qovuşsun. Təsadüfi deyil ki, bütün dövrlərin ən dahi mütəfəkkirləri qatı dindar insanlar olublar." (Planck 1977, 168.)

"Bir fizik kimi, daha doğrusu, bütün ömrünü tamamilə nəsr elminə, materiyanın tədqiqinə həsr etmiş bir insan kimi, məni heç kim xəyalpərəst adlandırmaz. Mən atomu tədqiq etmişəm və deyə bilərəm ki, öz-özünə materiya olmur. Bütüm materiya yalnız hissəcikləri hərəkətə gətirən və onları ən kiçik günəş sistemi, atom şəklində saxlayan bir qüvvə sayəsində yaranıb və mövcuddur. Amma bütün kainatda nə şüurlu, nə də əbədi enerji olmadığına görə, belə ehtimal etməliyik ki, bu enerjinin arxasında şüura və özünüdərkə malik olan bir Ruh dayanır. Bu Ruh da elə bütün materiyanın ilkin səbəbidir!" (Sitat: Eggenstein 1984, Part I; həmçinin bax: "Materialistic Science on the Wrong Track".)

Müşahidəçinin "Necə hesab edirsiniz, şüuru materiya nöqteyi - nəzərindən izah etmək olarmı?" sualına Maks Plank belə cavab verir:

"Xeyr, mən şüuru ilkin hesab edirəm. Materiyanı şüurdan törəmə kimi nəzərdən keçirirəm. Şüurdan yan keçmək mümkün deyil. Nədən danışmağımızdan və nəyi mövcud hesab etməyimizdən asılı olmayaraq, hər şey şüurun ilkin olduğunu postulat kimi qəbul etdirir." (Sitat: de Purucker 1940, ch. 13.)

Plank ölümdən sonra həyata və bizim dünyamızdan daha yüksəkdə duran başqa dünyanın, belə ki, həmişə sığınacaq tapa biləcəyimiz və tapdığımız bir dünyanın mövcudluğuna inanırdı. (Sitat: Heilbron 1986, 197.)

Elmlə dinin bir-birini tamamlayan münasibətləri haqqında Plank yazırdı:

"*Biri o birini istisna etmir. Onlar bir-birini qarşılıqlı şəkildə tamamlayaraq birləşirlər. Elm insana dərk etmə aləti kimi, din isə fəaliyyətdə əldə rəhbər tutmaq üçün lazımdır."* (Sitat: Schaefer 1983, 84.)

Çarlz Koulson (1910-1974)


ÇARLZ KOULSON

Uzun illər Oksford Universitetinin riyaziyyat üzrə professoru olmuş Çarlz Koulson bir çox çıxışlarında Allaha inamını bəyan edirdi. Bundan əlavə, Çarlz Koulson tez-tez Allaha yaxınlaşmaq cəhdi, Allah-Təalaya dua etməyin vacibliyi və həyatının məqsədinin Yaradanı tanımaq olması haqda söhbət açırdı. (Charles Coulson, Science and Christian Belief, s.72-73)

KEÇMİŞDƏ YAŞAMIŞ DİGƏR ALLAHA İNANAN ALİMLƏR

Bu siyahıda adı çəkilən insanlar yaradılış həqiqətini müdafiə etməklə elmə böyük töhfələr vermişlər. Belə alimlərin olması bir daha sübut edir ki, yaradılışa inam heç də elmə zidd deyil, hətta əksinə, onun irəliləməsi üçün stimul verir.

Leonardo da Vinçi (1452-1519)
İncəsənət, mühəndislik, memarlıq
Georgias Aqrikola (1494-1555)
Mədən mühəndisliyi
Con Uilkins (1614-1672)
Astronomiya və mexanika
Uolter Çarlton (1619-1707)
Kral fizika məktəbinin direktoru
İsaak Barrou (1630-1677)
Riyaziyyat professoru
Nikolas Steno (1631-1686)
Geologiya
Tomas Barnet (1635-1715)
Geologiya
İnkris Mater (1639-1723)
Astronomiya
Nehemiya Tru (1641-1712)
Təbabət

Uilyam Uiston (1667-1752)
Fizika, geologiya
Con Hatçinson (1674-1737)
Paleontologiya
Conatan Edvards (1703-1758)
Fizika, meteorologiya
Riçard Kirvan (1733-1812)
Mineralogiya
Timoti Dvayt (1752-1817)
Pedaqogika
Ceyms Parkinson (1755-1824)
Təbabət
Uilyam Kirbi (1759-1859)
Entomologiya
Bencamin Barton (1766-1815)
Botanika, zoologiya
Con Dalton (1766-1844)
Müasir nüvə nəzəriyyəsinin banisi

Çarlz Bell (1774-1842)
Anatomiya
Con Kidd (1775-1851)
Kimya
İohann Karl Fridrix Qauss (1777-1855)
Analiz, həndəsə, geologiya, astronomiya, maqnetizm hadisəsi
Bencamin Silliman (1779-1864)
Mineralogiya
Piter Mark Rocet (1779-1869)
Fiziologiya
Uilyam Bakland (1784-1856)
Geologiya
Uilyam Praut (1785-1850)
Kimya
Edvard Hiçkok (1793-1864)
Geologiya
Uilyam Uivell (1794-1866)
Astronomiya və fizika
Riçard Ouen (1804-1892)
Zoologiya, paleontologiya
Mettyu Mauri (1806-1873)
Okeanologiya və hidrologiya
Henri Rocers (1808-1866)
Geologiya
Ceyms Qleyşer (1809-1903)
Meteorologiya
Filipp Q.Qosse (1810-1888)
Ornitologiya, zoologiya
Ser Henri Roulinson (1810-1895)
Arxeologiya
Con Embruoz Fleminq (1849-1945)
Elektronika
Ser Cozef Henri Gilbert (1817-1901)
Aqronomik kimya
Tomas Anderson (1819-1874)
Kimya
Çarlz P.Smit (1819-1900)
Astronomiya
Con V.Douson (1820-1899)
Geologiya

Henri Fabr (1823-1915)
Entomologiya
Bern Rimann (1826-1866)
Həndəsə
Cozef Lister (1827-1912)
Cərrahiyyə
Con Bell Pettiqryu (1834-1908)
Anatomiya, fiziologiya
Balfur Stüart (1812-1887)
İonosferin elektrik sahəsi fizikası
P.G.Tayt (1831-1901)
Fizika, riyaziyyat
Edvard Uilyam Morli (1838-1923)
Fizika sahəsində Nobel mükafatı laureatı
Ser Uilyam Ebni (1843-1920)
Astronomiya
Aleksander Mak-Alister (1844-1919)
Astronomiya
A.H.Seys (1845-1933)
Arxeologiya
Ceyms Dana (1813-1895)
Geologiya
Corc Romans (1848-1894)
Biologiya və fiziologiya
Uilyam Mitçel Ramsey (1851-1939)
Arxeologiya
Uilyam Ramsey (1852-1916)
Kimya
Hovard A.Kelli (1858-1943)
Ginekologiya
Duqlas Dyuar (1875-1957)
Ornitologiya
Pop Lemuan (1878-1940)
Geologiya
Çarlz Stayn (1882-1954)
Üzvi kimya
Rendell Şort (1885-1955)
Təbabət
L.Merson Devis (1890-1960)
Geologiya, paleontologiya
Ser Sesil P.Q.Ueykli (1892-1979)
Təbabət

GÜNÜMÜZÜN ALLAHA İNANAN ALİMLƏRİ

XX yüzillikdə elmin böyük inkişafı qeydə alınıb. Əsrlərdən qalma əksər sirlər açılıb və xeyli irəliləyən elm yaradılış həqiqətinin aşkarlığını göstərib.

Hər yeni elmi kəşf mükəmməl layihənin, planın, hər canlı orqanizmdə, hətta cansız təbiətin hər obyektində nizamın mövcudluğunu daha çox sübut əsasında göstərir. Bu kəşflərin bilavasitə şahidi olmuş alimlərin bir çoxu kainatdakı bu layihənin qüdrətli Allahın - hədsiz bilik sahibinin yaratdığının bəhrəsi olduğunu görüb dərk etdilər. Buna görə də indi bu insanlar kainatın yaradılışı faktını etiraf edən mövqedədirlər.

Bu gün bir çox ölkələrdə Allaha inanan alimlərin təməlini qoyduğu bir neçə ciddi akademik təşkilat fəaliyyət göstərir. Bu elmi təşkilatlar kainatdakı mükəmməl layihənin mövcudluğunun gələcəkdə aşkar edilməsi üçün fəal işlər görürlər.

İndi isə öz elmi nailiyyətləri sayəsində tanınmış və Yaradana inamı təbliğ edən bəzi müasir alimlər haqda danışaq.

Doktor Henri Frits Şefer

Şefer Corciya ştatı Universitetinin kimya professoru və Kvant kimya mərkəzinin direktorudur. Nobel mükafatı almaq üçün namizədliyi beş dəfə irəli sürülən Şeferi onun elmi nailiyyətlərinin etirafı nöqteyi-nəzərindən dünyada üçüncü kimyaçı hesab edirlər. Alim və dindar Şefer öz elmi tədqiqatlarının məqsədinin Allahı dərk etmək olduğunu ifadə edərkən belə deyir:

"Elmin mənasını dərk edən hər kəs onun mənə bəxş etdiyi ləzzəti də anlayar. O, başa düşər ki, mən: "Bu, Allahın yaratdığıdır", - dedikdə nə hiss edirəm". (Jeffrey L. Sheler and Joannie M. Schrof, The Creation, US News & World Report, 23 Aralık 1991.)


DOKTOR HENRİ FRİTS ŞEFER

İsaak Başevis Zinger
Ədəbiyyat Üzrə Nobel Mükafatı Laureatı

İSAAK BAŞEVİS ZİNGER

Günümüzün görkəmli fiziki İsaak Başevis Zinger təkamülü inkar edən və Allaha inanan alimdir. O, öz mühazirələrinin birində darvinizmi tənqid edərək bu maraqlı hekayəni misal gətirmişdir:

"Alimlər indiyə qədər insan ayağı dəyməmiş kimsəsiz bir adanı kəşf etdilər. Bu adaya düşən ilk insanlar buranın

təbiətindən və həyatından heyrətə gəldilər. Heyvanlarla dolu olan və heç zaman odun qıran, ağacları kəsən insanlar görməyən meşələr onlara sarsıdıcı təsir bağışlamışdı. Alimlər dağın dik döşünə qalxaraq ətrafa nəzər yetirdilər. Adada sivilizasiyanın izi belə yox idi. Onlar gəmiyə dönərkən qəflətən qumun üstündə son modeldən olan gözəl bir qol saatı tapdılar. Saat çox gözəl işləyirdi. Alimlər təşvişə düşdülər. Bu saat haradan çıxdı? Onlar dəqiq bilirdilər ki, onlardan əvvəl adaya insan ayağı dəyməyib. Belə halda, yeganə variant qalır: bahalı dəri qayışı, bahalı şüşəsi, saatı və dəqiqəni göstərən əqrəbləri, batareyası və başqa detalları olan bu saat adada öz-özünə, təsadüfən yaranıb və hansısa yolla bu qumda yerləşdirilib. Bu gümanın alternativi yox idi!"

Zinger hekayənin sonunda təkamülçülərin uydurmasına aydınlıq gətirmək üçün dedi: *"Hər saatın onu düzəldən saatsazı var."*

(Taşkın Tuna, Sonsuz Uzaylar, s.31)

Kainatdakı hər canlı və cansız varlıq özündə müəyyən yüksək mənanı daşıyır. Buna görə də kainat fenomenlərinin heç birini təsadüfə aid etmək olmaz. Həyatda hər şeyi uca və qüdrətli Yaradan xəlq edib. Zinger kimi müasir alimlərin əsərləri kainatda hökm sürən nizamın mükəmməlliyini dərk edərək insanlara kainatdakı hər şeyi Allahın yaratdığını göstərirlər.

Zingerin Nobel mühazirəsindən (8 dekabr, 1978-ci il):

"Mən heç vaxt kainatımızın fiziki, yaxud kimyəvi təsadüf və ya kor-koranə təkamülün nəticəsi olması ilə razılaşmayacağam. Hərçənd mən insan şüurunun törətdiyi yalanı, bayağılığı və bütləri ayırd etməyi öyrənmişəm, amma yenə də gec-tez hamının qəbul edəcəyinə inandığım bəzi həqiqətlərə sadiqəm. İnsanın təbiətin ona verə bildiyi bütün mümkün sevincləri, bütün qüvvə və bilikləri ala biləcəyi və bu zaman Tanrıya sözlə deyil, işlə özünü göstərən və söz ehtiyatı kosmos olan Tanrıya xidmət edə biləcəyi bir yol olmalıdır." (Singer 1979)

"Mən skeptikəm. Daha yaxşı dünyanın yaradılması ideyasına şübhə ilə yanaşıram. Əgər siz bu və ya digər rejimin, bu və ya digər ictimai qaydanın insanlara xoşbəxtlik gətirəcəyini desəniz, mən inanmayacağam. Mən hansı sözlərlə ifadə edilməsindən asılı olmayaraq, bunun heç vaxt baş verməyəcəyini bilirəm. İnsanlar həmişə insan olacaqlar; onlar kommunizmdə də, bütün digər "-izmlər"də də insan olaraq qalmışdılar.

Lakin söhbət Tanrıya inamdan gedəndə mən skeptik olmağı bir kənara qoyuram. Mən Yaradılışın arxasında gizlənən hansısa niyyətin, şüurun olmasına, hər şeyin təsadüfən baş vermədiyinə həmişə inanmışam və inanıram." (Sitat: The Brothers Singer by Clive Sinclair, London, Allison and Busby, 1983, p.30.)

Zingerin sonuncu müsahibəsindən (1987-ci il):

"Hər şeyin arxasında Tanrı dayanır. Hətta biz Onun iradəsinə zidd

gedəndə belə, O, yenə də bizi tərk etmir. Nə baş verirsə-versin, O, övladlarının özlərini axmaqcasına pis aparan bir ata kimi davranır. O, övladlarına qəzəblənir, onları cəzalandırır. Lakin onlar yenə də Onun övladları olaraq qalırlar." (Sitat: Green 1998.)

"İnsan mərhəmət diləyir, lakin özü başqalarına münasibətdə mərhəmət göstərmək istəmir. Bəs onda onun Tanrıdan mərhəmət gözləməyinə dəyərmi? İnsanın özünün göstərməyə hazır olmadığı bir şeyi gözləməsi ədalətsizdir. Bu cür davrananlar özləri özlərinə qarşı çıxırlar." (Sitat: Rosen 1987.)

"Bizim dövrdə əsl yazıçı öz nəslinin problemlərinə qarşı laqeyd ola bilməz. O həm də dinin, xüsusən də, vəhyə inamın bəşəriyyət tarixində həmişəkindən daha zəif olduğunu görməyə bilməz. Getdikcə daha çox uşaqlar Tanrıya, mükafata və cəzaya, qəlbin ölümsüzlüyünə və hətta etik prinsiplərə inanmayaraq böyüyürlər. Əsl yazıçı ailənin mənəvi əsaslarının məhv olmasına göz yuma bilməz.

Osvald Şpenqlerin bəd proqnozları İkinci dünya müharibəsindən başlayaraq gerçəkləşməyə başladı. Texnikanın heç bir nailiyyəti müasir insanın məyusluğunu, onun tənhalığını, öz natamamlığını hiss etməsini, müharibə, inqilab və terror qorxusunu azaltmayacaq. Bizim nəsil nəinki İlahi təqdirə inamını, hətta insanın özünə, onun institutlarına, çox vaxt, hətta ən yaxın adamlarına olan inamını itirib." (Singer 1979.)

"Maddi dünya görmə qabiliyyəti ilə korluğun vəhdətidir. Biz korluğu şeytan adlandırırq. Əgər hamı görə bilsəydi, bizdə seçim azadlığı qalmazdı, çünki Tanrını, Onun böyüklüyünü görməklə biz artıq nə tamahın, nə də günahın nə olduğunu bilməzdik. Tanrı da bizdə iradə azadlığının olmasını istədiyi üçün şeytan, başqa sözlə, şər prinsipi də mövcud olmalıdır. Seçim azadlığı nədir? Bu, xeyirlə şər arasında seçim etmək azadlığıdır. Əgər şər yoxdursa, onda azadlıq da yoxdur." (Sitat: Farrell 1976, 157.)

"Həyat Tanrının yazdığı romandır. O zaman Onun yazmağına imkan verin." (Sitat: Moraes 1975.)

Professor Malkolm Daneken Uintis

Hyuttin və Şimali-Qərb universitetlərinin tibb professoru olan Malkolm Daneken Uintis inanır ki, kainat da insan kimi qüdrətli Yaradan tərəfindən xəlq edilib. O, öz inamını bu sözlərlə şərh edir:

"Fiziki metodlara arxalanaraq deyə bilərik ki, yerin və göylərin bütün sirlərinin, bütün formaları ilə insan həyatının və nəhayət, bütün yüksək qabiliyyətləri ilə insanın öz-özünə, təsadüfən yaranması ideyasından təəccüblü və mənasız heç nə yoxdur. Belə halda, biz deməliyik ki, kainatı idarə edən var, bütün bunların arxasında Yaradan durur. İnsan ətrafdakı bütün yaradılanlarla müqayisədə daha ali quruluşa malik olduğu üçün Yaradanı dərk etməyə çalışmalıdır".

(John Clover Monsma, The Evidence Of God In Expanding Universe, s. 182-183)

Uilyam Fillips
Fizika Üzrə Nobel Mükafatı Laureatı

UİLYAM FİLLİPS

Uilyam Fillips (1948) fizika üzrə Nobel mükafatına 1997-ci ildə "Atomların lazer şüası ilə soyudulması və tutulması metodlarının yaradılmasına görə" layiq görülüb. Bundan başqa, 1998-ci ildə Fillips lazer tədqiqatlarında əldə etdiyi nailiyyətlərə görə Artur Şavlov mükafatına da layiq görülüb. Bu gün o, görkəmli fiziklərdən biri və eyni zamanda, dindar insandır. O, Nobel mükafatı ilə təltif edildikdən sonra mətbuat konfransındakı çıxışında belə deyib:

"Allah bizə yaşamaq və Onu dərk etmək üçün gözəl aləm bəxş edib".

(www.leaderu.com/offices/schaefer/docs/scientists.html)

"Mən Tanrıya inanıram. Bundan əlavə, mən yaradılışın daxilində qüvvədə olan və yaradılışla qarşılıqlı təsirdə olan real mövcud olan Tanrıya inanıram. İnanıram ki, müşahidə etdiyimiz fiziki kainatın qayda-qanunu və həyatın inkişafı üçün vacib olan bütün şərtlərin dəqiq "incə quruluşu" şüurlu Yaradan işarə edir. Mənim Tanrıya olaninamım fərdi inamdır, mənim elm haqqında bildiklərimlə tamamilə uyğun gələn bir inamdır." (Philiips 2002b.)

Doktor Fillips "Elm və Mənəvi Axtarış" konfransında (20 aprel 2002, Paris) oxuduğu mühazirəsində deyirdi:

"Əksər alimlər ənənəvi dini əqidələrə sadiq qalırlar. Mən fizikəm və özümü bu cür alimlərə aid edirəm. Mən Yaradan və Dost olan bir Tanrıya inanıram. Başqa sözlə, mən Tanrının bir şəxsiyyət olduğuna və Onun bizimlə ünsiyyətdə olduğuna inanıram." (Phillips 2002a.)

"Sizin fikrinizcə, elmlə din arasında münasibətlər necə olmalıdır? Və niyə belə hesab edirsiniz?" sualına cavabında professor Fillips deyib: *"Bu, elə bir çətin sualdır ki, ona başqaları - məndən daha ağıllı olanlar - bütöv kitablar həsr ediblər. Ümumilikdə, mən hesab edirəm ki, elm və din fərqli suallarla məşğul olur və fərqli (amma tamamilə fərqli olmayan) metodlardan istifadə edir. Elm kainatın necə quruluşa malik olduğuna, onun necə inkişaf etdiyinə və bu kimi digər suallara cavab axtarır. Din isə ali məna, insanlar arasında və insanlarla Tanrı arasında qarşılıqlı münasibətlərin necə olmalı olduğuna dair suallara cavab verir. Elə sahələr var ki, dini və əxlaqi qərarlar elmi faktlara əsaslanmalıdır. Mən həm də inanıram ki, Tanrı biz yaradılışı müşahidə edərkən bizim qarşımızda qismən açılır."* (Phillips 2002b.)

1998-ci il Martın 6-da Uilyam Fillips və Stiven Hokinq Ağ evdə keçirilən "Millennium" mühazirələr dövriyyəsində iştirak edirdilər. "Doktor Fillips, kainat, ümumiyyətlə, niyə qanunlara tabe olur?" sualına Uilyam Fillips belə cavab verdi: *"Bax bu, çox yaxşı sualdır. Bu sual artıq çoxdan alimlərə və yəqin ki, filosoflara və ilahiyyatçılara rahatlıq vermir. Və bu, olduqca*

diqqətəlayiqdir. Professor Hokinqin haqqında danışdığı bütün heyrətamiz şeyləri, əslində, cəmi bir neçə nisbətən sadə tənliklərlə təsvir etmək olar, sonra isə mürəkkəb riyaziyyata müraciət etməli olacağıq. Niyə kainat bu qədər sadədir? Niyə o, riyazi qanunlara tabe olur? Bu məsələdə müxtəlif fərziyyələr irəli sürülüb və mümkün cavablardan biri ondan ibarətdir ki, əgər kainat, heç olmasa, bir az başqa cür olsaydı, o zaman biz olmazdıq.

Daha doğrusu, əgər kainat qanunları başqa cür olsaydı və yaxud qanunlar, ümumiyyətlə, mövcud olmasaydı, o zaman həyatın meydana gəlməsi qeyri-mümkün olardı. Biz də yaranmazdıq və bu sualı verə bilməzdik.

Bəzən "antrop prinsip" adlandırılan şey də elə budur. Yəqin ki, bu, təkcə insana deyil, həm də yaranması hətta qeyri-mümkün ola bilən amöbə də aiddir. Digər tərəfdən, birinci sualdan o qədər də fərqlənməyən başqa bir cavab da var. Əgər siz mənim kimi imanlı insansınızsa, onda belə cavab verməlisiniz ki, Tanrı kainatı bu cür yaratmağa qərar verdiyi üçün, bizim məhz bu yolla yaranmağımızı və inkişaf etməyimizi istədiyi üçün kainatımız müəyyən qanunlara tabe olur. Əlbəttə, bu, fəlsəfi və ilahiyyatçı cavabdır və o, elmi nəticələrdən daha çox imanla əlaqəlidir, amma bu cavab mənə çox yaxındır və mən hesab edirəm ki, bu iki cavab arasındakı fərq o qədər də böyük deyil." (Phillips 1998a.)

"Mən həddindən artıq inanıram ki, Tanrı - şəxsiyyətdir və mənim imanımın əsasında bu əqidə yatır." (Sitat: Witham 2001.)

"Mənim fikrimcə, adi alim olmaqla adi inanclı olmaq tamamilə təbii bir şeydir. Və tanıdığım əksər digər alimlər və dərin imana malik olan insanlar üçün də bu, tamamilə təbii şeydir." (Sitat: Christie 2002.)

"Din bizə bir-birimizə necə münasibət göstərməyimizi öyrədir, elm isə Tanrının kainatı necə yaratdığını göstərir." (Phillips 1999.)

"Elmdə bəzi şeyləri Tanrının iştirakı olmadan izah etmək sadəcə mümkün deyil." (Sitat: Witham 2001.)

Uilyam Fillips Amerika Elmi Cəmiyyətinin 54-cü illik iclasında (1999-cu ilin avqustu, Con Braun Universiteti, Arkanzas) iki mühazirə oxumuşdu: "Tanrının mərhəmətinin elmi və texnoloji sübutları" və "Demək olar ki, tam sıfır: Lazer soyudulmasının və tutulmasının tarixçəsi." (Phillips 1999.)

"Zənnimcə, Nobel mükafatı laureatları arasında ilk baxışda göründüyündən də çox imanlı insanlar var. Amma, adətən, insanlar peşələrindən asılı olmayaraq, öz dini əqidələrini nümayiş etdirməyi lazım bilmirlər, çünki bu məsələ həddindən artıq şəxsidir." (Phillips 2002c.)

Doktor Fillips hesab edir ki, elm bizə yalnız Tanrıya aparan yolu göstərə bilər, lakin Tanrının mahiyyətini dini kitabın izah etdiyi kimi izah etməyə qadir deyil: *"Təsəvvür etmək çətindir ki, elm hansısa yolla bizimlə şəxsi münasibətlər qurmaq istəyən, bizi sevən və bizim bir-birimizi sevməyimizi istəyən və Müqəddəs Kitabda yazılmış müdrikliyi ilə bizə Öz iradəsini göstərən Tanrının mahiyyətini göstərmiş olsun."* (Sitat: Witham 2001.)

Professor Deil Svartzendruber

DEİL SVARTZENDRUBER

Ayova ştatı Universitetində doktorluq dissertasiyasını müdafiə etmiş professor Svartzendruber Kaliforniya Universitetində torpaqşünaslıqdan dərs deyir və eyni zamanda, Amerika Torpaqşünaslıq İnstitutunun əməkdaşıdır.O, kainatın təsadüfən deyil, Allah tərəfindən yaradıldığı fikrini bu sözlərlə ifadə edir:

"Şübhəsiz, başımızın üstündəki göylər və ayaqlarımızın altındakı yer özündə plan və məqsəd daşıyır. Bu planı və məqsədi həyata keçirən qüvvəni, yəni sonsuz Yaradanı inkar etməyə çalışmaq məntiq və ağıl normalarını qəbul etməmək deməkdir. Bu təzadlı vəziyyət yayda buğda dənizini xatırladan ağırlaşmış buğda sünbüllərini görən, ancaq haradasa bu yaxınlarda bu sahəni şumlayıb ora toxum səpən kəndlini inkar edən insanın düşdüyü təzadlı vəziyyətdən də yolverilməz bir vəziyyətdir".

(John Clover Monsma, The Evidence Of God In Expanding Universe, s. 191)

Buğda səpilmiş sahəni görən insan onu səpən fermerin mövcudluğuna heç vaxt şübhə ilə yanaşmaz. Professor Uilyam Dreyper bildirir ki, kainatdakı mövcud plan və məqsədi, həmçinin bu plan və məqsədi həyata keçirən Yaradanı inkar etmək əkinçinin olduğunu inkar etməkdən çox böyük məntiqi təzaddır.

Uilyam Dembski

UİLYAM DEMBSKİ

Müasir dövrün riyaziyyatçısı Uilyam Dembskinin tədqiqatları fəlsəfə və ilahiyyat problemlərini geniş əhatə edir. Uilyam Dembski təsbit edir ki, elm dünyanı anlamaq üçün mövcuddur, alimlər isə yalnız Yaradanın xəlq etdiklərinin tədqiqatçılarıdır. Uilyam Dembskinin fikirlərini xarakterizə edən bəzi misalları göstərək:

"Dünya Allahın yaratmasıdır. Alimlər isə onu

anlamağa cəhd edərək Yaradanın fikirlərini təkrar edirlər. Alimlər yaradıcı deyil, yalnız İlahi ideyaların ilk kəşf edənləridir.

...Yaradılan həmişə öz Yaradanının sübutudur".

(William Dembski, The Act of Creation, Bridging Transcendence and Immanence, sunum: Millstatt Forum, Strasbourg, France, 10 Ağustos 1998)

Professor Stiven Meyer



STİVEN MEYER

"Whitworth" Universitetində fəlsəfə professoru olan Meyer dövrümüzün yaradılışa inanan və bu mövzuda bir çox əsəri olan elm adamlarındandır. Kainatın şüurlu bir layihənin əsəri olduğu haqqındakı sözlərindən bir neçə belədir:

"İddia edirəm ki, nə təsadüflər, nə prebiyotik təbii seleksiya və nə də fiziki-kimyəvi gərəklilik ilk hüceyrədəki bilginin qaynağını açıqlaya bilər".

(Stephen C. Meyer, Tasarım ve Köken konulu "Mere Creation:Reclaiming the Book of Nature-Conference" adlı konferansta "The Explanatory Power of Design: DNA and the Origin of Information" başlıklı konuşmasından alınma, Biola University, 14-17 Kasım 1996.)

Professor Uolter F. Bredli

Bredli Texas Universitetinin mexanika mühəndisliyi professoru və "Həyatın mənşəyinin sirri" kitabının müəlliflərindən biridir.

Canlı orqanizmlərin, cansız təbiət obyektlərinin və bütövlüklə kainatın müəyyən bir ideyanın həyata keçməsinin ifadəsi olduğunu təsbit edən Bredli addımbaşı rastlaşdığımız sübutları gətirir. O, Yaradana inamı haqda belə deyir:

"1987-ci ilin yazında Kornel Universitetində olanda mənim orada din və elm haqqında mühazirəm oldu. Bu mühazirədə mən Yaradanın mövcudluğunu elmi dəlillərlə təsdiqlədim".

(http://www.leaderu.com/real/ri9403/evidence.html)

UOLTER F. BREDLİ

Bredlinin daha bir fikri belədir:

"Şüurlu Yaradanın olması ilə bağlı inkaredilməz və aşkar sübutlar var".

(http://www.leaderu.com/real/ri9403/evidence.html)

Professor İrl Çester Reks

Vaşinqton və Cənubi Kaliforniya universitetlərinin professoru olan Reks müəllimlik fəaliyyəti ilə məşğuldur və eyni zamanda, Amerika Fizika İnstitutunun əməkdaşıdır. Kainatın Allah tərəfindən yaradıldığına və Onun tərəfindən də idarə edildiyinə inanan Reks deyir:

"Bütün varlığın yaranmasını izah edən və kainatdakı mövcud qanunları müəyyən edən müasir nəzəriyyələr Allahı inkar etmək ideyasına malikdirsə, çox tezliklə qaranlıq və dolaşıq dalanlara düşür. Şəxsən mən Yaradana inanıram və etiraf edirəm ki, bütün varlıq Onun iradəsindədir".

(.John Clover Monsma, The Evidence Of God In Expanding Universe, s. 181)

Doktor Allan Sendeyc

Bu günün tanınmış astronomlarından və dünyanı Allahın yaratdığı dini konsepsiyasının həqiqiliyini etiraf edənlərdən biridir. 1998-ci ildə "Newsweek" jurnalının üz qabığına çıxarılmış "Elm Allahnı tapır" başlıqlı müsahibəsində Sendeyc dini qəbul etməsini belə izah edir:


ALLAN SENDEYC

"Məni bu qənaətə dünyanın qeyri-adi və elm üçün, demək olar ki, əlçatmaz olan mürəkkəbliyi gətirdi. Mən varlığın sirlərini yalnız etiqadın köməyi ilə anlaya bilərəm."

(Newsweek, 27 Temmuz 1998, s.46)

Professor Sesil Boys Hamann

Sentluis Universitetinin biologiya professoru Sesil Hamann həmçinin Haysberri Universitetində biologiyanı tədris edir və zəmanəmizin əqidəli iman edən alimlərindən biridir. Hamann öz etiqadı haqda belə danışır:

"Elmin hər hansı bir sahəsinə diqqət yetirirdimsə, hər yerdə uca Yaradanın mövcudluğunu göstərən bənzərsiz qanunları və qanunauyğunluqları görürdüm. Mən yaradılışın heyrətamiz nümunələrinin şahidi idim. Bəli, mən də Allaha inanıram və etiraf edirəm ki, O, bütün varlığa həyat bəxş edib və bu həyat Onun himayəsi altındadır. Allahın qüdrəti hər şeyə yetər. Yalnız bu qədər deyil. Mən təsdiq edirəm ki, insan

adlanan canlının hər bir zərrəsi Onun nəzarəti, himayəsi və mühafizəsi altındadır". (John Clover Monsma, The Evidence Of God In Expanding Universe, s. 219)

Professor Pol Ernest Adolf


POL ERNEST ADOLF

Müqəddəs İohann Universitetinin professoru və Amerika Cərrahlar Cəmiyyətinin üzvü Pol Ernest Adolf uzun illər elmlə məşğul olduqdan sonra Yaradana etiqad etmişdir. Professor Ernest Adolf bu haqda belə deyir:

"Mən, şübhəsiz ki, Allaha inanıram. Məni bu etiqada məşğul olduğum elm sahəsi yönəltdi və etiqadımı möhkəmləndirdi..."

Budur, mən suala cavab verirəm: "Bəli, varlığın Yaradanı var".. (A.g.e,s. 212)

Professor Laster Con Zimmerman

Bordo Universitetində doktorluq dissertasiyasını müdafiə edən və Koşen Universitetində aqronomiya və riyaziyyatdan dərs deyən professor Zimmerman Allaha etiqadını bu sözlərlə bəyan edir:

"Heç bir şübhə yoxdur ki, hər şey uca Allahın iradəsi ilə yaranıb. O, hər şeyi əvvəlcədən müəyyən etdi və hər şeyə yol göstərdi. Mənim torpaq və bitkilərlə bağlı tədqiqatlarım dərinləşdikcə Allaha etiqadım da dərinləşir".

(A.g.e, s. 196)

Enriko Medi

ENRİKO MEDİ

Enriko Medi tanınmış italyan alimidir. O, 1971-ci ildə Romada beynəlxalq konfransda çıxış edərək alim kimi qarşılaşmağa məcbur olduğu möcüzələr haqda danışdı. Medi öz düşüncələrinə bu cür yekun vurur:

"Zaman və məkandan əlavə bütün varlığın bu cür, yəni olduğu kimi olması üçün daha bir səbəb var... Bu, yaradıcı Allahdır".

(Internatıonal Cathechetıcal Congress Of Rome, 20-25/09/1971, Roma, Stadium, (Bu kongre ile ilgili tutanakların 449-450. sayfaları.) http://www.its.caltech.edu/~newman/sci-cp/sci85073.html)

Professor Ueyn Ault

Professor Ueyn Ault Kolumbiya Universitetində doktorluq dissertasiyasını müdafiə edib və Nyu-Yorkda geokimyəvi laboratoriyanın rəhbəri vəzifəsində çalışıb. Professor Ueyn Ault elmi tədqiqatların Allaha etiqadı möhkəmləndirməsi məsələsi ilə bağlı fikir yürüdərkən bir dəfə belə demişdi:

"Şübhəsiz ki, idrak pillələri ilə irəliləmək və şeylərin yaranmasının səbəblərini və şəraitini anlamaq arzusu insan şüurunun ən böyük və ən vacib keyfiyyətlərindəndir. Kainatın yaranma faktını etiraf edən və inamla öz tədqiqatlarına başlayan alim bu tədqiqatların gedişində onun inamını gücləndirən sübutlarla mütləq qarşılaşacaq".

(John Clover Monsma, The Evidence Of God In Expanding Universe, s. 211)

Professor Maykl P. Girouard

MAYKL P. GİROUARD

Cənubi Luizana Universitetinin biologiya professoru Maykl P. Girouard həyatın təsadüfən yaranmasının mümkün olmadığını təsdiq edən alimlərdən biridir. O, həmçinin hüceyrə və zülalın yüksək dərəcədə mürəkkəb və mükəmməl quruluşunun Allah tərəfindən yaradıldığını deyir:

Professor Maykl P. Girouard 1998-ci il iyulun 5-də Türkiyədə "Elmi Araşdırma Fondu"nun təşkil etdiyi "Təkamül Nəzəriyyəsinin İflası: Yaradılış Həqiqəti" adlı II beynəlxalq konfransda iştirak etdi. Professor Maykl P. Girouard bu konfransda "Həyatın təsadüfən yaranması mümkündürmü?" mövzusunda məruzə ilə çıxış etdi. O, öz nöqteyi-nəzərini şərh edərək və onu elmi sübutlarla əsaslandıraraq nitqini belə bitirdi:

"Canlı orqanizmlərin quruluşu laboratoriya sınaqları nəticəsində alınmış orqanizmlərdən güclü şəkildə fərqlənir və olduqca mürəkkəbdir. Biz fizika və kimya qanunlarını araşdırdıqda və bu suala dair öz şərhlərimizi verməyə cəhd etdikdə fizika və kimya qanunları bizə:

"Mütləq şüurlu məna olmalıdır, informasiyanı nizama salan yaradıcı Allah mütləq mövcuddur", - deyə bildirirlər. Bu izahat bu gün üçün ən elmi şərhdir. Fizikanın və kimyanın qanunları başqa bir şeyi də təsbit edirlər: həyatın cansız materiyadan təkamül yolu ilə yaranması mümkün deyil. Bu, təkcə mənim elmi cəhətdən əsaslandırılmış nitqimin sonu yox, eyni zamanda, təkamül nəzəriyyəsinin iflasıdır".

Professor Edvard Budro

EDVARD BUDRO

Nyu-Orlean Universitetinin kimya üzrə professoru Edvard Budro əmindir ki, Allah kimyəvi elementləri həyatı yaratmaq üçün nizama salıb.

Bu alim 1998-ci ildə İstanbulda "Təkamül Nəzəriyyəsinin İflası: Yaradılış Həqiqəti" mövzusunda təşkil olunmuş konfransın ikinci hissəsində iştirak etdi. O, "Kimyada Layihə" adlanan məruzəsində deyirdi:

"Bizim yaşadığımız dünya və onun qanunları insan həyatı üçün ən münasib formada Allah tərəfindən yaradılıb."

Professor Kennet Kamminq


KENNET KAMMİNQ

ABŞ-da Yerin yaradılışının öyrənilməsi institutunun əməkdaşı, biologiya və paleontologiya sahələri üzrə dünya şöhrətli professor Kennet Kamminq təkamül nəzəriyyəsinə qarşı çıxır və Allahın mövcudluğuna inanır. O, deyir:

"Düşünürəm ki, bu məsələ ilə bağlı çoxsaylı sübutlar bu nəzəriyyənin gərəksizliyini aşkar etdi. Təkamülü müdafiə edən sübutları təkzib etmək və bu ideyanın iflasının açıq-aşkar olduğunu nəzərə çatdırmaq lazımdır. Ətrafımızda gördüyümüz hər şey, yaradılışın hər ən kiçik zərrəsi belə özlərinin bütün variasiyaları ilə birlikdə və bütövlükdə yüksək və mütləq bilik sahibi olan Allah tərəfindən yaradılıb".

(4 Nisan 1998 tarihinde Istanbul'da Bilim Araştırma Vakfı tarafından düzenlenen "Evrim Teorisinin Çöküşü: Yaratılış Gerçeği" isimli I. Uluslararası Konferansta, Prof. Kenneth Cumming'in konuşması)

Professor Karl Flirmans

KARL FLİRMANS

Bu gün ABŞ-ın ən tanınmış alimlərindən biri olan Karl Flirmans İndiana Universitetinin mikrobiologiya professorudur. Professor Karl Flirmans ABŞ Müdafiə Nazirliyi tərəfindən də dəstəklənən və kimyəvi tullantıların bakteriyaların köməyi ilə neytrallaşdırılması imkanlarını araşdıran tədqiqatlara rəhbərlik edir. Karl Flirmans İstanbulda "Təkamül Nəzəriyyəsinin İflası:

Yaradılış Həqiqəti" mövzusu üzrə keçirilən konfransdakı çıxışında darvinizmi biokimya nöqteyi-nəzərindən təkzib edərək deyirdi:

"Müasir biokimya sübut etdi ki, canlı orqanizmlər təkamül nəticəsində yaranmamışdır, onlar özlüyündə İlahi yaradılış faktını sübut edirlər".

Professor Devid Menton

DEVİD MENTON

Vaşinqton Universitetində anatomiyanı tədris edən professor Devid Menton Allaha etiqadını bu sözlərlə ifadə edir: *"Artıq 30 ildir ki, mən anatomiya ilə məşğulam. Mən hər tədqiqatımda bir həqiqətlə qarşılaşmışam: hər şey mükəmməl İlahi yaradılışın sayəsində mövcuddur."*

(5 Temmuz 1998 tarihinde Istanbul'da Bilim Araştırma Vakfı tarafından düzenlenen "Evrim Teorisinin Çöküşü: Yaratılış Gerçeği" adlı II. Uluslararası Konferansta Prof. David Menton'ın konuşması)

Professor Con Morris

CON MORRİS

Tanınmış geoloq, professor Con Morris kainatın İlahi yaradılış olması ideyasını müdafiə edən alimlərin yaratdığı ən fəal elmi təşkilatın – İCR-nin (İnstitute for Creation Research - Yaradılış Araşdırmaları İnstitutu) direktorudur. Çıxışlarının birində professor Con Morris Allaha etiqadını və elmin təkamül nəzəriyyəsini təkzib etdiyini belə bəyan etdi:

"Biz, doktorlar və professorlar dindar insanlarıq, Allaha inanırıq. Biz həqiqətən güman edirik ki, Allah var. Yaradıcı Allah həyatımızın asılı olduğu və bizim tabe olmalı olduğumuz varlıqdır. Bəşəriyyət öz mövcudluğuna görə Ona borcludur və buna görə yaşamalıdır ki, O, bizdən razı olsun".

(5 Temmuz 1998 tarihinde Istanbul'da Bilim Araştırma Vakfı tarafından düzenlenen "Evrim Teorisinin Çöküşü: Yaratılış Gerçeği" adlı II. Uluslararası Konferansta Prof. John Morris'in konuşması.)

Artur Pikok

ARTUR PİKOK

Tanınmış biokimyaçı və Yan Ramsey Mərkəzinin rəhbəri Artur Pikok Rəbbinə inamı haqda belə deyir:

"Allah hər şeyi yaradır və yaradılışın hər bir anında iştirak edir. O, əbədi və əzəlidir, çünki Onun yoxluğu heç vaxt olmayıb və gələcəkdə də olmayacaq".

(Sir John Templeton, Evidence of Purpose - Scientists Discover the Creator, Continuum, New York 1994, s.103)

Professor Albert Makkombs Vinçester

Albert Makkombs Texas Universitetində doktorluq dissertasiyasını müdafiə edərək Peylor Universitetinin biologiya üzrə professoru və Florida Elmlər Akademiyasının sədri oldu. Elmi tədqiqatlarının onun Allaha etiqadını möhkəmləndirdiyi haqda danışan Uinstis deyirdi:

"Mən insan biliyinin müxtəlif sahələrində işləmişəm və xeyli illəri bu məşğuliyyətə vermişəm. Mən səmimiyyətlə bəyan edə bilərəm ki, elmdə mənim Allaha inamımı zəiflədən, onu tərəddüdə sövq edən heç nə ilə qarşılaşmadım. Biliyimiz nə qədər artırsa, Allahın yaratdıqlarını nə qədər yaxşı dərk ediriksə, Rəbbimizin mövcudluğuna inamımız da bir o qədər möhkəmlənir". (John Clover Monsma, The Evidence Of God In Expanding Universe, s. 165)

Mehdi Qolşani

Tehran Universitetinin fizika professoru Mehdi Qolşani "Newsweek" jurnalına müsahibəsində etiqad və elmi tədqiqatların dinlə vəhdəti haqqında belə deyirdi:

"Təbiət hadisələri Allahın kainatdakı varlığının izləridir. Onları öyrənmək demək olar ki, dini borcdur. Quranda insanlara buyurulur: "Yer üzündə gəzin və görün ki, Biz sizi necə yaratmışıq". Tədqiqat ibadət işidir, çünki onun gedişində İlahi yaradılışın mükəmməlliyi daha da aydın olur".

(Newsweek, 27 Temmuz 1998, s. 49)

MEHDİ QOLŞANİ

Professor Edvin Faust

Professor Faust Oklahoma Universitetində doktorluq dissertasiyasını müdafiə edib və orada fizikanı tədris edir. Bu alim güman edir ki, kainat və canlı orqanizmlər maddənin inşaat materialı olan atomların lazımi kombinasiyalarda öz-özünə birləşməsi nəticəsində yarana bilməzlər. O, deyir:

"Allah bütün varlığı xəlq edən Yaradandır. Bu sözlər sadədir, lakin özlərində böyük məna daşıyırlar, çünki onlar əsl Allahın böyüklüyünü və müqəddəsliyini əks etdirirlər".

(John Clover Monsma, The Evidence Of God In Expanding Universe, s. 155)

Çarlz Hard Tauns
Fizika Üzrə Nobel Mükafatı Laureatı

ÇARLZ HARD TAUNS

Lazeri kəşf etmiş Çarlz Hard Tauns tədqiqatlarını Berkli Universitetində davam etdirir. O, Allaha etiqadı haqqında belə deyir:

"Mən dindar insan kimi Yaradanın varlığına və onun bütün kainata təsir etdiyinə dərindən inanıram."

(Newsweek, 27 Temmuz 1998, s.49)

"Tanrının mövcudluğu barədə nə düşünürsünüz?" sualına - Çarlz Tauns belə cavab verirdi: "Mən intuisiyaya, müşahidələrə, məntiqə və elmi biliklərə əsaslanaraq, Tanrının mövcudluğuna əminəm." (Townes 2002a.)

"Elm təcrübələrdən və məntiqdən istifadə edərək Kainatın qayda-qanunlarını və strukturunu başa düşməyə çalışır. Din ilahiyyatçı ilhamdan və düşüncədən istifadə edərək Kainatın məqsədini və mənasını dərk etməyə çalışır. Elm və din qarşılıqlı əlaqədədir. Məqsəd strukturu təyin edir, struktur isə hansısa yolla məqsədlə izah olunmalıdır.

Ən azından, mən bunu belə görürəm. Mən fizikəm. Bundan başqa, mən inanclı biriyəm. Kainatın təbiətini bu iki mövqedən başa düşməyə çalışıram və mən elmin dinlə çoxlu kəsişmə nöqtəsini görürəm. Mən, hətta nəticə etibarilə onların bir-biri ilə qovuşacağını da məntiqli hesab edirəm."

(Townes 2001, 296.)

Avtobioqrafik əsərində Çarlz Tauns yazır:

"Kimsə soruşa bilər: Bəs Tanrının buna nə aidiyyəti var?

Ola bilər ki, siz bu kitabda özünüz üçün hansısa məsləhətlər tapacaqsınız, amma mənim üçün bu məsələnin, demək olar ki, mənası yoxdur. Əgər siz, ümumiyyətlə, Tanrıya inanırsınızsa, onda bu sual sadəcə ortaya çıxa bilməz - Tanrı həmişə, hər yerdə, hər şeydə mövcuddur. Mənim üçün Tanrı - bir şəxsiyyətdir və eyni zamanda, O, hər yerdə mövcuddur. O, mənim üçün böyük

qüvvə mənbəyidir və həyatımı tamamilə dəyişib."

(Townes, Making Waves. New York: American İnstitute of Physics Press, 1995.)

"Elmi kəşf güclü emosional sarsıntı ilə müşayiət olunur, bu isə, mənim zənnimcə, bəzilərinin dini həyəcan, vəhy adlandıra biləcəyi bir şeyə bərabərdir.

Əslində, mən vəhyi insanın nə olduğunu və onun kainatla, Tanrı ilə, başqa insanlarla necə əlaqəli olduğunu qəfil dərk etmək kimi təsvir edərdim." (Townes 1963, p. 37)

"Mən hesab edirəm ki, hansısa mənada, bütün elm kainatın qayda-qanunlarına inamdan başlayır. Elmi inam qayda-qanunun, daimiliyin və sairin mövcudluğunu ehtimal edir. İudeoxristian ənənələri isə vahid Tanrının mövcudluğundan bəhs edir." (Sitat: Palmer 1997, vol. 17.)

Həyatın mənşəyi barədə suala professor Tauns belə cavab verirdi: *"Həyatın meydana gəlməsi ehtimalı, sanki çox azdır, amma yenə də həyat meydana gəldi və fiziki qanunlara uyğun olaraq meydana gəldi, bu qanunları isə Tanrı müəyyənləşdirib."* (Sitat: Palmer 1997, vol. 17.)

Çarlz Tauns "Elm və Mənəvi Axtarış" konfransında (19 aprel 2002-ci il, Paris) oxuduğu "Elmlə dinin qovuşması" adlı mühazirəsində demişdi:

"Elm və din çox vaxt bizim əqidələrimizin və dünya haqqında təsəvvürlərimizin ayrı-ayrı aspektləri kimi nəzərdən keçirilir. Lakin din kainatın məqsədini, elm isə onun təbiətini və xarakteristikasını başa düşmək cəhdidir, çünki elm və din bir - biri ilə sıx əlaqəlidir.

Məm gördüklərim haqqında danışacağam, elmlə dinin paralelliyindən və onların güclənməkdə olan qarşılıqlı təsirindən, eləcə də onların, nəticə etibarilə, kainatımızın təyinatı və məğzinin yeganə, daha dolğun izahına çevrilmək üçün qovuşması ehtimalından danışacağam." (Townes 2002b.)

Çarlz Tauns həyatın mənşəyi haqqında belə deyirdi: *"Mənə elə gəlir ki, mənşə məsələsi, yalnız elmi nöqteyi-nəzərdən baxıldıqda cavabsız qalacaq. Buna görə də mən din və ya metafizika izahının vacib olduğunu görürəm. Mən Tanrı ideyasına və Onun mövcudluğuna inanıram."* (Townes 1995.)

Şeron Biqli əks - səda doğurmuş "Elm Tanrını Aşkar Edir" (Newsweek, 27 iyul 1998) məqaləsində Çarlz Taunsun sözlərindən sitat gətirir:

"Mən imanlı insan kimi, ehtimal olunan Məğzin mövcudluğunu və təsirini dərindən hiss edirəm, bu isə məndən əhəmiyyətli dərəcədə üstündür, amma eyni zamanda, həmişə fərdi və yaxın olaraq qalır." (Sitat: Begley 1998, 47.)

Biqli yazır: *"Tauns hesab edir ki, kosmologiyanın ən son kəşfləri bizə "dini əqidələrə uyğun gələn kainatı", daha dəqiq dedsək, "təbiət qanunlarının formalaşmasında hansısa yolla şüurun iştirak etdiyini" göstərir."*

(Begley 1998, 47.)

"Din öz ilahiyyatçı mühakimələri ilə imana söykənir. Elm də imana söykənir. Elm də imana söykənir. Necə? Elmin bizim onu bildiyimiz formada mövcud ola bilməsi üçün inanmalıyıq ki, kainat daimi qanunlarla idarə olunur və insan bu qanunları açmağa qadirdir. İnsan axtarışının məntiqinə yalnız o halda etibar etmək olar ki, dünyanın özü məntiqi cəhətdən qurulmuş olsun. Elmin təməlində insan məntiqinin təbiət qanunlarını dərk etməyə qadir

olduğuna və bu qanunların etibarlı olduğuna inam yatır. Bu, şüura əsaslanan imandır.

Biz, alimlər, həm təbiətdə, həm də insan şüurunda olan səmərəlilik haqqında postulata, imanın əsas prinsipi hesab edilən postulata əsaslanaraq işləyirik. Lakin bu iman o dərəcədə qəbul olunmuş və özlüyündə anlaşılandır ki, biz sadəcə onda elmin əsasını tanımaq istəmirik." (Townes 2001, 300)

"Elm kainatın quruluşunu, din isə onun mənasını başa düşməyə can atır. Elm və dini bir-birindən ayırmaq qeyri-mümkündür." (Sitat: Easterbrook 1997, 891.)

Con Polkinqorn


CON POLKİNQORN

Kembric Universitetinin əməkdaşı, tanınmış fizik Con Polkinqorn fizika sahəsində zərrəciklər üzrə mütəxəssisdir. O, "Newsweek" jurnalına müsahibəsində deyirdi:

"Siz təbiət qanunlarının kainatın yaranması üçün nə dərəcədə dəqiq nizamlandığını dərk etdikdə bu dünyanın boş yerə yarandığını deyil, bunun arxasında müəyyən məqsədin olduğunu görürsünüz... Məncə, Allaha etiqadın əsas elementi kainatda ideya və məqsədin olduğunu dərk etməkdir."

(Newsweek, 27 Temmuz 1998, s.48-49)

Hyu Ross


HYU ROSS

Tanınmış Amerika astrofiziki, Toronto Universitetinin professoru Hyu Ross Yaradılış həqiqətini müdafiə edən "İnamın əsası" cəmiyyətinin sədridir. O, kosmologiya və yaradılış məsələlərinə toxunan əksər kitabların müəllifidir. Onlardan *"Yaradan və kosmos"*, *"Yaradılış və zaman"*, *"Kosmosun o biri tərəfində"* kitablarının adını çəkə bilərik. Rossun kainatın yaradılması haqda dediklərindən bəziləri bunlardır:

"Əgər zaman və məkan birlikdə partlayış nəticəsində yaranıblarsa, o zaman kainatı yaranmağa vadar edən səbəb zaman və məkandan qətiyyən asılı olmamalıdır. Bu, bizə Yaradanın kainatın bütün ölçülərinin o biri tərəfində olduğunu deyir." (Hugh Ross, Creator and the Cosmos, s.112)

"Uca və müdrik Yaradan kainatı heç nədən yaradıb. Uca və müdrik

Yaradan kainatı və Yer planetini layihələndirdi. Uca və müdrik Yaradan həmçinin həyatı yaratdı." (Hugh Ross, Design and the Anthropic Principle, Reasons to Believe, CA1988)

Professor Dr. Dueyn Giş


DUEYN GİŞ

Kaliforniya Universitetinin biokimya professoru Dueyn Giş öz dindarlığı və darvinizmə qarşı qətiyyətli mübarizəsinin sayəsində tanındı. Elmi aləmdə Gişdən tez-tez bəhs edirlər, çünki o, daima antitəkamül diskussiya və forumlarında bu nəzəriyyənin tərəfdarları ilə mübahisələrdə iştirak edir.

Professor Giş 1998-ci ildə Türkiyədə "Təkamül Nəzəriyyəsinin İflası: Yaradılış Həqiqəti" konfransında üç dəfə çıxış edib. Gişin bu mövzuda yaradılışa möhkəm inamını əks etdirən fikirlərindən biri:

"Təkamül nəzəriyyəsi artıq can verir. Yaradılış ideyası aydın dəlillərlə şərh edilir. Minlərlə alim bu konsepsiyanı daha inandırıcı hesab edir. Onların sayı günbəgün artır". (4 Nisan 1998 tarihinde İstanbul'da Bilim Araştırma Vakfı tarafından düzenlenen "Evrim Teorisinin Çöküşü: Yaratılış Gerçeği" adlı I. Uluslararası Konferansta Prof. Duan Gish'in konuşması.)

Dr. Pyer Qunnar Cerlstrom

Qriffit Universitetinin molekulyar biologiya professoru Cerlstrom öz sahəsində xeyli həcmdə iş görüb və bunlara görə, müxtəlif elmi mükafatlara layiq görülüb. Onun yazıları daim elmi jurnallarda dərc edilir. Cerlstrom kainatın yaradılması ideyasının tərəfdarıdır. (http://www.answersingenesis.org/Docs/1354.asp)

Dr. Stiven Qrokott

Qərbi Avstraliya Universitetinin sənaye kimyası üzrə mütəxəssisi Qrokott analitik və sənaye kimyası sahələrində böyük həcmdə tədqiqatlar aparıb. Qrokott bir çox elmi məqalələrin müəllifidir. O, əvvəlcə, təkamülçü olub, ancaq yaradılış sübutları ilə qarşılaşdıqdan sonra bu baxışları qəbul edib və darvinizmlə əlaqəni kəsib. Qrokott kainatın yaranması məsələsi üzrə bir çox elmi konfransların iştirakçısı olub. (http://www.answersingenesis.org/docs/560.asp)

Dmitri Kuznetsov

Rus alimi Dmitri Kuznetsov bəyan edir ki, əksər alimlər tədqiqatlarının gedişatında danılmaz həqiqətlərlə qarşılaşaraq Allaha inanmağa başlayır və dinə üz tuturlar. Dmitri Kuznetsov təkamülçülərlə apardığı elmi mübahisələri ilə tanınıb. (http://earth.ics.uci.edu/faqs/kouznetsov.html)

Dr. Emil Silvestru

EMİL SİLVESTRU

Babes-Bolyai Universitetinin professoru, Dr. Emil Silvestru mağara geologiyası sahəsində qəbul edilmiş nüfuz sahibidir. Öz məqalələrini beynəlxalq akademik jurnallarda dərc etdirən və bütün dünyada ilk Speleologiya İnstitutuna rəhbərlik edən Dr. Emil Silvestru kainatın yaradılması mövqeyini müdafiə edir.

(http://www.answersingenesis.org/docs/4030.asp)

Dr. Andre Eggen

Yaradılış ideyasının tərəfdarı Dr. Andre Eggen heyvanların genetikası sahəsindəki irimiqyaslı tədqiqatların müəllifidir. O, hazırda, Fransa hökumətinin proqramı üzrə elmi işlər aparır.

(http://www.answersingenesis.org/docs/3726.asp)

ANDRE EGGEN

Dr. Yan Makredie


YAN MAKREDİE

Dr. Yan Makredie molekulyar biologiya və mikrobiologiya üzrə vacib əsərlərin müəllifidir. O, Avstraliya elmi-sənaye tədqiqatlar təşkilatı Biomolekulyar Tədqiqatlar İnstitutunun baş tədqiqatçı-mütəxəssisi olaraq 60-dan çox tədqiqat aparıb. Kainatın yaradılmasına inanan bu böyük alim Avstraliya Mikrobiologiya Cəmiyyətinin ən yüksək mükafatına layiq görülüb.

(http://www.publish.csiro.au/cyberscience/helix/TH50/TH50C.htm)

Professor Endryu Konvey Ayvi


ENDRYU KONVEY AYVİ

Dünya şöhrətli fizioloq Endryu Konvey Ayvi 1925-ci ildən 1946-cı ilə qədər Şimal Qərb Universitetinin fiziologiya və farmakologiya bölümlərinin rəhbəri olub. O, 1946-1953-cü illərdə professor ola-ola Cenevrə Universitetinin tibb fakültəsinin dekanı işləyib, sonra Çikaqo Universitetində fiziologiya professoru olub. Endryu Konvey Ayvi "Bütün varlığın Yaradanı varmı" sualına belə cavab verib: "Bəli, mən Onun varlığına inanıram!" Bundan əlavə, Endryu Konvey Ayvi deyir:

"Mən Allahın varlığına öz mövcudluğuma, əlimlə dəyəcəyim əşyanın reallığına inandığım kimi inanıram. Şübhəsiz ki, mənim Rəbbimizə etiqadım yaradılan dünya haqda düşünməyin və onda məna tapmağın yüksək və yeganə yoludur. Yaradanın varlığına əminlik insan adlanan canlıya "insan yalnız maddə və enerji laxtasıdır" ideyasından xeyli artıq məna verir. Allaha inam sevgi haqda ən yüksək və insani fikirlərin mənbəyidir".

(John Clover Monsma, The Evidence Of God In Expanding Universe, s. 225)

Dr. Raymond Couns


RAYMOND COUNS

Raymond Couns Avstraliya dövlət tədqiqat təşkilatında uzun illər işləmiş tədqiqatçıdır. O, Leukena (leucaena) məsələsini həll etməklə tanındı və bununla Avstraliya kənd təsərrüfatına milyonlarla dollar qazandırdı. O, eyni zamanda, yaradılış ideyasının tərəfdarıdır.

(http://www.answersingenesis.org/docs/3945.asp)

Culs H. Poyrir

Elektronika sahəsində layihəçi-mühəndis işləyən Poyrir ABŞ hökumətinin sifarişi ilə vacib müdafiə və kosmik layihələrdə iştirak edir. Poyririn Kaliforniya Universitetində fizika, riyaziyyat və elektronika mühəndisliyi sahəsində gördüyü işlər Amerika müdafiə və kosmik proqramlarında geniş şəkildə tətbiq edilmişdir. Canlı orqanizmlərdə uca Allahın gücünün təzahürləri ilə qarşılaşan Poyrir onların Allah tərəfindən yaradıldığı nöqteyi-nəzərini müdafiə edir. Alim bu məsələ ilə bağlı monarx kəpənəyinin quruluşunun əsasında dayanan heyrətamiz layihə barədə kitab

yazıb. Bu kitab orijinalda belə adlanır: *"From Darkness to Liqht to Fliqht: Monarch - The Miracle Butterfly"*. (http://www.icr.org/pubs/imp/ imp-267.htm)

Maykl C. Behe



MAYKL C. BEHE

Kainatda və canlı orqanizmlərdə şüurlu ideyanın olması nöqteyi-nəzərini dəstəkləyən digər alim Maykl C. Behedir. O, Pensilvaniyanın Lehi Universitetinin biologiya professorudur. Behe *"New York Times"* və *"Boston review"* kimi mötəbər qəzetlərdə bir sıra məqalələr dərc etdirib, həmçinin *"Darvinin Qara Qutusu"* kitabının müəllifidir.

Təkamül nəzəriyyəsinin biologiya nöqteyi-nəzərindən qeyri-məqbul olduğunu bildirən bu əsər XX əsrin 80-ci illərində bir neçə dəfə nəşr edildi.

Behe "Tərkibi pozulmaz komplekslilik" anlayışından istifadə edərək təkamül nəzəriyyəsinin uğursuzluğunu sübut edir. Onun ideyasına görə, canlılarda eyni zamanda bir-biri arasında tam harmoniya halında işləyən bir çox hissələr var. Əgər bir hissə pozulsa, bu, özünü bütün orqanizmdə büruzə verir və nəticədə, o, öz həyat funksiyasını itirir. Buna görə də onların təsadüfən və pillə-pillə yaranması mümkün deyil.

Behe *"Darvinin Qara Qutusu"* kitabında yazır:

"Onlar zərurət nəticəsində və ya təsadüfən təbiətin qanunları ilə formalaşmayıblar. Bütün bunlar əvvəlcədən planlaşdırılıb. Layihəni hazırlayan kəs isə hamıdan yaxşı bilir ki, sonda bu sistemlər bütövlükdə necə olacaqlar. Buna görə də sistemlərin formalaşmasında hər bir addım əvvəlcədən düşünülmüşdür.

Yer üzündə ən sadə formalardan mürəkkəb formalara qədər həyat bütün bizi əhatə edən şəraitin şüurlu layihələnməsinin nəticəsidir. Canlı orqanizmlərin biokimyəvi sisteminin şüurlu səbəbini dərk etmək üçün yeni məntiq və ya elmi prinsiplər yaratmaq lazım deyil. Son 40 ildə biokimya sahəsində aparılmış tədqiqatlar bizi gündəlik həyatda əhatə edən bütün həqiqətləri mübahisəsiz göstərmək üçün kifayətdir". (Michael J.Behe, Darwin's Black Box, s.196)

Filipp Conson

FİLİPP CONSON

Filipp Conson Çikaqo Universitetinin hüquq professoru, təkamül nəzəriyyəsinin ideoloji tərəfləri ilə bağlı bir çox tədqiqatların müəllifidir. Onun *"Darwin on Trial"*, *"Reason in the Balance"*, *"Obyection sustained"*, cinayət hüququna dair üç kitabı və bir çox məqalələri var.

Təkamül nəzəriyyəsi ilə öz barışmaz

mübarizəsindən məşhur olan Conson, eyni zamanda, dindardır. Onun bu mövzu ilə bağlı fikirlərinin bəziləri belədir:

"Mən materialist təkamül nəzəriyyəsinə meydan oxumaq istəyirəm. Gəlin, Yaradanın ətrafında birləşək!"

(Tim Stafford, The Making of a Revolution, Christianity Today, Cilt 41, No. 14, 8 Aralık 1997.)

Çarlz Birç

ÇARLZ BİRÇ

Avstraliya Sidney Universitetinin professoru Birç yaradılış ideyasına bağlılığı ilə tanınıb. 1990-cı ildə ateizmlə elmi mübarizəsinə görə o, dinin yayılmasına verdiyi böyük töhfəyə görə Templton mükafatına layiq görülmüşdü. O, Allaha inamını bu sözlərlə ifadə edir:

"Bütün dəyərlərin başlanğıcı olan Allah insana onun əllərindən və nəfəsindən də yaxındır. Allahın varlığı həqiqidir".

(John Marks Templeton, Kenneth Seeman Giniger, Spiritual Evolution - Scientists Discuss Their Beliefs, s.3)

"Allah Yeri yaradıb və onu canlandırır".

(John Marks Templeton, Kenneth Seeman Giniger, Spiritual Evolution - Scientists Discuss Their Beliefs, s.14)

S. Coselin Bell Burnell

S. COSELİN BELL BURNELL

Fizika professoru və İngiltərə Açıq Universitetində Fizika bölümünün rəhbəri olan Burnell, eyni zamanda Atarca ulduzunu kəşf edən astronavtlardan biridir. Allaha inanan Burnell bu haqda belə deyir:

"Mən hər şeyi bacaran, hər şeyi bilən, eyni zamanda, bizlərə qarşı rəhmli olan və bizi qoruyan Allaha inanıram". "...Mən tək Allahın varlığına əminəm". (John Marks Templeton, Kenneth Seeman Giniger, Spiritual Evolution - Scientists Discuss Their Beliefs, Templeton Foundation Press, Philedelphia &, Londo,n s.22-23)

Professor Ouen Ginqeriç

Astronomiya professoru və elm tarixçisi alim Ginqeriç uca Yaradanın varlığına əmindir. O, öz dini hisslərini bu şəkildə ifadə edir:

"...Mən böyük və gözəl bilgi sahibi olan Allaha inanıram. O, kainatın yaradılmasını planladı və həyata keçirdi... Mən insanların yaradılmasının kainatın əsas prinsipi olduğuna, həmçinin bəşəriyyətin öz şüuru, vicdanı, mənəviyyatı, düzü yalandan ayırmaq bacarığı ilə Allahın təcəllisi olaraq yaradıldığına inanıram"..

(John Marks Templeton, Kenneth Seeman Giniger, Spiritual Evolution - Scientists Discuss Their Beliefs, ss. 50-51)

OUEN GİNQERİÇ

Professor Karl Fridrix von Veizsaker

KARL FRİDRİX von VEİZSAKER

Almaniyada Maks Plank Cəmiyyəti Universitetinin fizika və fəlsəfə professoru olan Veizsaker, Allah inancını bu sözləriylə ifadə etmişdir:

"...İsveçrənin Jura dağlarında ulduzlu gözəl bir gecədə iki şeydən əmin oldum: Allah burada idi və ulduzlar fizikanın bu gün bizə öyrətdiyi kimi, bir qaz topu idi".

(John Marks Templeton, Kenneth Seeman Giniger, Spiritual Evolution - Scientists Discuss Their Beliefs, s.131)

Professor David Berlinski

Prinston Universitetinin riyaziyyat professoru Berlinski canlı orqanizmlərin təkamülə məruz qalmadıqlarına, əksinə, onların şüurlu layihənin bəhrəsi olduğuna əmindir. David Berlinskinin bu haqda söylədiklərindən bəzi nümunələri təqdim edirik:

"...Həyat kompleks quruluşa malikdir, o isə dəqiq layihə ilə yaradılır. Hətta üskük hazırlamaq üçün də şüur lazımdır. Bəs onda nə üçün mənim həyatımdakı digər şeylər başqa cür yaranmalıdır?" (http://www.rae.org/dendar.html)



DAVİD BERLİNSKİ

"...Molekulyar biologiya bütün varlığın Allah tərəfindən yaradıldığını göstərir". (http://www.rae.org/matersci.html)

Professor Uilyam Leyn Kreyq

UİLYAM LEYN KREYQ

Birminhem Universitetinin fəlsəfə professoru və Münhen Universitetinin ilahiyyat professoru olan Kreyq Allahın kainatı heç nədən müəyyən məqsəd üçün yaratdığına inanır. O, belə yazır:

"Kainatın mövcudluğunda müəyyən məqsəd və məna var. Mən inanıram ki, kainatın yaranmasının səbəbi tək Allah - Yaradandır. Müvəqqəti hərəkət sonsuz hərəkətdən başqa cür necə doğa bilər? Həm elm, həm də fəlsəfə kainatın başlanğıcının olduğu nəticəsinə gəlir. Hər əşyanın yaranması üçün heç nəyə ehtiyacı olmayan və azad iradəyə sahib olan sonsuz, dəyişməz, zamandan kənar və qeyri-maddi ideya var. Nəticədə, mən Allaha inanmağın məntiqli olduğunu etiraf edirəm". (http://www.leaderu.com/truth/3truth11.html)

"Əslində, "heç nədən yalnız heç nə yarana bilər" qaydasına uyğun olaraq böyük partlayışın fövqəltəbii səbəbi olmalıdır. Bundan əvvəlki vəhdətdə zaman və məkan anlayışı olmadığı üçün böyük partlayışın heç bir fiziki səbəbi ola bilməz.

Əksinə, böyük partlayışa gətirib çıxaran səbəb ağlasığmaz dərəcədə güclü olmalı, kainatdan əsla asılı olmamalı və zaman və məkanın tam o biri tərəfində yerləşməlidir. Bundan əlavə, bu səbəb azad iradəyə sahib olan şüurlu qüvvə olmalıdır. Beləliklə, kainatın əsl ideyası hər şeyi ancaq öz istəyinə görə keçmişin müəyyən məqamında yaratmış Yaradandır".

(William Lane Craig, Cosmos and Creator, Origins & Design, cilt.17, s.18)

Dr. Kurt Vays

KURT VAYS

Bayen kollecinin riyaziyyat və təbii elmlər bölümünün müəllimi, paleontoloq Kurt Vays təkamül nəzəriyyəsinə qarşı çıxışları və möhkəm dini etiqadı ilə tanınır. O, bu haqda belə deyir:

"Yaradılış nəzəriyyə deyil. Allahın kainatı yaratması elə həqiqətin özüdür..."

(http://www.answersingenesis.org/Docs/3119.htm)

Siqrid Hartviq Şerer

SİQRİD HARTVİQ ŞERER

Sürix Universitetinin antropologiya professoru Şerer "Ramapitek insanın əcdadıdırmı?" adlı kitabın müəllifidir. Şerer öz işlərində təsbit edir ki, paleontologiya faktları təkamül nəzəriyyəsini təkzib edirlər, həmçinin meymunlar insanların əcdadları deyillər. Alim tam əmindir ki, canlı orqanizmləri Allah yaradıb.

(William A. Dembski, Mere Creation, Science, Faith & Intelligent Design, InterVarsity Press 1998, s.461)

C. P. Morland

Morland Cənubi Kaliforniya Universitetinin professoru, həmçinin "Yaradılış hipotezası" kitabının müəllifidir. Morland Allaha etiqadı olan bir alimdir.

(William A. Dembski, Mere Creation, Science, Faith & Intelligent Design, s. 462)

C. P. MORLAND


POL A. NELSON

Pol A. Nelson

Çikaqo Universitetinin biologiya professoru Nelson canlı orqanizmlərin şüurlu layihənin bəhrəsi olması haqdakı ideyanın tərəfdarlarından biridir.

(William A. Dembski, Mere Creation, Science, Faith & Intelligent Design, s. 462)

Professor Conatan Uells

CONATAN UELLS

Yel Universitetinin ilahiyyat professoru, həmçinin Berkli Universitetinin molekulyar və hüceyrəvi biologiya professoru Uells *"Çarlz Hoc Darvinizminin Tənqidi"* kitabının müəllifidir.

Uells güman edir ki, elmin yeni əsasları sübut edir ki, canlı orqanizmlər yaradılışın bəhrələridir.

(William A. Dembski, Mere Creation, Science, Faith & Intelligent Design, s. 464)

Dr. Don Batten

DON BATTEN

Dr. Batten bitkilərin fiziologiyası üzrə böyük tədqiqatlar aparıb və buna görə xeyli akademik mükafata layiq görülüb. Bitkilərin fiziologiyasını öyrənməklə yanaşı, Batten dindar insan kimi Yer üzündə yaradılış sübutlarını aşkar edən çoxlu kitab və məqalələr dərc etdirib. Batten müntəzəm olaraq "Yaradılış haqda suallara cavab" mövzusunda dünya turnesi keçirərək həmin mövzuda mühazirələr oxuyur. Burada o, elmi problemlərə həsr edilməyən və insanlara aydın olan dildən istifadə edərək kainatın və həyatın Allah tərəfindən yaradılmasının sübutları haqda danışır. Avstraliyalı alimin ilk analoji turnesi 1995-ci ildə İngiltərədə baş tutmuşdu. (http://www.users.globalnet.co.uk/~aflint/crichbaptist.htm)

Dr. Con Baumqardner


CON BAUMQARDNER

Dr. Baumqardner geofizika və kosmik fizika problemləri ilə, həmçinin Kaliforniya Universitetində müəllimlik fəaliyyəti ilə məşğuldur. Baumqardner təkamül nəzəriyyəsi ruhunda tərbiyə almasına baxmayaraq, onun bu konsepsiyanın mürəkkəb və həllolunmaz problemlərinə dair şəxsi tədqiqatları alimin təkamül nəzəriyyəsindən imtina etməsinə və kainatın yaradılması haqqındakı nöqteyi-nəzəri qəbul etməsinə səbəb oldu. (http://www.rae.org/believe.html)

Professor Dr. Donald Çittik

Donald Çittik Oriqon Universitetinin kimya professorudur. O, öz işlərinə görə xeyli mükafata layiq görülmüşdür. Yaradılış həqiqətinə qəti şəkildə inanan Çittik "Yaradılışın sübutları", "Yaradılış və ibtidai aləm" kimi məsələlərə dair seminarlarda iştirak edir.

(http://www.answersingenesis.org/docs/1157.asp)



DONALD ÇİTTİK

Dr. Verner Gitt

VERNER GİTT

Alman Federal Fizika İnstitutunun direktoru və professoru dr. Gitt riyaziyyat, informatika və nəzarət təchizatı mühəndisliyi sahəsində xeyli elmi məqalənin müəllifidir. Eyni zamanda, yaradılışa inanan Gittin qələminə bu mövzuya dair bir neçə kitab məxsusdur: *"Allah təkamüldən istifadə edibmi?"*, *"İlk əvvəl bilgi vardı"*, *"Ulduzlar və onların taleyi: səma bələdçiləri"*, *"Əgər heyvanlar danışa bilsəydi..."* və s.

(http://www.answersingenesis.org/docs/3967.asp)

Dr. Qeri E. Parker

Hazırda Ball Dövlət Universitetinin biologiya, geologiya və fiziologiya professoru olan Parker öz karyerasının əvvəlində təkamülçü idi. Yaradılış həqiqətinin inandırıcı sübutları ilə qarşılaşan Parker bu nöqteyi-nəzəri qəbul etdi və təkamül nəzəriyyəsindən imtina etdi. Parker biologiya və yaradılış problemlərinə aid xeyli kitabın müəllifidir. Son illərdə o, öz nöqteyi-nəzərini müdafiə etdiyi elmi seminarlarda tez-tez iştirak edir.

(http://www.answersingenesis.org/docs/359.asp

QERİ E. PARKER

MARQARET HELDER

Dr. Marqaret Helder

Albert Kreasionist Elmlər Cəmiyyətinin sədri Dr. Helder botanika üzrə böyük mütəxəssis və yaradılış həqiqətinin ən fəal tərəfdarıdır. Dr. Helder bizi hər yerdə əhatə edən yaradılış həqiqətinin mübahisəsiz sübutları haqda xeyli məqalənin müəllifidir.

(http://www.answersingenesis.org/docs/1336.asp)

Professor Dr. Conatan D. Sarfati

Sarfati Vellinqton Viktorian Universitetinin kimya professorudur, o, öz işlərinə görə xeyli akademik mükafata layiq görülmüşdür. Sarfati təkamül nəzəriyyəsini rədd etdi və yaradılış ideyasının tərəfdarı oldu.

(http://www.answersingenesis.org/docs/473.asp)

CONATAN D. SARFATİ

ROBERT METYUS

Professor Robert Metyus

Oksford Universitetinin fizika professoru Robert Metyus 1992-ci ildə yazdığı kitabda İlahi yaradılışın möcüzələri haqda belə danışır:

"Hüceyrədən canlı körpəyə, sonra körpədən uşağa və nəhayət, böyük insana qədər bütün proseslər mükəmməl harmoniyada baş verir. Biologiyanın bütün sahələrində müşahidə edilən bu hadisələr yalnız möcüzə ilə izah edilə bilər. Bu cür mükəmməl və kompleks orqanizmin belə sadə və balaca hüceyrədən əmələ gəlməsi necə baş verir? "İ" hərfinin üzərindəki

nöqtədən də kiçik olan bir hüceyrədən insan yaranır. Bu, möcüzədən başqa bir şey deyil!" (Robert Matthews, Unravelling The Mind of God, s.8)

Dr. Klod Tresmontant


KLOD TRESMONTANT

Dr. Klod Tresmontant öz elmi fəaliyyətini Paris Universitetində aparır. O, həyatın təsadüfən yaranmasına yox, məhz yaradıldığına əminliyini "Realities" jurnalında bu cür ifadə edirdi:

"Heç bir təsadüfilik nəzəriyyəsi bizim dünyanın yaradılışını izah etmək qabiliyyətində deyil. Canlı orqanizmlərin təsadüfən yaranmasını iddia etmək mənasızdır".

(Claude Tresmontant, "It is Easier to Prove the Existence of God Than It Used to Be", Réalités, Paris, Nisan 1967, s.46)

Dr. Don Peyc

Don Peyc görkəmli müasir alimlərlə çiyin-çiyinə işləyərək 1976-cı ildə Kaliforniya Universitetində fizika və astronomiya üzrə doktorluq dissertasiyasını müdafiə etdi. Peyc inanır ki, kainatın qanunlarını anlamaq Yaradanın müdrikliyini və qüdrətini dərk etməyə kömək edər. Bununla, o, belə güman edir ki, İlahi əzəmət və bilgi kainatla kifayətlənmir.

(Stephen Hawking, Evreni Kucaklayan Karınca, Alkım Yayıncılık 1993, s. 112)


DON PEYC

Dr. Endryu Snellinq

ENDRYU SNELLİNQ

Geologiya professoru, Dr. Snellinq CSİRO və ANSTO kimi elmi qrupların, həmçinin Amerika, Britaniya, İsveçrə, Yaponiya elmi proqramının iştirakçısıdır. O, bu tədqiqatların nəticələrinə dair xeyli məqalə dərc etdirib.

Elmə verdiyi töhfələrə görə bir çox mükafatlara layiq görülmüş Snellinq canlı orqanizmlərin daşıdığı yaradılış sübutları haqda bir sıra məqalələrin müəllifidir.

(http://www.answersingenesis.org/docs/362.asp)

Dr. Karl Viland

Dr. Viland yaradılış həqiqəti sübutlarının görkəmli təbliğatçısıdır. O, müxtəlif beynəlxalq jurnallarda bu məsələ ilə bağlı xeyli məqalə dərc etdirib.

(http://www.answersingenesis.org/docs/340.asp)

KARL VİLAND

GÜNÜMÜZÜN İNANAN DİGƏR ELM ADAMLARI

Bütün dünyada Allaha iman edən bir çox elm adamı vardır. Onlar canlı orqanizmlərin təsadüfən əmələ gəlməsi haqqındakı nəzəriyyəni inkar edir və kainatın Allah tərəfindən ali məqsədlə yaradıldığına iman etməkdədirlər.

Professor Robert Horton Kameron
Riyaziyyat
Doktor Cerri Berqmann
Psixologiya
Doktor Kimberli Berrin
Mikrobiologiya və immunologiya
Professor V. Betina
Biokimya və biologiya
Doktor Endryu Bosanket
Biologiya və mikrobiologiya
Doktor Devid R. Boylan
Kimya
Doktor Klifford Bardik
Geologiya
Robert Kayta
Nüvə fizikası
Professor Don A. Berkovits
Fizika və kimya
Professor doktor Stiv Ostin
Geologiya
Professor Robert Nyuman
Astrofizika
Professor Ziqfrid Şerer
Biologiya
Doktor Rassel Hemfris
Fizika
Doktor Ceff Dauns
Bitkilərin fiziologiyası
Doktor Larri Batler
Biokimya
Professor Linn E. Karoters
Statistika
Professor Sunq Do Ça
Fizika
Professor doktor Yucin F. Çaffin
Fizika
Doktor Çunq Kuk Çanq
Genetika
Professor Çunq A Ço
Biologiya
Doktor Harold Koffin
Paleontologiya
Doktor Con V. Quottso
Təbabət

Doktor Malkolm Katçins
Kosmik mühəndislik
Doktor Lionel Damer
Üzvi kimya
Doktor Raymond V. Damadyan
Fizika
Doktor Kris Darnbruf
Biokimya
Doktor S. E. Ou
Biokimya
Doktor Tomas Barns
Fizika
Doktor Pol Akkerman
Psixologiya
Dr. David Dewitt
Nöroloji
Doktor Duqlas Din
Biokimya
Doktor Don De Yanq
Astronomiya, atmosfer fizikası
Professor Danni R.Folkner
Astronomiya
Professor Dennis L. Enqlin
Geofizika
Professor Robert H. Franks
Biologiya
Doktor Donald Hamann
Dietologiya
Doktor Barri Harker
Fəlsəfə
Doktor Çarlz V.Harison
Fizika
Doktor Harold R. Henri
Mühəndislik
Doktor Cozef Henson
Entomologiya
Robert A. Hermann
Riyaziyyat
Doktor Conatan V. Couns
Təbabət
Doktor Valeri Karpunin
Riyaziyyat
Doktor Din Kenyon
Biologiya

Doktor Con V. Klots
Biologiya
Doktor Vladimir F. Kondalenko
Sitologiya, hüceyrə patologiyası
Professor Leonid Koroçkin
Molekulyar biologiya, genetika, neyrobiologiya
Professor Yin Hyuk Kvon
Fizika
Doktor Myunq Sanq Kvon
Immunologiya
Professor Con Lennoks
Riyaziyyat
Doktor Con Lesli:
Biokimya
Professor Leyn P.Lester
Biologiya, genetika
Professor Corc D.Lindsey
Kimya
Doktor Alan Lav
Kimya
Professor Marvin L. Lubenov
Antropologiya
Doktor Endryu Makintoş
Aerodinamika
Doktor Con Mann
Entomologiya
Doktor Frank Marş
Biologiya
Doktor Ralf Mettyuz
Radiasiya kimyası
Doktor Con Mayer
Fiziologiya
Doktor Henri M. Morris
Hidrologiya
Doktor Len Morris
Fiziologiya
Doktor Qrim Mortimer
Geologiya
Professor Hi Çun No
Nüvə mühəndisliyi
Doktor Devid Oderberq
Fəlsəfə
Professor Con Oller
Dilçilik
Professor Kris D. Osborn
Biologiya
Doktor Con Osqud
Təbabət

Doktor Çarlz Pallaqi
Botanika
Professor C. Rendl Şort
Pediatriya
Doktor Yunq Qu Ro
Biologiya
Doktor Devid Rozvir
Kimya
Doktor Yanq Gi Şim
Kimya
Doktor Mixail Şulgin
Fizika
Professor Ceyms Stark
Mühəndislik
Professor Brayan Stoun
Mühəndislik
Doktor Lüdmila Tonkonoq
Kimya, biologiya
Doktor Larri Vardimann
Meteorologiya
Doktor Toaçim Vetter
Biologiya
Doktor Noel Uik
Tarix
Doktor A. F. Monti-Uayt
Kimya, neft kinetikası
Professor A. E. Uilder-Smit
Üzvi kimya və farmakologiya
Doktor Klifford Uilson
Arxeologiya
Professor Verna Rayt
Təbabət
Professor Seunq Xun Yanq
Fizika
Doktor Ik Donq Yu
Biologiya

MÜSƏLMAN ELM ADAMLARI

Elm tarixinə nəzər saldıqda kəşflər etmiş, elmin inkişafına böyük töhfələr vermiş elm adamlarının böyük əksəriyyətinin Allaha güclü imanlarının olduğunu görürük. Allaha olan imanın elmi bilikləri daha da inkişaf etdirməsinin ən diqqətə layiq nümunələrinə isə İslam tarixində rast gəlmək mümkündür. İslam əxlaqı ilə böyüyən, bütün həyatını və elmi fəaliyyətini Quran ayələri əsasında quran müsəlman alimlərinin bu gün əldə olunan yüksək mədəniyyətə çox böyük xidmətləri olmuşdur.

İslam əxlaqının yayılması ilə müsəlman elm adamlarının sayı daha da artmış və onların böyük əksəriyyəti müasir elmin formalaşmasında müstəsna rol oynayan kəşflərə imza atmışdır. Belə ki, İslam tarixinə nəzər yetirdikdə, orta şərq torpaqlarına Quran əxlaqı ilə birlikdə elmin də daxil olduğunu görürük.

Müsəlman alimlər hər şeydən əvvəl qərbdə Roma və şərqdə Çin başda olmaqla, digər bütün dövlətlərdə inkişaf edən elm və texnologiyanı yaxından izləmiş və əhəmiyyətli qaynaqları tərcümə etmişlər. Bu elmi qaynaqlardan imani və texniki cəhətdən yanlış və əsassız məlumatları çıxardaraq onları özləri üçün faydalı vəziyyətə gətirmişlər. Bu fəaliyyətlərindən sonra müsəlman elm adamları əldə etdikləri bilikləri dəyərləndirərək elm və texnologiyaya böyük töhfələr verməyə başladılar.

VIII –XV əsrləri əhatə edən bir dövrdə müsəlman elm adamları dəqiq elmlər, tibb, astronomiya, riyaziyyat, kimya və bir çox digər elm sahələrində olduqca əhəmiyyətli nəticələr əldə etmiş və qısa vaxt ərzində mədəniyyət və incəsənət sahəsində özlərini bütün dünyaya tanıtmışlar. “İslamın qızıl dövrü” və ya “İslam intibahı” adlandırılan bu dövrdə müsəlmanlar kəşfləri ilə bir çox sahədə elmin inkişafına əhəmiyyətli töhfələr vermiş, beləliklə, özlərindən sonra yaşayan bir çox elm adamına yol göstərmişdir. Hauard R. Törner “Orta əsrlər İslam aləmində elm” adlı kitabında bu dövr haqqında belə yazır:

“Müsəlman sənətkarlar və elm adamları, şahzadələr və işçilər birlikdə bütün qitələrdəki cəmiyyətlərə birbaşa və ya dolayı yolla təsir göstərən bənzərsiz bir mədəniyyət yaratdılar”. (Howard R. Turner, Science in Medieval Islam, University of Texas Press, November 1, 1997, ISBN 0-292-78149-0, pg. 270 (book cover, last page)

"Beytül-Hikmə (Elm Evi)" və Müsəlman Elm Adamlarının Dünya Tarixində Təsirləri

VII - VIII əsrlərdə müsəlmanların fəth etdiyi ərazilərdə o günə qədər dünya tarixində bənzəri görünməyən böyük bir imperiya yaradıldı. VIII əsrdə Abbasi xəlifəsi imperiyanın paytaxtını Şamdan Bağdada köçürtdü və qərb dünyasında “Müdriklik evi” adlandırılan Beytül-hikmənin əsası qoyuldu. Beytül-hikmə müsəlman alimlərin elmi fəaliyyətləri nəticəsində elm, tibb, fəlsəfə və təhsil sahəsində dünyada tayı-bərabəri olmayan elm mərkəzinə çevrilmişdir. Qədim Roma, Çin, Hindistan, İran, Misir, Şimali Afrika, Yunanıstan və Bizans sivilizasiyalarına aid bir çox elmi əsərlər Beytül-hikmədə ərəb dilinə t ərcümə edilmiş və müsəlman alimlər bu əsərlərdəki

məlumatları daha da təkmilləşdirərək dövrümüzdəki bir çox elm sahəsinin banisi olmuşlar. Tarixə bu əsrlər "ərəb elmi" adı ilə daxil olmuşdur, çünki bu dövrlərdə ərəb dili dünya miqyasında elmin ana dili kimi qəbul edilmişdir. Eyni zamanda, 756-cı ildə cənubi İspaniyada Kordovada qurulan Əndəlus Əməvi dövlətində müsəlman elm adamları tərəfindən aparılan elmi və incəsənət çalışmaları da dünya elm və sənət tarixində əhəmiyyətli yer tutmuşdur.

Beytül-hikmə müsəlman elm adamlarının elmi fəaliyyətləri nəticəsində beynəlxalq bir elm mərkəzinə çevrilmişdir.

Günlərin birində dövrün hökmdarı gördüyü yuxunun yozulmağını istəyir. Buna görə də ölkədəki ən tanınmış kahin və alimləri toplayırlar. Yuxarıdakı şəkildə bu hadisə təsvir edilmişdir.

Robert Brifolt "Bəşəriyyətin inkişafı" adlı kitabında bu barədə belə yazmışdır:

"Müasir elmin ərəb elminə olan borcu təkcə heyrətamiz kəşflərdən və ya inqilab mahiyyəti daşıyan nəzəriyyələrdən ibarət deyil; elm ərəb mədəniyyətinə bundan daha artığını – varlığını borcludur. Antik dövrdə dünya bizim gördüyümüz şəkli ilə elmdən əvvəlki vəziyyətdə idi. Yunanların astronomiya və riyaziyyatı heç vaxt yunan mədəniyyəti ilə uyğunlaşmayan gəlmə elm sahələri idi. Yunanlar bu elmləri sistemləşdirdi, ümumiləşdirdi və nəzəriyyə kimi formalaşdırdılar, ancaq səbirli tədqiqat yolları, lazımi məlumatları toplanması, elmi metodların qeydləri, ətraflı və uzun müddətli

müşahidələr, eksperimental sorğu kimi anlayışlar yunan elminə yad idi. Yeni araşdırma və tədqiqat metodlarının, təcrübənin, müşahidənin, ölçmə üsullarının və riyaziyyatın yunanlara məlum olmayan bir formada təkmilləşdirilməsi nəticəsində Avropada bizim elm adlandırdığımız anlayış meydana gəldi. Bu yeni anlayış və metodlar qərb dünyasına ərəblər tərəfindən gətirilmişdir".

(Robert Briffault (1928). The Making of Humanity, p. 191. G. Allen & Unwin Ltd.)

Brifolt həmin kitabın başqa bölməsində İslam mədəniyyətinin Avropaya verdiyi töhfəni də belə dilə gətirmişdir:

"Elm ərəb mədəniyyətinin müasir dünyaya verdiyi ən əhəmiyyətli töhfəsidir, lakin meyvələrinin yetişməsi bir az ləng baş vermişdir. Məğrib mədəniyyətinin qaranlığa çökməsindən sonra onun həyata gətirdiyi nəhəngin bütün qüvvəti ilə ayağa qalxması çox uzun çəkmədi. Avropanı yenidən həyata qaytaran elm deyil. İslam mədəniyyətinin gətirdiyi nur avropalıların həyatını yenidən işıqlandırmışdır".

(Robert Briffault (1928). The Making of Humanity, p. 202. G. Allen & Unwin Ltd.)

Elm tarixinin banilərindən sayılan Corc Sarton isə müsəlmanların elm tarixinə olan xidmətlərini "Orta əsrlərin ən əhəmiyyətli müvəffəqiyyəti təcrübə ruhunun ortaya çıxmasıdır və bu, əslində, XII əsrə qədər müsəlmanların fəaliyyətləri nəticəsində meydana gəlmişdir" sözləri ilə ifadə etmişdir. (Abdus Salam (1984) "İslam ve Bilim" In C.H.Lai (1987), İdealler ve Gerçekler: Abdus Salam'dan Seçme Deneme Yazıları , 2. Baskı, World Scientific, Singapur, S.179-213.)

Oliver Cozef Loc "Elmin qabaqcılları" adlı əsərində İslamiyyətin yayılmasından sonra ərəblərin elm dünyasındakı əvəzsiz rollarını belə ifadə etmişdir:

"Qədim və yeni elm arasındakı yeganə körpü ərəblər tərəfindən qurulmuşdur. Qaranlıq dövrlər Avropanın elm tarixində mütləq boşluq kimi qarşımıza çıxır və min ildən artıq bir müddət ərzində Ərəbistandan başqa heç bir yerdə elmə əhəmiyyətli töhfələr verən elm adamları yetişməmişdir".

(Oliver Joseph Lodge, Bilimin Öncüleri, s.9.)

Quranın işığında elmə yönələrək dövrümüzə qədər gəlib çatan müvəffəqiyyətlər əldə etmiş müsəlman alimlərdən bəziləri aşağıdakılardır:

Cabir ibn Həyyan (721-805)

CABİR İBN HƏYYAN

Qərbdə "Geber" adlandırılan və ən çox tanınan müsəlman alimlərindən biri olan Cabir ibn Həyyan qərb elm dünyasında hər kəs tərəfindən kimyanın atası, banisi kimi qəbul edilir. (John Warren (2005). "War and the Cultural Heritage of Iraq: a sadly mismanaged affair", Third World Quarterly, Volume 26, Issue 4 & 5, p. 815-830.) Belə ki, kimya kəlməsinin ingiliscə qarşılığı olan "alchemy" sözü də Cabir ibn Həyyanın çalışmalarının nəticəsi kimi ərəbcə "əl-kimya" sözündən əmələ gəlmişdir.

Cabir ibn Həyyan atom bombasının düzəldilməsindən 1000 il əvvəl atomun

parçalanma xüsusiyyətinə malik olduğunu və parçalanması nəticəsində olduqca böyük bir gücün meydana gələ biləcəyini söyləyən ilk elm adamıdır. Bu barədə Həyyanın sözləri belədir:

"Maddənin ən kiçik hissəsi olan "cüz-əl-yətəcəzza"da (atom) çox böyük enerji var. Yunan alimlərinin iddia etdiyi kimi, bunun parçalanma xüsusiyyətinin olmadığını deyə bilmərik. O da parçalana bilər. Parçalandıqda da elə bir güc (enerji) meydana gələr ki, Bağdadın altını üstünə çevirə bilər. Bu, Allahu-təalanın qüdrət nişanıdır".

(Şaban Döven, "Müslüman İlim Adamları", Yani Asya neşriyat, İstanbul, 2004)

Cabir ibn Həyyan kimya elminin həm nəzəri, həm də praktiki cəhətdən inkişafında böyük rolu olan bir alimdir. Dünyada ilk kimya laboratoriyasını quran alim kimi tarixə düşmüşdür. Çox əhəmiyyətli kimyəvi birləşmələrin meydan gəlməsini izah etmiş, bir çox kimyəvi maddəni kəşf edərək müasir elmdə də istifadə edilən ərəbcə adlar vermişdir. (Evid Based Complement Alternat Med, Aralık 2005, Vol. 2, Iss.4, s. 475-479) Kimya elmində istifadə edilən həssas ölçü alətlərini düzəldərək kristallaşma, distillə, kalsinasiya, sublimasiya kimi kimyəvi üsulları kimya elminə gətirmişdir. (Robert Briffault (1938). The Making of Humanity, p. 195.) Sulfat turşusu və nitrat turşusu kimi bir çox turşularla yanaşı, natrium karbonat və kaliumu da tapmışdır. (The Independent, London (UK) (095-9467, 11 Mart 2006, s. 22.)

Alovda yanmayan kağız emalını həyata keçirərək müxtəlif metalların istifadəyə yararlı hala salınması, poladın təkmilləşdirilməsi, su keçirməyən parçaların laklanması, paslanmanın qarşısının alınması üçün qızıl suyuna çəkilmə, boyaların və yağların alınması kimi sahələrdə bir çox kəşflər etmişdir. (Prof. Dr. Mehmet Bayraktar, "İslam'da Bilim ve Teknoloji Tarihi", Türkiye Diyanet Vakfı Yayınlar, Ankara, 2000.)

Cabir ibn Həyyan təkcə kimya deyil, tibb, astronomiya, məntiq, fəlsəfə, fizika və mexanika kimi elm sahələrində də fəaliyyət göstərərək, bunlarla bağlı əsərlər yazmışdır. Cabir ibn Həyyanın başda kimya olmaqla, tibb, fizika, astronomiya və fəlsəfə kimi elm sahələrində təxminən 200-500 əsər qələmə aldığı məlumdur. Ancaq bu əsərlərin bir çoxu sonradan itmişdir, sadəcə 27-si latın və alman dillərində Nürnberq, Frankfurt və Strasburqda 1473-1710-cu illər arasında çap edilmişdir.


ƏL-XARƏZMİ

Əl-Xarəzmi (780-850)

[Əbu Cəfər Muhəmməd ibn Musa əl-Xarəzmi]

Dövrünün ən böyük alimlərindən biri olan Əbu Abdullah Muhammməd ibn Musa əl-Xarəzmi qərb elm dünyasında dərin izlər qoymuş riyaziyyatçı, astronom və coğrafiyaşünasdır. Xarəzmi ömrünün böyük bir hissəsini Bağdaddakı Beytül-hikmədə keçirmişdir. Cəbr və alqoritm elminin banisi və bu elmlərə ad verən İslam alimi olmuşdur. (Kalender Yıldız, Müslüman İlim Öncüleri, Işık Yayınları, 2005, s. 61.) Xarəzminin adı Avropada latınca "Alkhorismi" kimi tələffüz edildiyi üçün,

tapdığı metoda "alqoritm" adıverilmişdir.
(Süleyman Feyyaz, Matematiğin Babası Harizmi, Anka Yayınları, 2003, İstanbul, s. 35)

Xarəzmi cəbr sahəsində ilk əsəri olan *"Kitabül-müxtəsər fi hesabil-cəbri-müqabələ"*nin (Cəbr və müqayisə hesabları) müəllifidir. Əsər bu cümlə ilə başlayır:

"Alqoritm belə deyir: Rəbbimiz və qoruyucumuz olan Allaha həmd və səna olsun".

Orijinalı Oksford Universitetində saxlanılan bu kitabda dünyada ilk dəfə olaraq onluq say sistemini açıqlamış və üstəlik ilk dəfə olaraq, tənlik qurma üsulu ilə məsələni həll etmə yollarını göstərmişdir. Bundan başqa, sözügedən kitabında daha əvvəl məlum olmayan bir çox yeni terminlər istifadə edilmişdir: kvadratın kök dərəcəsi, tək, tək say kimi. (A.g.e, s. 23.)

Xarəzminin bu əsəri riyaziyyat elminin inkişafında olduqca böyük tarixi rol oynamış və 600 ildən çox müddət ərzində riyaziyyatın tədrisi üçün mənbə hesab olunmuşdur. Rocer Bekon, Fibonaççi kimi alimlər onun əsərini heyranlıqla tədqiq etmiş və öz dərslərində bu əsərdən faydalanmışlar. 1500-cü illərin sonlarına (1598-1599) qədər cəbr elmində tək mənbə Xarəzminin bu əsəridir.

Riyaziyyatla bərabər, müxtəlif rəsədxanalarda fəaliyyət göstərən Xarəzmi astronomiya və coğrafiya elmlərində də əsərlər yazmışdır. Günəş saatları və saatlar haqqında bir sıra əsərləri vardır. (A.g.e, s. 20.)

Xarəzmi Yer kürəsinin bir dərəcəlik meridian uzunluğunu da ölçmüşdür.

Şərq elm dünyasında cəbr elmi ilə bağlı ilk əsər yazan alim Xarəzmi olmuşdur. Bu elm sahəsində daha əvvəl də bir sıra elmi tədqiqatlar aparılmış və cəbr elmi həndəsədən ayrılaraq müstəqil elm sahəsi kimi qəbul edilmişdir. Birdərəcəli tənliklərin həlli yolları tapıldığı halda, ikidərəcəli tənliklərin həlli yolları hələ də qaranlıq qalan məsələlərdən idi. Xarəzmi ikinci kitabı olan "əl-Cəbr vəl-müqabələ" ilə ikidərəcəli tənliklərin həlli yollarını sistemli olaraq müəyyən etmişdir. Bu əsərində Xarəzmi müəyyənləşdirdiyi həlli yollarını bir müəllim kimi izah etmiş və həndəsi qanunlarla sübuta yetirmişdir.

Sabit ibn Qurra (821-901)

SABİT İBN QURRA

Sabit İbn Qurra riyaziyyat, astronomiya və tibb sahələrində mütəxəssis olan İslam alimlərindən biridir. Yaşadığı dövrdə bütün bu elm sahələrinin inkişafında qabaqcıllardan biri olmuş, xüsusilə də həndəsə və cəbr elmində yeniliklərə imza atmışdır. (Kalender Yıldız, Müslüman İlim Öncüleri, Işık Yayınları, 2005, s. 75) Şərqşünas alim Corc Rivuar Sabit ibn Qurranın həndəsə elmindəki nailiyyətlərini bu sözləri ilə ifadə etmişdir: ***"Cəbrin həndəsəyə tətbiqinə görə müsəlmanlara borcluyuq, xüsusilə də 900-cü ildə vəfat edən Sabit ibn Qurranın əsərinə."***

Kandilli rəsədxanasının arxivində tapılmış bu əlyazma müsəlman alimlərinin astronomiya sahəsindəki fəaliyyətlərini də əks etdirir.

Riyaziyyat, astronomiya, astrologiya, tibb və tərcümə ilə məşğul olan Sabit ibn Qurranın 79 əsəri bizə məlumdur. Bunlardan 21-i tibb, 2-si musiqi, qalan digər əsərləri isə riyaziyyat və fəlsəfəyə həsr olunmuşdur.

Sabit ibn Qurra sinus teoremini kəşf etmiş və bunu astronomiya elmində tətbiq etmişdir. Eyni zamanda, Pifaqor teoreminin də ümumi isbatını vermişdir. (Ankara Üniversitesi Astronomi Tarihi ders notları (http://dione.astro.science.ankara.edu.tr/muyes/ast_tar/a101i.pdf)) Dünyanın çevrəsini 360 meridiana bölünmüş qəbul edərək ekvatorun uzunluğunu hesablayan və bununla da yerin radiusunu tapan İslam alimidir. (Kalender Yıldız, Müslüman İlim Öncüleri, Işık Yayınları, 2005, s. 74)

Sabit ibn Qurra Evklidin biliklərindən istifadə edərək cəbr sahəsində daha çox ümumi düsturların həllini göstərməyə başlamışdır. Karl B. Boyer "Riyaziyyatçıların tarixi" kitabında bu mahir riyaziyyatçı haqqında belə demişdir:

"B.e. IX əsri müsəlman riyaziyyatçıların qızıl dövrü olmuşdur. Əsrin birinci yarısına Xarəzmi, ikinci yarısına Sabit ibn Qurra adını qızıl hərflərlə yazdırmışdır. Xarəzmi ilə Evklid "banilər" kimi bir-birinə bənzəyirlər. Sabit ibn Qurra isə Pappus kimi ali riyaziyyat şərhçisidir".

(Carl B. Boyer, A History of Mathematics, John Wiley and Sons, 1968, New York, s. 258.)

FƏRQANİ

Fərqani (IX əsr)

[Əbul-Abbas ibn Muhəmməd ibn Kəsir əl- Fərqani]

Doqquzuncu əsrdə yaşamış ekliptik maililiyini və Günəşin hərəkət etdiyini kəşf edən böyük astronomiya və riyaziyyat alimidir. Türküstanın Fərqanə bölgəsindən olan Fərqani astronomiya, riyaziyyat, coğrafiya və mexanika sahələrində təcrübəyə əsaslanan tədqiqatlar aparmışdır. (Prof. Prof. Dr. Mehmet Bayrakdar, İslam'da Bilim ve Teknoloji Tarihi, Türkiye Diyanet Vakfı Yayınları, 2007, Ankara, s. 252) Göy cisimlərinin hərəkətlərini tədqiq etmiş və Ptolomeyin astronomiya elmində qəbul edilmiş iddiaları haqqında əks-səda doğuran

şərhlər yazmışdır. Kainatın və planetlərin həcmi və bir-birləri arasındakı məsafələri araşdırmışdır. Araşdırmaları nəticəsində apardığı hesablamalar qərb astronomiyasında Kopernikə qədər dəyişməz ölçülər kimi qəbul edilərək, yüz illərlə istifadə edilmişdir.

Fərqaninin araşdırmaları nəticəsində ilk dəfə Günəşin öz orbitinin olması və öz oxu ətrafında qərbdən şərqə doğru fırlandığı aşkar edilmişdir. Bundan başqa, 41 il davam edən astronomiya tədqiqatları nəticəsində paralellər arasındakı məsafəni də müəyyən etmişdir. (George Saliba, Islamic Science and the Making of the European Renaissance, The MIT Press, 2007, Londra, s. 81) Fərqaninin ən diqqətə layiq çalışmalarından biri isə Günəş tutulmasını əvvəlcədən müəyyən etmək üçün kəşf etdiyi üsuldur. Fərqani 842-ci ildə bu üsulla Günəş tutulmasını əvvəlcədən müəyyən etmişdir. (http://ansiklopedi.turkcebilgi.com/Fergani)

Fərqaninin astronomiya ilə bağlı dövrümüzə gəlib çatan 6 əsərindən ən əhəmiyyətlisi *"Cəvami əl-ilmi əl-nücum vəl-hərəkat əl-səmaviyyə"*dir (Astronomiya və göy cisimlərinin hərəkətlərinin prinsipləri). Göy cisimlərinin hərəkəti ilə bağlı olan bu astronomiya kitabının əlyazma nüsxələri Oksford, Paris, Qahirə və Amerikanın Prinston Universiteti kitabxanasında saxlanılır.

Astronomiya, riyaziyyat, coğrafiya və mexanika sahələrindəki fəaliyyətləri bu elm sahələrinin inkişafında və əsaslarının güclənməsində mühüm rol oynamışdır. O dövrdə bütün yaşayan Türküstan və Avropa alimlərinin fəaliyyətlərində Fərqani dəsti-xəttini görmək mümkündür. Latın dilinə tərcümə edilən əsərləri əsrlərlə Avropa universitetlərində dərslik kimi istifadə edilmişdir. Qərb dünyasında «Alfraganus» adı ilə tanınan Fərqaninin Yerin çevrəsi ilə bağlı hesablamaları (təxminən 40 253 700 metr) Xristofor Kolumbun Atlantik okeanını keçərək Hindistana çatmaq fikrini həyata keçirməsində cəsarətləndirici rol oynamışdır. Kolumb bu barədə belə deyir:

"Səyahətlərim arasında Lissabondan Qvineyaya olan marşrutu diqqətli şəkildə müşahidə etdim və hər bir dərəcə üçün Alfraganusun hesablaması olan 56 3/2 ölçünü millik tapdım. Bu ölçüyə etibar etməliyik".

(J.N. Fiske, The Discover of America, Cilt I, Boston 1983, s. 377-378; Grant, 1986, s. 72-73.)

Əl-Bəttani (859-929)

[Əbu Abdullah Muhəmməd ibn Cabir ibn Sinan əl-Rəqqi əl-Hərrəni əl-Bəttani]

ƏL-BƏTTANİ

Riyaziyyat, astronomiya və coğrafiya alimi olan Bəttani xüsusilə astronomiya sahəsində bir çox kəşfləri ilə elm tarixinə əhəmiyyətli töhfələr vermişdir. Qərbdə "Albategnius" kimi tanınan Bəttani bu gün belə dünyanın ən məşhur 20 astronomundan biri kimi qəbul edilir. Bəttani 877-ci ildə qurduğu rəsədxanada Günəş, Ay və planetlərin hərəkətlərini tədqiq etmiş, bu müşahidələrin hamısını "Zici-sabi" adlı astronomiya kataloqunda

toplamışdır. Sözügedən kataloq bu mövzuda yazılmış ən böyük və əhatəli əsərdir.

Məşhur astronom özündən beş əsr sonra yaşamış Kopernikin 230 35' kimi hesabladığı Yerin ekliptik maililiyini 230 kimi hesablamış, dövrümüzdə məlum olan bucaq qiymətini yarım dəqiqəlik bir fərqlə müəyyən etməyi bacarmışdır. Bundan başqa, bir Günəş ilinin 365 gün, 5 saat, 46 dəqiqə və 24 saniyədən ibarət olduğunu tapmışdır. Bu kəşf dövrümüzün hesablamalarına son dərəcə yaxındır. Günəşin təpə nöqtəsindəki uzunluq dairəsinin Ptolomeyin kəşfindən bəri 160 47' artdığını da kəşf etmişdir. Bu nəticə Günəşin orbit hərəkətlərini və bərabər zamanlılıqda kiçik fərqlərin meydana gəldiyini göstərən əhəmiyyətli kəşfdir.

Riyaziyyat sahəsində yunan xordası əvəzinə sinuslardan istifadə edən ilk şəxsdir. Yeni triqonometriyanın həqiqi banisi kimi qəbul edilən Bəttani fəaliyyətlərində sferik triqonometriya sahəsində ixtisaslaşmış, düz bucaqları tədqiq edərək sinus, kosinus, tangens, kotangens, sekant və kosekant anlayışlarını ortaya qoymuşdur. (Kalender Yıldız, Müslüman İlim Öncüleri, Işık Yayınları, 2005, s. 71) Astronomiya və triqonometriya ilə bağlı çoxlu əsərləri var. Astronomiya sahəsindəki fəaliyyətləri intibaha qədər Avropada iz qoymuş, astronomiya və triqonometriyadakı kəşfləri bu elmlərin inkişafına kömək etmişdir. (Prof. Prof. Dr. Mehmet Bayrakdar, İslam'da Bilim ve Teknoloji Tarihi, Türkiye Diyanet Vakfı Yayınları, 2007, Ankara, s. 247)

Əsərləri latın dilinə tərcümə edilən ilk müsəlman alimlərindən sayılan Bəttani elmi fəaliyyətlərini əsl məqsədini bu əsas üzərində qurmuşdur:

"İnsan Allahın (cc) varlığını, birliyini, qüdrətini və əsərlərinin mükəmməlliyini başda astronomiya olmaqla, elmlərin vasitəsilə öyrənə bilər. Məsələn, bu görünən ulduzlar, üstündə yaşadığımız bu Yer və Yerin hərəkətləri Allahın (cc) varlıq və birliyinin açıq dəlilidir".

(Yusuf Karaosmanoğlu, Astronomide Bir Öncü: El Battani, Sızıntı Dergisi, Sayı. 336)

Əbul-Qasim Zöhrəvi (936-1013)
[Əbul-Qasim Xələf ibn Abbas əz-Zöhrəvi]


ƏBUL - QASİM ZÖHRƏVİ

Cərrahiyyənin müstəqil elmə çevrilməsi əndəluslu Zöhrəvinin sayəsində olmuşdur. Zöhrəvi öz dövrünə qədər başqalarının bacarmadığı cərrahiyyə əməliyyatları aparmış, metodlar və alətlər kəşf etmişdir. Zöhrəvi o dövrün ən çox və ən ciddi şəkildə tibb elmi ilə məşğul olan həkimi kimi qəbul edilir. Şöhrətinin yayılmasına kömək edən ən vacib amil məşhur əsəri "Əl-Təsrif" olmuşdur. İki cilddən və otuz bölmədən ibarət olan bu kitab doqquz

"Əl-Təsrif" Kitabından:
Cərrahiyyə alətlərinin bəzisinin şəkilləri

yüz səhifəlik bir əsər olub, əsl adı *"Əl-Təsrif Limən Acizə ari it Tə'lif"*dir. Bu əsər Qərbdə istifadə edilən standart ensiklopediya olmuşdur. "Əl-Təsrif" cərrahiyyə alətlərinin tərifləri ilə bərabər bu alətlərin şəkillərinin də təsvir edildiyi ilk kitabdır. Sayı 200-ə çatan bu cərrahiyyə alətlərinin bir çoxu daha əvvəl heç bir əməliyyatda istifadə edilməmiş yeni alətlərdir. Zöhrəvinin tibb elmi ilə bağlı uğurlarından bəziləri bunlardır:

- Zöhrəvi ölü dölün çıxarılması və amputasiya (orqanların kəsilməsi) daxil olmaqla, bir çox həssas əməliyyatları daha da təkmilləşdirmişdir. (Kalender Yıldız, Müslüman İlim Öncüleri, Işık Yayınları, 2005, s. 119, 132)

- Dövrünün cərrahiyyə ilə bağlı biliklərini ümumiləşdirmiş, təcrübələr aparmaq üçün canlı heyvanlardan istifadə etmək kimi yeni fikir və üsulları tibb dünyasına gətirmişdir.

- Tarixdə ilk dəfə hemofiliyanı (qanın laxtalanma xüsusiyyətinin pozulması nəticəsində yaranan ciddi qan xəstəliyi) açıqlayan həkim Zöhrəvidir. (On Asır Yaşayan Hekim: Ebulkâsım Zehravî, A. Bayram, Sızıntı Dergisi, sayı 62)

- Çanaq sümüyü sınıqlarını ilk dəfə müalicə edən şəxsdir. (Kalender Yıldız, Müslüman İlim Öncüleri, Işık Yayınları, 2005, s.133.)

- Böyrək daşlarından xilas olmağın yollarını ilk kəşf edən alimdir.

- Burunun artıq ətini kəsmək üçün ilk dəfə "sənanin" adlandırılan aləti də Zöhrəvi düzəltmişdir.

- İlk dəfə yırtıq əməliyyatını həyata keçirmiş, əməliyyatlarında özünə xas anesteziya metodlarından istifadə etmişdir.

- Zöhrəvi çürük dişlərin qırılmadan çəkilməsi üçün qurğuşunla doldurulub çəkilməsi fikrini irəli sürən ilk həkim kimi tanınır.

"Əl-Təsrif" Kitabından:
Cərrahiyyə alətlərinin bəzisinin şəkilləri

Əməliyyatlar zamanı lazım olan alətləri özünə xas metodla mikroblardan təmizləyərək istifadə etmişdir. Bu təmizliyi "maddə'üs-safra" adlandırılan maddə vasitəsilə etmişdir.

Dövrümüzdə aparılan araşdırmalar bu maddənin bakteriyaları məhv edən xüsusiyyətə malik olduğunu göstərmişdir.

Zöhrəvinin heyvan bağırsağından yaraları tikmək üçün ilk dəfə istifadə etməsi qərb elm adamları tərəfindən qəbul edilmişdir. Bugünkü müasir steril paketlərin içindəki bağırsaq lifləri Zöhrəvidən dövrümüzə gəlib çatmışdır.

(Kalender Yıldız, Müslüman İlim Öncüleri, Işık Yayınları, 2005, s.133.)

Donald Kempbelin fikrincə: "Avropa alimlərinin Zöhrəvi ilə bağlı diqqətini cəlb edən şey doğuşda dölü asanlıqla çıxarmasıdır. Onun üsulu Qalenin metodunu kölgədə qoyaraq Avropada beş yüz il üstünlüyünü qorumuş və xristian Avropasında cərrahiyyə standartlarının inkişaf etdirməsində böyük rol oynamışdır".

(Kalender Yıldız, Müslüman İlim Öncüleri, Işık Yayınları, 2005, s. 132)

İBN HEYSƏM

İbn Heysəm (965-1040)

[Əbu Ali Muhəmməd əl– Həsən ibn əl-Həsən ibnul-Heysəm]

İbn Heysəm orta əsrlərin ən böyük İslam fiziklərindən biri hesab olunur. İbn Heysəmin işıqla bağlı *"Kitabul-mənazir"* (Optikanın xəzinəsi) adlı əsəri latın dilinə tərcümə edilmiş və qərbdə Rocer Bekon kimi fiziklərin təcrübələrində istifadə edilən bir mənbə olmuşdur. Qədimdə işığın gözdən çıxaraq əşyaya çatması ilə görmənin əmələ gəldiyini fikirləşirdilərsə, Heysəm, tam əksinə, işığın əşyadan bizə çatdığını sübut etmişdir. Görmənin fiziki açıqlamasını ilk dəfə İbn Heysəm vermişdir. Bundan başqa, riyaziyyatçı və filosof olan İbn Heysəm yüzdən çox əsər yazmış və dövrünün bütün elm sahələrində böyük ən nüfuzlu alimlərindən biri kimi qəbul edilmişdir.

(http://tr.wikipedia.org/wiki/%C4%B0bn-i_Heysem)



1-Konyuktiva 2-Quzehli Qişa 3-Buynuz Qişa 4-Büllur 5-Göz siniri

a-Göz siniri b-Quzehli Qişa c-Buynuz Qişa

İbn Heysəm Orta əsrlərin ən nüfuzlu fiziklərindən biri hesab olunur. Yuxarıdakı qrafikdə Heysəmə görə gözün anatomiyası çəkilmişdir.



İbn Heysəmin *"Kitabul-mənazir"* (Optikanın xəzinəsi) adlı əsərindəki göz cizgisi.

Biruni (973-1051)
[Əbu Reyhan Muhəmməd ibn Əhməd əl-Biruni]

BİRUNİ

İslam dünyasında X-XI əsrlərin ən böyük elm və din alimi sayılan Biruni dünya elm tarixində dövrünün ən böyük astronomu, riyaziyyatçısı, etnoqrafı, tarixçisi və filosofu olmuşdur. Əsərləri bu gün hələ də qərb elm dünyasında mənbə kimi istifadə edilir. YUNESKO-nun 25 dildə çap etdirdiyi "Conrier" jurnalı 1974-cü il iyun sayının üz qabığında *"1000 il əvvəl Orta Asiyada yaşayan beynəlxalq düha Biruni: astronom, tarixçi, botanik, əczaçılıq mütəxəssisi, geoloq, şair, mütəfəkkir, riyaziyyatçı, coğrafiyaşünas və humanist"* ifadələrinə yer vermişdir.

Yaşadığı əsrə "Biruni əsri" deyilməsinə səbəb olan və yaşadığı dövrdən əsrlər sonra da əsərlərindən fayda götürülən Biruni yalnız İslam aləmində deyil, bütün dünyada iz qoymuşdur. (Süleyman Feyyaz, Eczacılığın Babası El Biruni, Anka Yayınları, 2003, İstanbul, s. 39) Əslən türk olan Biruni türklərin İslamı qəbul etməsi nəticəsində bu mədəniyyətin çox geniş ərazilərə yayılması ilə bəşəriyyətin, xüsusilə elm sahəsində böyük qazanclar əldə etdiyini bildirmişdir.

Yerin cazibə qüvvəsi qanununun ingilis alimi Nyuton tərəfindən kəşf edildiyi qəbul edilsə də, bu mövzuda ilk dəfə tədqiqat aparan Birunidir. Bundan başqa, dövrümüzdə müzakirə edilən quru hissələrinin şimala doğru sürüşməsi fikrini 9 əsr yarım əvvəl dilə gətirmişdir. Yaşadığı dövrdə Ümid burnunun varlığından ilk dəfə danışan Biruni Şimali Asiya və Şimali Avropa haqqında da hərtərəfli məlumatlar vermiş, bundan başqa, Xristofor Kolumbdan beş əsr əvvəl Amerika qitəsindən və Yaponiyadan bəhs etmişdir.
(Süleyman Feyyaz, Eczacılığın Babası El Biruni, Anka Yayınları, 2003, İstanbul, s. 27)

Astronomiya sahəsindəki fəaliyyətlərinə 995-ci ildə Günəşin və planetlərin meyilliyini hesablayaraq başlamışdır. İşığın sürətinin səsə nisbətən son dərəcə böyük olduğunu qeyd etmişdir. (Kalender Yıldız, Müslüman İlim Öncüleri, Işık Yayınları, 2005, s. 189) Biruni triqonometriyada kosinus teoremi kimi tanınan əlaqəni ilk dəfə ortaya qoymuş, həndəsəni botanikaya tətbiq etmiş, quşlarla bağlı çox orijinal faktlar müəyyən etmiş və çox fərqli sahələrdə bir çox kitablar yazmışdır.

İşığın səsdən daha sürətli olduğunu kəşf etmişdir. İsti su ilə qaynar su arasındakı fərqləri aşkar etdiyi kimi, istiliyin metallar üzərində genişləndirici təsirini də kəşf etmişdir.
(Süleyman Feyyaz, Eczacılığın Babası El Biruni, Anka Yayınları, 2003, İstanbul, s. 22)

"Kitabül-cəmahir fi mərifətül-cəvahir" (Cövhərlərin xüsusiyyətlərinə dair) adlı əsərində 23 bərk cisimlə 6 mayenin çəkilərini bugünkü dəyərlərinə çox yaxın şəkildə hesablamışdır. (Kalender Yıldız, Müslüman İlim Öncüleri, Işık Yayınları, 2005, s.188) Biruni izafi (nisbi) sıxlıqları mahruti alət adlandırdığı və ən qədim

piktonometr (sıxlıq ölçmə aləti) adlandırılan alətlə müəyyən etmişdir. Göy üzü və Yer səthinin müxtəlif xüsusiyyətlərini, en və uzunluq dairələrini, qitə və dənizləri göstərmək üçün yeddi metr diametri olan kürə düzəltmişdir. Bu fəaliyyəti ilə tarixdə Yeri kürə üzərində xəritəyə salan ilk alim adını qazanmışdır. (Süleyman Feyyaz, Eczacılığın Babası El Biruni, Anka Yayınları, 2003, İstanbul, s. 26) *"Nihayətül-əmakin"* (Məkanların sonları) adlı əsəri coğrafiyadan geologiya və geodeziyaya (Yer kürəsinin formasının müəyyən edilməsi və Yer üzünü ölçmə fəaliyyətləri) qədər müxtəlif sahələri əhatə etmişdir. (A.g.e, s. 36) Birunin astronomiya sahəsindəki ən vacib əsəri isə *"əl-Qanunül-məsudi"* (Məsudi qanunlar) adlı ensiklopediyasıdır. Bu əsərdə bir çox yeni kəşflərlə bərabər, triqonometriyaya aid bölmə də vardır. Ptolomey və Aristotelin qaydalarına qarşı çıxaraq, Yerin sabit deyil, fırlanan bir kütlə olduğunu irəli sürən Biruni, elm tarixçilərinə görə, müasir astronomiyanın təməlini qoymuşdur.

Biruninin Allaha İmanı

Biruni Buxara kitabxanasında İbn Sina ilə tanış olmuş, bir-birlərinin biliklərindən faydalanmışdılar. Buxara alimləri sağlam bilik mübadiləsi ənənəsinə malik idilər. Bildiklərini digərlərindən gizlətməz, paylaşmağı sevərdilər. (A.g.e, s. 20)

Biruni cəbr, geometriya və coğrafiya sahələri ilə bağlı Qurandan bir ayə demiş, ayədə bəhs edilən mövzunu şərh etmiş, elmlə dini birləşdirmiş, elmi öyrənməkdə məqsədinin Allahı tanımaq və həqiqəti tapmaq olduğunu söyləmişdir. Əsərləri hələ də qərb elm dünyasında mənbə əsər kimi istifadə edilir.

Biruni *"Yer üzü və ulduzlar haqqında qanun"* adlı kitabında ulduz və planetlərin kürə şəklində olduqlarını sübut etmiş, Yerin Günəş ətrafında, Ayın da Yerin ətrafında dövr etdiyini sübut edərək, qərb elm adamlarından 6 əsr əvvəl bu həqiqətləri açıqlamışdı. (A.g.e,, s. 35)

Yerin diametrini öz adı ilə tanınan məşhur bir qanun ilə hesablamağı bacaran Biruni Yerin radiusunu ancaq 14 kilometrlik fərq ilə tapmışdır. (A.g.e,, s. 36)

Biruninin Hindistan haqqında çox dəyərli məlumatlar verən *"Hindistan tarixi"* adlı kitabı bütün qərb dillərinə tərcümə edilmiş, coğrafiya və tarix alimləri üçün əvəzedilməz mənbə olmuşdur. Hindistanda olduğu dövrdə bir çox ərəb dilində olan mənbələri sanskrit dilinə, sanskrit dilindəki bəzi kitabları da ərəb dilinə tərcümə edərək, İslam və hind sivilizasiyaları arasındakı ilk mədəniyyət körpüsünü qurmuşdur. (A.g.e,, s. 33)

Biruni ayələrdəki hikmətlərə istinad edərək elmi fəaliyyət göstərmişdir.

Allah Qurandakı bir çox ayələrdə iman həqiqətlərinin əhəmiyyətinə diqqət çəkir. "Fatir" surəsindəki ayələrdə iman həqiqətlərindən nümunələr verilərək belə bildirilir:

Məgər Allahın göydən bir yağmur yağdırdığını görmürsənmi?! Sonra Biz onunla növbənöv meyvələr yetişdirdik və dağlarda müxtəlif rəngli – ağ, qırmızı, tünd qara yollar peyda etdik. (Fatir surəsi, 27)

İnsanların, heyvanların və davarların da bu cür müxtəlif rəngləri vardır. Allahdan Öz bəndələri içərisində ancaq alimlər qorxar. Həqiqətən, Allah yenilməz qüvvət sahibidir, bağışlayandır! (Fatir surəsi, 28)

Biruni də ayələrdəki hikmətlərə istinad edərək elmi həqiqətləri əldə etmişdir. Məsələn, Yerin şimalında Günəşin aylarla çıxmadığını, çıxdığı zaman da batmadığını, **"Nəhayət, günəşin çıxdığı yerə çatdıqda onu bir qövm üzərində doğan gördü ki, onlardan ötrü ona** *(günəşə)* **qarşı heç bir sipər yaratmamışdıq."** (Kəhf surəsi, 90) ayəsi ilə açıqlamış və bir lampanın önünə Yeri təmsil edən bir kürə qoyub fırladaraq göstərmişdir. (A.g.e., s. 34)

Biruni kitabı üçün ona bir filin ağırlığında qızıl və cavahirat göndərən Sultan Məsuda hədiyyəsini geri göndərərək: *"Bu kitabı sərvət üçün deyil, elm üçün yazmışam"*, - demişdir. (A.g.e., s. 37)



Bu şəkildə Biruninin elmi fəaliyyətlərindən bir neçə nümunə göstərilmişdir.

İbn Sina (980-1037)

[Əbu Əli əl-Huseyin ibn Adbdullah ibn Əli ibn Sina]

İBN SİNA

Dünyadakı bütün elmi dairələr tərəfindən dünyanın gəlib-keçən ən dəyərli alimlərindən biri kimi qəbul edilən İbn Sina, hələ 18 yaşında ikən dövrünün bütün elmlərini öyrənmişdir. Tibdə şah əsəri kimi qəbul edilən və qısaca *"əl-Qanun"* kimi tanınan *"əl-Qanun fi't-tibb"* (Tibb qanunu) adlı əsəri fiziologiya, hifzüsihhə (sağlamlığı qoruma), müalicə və farmakologiya (dərmanlarla bağlı elm sahəsi) bölmələrinə ayrılmışdır. Beş cildlik, təxminən bir milyon sözdən ibarət böyük tibb ensiklopediyası olan bu əsər istər məzmunu, istərsə də hazırlanma tərzi baxımından əsrlərlə tibb ədəbiyyatına yol göstərmişdir.

XIII əsrdən etibarən Avropa universitetlərində dərslik kimi istifadə edilərək, o dövrün Fransasının məşhur tibb fakültələri olan Montpellier və Loven Universitetlərində də əsas dərslik olmuşdur. Özündən sonra yeni tibbin yaranmasına qədər türk, ərəb, fars və müxtəlif qərb dillərində yazılan əsərlərin istinad etdikləri mənbə hesab edilmişdir. *"əl-Qanun"*da bəhs edilən tibbi biliklərin böyük bir hissəsi bu gün də öz dəyərini qoruyur.

Dövrümüzün tibbinə işiq tutan fikirləri ilə İbn Sina

Qərb dünyasında "Avisena" adı ilə tanınan İbn Sina tibb dünyasında ilk dəfə olaraq tibb və cərrahiyyəni iki ayrı sahə kimi ayırmışdır. Bundan başqa, cərrahi müalicənin insanın sağlam həyat keçirməsi üçün anatomiyanın əhəmiyyətini vurğulamış və həyati təhlükənin çox yüksək olması ilə bağlı üstünlük verilməyən cərrahi müalicə ilə bağlı nümunələr verərək, əməliyyatlarda istifadə ediləcək alətləri tövsiyə etmişdir.

Tibbə bağlı əsərləri tədqiq edildikdə İbn Sinanın dövrümüzün tibb dünyası üçün belə əsas olan bir çox fikrə sahib olduğunu görmək olar. Hətta tibbi araşdırmalarında bəzi xəstəliklərin yoluxmasında gözlə görünməyən bir cür varlıqların təsirləri olduqlarını, yəni "mikrobların" mövcudluğundan və bu bilinməyən varlıqlardan əsərlərində bəhs etmişdir. Dəri altına ilk dəfə iynə vuran, əməliyyatlarda narkozu ilk dəfə tətbiq edən, mədə və bağırsaq xəstəliklərini elmi cəhətdən tədqiq edən, ruhi vəziyyətlərin həzm sisteminə təsirini müəyyən edən, sifət iflicinin səbəblərini ilk dəfə tapan, mədə və bağırsaq qurdlarını, tənəffüs sistemini ilk dəfə müəyyən edən həkim İbn Sina olmuşdur. (A.g.e,, s. 43)

Böyük Həkim

Riyaziyyat, astronomiya, həndəsə sahələrində geniş tədqiqatlar aparan, "Böyük həkim" kimi qəbul edilən İbn Sina əksəriyyəti fizika, astronomiya və fəlsəfə kimi elm sahələrinə aid olan 150-yə yaxın əsər yazmışdır. İsaak Nyutondan 500 il əvvəl fizika dinamikasının ilk qanununu "Şəfa" adlı 18 cildlik ensiklopediyasında açıqlayan İbn Sinanın fəaliyyətləri tiblə bərabər, riyaziyyat, fizika, metafizika, teologiya, iqtisadiyyat, siyasət və musiqi sahələrini də əhatə edir. (A.g.e,, s. 43) İbn Sina fəlsəfə sahəsində də istər şərq, istərsə də qərb filosoflarına təsir etmişdir. Əsərləri XII əsrdə latın dilinə tərcümə edilmiş və bundan sonra bütün dünyaya yayılmışdır. İbn Sinanın əsərləri təxminən 8 əsr boyu dünya kitabxanalarının baş guşələrində yer almışdır. (A.g.e, s. 44.)

XƏZİNİ

Xəzini (1100-1160)

XII əsrdə Türküstanda yaşamış astronom və fizik Xəzini, xüsusilə yerin cazibə qüvvəsi və tərəzilərlə bağlı fəaliyyətləri ilə tanınır. (Kalender Yıldız, Müslüman İlim Öncüleri, Işık Yayınları, 2005, İstanbul, s. 188.) Xəzini Nyutondan 500 il əvvəl hər cismi yer kürəsinin mərkəzinə doğru çəkən bir güc olduğunu söyləmişdir. (A.g.e,, s. 188.) Rocer Bekondan yüz il əvvəl Yerin mərkəzinə doğru yaxınlaşdıqca suyun sıxlaşdığı fikrini irəli sürmüşdür. Mayelərin sıxlığını və hərarətini ölçmək üçün aerometrdən istifadə edən ilk şəxsdir. (A.g.e,l, s. 188.) Bundan başqa, bir çox İslam şəhərlərində qiblənin necə müəyyən ediləcəyi barədə çalışmışdır. Xəzini işığın sınma prinsiplərini də tədqiq etmiş və göy üzü ilə təmas edən günəş şüalarının Yerə birbaşa və dümdüz deyil, sınaraq çatdığını müəyyən etmişdir.

Xəzini kimyəvi maddələrin sıxlıq və xüsusi çəkilərini ölçmək üçün icad etdiyi həssas tərəzilərlə kimya elminin inkişafına yardımçı olmuşdur. *"Kitab mizanül-hikmə"* (Müdriklik ölçüsü) adlı əsərində su tərəzisini bir ölçmə aləti kimi tanıtmışdır. İcad etdiyi bu tərəziyə *"əl-mizanül-cami"* (toplayan tərəzi) adını vermişdir. Bu tərəzi ilə apardığı sıxlıq və çəki hesablamaları dövrümüzün texnologiyasından istifadə etməklə aparılan hesablamaları olduqca yaxındır. (Yavuz Unat, "Teknoloji Tarihinde Cezerî'nin Öncülleri", Bilim ve Ütopya, Ocak 2001, Sayı 91, İstanbul 2001, s. 12-18) Xəzini *"Zic'i sanacari"* (Ulduz kataloqu) adlı əsərində ulduzlar və planetlərlə bağlı məlumatlara və Səlcuqilər dövlətinin en və uzunluq dairələrinə də yer vermişdir. *"Risalə fil-alət"* (Alətlər haqqında məlumat) adlı kitabçasında isə müşahidə alətlərindən bəhs edir.



Şəkildə Xəzininin cisimlərin hava içindəki ağırlıqlarını hesablamaq üçün kəşf etdiyi beş kəfli hikmət tərəzisinin xəyali forması əks etdirilmişdir.

İbn Rüşd (1126-1198)
[Əbul-Vəlid Muhəmməd ibn Əhməd ibn Rüşd]

İBN RÜŞD

Qərb dünyasında "Averos" adı ilə tanınan əndəluslu fəlsəfə, fiqh, riyaziyyat və tibb alimidir. Ən məşhur fəlsəfi əsəri *"Təhafutul-təhafut"*dur (Ziddiyyətlərin ziddiyyətləri). Aristotelin düşüncə sistemini İslam ilə əlaqələndirməyə çalışmışdır. Qərbdə Aristotelin elmi mirasının yenidən kəşf edilməsi İbn Rüşdün əsərlərinin XII əsrin əvvəllərində latın dilinə tərcümə edilməsi ilə nəticələnmiş və əsərləri əsrlər boyu şərq və qərb düşüncə tərzinə təsir etmişdir. Ondan ən çox təsirlənənlər yəhudi alim İbn Meymun, xristian mütəfəkkiri Akinolu Tomas və protestant reformist Martin Lüter olmuşdur. Kitabları on cild şəklində İtaliyada çap edilmiş və həm İtaliya, həm də Fransa universitetlərində dərslik kimi istifadə edilmişdir. (Süleyman Feyyaz, Son Filozof İbn Rüşd, Anka Yayınları, 2003, İstanbul s. 33-38)

İnsan orqanizmini yaradılış etibarilə Allahın fövqəladə əsəri" (ami Hamarneh (1970), "Averroes, Contra Galenum by J. Christoph Burgel", Journal of the American Oriental Society 90 (2), p. 406) kimi görən İbn Rüşd: *"Tədqiq edilmək üçün orqanizmin kəsilib hissələrə ayrılması imanı qüvvətləndirir"*, - demişdir. (Dr. Albert Zaki Iskandar, Ibn ul-Nafees has Dissected the Human Body, Encyclopedia of Islamic World.) Nevrologiya sahəsində İbn Rüşd parkinson xəstəliyinin varlığını və fotoreseptor xüsusiyyətlərinin gözün tor qişasına aid olduğunu irəli sürmüşdür. (Ernest A. Moody (June 1951). "Galileo and Avempace: The Dynamics of the Leaning Tower Experiment (II)", Journal of the History of Ideas 12 (3), p. 375-422 [375])

Fizika sahəsində isə İbn Rüşd qüvvəni "maddi bir varlığın kinetik vəziyyətini dəyişdirməkdə işin görülmə sürəti" kimi tərif edən və ölçən ilk şəxsdir. Bundan əlavə, qüvvənin təsiri və ölçüsünün maddi baxımdan davamlı bir kütlənin kinetik vəziyyətindəki dəyişiklik olduğunu iddia edən ilk şəxs də İbn Rüşddür. (Ernest A. Moody (June 1951). "Galileo and Avempace: The Dynamics of the Leaning Tower Experiment (II)", Journal of the History of Ideas 12 (3), p. 375-422 [380])

BƏDİÜZZAMAN CƏZƏRİ

Bədiüzzaman Cəzəri (1136-1206)
[Bədiüzzaman Əbul İz İsmail ibn er-Rəzzaz əl-Cəzəri]

Qərb mənbələrinin dövrünün zirvəsinə qalxmış müsəlman mühəndis kimi tərif etdiyi Cəzəri Şərqi Anadoluda Diyarbəkir Artuklu sarayında 32 il baş mühəndis olmuşdur. Burada elmi fəaliyyətlər göstərən Cəzəri, eyni zamanda, xəbərləşmə, nəzarət, müvazinət qurma və nizamlama elmi olan kibernetika elminin ilk banisidir. (http://www.cizre.bel.tr/cizre.aspx?id=kisiler) Zaman ərzində təkmilləşərək kompyuterlərin ortaya çıxmasına imkan yaradan bu elm sahəsi

insanlarda və cihazlarda məlumat mübadiləsi, nəzarəti və müvazinətin vəziyyətini tədqiq edir. (Kalender Yıldız, Müslüman İlim Öncüleri, Işık Yayınları, 2005, İstanbul, s. 190.) Cəzərinin çox saylı icadları bu gün də heyrətamiz keyfiyyətlərə malikdir.

Cəzəri su saatları, avtomatik nəzarət qurğuları, fəvvarələr, qan toplama qabları, şifrəli qıfıllar və robotlar kimi praktik və estetik bir çox qurğuların dizaynını verən və bunların necə həyata keçiriləcəyini izah edən *"Əl-Cami bəynə'l-İlm və'l-aməlin-nafi fi sinaati'l hiyəl"* (Cihaz hazırlanmasında faydalı məlumatlar və tətbiqlər) adlı kitabın müəllifidir. Əsərdə yer alan bütün şəkilləri özü çəkmiş və rəngləmişdir. XX əsrin başlanğıcından etibarən qərb dünyasında böyük maraqla qarşılanan bu əsər 1974-cü ildə *"Al Jazari's Book of Knowledge of Ingenious Mechanical Devices"* (Əl-Cəzərinin mahir mexaniki cihazlar haqqında məlumat kitabı) adı altında Donald R. Rill tərəfindən ingilis dilinə tərcümə edilmişdir. Kitabın tərcüməsinə ön söz yazan məşhur elm tarixçisi prof. Uayt Cr. bir çox kəşfin Leonardo da Vinçi və digərlərindən çox əvvəl Cəzəri tərəfindən edildiyini bildirir. Kibernetika elmindən istifadə etməklə düzəltdiyi mükəmməl cihazlara bənzər icadlara Cəzərinin vəfatından ancaq 200-500 il sonra başqa əsərlərdə rast gəlinir.

1- Avtomatlaşdırılmış musiqili oyuncaq, 2- Hidroenerjili su qaldıran maşın sxemi, 3- Su gücü ilə çalışan sakya zəncirli nasos vasitəsi, 4- Bir növ şam saatı, 5- Avtomatlaşdırılmış masa maşını, 6- Fil saatı, 7- Əl yumaq maşını.

Kəşfçi və mühəndis kimi Əl-Cəzəri, eyni zamanda, istedadlı bir sənətkar idi. Kitabında kəşfləri üçün təlimatlar vermiş və onları miniatür şəkillər istifadə edərək canlandırmışdır.

Cəzərinin dünya şöhrətli əsərində avtomatik cihazlar, robot fillər, öz-özünə oxuyan tovuz quşları, avtomatik saatlar, ələ su tökən robot insan və mühəndisliklə bağlı bir çox cihazların düzəldilməsi və işləməsi haqqında məlumatlar verilmişdir. Kitabda 50 cihazın ətraflı dizaynı çertyojları ilə birgə verilmişdir. Bu alətlərin 6-sı su saatı, 4-ü parafinli saat, 6-sı uzun lüləkli dolça, 7-si əyləncə məqsədilə istifadə edilən müxtəlif səslər çıxaran avtomat cihazlar, 3-ü dəstəmaz almaq üçün istifadə edilən avtomat cihaz, 4-ü qan alma qabı, 6-sı fəvvarə, 4-ü özü səs çıxaran cihaz, 5-i suyu yuxarı çıxaran cihaz, 2-si qıfıl, 1-i bucaq ölçən, 1-i qayıq su saatı və Amid şəhərinin qapısıdır. Cəzəri bu cihazlarda istifadə edilən xüsusi hissələri də çox dəqiqliklə hazırlamışdır.

İbn Baytar (1199-1248)

[Əbu Muhəmməd Ziyauddin Abdullah ibn Əhməd əl-Əşşab əl-Maləki]

İBN BAYTAR

Botanika, tibb və əczaçılıq elmlərində xüsusi yeri olan İbn Baytar orta əsrlərin ən böyük botaniki və əczaçısı kimi tanınır. Tibb ensiklopediyası, *"Qəribə fillər"*, *"Diskorides parafrazı"*, *"Dərmanlar və Qidalar Ensiklopediya"*sını yazmışdır. İbn Baytar həyatı boyu etdiyi səfərlərdə şəfalı otlarla bağlı dərin məlumatlar toplamışdır. Bu məlumatları *"Baytarnamə"* kimi də tanınan *"Dərmanlar və Qidalar Ensiklopediyası"*nda toplamışdır. Bu əsərdə 200-ü əvvəllər məlum olmayan, habelə digər alternativ bitkilərin əvəzinə istifadə edilə biləcək cəmi 1400 bitkilərin müalicəvi əhəmiyyətindən bəhs etmişdir. Tamamilə müasir metodlarla qələmə aldığı bu kitabda hansı dərmanların düzəldilə biləcəyini izah edən İbn Baytar bunları əlifba sırası ilə tərtib etmişdir. Dərmanların adlarının ərəb, yunan, fars və ispan dillərində qarşılığını vermişdir.

(Süleyman Feyyaz, Bitkibilimin Babası İbn Baytar, Anka Yayınları, 2003, İstanbul s. 42-47.)

Avropanın intibah dövründə avstriyalı şərqşünas Zonteymer Baytarın *"Dərmanlar və Qidalar Ensiklopediyası"*nı latın dilinə tərcümə etmişdir. Bu kitab XIX əsrə qədər qərb universitetlərində mənbə kimi istifadə edilmişdir.

Nəsrəddin Tusi (1200-1273)
[Əbu Cəfər Nəsrəddin Muhəmməd ibn Muhəmməd ibn əl-Həsən Əbubəkir əl-Tusi]

NƏSRƏDDİN TUSİ

Nəsrəddin Tusi mühəndislik və kosmosla bağlı fəaliyyətlərə yeniliklər gətirən, triqonometriyanı müstəqil elm sahəsinə çevirərək inkişaf etdirən böyük riyaziyyatçıdır. Evklidin *"Prinsiplər"* adlı 13 cildlik kitabını şərh və mühakimə etmişdir.

Nəsrəddin Tusi bəzi mühəndislik məsələlərini cəbr yolu ilə, bəzi cəbr məsələlərini də mühəndislik üsulu ilə həll edərək, riyaziyyatda yeni sistemlər meydana gətirmişdi. Riyaziyyat sahəsində *"Hərəkətli kürə"*, *"Kürənin açılması"* və *"Cəbr və müqayisə"* kimi kitablar yazmışdır. (Süleyman Feyyaz, Trigonometrinin Babası Et-Tusi, Anka Yayınları, 2003, İstanbul s. 27.) Tusinin Marağada qurduğu rəsədxana qısa zaman ərzində İslam dünyasının ən böyük və ən məşhur rəsədxanalarından birinə çevrilmişdir. (A.g.e, s. 33.) Zaman keçdikcə dünya tarixinin ən böyük və ən məşhur rəsədxanalarından biri kimi qəbul edilmişdir.

Tusi Ptolomeyin *"Magesty"* adlı kitabını şərh edərək kainat üçün yeni və daha bəsit bir nəzəriyyə irəli sürmüş, bu fəaliyyəti ilə də Kopernikin uğurlarına zəmin hazırlamışdır. Fizika, mühəndislik və kosmosla bağlı fəaliyyətlərində göstərdiyi yeniliklər bəşəriyyətin bu sahələrdə inkişafına yardımçı olmuşdur. Onun nəzəriyyə və sübutları dövrümüzdə də riyaziyyatçıların təqdirinə səbəb olmuşdur. Nəsrəddin Tusinin triqonometriya ilə bağlı kitabı qərb dünyasında latın, fransız və ingilis dillərinə tərcümə edilmiş və bir çox alimlər bu kitaba əsaslanaraq yeni teoremlər irəli sürmüşlər.

Amerikalı şərqşünas Corc Sarton Nəsrəddin Tusi haqqında belə demişdir: *"Tusi ən böyük müsəlman alimi və riyaziyyatçılarından biridir"*. (A.g.e, s. 41-43.)


ƏL - QƏZVİNİ

Əl-Qəzvini (1203-1283)

Böyük coğrafiyaşünas və yerşünas Zəkəriyyə bin Muhəmməd Qəzvini on beş illik fəaliyyəti nəticəsində *"Əcaib əl-məxluqat və qara'ib əl-mövcudat"* (Əcaib məxluqlar və qəribə varlıqlar) adlı kitab hazırlamışdır. Bu kitab fars, türk və fransız dillərinə tərcümə edilmişdir. Kitab iki əsas bölmədən ibarətdir. Birinci bölmədə göy cisimləri və kosmosla bağlı məlumatlar verilir, göy cisimlərinin yer və zamana görə mövqelərindən bəhs edilirdi. İkinci bölmədə isə yer kürəsi ilə bağlı əsas məlumatlar, yer üzünün geoloji quruluşu, minerallar, bitki və heyvanlardan danışılırdı. Alman tədqiqatçı Karl Brokelmanın "İslam mədəniyyətinin ən dəyərli kosmoqrafiyası" adlandırdığı Qəzvininin kosmoqrafiyası İslam dünyasında ən çox oxunan əsərlərdən biri idi (Kosmoqrafiya kosmologiyanın riyaziyyat və fizikanın yalnız əsas anlayışlarından faydalanaraq ən əhəmiyyətləri hadisələrdən bəhs edən elm qoludur).

"Əcaib əl-məxluqat" adlı əsərin xüsusiyyəti Allahın birliyi və yaradılışın birliyi əsasında yazılmasıdır. Kainat mütləq gerçək olan Allahın təcəllisidir. Allahın "Ol" əmri kainatdakı hər şeyin bir anda var olmasını və yaradılmış canlıların öz aralarında qarşılıqlı əlaqədə olmalarını təmin etmişdir. İslama görə, insan Allahın yaratmasındakı hikməti olduqca yaxşı şəkildə anlamalıdır. Qəzvini insanın Allahın xariqüladə və hikmətli yaratmasını tədqiq etmək, heyrətlə bunun üzərində düşünmək və bunu anlamaq üçün özü üçün mümkün olan və ən yüksək səviyyədə çalışmağın vacibliyini qeyd etmişdir. Bu şəkildə, insan həm bu dünyanın, həm də axirətin gözəlliklərini qazanacaqdır. (http://www.answers.com/topic/aja-ib-al-makhluqat-wa-ghara-ib-al-mawjudat)

Qəzvini şərqdə və qərbdə keçmiş alimlərin bilmədikləri bir çox həqiqətləri aşkar etməyi bacarmışdı. Kosmos və coğrafiya sahələri ilə məşğul olan bir çox alimlər XVI-XVII əsrlərə qədər bu kitabdan istifadə etmişlər. (Süleyman Feyyaz, Evrenin Gizlerini Açan Bilgin El-Kazvini, Anka Yayınları, 2003, İstanbul s. 27-31.) Qəzvininin ən son kitabı *"Ölkələrin izləri və insanların xəbərləri"* isə bir növ bəşəriyyət tarixidir.

İbn Nəfis (1213-1288)
[Əbul-Həsən Əlauddin Əli ibn Əbul-Həzm ibn əl-Nəfis əl-Qərəşi əd-Dıməşqi]

İBN NƏFİS

XIII əsrdə elmdə mühüm nailiyyətlərə möhürünü vurmuş başqa bir alim İbn Nəfis adı ilə tanınan Əlauddin Əli ibn Əbul-Həzm əl-Qərəşidir. (Prof. Dr. Mehmet Bayrakdar, İslam'da Bilim ve Teknoloji Tarihi, Türkiye Diyanet Vakfı Yayınları, 2007, Ankara, s. 256)

"Mücəzül-Qanun" adlı məşhur əsərində İbn Nəfis bir çox tibbi açıqlamalar etmişdir. Əsərində, xüsusilə ürəyin və tənəffüs yollarının anatomiyasını tədqiq edərək ağciyərlərin quruluşunu və funksiyasını aşkar etmiş, kapillyarların varlığını sübut etmişdir. (Kalender Yıldız, Müslüman İlim Öncüleri, Işık Yayınları, 2005, İstanbul, s. 138.) Əsərin ən əsas xüsusiyyəti İbn Nəfisin kiçik qan dövranını XVI əsrdə Mişel Servetusdan 3 əsr əvvəl eynilə onun kimi təsvir etməsidir. O dövrə qədər klassik inanc anatomiyada septumun (bir orqanın iki ayrı bölməsini bir-birindən ayıran ayırıcı pərdə və ya divar) keçirici olduğunu düşünürdü. İbn Nəfis isə septumun keçirici olmadığı fikrini irəli sürmüşdür. Belə ki, sonrakı əsrlərdə septumun keçirici olmadığı müşahidələrlə sübut edilmişdir. (A.g.e, s. 138.) İbn Nəfis, şübhəsiz, bu əhəmiyyətli kəşfi ilə tibb tarixinin ən böyük şəxsiyyətlərindən olmuşdur. Bundan başqa, İbn Nəfis gözün quruluşu ilə görmə hadisəsini tədqiq edərək, bunu müasir şəkildə aşkar etmişdir.

İBN BATUTA

İbn Batuta (1303-1378)

Böyük səyyah olan Batuta səyahət etdiyi yerlərdə yaşadığı və gördüyü hər şeyi dəftərinə qeyd etmişdir.

Batuta iki il ərzində üç qitəyə etdiyi səyahətdə gördüklərini qələmə almışdır. Onun səyahətlərində toplanan məlumatlar Marko Polonun səyahətində əldə edilənlərdən qat-qat artıqdır. Batutanın ölümündən 500 il sonra şərqşünaslar onun səyahətləri ilə maraqlanmağa başlamış və kitabını latın, ingilis, fransız və alman dillərinə tərcümə edərək hadisələri şərh etmişlər.

İbn Haldun (1331-1406)

İBN HALDUN

İbn Haldun sosiologiya elminin banisi hesab edilir. Təcrübələri və öyrəndikləri nəticəsində 5 ay qədər qısa müddətdə yazdığı "Tarixin əhəmiyyəti haqqında müqəddimə" adlı əsəri təkcə sosiologiyanın deyil, bütün sosial elmlərin əsasını qoyan kitab olmuşdur.

Sosiologiyaya dair dünyanın ən tanınmış kitablarından birinə çevrilərək "İbn Haldunun müqəddiməsi" kimi tarixə düşmüşdür. Bu kitabda bəşəriyyət tarixinə təsir edən sosial həqiqətlərdən bəhs edilir. (Süleyman Feyyaz, Toplumbilimin Babası İbn Haldun, Anka Yayınları, 2003, İstanbul s. 38.) İlk həqiqət "tarix filosofu" kimi qəbul edilən İbn Haldun tarix fəlsəfəsini ilk dəfə olaraq tarixi hadisələrə əsaslandırmışdır.

QADIZADƏ RUMİ

Qadızadə Rumi (1337-1421)
[Musa Paşa ibn Məhməd ibn Qadı Mahmud Əfəndi]

Riyaziyyat, astronomiya və fiqh alimi Qadızadə Rumi Səmərqənddə Əmir Teymurun nəvəsi Uluq bəyin müəllimi olmuşdur. (Prof. Dr. Mehmet Bayrakdar, İslam'da Bilim ve Teknoloji Tarihi, Türkiye Diyanet Vakfı Yayınları, 2007, Ankara, s 249) Uluq bəy də müəllimi Qadızadəyə böyük dəyər verib, onun üçün mədrəsə və rəsədxana tikdirmişdir. Qadızadə Rumi bu rəsədxanada apardığı müşahidələr nəticəsində qədim yunan alimlərinin əldə etdiyi bir çox məlumatların səhv olduğunu müəyyən etmişdi. Astronomik cədvəllərin yenidən tərtib edilməsi ilə ciddi məşğul olmuşdu. Buna görə də Qadızadədən dövrünün ən ciddi və əsl astronomu kimi bəhs edilir.

Qadızadə Ruminin ən diqqətçəkən fəaliyyətlərindən biri də sinus 1-i hesablamasıdır. (Büyük Larousse Sözlük ve Ansiklopedisi, Milliyet, Interpress Basın ve Yayıncılık AŞ., 1986, Levent, s. 6166)

"Risalə fi istihrac il-cəyb dərəcə vahidə" (Birinci dərəcədən çıxarma haqqında risalə), *"Şərh-i əşkal ut-təsis"* (Eşkal üt-təsis açıqlaması), *"Muxtəsər fi'l hisab"* (Hesabın xülasəsi) kimi əhəmiyyətli əsərləri vardır. Fətulla Şirvani və Əli Quşçu kimi məşhur alimlər də Qadızadə Ruminin tələbələrindəndi.

Mahmud Şirvani (1375-1450)

Osmanlı tibbinin ilk həkimlərindən biri kimi qəbul edilən Şirvani yaşadığı dövrdə 11 əsər qələmə almış və bütün əsərlərini dövrünün dövlət xadimlərinə həsr etmişdir. (Prof. Dr. Aykut Kazancıgil, Osmanlılarda Bilim ve Teknoloji, 1999, İstanbul, s. 41-42)

Fateh Sultan Məhmətə həsr etdiyi son əsəri və əsərləri arasında ən əhəmiyyətlisi olan *"Mürşid"* Osmanlı tibbində göz xəstəliklərinə aid ən böyük əsər kimi tanınır. (A.g.e, s. 43)

Yazdığı başqa bir əsər *"Tuhfe-i Muradi"* isə ehtiva etdiyi məlumatlara görə, Anadoluda yazılan ilk tibb əsərləri siyahısına salınmışdır. Kitab, əslində, qiymətli daşlardan bəhs etsə də, bu daşların tibdə istifadəsini izah etdiyinə görə, tarixçilər tərəfindən tibb kitabı kimi qəbul edilir. (A.g.e, s. 43)

Şirvaninin əsərlərinin 4-ü ərəb, 6-sı türk dilində qələmə alınmışdır. İlkin dövr Osmanlı tibbində bu qədər yaradıcı ikinci tibb yazıçısı yoxdur. (A.g.e, s. 44)

Şərafəddin Sabunçuoğlu (1386-1470)


ŞƏRAFƏDDİN SABUNÇUOĞLU

Osmanlı dövründə tibb elminin inkişaf etməsində bu alimin əsərlərinin böyük təsiri olmuşdur. Sabunçuoğlunun türk dilində qələmə aldığı və ilk cərrahiyyə kitabı olan *"Cərrahiyyət əl-haniyyə"* cərrahi əməliyyatları ilk dəfə miniatürlə göstərdiyi üçün tibb tarixində çox məşhur olmuşdur. (A.g.e, s. 96)

Zöhrəvinin kitabını təkmilləşdirərək yazdığı *"Kitabül-Təsrif"*də alətlərlə bərabər əməliyyatların necə aparıldığını göstərən şəkillər də vardır. Dərmanlarla bağlı olan *"Mücərrəbnamə"* adlı əsəri də var. (Sevim Tekeli, Esin Kahya, Melek Dosay, Remzi Demir, Hüseyin G. Topdemir, Yavuz Unat, Ayten Koç Aydın, Bilim Tarihine Giriş, Nobel Yayın Dağıtım Ltd Şti, 1999, Ankara, s. 325)


AĞŞƏMSƏDDİN

Ağşəmsəddin (1389-1459)

Tibb, astronomiya, biologiya və riyaziyyat kimi elm sahələrində dövrünün məşhur alimi olmuşdur. Tibb ilə bağlı türkcə yazdığı *"Maddətül-həyat"* (Həyat maddəsi) və ərəbcə yazdığı *"Həll-i müşkilat"* (Çətinliklərin həlli) və *"Risalət-ün nuriyə"* (Nur risaləsi) adlı təsəvvüf kitabları məşhur əsərlərindəndir. (Prof. Dr. Mehmet Bayrakdar, İslam'da Bilim ve Teknoloji Tarihi, Türkiye Diyanet Vakfı Yayınları, 2007, Ankara, s. 245)

"Maddətül-həyat" adlı əsərində: *"Xəstəliklərin insanlarda bir-bir ortaya çıxdığını düşünmək səhvdir. Xəstəliklər insan-dan insana yoluxma yolu ilə keçir. Bu yoluxma*

gözlə görünməyəcək qədər kiçik, ancaq canlı toxumlar vasitəsilə olur", - deyərək bundan beş yüz il əvvəl mikrobu tərif etmişdir. (Sosyal Bilimler Enstitüsü Dergisi, Yıl:2003/1, sayı:14, s. 17) Pasterin texniki alətlərlə Ağşəmsəddindən dörd əsr sonra gəldiyi nəticəni dünyaya ilk dəfə xəbər verən Ağşəmsəddin sərətan (xərçəng) xəstəliyi ilə də məşğul olmuşdur.

Sultan II Murad və II Məhmətə yaxınlığı ilə tanınan Ağşəmsəddinin hazırladığı dərmanlarla sarayda və saray ətrafında bir çox xəstələrini sağaltdığı məlumdur. Ağşəmsəddinin son dərəcə əhəmiyyətli iki böyük tibbi əsəri hələ də tibbi ədəbiyyatda əhəmiyyətini qoruyub saxlayır.

Uluğ Bəy (1393-1449)

[Muhəmməd Tarağay]

ULUĞ BƏY

Xüsusilə astronomiya və riyaziyyat elmlərinə maraq göstərən Uluğ Bəy gənc yaşına baxmayaraq, yaşadığı dövrdə elmi fəaliyyətlərə əhəmiyyət vermiş və 1417-ci ildə astronomiya sahəsində fəaliyyətlərini genişləndirmək üçün mədrəsə tikdirmişdir.

Əl-Kaşi (onluq kəsri kəşf edən müsəlman riyaziyyatçı) (Süleyman Feyyaz, Matematiğin Babası Harizmi, Anka Yayınları, 2003, İstanbul, s. 34) və Qadızadə Rumi kimi dövrünün ən məşhur elm adamlarını bu mədrəsədə toplayan Uluğ Bəyin 0.8 kəsrə qədər doğru olan dəqiq sinus və kosinus cədvəlləri və sferik triqonometriya formulları ilə bağlı çalışmaları vardır.

Qərb elm adamlarının XV əsrin ən böyük astronomu kimi qəbul etdikləri Uluğ Bəy astronomiya sahəsində fəaliyyətlərinin əsasını təşkil edən triqonometriya elmi sahəsində geniş fəaliyyət göstərmiş və böyük əsəri *"Uluğ Bəy Zici"*ni yazmışdır. Ptolomeydən sonra ilk ətraflı ulduz cədvəli olan *"Uluğ Bəyin Ulduzlar Cədvəli"* XVII əsrə qədər astronomik fəaliyyətlərin mənbəyi olmuşdur. Bu əsərdə 1022 ulduzun adı və mövqeyi göstərilmişdir. Con Qrivz bu kitabın bir hissəsini 1648-ci ildə Oksfordda çap etdirmişdir. İki il sonra Londonda birinci bölməsi çap edilmiş, sonra ikinci dəfə nəşr edilmiş və 1665-ci ildə latın dilinə tərcümə edilmişdir. Daha sonra əsər bütövlükdə fransız dilinə tərcümə edilmişdir. (Kalender Yıldız, Müslüman İlim Öncüleri, Işık Yayınları, 2005, İstanbul, s. 176-177.) Bundan başqa, Səmərqənd rəsədxanasındakı tədqiqatlar o dövrə qədər qəti şəkildə qəbul edilən Ptolomeyin hesablamalarındakı bəzi səhvləri də ortaya çıxarmışdır. (A.g.e, s. 175)

Rəsədxanadakı müşahidələr nəticəsində əldə edilən faktlar Uluğ Bəyi olduqca doğru şəkildə bir ilin uzunluğunu 365 gün, 5 saat, 49 dəqiqə, 15 saniyə olaraq hesablamasını təmin etmişdir. Uluğ Bəyin elm dünyasına digər xidmətləri isə Günəş, Ay və planetlərlə bağlı əldə etdiyi faktlardır. (A.g.e, s. 176) Qərb elm dünyası Uluğ Bəyə "XV Əsr Astronomu" adını layiq görmüş, Beynəlxalq Astronomiya Dərnəyi də Ay səthindəki bir kraterə onun adını vermişdir. (A.g.e, s. 178)

ƏLİ QUŞÇU

Əli Quşçu (1403-1474)
[Quşçuzadə Əlauddin Əbul-Qasim Əli ibn Muhəmməd]

Türk-İslam dünyasının astronomiya və riyaziyyat alimləri arasında ərsəyə gətirdiyi əsərlər ilə böyük şöhrət qazanmış Əli Quşçu astronomiyanın qabaqcıl alimlərindən biri olaraq qəbul edilir. Xüsusilə bu iki sahədə dövrünün sərhədlərini aşacaq qədər əhəmiyyətli təlim və təhsil sahələrində fəaliyyətləri olmuşdur.

Fateh Külliyyəsində bir günəş saatı düzəldən Əli Quşçu İstanbulun en və uzunluq dairəsinin dərəcəsini müəyyən etmişdir. (Dr. Aykut Kazancıgil, Osmanlılarda Bilim ve Teknoloji, 1999, İstanbul, s. 92) Ayın ilk xəritəsini tərtib edən Quşçunun adı dövrümüzdə Aydakı bir əraziyə verilmişdir.

Əli Quşçunun astronomiya ilə bağlı ən böyük əsərlərindən biri *"Risalə-i fil Heyə"*dir (Astronomiya risaləsi). (Dr. Aykut Kazancıgil, Osmanlılarda Bilim ve Teknoloji, 1999, İstanbul, s. 93) Riyaziyyat və astronomiya sahəsində dərin iz qoyan bu əsərdə göy cisimlərinin Yerdən uzaqlıqlarına qədər bütün elmi təfərrüatı vardır. Fars dilində yazılmış, sonra isə ərəb dilinə tərcümə edilmiş, qərb elminin Türkiyəyə daxil olmasından sonra da astronomiya sahəsində üstünlük verilən bir kitab olmuşdur.

Riyaziyyat sahəsindəki böyük əsəri *"Risalə-i hisab"*dır (Arifmetika risaləsi). Bundan başqa, dövrünün ən qabaqcıl riyaziyyat məlumatlarını ehtiva edən *"Şərhi zic-i Uluğ Bəy"* (Uluğ Bəyin ulduz kataloqu) adlı əsəri xidmətləri ilə şöhrət qazanmışdır. (Yeni Türkiye, Mayıs Haziran 2005, Yıl: 6, Sayı:33, s. 675)

"Risalətül-fəthiyyə" adlı əsəri isə XIX əsrdə İstanbul Mühəndisxanasında (İstanbul Texniki Universiteti) dərslik kimi istifadə edilmişdir. Bu əsərdə göy cisimlərinin Yerdən uzaqlıqlarına yer vermiş, bundan başqa, Yerin xəritəsini də kitabının sonuna əlavə etmişdir. Burada Yer kürəsinin oxunun maililiyini 230 30' 17" kimi müəyyən etmişdir. Bu, dövrümüzün müasir astronomik rəqəmlərinə (230 27') olduqca yaxın bir qiymətdir.

Molla Lütfi (?-1495)
[Lütfullah ibn Qutbəddin Həsən ə-Tokadi əl-Hənəfi]

XV əsrin məşhur riyaziyyatçılarından sayılan Molla Lütfi *"Təzifül-məzbəh"* (Mehrab daşının iki mislinin tapılması haqqında) adlı kitabında kvadrat və kubun tərifləri, tərəflərin və üzlərinin hasili və ikinci qüvvətə yüksəldilməsi kimi həndəsi mövzulardan bəhs etmiş və məşhur Delos məsələsini tədqiq etmişdir.

(Sevim Tekeli, Esin Kahya, Melek Dosay, Remzi Demir, Hüseyin G. Topdemir, Yavuz Unat, Ayten Koç Aydın, Bilim Tarihine Giriş, Nobel Yayın Dağıtım Ltd Şti, 1999, Ankara, s. 311-312.)

Mukbilzadə Mümin (XV əsr)

Osmanlı dövrünün önəmli alimlərdən biri də II Murad dövründə yetişmiş və iki əhəmiyyətli əsər yazmış Mukbilzadə Mümindir. Mümin göz xəstəlikləri mövzusu ilə xüsusi olaraq maraqlanan Şirvani ilə birlikdə ilk Osmanlı həkimlərindəndir.

Yazıçının ilk əsəri padşaha ithaf edilmiş *"Zahire-i Muradiyə"*dir. İkinci əsəri *"Miftahün-nur"* və *"Hazainüs-sürur"* da eyni şəkildə padşaha ithaf edilmiş əhəmiyyətli tibb kitabıdır. Kitabda diaqnoz və sağlamlıq haqqında ümumi şəkildə bəhs edildikdən sonra, göz xəstəliklərinə dair təfərrüatlar izah edilir. (Dr. Aykut Kazancıgil, Osmanlılarda Bilim ve Teknoloji, 1999, İstanbul, s. 65-66.) Bu önəmli əsərdə baş və kəllə quruluşu və xəstəlikləri, göz xəstəlikləri, göz qapağı narahatlıqları, konyuktivit (göz qapağı selikliki qişasının iltihabı) və gözün buynuz qişasının iltihabı kimi xəstəliklərin ətraflı şəkildə tərifi verilir, xəstəliklərin qarşısının alınması üçün tədbirlər və çarələr izah edilir. (Büyük Larousse Sözlük ve Ansiklopedisi, Milliyet, Interpress Basın ve Yayıncılık AŞ., 1986, Levent, s. 8451)

Osmanlılarda bütün Daruşşəfa vəqflərindəki həkim siyahılarında Mukbilzadə Müminin adının mütləq olması dövrünün son dərəcə önəmli həkimi olduğunu sübut edir, eyni zamanda, o dövrdə göz xəstəliklərinə verilən diqqəti də əks etdirir.

Mirim Çələbi (?-1525)

[Mahmud ibn Məhməd Mirim Çələbi]

MİRİM ÇƏLƏBİ

Əsl adı Mahmud bin Məhməd olan Mirim Çələbi XVI əsr Osmanlı Türkiyəsinin ən qabaqcıl astronom və riyaziyyatçılarındandır. İstanbulda doğulmuş, mədrəsələrdə oxumuş və Bəyazidin şahzadəliyi dövründə müəllimlik etmiş və vacib vəzifələrdə çalışmışdır. Əli Quşçudan sonra Osmanlı dövründə həndəsənin inkişafı üçün ən çox çalışan şəxs Mirim Çələbi olmuşdur. Riyaziyyata və astronomiyaya dair bir çox əsərlər yazmış, *"Şifaəl-əsqam və dəv'əl-aləm"* və *"Kitab əl-ta'alim fi't-tibb"* adlı iki ərəbcə əsəri Osmanlı tibbinin inkişafında böyük rol oynamışdır.

Qadızadə və Əli Quşçunun nəvəsi olan Çələbinin ən böyük əsərlərindən biri *"Uluğ Bəyin Zici"*nə *"Dusturul-əməl"* və *"Tashihul-cədvəl"* (İşin prinsipi və cədvəlin düzəldilməsi) adlı farsca yazdığı şərhdir. (Sevim Tekeli, Esin Kahya, Melek Dosay, Remzi Demir, Hüseyin G. Topdemir, Yavuz Unat, Ayten Koç Aydın, Bilim Tarihine Giriş, Nobel Yayın Dağıtım Ltd Şti, 1999, Ankara, s. 315) Yazıçı əsərdə mövzuları müxtəlif yollarla izah etmiş, məsələn, 1 dərəcəlik əyri xəttin sinusunu hesablamaq üçün çox anlaşıqlı şəkildə 5 müxtəlif həll yolunu göstərmişdir.

Riyaziyyat və astronomiya ilə bağlı bir çox risaləsi vardır. Mirim Çələbi

Osmanlı dövlətində astronomiya və riyaziyyat elmlərinin inkişaf etməsi üçün ən çox çalışan müsəlman alimlərdəndir.

SEYDİ ƏLİ İBN HÜSEYN

Seydi Əli ibn Hüseyn (1498-1563)

Seydi Əli Rəis kimi tanınan Seydi Əli ibn Hüseyn bir çox dəniz səfərində, xüsusilə müharibələrdə iştirak etmiş, sonra Barbaros Xeyrəddin Paşanın xidmətində qulluq etmiş, astronomiya sahəsində mütəxəssis və böyük dənizçi olmuşdur. (Dr. Aykut Kazancıgil, Osmanlılarda Bilim ve Teknoloji, 1999, İstanbul, s. 137)

Seydi Əli Rəisin dəniz astronomiyası və coğrafiyasını, həqiqətən, çox yaxşı bilən alim olduğunu göstərən ən əhəmiyyətli əsəri *"Kitabül-Muhit"*dir. Əsərdə istiqaməti müəyyən etmə, zaman hesabı, təqvim, Günəş və Ay zamanları, kompas bölmələri, müxtəlif adaların və məşhur limanları qütb ulduzuna hündürlükləri, astronomiyaya aid bəzi məlumatları, küləklər, hərəkət yolları, böyük fırtınalar və bunlara qarşı görüləcək tədbirlər kimi vacib mövzular yer alır. Mövzulardan da məlum olduğu kimi, *"Muhit"* son dərəcə elmi və vacib əsərdir. (A.g.e, s. 138.)

Seydi Əli Rəis, eyni zamanda, Əli Quşçunun məşhur əsəri *"Fəthiyyə"*ni *"Xulasatul-Heyə"* adı altında tərcümə etmiş və əlavələr etmişdir. Göyləri sayarkən astronomiya terminləri istifadə etmiş, aləmin mərkəzinin yerin mərkəzi olduğunu və ağır cisimlərin yerin mərkəzinə doğru düşdüklərini əlavə etmişdir. (A.g.e, s. 139.)

Yazıçı digər əsəri *"Mirati-kainat"*da isə Günəşin hündürlüyü və ulduzların yerləri, qiblənin və günorta vaxtının müəyyən edilməsi, dairə çevrələrinin, sinus, xorda və tangenslərin tapılması və qarşı tərəfinə keçmək mümkün olmayan çayın enini ölçmə üsulu kimi mövzularda məlumat verir. Sahəsinə dair bir çox vacib biliklər vermiş və özündən sonra çox dəyərli əsərlər qoymuş üstün bir dənizçi və astronomdur. (A.g.e, s. 139.)

Təqiyuddin (1521-1585)
[Təqiyuddin Məhməd ibn Məruf əl-Hənəfi əl Dımışqi]

TƏQİYUDDİN

XVI əsrin ən böyük astronomlarında biridir. Dövlətdən vəzifə almaq üçün Qahirədən İstanbula gəlmiş, riyaziyyat elmindəki ustalığına görə Sultana tanıdılmış və onun böyük yardımı ilə rəsədxana qurmuşdur. (Kalender Yıldız, Müslüman İlim Öncüleri, Işık Yayınları, 2005, İstanbul, s. 170) İstanbul rəsədxanasını quran Təqiyuddin göy cisimləri ilə bağlı ölçmə aparmaq üçün istifadə etdiyi doqquz mahir alət düzəltmiş və bunlar XVI əsrin ən mükəmməl

müşahidə cihazları olmuşdur. Bu cihazlardan biri olan "libnə" ulduzların meridiandan keçmələrini müşahidə etmək üçün istifadə edilən divar saatıdır. Bu alətlə o dövrdə göy cisimlərinin ekvatorial koordinatlarının hesablanması mümkün olmuşdur.

Təqiyuddinin ən əhəmiyyətli əsəri *"Sidrətül-müntəha"*dır. Bu əsərdə Günəşin parametrləri üç müşahidə nöqtəsi üsulundan istifadə etməklə hesablanmışdır. Təqiyuddin Tayko Brahe və Kopernikdən başqa dünyada bu üsulu istifadə edən üçüncü şəxsdir. Oxşar nəticələrə gəlmələrinə baxmayaraq, Təqiyuddin Günəşin parametrləri ilə bağlı hesablamaları XVI əsrdəki ən doğru hesablamalar kimi tarixə düşmüşdür.

Təqiyuddin əsərlərində saatlardan astronomik alət kimi bəhs etmişdir. (A.g.e, s. 173.) Bu saatların ən əsas xüsusiyyəti dəqiq şəkildə dəqiqə və saniyəni hesablamasıdır. Avropada dəqiqə və saniyəni göstərən saatın düzəldilmə tarixi Təqiyuddinin bu mexanizmdən bəhs etməsi ilə eyni dövrə təsadüf edir.

Təqiyuddin *"Xaridətüd-dürər və Fəridətül-fikr"* (İncilər topluluğu və görüşlərin incisi) adlı kiçik bir astronomik cədvəlində onluq kəsrlərdən istifadə etmiş və bu barədə məlumat vermişdir. Başqa sözlə, onluq kəsrlər Avropaya məlum olmasından çox əvvəl Təqiyuddin tərəfindən sadəcə tanıdılmamış, hətta istifadə də edilmişdir. (Sevim Tekeli, Esin Kahya, Melek Dosay, Remzi Demir, Hüseyin G. Topdemir, Yavuz Unat, Ayten Koç Aydın, Bilim Tarihine Giriş, Nobel Yayın Dağıtım Ltd Şti, 1999, Ankara, s. 315-318.) Təqiyuddinin optika sahəsindəki fəaliyyətləri də optika elminin təməl biliklərini təşkil etmişdir. Optika elmində əldə etdiyi yüksək səviyyə XVII əsrə qədər qərbdə aktuallığını qoruyan mübahisələrlə paralel davam etmişdir. (A.g.e, s. 318.) Bütün bunları nəzərə alaraq Təqiyuddinin dünyada ilkləri həyata keçirən alimlərdən biri olduğu açıq şəkildə görünür.



Təqiyuddin, 16 -cı əsrin böyük astronomlarından biridir. Düzəltdiyi vasitələr bu əsrin ən mükəmməl müşahidə vasitələri sırasındadır. Solda Təqiyuddin tərəfindən izlənən Quyruqlu bir Ulduz, sağda isə yenə Təqiyuddin tərəfindən qurulan rəsədxananın şəklini görürük.

KATİB ÇƏLƏBİ

Katib Çələbi (1609-1657)

İstanbullu Katib Çələbi həm elmlə məşğul olmuş, həm də dövlət xadimlərinin uşaqlarına xüsusi dərs vermişdir. Ərəb, fars, latın dillərini bilən Katib Çələbinin əsərləri bir çox xarici dillərə tərcümə edilmişdir. Ən vacib əsəri olan *"Kəşfüz-Zünun"* 10000 İslam yazıçısının 14500 əsərini bir-bir sadalayan biblioqrafiya lüğətidir. Türkcə yazılmış coğrafiya kitablarının ən önəmlisi olan *"Cihannüma"*, çox dəyərli Osmanlı tarixi kitabı olan *"Fəzləkə"*, Türk-Osmanlı dənizçilik tarixini əks etdirən *"Tuhfətül-Kibar"* və dünya tarixindən bəhs edən *"Təqvimüt-Təvarih"* çox məşhur əsərlərindəndir.

(Dr. Aykut Kazancıgil, Osmanlılarda Bilim ve Teknoloji, 1999, İstanbul, s.168-169.)

Coğrafiya və astronomiya sahəsindəki *"Cihannüma"* adlı əsərində Yerdəki 5 qitəni 6 yerə bölmüş və hər biri haqqında ümumi məlumatlar vermişdir. (Avropa, Asiya, Amerika, Avstraliya və qütblər). Əsərdə Yerin kürə şəklində olduğunun sübutu üçün müxtəlif dəlillər göstərilmiş və Yaponiyadan Ərzuruma qədər bilinən bütün bitkilər və heyvanlar haqqında məlumat verilmişdir. *"Cihannüma"*, eyni zamanda, Osmanlıların üç qitədəki hakimiyyəti, şəhər və qəsəbələri haqqında heç bir yerdə olmayan dəyərli məlumatları ehtiva edən ilk və yeganə sistemli coğrafiya kitabıdır.

(A.g.e, s.168-169.)

Hezarfən Əhməd Çələbi (XVII əsr)

HEZARFƏN ƏHMƏD ÇƏLƏBİ

Quşların uçuşunu tədqiq edərək hazırladığı qanadların davamlılıq dərəcəsini ölçmək üçün Qalata qülləsindən özünü havaya buraxaraq qanadlarını hərəkət etdirən Əhməd Çələbi boğazı keçmiş və Üsküdar tərəfdə enmişdir. Özü düzəltdiyi qanadlar ilə uçmağı bacaran ilk insanlardan biri olması və hərtərəfli biliyinə görə, xalq arasında "1000 elm" mənasını verən "Hezarfən" ləqəbi ilə tanınır.

Hazarfən Əhməd Çələbi bugünkü hava nəqliyyatı vasitələrinin bəsit formasını hazırlamış və türk aeronavtika tarixinin vacib simalarından olmuşdur. (Kalender Yıldız, Müslüman İlim Öncüleri, Işık Yayınları, 2005, İstanbul, s. 159.)

YEKUN

Din insanlara kainat və onları əhatə edən həyat haqda ən dəqiq məlumatları verən mənbədir. Ancaq "inam" dedikdə biz, əslində, yeganə etibar edəcəyimizi nəzərdə tuturuq. Bu, Qurandır. Çünki başqa müqəddəs kitablar insanlar tərəfindən təhrif edilmişlər və onlar hazırkı şəkillərində İlahi vəhyin müstəsnalığını və toxunulmazlığını itiriblər.

Yalnız Quran Allahın dəyişilməz sözüdür. Onda ziddiyyətlər yoxdur. Bu kitab Allah-təalanın bəndələri üçün yolgöstərəndir:

Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki,
Biz də onu qoruyub saxlayacağıq! (Hicr surəsi, 9)

Bu ayədə Allah bizə Quran ayələrinin həqiqiliyi və Özünün onların dəyişilməzliyini qoruduğu haqda xəbər verir. Buna görə də əgər elm Quranın göstərdiyi, Yaradanın əvvəlcədən müəyyən etdiyi yolla getsə, o, daha böyük sürətlə inkişaf etməyə başlayacaq. Əgər alimlər dinə zidd olan yola üstünlük verəcəklərsə, bu, onlar üçün yalnız zaman və mənasız material itkisi demək olacaq. Bu halda isə insan biliyinin inkişafı ləngiyəcək. Elmin digər sahələrdə olduğu kimi, ardınca getməli olduğu yeganə düzgün yol Allahın Quranda qeyd etdiyi yoldur. Əmr edildiyi kimi:

Həqiqətən, bu Quran ən doğru yola yönəldir, yaxşı işlər görən
möminlərə böyük bir mükafata nail olacaqları ilə müjdə verir!
(İsra surəsi, 9)

İÇİNDƏKİLƏR:

GİRİŞ — 1
NECƏ BİR DÜNYADA YAŞAYIRSINIZ? — 1
MADDƏNİN ƏSLİ — 3
ƏSRLƏR BOYU MÜZAKİRƏ EDİLƏN SUAL: MADDƏNİN ƏSL MAHİYYƏTİ NƏDİR? — 4
ELEKTRİK SİQNALLARINDAN İBARƏT OLAN KAİNAT — 5
NECƏ GÖRÜRÜK, NECƏ EŞİDİRİK, NECƏ DADIRIQ? — 6
BEYNİMİZİN İÇİNDƏ YARANAN "XARİCİ DÜNYA" — 9
XARİCİ DÜNYA OLMADAN DA HİSSLƏR DÜNYASI MEYDANA GƏLƏBİLƏR — 11
YUXULARDA YAŞADIĞIMIZ "HİSSLƏR DÜNYASI" — 12
DÜNYA CHƏYATININ BEYNİMİZDƏKİ ƏKSİ İLƏ TƏMASDA OLDUĞUMUZ TEXNİKİ HƏQİQƏTLƏR — 14
GÖRƏN GÖZLƏRİMİZ DEYİL, GÖRÜNTÜ BEYNİMİZDƏ ƏMƏLƏ GƏLİR — 15
QAPQARANLIQ BEYNİNİZİN İÇİNDƏ AYDIN VƏ RƏNGARƏNG GÖRÜNTÜ NECƏ MEYDANA GƏLİR? — 18
İŞIQ DA BEYNİMİZDƏ ƏMƏLƏ GƏLİR — 18
RƏNGLƏR DƏ BEYNİMİZDƏ ƏMƏLƏ GƏLİR — 20
BÜTÜN SƏSLƏRİ BEYNİMİZDƏ EŞİDİRİK — 22
İNSANLAR MADDƏNİN ƏSLİNİ GÖRDÜKLƏRİNİ ZƏNN ETSƏLƏR DƏ, BEYNİMİZDƏN KƏNARDA İŞIQ, SƏS, RƏNG YOXDUR, SADƏCƏ ENERJİ VAR — 23
BÜTÜN QOXULAR BEYİNİN İÇİNDƏ MEYDANA GƏLİR — 25
BÜTÜN DADLAR BEYİNDƏ ƏMƏLƏ GƏLİR — 28
TOXUNMA HİSSİ DƏ BEYİNDƏ ƏMƏLƏ GƏLİR — 28
BEYNİMİZDƏ ƏMƏLƏ GƏLƏN DÜNYANIN ƏSLİ İLƏ ƏSLA TƏMASDA OLA BİLMƏRİK — 30
UZAQLIQ HİSSİ DƏ BEYİNDƏ ƏMƏLƏ GƏLİR — 33
BEYİNDƏKİ KİÇİK DÜNYA — 37
XARİCİ ALƏMDƏ İŞIQ YOXDUR — 38
GÖRƏN, GÖZ DEYİL — 39
XARİCİ ALƏM İLƏ SİZİN ARANIZDAKI ÜÇ MƏRHƏLƏLİ DİVAR — 41
ÖZ BƏDƏNİMİZ VƏ YUXULARIMIZ — 43
QÜLLƏNİN ZİRVƏSİNDƏKİ KİÇİK ADAM — 46
QÜLLƏ VƏ ZİRVƏSİNDƏKİ BAĞLI OTAQ — 48
QÜLLƏYƏ İNANMAĞIN AXMAQLIĞI — 51
HİSS VƏ VƏHM MƏRTƏBƏSİNDƏ YARADILMIŞ OLAN MADDƏ — 51
MATERİALİZM: DÜNYA HƏYATININ HƏQİQİ ZƏNN EDİLƏN ZAHİRİ ŞƏRHİ — 52
MƏKAN MƏFHUMUNUN ORTADAN QALXMASI — 53
ALLAHIN TƏYİN ETDİYİ SƏBƏB – NƏTİCƏ ƏLAQƏLƏRİ — 56
SİZ OTAĞIN İÇİNDƏSİNİZ, YOXSA OTAQ SİZİN İÇİNİZDƏDİR? — 57

SÜNİ ŞƏKİLDƏ ƏMƏLƏ GƏTİRİLƏN DÜNYALARA DİGƏR NÜMUNƏLƏR — 58
HİPNOZUN GÖSTƏRDİYİ VACİB HƏQİQƏT — 59
BÜTÜN BU HİSSLƏRİ YAŞAYAN KİMDİR? — 61
BU GÖRÜNTÜLƏRİ RUHUMUZA TAMAŞA ETDİRƏN KİMDİR? — 63
MATERİALİZMİN DÜŞDÜYÜ ƏN BÖYÜK ÇIXILMAZ VƏZİYYƏTLƏRDƏN BİRİ: İNSAN ŞÜURU — 64
MATERİALİSTLƏRƏ SUALLAR — 66
HƏQİQİ MÜTLƏQ VARLIQ — 67
SAHİB OLDUĞUNUZ HƏR ŞEY ƏSLİNDƏ XƏYALDIR (Maddənin Əslini Bilmək Dünya Ehtirasını Ortadan Qaldırar) — 69
MATERİALİSTLƏRİN MƏNTİQ POZĞUNLUQLARI — 72
YUXU NÜMUNƏSİ — 73
SİNİRLƏRİ PARALEL BAĞLAMA NÜMUNƏSİ — 74
HİSSLƏRİN BEYİNDƏ MEYDANA GƏLDİYİ FƏLSƏFƏ DEYİL, ELMİ HƏQİQƏTDİR — 75
MATERİALİSTLƏRİN BÖYÜK QORXUSU — 76
MATERİALİSTLƏR TARİXİN ƏN BÖYÜK TƏLƏSİNƏ DÜŞMÜŞLƏR — 78
MADDƏNİN HƏQİQƏTİ NƏ ÜÇÜN VACİB MÖVZUDUR? — 82
MADDƏNİN HƏQİQƏTİ TƏK MÜTLƏQ VARLIĞIN ALLAH OLDUĞUNU GÖSTƏRİR — 83
İNSANLARIN ETDİKLƏRİ DƏ ALLAHA AİDDİR — 86
MADDƏNİN HƏQİQƏTİNİN DƏRK EDİLMƏSİ İNSANLARI İMAN GƏTİRMƏYƏ YÖNLƏNDİRƏCƏKDİR — 88
MADDƏNİN HƏQİQƏTİNİ BİLMƏK DÜNYA HƏVƏSİNİ YOX EDİR — 89
BEYİNDƏ BİR GÖRÜNTÜ OLARAQ GÖRÜNƏN FABRİK, YAXTA VƏ TORPAQLARIN BOŞ YERƏ ÖZLƏRİNİ ÜZƏN SAHİBLƏRİ — 91
MADDƏNİN HƏQİQƏTİNİ DƏRK EDƏNLƏRİN İTƏN TƏKƏBBÜRÜ — 95
BU HƏQİQƏT DÜNYAYA HƏVƏSLƏ BAĞLANANLARI QORXUDUR — 96
SIXINTI VƏ ÇƏTİNLİKLƏR DƏ YUXUDA GÖRÜLƏN XƏYALLAR KİMİDİR — 97
MADDƏNİN HƏQİQƏTİ AŞKARA ÇIXDIQDA ƏMƏLƏ GƏLƏN MÜHİT — 98
MADDƏNİN HƏQİQƏTİNİN BİLİNMƏSİ MATERİALİZMİN SONUDUR — 99
GÖRDÜYÜMÜZ, TOXUNDUĞUMUZ, HİSS ETDİYİMİZ HƏR ŞEY ATOMLARDAN MEYDANA GƏLMİŞDİR (Atomun Meydana Gəlmə Macərası) — 105
ATOMUN QURULUŞU — 111
NÜVƏ — 111
ATOMDAKI BOŞLUQ — 113
NÜVƏNİN İÇİ: PROTON VƏ NEYTRONLAR — 114
KAİNATDAKI MÜXTƏLİFLİYİN QAYNAĞI — 114
FİZİKİ VARLIĞIN SƏRHƏDİ - KVARKLAR — 114
ATOMUN DİGƏR TƏRƏFİ: ELEKTRONLAR — 116

ELEKTRONLARIN ORBİTİ — 119
DALĞAMI, ZƏRRƏCİKMİ? — 120
ELEKTRONLARIN DİGƏR BİR FUNKSİYASI: RƏNGLƏR — 121
ZƏRRƏCİKLƏRİN PROQRAMLAŞDIRILMIŞ HƏRƏKƏTİ — 125
MADDƏYƏ GEDƏN İKİNCİ PİLLƏ: MOLEKULLAR — 127
KİMYƏVİ ƏLAQƏLƏR — 127
CANLI HƏYATININ TƏMƏL ELEMENTİ: KARBON ATOMU — 129
YAN-YANA GƏLƏN HƏR ATOM DƏRHAL REAKSİYAYA GİRSƏYDİ NƏ OLARDI? — 130
MÖCÜZƏVİ BİR MOLEKUL: SU — 131
SUYUN KİMYA QANUNLARINI ALT-ÜST EDƏN XÜSUSİYYƏTİ — 134
QORUYUCU TAVAN: OZON — 135
DADDIĞIMIZ VƏ QOXULADIĞIMIZ MOLEKULLAR — 136
MADDƏNİ NECƏ QAVRAYIRIQ? — 137
CANLANAN ATOMLAR — 140
ZAMAN DA HİSSDİR — 147
ZAMAN BİR ANI DİGƏR AN İLƏ MÜQAYİSƏ ETDİKDƏ ORTAYA ÇIXAN MƏFHUMDUR — 147
ZAMANIN HİSS OLMASI BARƏSİNDƏ ELM ADAMLARININ DÜŞÜNCƏLƏRİ — 148
ZAMANIN NİSBİ ANLAYIŞ OLDUĞU QURANDA BİLDİRİLMİŞDİR — 152
ZAMANIN NİSBİLİYİ QƏDƏR (TALE) HƏQİQƏTİNİ DƏ AÇIQLAYIR — 153
KEÇMİŞ ANLAYIŞI HAFİZƏMİZDƏKİ MƏLUMATLARA GÖRƏ ƏMƏLƏ GƏLİR — 154
KEÇMİŞ VƏ GƏLƏCƏK QEYB XƏBƏRİDİR — 156
QƏDƏRƏ TƏSLİMİYYƏTİN ƏHƏMİYYƏTİ — 156
MATERİALİSTLƏRİN NARAHATLIĞI — 163
İNANANLARIN QAZANCI — 164
MATERİALİZM TƏNƏZZÜLƏ UĞRAYIB YOX OLMUŞDUR — 165
Bir Dövrün Xurafatı: Materializm — 165
Materializmi Elmi Cəhətdən Yox Edən Kəşf: Kvant Fizikası — 170
Elektronların Dalğa Xüsusiyyəti və Bunun Elmi Sübutu — 175
Maddənin Mütləq Olduğu İddiası, Materializmlə Birlikdə Yox Oldu — 178
ALLAHIN SONSUZ YADDAŞI VƏ İNSANIN MƏHDUD YADDAŞI — 180
"LÖVHİ-MƏHFUZ" — 181
SONSUZLUQ İÇİNDƏ İNSANLAR — 182
BÜTÜN HADİSƏLƏR "BU AN"DA REALLAŞIR! — 184
KEÇMİŞ, İNDİ VƏ GƏLƏCƏK ƏSLİNDƏ EYNİ ZAMANDIR — 186
ÖZ HƏYATINIZ DA BİR ANDIR — 187
ÖLÜM İNSAN ÜÇÜN YOX OLMAQ DEYİLDİR — 189
HEYVANLARIN DA HƏYATLARININ HƏR ANI QEYDLİDİR — 191

ÇİÇƏKLƏR SOLUB İTMƏZ, MEYVƏLƏR YOX OLMAZ — 193
AXAN SU DA BOŞA GETMƏZ — 197
GERİYƏ DÖNMƏK DƏ MÜMKÜNDÜR — 198
BU MƏLUMATIN VERDİYİ BÖYÜK MƏSULİYYƏT — 199
NÜMAYİŞDƏ OLAN BİR ÇOX FİLMLƏRDƏ SORĞULANAN HƏQİQƏT SANDIĞIMIZ DÜNYA VƏ GÖRÜB-HİSS ETDİKLƏRİMİZ — 201
MATRİKS (THE MATRİX) — 202
VİRTUAL HƏQİQƏT VƏ ELEKTRİK SİQNALLARINDAN İBARƏT OLAN DÜNYA — 203
XƏYALLARLA HƏQİQƏTLƏR ARASINDAKI AYIRD EDİLMƏYƏN BƏNZƏRLİK — 207
HİSSLƏRİMİZİN HƏQİQİ OLMASI XARİCİ DÜNYADA MADDİ QARŞILIQLARI OLDUĞUNU SÜBUT EDƏ BİLMƏZ — 209
GÖRÜNÜŞDƏKİ KEYFİYYƏT, AYRINTILARDAKI ZƏNGİNLİK SİZİ ALDATMASIN! — 211
FİZİKA QANUNLARI DA HİSSLƏRİMİZİN BİR AÇIQLAMASIDIR — 212
BEYNİMİZİN İÇİNDƏKİ GÖRÜNÜŞLƏRİN XARİCİNƏ ÇIXA BİLMƏRİK — 215
GÖRƏN GÖZLƏRİMİZ DEYİL, GÖRÜNÜŞ BEYNİMİZDƏ MEYDANA GƏLİR — 217
BÜTÜN LƏZZƏTLƏR BEYİNDƏ MEYDANA GƏLƏR — 219
BÜTÜN QOXULAR DA BEYİNİN İÇİNDƏ YARANAR — 221
HAL-HAZIRDA BİR YUXUDA OLMADIĞINIZI NECƏ İSBAT EDƏ BİLƏRSİNİZ? — 222
ZAMANSIZLIQ HƏQİQƏTİ — 225
XATİRƏLƏRİNİZ DƏ ƏSLİNDƏ BİR XƏYALDIR — 227
BU HƏQİQƏTİN BİZİ APARDIĞI FÖVQƏLADƏ NƏTİCƏ — 228
13-CÜ MƏRTƏBƏ (THE THIRTEENTH FLOOR) — 231
SİMULYASİYA MÜHİTİ VƏ ALDADICI HƏQİQƏT — 233
XARİCDƏ İŞIQ YOXDUR — 235
BEYNİNİZDƏ İYLƏDİYİNİZ ÇİÇƏKLƏR — 238
YAŞADIQLARINIZIN HƏQİQİ OLDUĞU HİSSİNİ BİLMƏYİNİZ ÜÇÜN XARİCİ DÜNYANIN VARLIĞI ŞƏRT DEYİLDİR — 239
XƏYAL İÇİNDƏ XƏYAL GÖRMƏK — 243
SƏRT KRALLIQ (HARSH REALM) — 246
HƏR İNSAN ÖZ EKRANIYLA, YƏNİ RUHUNA GÖSTƏRİLƏN GÖRÜNÜŞLƏRLƏ TƏMASDADIR — 247
İNSANIN BƏDƏNİ DƏ HİSSLƏRİNİN BİR ŞƏRHİDİR — 249
ZEHNİMİZDƏKİ GÖRÜNÜŞLƏRİN XARİCİ DÜNYANIN ƏSLİ OLDUĞUNA İNANAN İNSAN ALDANMIŞ OLAR — 251
BAŞLANĞICI VƏ SONU MÜƏYYƏN EDİLMİŞ BİR FİLMİ İZLƏMƏK — 256
AĞRI, ACI KİMİ HİSSLƏR DƏ BEYNİMİZDƏKİ HİSSLƏRİN ŞƏRHİNDƏN BAŞQA BİR ŞEY DEYİLDİR — 260
VANİL SƏMA (VANILLA SKY) — 263

YUXU HƏQİQİDİR, YOXSA HƏYAT? 263
ƏSLİNƏ ÇATA BİLMƏYƏCƏYİMİZ BİR DÜNYANIN TAMAŞAÇISI OLDUĞUNUZU UNUTMAYIN 268
HƏQİQƏTƏ ÇAĞIRIŞ (TOTAL RECALL) 273
SƏYAHƏT EDƏN BİR KİMSƏ ƏSLİNDƏ KİLOMETRLƏRİ BEYNİNDƏ QƏT EDƏR 274
BEYNİMİZDƏKİ VİRTUAL DÜNYA 276
YADDAŞIMIZDAKI MƏLUMATLAR DA XƏYALLARIMIZDAN QALAN XATİRƏLƏRDİR 278
TOXUNMA HİSSİ MADDƏNİN ƏSLİNƏ ÇATDIĞINIZA BİR DƏLİL OLA BİLMƏZ 280
HƏQİQƏTİNDƏN FƏRQSİZ HOLOQRAM GÖRÜNÜŞLƏR 282
BİR GÜN YUXUDAN OYANDIĞINIZ KİMİ, BU HƏYATDAN DA OYANA BİLƏCƏYİNİZİ HEÇ DÜŞÜNDÜNÜZMÜ? 283
HƏYATINIZI YUXULARINIZ KİMİ TAM FƏRQLİ BİR YERDƏ İZLƏYİR OLA BİLƏRSİNİZ 284
HƏQİQİ HƏYATIMIZLA YUXULARIMIZ ARASINDAKI BƏNZƏRLİK MUSİQİ DÜNYASINDA 285
MADDƏNİN ƏSLİ MÖVZUSUNDA ELMİ İNKİŞAFLAR 287
Holoqram Bir Dünyadamı Yaşayırıq? 287
Elm Adamları Süni Siqnallarla İtirilən Duyğuları Yenidən Qazandırırlar 287
Eyni xəbərdə maraqlı bir hadisədən də belə bəhs edilirdi: 289
Elmi Jurnallar Filmlərdə İşlənən Simulyasiya Dünya Ssenarilərinin Həqiqi Həyat Üçün Də Mümkün Ola Biləcəyini İfadə Edirlər 289
MADDƏNİN ARDINDAKI HƏQİQƏT 291
3 GÜNLÜK QARŞILIQLI SÖHBƏT HALINDA KEÇƏN GÖRÜŞ 292
1 - Cİ GÜN 293
2 - Cİ GÜN 306
3 - CÜ GÜN 320
MADDƏNİN HƏQİQƏTİ MÖVZUSUNA GƏLƏN ETİRAZLARA CAVABLAR 327
Etiraz: "Yolda avtobus gördükdə əzilməmək üçün qaçırsınız. Deməli, avtobus var. Əgər beyninizdə görürsünüzsə, niyə qaçırsınız?" 329
Etiraz: "Bütün cisimləri beynimdə gördüyüm doğrudur, ancaq bunların hamısının xəyali görüntü olmasına inana bilmirəm." 331
Etiraz: "Bıçağı əlimə sürtdükdə, əlimdə hiss etdiyim ağrı, əlimdən axan qan görüntü deyil. Həm də bunu yanımdakı dostum da gördü." 332
Etiraz: "Maddənin zehnimizdə gördüyümüz xəyalı ilə təmasda olduğumuzu söyləmək İslam dininə uyğundur?" 333
Etiraz: "Hər şeyin xəyalı ilə təmasda oluruqsa, Allahın bəzi sifətlərini necə açıqlaya biləcəyik?" 335

Etiraz: "Bu, keçmişdə idealistlərin irəli sürdüyü köhnə fəlsəfədir." 337
DÜNYANI BEYNİMİZDƏ NECƏ GÖRDÜYÜMÜZ MÖVZUSU BİR FƏLSƏFƏ DEYİL 337
MADDƏNİN ƏSLİ MÖVZUSU TEXNİKİ HƏQİQƏTDİR 338
Etiraz: "Maddənin həqiqəti mövzusu vəhdəti-vücud düşüncəsi ilə eynilik təşkil edir?" 339
Etiraz: "İnsan xəyal olduğunu bildiyi şeyi necə sevər? Hər şeyin zehnimizdə əmələ gələn xəyal olduğunu qəbul etsək, anamızı, atamızı, dostlarımızı, Peyğəmbərimizi necə sevərik?" 339
Etiraz: "İnsan sevdiklərinin də özü kimi həqiqi və daimi olmasını istəyir." 342
Etiraz: "Kainatın hisslərin cəmi olması nəticəsinə gəlmək kainatın necə işlədiyini araşdırmağı, yəni elmi tərk etməyə gətirib çıxarır." 344
Etiraz: "Bir tərəfdən Allahı iman həqiqətləri ilə açıqlayarkən, digər tərəfdən Onun varlıq dəlili kimi təqdim etdiyi varlıq aləminin yox olduğunu demək ziddiyyət deyilmi?" 346
Etiraz: "Bu açıqlamalar qəbul edildikdə, haram və halal qavrayışları qalmır." 347
Etiraz: "Bütün insanlar hər hansı bir ağac gördükdə, onun yarpaqlarına yaşıl deyirlər. Hər kəs bu ağacı eyni cür tərif etdiyinə görə, deməli, bu ağac sadəcə mənim zehnimdə deyil." 348
Etiraz: "Mənimlə birlikdə üç nəfər bağda gəzir və üçümüz də eyni ş eyləri görürük. Hamımızın zehnində gördükləri bir-birinin eynisidirsə, onda zehnimizdəki görüntülərin xəyal olduğunu necə deyə bilərik?" 349
Etiraz: "Xarici aləmi olduğu kimi qavrayırıq, ona görə də davranışlarımızda hər hansı bir anormallıq yoxdur. Məsələn, uçurumun kənarında düz yolda olduğu kimi düz yerimirik. Uçurumu görüb dayanırıq." 351
Etiraz: "Allahın bizə bu görüntülərə tamaşa etdirməsinin məqsədi bizi imtahan etməkdir. Bəs hərəkətlərin yaradıcısı olan Allah nə üçün belə bir imtahan mühiti yaratmışdır?" 351
Etiraz: "Bu danışılanlardan başa düşdüyümüz kimi, ölümdən sonra da xəyallarla təmasda olacağıq. Xəyallarla təmasda olmaq sonsuza qədər davam edəcək? Cənnət və cəhənnəm də görüntülərdən ibarətdir?" 352
Etiraz: Heç vaxt mütləq varlıqlar ilə üz-üzə gəlməyəcəyik? Davamlı olaraq xəyali mühitlə təmasda olduğumu bilmək məni narahat edir. 354
Etiraz: Xəyali mühitin sona çatması heçlikdir? İnsan bu heçliyin içində qala bilərmi? 355
Etiraz: Beynindən kənarda mövcud olan dünya ilə əsla təmasda olmayacağını anlayan insan üçün dünya həyatındakı imtahan davam edir? 356
Etiraz: Allahın hər yerdə olduğunu söyləmək doğrudur? Allahın hökmranlığı göylərdə deyil? 356
MÜBAHİSƏLƏRİN YURDU CƏHƏNNƏM 357
HƏQİQƏTLƏRDƏN QAÇMAQ OLMAZ 360
DARVİNİSTLƏR NƏLƏRİ DÜŞÜNMÜRLƏR? 363
TƏKAMÜL NƏZƏRİYYƏSİ SAXTAKARLIQDIR 371
TƏKAMÜL NƏZƏRİYYƏSİ HƏLƏ BAŞLANĞIC MƏRHƏLƏSİNDƏ İFLASA UĞRAYIB 371
TƏKAMÜL NƏZƏRİYYƏSİ GƏLƏCƏKDƏ DƏ TƏSDİQ OLUNMAYACAQ 372
ALLAH HƏR ŞEYİ ÖZ İSTƏDİYİ KİMİ YARADIR 373

ALLAHIN DƏLİLLƏRİNİ GÖRƏ BİLMƏK ÜÇÜN "AĞIL SAHİBİ" OLMAQ LAZIMDIR 374
DİN ELMƏ İLHAM VERİR 375
ALLAHA İMAN GƏTİRƏN ELM ADAMLARI 377
KEÇMİŞDƏ YAŞAMIŞ ALLAHA İNANAN ALİMLƏR 379
Rocer Bekon (1220-1292) 379
Frensis Bekon (1561-1626) 380
Qalileo Qaliley (1564-1642) 381
İohann Kepler (1571-1630) 382
Yohannes Baptista von Helmont (1579-1644) 383
Blez Paskal (1623-1662) 383
Con Rey (1627-1705) 384
Robert Boyl (1627-1691) 385
Antoni van Levenquk (1632-1723) 386
İsaak Nyuton (1642-1727) 387
Con Flemstid (1646-1719) 390
Con Vudvard (1665-1728) 390
Karl Linney (1707-1778) 390
Jan Delyuk (1727-1817) 390
Ser Uilyam Qerşel (1738-1822) 390
Uilyam Peyli (1743-1805) 391
Verner Heyzenberq (1901-1976) 392
Robert Endryus Milliken (1868-1953) 392
Artur Şavlov (1921-1999) 394
Nikolay Kopernik (1473 - 1543) 395
Rene Dekart (1596-1650) 396
Volter (1694-1778) 396
İmmanuil Kant (1724-1804) 397
Herman Hesse (1877-1962) 398
Con Reley Mott (1865-1955) 398
Corc Küvye (1769-1832) 399
Hemfri Devi (1778-1829) 399
Adam Secviq (1785-1873) 399
Maykl Faradey (1791-1867) 400
Semyuel Morze (1791-1872) 400
Cozef Henri (1797-1878) 401
Lui Aqassis (1807-1873) 401
Ceyms Preskott Coul (1818-1889) 401
Corc Qabriel Stouks (1819-1903) 402

Rudolf Virxov (1821-1902) 402
Qreqori Mendel (1822-1884) 403
Lui Paster (1822-1895) 403
Lord Kelvin (Uilyam Tomson) (1824-1907) 404
Cozef Con Tomson (1856-1940) 405
Ser Uilyam Haggins (1824-1910) 406
Ceyms Klerk Maksvell (1831-1879) 407
Con Stratt (1842-1919) 407
Corc Vaşinqton Karver (1865-1943) 408
Ser Ceyms Cins (1877-1946) 408
Albert Eynşteyn (1879-1955) 409
Corc Lemetr (1894-1966) 412
Ser Elister Hardi (1896-1985) 412
Verner fon Braun (1912-1977) 413
Maks Plank (1858-1947) 414
Çarlz Koulson (1910-1974) 416
KEÇMİŞDƏ YAŞAMIŞ DİGƏR ALLAHA İNANAN ALİMLƏR 417
GÜNÜMÜZÜN ALLAHA İNANAN ALİMLƏRİ 419
Doktor Henri Frits Şefer 419
İsaak Başevis Zinger 419
Professor Malkolm Daneken Uintis 421
Uilyam Fillips 422
Professor Deil Svartzendruber 424
Uilyam Dembski 424
Professor Stiven Meyer 425
Professor Uolter F. Bredli 425
Professor İrl Çester Reks 426
Doktor Allan Sendeyc 426
Professor Sesil Boys Hamann 426
Professor Pol Ernest Adolf 427
Professor Laster Con Zimmerman 427
Enriko Medi 427
Professor Ueyn Ault 428
Professor Maykl P. Girouard 428
Professor Edvard Budro 429
Professor Kennet Kamminq 429
Professor Karl Flirmans 429
Professor Devid Menton 430

Professor Con Morris 430
Artur Pikok 431
Professor Albert Makkombs Vinçester 431
Mehdi Qolşani 431
Professor Edvin Faust 432
Çarlz Hard Tauns 432
Con Polkinqorn 434
Hyu Ross 434
Professor Dr. Dueyn Giş 435
Dr. Pyer Qunnar Cerlstrom 435
Dr. Stiven Qrokott 435
Dmitri Kuznetsov 435
Dr. Emil Silvestru 436
Dr. Andre Eggen 436
Dr. Yan Makredic 436
Professor Endryu Konvey Ayvi 437
Dr. Raymond Couns 437
Culs H. Poyrir 437
Maykl C. Behe 438
Filipp Conson 438
Çarlz Birç 439
S. Coselin Bell Burnell 439
Professor Ouen Ginqeriç 440
Professor Karl Fridrix von Veizsaker 440
Professor David Berlinski 440
Professor Uilyam Leyn Kreyq 441
Dr. Kurt Vays 441
Siqrid Hartviq Şerer 442
C. P. Morland 442
Pol A. Nelson 442
Professor Conatan Uells 443
Dr. Don Batten 443
Dr. Con Baumqardner 443
Professor Dr. Donald Çittik 444
Dr. Verner Gitt 444
Dr. Qeri E. Parker 444
Dr. Marqaret Helder 445
Professor Dr. Conatan D. Sarfati 445

Professor Robert Metyus 445
Dr. Klod Tresmontant 446
Dr. Don Peyc 446
Dr. Endryu Snellinq 446
Dr. Karl Viland 447
GÜNÜMÜZÜN İNANAN DİGƏR ELM ADAMLARI 448
MÜSƏLMAN ELM ADAMLARI 450
Cabir ibn Həyyan (721-805) 452
Əl-Xarəzmi (780-850) 453
Sabit ibn Qurra (821-901) 454
Fərqani (IX əsr) 455
Əl-Bəttani (859-929) 456
Əbul-Qasim Zöhrəvi (936-1013) 457
İbn Heysəm (965-1040) 459
Biruni (973-1051) 460
İbn Sina (980-1037) 462
Xəzini (1100-1160) 464
İbn Rüşd (1126-1198) 465
Bədiüzzaman Cəzəri (1136-1206) 465
İbn Baytar (1199-1248) 467
Nəsrəddin Tusi (1200-1273) 468
Əl-Qəzvini (1203-1283) 469
İbn Nəfis (1213-1288) 470
İbn Batuta (1303-1378) 470
İbn Haldun (1331-1406) 471
Qadızadə Rumi (1337-1421) 471
Mahmud Şirvani (1375-1450) 472
Şərafəddin Sabunçuoğlu (1386-1470) 472
Ağşəmsəddin (1389-1459) 472
Uluğ Bəy (1393-1449) 473
Əli Quşçu (1403-1474) 474
Molla Lütfi (?-1495) 474
Mukbilzadə Mümin (XV əsr) 475
Mirim Çələbi (?-1525) 475
Seydi Əli ibn Hüseyn (1498-1563) 476
Təqiyuddin (1521-1585) 476
Katib Çələbi (1609-1657) 478
Hezarfən Əhməd Çələbi (XVII əsr) 478

YEKUN 479

Oxuyacağınız bu kitab, həyatın ÇOX ƏHƏMİYYƏTLİ bir sirrini ehtiva etməkdədir. Maddi dünyaya baxış aspektinizi kökdən dəyişdirəcək olan bu kitabı, çox diqqətli bir şəkildə və anlayaraq oxumalısınız.

Burada izah edilənlər yalnız bir dünyagörüşü, fərqli bir yanaşma və ya hər hansı bir fəlsəfi düşüncə deyil; dinə inanan-inanmayan hər kəsin qəbul edəcəyi, bu gün elmin də sübut etdiyi qəti bir həqiqətdir.